

# ZİYA BÜNYADOV

## DİNLƏR TƏRİQƏTLƏR MƏZHƏBLƏR

AZƏRBAYCAN DİLİ VƏ TARİXİ

86.3 Ə 2
13-97

# ZİYA BÜNYADOV

# DİNLƏR TƏRİQƏTLƏR MƏZHƏBLƏR

108496

2498

M.S.Ordubadi adına
Naxçıvan Muxtar Respublikası
KİTABXANASI

ŞƏRQ-QƏRB

BAKI 2007

*Bu kitab "Ziya Bünyadov. Dinlər, təriqətlər, məzhəblər" (Azərbaycan nəşriyyatı, Bakı, 1977) nəşri əsasında təkrar nəşrə hazırlanmışdır*

**ISBN 978-9952-34-094-5**

**200.3-dc22**
Din – Lüğətlər

**Ziya Bünyadov. Dinlər, təriqətlər, məzhəblər.**
Bakı, "Şərq-Qərb", 2007, 336 səh.

Bu ensiklopedik soraq kitabı akademik Ziya Bünyadovun son elmi əsərlərindəndir. Görkəmli şərqşünas alim və ictimai xadim, Ziya Bünyadovun bu əsərində ilk dəfə olaraq dinlər, təriqətlər, məzhəblər, tarixi din xadimləri və s. haqqında çox qiymətli məlumatlar verilir.

© "Şərq-Qərb", 2007

## ÖN SÖZ

Oxuculara təqdim edilən bu soraq kitabı həyatımızın mənəvi tələbatından doğur. İndiyədək xalqımız dinlər, məzhəblər, təriqətlər, dini əfsanələr, tarixi din xadimləri və s. haqqında məlumatları yalnız marksizm-leninizm ateist məfhumu nöqteyi-nəzərindən yazılmış və dəsturlaşmış kitab, broşüra və məqalələrdən öyrənə bilərdi. Əlbəttə, bu yazıların hamısı qəsdli və qərəzli idi. Nəşr olunan müxtəlif "Ateist soraq kitabları" oxuculara yalan məlumatları verməklə, onları həqiqətdən uzaqlaşdırır, çaşdırır və azdırırdı. Bu iş üçün Sov.İKP nəzdində olan və onun birbaşa göstərişləri ilə çalışan böyük kollektivlər canfəşanlıq göstərirdilər. Məqsəd – əhalini dindən uzaqlaşdırıb, laqeyd saxlamaq idi.

İndi xalq öz dininə qayıdır, lakin xalqın dininə, imanına qayıtması üçün nə dərsliklər, nə elmi ədəbiyyat, nə soraq kitabçaları, nə də başqa vəsait vardır.

Buna görə də ateizm deyilən məfhumdan ayrılıb dinlər, məzhəblər və təriqətlərlə tanış olmaq və ibtidai bilik almaq üçün sanballı və dəyərli məlumat verən kitaba ehtiyac duyulur.

Belə bir kitabı yazmaq çox çətin işdir, lakin buna baxmayaraq çalışdım ki, müasir oxucumuz dünyanın bütün dinləri, məzhəbləri və təriqətləri, dini şəxsiyyətlər və dinlə bağlı olan məsələlər haqqında qısa da olsa, məlumatlarla tanış olsun. Əlbəttə, üstünlük islam dünyasına verilir. Bu məlumatları toplamaq üçün müxtəlif ensiklopediyalardan, soraq kitablarından və xüsusi tədqiqatlardan geniş istifadə olunub.

Bu kitab həmin sahədə ilk təşəbbüsdür və ola bilər ki, oxucuların bəzilərini tamamilə qane etməsin.

İnşallah, gələcək nəsil daha kamil nəşrlərlə buraxdığımız çatışmazlıqları aradan qaldırar.

Kitaba "Allah", "Quran", "Məhəmməd" və "Mötəzilə" məqalələrini təqdim edən professor Hacı Vasim Məmmədəliyevə təşəkkürümü bildirirəm.

Ayrıca şükranlarımı Gülarə xanım Əmirovaya çatdırıram.

***Akademik Ziya Bünyadov***
*Bakı, 1993-1995*

# ÖN SÖZ

Oxuculara təqdim edilən bu soraq kitabı həyatımızın mənəvi tələbatından doğur. İndiyədək xalqımız dinlər, məzhəblər, təriqətlər, dini əfsanələr, tarixi din xadimləri və s. haqqında məlumatları yalnız marksizm-leninizm ateist təfəkkürü nöqteyi-nəzərindən yazılmış və dramlaşmış kitab, məqalə və məqalələrdən öyrənə bilərdi. Əlbəttə, bu yazıların hamısı qəsdli və qərəzli idi. Nəşr olunan müxtəlif "Ateist soraq kitabları" oxuculara yalnış məlumatları verməklə, onları həqiqətdən uzaqlaşdırır, çaşdırır və azdırırdı. Bu iş üçün Sov.İKP nəzdində olan və onun birbaşa göstərişləri ilə çalışan böyük kollektivlər canfəşanlıq göstərirdilər. Məqsəd – əhalini dindən uzaqlaşdırıb, imansız saxlamaq idi.

İndi xalq öz dininə qayıdır. Lakin xalqın dinini, imanını öyrənməsi üçün nə dərsliklər, nə dini ədəbiyyat, nə soraq kitabçaları, nə də başqa vəsait vardır.

Buna görə də ateizm deyilən mətbuatdan ayrılıb dinlər, məzhəblər və təriqətlərlə tanış olmaq və onlar barədə bilik almaq üçün mötəbər və dəyərli məlumat verən kitaba ehtiyac duyulur.

Belə bir kitabı yazmaq çox çətin işdir. Lakin buna baxmayaraq çalışdım ki, müasir oxucumuz dünyanın bütün dinləri, məzhəbləri və təriqətləri, dini şəxsiyyətlər və dinlə bağlı olan məsələlər haqqında qısa da olsa, məlumatlarla tanış olsun. Əlbəttə, üstünlük İslam dünyasına verilir. Bu məlumatları toplamaq üçün müxtəlif ensiklopediyalardan, soraq kitablarından və xüsusi tədqiqatlardan geniş istifadə olundu.

Bu kitab həmin sahədə ilk təşəbbüsdür və ola bilər ki, oxucuların bütün istəklərini tamamilə ödəməsin.

İnşallah, gələcək nəşri daha kamil nəşrlərdə buraxdığımız çatışmazlıqları aradan qaldırar.

Kitaba "Allah", "Quran", "Məhəmməd" və "Məscid" məqalələrini təqdim edən professor Hacı Vasim Məmmədəliyevə təşəkkürümü bildirirəm.

Ayrıca şükranlarımı Gülarə xanım Quliyevaya çatdırıram.

Akademik Ziya Bünyadov
Bakı, 1993–1995

# A

**ABBAS**, əl-Abbas ibn Abdəl-Müttəlib – Peyğəmbərin əmisi. Peyğəmbərdən üç və ya iki yaş böyük idi. Tacir idi. Qardaşları Əbu Talib və Abdullahdan fərqli olaraq böyük sərvət sahibi idi. Faizlə borc pul verirdi. Ona saqilikdən (həccə gedənlərə su paylamaq) haqq almaq ixtiyarı verilmişdi. Onun haqqında deyilən rəvayətlərə yoxlanılmamış etimad edilməməlidir, çünki Abbasilərin tərəfdarları onun şan və şərəfini ucaltmaq üçün bir çox hədislər uydurmuşdular. Peyğəmbərin Məkkədə olduğu müddətdə Abbasın dini hərəkata müxalif olmağını göstərən rəvayətlər də var. Bununla bərabər Abbas Peyğəmbərə kəskin düşmən olanların işlərində iştirak etməyib. Abbas Mədinədə hicri 32 (652-653)-ci ildə vəfat edib. Abbasilər xəlifələri onun oğlu Abdullahın nəslindəndir.

**ABBAT** (*sur.* abba – ata, *lat.* abbas) – Qərbi Avropada V əsrdən başlayaraq əsasən benediktinlilər, sonralar isə başqa katolik monaxlar (rahiblər) ordenləri (cəmiyyətləri) monastırları başçılarının adıdır. Erkən orta əsrlərdə abbatların çoxu iri feodallardan olub, yepiskoplardan sonra kilsə rəhbərləri rütbəsinə qalxırdılar. Bəzi hallarda yepiskopların tabeliyindən çıxıb birbaşa Roma papasına tabe olurdular. Bəzən abbat katolik kilsəsi keşişlərinin və yüksək rütbəli məmurlarının ümumi adı kimi qəbul olunur.

**ABBATLIQ** – katolik monastırların mülkü. Erkən orta əsrlərdə bu mülklər bəxşedilmə adı ilə zəbt edilmiş torpaqlar və kəndlər hesabına geniş və iri feodal mülkiyyətinə çevrilirdi. Abbatlıqlar əksər hallarda ətraf əhalinin istismarı hesabına ömür sürüb varlanırdılar. Qərbi Avropa abbatlıqlarının çoxu dini və zehni həyatın iri mərkəzlərinə çevrilib (təsis olunan məktəblər vasitəsilə) çox vaxt orta əsrlərin ictimai-siyasi və iqtisadi həyatında mühüm rol oynayırdılar. XVI əsrdən etibarən abbatlıqlar öz əhəmiyyətlərini itirməyə başlamışdı. Lakin bunların sayı hələ də az deyil və hələ də katolik ideologiyasının təbliği ilə məşğuldurlar.

**ABDƏST** (*fars.* abdast, *ər.* vüzu') – yüngül çirklənmədən (hədəs-i əsğər) (b a x: həbəs) yüngül təmizlənməyə (təharət-i suğra) deyilir. Şeytanlarda, şər ruhlarda və hər şeydə bir ruh olduğuna inananların (animist) fikirlərinə əsaslanan təharətin dini üsul və qaydaları ərəblərə qədim samilərdən qalma bir miras kimi məlum olsa da, Peyğəmbərin vaxtında artıq tətbiq edilmirdi. Hər halda Quranın Mədinədə son nazil olan surələrindən abdəstin qaydalarını ehtiva edən V (əl-Maidə) surəsinin 6 ayəti İsrail ənənələrinin davamını göstərir: "Ey iman gətirənlər! Namaza durduğunuz zaman üzünüzü və əllərinizi dirsəklərinizə qədər yuyun, [yaş əlinizi] başınıza məsh edin (çəkin), ayaqlarınızı topuqlarınıza qədər yuyun".

Qurana görə hər dəfə namazdan əvvəl ərkan şərtləri ilə bir abdəst alınması qayda kimi qoyulur. Bu tələb zahirilər və şiələr tərəfindən məcburi olaraq hər namazda tətbiq edilir.

Fiqhə görə **hədəs-i əsğər** bu hallarda olmalıdır: 1. Kişi və qadın dərilərinin bir-birinə toxunması (cinsi əlaqə **hədəs-i əkbəri** tələb edir), hətta bu iki şəxs, aralarında evlənmə imkanı olmayan əqrəbadan (məhrəm) olsalar belə; 2. **Dəfi hacət**; 3. Özündəngetmə və yuxu (oturduğu yerdə yuxulamaq yox); 4. Tənasül üzvlərinə toxunma və bəzi başqa hallarda (İmam Şafeiyə görə).

Şafei məzhəbinə görə abdəstin ərkanları bunlardır: 1. Üzü yumaq; 2. Əlləri dirsəklərə qədər yumaq; 3. İslanmış əllə başı məsh etmək; 4. Ayaqları yumaq; 5. Bu ardıcıllığı mühafizə etmək; 6. Abdəstə başlamazdan əvvəl niyyət etmək. Ümumiyyətlə, abdəst almaq vaxtı iki dəqiqədən çox sürməz.

Abdəst almağa məxsus su da olmalıdır. Əgər müsəlman abdəst almağa saleh su tapmazsa, ya da xəstəlik və ya yarasına görə abdəst almazsa, üzünün, əl və qollarının qum və ya toz ilə məshi kifayətdir (b a x: **təyəmmüm**). Məscidlərin və başqa namazgahların yanında abdəst almaq üçün müslüklər və şadirvanlar vardır.

**ABDO MƏHƏMMƏD** (1849-1905) – müsəlman islahatçılığının (**reformasiya**) görkəmli ideoloqu. Misirin baş müftisi, hökumət qəzetinin baş redaktoru, Qanunverici Şuranın üzvü olub, Qahirədəki əl-Əzhər universitetində mühazirələr oxuyub. Panislamizm ideyalarının yayılmasında Camaləddin əl-Əfğaninin qeyrətli arxadaşı idi. Milli-azadlıq hərəkatına kömək edirdi, lakin sonralar Misirdə ingilis müstəmləkəçiliyinin qəti tanınmasının tərəfdarı olub. Feodal ideologiyasını və İslam təşkilatlarını burjua sosial-iqtisadi münasibətlərə uyğunlaşdırmağa səy göstərərək, dini mərasimlərin sadələşməsinə çağırır, islam ehkamlarını əqli baxımdan izah edir, **tale** haqqında nəzəriyyəni rədd edərək, təbiətin və cəmiyyətin inkişafının qanunauyğunluğunu ancaq "ilahi müdrikliyin" təzahürü kimi qəbul edirdi. Öz fəlsəfi və sosioloji görüşlərində O.Kontun və H.Spenserin ideyalarının təsirində olub. Əsas əsərləri: "Təkallahlıq haqqında traktat" (1897) və "Ehtiramlı Quranın şərhi" (1898-1905).

**ABDULLAH**, Abdallah ibn əl-Abbas, künyəsi Əbülabbas olub, – Peyğəmbərin əmisi oğlu. Əl-Buxariyə görə, özü və anası, atası Abbasdan əvvəl islamiyyəti qəbul etmişdilər. Lakin bu rəvayət Buxari tərəfindən şərti qəbul edilmişdir. Abdullah xəlifə Osman dövründə görünməyə başladı. Osmanın öldürülməsindən sonra Əlinin tərəfinə keçdi. Əli ondan daim səfir kimi istifadə edib, sonralar Bəsrəyə vali göndərdi. Bu vaxtdan sonra Abdullah haqqında rəvayətlər ehtiyatla qəbul edilməlidir, çünki Abbasilər firqəsinin mənfəətləri, ya da Abbasilər xəlifələrindən qorxu bu işdə mühüm bir rol oynamışdır.

Əli münsiflər məhkəməsinə müraciəti qəbul etməyə məcbur olduğu zaman hüququnun müdafiəsi üçün Abdullahı özünə vəkil etmək istəmişdir. Lakin onun tərəfdarları bununla razılaşmamışdılar. Abdullah hicri 68 (687-688)-ci ildə vəfat etmişdir.

**ABDULLAH**, Abdullah ibn Abd əl-Müttəlib – Peyğəmbərin atası. Onun haqqındakı qədim rəvayətlərdən alınan məlumat nöqsanlı və əfsanəvidir. Doğum tarixi Xosrov Ənuşirəvanın şahlıq dövrünün 24-cü ilinə təsadüf etdiyini (555) rəvayət edirlər. Sifətcə Qureyş qəbiləsinin kişiləri arasında ən gözəl bir adam sayılırdı. Onuncu oğlunu qurban verəcəyi haqqında atası Abd əl-Müttəlibin nəziri və bu nəzirə görə Abdullahı qurban vermək istəməsi və onun bu aqibətdən xilas olduğu haqqında olan rəvayət, on oğlunun arasında ən kiçiyinin Abdullah olduğunu aydın göstərir. Halbuki Abbas ilə qardaşı Abdullahın oğlu olan Peyğəmbər arasında yaş fərqi çox azdır. Abdullahın **Əminə** ilə evlənməsinə aid hekayə də əfsanəvi tərzdə səslənmişdir. Peyğəmbərin çox kiçik yaşlarında yetim qaldığı 93-cü surənin (əz-Zuha) ayəti ilə qətidir. Lakin Abdullahın Peyğəmbərin doğumundan qabaqmı, yoxsa az bir vaxt sonramı ölmüş olduğuna dair rəvayətlər müxtəlifdir.

Abdullah bir ticarət səfərində xəstələnib ölmüşdür. Rəvayətə görə öləndə 25 yaşında idi.

**ABDULLAH**, Abdullah ibn Cəhş – Peyğəmbərin qardaşı oğlu və ilk müsəlman olanlardan biridir. Həbəşistana hicrət edənlər arasında o da var idi; sonradan Mədinəyə gəlmişdir. Bədr və Uhud döyüşlərində iştirak edib, Uhudda şəhid olmuşdur.

**ABHİDAMMA-PİTAKA** – b a x: **Tripitaka.**

**ADƏM** (islamda) – künyəsi Əbülbəşər ("Bəşərin atası"), ləqəbi *Safi Allah* ("Allahın seçdiyi"), Kitabi Müqəddəsdəki Adam. Quranda Adəmin yaranması haqqında belə deyilir: "Biz insanı quru və qoxumuş qara palçıqdan yaratdıq" (XV, 26). Lakin mənaqiblərə görə, Allah, Cəbrayıl, Mikayıl və İsrafil adında olan mələklərin hər birinə, sıra ilə, yeddi qat yerdən yeddi ovuc torpaq gətirmək əmrini verdisə də, Yer bu torpağı verməyə razı olmamışdır. Bu vaxt Əzrayıl, eyni əmrə görə, insanı yaratmaq üçün lazım olan miqdar torpağı Yerdən zorla almışdır. Allah günlərlə yağdırdığı yağışla bu torpağı yumşaltdıqdan sonra, mələklər onu yoğurmuş və Allah ona özü şəkil vermişdir. Lakin can verməzdən qabaq, quruması üçün uzun müddət onu bir tərəfə qoymuşdur.

Quranın yuxarıda qeyd olunan ayəsindən bəhs edərkən, Məsudi Adəmin vücudunun 80 il şəkilsiz qaldığını, şəkil verildikdən sonra da 120 il ruhsuz olduğunu söyləyir. Adəm yaradıldığı vaxt, Allah mələklərə Adəmin önündə səcdə etmələrini əmr etdi. İblisdən (Şeytandan) başqa hamısı bu əmrə itaət etdilər. Bu hal həm özünün, həm də Adəmin Cənnətdən qovulması (**hubut**) ilə nəticələndi (Quran, II, 34 və s.; VII, II, XVII, 62 və s.). Adəm, Allahın nazil etmiş olduğu ilk peyğəmbərdir. Allah ona gələcəyi açaraq, özündən sonra gələcək bütün nəsilləri peyğəmbərləri ilə birlikdə göstərir. Davudun ancaq qısa bir zaman, özünün isə min il (Allahın bir günlük müddəti) yaşayacağını bildikdə, Adəm öz ömrünün qırx ilini Davuda bəxş etdi. Buna görə Adəmin ömrü 960 ilə endi. Cənnətdən qovulan Adəm Sərəndib (Seylon) adasına düşmüş və bu adada arvadından 200 il ayrı qalaraq

vaxtını tövbə və istiğfar ilə keçirmişdir (Quran, II, 37). Seylon adasında portuqalların Piko d'Adam adlandırdıqları bir dağ var. Əfsanəyə görə, bu dağdakı qayada Adəmin 70 arşın uzunluğundakı ayaqlarının izləri qalır. Cəbrayıl, işlətdiyi günahından peşman olan Adəmi Məkkə yaxınlığındakı Ərəfata gətirir və Adəm orada arvadı ilə görüşür. Təbəriyə və İbn əl-Əsirə görə, Allah, Adəmə Kəbənin inşa edilməsini əmr etmiş, Cəbrayıl da ona həcc mərasimini öyrətmişdir. Adəm aprel ayının 6-da, cümə günü vəfat edib və Əbu Qubeys dağı ətəyindəki Xəzinələr mağarasında (Mağarat əl-Kunuz) dəfn edilmişdir.

**ADƏM** (*qədim yəhudicə* torpaq, qırmızı) – Bibliyaya görə (Kövn kitabı) Allah tərəfindən yer torpağından (gildən) yaradılmış "ilk insan", **Həvva** ilə birlikdə cənnətdə yaşamış, onunla birlikdə günaha batıb və buna görə Allah tərəfindən cənnətdən qovulmuşdu. Adəm və Həvva haqqında əfsanədə ibtidai insanların və cəmiyyətin yaradılması haqqında olan sadə təsəvvürlərin inikasları cəmlənib. Bu əfsanə ola bilsin, cadugərlərin cadu üçün hazırlanan insanın gildən müqəvvasının əsasında əmələ gəlib. Qədim şumerlilər hesab edirdilər ki, Ninmax ilahəsi birinci insanları gildən düzəldib ki, onlar onu qidalandırsınlar. Qədim Misir Xnumu ilahisinə birinci insanın dulusçuluq dəzgahında yaradılmasını aid edirlər.

**ADƏMİLƏR** – taborilərin sol qanadının bir təriqətidir. Adəmilər günahsız həyata "qayıtmağı" təbliğ edirdilər və bu həyatı Adəm məhz günahına qədər sürmüşdü. Adəmilər istismar və zorakılıq əleyhinə çıxış edərək, heç bir şəxsi mülkiyyət olmayan və insanların bir-biri ilə qardaş kimi yaşadığı cəmiyyətin xülyasına qapanmışdılar və kilsə təşkilatının, ailənin əleyhinə çıxış edirdilər. Adəmilər belə fikirdə idilər ki, Allah və şeytan yalnız insanların qəlbində mövcuddur. Şəhər və kənd kasıblarını cəlb edən adəmilərin təlimi taborilərin varlı dairələrini təşvişə saldı və bunların təkidi ilə adəmilər Tabordan qovulub Klokot yaxınlığında 1421-ci ildə darmadağın edilmişdilər. Adəmilərin çoxu döyüşdə həlak oldu. Əsir düşənlərin əksəriyyəti, o cümlədən rəhbərləri P.Kaniş və M.Quska tonqalda yandırıldı.

**ADİQRANTX** (*pəncabca* ibtidai kitab) – sikxlərin 5-ci qurusu (mürəbbi, müəllim) olan Arcuna (1584-1606) tərəfindən tərtib edilmiş sikxizmin müqəddəs kitabı. Adiqrantxda sikxizmin banisi Nanakaya və ondan sonrakı üç qurulara isnad edilən kəlam və nəsihətlər toplanmışdır. Arcuna Adiqrantxa öz əsərlərinin, Kəbirin və bhakti hərəkatının başqa ideoloqlarının da əsərlərini daxil etmişdi. Axırıncı, 10-cu quru Qovind (1674-1708) Adiqrantxa öz əlavələrini də daxil edib. Onun "Onuncu istiqamətin QRANTX" adlı kitabı da var. Bu iki kitab və quruların tərcümeyi-halları sikxlərin müqəddəs ədəbiyyatını təşkil edir.

**ADONAY** (*qədim yəhudicə* ilahi) – b a x: **Yaxve.**

**ADONİS** (*finikiya dilində* adon – ağa. Qədim yəhudi dilindəki Adonay ilə müqayisə et) – finikiyalıların dinində, xüsusən, Bibl şəhərində ehtiram edilən bərəkət ilahisi idi. Burada hər il onun şərəfinə yaz şənlikləri keçirilirdi. Bay-

ramın birinci hissəsi matəm idi. Elan edilirdi ki, gənc ilahini dağlarda çöldonuzu öldürüb. Qadınlar saçlarını yolurdular, şəhəri fəğan-nalələr bürüyürdü. Məhz bu vaxt yağışların çox olmasına görə Adonis çayının suları daşır, dağların yuyulan süxurları suya qırmızı rəng verirdi və kahinlər təkid edirdilər ki, bu, öldürülmüş Adonisin qanıdır. Bayramın sonunda bəyan edilirdi ki, Adonis dirilib səmalara köçüb. Bundan sonra şənliklər daha da artırdı.

Adonisin eşqinə dibçəklərə torpaq doldurulub taxıl və gül əkilirdi və bunlara "Adonis bağları" deyilirdi. Adonis ayinini yunanlar qəbul ediblər, lakin onların əfsanələrində Adonisin sevgilisi Finikiya Astartusunu Afrodita əvəz etmişdir. Adonis haqqında olan əfsanə İsanın dirilib səmalara köçməsi haqqında əfsanənin əmələ gəlməsinə səbəb olub.

**ADVENTİSTLƏR** (*lat.* adventus – gəlmə, zühuretmə) – baptizmin əsasında yaranmış protestantizmin bir qolunun tərəfdarlarıdır. Öz nəzəriyyələrində dünyanın kosmik yanğın nəticəsində məhv olacağını və onun Allah tərəfindən ikinci dəfə yaradılmasını ön plana çəkirdilər. Adventistlərin çoxunun fikrincə, insanın canı (ruhu) ölümü ilə bir vaxt ölür (yatır) və bədənin dirilməsi ilə bir vaxt dirilir (oyanır). Adventistlərin nəzəriyyəsinə görə Qiyamət günündə bütün insanlar diriləcək və möminlər, yəni adventistlərin özləri əbədi həyatla mükafatlanacaqlar. Günahkarlar, yəni adventist olmayanlar isə həmişəlik məhv ediləcəklər. İsa öz ölümü ilə yalnız onun birinci gəlişi vaxtı yaşayan insanların günahlarını yumuşdur.

Adventistlərin dini və təşkilatları XIX əsrin 30-cu illərində ABŞ-ın xırda burjuaziyası arasında yaranmışdır. Baptist Uilyam Miller (1782-1849) 1833-cü ildə "İsanın 1843-cü il ərəfəsində ikinci gəlişi haqqında olan yazılı tarixdə dəlillər və onun min il ərzində olacaq şəxsi çarlığı haqqında" adlı kitab dərc edib İsanın "ikinci gəlişi"nin tarixini də müəyyən etmişdi: 21 mart 1844-cü il. Adventistlərin gözlədikləri İsanın bu "ikinci gəlişi" baş tutmadığı üçün, Millerin bəzi tərəfdarları "ikinci gəliş"in yeni tarixini bəyan etdilər – 22 oktyabr 1844-cü il. İkinci dəfə də pərt olandan sonra adventistlər daha "gəliş"in vaxtını göstərməyib bəyan etdilər ki, hər bir mömin dünyanın axirətinin hər gün ola biləcəyini gözləyib buna hazır olmalıdır.

Adventistlərin müxtəlif cərəyanlarından ən çoxsaylısı 1863-cü ildə öz təşkilatını yaratmış Yeddinci Günün adventistləridir. Millerin və başqalarının qabaqcadan xəbər verdikləri xoşagəlməz vəziyyətdən çıxmaq üçün Yeddinci Günün adventistləri təkid edirdilər ki, İsa 1844-cü ildə gəlmişdi. Lakin o, yer üzünə yox, "Səma sarayı"nda olan hansısa "müqəddəsliyin müqəddəs" məqamına yetişmiş, Allahın (hakim kimi) və Şeytanın (ittihamçı kimi) hüzurlarında o, möminlərin günahlarını yuyan müdafiəçi kimi çıxış edirdi. Yeddinci Günün adventistləri şənbəni bayram edib, bu gün işləməkdən boyun qaçırırlar. Bu camaat seçilən presviterlər tərəfindən idarə olunur. Camaat "zəmilərə", "zəmilər" – "union"lara, bunlar da "divizion"lara bölünürdülər. Ümumiyyətlə, Yeddinci Günün adventistlərinin

sayı iki milyondan çoxdur. Bunlar orduda xidmətdən boyun qaçırır, cəmiyyətin həyatında, həmkarlar təşkilatlarında, kooperativlərdə və s. iştirak etməkdən vaz keçirlər.

**AFİNA** (Atena) – qədim yunan əfsanəsinə görə, Zevsin kəlləsindən doğulan ilahə. Mikena dinindən əmələ gəlmiş və Qədim Yunanıstanda hər yerə yayılmış Afina ayini ölkənin polis (sığorta) sistemi ilə sıx bağlı idi. Afinaya şəhər-dövlətin, birinci növbədə, Afinanın (Afina-Pallada) hamisi kimi hörmət bəsləyirdilər. Bununla bərabər, Afinada sənətkarlığın, incəsənətin, cürbəcür biliklərin də hamisini görürdülər. Müdriklik ilahəsi kimi onun rəmzləri ilan və bayquş – Afina şəhərinin nişanı idi. Afina bakirə ilahə idi (Parfenos), elə buradan da onun ibadətgahının adı Parfenondur. Afinanın qədim Romada bənzəri Minervadır.

**AFRODİTA** (*yun.* Afrodite, hərfən – "köpükdən çıxmış") – qədim yunanların dini təsəvvürlərinə görə məhəbbət və qadın gözəlliyi ilahəsi. Ona romalıların Venerası müvafiqdir. Əfsanəyə görə o, dəniz köpüyündən doğulub (*yun.* afros – köpük). Onun kəməri xüsusi füsunkarlığa malik idi. Astarta və Şərqin başqa qadın ilahələri kimi, Afrodita təbiətin məhsuldar qüvvələrinin təcəssümü idi.

**AĞAXAN** – Pakistanda, Hindistanda, Bədəxşanda və Əfqanıstanda müsəlman ismaililər təriqətinin irsi və mütləq başçısının tituludur (ünvanı). İsmaililərin əksəriyyəti Ağaxanı canlı Allah hesab edir və ona qızılla vergi verirdilər. Ağaxanlar sülaləsinin başçısı XIII əsrdə yaşayan İran feodalı Əbül-Həsəndir. Öz mənşəyini qondarıb şiə imamları və Əlamut şeyxləri vasitəsilə Məhəmməd peyğəmbərə qədər uzadır. Ən tanınmış Ağaxan təhsilini Avropada almış və özünü adlı-sanlı ingilis əyanı kimi aparan Sultan Məhəmməd şah idi (1877-1957). O, Avropa hökumətləri hərbi dairələri ilə sıx əlaqədə olub İngiltərənin Hindistandakı müstəmləkəçiliyini dəstəkləyirdi və buna görə İngiltərə hökuməti tərəfindən ser ünvanına layiq görülmüşdü. O, "Ümumhindistan müsəlman liqası"nın birinci sədri idi. Misirdə, Asuan şəhərinin ətrafında dəfn olunub. Onun varisi öz nəvəsi Kərim xandır.

**AXIR** (*ər.* sonuncu) – Allahın adlarından (əsma-i-hüsnə) biridir. Axırıçərşənbə, Səfər ayının son çərşənbəsi. Hindistanda keçirilən müsəlman bayramıdır. Rəvayətə görə, Peyğəmbərin rahatsızlığı, son xəstəliyi o gün bir az yüngülləşmişdi. Hindistan şiələri bu günü uğursuz sayaraq qiyamət günündə İsrafil surunun üflənməsinə işarə edərək, ona çərşənbənin suri deyirlər. Bu gün xəmir şirniləri bişirilir və Peyğəmbərin ruhuna fatihələr oxunaraq üzərinə üflənir. Başqa bir adət də "7 salam", yəni Qurandan yeddi ayə (XXXVI, 58; XXXVII, 79; 109, 120, 130; XXXIX, 73; XSÜP, 5) içməkdir. Bu ayələr molla tərəfindən bir manqo yarpağına və ya bir kağız parçasına yazılaraq mürəkkəb qurumadan əvvəl yuyulur. Yumaq üçün işlənilən bu sudan kim içərsə, gələcəkdə rahat və məsul olacağından əmin olar.

**AXİMSA,** Axinsa (*sanskritcə* "şərin yetirilməməsi") – canlı məxluqları şərin yetirilməməsi; ruhların bədəndən

bədənə köçməsi və hər hansı canlı məxluqun başqasıyla tamamilə dəyişməsi haqqında nəzəriyyə ilə bağlı olan dini-etik görüş. İnduizmdə, buddizmdə və xüsusən caynizmdə Aximsa dini vəzifə səviyyəsinə qaldırılır. Caynalar ət yemir, onların ən möminləri isə yalnız süzülmüş su içir, tor vasitəsilə nəfəs alır və heç bir canlı məxluqa zərər gətirməmək üçün yolla gedərkən qabaqlarından tozu da təmizləyirlər. Aximsanın əqidəsi zülmə müqavimət göstərməkdir.

**AXUND** (hərfən – "müəllim, rəhbər") – əvvəllər Orta Asiyada, Teymurilərin dövründən sonra İranda və Azərbaycanda, çalma geyən və molladan yüksək olan üləmalara verilən və dini mənsəbi müəyyən edən ünvandır. Axund məhəllə imamlarına nəzarət edən və imamlarla müfti və Şeyx ül-islam arasında vasitə olan baş imam idi.

Axund sözü farsca "alim", "dini rəhbər" və "müəllim" mənasındadır. Bəzi tədqiqatçılar onu **a** önbaşması və **xand** (oxumaq – xandən, felindən) birləşməsindən yaranmış söz sayırlar. Hesab edirlər ki, bu sözdəki **xond** hissəsi **xudavənd** sözünün qısaldılmış şəklidir (xavənd, Mirxond, Xondmir adlarındakı xond kimi).

**AXUND AĞA ZEYNALABDİN ƏLİZADƏ** (1871-19 dekabr 1954) – Azərbaycanın ən mötəbər ruhanisi, Qafqaz Müsəlmanları Ruhani İdarəsinin sədri, Şeyx ül-islam. Atası Axund Hacı Məhəmməd Cavad tanınmış ruhani şəxsiyyət olmuşdur, anası Bibixanım da dindar ailədən idi. Axund Ağa Bakıda, İçərişəhərdəki Sınıqqala məscidinin nəzdində olan mədrəsədə orta təhsilini alıb İraqın Nəcəf şəhərindəki dini universiteti bitirdi və axund rütbəsini alandan sonra Bakıya qayıtdı. Əvvəlcə məhəllə məscidində xidmət edir, Təzəpir məscidi tikildikdən sonra buranın axundu olur. 1918-ci ildə Axund Ağa əvvəlcə şəhər qazısı vəzifəsinə seçildi, sonra Qafqaz Müsəlmanları Ruhani İdarəsinin sədri – Şeyx ül-islam vəzifəsinə təyin olundu. 1920-ci ilin mayından, sovet hakim orqanlarının "Vicdan azadlığı" dekretinə görə ruhani idarəsi ləğv olundu, ruhanilər isə quruluşun düşmənləri kimi təqib olundular. İkinci Dünya müharibəsi başlananda məscidlərin qapıları yenə də açıldı və Axund Ağa bərpa olunmuş Qafqaz Müsəlmanları Ruhani İdarəsinin sədri seçilib, ikinci dəfə Şeyx ül-islam vəzifəsinə təyin olundu. Axund Ağa sülhün böyük havadarı idi və müsəlmanların bir neçə ümumsovet və xarici sülhü müdafiə konqreslərində fəal iştirak edirdi.

Axund Ağa Zeynalabdin 1954-cü il dekabrın 19-da vəfat edib, Bakının köhnə qəbiristanlığında dəfn edilmişdir.

**AXUNDZADƏ MİRZƏ FƏTƏLİ** (1812-1878) – Azərbaycanın görkəmli maarifçi demokratı, materialist filosofu və realist yazıçısı. 1834-cü ildən çarın Tiflisdəki canişininin dəftərxanasında mütərcim işləyirdi. Gənc yaşlarında ərəb və fars dillərini, müsəlman ilahiyyatını öyrənmişdi və ailəsinin arzusu ilə molla olmalı idi. Axundzadə bundan vaz keçib rus-türk məktəbini bitirmiş və rus inqilabi-demokrat fəlsəfəsinin və XVIII əsr fransız materialistlərinin ideyalarının təsiri altında ateist olmuşdur. O bütün dinləri "cəfəngiyat və

uydurma", qorxu və aldatmağın törəməsi hesab edirdi. Din əleyhinə və onunla bağlı olan xurafat, mövhumat və fanatizmlə mübarizəni o, feodal geriliyin, Şərq istibdadının və çarizmin əleyhinə mübarizəylə birləşdirirdi. Şərq ölkələrində olan istibdadı tərənnüm edən islam dinini Axundzadə öz fəlsəfi əsəri "Hind şahzadəsi Kəmalüddövlənin üç məktubu"nda (1864-1865) ifşa edirdi. Öz dram əsərlərində Axundzadə köhnə təsdiqləşmiş məişətin, müsəlman mərasimlərinin əleyhinə çıxış edərək, din xadimlərinin tamahkarlığını və riyakarlığını ifşa edirdi.

**AXURAMAZDA** (*fars.* "müdrik hökmdar") – zərdüştilikdə və mazdeizmdə ali ilahi. Axuramazda göy qübbəsini şəxsləndirirdi və şər ilahisi Anhra-Maynyu ilə daimi mübarizə aparan mərhəmətli başlanğıc elan edilmişdi. Qədim yunanlarda Oromaz və ya Ormuzd (**hörmüz**) adı ilə tanınır.

**AİD**, *Qades* (*yun.* handes) – qədim yunanların dini təsəvvürlərinə görə yeraltı dünyanın hökmranı və yeraltı çarlığın, cəhənnəmin özüdür və ölümlərindən sonra insanların ruhları (kölgələri) burada bərqərar olurlar. Hesab olunurdu ki, Aid haradasa qərb istiqamətində yerləşir və məskun olunan dünyadan Stiks, Axeron və Leta çaylarının suları ilə ayrılır. Bu sular yer üzündəki həyatı ruhların yaddaşından pozur və ruhları Stiksin o tərəfinə qayıqçı Xaron daşıyır. Aidin giriş qapısını çoxbaşlı Kerber (Serber) adlı it qoruyur. Əvvəllər yunanlar zənn edirdilər ki, insanların ruhları Aiddə sadəcə öz yer üzündəki həyatlarını davam edirlər, sonralar isə Aid haqqında insanların məhkəməsi keçirilən və yer üzündəki fəaliyyətlərinə görə cəza aldıqları yer kimi təsəvvür əmələ gəldi.

**AİŞƏ** (Ayişə), *Aişə bint Əbu Bəkr* (613-678) – hicrətdən 8 və ya 9 il qabaq Məkkədə anadan olub. Peyğəmbərin sevimli arvadı. Anası Umm Ruman bint Ümeyr ibn Amir idi. Xədicənin ölümü Peyğəmbəri çox mütəəssir etmişdi. O vaxt Osman ibn Məzunun arvadı, Havla bint Hakim, ona bu vaxt hələ uşaq olan Aişənin və ya olduqca yaşlı dul olan Sevda bint Zamanı almasını tövsiyə etdi. Peyğəmbər Əbu Bəkrdən Aişəni istədi, o da bəzi mülahizələrdən sonra razı oldu, lakin qız Cübeyr ibn Mutimə sözlü olduğundan Peyğəmbərin bir müddət gözləməsi lazım oldu. Peyğəmbər Aişə ilə hicrətdən 2 və ya 3 il qabaq evləndi. Aişə bu vaxt 6 və ya 7 yaşında idi və hicrətdən ancaq 6 və ya 7 ay sonra ərinin evinə köçdü. Peyğəmbərin verdiyi mehr – 50, İbn Hişama görə isə – 400 dirhəm idi. Yaşlı ərinin evinə Aişə uşaq oyuncaqları ilə gəldi və bəzən özü ilə birlikdə oynayan Peyğəmbərin sevgisini qazandı. Lakin çirkin bir hadisə onu Peyğəmbərin gözündən saldı. Bu hadisə hicrətin altıncı ilində (628) Peyğəmbər Bəni Müstəliq səfərindən dönəndə baş vermişdi. Tarixçilər, Aişə tərəfindən deyiləni nəql etməklə bərabər, bəzi təfərrüatda yekdil deyillər. Çoxu Aişənin püşk seçməsi ilə (bu, Peyğəmbərin adəti idi), bu səfərdə ərinə təkbaşına yoldaşlıq etdiyini yazırlar. Aişə dəvə üstündə bir mahfədə səyahət edirdi. Daxilində olduğu zaman pərdələr salınırdı, mənzillərdə isə mahfədən

çıxanda pərdələr qaldırılırdı. Bu səfərdən qayıdanda, Mədinədən uzaq olmayan yerdə dayandıqları zaman, Aişə abdəst almaq üçün düşərgədən uzaqlaşdı. O, mahfəyə qayıtdığı zaman Yəməndən gəlmə boyunbağı gərdanlığının boynundan düşdüyünü gördü və pərdələri qaldırmağı unudaraq boyunbağını axtarmağa getdi. O qayıtmamış, Peyğəmbər hərəkət əmrini verdi və Aişənin adamları pərdələri bağlı gördükləri üçün, Aişəni yerində bilərək, mahfəni dəvəyə yükləyib yola düşdülər. Aişə qayıdanda karvanın getməsini gördü və yerə oturub onu axtarmağa gəlmələrini gözlədi. Bu vaxt buraya Səfvan ibn əl-Müəttəl gəldi və Aişəni dəvəsinə mindirib yola düşdü. Lakin Aişənin bu gənc adamla tək görünməsi böyük dedi-qoduya yol açdı: Səfvan gözəl və gənc olduğuna görə, Aişə əlbəttə, onu Peyğəmbərdən üstün tutar. O zaman tanınmış bəzi adamlar Aişəni günahlandırdılar. Həmna bint Cəhş isə hamıdan çox ittiham etdi, çünki onun bacısı Zeynəbin Peyğəmbərlə evlənməsinə Aişə mane olmuşdu. Həmna dedi ki, o, Aişəni Səfvanla birlikdə dəfələrlə görüb. Lakin Aişənin dərddən xəstələnməsinə (və ya belə görünməsinə) görə Peyğəmbər Əli və Usama ibn Zeyd ilə nə etmək barəsində müşavirə etdi. Əli boşanmasını məsləhət gördü (Aişənin Əliyə olan kini buradandır), lakin Usama gənc qadının günahsız olduğunu anlatmağa çalışdı. Nəhayət, Peyğəmbər bir vəhy ilə (Quran, ən-Nur, 11 və s.), sədaqətsizliyi isbat üçün dörd şahidin lazım olduğunu və dörd şahid gətirməyən iddiaçılara isə səksən dəyənək vurulması və sonrakı şəhadətlərinin əsla qəbul edilməməsinin vacib olduğunu söyləyərək gənc qadının təqsirsiz olduğunu təsdiq etdi. Buna rəğmən qəlbində şübhə qaldığı üçün bundan sonra səfərlərə özüylə daha çox Umm Salamanı aparırdı. Amma Buxariyə və başqalarına görə Aişə Peyğəmbərlə daha bir dəfə də yola çıxmış və bu səfərdə də boyunbağını yenidən itirmişdi. Lakin onu axtarmaq üçün bu dəfə adamlarını göndərmişdi. Bu arada namaz vaxtı gəldi və bunlar düşərgədən uzaq olduqları üçün abdəst almağa su tapa bilmədilər. Peyğəmbərin su tapılmayan yerdə qum ilə abdəst (təyəmmüm) alması hökmünə bu hadisə səbəb olmuşdu.

Peyğəmbər öldüyü vaxt Aişə 18 yaşında idi və o zamandan bəri müsəlmanların böyük əksəriyyəti onu qüdsi şəxsiyyət kimi (Ümm əl-Möminin) tanıyır. O, bir çox siyasi işlərə qarışdı. Özü Osmana müxalif idi və ona hər dəfə işlərdən kənar olmağın vacibliyini deyərdi. Bu xəlifəyə qarşı qalxan hərəkatda onun da rolu əlbəttə böyükdür. Bununla bərabər, Osman evində mühasirədə olduğu vaxt (yavm əl-dar), Aişə Mədinədə deyildi, həccə getmişdi. Onun can düşməni Əlinin xəlifə olduğunu bildikdə, öldürülən Osmanın intiqamını almaq bəhanəsi ilə müsəlmanları Əliyə qarşı qaldırmaq üçün bütün qeyrətini sərf etdi. Təlxa və Zübeyr ilə birləşib böyük bir ordu və sursat toplayaraq Bəsrəyə hərəkət etdilər. Bu səfərə çox kömək edən Yəla ibn Münya ət-Təmimi Aişə üçün 200 dinara Əsgər adlı bir cins dəvə aldı. Əli ilə Təlxa və Zübeyr orduları arasında hicri 36-cı ilin cumada əl-axırın

10-da (5.XII.656) döyüş oldu. Əlinin ordusu qalib gəldi. Döyüşün qızğın vaxtı, Aişənin dəvəsi ətrafında keçirdi. Bəni Zabba qəbiləsindən 70 adam onu qorumaq uğrunda öldükdən sonra dəvə də öldürüldü ("Cəməl döyüşü" adı buradandır). Əli əmr etdi ki, Aişəni Safiyə bint əl-Xaris ibn Təlxanın evinə gətirsinlər. Sonra da Mədinəyə qayıtması üçün lazım olan hər şeyi ona verdirdi. Aişə, Əli tərəfinin daha qüvvətli olduğunu gördüyü üçün onun yanında qalmağı və düşmənlərinə qarşı səfərlərində iştirak etməsini təklif etdi, lakin Əli bu təklifi rədd edib onun getməsinə əmr verdi. Aişənin bir dəfə də hadisələrə qarışmağını Həsən ibn Əlinin ölümündə görürük. Həsəni Peyğəmbərin yanında dəfn etmək istəyirdilər, lakin Aişə qəbrin öz malı olduğunu deyib, buna mane oldu. Mədinə camaatı ona qarşı narazılığını bildirdikdə, buna razılıq verdi.

Aişənin ölüm tarixi hicri 58-ci ilin 17, ya da 19 ramazanı göstərilir və bununla yanaşı hicri 56 və 57-ci illər də qeyd edilir. Ancaq öldüyü gün çərşənbə axşamı kimi qeyd olunduğuna görə birinci tarix – hicri 58-ci il Ramazan ayının 17-si düzgün sayıla bilər (13 iyul 678). Vəsiyyətinə görə, Mədinə əl-Baqi qəbiristanında elə o gecə dəfn edildi.

Aişə hədis ravilərinin ən mötəbəri hesab olunur. Peyğəmbərdən 2210 hədis rəvayət edib. Fiqh məsələləri və fitva almaq üçün dəfələrlə ona müraciət edilib. Zəka və qabiliyyəti ilə tanınmışdır, hafizəsi çox güclü idi.

**AKAFİST** (*yun.* akafistos – əyləşmədən) – xristian kilsəsində tərifedici mahnı ifası. Bu vaxt kilsə qaydası ilə oturmağa icazə verilmir.

**AQİL İBN ƏBU TALİB** – Əlinin qardaşı. O, uzun müddət Peyğəmbərin dinə dəvətinə cavab vermədi. Bədr döyüşündə məkkəlilər tərəfində vuruşdu, sonradan deyilənə görə, bu hərəkəti öz razılığı ziddinə etmiş və əsir düşmüşdü. Fidyəsi əl-Abbas tərəfindən verilib, azad olundu. Aqil axırda, bəzilərinə görə, Məkkənin fəthindən, bəzilərinə görə isə Hüdeybiyə sülhündən sonra islamı qəbul edərək Mədinəyə getdi. Mutaya qarşı edilən fəlakətli səfərdə Cəfərə yoldaşlıq etdi. Əli xəlifə olduqda, Aqil ondan ayrılaraq Müaviyəyə qoşuldu və qardaşına qarşı Siffində döyüşdü. Müaviyənin hakimiyyəti vaxtında vəfat etdi.

**AQİOQRAFİYA** (*yun.* haqios – müqəddəs və qrafo – yazıram) – b a x: **Müqəddəslər.**

**AQNİ** – Vedi dinində ən qədim ilahilərdən biri idi. İndra və Suriya ilə birlikdə bu dinin ilahi üçlüyünə daxil olub, odun dini təmsilidir. Aqni ilahilərlə öz qurbanlarını odda yandıran insanların arasında vasitəçi idi. Vedalar göstərir ki, Aqni möminlərin xüsusi hörmətinə malik idi.

**ALBAN (QAFQAZ) KİLSƏSİ** – qədim xristian kilsələrindən biri IV əsrin əvvəlində, çar Urnayrın dövründə xristianlıq Qafqaz Albaniyasında dövlət dini elan edildi. Çar, saray adamları və feodal əyanları tərəfindən qəbul edilən xristianlıq əhali arasında zorla yayıldı və yeni feodal cəmiyyətinin ideoloji dayağına çevrildi. Alban əlifbasının yaradılması, kilsə məktəblərinin açılması,

Suriya və yunan dillərindən Bibliya və başqa dini ədəbiyyatın alban dilinə tərcümə edilməsi xristianlığın yayılması və möhkəmlənməsində mühüm rol oynadı.

IV-V əsrlərdə Alban kilsəsi bilavasitə Roma kilsəsinə tabe idi, ölkənin kilsə başçısı (yepiskop) Romada təsdiq olunurdu. Bu vəziyyət 451-ci ildə Xalkedonda çağırılmış IV Ümumdünya kilsə yığıncağında – xristian aləmində Qərb və Şərq kilsələri arasında (monofizitlər və diofizitlər) doqmatik mübarizə başlayana qədər davam etdi. Alban kilsəsinin müstəqilliyinin bərqərar edilməsində Aquen məclisi (488) mühüm rol oynadı.

506-cı ildə Dəbil məclisində Alban kilsəsi gürcü və erməni kilsələri ilə birlikdə başqa Şərq kilsələri (İsgəndəriyyə, Antioxiya) kimi monofizitliyi qəbul etdi. 551-ci il Dəbil məclisində isə Alban kilsəsi Bizans kilsəsindən ayrılıb avtokefal (müstəqil) oldu.

VI əsrin sonu – VII əsrdə Qafqazda Bizansın siyasi təsirinin güclənməsi ilə əlaqədar Alban kilsəsi gürcü kilsəsilə birlikdə diofizitlərə qoşuldu. Qafqazın ərəblər tərəfindən işğalından sonra, VIII əsrin əvvəllərində Alban kilsəsi diofizitlərdən ayrıldı. Özünə tabe xristian əhalinin və kilsənin fəaliyyətini istiqamətləndirməyə çalışan Ərəb xilafəti siyasi məqsəd güdərək erməni kilsəsinin köməyi ilə Alban kilsəsini monofizitləşdirdi və onu 705-ci ildə erməni monofizit kilsəsinə tabe etdi. Alban kilsəsinin tədricən qriqorianlaşması prosesi başlandı. Alban katolikosluğu Bərdədən Amarasa köçürüldü. XIV əsrin sonunda Alban katolikosunun iqamətgahı Qanzasar oldu.

1836-cı ildə erməni katolikosluğunun rüşvətli təkidi ilə Peterburq Müqəddəs Sinodu Alban katolikosluğunu ləğv etdi.

**ALBİQOYLAR** (*lat.* albiqenses, *frans.* albiqeris) – XII-XIII əsrlərdə Fransada, İtaliyada və Almaniyada yayılmış bürger bidətinin tərəfdarlarıdır. Albiqoyların mərkəzlərindən biri Fransada Albi şəhəri idi. Albiqoylar katolik kilsəsinə, feodalizmə qarşı çıxır, bu dünyadakı həyatı "şeytan əməli" adlandırır, kilsənin əsaslı islahatını tələb edirdilər. Onlar başlıca olaraq şəhərlilərdən (sənətkarlar), qismən kəndlilərdən ibarət idilər. Yerli xırda feodalların bir qismi də onlara qoşulmuşdu. Kilsə albiqoyları lənətləyib, kilsədən qovmuşdu.

1167-ci ildə albiqoylar San-Feliksdə məclis toplayıb məzhəblərini formalaşdıraraq öz kilsələrini təşkil etdilər. Papa III İnnokenti albiqoylara qarşı səlib müharibəsi elan etdi. 1209, 1213, 1216 və 1229-cu illərdə albiqoylara qarşı müharibələrdə onlar məğlub oldular və XIII-XIV əsrin əvvəlində albiqoylar inkvizisiya tərəfindən məhv edildilər.

**ALEKSANDRİYA (İSGƏNDƏRİYYƏ) KİLSƏSİ** – b a x: **Pravoslavlıq.**

**ALLAH** – göyləri, yeri, onların arasında olan hər şeyi yaratmış külli-ixtiyar sahibi, hər şeyə qadir olan tək, vahid ilahi varlıq. Bütün kainatın, o cümlədən dünyamızın və onun sakinləri olan insanların taleyini həll edən Allah monoteizmi ən ciddi təbliğ edən islam dinində ibadətə layiq olan yeganə məbuddur.

Allah sözünün mənşəyi haqqında müxtəlif fikirlər mövcuddur. Bəzi alimlər bu kəlmənin hər hansı bir kökdən

10896
M.S.Ordubadi adına
Naxçıvan Muxtar Respublika
KİTABXANASI

törəməyib söz mənası daşımadığını, haqq olan yeganə məbudun əsil adını bildirdiyini və ya lüğəvi mənası olsa belə, həqiqi məbudun adını daşımaq üçün işlədildiyi zamandan etibarən həmin mənanı itirdiyini qeyd edirlər. Digər qrupa daxil olan mütəxəssislər Allah sözünün müəyyən bir kökdən düzəldiyini göstərirlər. Onların bəzisi belə hesab edir ki, Allah sözü **ilah** kəlməsindən törəmişdir; bu söz müəyyənlik artikli ilə bir tərəfdən tanrı, büt mənasında əl-ilah kimi işlədilmiş, digər tərəfdən yeganə həqiqi məbudun adını bildirmək üçün istifadə edilmişdir. Əl-ilah bu mənada daha çox işlədildiyindən, məhz həmin mənanı ifadə etmək üçün dildə onun tələffüzünü asanlaşdırmaq məqsədilə sözün əslində olan həmzə səsi atılmış, artiklin "lam-ı" isə kəlmənin özünə aid olan lam birləşdirilmiş, sadə əzəmət ifadəsi vermək xatirinə artiklin həmzəsi qalınlaşdırılaraq o, Allah kimi oxunmuşdur. İlah sözünün mənasına gəldikdə isə, o "ibadət etmək" anlamında işlənən əlihə-yələhu kökündən və ya "heyrət içində qalmaq", "bir şeyə ürəkdən tapınmaq, sığınmaq" anlamında olan əlihə-yələhu, yaxud valihə-yəvləhu kökündən düzəlmiş feli sifət (ismi-məful) olub "ibadət edilən", "ürəkdən tanınılan, sığınılan, pənah aparılan varlıq" deməkdir. Başqa bir qrup mütəxəssis bu sözün "gizlənmək", "hissin, duyğunun fövqündə olmaq" anlamını verən lahə-yəlihu kökündən düzəlmiş leyh-lah sözündən törədiyini və "gizli olan", "hissin, duyğunun fövqündə duran varlıq" mənasını bildirdiyini qeyd edir. Bir sıra əcnəbi müəlliflər, xüsusilə Avropa şərqşünasları Allah sözünün islamdan əvvəlki Cahiliyyət dövrü ərəblərinin bütlərindən olan əl-Lat və ya arami dilində olan elaha sözündən alındığı fikrini irəli sürürlər.

Ümumiyyətlə, elm aləmində Allah sözünün mənşəyi haqqında otuza qədər fikir irəli sürülmüşdür. Lakin istər qədim və orta əsr, istər müasir islam alimlərinin, istərsə də əcnəbi şərqşünasların əksəriyyəti bu sözün ilah kəlməsindən törədiyi fikri üzərində dayanmışlar. Sözün lüğəvi mənası da həmin fikrin düzgünlüyünü sübut edir.

Allaha inam ilkin dinlərdə, ibtidai etiqad sistemlərinin, demək olar ki, hamısında mövcuddur.

Vahid, tək olan Allaha inam barəsində elm tarixində iki əsas fikir mövcuddur. Birinci qrupa daxil olan mütəxəssislər bəşəriyyətin ilk öncə tək Allaha inandığını, bütpərəstliyin, çoxallahlığın müxtəlif iqtisadi-ictimai ənənəvi amillər nəticəsində sonradan meydana çıxdığını qeyd edirlər. İkinci qrupa daxil olan materialist dünyagörüşlü mütəxəssislər isə bəşəriyyətin öz inkişaf tarixində çoxallahlıqdan təkallahlığa, yəni politeizmdən monoteizmə meyil etdiyi müddəasını irəli sürürlər. Lakin araşdırmalar göstərir ki, vahid Allaha inam ilkin dinlərin hamısına xasdır. İbtidai etiqad sistemlərinin tədqiqi üçün örnək hesab edilən Avstraliyada aparılmış son araşdırmalar nəticəsində sübut olunmuşdur ki, ilk baxışda fetişizmə (cansız əşyaya tapınma), totemizmə (heyvanlara tapınma) və animizmə (ruhlara tapınma) istinad etdiyi güman olunan Avstraliya qəbilələrinin, xüsusilə qitənin cənubunda



M.S.Ordubadi adı. Naxçıvan Muxtar Resp... KİTABXANASI

yaşayan daha ibtidai inkişaf tərzli qəbilələrin inanc sistemində vahid, uca bir varlığa etiqad hissi mövcuddur.

Əski Şərq dinlərini tədqiq edən mütəxəssislərin fikrincə, Assuriya-babil dinində çoxallahlıq ideyası təsbit edilsə də, əslində qədim assuriyalıların və babillilərin inamına görə kiçik tanrılar uca tanrı Asurun (Aşurun) qarşısında həqiqi varlıq olmayıb onun müxtəlif adlar daşıyan təzahürlərindən və görüntülərindən (təcəllilərindən) başqa bir şey deyillər.

Qədim Çin etiqad sistemlərində öncə təkallahlılığı andıran bir inam hissi mövcud ikən, sonralar bu hiss təhrif edilərək öz yerini Şanqtu adlı çoxallahlı inam sisteminə vermişdir.

Əski Misir dinində hər şeyi yaradan, dünyanın sahibi, elmi qeyri-məhdud olub özü görünməyən, amma duaları qəbul edən ulu bir varlığa inam hissi mövcud olmuşdur. Lakin mütəxəssislər bu inamın vahid bir tanrıyamı, yoxsa bir növ çox tanrıyamı (hər qövm üçün ayrıca olan bir tanrıyamı) aid olduğu barədə ümumi fikir razılığına gəlməmişlər. Bununla yanaşı, Qurani-Kərimin 12-ci surəsində Yusif peyğəmbərin Misir həbsxanasında öz zindan yoldaşlarına müraciətlə söylədiyi: "Allahdan başqa ibadət etdikləriniz sizin və atalarınızın (özünüzdən uydurub) qoyduğunuz adlardan (bütlərdən) başqa bir şey deyildir. Allah (onlara ibadət edilməsinə dair) heç bir dəlil nazil etməmişdir..." sözü də Qədim Misirdə ilk öncə tək olan Allaha inam sisteminin mövcud olduğu fikrinin düzgünlüyünü sübut edir.

Dini etiqadlar sahəsində araşdırmalarla məşğul olan bir çox görkəmli mütəxəssislərin fikrincə, tək olan ulu Tanrıya inam hissi qədim hind, yunan, İran və türk inanc sistemlərinin, demək olar ki, hamısında mövcud olmuşdur. Bu isə öz növbəsində səmavi kitabların, o cümlədən Qurani-Kərimin Allah yanında məqbul, haqq olan dinin islam, yəni təkallahlıq dini olduğu fikrinin doğruluğunu bir daha təsdiq edir.

İslamdan öncəki Cahiliyyət dövrü ərəblərinin bütlərə sitayiş etdiyi aydındır. Qurani-Kərimdə bu məsələdən geniş bəhs edilmiş, hətta bəzi bütlərin adları belə çəkilmişdir. Bununla yanaşı, qədim ərəblərin müxtəlif qəbilələrə aid olan yüzlərlə bütün fövqündə vahid, tək bir uca məbuda tapındıqları fikri də məlumdur. Qurani-Kərimdə bu uca məbudun adı **Allah, Əziz, Əlim** sözləri ilə zikr olunur. Cahiliyyət dövrü ərəbləri tək olan ulu Tanrıya (Allaha) inanmaqla yanaşı, belə hesab edirdilər ki, Allah görünməz və əlçatmaz olduğu üçün həmin bütlər onları bu tək məbuda yaxınlaşdırır və onlarla Allah arasında vasitəçi, şəfaətçi rolunu oynayır.

Cahiliyyət dövrü ərəblərinin bizə gəlib çatmış dualarında, poeziya nümunələrində, atalar sözləri və zərbi-məsəllərində Allah sözünün dəfələrlə işlədilməsi faktı qədim ərəblərin də ilk öncə Həzrəti-İbrahimin təbliğ etdiyi təkallahlılıq dininə (hənifiliyə) inandığını və bütpərəstliyin, çoxallahlığın onların arasında sonradan yayıldığını əyani şəkildə nümayiş etdirir.

Müsəlman kəlamına (nəzəri ilahiyyatına) görə, Allahın zatını, mahiyyətini

duyğularla və əqllə dərk etmək əsla mümkün deyildir. Lakin yaşadığımız dünyada, bizi əhatə edən kainatla Allahın varlığını göstərən işarələr, əlamətlər (**ayətlər**) mövcuddur. Buna görə də zahiri aləmdə Allahın varlığına dəlalət edən əlamətləri duyğu üzvləri ilə duymaq, görmək, əqllə isə Haqq-təalanın mahiyyətini anlamadan yalnız varlığını dərk etmək olar. Kəlam elmində və islam fəlsəfəsində Allahın varlığını və birliyini isbat etmək üçün aşağıdakı dörd dəlilə istinad edilir.

a) **Hüdus (yaradılış) dəlili.** Bu dəlil kainatın yaradılmış olması və hər yaradılışın da bir yaradıcısı olması müddəasına əsaslanır. İbn Rüşdün "ixtira" adlandırdığı bu dəlil gözlə görünən və ayrıca varlığı qəbul edilən kainatın, bütün canlı və cansız aləmin (Qurani-Kərimdə varlıq "göylər, yer və onların ikisinin arasında olan şeylər" deyə adlandırılır) öz-özünə var ola bilməyəcəyi və onların əbədi surətdə mövcud olmayacağı fikrini bir aksioma kimi qəbul edir.

Kəlam elmi nümayəndələrinin cövhər və ərəz prinsipinə istinad edən hüdus dəlili İbn Rüşdün və digər müsəlman filosoflarının yuxarıdakı müddəasından fərqlənir. Mütəkəllimlərin cövhər və ərəz prinsipinə əsaslanan hüdus dəlilinə görə, kainatı təşkil edən bütün cisimlər zaman və məkan daxilində mövcud olan bir cövhərdən (substansiyadan, özündə şeydən), bir də onlara xas olan əlamətlərdən, xüsusiyyətlərdən ibarətdir. Ərəzlər cövhərə xas olan hərəkət, rəng, qoxu, birləşmə, ayrılma və s. bu kimi xüsusiyyətlərdir. Cisimlərə xas olan ərəzlər həmişə eyni vəziyyətdə qalmayıb dəyişdiyindən, tədriclə yox olduğundan onlardan ayrı mövcud ola bilməyən cövhərlər də tədriclə dəyişməyə və yoxluğa məhkumdur. Eləcə də, cövhərdən ayrı mövcud ola bilməyən ərəzlər cövhər fani (keçici, müvəqqəti, yoxluğa məhkum) olduğu kimi fənaya məhkumdur. Deməli, cövhərlərdən və ərəzlərdən ibarət olan cisimlər, dolayısı ilə onlardan təşəkkül tapan bütün kainat keçmiş və gələcək baxımından əzəli və əbədi olmayıb yaradılmışdır və nəticə etibarilə heçliyə, yoxluğa məhkumdur. Hər yaradılmışın yaradılmış xüsusiyyəti daşımayan bir yaradıcıya möhtac olması isə əqlin qaçılmaz şəkildə qəbul etdiyi bir həqiqət, bir aksiomadır.

b) **İmkan dəlili.** Mövcudatı varlığı özündən (vacib) və ya başqasından (mümkün) olmaq üzrə iki kateqoriyada təsəvvür edən imkan dəlilinin ilkin müddəalarını IX əsrdə yaşamış məşhur müsəlman filosofu əl-Kindinin Teologiya sistemində tapmaq mümkündür. Lakin bu dəlil tam şəkildə əvvəlcə Fərabi, daha sonra İbn Sina tərəfindən formalaşdırılmış və tədricən müsəlman kəlam elmində özünə yer tapmışdır. Kəlam elmində bu dəlildən ilk dəfə Şəhristani istifadə etmiş, Fəxrəddin Razi və ondan sonrakı mütəkəllimlər imkan dəlilinin ilahiyyata tətbiqini daha da genişləndirmişlər.

İmkan dəlilinin qayəsi bir vacibin varlığını isbat etməkdir. Vacib "varlığı özündən olub başqasına möhtac olmayan" deməkdir. Bunun əksi olan mümkün isə "varlığı üçün başqasına möhtac olan" mənasındadır. Kainat bir qismini duyğu üzvləri ilə bilib anladığımız, bir qismini isə başqa yollarla dərk etdiyimiz

mövcudatdan təşəkkül tapmışdır. Gördüyümüz, müşahidə etdiyimiz bütün şeylər imkan (varlığı üçün başqasına möhtac olma) xüsusiyyəti daşıdığına görə, onlardan təşəkkül tapan təbiət də eyni xüsusiyyət daşımalıdır. Buna görə də təbiət mümkündür. Təbiətə varlıq verən, lakin mümkün, yəni varlığı üçün başqasına möhtac olan xüsusiyyəti daşımayan bir səbəb mövcud olmalıdır ki, o da varlığı vacib olan Allahdır.

Hüdus və imkan dəlillərində kainatın yaradılmış (hadis), yaxud var olmaq üçün başqasına möhtac (mümkün) olduğu isbat edildikdən sonra bunun məntiqi nəticəsi olaraq hər hadisin bir mühdisi, yaxud hər mümkünün bir səbəbi (**illəti, vacibi**) olduğu müddəasını qəbul etməkdən başqa bir yol qalmır.

c) **Nizam dəlili.** Bu dəlilə görə təbiətdə son dərəcə ahəngdar və incə bir nizam, səliqə-sahman mövcuddur ki, bu da öz-özlüyündə və ya şüursuz maddənin fəaliyyəti nəticəsində mümkün deyildir. Bu ahəngdar və incə nizamı, səliqə-sahmanı təmin edən uca, ülvi sifətlərə sahib olan fövqəltəbii bir varlıq mövcuddur ki, o da hər cür naqis sifətlərdən uzaq olan Allah-təaladır. Qaynağını Qurani-Kərimin "Hikmət və inayət" təbirlərindən alan bu dəlil ilk dəfə kəlam elminə IX yüzillikdə yaşayıb yaratmış məşhur ilahiyyatçı Mütəhhər bin Tahir əl-Məqdisi tərəfindən tətbiq edilmişdir.

ç) **Fitrət dəlili.** İstər islam alimləri, istərsə də Qərb mütəfəkkirləri tarix boyu gəlib-getmiş tayfaların, xalqların və millətlərin dini etiqadlarını, məişət tərzini, adət və ənənələrini ətraflı surətdə tədqiq etdikdən sonra belə bir yekdil fikrə gəlmişlər ki, həmin tayfalar, xalqlar və millətlər bir tanrı inancına sahib olmuşlar. Bu xalqların və millətlərin sağlam təfəkkürə malik nümayəndələri, bəsirət sahibi olan insanlar həmişə qəlbən uca bir məbudun varlığını hiss etmiş və ona inanmışlar. Bu dəlilə görə, insanın irqindən, rəngindən, cinsindən, dinindən və dilindən asılı olmayaraq onda fitrətən, anadangəlmə bir Allah eşqi, ilahi bir məhəbbət, tək olan ülvi bir varlığa inam hissi mövcuddur. Qurani-Kərimin buyurduğuna görə, dünyaya göz açan körpə müsəlman (təkallahlı) olaraq doğulur. Həddi-büluğa çatandan sonra valideynləri və yaşadığı mühit onu bu və ya başqa bir dini qəbul etməyə sövq edir. "Qəbulun ammə" və ya "fitratun səlimə" adlanan bu dəlildən də kəlam elmində ilk dəfə Mütəhhər bin Tahir əl-Məqdisi istifadə etmişdir.

Bizi əhatə edən sonsuz kainatın hər yerində ülvi bir varlığın, yaradıcı, hər şeyə qadir olan bir zatın əlamətlərini, təcəllilərini seyr edən sağlam təfəkkürlü hər bir insan Allah-təalanın varlığını, qəlbən, daxilən öz içində hiss edir, Onun əzəməti, qüdrəti qarşısında səcdəyə qapanır. Elmi və həyati təcrübələr sübut etmişdir ki, ən qatı bütpərəstlər, müşriklər, hətta Allahı danan kafirlər belə böyük bir fəlakətə, ağır bir müsibətə düçar olduqda, bir anlığa qeyri-ixtiyari öz bütlərini, ilahlarını, küfrlərini belə unudub kainatı yoxdan yaradıb ona həyat verən bu ülvi qüvvəyə yalvarır, Ondan nicat və imdad diləyirlər. Bu baxımdan hər bir xalqın və millətin dilində bir olan Allahın özünəməxsus olan adları vardır.

Diri həyatda əqldən əvvəl qəlbə yer verən sufilər isə belə hesab edirlər ki, insanı pisliyə sövq edən nəfsin istəklərini yerinə yetirməmək, şəhvətə uymamaq, nəfsi dinə ram etmək, dini nəfs üçün vicdana çevirmək, həddindən çox ibadət, riyazət, zikr, bir sözlə, dində ixlas insana Allah dərgahından vasitəsiz olaraq əta edilən bilik bəxş edir. Sufilərə görə, Allahı kəşf və ilham adlanan bu bilik vasitəsilə, məhz bu mənəvi yolla tamamilə tanımaq, bilmək olar. Sufilər belə bir faktı həmişə qeyd etməyi sevirlər ki, İmam Qəzali kimi nəhəng bir mütəfəkkir Allahı tanımaq yolunda əql metodundan illərcə istifadə etmiş, nəticədə bunun faydasız olduğunu görüb kəşf və ilham metodunu mənimsəmişdir. Vəhdəti-vücud nəzəriyyəsinin həqiqi banisi Mühyiddin İbnül-Ərəbi öz dövründə əqli elmlərin zirvəsinə qalxmış Fəxrəddin ər-Raziyə yazdığı məktubunda kəşf metodunun məziyyətlərindən bəhs edərək göstərir ki, Allahı tanımaq başqa, Allahın varlığını bilmək isə bir başqadır. Əql Allah-təalanı ancaq var olma baxımından, həm də səlbi (Allaha xas olmayan) sifətlər cəhətindən bilir. Halbuki kəşf yolu ilə Allah müşahidə edilərək tanınır.

Allahın varlığını isbat etmək üçün istifadə olunan dəlilləri tənqid süzgəcindən keçirən məşhur filosof İbn Rüşd sufilərin öydüyü kəşfin Allahı tanımaq yolunda tətbiq oluna bilməyəcəyini qeyd etdikdən sonra Qurani-Kərimin bu yol üçün müəyyən etdiyi metodun insanı düşünməyə, daşınmağa və araşdırmağa dəvət etmək olduğunu xatırladaraq bunun tərk edilməsinin Qurani-Kərimin metodunu heçə endirmək olduğunu bildirir. Eyni zamanda, İbn Rüşd nəfsin istəklərini cilovlamağın həqiqətə yetişmə yolunda əqlə yardımçı ola biləcəyini də qeyd edir. Göründüyü kimi, İbn Rüşd bir filosof kimi Allahı tanımaq yolunda sufilərdən fərqli olaraq əqli qəlbə deyil, qəlbi əqlə tabe etməyi üstün tutur.

**ALLAHIN BİRLİYİ** – Allaha nisbət edilən birlik, vəhdaniyyət dedikdə, bir olan, tayı-bərabəri, bənzəri olmayan, ibadət edilməyə layiq olan yeganə əzəli və əbədi varlıq nəzərdə tutulur. İslamın Allahın birliyindən bəhs edən tövhid qismi tövhidi-uluhiyyət tövhidi-rübubiyyətdən təşəkkül tapır. Tövhidi-üluhiyyət dedikdə, Allah-təalanın zatında, sifətlərində və feillərində (işlərində) bir, yeganə və bənzərsiz olduğu, tövhidi-rübubiyyət dedikdə isə, Allahdan başqasına ibadət etməmək və sığınmamaq nəzərdə tutulur. Tövhidin bu iki ayrılmaz tərkib hissəsi "Allahdan başqa məbud **(Tanrı)** yoxdur" bəyan edən kəlimeyi-tövhiddə, **Fatihə** surəsinin "Biz yalnız Sənə ibadət edirik və yalnız Səndən kömək diləyirik" buyuran dördüncü ayəsində, eləcə də "De ki, O, Allah birdir. Allah heç kimə, heç nəyə möhtac deyildir. Doğmamış, doğulmamışdır. Onun heç bir tayı-bərabəri, bənzəri yoxdur" buyuran **İxlas** surəsində və Qurani-Kərimin başqa surələrində öz əksini tapmışdır.

**ALLAHIN ZATI VƏ SİFƏTLƏRİ** – Allah-təalanın zatı (substansiyası) və sifətləri mövcuddur. Zat və sifətlər bir-biri ilə ayrılmaz vəhdət təşkil edir. Allahın zatı gizli, mahiyyəti hər cür əqlin və idrakın, hər cür duyğuların və

təxəyyülün fövqündədir. Əqlə və zehnə, təsəvvürə və təxəyyülə gələn hər bir şey Allahdan başqadır. Allah-təala əqlə, duyğulara və təsəvvürə sığmaz bir varlıqdır. Buna görə də, Peyğəmbər əleyhissəlam "Allahın zatı haqqında deyil, nemətləri haqqında düşünün", – deyə buyurmuşdur.

Dahi Füzuli isə buna işarə edərək yazmışdır:

Əndişeyi-zat qılmaq olmaz,
Bilmək bu yetər ki, bilmək olmaz!

Müsəlman ilahiyyatına görə, Allah sözü bütövlükdə Haqq-təalanın adını, Qurani-Kərimdə "əsmayi-hüsna" ("ən gözəl Allah") adlandırılan isimləşmiş sifətlər isə Onun sifətlərini bildirir.

Cəfəri məzhəbində belə hesab edilir ki, Allah kəlməsi səkkiz kamil sifəti özündə cəmləşdirən və yeddi naqis sifətdən xali olan bir zatın adıdır. Sifati-sübutiyyə deyilən kamil sifətlər Allah-təalanın zatından başqa özgə bir zata aid ola bilməz. Yalnız Allahda mövcud olan səkkiz sübuti sifət aşağıdakılardır:

1. **Allah-təala Qadirdir** və ya **Qadiri-muxtardır.** Yəni Allahın hər bir şeyə qüdrəti yetər. O öz işində mütləq ixtiyar sahibidir; istəsə yaradar, istəməsə yaratmaz; istəsə öldürər, istəsə dirildər.

2. **Alimdir,** yəni görünən və görünməyən hər şeyi olduğu kimi bilir. Allah-təala gizlində və aşkarda, zahirdə və batildə olan hər bir şeydən agahdır, heç bir şey Ondan gizli qalmaz. Allah-təala bütün məxluqatın yaradıcısı olduğu üçün onların bütün əhvalını bilir.

3. **Həyydir,** yəni həmişə diridir, varlığının əvvəli və axırı yoxdur. Allahın həyatı elm və qüdrətdən ibarətdir, nəinki ölümə müqabildir.

4. **Müriddir** və ya **Müridi-karədir,** yəni bəndələri üçün xeyir istəyən, şəri isə məkruh (bəyənilməz) tutandır və eyni zamanda istədiyi işi istədiyi vaxtda göstərir.

5. **Müdrikdir,** yəni hər şeyi dərk edəndir, aşkar və gizli, cüzi və külli şeylərdən tamamilə halidir.

6. **Əzəli və Əbədidir,** yəni həmişəlikdir, Onun nə əvvəli, nə də sonu var. Həmişə var olmuş, var olan və var olacaq Zatdır.

7. **Mütəkəllimdir,** yəni danışandır, hər bir şeydə öz qüdrəti ilə danışıq icad edəndir.

8. **Sadiqdir,** yəni doğru danışandır, öz əmr və qadağanlarında, vədlərində doğruçudur. Allah-təalanın bu sifəti Onun elmi və qüdrəti ilə bağlıdır.

Allah-təalanın sübuti sifətləri Onun Zatının eynidir. Bizim sifətlərimiz kimi yox ikən sonradan yaranmamışdır. Bu sifətlər Zatın eyni olduğu üçün əzəli və əbədidir.

Allaha xas olmayıb məxluqata aid olan yeddi səlbi, naqis sifət isə aşağıdakılardır:

1. Allah-təala **mürəkkəb** deyildir, yəni O, biz yaranmışlar kimi bir neçə şeydən əmələ gəlməmişdir. Allahın nə daxildə, nə xaricdə, nə də zehndə cüzləri, hissələri yoxdur. Allahdan başqa hər bir şeyin ünsürləri, tərkib hissələri vardır; məsələn, şərbət sudan və şəkərdən ibarət olduğu kimi, Allahın Zatı isə bu cür deyildir. O bəsitdir.

2. **Cisim** deyildir, yəni məkan və zaman xaricindədir, cisimlərə xas olan üç ölçüdən xalidir, rəngi yoxdur.

3. **Məhəlli-həvadis** deyildir, yəni dəyişməzdir. Allah-təala heç bir şeydə səhv etməz, heç bir şeyi unutmaz. Ləzzət, zəhmət, cavanlıq, qocalıq, xəstəlik kimi məxluqata xas olan və onun əhvali-ruhiyyəsini dəyişdirən şeylərdən Allahın Zatı xalidir.

4. **Məri** deyildir, yəni Allahı gözlə görmək olmaz. O görünməzdir.

5. **Şəriksizdir**, yəni Allah təkdir, Onun heç bir şəriki yoxdur. Allahın Zatında və sifətlərində misli yoxdur. Əgər Allah-təalanın bir şəriki olsa idi, kainat müəyyən bir nizama tabe olmaz, dünya öz mehvərindən çıxar, aləm fəsada uğrayardı.

6. **Məani** deyildir, yəni Allahın sifətləri biz məxluqatdan fərqli olaraq onun Zatından başqa bir şey deyildir. Allahın sifətləri Onun Zatına məna kimi vəsf edilməyib, Zatın eynini təşkil edir. Əgər Allahın sifətləri Onun Zatının eyni olmasaydı, Haqq-təala məxluqat zümrəsinə daxil olardı.

7. **Qənidir**, yəni Allahın heç bir şeyə ehtiyacı yoxdur, əksinə, hamı Ona möhtacdır. Ehtiyac naqis sifət olduğu üçün Allah-təalaya xas ola bilməz.

Bunlardan əlavə, Allah-təalanın sifətifeliyyə **(feli sifətlər)** adlanan bir neçə sifəti də mövcuddur. Feli sifətlər o sifətlərə deyilir ki, Allah-təaladan bir iş, bir əməl sadir olmamış (yaranmamış) həmin sifətləri Ondan inkar etmək mümkündür. Və ya, bu sifətlər Allahda bəzən olur, bəzən olmaz, məsələn, ruzi vermək, öldürmək və i.a. Misal üçün, demək olar ki, Allah-təala bu aləmi xəlq etməmişdən əvvəl bu aləmə xaliq deyildi, yaxud gələcəkdə vücuda gələcək bir şəxsə nə qədər ki, ruzi verməyib, həmin şəxs üçün bu anda ruzi verən deyildir. Göründüyü kimi, bu cür işlər Allah-təaladan baş verməmiş həmin feli sifətləri Ondan inkar etmək olar, lakin "Allahın bu işləri görməyə qüdrəti yoxdur" demək isə küfrdür. Allah-təala bu və ya digər elmi yalnız Özü istədiyi, Özü məsləhət bildiyi vaxtda edir. Bu Onun mütləq iradəsinə və hikmətinə bağlıdır.

**Mötəzililərdən** olan Vasil bin Əta Allah-təalanı insana bənzədən, insan şəklində təsəvvür edən müşəbbihilərə və Onun insanda təcəssüm (hülul, ittihad) etdiyini söyləyən mücəssimilərə etiraz edərək göstərir ki, Allahın qədim olan sifətlərinin varlığını qəbul etmək iki ilahın qəbul edilməsinə və tədriclə qədimlərin çoxalmasına gətirib çıxarır ki, bu da nəticə etibarilə şirk, yəni Allaha şərik qoşmaq deməkdir. Buna görə də Vasil Allahın Zatını qəbul edib sifətlərini inkar edir və ilahi Zatın hər cür sifətdən xali, uzaq olduğu müddəasını irəli sürür. Onun fikrincə, Qurani-Kərimdə və hədislərdə Allah-təalaya aid edilən sifətlər məcazi məna daşıyıb bizim idrakımıza, əqli səviyyəmizə uyğun olaraq bu cür işlədilmişdir. Təbii ki, Vasilin və onun tərəfdarlarının Allahın Zatını qəbul edib sifətlərini inkar etmələri islamın tövhid əqidəsini qorumaq və bu etiqadı gələcəkdə ona üz verə biləcək təhlükələrdən xilas etmək məqsədini güdürdü.

Sonrakı mötəzililərdən filosofların təsirinə daha çox məruz qalan Əbul-Huzeyl əl-Əllafın fikrincə, Allah-təala elm ilə alimdir, Onun elmi Zatıdır;

qüdrətilə qadirdir. Onun qüdrəti Zatıdır. Göründüyü kimi, Əllafın bu müddəası "Allahın Zatı birdir, onda heç bir yöndən çoxluq yoxdur" – deyən filosoflardan əxz olunmuşdur.

Əllafın sifətləri Zatın eyni olaraq qəbul etməsi fikrinə mötəzililərdən etiraz edənlər çox olmuşdur. Mötəzililərin böyük bir qismi sifətləri inkar edənlər belə bir müddəaya əsaslanırlar ki, zatı ilə həyat sahibidir.

Məşhur ilahiyyatçı Şəhristanı Əllaf ilə digər mötəzililər arasındakı bu ixtilafın mahiyyətini izah edərkən göstərir ki, "Allah elmi ilə deyil, Zatı ilə alimdir" deyənlə, "Allah Zatı olan elmlə alimdir" deyənlər arasındakı fərq bundan ibarətdir ki, birincilər sifətləri inkar edir, ikincilər (əllaf və tərəfdarları) isə Zatın sifətlərinin eyni olduğunu isbat edir və ya sifətlərin eynilə zat olduğunu söyləyirlər.

**Əhli-sünnət** məzhəblərinin nəzəri bünövrəsini təşkil edən Əşəriyyə və Matüridiyyə kəlam məktəblərinin fikrincə, Allaha iman Onun Zatı haqqında vacib kamal sifətlərilə, caiz olan sifətlərini bilib eləcə inanmaq, Haqq-təalanın uca Zatını naqis sifətlərdən pak tutmaq deməkdir. Allahın sifətlərinin hamısı Zatı kimi əzəli və əbədidir. Allahın sifətlərinin heç biri digər varlıqların sifətlərinə bənzəməz. Məxluqat üçün Allahın Zatını tanıma və bilmə imkanı olmadığından biz Haqq-təalanı ancaq isim və sifətlərilə tanıyır və beləcə də inanırıq. Buna görə də Allahın sifətlərini bilməyə möhtacıq.

Sifətlər Allah-təalanın Zatına nisbət edilən bir məna, daha doğrusu, bir məfhum, bir anlayışdır.

Allah-təalanın sifətləri öz əksini aşağıdakı beş qisimdə tapır:

1. **Sifati-həfsiyyə.**
2. **Sifati-səlbiyyə.**

Bunlar Allah-təalanı şanına layiq olmayan sifətlərdən təcrid etdikləri üçün sifati-səlbiyyə (inkari sifətlər) adını almışdır.

3. **Sifati-sübutiyyə.** Bunlar Allahın Zatına yeni bir məfhum, müqəddəs bir məna əlavə edən, əzəldə mövcud və onunla qaim olan sifətlər olduğu üçün onlara eyni zamanda **sifati-zatiyyə, sifati-məani** və **sifati-ikram** adları da verilmişdir.

4. **Sifati-xəbəriyyə.** Bunlar Quran ayələrində və hədislərdə işlədilib həqiqi mənalarını bilmədiyimiz sifətlərdir.

5. **Sifati-feliyyə.** Allah-təalaya vəsf edilməsi həm mümkün, həm də mümkün olmayan sifətlərdir. Bunlara **sifati-caizə** (mümkün olan sifətlər) də deyilir.

**Sifati-nəfsiyyə** və ya **vücud.** Vücud – var olmaq deməkdir. Bu sifət Allahın həmişə var olduğunu ifadə edir. Allah vardır, Onun varlığı Zatının vacibliyi, zəruriliyidir, başqasından deyildir. Allahın vücudu Zatının vacibliyi, zəruriliyi olduğu üçün ona **Vacibul-vücud** deyilir. Bu sifət bütün digər sifətlərin əsli və mənbəyidir.

Sifati-səlbiyyə beşdir:

1. **Qidəm.** Əzəli olmaq, varlığının bir başlanğıcı olmamaq deməkdir. Allahın varlığı Zatının zərurəti olduğu üçün O, qədim və əzəlidir, ilk olandır, sonradan, var edilmiş deyildir.

Qidəm Haqq-təaladan Zatına layiq olmayan keçmişdəki yoxluğu inkar edir.

2. **Bəqa.** Varlığının sonu olmamaq, əbədi olmaq deməkdir. Allahın varlığının başlanğıcı olmadığı kimi, sonu da yoxdur. Çünki başlanğıcı olmayan bir varlığın sonunun da olmaması vacib olur.

3. **Müxalifətun-Lihavadis.** Sonradan olanlara, yaranmışlara bənzəməmək deməkdir. Allahdan başqa hər bir şey sonradan olmadır. Allah-təala Zatında, sifətlərində heç bir şeyə bənzəməz. Bu sifət Allahın Zatında və sifətlərində hər hansı bir kimsəyə, yaxud hər hansı bir şeyə bənzədiyini inkar edir.

4. **Qiyam Binəfsihi.** Allahın başqa bir zata və ya məkana möhtac olmayaraq öz-özlüyündə mövcud olması deməkdir. Bu sifət Allah-təaladan hər hansı bir ehtiyacı inkar edir. Bu sifətin ziddi olan mütləq ehtiyacı Allaha aid etmək qeyri-mümkündür.

5. **Sifati-sübutiyyə.** Əhli-sünnəti-xassə deyilən Sələfiyyəyə (Peyğəmbər əleyhissəlamın əshabəsi, onlardan sonra gələn tabein və onların məzhəblərini mənimsəyənlərə) görə, Allahın sübuti sifətləri vardır. Biz bu sifətlərə inanmağa mükəlləf olduğumuz halda, onların həqiqiliyini bilməyə mükəlləf deyilik. Çünki Allahın sifətləri idrak baxımından Onun Zatı kimidir. Allah-təalanın Zatını dərk etməkdə aciz olduğumuz kimi, Onun sifətlərinin həqiqiliyini də dərk etməkdə acizik. Bu, bəşər idrakının və qüvvətinin fövqündədir.

Əşərilərə və matüridilərə görə isə, sübuti sifətlər Zati-ilahiyə əzəldə sabit, vücudi və əzəli olub mənası, məfhumu Ona zidd (əlavə) olan kamal sifətləridir. Yəni Allah-təala alimdir, elmi vardır; qadirdir, qüdrəti vardır; müriddir, iradəsi vardır və i. a. Məlumdur ki, alim adı (ismi) elmi olana verilir, elmi olmayan bir alim təsəvvür oluna bilməz. Qadir adı qüdrəti olana verilir, qüdrəti olmayan bir qadir təsəvvür edilə bilməz və s.

**Sübuti sifətlər Zati-İlahinin eyni olmayıb ona əlavədir,** çünki:

a) Bu sifətlər zatın eyni olsaydı, bir-birindən ayırd edilə bilməzdi. Belə olduğu təqdirdə elm qüdrətin eyni, qüdrət iradənin eyni, iradə isə həyatın eyni olmalı idi. Beləliklə, nə Zati-İlahi öz sifətlərindən, nə də Onun sifətləri bir-birindən ayırd edilə bilərdi. Bunun isə batil olduğu göz qabağındadır.

b) Elm, iradə, qüdrət kimi sübuti sifətlər Zatın eyni olsaydı, heç bir dəlilə möhtac olmadan Allah-təalanın alim, qadir və mürid olduğunu bilməyimiz lazım idi. Halbuki bu məsələ dəlilə möhtacdır.

c) Bu sifətlər Zatın eyni olsa idi, Zatın xüsusiyyətlərini, özəlliklərini daşımalı idi. Məsələn, elmi vacibül-vücud, öz-özünə mövcud, bu aləmin xaliqi və başqa hər cür kamal sifətləri ilə vəsf olunması lazım idi. Bunun da mümkün olmadığı açıq-aşkardır.

**Sübuti-sifətlər Zati-İlahinin qeyri də deyildir.** Çünki onlar Zati-İlahinin qeyri olsaydılar, qədim olan bu sifətlərin hər birinin müstəqil bir varlığı olması, dolayısı ilə birdən çox qədimin mövcud olması lüzumu meydana çıxardı. Belə bir müddəa isə batildir. O halda bu sifətlər vücud (varlıq) baxımından Zati-İlahi ilə birdir.

Mötəzililər əhli-sünnətin Allaha əlavə etdiyi sübuti sifətləri iki qrupa ayırırlar. Birinci qrupa daxil olanlar forma baxımından sifət olan *Həyy, Alim, Qadir* kimi düzəltmə sözlərdir. Mötəzililər bu sifət-

ləri mənəvi sifətlər adlandırıb onları Allah-təalaya əlavə edirlər. İkinci qrupa daxil olanlar isə yuxarıdakı mənəvi sifətlərin kökünü **(əsasını)** təşkil edən *həyat, elm, qüdrət* kimi məsdər formasında olan sözlərdir ki, bunlar *məani-sifətlər* adlandırılır və Allah-təalaya əlavə edilmir. Buna görə də mötəzililər "Allah alimdir" hökmünü qəbul edir, amma "Allah elm sahibidir" hökmünü qəbul etmirlər. Əgər Allahın Zatından başqa elm sifəti deyə müstəqil bir məna təsəvvür ediləcək olursa, o halda bu sifət də Allahın Zatı kimi qədim olur və nəticədə qədim varlıqlar çoxalmış, birdən çox qədim varlıq qəbul edilmiş olur ki, bu da Tövhid prinsipinə xələl gətirir. Əhli sünnətin rəyinə görə isə, bu müddəanın məsələnin mahiyyətinə heç bir dəxli yoxdur.

**Sifati-sübutiyyə səkkizdir:**

1. **Həyat** – diri və canlı olmaq deməkdir. Allah həyat sifəti ilə vəsf olunur. Bu sifət Allah-təalanın Zatına vacib olan sübuti sifətlərin ilkidir və Zati-İlahidən əsla ayrılmayan bir sifətdir. Çünki vücudun, varlığın kamalı diri olmaqla gerçəkləşir. Lakin Allaha xas olan həyat məxluqatda görünən, maddənin ruh ilə birləşməsindən əmələ gələn keçici (fani) və maddi bir həyat olmayıb əzəli və əbədidir, bütün həyatların qaynağı olan həqiqi bir həyatdır.

2. **Elm** – bilmək deməkdir. Allah-təala olmuşu, olanı, olacağı, keçmişi, indini, gələcəyi, aşkarı, gizlini, zahiri, batili – qısası hər şeyi bilir. Onun elmi yaranmışların elminə bənzəməz, artmaz, əksilməz. Allaha unutma üz verməz. Onun hər şeyi əzəldən bilməsi bu və ya digər işin, hadisənin həmin şəkildə meydana gəlməsinə təsir göstərmir. Allah-təala əzəli olan elmi ilə bütün işləri, hadisələri onlar nə cür olacaqlarsa, o cür bilir. Allahın hər şeyi bilməsi işlərdə, hadisələrdə heç bir məcburiyyət meydana gətirməz. Haqq-təalanın bütün işləri öncədən bilməsi, olacaq şeylərdən agah olması onları o cür olmağa məcbur etməz. Allah-təala onları məhz o cür olacaqları üçün o cür bilir.

Allahın elmi, məxluqatın elmindən fərqli olaraq, bir düşüncə, fikir və ya mühakimə məhsulu olmaqdan xalidir. Çünki Onun elmi, Zatının gərəyi, zərurəti olan əzəli bir sifətdir.

3. **İradə** – istəmək, diləmək deməkdir. Bir şeyi edib-etməməyi qərara almaq, qət etmək mənasına gəlir. Allah-təala müriddir, yəni gördüyü işlərdə iradə sahibidir. İradə sifəti Allah haqqında vacib, iradənin ziddi olan məcburiyyət isə Onun barəsində qeyri-mümkündür.

Zat və sifətlərində məxluqatdan heç kimə, heç nəyə bənzəməyən Allah-təala tam və kamildir. Kainat Onun əzəli iradəsinə uyğun olaraq yaradılmışdır. Heç bir şey Ondan işığın günəşdən, tüstünün alovdan çıxması kimi məcburi olaraq zühur etməmişdir. Əksinə, O hər şeyi əzəli iradəsinin bir təzahürü, bir təcəllisi olaraq istədiyi zamanda və istədiyi şəkildə yaratmışdır. Allahın iradəsi əsla məxluqatın iradəsinə bənzəməz.

4. **Qüdrət** – Allah-təalanın sonsuz qüdrət və qüvvət sahibi olması, bütün məxluqatına öz iradə və elminə uyğun tərzdə təsir etməsi, onları öz hökmü altına alması, idarə etməsi deməkdir.

ALLAHIN

Qüdrətin ziddi olan acizlik Allah haqqında düşünülə bilməz. Allahın qüdrətinin yetməyəcəyi heç bir şey yoxdur. Allah aciz deyildir. Bütün kainatın varlığı və nizamı Allahın qüdrətinin əsəridir.

5. **Təkvin** – yox olan bir şeyi yoxluqdan varlığa çıxarmaq, yoxdan var etmək deməkdir. Allahın Zatı ilə qaim olan, əzəli və sübuti bir sifətdir. İcad, təsir, ixtira, ihlas (yaratma) kimi sözlərlə də ifadə edilən təkvin sifəti yaratmaq, ruzi vermək kimi feli sifətlərin mənbəyidir.

Əşərilərə görə, təkvin həqiqi bir sifət olmayıb etibari və nisbi (izafi) sifətdir, Allahın Zatı ilə qaim deyildir. Onların fikrincə, təkvinə verilən funksiya yaratmaqdır. Halbuki qüdrət sifətinə iradənin qatılması ilə eyni nəticə hasil olur, buna görə də başqa sifətə ehtiyac qalmır.

Matüridilər isə belə hesab edirlər ki, təkvin elm, qüdrət və iradə sifətlərindən başqadır. Təkvin yaratmada, var etmədə feldən təsir edən sifətdir. Buna görə təkvin sifəti də qüdrət və iradə kimi mümkünatla (yaradılmışlarla) əlaqədar olur.

6. **Səm** – eşitmək deməkdir. Allah-təalanın eşitmək qəbilindən olan hər şeyi eşitməsi Onun kamal sifətlərindən biridir. Allah səmidir, yəni eşidəndir. Ancaq Onun eşitməsi heç bir zaman məxluqatın eşitməsi ilə müqayisə edilə bilməz. Allahın bir şeyi eşitməsi başqa bir şeyi eşitməsinə maneə törətmədiyi kimi, O, eşitmək üçün qulaq, sinir, beyin kimi maddi alət və üzvlərə də möhtac deyildir. Biz Allah-təalanın eşidən olduğuna inanır, bu eşitmənin mahiyyət və keyfiyyətini isə araşdırmırıq. Çünki bunu bilməyə mükəlləf olmadığımız kimi onun mahiyyət və keyfiyyətini bilmək imkanına da malik deyilik.

7. **Bəsər** – görmək deməkdir. Allah-təala görmək qabilindən olan hər şeyi görür. Heç bir şey Allahın görməsindən gizli qalmaz. Allah görmək üçün gözə, işığa və s. maddi şeylərə möhtac olmadığı və Onun görməsi heç bir zaman məxluqatın sifətləri ilə müqayisə edilə bilməyəcəyi üçün Haqq-təalanın görməsinə heç bir şey mane ola bilməz. Allah gizlini də, aşkarı da, qaranlıqdakını da, işıqdakını da, uzaqdakını da, yaxındakını da eyni şəkildə görür və bilir. Onun elminin həddi-hüdudu olmadığı kimi, eşitmə və görməsinin də həddi-hüdudu yoxdur. Məxluqatın eşitməsi və görməsi isə məhduddur.

8. **Kəlam** – danışmaq, söz deməkdir. Kəlam Allah-təalanın səslərə və hərflərə, bu səslərdən və hərflərdən meydana gələn sözləri və cümlələri tərtib etməyə möhtac olmadan danışmasıdır. Allah-təala danışandır. O, peyğəmbərlərinə kitab nazil etmiş, onların bəziləri ilə danışmışdır. Kəlam sifəti Allahın Zatı ilə qaimdir və əzəldir. Allah-təala kəlam sifəti ilə əmr edər, qadağa qoyar, xəbər verər və i. a.

Sələfə görə, Qurani-Kərim Allah kəlamıdır və məxluqi (yaradılmış) deyildir. O, Allaha qaimdir, Ondan ayrı deyildir. Çünki Quran sadəcə olaraq hərflərdən (səslərdən) və sözlərdən, yaxud yalnız mənadan ibarət deyildir. O həm sözlərdən, həm də mənadan təşəkkül tapmışdır. Buna görə də onlar belə hesab edirlər ki, Quranın nə hərfləri (səsləri), nə də sözləri məxluqi deyildir.

Mötəzililər isə Quranın hərf, səs, ayə, surə və cüzlərdən ibarət olduğunu, onun tənzil və inzal (endirilmə) kimi yaradılmış (hudus) əlamətləri ilə vəsf olunduğunu göstərərək Allah kəlamının məxluqi olduğunu iddia etmişlər. Onların fikrincə, Allahın danışan (mütəkəllim) olması Onun danışığı (kəlamı) bir məhəldə, məsələn, Lövhi-məhfuzda, Cəbrayıl əleyhissəlamda, yaxud Peyğəmbər salavatullahda yaratması deməkdir. Halbuki əhli-sünnətə görə, Allah-təala kəlamı yaratdığı üçün deyil, kəlam sifəti ilə vəsfləndiyi üçün danışandır (mütəkəllimdir). Çünki Allah-təala qara rəngi yaratdığı üçün qara, ağ rəngi yaratdığı üçün ağ deyilməsi mümkün olmadığı kimi, danışığı yaratdığı üçün də danışan deyilə bilməz. Allah-təalaya məhz danışıqla danışması üçün danışan deyildir.

Digər tərəfdən bir sıra əhli-sünnət ilahiyyatçıları Sələflə Mötəzililər arasında orta mövqe tutaraq kəlamı nəfsi və ləfzi olaraq ikiyə ayırmışlar. Onların fikrincə, nəfsi kəlam Allahın Zatı ilə qaim olan və mahiyyətini dərk edə bilmədiyimiz əzəli bir sifətdir. Ləfzi kəlam isə nəfsi kəlama dəlalət edən hərflərdən və səslərdən təşəkkül tapmış Quranın ləfzidir (sözüdür). Bu ləfzi kəlam əzəli olmayıb yaradılmış xüsusiyyətlərinə malikdir.

**Sifəti-xəbəriyyə** – Quranda və hədislərdə işlədilib həqiqi mənalarını bilmədiyimiz vəch (üz), yəd (əl), istiva (bərqərar olma, dümdüz oturma) və s. bu qəbildən olan sözlərdir. Zahiri mənaları əsas götürüldükdə **təşbihə** və **təcsimə** gətirib çıxaran bu sifətlərin yozumla izah edilib edilməməsinin mümkünlüyü barədə əhli-sünnət ilahiyyatçıları arasında ixtilaf vardır. Kəlamçıların çoxu bu kəlmələrin məcazi mənada işləndiyini qeyd edərək **yəd** sözünü Allahın Zatı, istiva sözünü isə Allahın ərşi və s.-ni yaradıb öz hökmü altına alması kimi izah edir.

**Sifəti-feliyyə** – feli sifətlər. Müəyyən bir iş, hərəkət və əməllə bağlı olan bu sifətlərlə Allah-təalanı yerinə görə vəsf etmək də olar, vəsf etməmək də. Başqa sözlə, Allah barəsində həm mənfi, həm də müsbət olaraq işlədilə bilən sifətlərə feli sifətlər deyilir. Bu sifətlərin Zati-İlahiyə nisbət edilməsi vacib deyildir. Feli sifətlərin hamısı Allah-təalanın qüdrəti, iradəsi və təkvini ilə meydana gəlir.

Əhli-sünnət ilahiyyatçıları feli sifətləri əsasən aşağıdakı beş qismdə cəmləndirmişlər:

a) Yaratma (**təxliq**). Yaratma Allaha məxsusdur. Allahın mümkün olan hər şeyi yaratması da, yaratmaması da mümkündür.

b) Hidayət etmək və zəlalətdə buraxmaq (**ihla** və **izlal**) Allah-təalanın istədiyinə hidayət etməsi, istədiyini də zəlalətdə saxlaması (haqq yoldan sapdırması) caizdir.

c) Peyğəmbər göndərmək və kitab nazil etmək (**irsal** və **inzal**). Allah-təala heç bir məcburiyyət olmadan peyğəmbərlər göndərmiş və kitablar nazil etmişdir. Bütün bunlar Allah üçün vacib deyil, caizdir (mümkündür).

ç) Öldükdən sonra diriltmə (**bəs** və **nəşr**). Bəs Allah-təalanın bəndələrini öləndən sonra təkrar diriltməsi, nəşr isə onları haqq-hesab çəkmək üçün bir yerə cəm etməsidir. Allah-təala bunların olacağını xəbər verdiyi üçün bəs və

nəşr gerçək olacaqdır. Allah-təala bəsi və nəşri də öz iradəsi ilə edəcəkdir, yoxsa onları məcburən edən deyildir.

d) Nemət bəxş etmək və əzab vermək (**tənim** və **təzib**). Allah-təala bəndələrindən dilədiyinə nemət bəxş edər, dilədiyinə də əzab verər. Bunların heç biri Onun üçün məcburi deyildir. Mülkün sahibi O olduğu üçün öz mülkündə istədiyi kimi də hərəkət edər.

**ALLEN İTEN** (1737-1789) – Amerika maarifçi deisti (b a x: **Deizm**), XVIII əsrdə ABŞ-ın istiqlaliyyəti uğrunda gedən müharibənin qəhrəmanı. Fəlsəfi görüşlərinə görə Barux Spinozaya yaxındır. "Ağıl – insanın yeganə orakuludur və ya təbii din sisteminin qısa izahı" adlı kitabında (1784) o, xristianlığı, ayinləri və sitayişləri, Bibliyanı inkar edir. Xüsusən, orada dünyanın yaradılması haqqında rəvayəti tənqid edib möcüzələrə inamın əleyhinə çıxırdı. Allen Allahı daim fəaliyyətdə olan səbəb kimi qəbul edərək belə hesab edirdi ki, o, Bibliya vasitəsilə yox, "təbiət vasitəsilə dərk olunur", təbiət əbədi və nəhayətsizdir, materiyanın dəyişilən formasıdır. Allenin kitabı ABŞ-da ənənəvi dinlərə, xüsusən xristianlığa qarşı tənqidi münasibətlərin yayılmasında mühüm rol oynamışdır. Elə buna görə bu kitab hələ müəllifin sağlığında naşiri tərəfindən yandırılmışdır.

**AMATERASU** (*yun.* "səmaları işıqlandıran") – günəş ilahəsi, Yaponiyada yayılmış sintoizm ilahilər panteonunun mərkəzi simasıdır. Əfsanələrdə onu İdzanaqinin və İdzaanminin qızları kimi təqdim edirlər. Burada onun kiçik qardaşı şər ilahisi Susano ilə ədavətindən, mağarada gizlənməyi nəticəsində dünyanın zülmətə qərq olunmasından və buna görə də ilahilərin rəqslərə girişib onu mağaradan bayıra çıxarmağa cəhd etmələrindən və i.a. bəhs edilir. Yaponiyanın imperatorları (b a x: Dzimmutenno) öz əfsanəvi mənşələrini Amaterasuya aid edirlər.

**AMBROZİYA** (*yun.* ambrosiya) və **NEKTAR** (*yun.* nektar) – qədim yunanların təsəvvürlərinə görə ölməzlik və əbədi gənclik verən ilahilərin yeməyi və içkisi.

**AMENXOTEP IV**, Exnaton (e.ə. təxm. 1424 – təxm. 1400) – Misirin XVIII sülaləsinin Yeni çarlıq dövrünün fironu. Kahinlərin və onlarla birləşən mülkədar əyanlarının qüvvətlənən siyasi və iqtisadi hökmranlıqlarını zəiflətmək üçün IV Amenxotep Misirin keçmiş ilahilərinə, xüsusən Fivdə olan baş ilahi Amona pərəstişi əvvəlcə məhdudlaşdırdı, sonra isə ləğv etdirdi. Onların adı ilə bağlı məbədləri bağlatdıraraq kahinlərin gəlirlərindən məhrum etdi və yeni Aton (Günəş dairəsi) ilahisinə pərəstiş etməyi bərqərar etdi. Özünü bunun baş kahini elan etdi. Bu, din tarixində monoteizmin (təkallahlılıq) yaranması sahəsində təsdiq edilmiş birinci təşəbbüs hesab olunur. Öz şəxsi "Amon məmnundur" adını o, Exnatonla ("Atona faydalı") əvəz edib iqamətgahını Fiv şəhərindən əsasını özü qoyduğu Axenatona (müasir Tell əl-Amarna) keçirdi. İslahatlar vaxtı IV Amenxotep əhalinin orta təbəqələrinə arxalanırdı, lakin onların vəziyyətini yaxşılaşdırmağa imkanları olmadığı üçün tezliklə, köməklərindən məhrum oldu. Həyatının sonunda IV Amenxotep,

görünür güzəştlərə getməyə məcbur oldu. Onun xələfi Tutanxamonun vaxtında irtica qüvvələri üstün gəldi, IV Amenxotep isə kahinlər tərəfindən lənətlənib adı bütün abidələrdən silindi.

IV Amenxotepin vaxtından təsviri incəsənətin gözəl nümunələri, o cümlədən firon arvadı Nefertitinin heykəlləri qalıb.

**AMİDAİZM** – b a x: **Buddizm** (Yaponiyada).

**AMİN** (*qədim yəhudicə* və *ər.*) – duanı bitirdikdə, "həqiqətən, düzdür" mənasında işlənilən sözdür.

**AMİTABA** (*sanskritcə* hərfən – "nəhayətsiz işıq") – buddistlərin təsəvvürlərinə görə buddalardan biri, cənnətin hökmranı ("Sukavati torpağının").

**AMON** – Qədim Misir dinində – əvvəlcə Fivada ehtiram edilən bərəkət ilahisi. Bu şəhərin yüksəlməsi ilə əlaqədar (e.ə. II minillik) bütün Misirin baş ilahisi kimi ehtiramlandı. Amon-Ra adı ilə Günəşin qədim ilahisi Ra ilə eyniləşdirilib. Onun arvadı yerli ilahə Mut və oğlu isə ilahi Xonsu hesab edilirdilər. Amon adətən başında iki quş lələyi olan papaqla təsvir olunurdu. Onun müqəddəs heyvanı qoç idi. Fiva şəhərində Amonun adına ölkənin ən nəhəng Karnak adlı ibadətgahı bina olunmuşdu. Buranın kahinləri saysız-hesabsız var-dövlət yığdıqları üçün böyük siyasi nüfuza malik idilər.

**AMULET**, tilsim (*ər.* həmələdən, *lat.* amuletum, *frans.* talisman) – möcüzə qüvvəsinə malik olan əşya, xurafata inanan adamların təsəvvürü ilə onu gəzdirən adama başqaları üzərində və təbiət hadisələrinə fövqəladə təsiredici qüvvə verir, xəstəliklərdən, bədbəxt hadisələrdən, cadulardan və s. qoruyur.

**AMUR** – b a x: **Erot**.

**ANABAPTİSTLƏR** (*yun.* anabaptizo – yenidən qərq edirəm, yenidən "xaça çəkirəm"), ya da özlərini "xaçpərəst qardaşlar" kimi adlandıran **Reformasiyanın** (XVI əsr) kəndli-plebey (yoxsul) cinahının nümayəndələri. Bütün protestantlar kimi nəinki din xadimləri ilə dindarlar arasında bərabərliyi, hətta mülki və əmlak bərabərliyi də təbliğ edirdilər. Anabaptistlər taleyi rədd edir, belə qənaətə gəlmişdilər ki, azad iradəyə malik olan şəxsiyyət özü öz "ilkin günahına" qalib gələ bilər. Onlar vicdan azadlığını təbliğ edirdilər və buna görə də yaşlıları ikinci dəfə xaça çəkirdilər. Anabaptistlərin birinci nəsli buna görə yenidən ikinci dəfə xaça çəkilirdi (buradan da adları meydana gəlib). Anabaptistlər xaça çəkilməyi dini sirr yox, adi rəmz hesab edirdilər. Anabaptistlərin bəziləri unitar olmuşlar. Bibliyanın düzgün dərketmə şərtlərini anabaptistlər ruhun "müqəddəs ruhla" nurlanmasında görürlər. Bu təlim müqəddəs kitabı nüfuzdan salıb sərbəst düşüncələrə imkan verirdi. Anabaptistlərin dini xadimləri və kilsələri yox idi. Onlar öyrədirdilər ki, "əxlaqlı adamlar"ın mövcud olan dövlətə ehtiyacları yoxdur və nə qədər ki, "günahkarlar" var, dövlət işlərindən kənara çəkilirdilər. Anabaptistlərin bəziləri pasifist mövqe tutur, digərləri, əksinə, cəmiyyətin yaxşılaşdırılması naminə zorakılığın tətbiqini təbliğ edirdilər. Anabaptistlər ən amansız təqiblərə məruz qalmışlar, onları zindanlara atır, işgəncəyə salır, suda boğur,

dar ağacından asır, başlarını kəsirdilər. Anabaptistlər hərəkatının yüksəlişi XVI əsrin 20-30-cu illərinə aiddir. Hərəkat xüsusən Almaniyada, İsveçrədə, Moraviyada və Hollandiyada inkişaf etmişdi.

**ANAKSAQOR** (Anaksaqoras, e.ə. təxm. 500-428-ci illər) – qədim yunan materialist filosofu. O, iddia edirdi ki, dünya təbii yolla əmələ gəlib, həmişə var idi və ona məxsus olan qanunlarla inkişaf edir. Əşyaların müxtəlifliyini onların meydana gəlib məhv olmasını Anaksaqor onların birinci ünsürlərinin "şeylərin toxumlarının" birləşmələrinə və bölünmələrinə gətirirdi. "Şeylərin toxumlarının" birləşmələrinin və bölünmələrinin səbəblərini o, ən incə maddədən ibarət olan "nus"da – xüsusi "idrak"da görürdü. Əsasında materializm olan Anaksaqorun fəlsəfəsi dini görüşlərin əleyhinə yönəlmişdi. Afinanın quldar hökuməti Anaksaqoru allahsızlıqda təqsirləndirib onu ölüm cəzasına məhkum etmişdi, lakin o qaça bilib gizlənmişdi.

**ANAKSİMANDR**, Anaksimandres, (e.ə. təxm. 610-546-cı illər) – qədim yunan filosofu, Milet materialist-filosoflar məktəbinin nümayəndəsi. O, dünyanın əmələ gəlməsi barədə dini əfsanələri qətiyyətlə rədd etmişdir. Ona görə, bütün kainatın əsasında qeyri-müəyyən, əbədi və nəhayətsiz materiya – "apeyron" (hərfi-intəhasız) durur, bu da daim hərəkətdə olub saysız-hesabsız miqdarda müxtəlif əşyalar törədir. Anaksimandr birincilər içərisində olub, əmələ gəlib dağılan dünyaların çox olması ideyasını irəli sürmüşdür. Onun fikrincə, Yer kainatın ortasında olub üç səmavi halqalarla: günəş, ay və ulduz halqaları ilə əhatə olunub. Onun təkidinə görə, təbii dünya ilahilərin iştirakı olmadan sudan, günəşin təsiri altında əmələ gəlib.

**ANAT** – Finikiya dinində münbitlik və məhəbbət ilahisidir. Uqarit şəhərində yayılan əfsanəyə görə, Anat öz qardaşı və məşuqu, yaşıllığın gənc ilahisi Vaalın (və ya Aliyyonun) intiqamını alırdı: Vaalı məhv edən ölüm ilahisi Motaya hücum edən Anat onu oraqla öldürüb, meyitini xırmanda o qədər döydü ki, Vaal yenidən canlandı.

**ANHRA-MAYNYU** (*qədim fars.* "düşmən ruhu") – Zərdüştilikdə xeyirxah Ahuramazda ilahisiylə daim mübarizədə olan, zülmü təcəssüm edən zalım ilahidir. Qədim yunanlılar onu Ariman adlandırırdılar.

**ANİMALİZM** – b a x: **Zoolatriya.**

**ANİMİZM** (*lat.* animus, anima – ruh, can) – cisimsiz, maddi olmayan vücudlara inam, dinin ən daimi və ən mühüm elementi. Animizm istilahının geniş elmi tətbiqini E.Teylor həyata keçirib. O, animizmə "dinin minimumu" və ümumiyyətlə, dinin ibtidai inkişafı kimi baxırdı. Teylordan sonrakı alimlərin çoxu animizmə onun kimi yanaşır, lakin Q.V.Plexanovun və başqalarının – animizm ümumiyyətlə, hər bir dinin vacib elementidir – fikri daha düzgündür. Animizmsiz din yoxdur.

**ANQLİKAN KİLSƏSİ** – kilsə rütbələrini və təmtəraqlı dini ayinləri saxlamış, katolikliyə yaxın olan, protestantizmə məxsus olan İngiltərənin dövlət kilsəsidir. Bu kilsə Anqlikanlıq kilsəsinin

xilasedici qüvvəsi haqqında katolik ehkamını protestantların şəxsi inam vasitəsilə xilas olmaq nəzəriyyəsi ilə birləşdirir. Anqlikan kilsəsi Reformasiya dövründə meydana gəlib İngiltərədə kral mütləqiyyətinin möhkəmləndirilməsinə qulluq edirdi. 1534-cü ildə parlamentin "Üstünlük aktı" əsasında Anqlikan kilsəsinin başçısı kral elan edilmişdi. Bundan sonra Vatikanla kilsə əlaqələri qırılıb monastırlar ləğv olunmuş, müqəddəs cəsədlər və ikonalar yandırılmış, monastır torpaqları isə zəbt olunub dvoryanlara paylanmışdır. Parlamentin qərarları ilə 1549-cu ildə bütün ingilislərə vacib olan "İcma ibadəti kitabı" və 1571-ci ildə 39 maddədən ibarət anqlikanlığın inam rəmzləri təsdiq edilmişdi. Yeni dövlət kilsəsinin yaranmasına razı olmayan katolik və kalvinistlər vəhşicəsinə təqib olundular. Anqlikan kilsəsi inzibati cəhətdən başda arxiyepiskop olmaqla iki, Kenterberi və York kilsə vilayətlərinə bölünür. Anqlikan kilsəsinin müstəqil təşkilatları Şotlandiya, Uels, İrlandiya, ABŞ, Kanada, Avstraliya, Yeni Zelandiya, Hindistan, Koreya, Yaponiya, Cənubi Afrika və Qərbi Afrikada fəaliyyət göstərirdi. Bu ölkələrdə kilsə dövlətdən ayrıdır. Bu kilsələr arasında əlaqələr Lambet konfransları adını daşıyan "Anqlikan kilsələri ittifaqı"nın ali orqanı tərəfindən həyata keçirilir. Müasir dövrdə dünyada 30 milyon anqlikan var, o cümlədən 3 mln. İngiltərədə, 2 mln. Kanadada və 3 mln. ABŞ-da yaşayır.

**ANTİOXİYA KİLSƏSİ** – b a x: **Pravoslavlıq.**

**ANTİPAPA** (*lat.*) – orta əsrlərdə müxtəlif nüfuzlu kilsələrlə kübar dairələri və papalıq taxtına iddia edənlər arasındakı mübarizələr vaxtaşırı elə vəziyyətə gəlirdi ki, papalıq taxtında iki və hətta üç papa otururdu. Onların bir qədəri sonralar katolik kilsəsi tərəfindən antipapa adlandırılıb, taxta seçilmələri isə qeyri-qanuni hesab edilmişdir. Rəsmi siyahıya görə III əsrdən XV əsrə qədər 37 papa olub. B a x: həmçinin – **Papalıq məqaləsinə.**

**ANU** – şumerlər, babillilər və aşşurluların inamlarında Səma ilahisi olub onların ilahilər panteonunda Enlilə qədər olan baş ilahidir. Ən qədim əfsanələrə görə Anu əvvəllər yer ilahəsi Ki ilə ayrılmaz surətdə bağlı idi, lakin onlardan doğulan hava ilahisi Enlil atasını anasından ayırdı və hər iki ünsür birbirindən ayrı oldu. Anuya ithaf olan ehtiram mərkəzi Uruk şəhərində idi.

**ANUBİS** – Qədim Misir dinində – əvvəlcə Yuxarı Misirin bir dairəsində (Kinopol nomu) ölüm ilahisi olub, sonra ölülərin, qəbiristanların və dəfn mərasimlərinin himayəçi ilahisi olub. O, ya "Osirisin qardaşı, ya da Neftidadan doğulan qeyri-rəsmi oğlu hesab olunurdu. Müqəddəs heyvan sayılan çaqqal kimi və ya çaqqal başlı adam kimi təsvir olunurdu.

**APİS** – Qədim Misirdə müqəddəs öküz. Pta ilahisinin təcəssümü hesab olunurdu. Sonralar Apis haqqında olan təsəvvürlər "axirət çarlığı" ilahisi Osiris haqqındakı təsəvvürlərlə birləşdi. Apisin ölümü ilə bağlı bütün ölkə matəm saxlayırdı. E.ə. VII əsrdən başlayaraq ölmüş Apisləri mumiyalayıb qranit tabutlarda (sarkofaqlarda) qədim Memfis şəhərinin (müasir Qahirənin yaxınlığında) xüsusi

qəbiristanında dəfn edirdilər. Yeni Apisi kahinlər bir sıra əlamətlərə görə axtarırdılar; qara rəngdə olmalı, alnında müəyyən formada ağ ləkəsi və dilinin altında müqəddəs skarabe) böcəyinə oxşar şişi və s. olmalı idi. B a x: həmçinin – **Serapis.**

**APOLLON,** Apolla, Feb (*yun.* foibos – "parlaq") – yunan əfsanələrinə görə, Zevsin və Latonanın oğlu. Bacısı Artemida ilə birlikdə Delos adasında doğulub. Apollonun ayini Qədim Yunanıstanda çox geniş yayılmışdı. E.ə. V əsrdə bu ayin Romada da yayıldı. Ayin ibtidai dini təsəvvürlərə gedib çıxır və uzun müddət özündə fetişizmin əlamətlərini saxlayırdı. Məs., Delfada, Omfal adlanan Apollonun daşdan düzəlmiş konus sənəmi saxlanırdı. Qədim dövrdə Apollon əkinçiliyin və heyvandarlığın himayəçi ilahisi hesab olunur və ilahilərin iradəsini pozanları vəba, taun və s. xəstəliklərə məruz edən dəhşətli intiqamçı idi. Klassik dövrdə Apollona işığın, peyğəmbərlik zəkasının ilahisi, muzaların başçısı kimi ehtiram edilirdi. Apollonun ümumyunan məbədləri Delos adasında və onun orakulu olduğu Delfada var idi.

**APOLOGETLƏR** (xristianlıq məddahları; *yun.* apologeomal – "özünü müdafiə etmək, özünü təmizə çıxarmaq") – Yustin, Tatian, Afinaqor, Tertullian və başqaları bütpərəstlik və iudaizmlə mübarizədə xristianlığın əsaslandırılması və müdafiəsi ilə çıxış edən II-III əsrlərin yazıçıları idilər. Apologetlər öz əsərlərini birinci növbədə Roma "bütpərəst" imperatorlarının adlarına yazır və xristian kilsəsinin hakimiyyətə qarşı loyal olmasını səylə sübut edirdilər. Onlar imperatorları xristianları təqib etməkdən vaz keçməyə çağırır, xristianların körpələrinin öldürülməsini mərasim etmələrini, əsassız və yalançı mühakimələri, qohumlar arasında cinsi əlaqələri və s. rədd edirdilər. Apologetlərin, xüsusən, Yustinin və Tertullianın əsərləri erkən xristianlıq tarixi üçün mühüm mənbələrdir.

**APOSTOL QARDAŞLIĞI, APOSTOLİKLƏR** (*ital.* apostoliçi) – XIII əsrin ikinci yarısında – XIV əsrin əvvəlində Şimali İtaliyada xüsusi təriqət təşkil edən kəndli-plebey hərəkatının iştirakçıları. Onun təşkilatçısı və rəhbəri sənətkar Seqarelli idi. Onlar feodal zülmünə və onu müqəddəsləşdirən katolik kilsəsinin əleyhinə çıxış edərək, mülki və sosial birliyə çağırmaqla hesab edirdilər ki, bu qədim xristian apostolların ruhuna mütabiqdir (təriqətin adı da elə buradandır). Apostol qardaşları kəndbəkənd gəzərək adamları tövbəyə çağırır və "ruh çarlığının" tezliklə peyda olacağını qabaqcadan bəyan edirdilər. 1274-cü ildə ümumkilsə Lion məclisində təriqəti küfrdə təqsirləndirdilər. 1286-cı ildə və 1290-cı ildə papalar IV Honori və IV Nikola tərəfindən təriqət qadağan edildi. 1300-cü ildə Seqarelli Parmada tonqalda yandırıldı. 1304-cü ildə onun xələfi Dolçino, Pyemont kəndlilərini feodallara qarşı üsyana qaldırdı. 1307-ci ildə feodallar üsyanı yatırtdıqdan və Dolçinonun qətlindən sonra Apostol qardaşlığı təriqəti faktiki olaraq öz fəaliyyətini dayandırdı. Təriqətin ayrı-ayrı təşkilatları Şimali İtaliya, Langelokda, İspaniya və Almaniyada XV əsrə qədər qalırdı.

**APOSTOLLAR** (*yun.* apostolos – "elçi, havariyun") – əvvəllər bunlar dinin təbliğatçıları idilər. "Didaxe"dən və qismən "İoannın vəhyi"ndən göründüyü kimi, ən qədim xristianlıq dövründə apostollar icmadan icmaya gedərək xristianlara dini nəsihət, öyüdlər verir və xristian olmayanlara dini təbliğ edirdilər. Ola bilsin, Əhdi Cədidə daxil olan çoxlu nəsihətnamələr məhz belə apostollara aiddir. Kilsə xadimlərinin artması ilə icmalardakı əsas rollar yepiskopların əlinə keçir. II əsrin ortasında **incillərin** (yevangeliye) tərtib olunması ilə əlaqədar Apostol adı əsasən "İsanın 12 şagirdinə" verildi.

**ARES,** Arey – qədim yunanlarda müharibə və hərbi rəşadətlər ilahisi. Əvvəllər Ares rifah və təbii fəlakətlər gətirən təbiətin yeraltı ilahisi idi. Sonralar, o, əsasən müharibənin dağıdıcı və məhvedici tərəflərini təmsil edirdi.

**ARXAT** (*sanskritcə* "layiqli") – buddizmdə "müqəddəsliyə" ucalan insan, mömin, **nirvanaya** yetişən. Buddistlərin nəzəriyyəsinə görə Arxatlığa tamamilə yeniləşmələrə gedən uzun yol aparır (b a x: **Sansara, Karma**) və bu yola çıxanın zahidə məxsus əxlaqı, həyata əzablar və şərə olan kimi münasibəti olmalı, öz xilası üçün həyatda olan bütün həvəs və ehtiraslardan əl çəkməlidir. Arxat haqqında nəzəriyyə xüsusi inkişafını və tətbiqini hinayanada tapmışdır. Burada arxatlar zahidliyin ən yüksək dördüncü mərtəbəsinin zahidləri hesab olunurdular. Çindəki sinonimi **aloxandır**.

**ARXİMANDRİT** (*yun.* hasarın, yəni monastırın böyüyü) – pravoslav kilsəsində yepiskopa qədərki ən yüksək zahidlik rütbəsi.

**ARXİYEREY** (*yun.* arxiyereus – "baş keşiş") – xristian kilsəsində yüksək əyanların adı (yepiskop, arxiyepiskop, mitropolit, patriarx).

**ARİANLIQ** – 318-ci ildə İsgəndəriyyə keşişi Ari tərəfindən yaradılmış rəsmi kilsə ehkamlarına zidd olan və əsasən şəhər dairələri tərəfindən müdafiə edilən xristian-dini nəzəriyyə. Arianlıq bibliya monoteizmi ilə İsanın Allah oğlu nəzəriyyəsi arasında olan ziddiyyətlərin aradan götürülməsinin birinci təşəbbüsü idi. Məntiqə əsaslanaraq Ari təkid edirdi ki, yalnız Allah əzəli və fövqəladədir, Allah oğlu isə yaranıb: ilahi mahiyyətdən yox, Allah tərəfindən doğulub (Allah oğlunun ata Allahla həmxilqət olmağını ehtimal etmək, Arinin dediyi kimi, ikiallahlığı qəbul etməkdir). Bununla bərabər, Ariyə görə, Allah oğlu "kamil məxluq" olub, hər şey onun vasitəsilə yaradılıb; ata Allahın rəğbətinə və özünün səadətə can atmasına görə, Allah oğlu ilahiliyə qalxıb Allah olur. Xristianlıq üçün başlıca olan ilahi-insan əqidəsi demək olar ki, Ari tərəfindən kənara atılırdı. Bununla əlaqədar olaraq Arianlıq 325-ci ildə Nikeya kilsə məclisində küfr kimi məhkum edilmişdi. Bundan sonra uzun dövr sürən mübarizə gedir və bu zaman gah bir, gah da ikinci tərəf üstün gəlirdi. Arinin 336-cı ildə ölümündən sonra onun nəzəriyyəsini Aetsi və Yevnomi (arianlığın sonrakı adı Yevnomianlıqdır) inkişaf etdirdilər. Arinin davamçısı duxoborlara rəhbərlik edən Makedoni hesab edirdi ki, müqəddəs ruh mələkələrə bənzər,

Ata və Oğula tabe olan bir vücud tərəfindən yaradılıb. **Üç Uğnum** haqqındakı nəzəriyyə bütövlükdə Arianlıqla mübarizədə yaranıb. 381-ci ildə keçirilən Konstantinopol ümumdünya kilsə məclisində Arianlıq yenidən küfr elan edildi. Arianlıq öz tərəfdarlarını qotlar arasında tapdı. Burada onu qotların birinci yepiskopu Ulfila təbliğ edirdi. Dəyişilmiş halda Arianlıq XVI əsrdə Polşada yenidən dirçəldi və onu təbliğ edən də Sotsin oldu.

**ARİMAN** – b a x: **Anhra-Maynyu.**

**ARİSTOTEL** (Ərəstun) – qədim yunan filosofu (e.ə. 384-322). Qədim Yunanıstanın başqa filosofları arasında "ən universal fiqur" olan Aristotel fəlsəfə, məntiq, psixologiya, fizika, biologiya, tarix, etika, estetika və siyasət məsələlərini tədqiq edirdi. Staqirada anadan olub (buna görə də onu çox vaxt "Staqirit" adlandırırdılar). Platonun (Əflatun) Akademiyasında oxuyub, Makedoniyalı Aleksandrın (İskəndər) tərbiyəçisi və Afinada Likey fəlsəfə məktəbinin təsisçisi idi. Hələ Platonun məktəbində oxuduğu vaxt Aristotel onun şeylərə münasibətlərdə ideyaların nə isə ilkin olmaları nəzəriyyəsini tənqid edirdi. O göstərirdi ki, belə yanaşma dünyanı nəinki anlatmır, yalnız cisimlərin izahatı lazım gələn kəmiyyətini göstərir. O, hesab edirdi ki, mahiyyəti ("ideyanı") mahiyyəti olduğu "şeydən" ayırmaq olmaz: əgər şeylər duyğulu dərk edilən aləmdə vardırlarsa, onda mahiyyət ideal axirət aləmində qala bilməz. Aristotel maddi aləmin obyektiv varlığını qəbul edir və hisslərə, anlayışlara və təsəvvürlərə real şeylərin törəmələri kimi baxırdı. Şeylərin mahiyyətini o, şeylərin özlərində axtarırdı. Lakin maddədə o yalnız passiv başlanğıc görürdü və bu başlanğıc xüsusi aktiv başlanğıca – "formaya" tabe idi və "bütün formaların forması"nın ən yüksəyi, onun fikrincə, Allahdır. Aristotelin materializmlə idealizmin arasında tərəddüdləri onun dialektika ilə metafizika arasındakı tərəddüdləri ilə müşayiət edilirdi. O, təbiətdə və cəmiyyətdə hərəkəti qəbul edib, hərəkətin müxtəlif növlərinin (meydana gəlməsi, məhv olunması, inkişafı, azalması, keyfiyyətcə dəyişməsi və fəzada dəyişməsi) mövcud olmasına işarə edirdi. Ziddiyyətlərin qarşılıqlı əlaqəsini, keyfiyyətli dəyişikliklərin kəmiyyətlərdən asılılığını görür, mümkünlüyün həqiqətə çevrilməsini tədqiq edirdi. Bununla bərabər hərəkətin mənbəyi – "birinci mühərriki" Allahdır və Aristotelə görə O, maddədən kənarda qalır və Özü hərəkətsiz qalaraq bütün dünyanı faydalı hərəkətə gətirir. Allah – bütün əşyaların inkişafının sonuncu səbəbi, ən yüksək məqsədidir və bunu da Aristotel entelehiya adlandırırdı. Ümumi ilə ayrının arasında olan nisbəti Aristotel düzgün başa düşmək iqtidarında deyildi.

Formal məntiqin inkişafında, xüsusən, nəticələr (sillogizm) nəzəriyyəsinin işlənməsində Aristotelin böyük elmi səyi var. Kosmologiya sahəsində Aristotel geosentrizm fikrinin tərəfdarı idi. Onun kosmoloji görüşlərini sonradan Ptolomey (e.ə. II əsr) inkişaf etdirmiş, xristian kilsəsi tərəfindən isə faktiki olaraq ehkamlaşdırılmışdır. Aristotelin bir sıra tədqiqatları bioloji məsələlərə

aiddir. O, 500-dən artıq heyvan növünü təsvir edib onların təsnifatına cəhd göstərmişdir. Aristotel estetikanın tarixində mühüm rol oynayıb incəsənətə gerçəkliyi əks etdirən sahə kimi yanaşırdı. Etika sahəsində Platonun "ideyalar ideyası" kimi verilən fayda nəzəriyyəsini tənqid edib müəyyən edirdi ki, bu nəzəriyyə həqiqi həyatla əlaqəsizdir. O hesab edirdi ki, etika məsələləri insanların ictimai vəziyyətləri ilə sıx əlaqədə baxılmalıdır. Onun fikrincə, səxavətli yalnız azad insan ola bilər, qullar isə pozğundur. O, qulun simasında yalnız ağasının malı olan "danışan alət"i görürdü. Aristotelin ictimai-siyasi və fəlsəfi görüşləri sistemi bütünlüklə, guya ən mükəmməl və buna görə də insan münasibətlərinin əbədi forması olan quldarlıq quruluşunun müqəddəsləşməsinə yönəldilib. Eyni zamanda, o, quldar əyanların əleyhinə çıxış edirdi və beləliklə, quldarların orta təbəqəsinin ideoloquna çevrilmişdi. Bununla da, onun fəlsəfəsinin ikili xüsusiyyəti izah olunur.

**Əsərləri:** "Metafizika", "Kateqoriyalar", "Fizika", "Ruh haqqında", "Siyasət", "Afina siyasəti", "Etika", "Poeziya sənəti haqqında", "Heyvanların əmələ gəlməsi, heyvanların hissələri", "Analitiklər".

**ARTEMİDA** – qədim yunan əfsanələrində ilahə, Zevsin qızı, Apollonun bacısı (Roma Dianasına müvafiqdir). Əvvəllər münbitlik ilahəsi kimi ehtiram olunurdu, sonralar doğan qadınların mühafizəçisi, Ayın ilahəsi, heyvanların və ovçuların hamisi idi. Oxlu, kamanlı ovçu kimi təsvir olunurdu. Artemida ayini ibtidai dini təsəvvürlərin qalıqlarını (ona dişi ayı surətində ibadət edilmə mərasimi) saxlayır, qədimdə insan qurbanı ilə əlaqəli idi. Əfsanəyə görə, Tavrikada ona əsirləri qurban edir, Spartada onun heykəli qarşısında oğlanları çubuqla döyürdülər. Artemidanın əsas ibadətgahı Efesdə idi və burada o, şəhərin himayəçisi hesab olunurdu.

**ARYA SAMAC** (*sanskritcə* arilər cəmiyyəti) – XIX əsrin ikinci yarısında induizmdə yaranmış islahatçılıq hərəkatı. Yaradıcısı Svami Dayanand Sarasvatidir. Hərəkatın məqsədi induizmi başqa dinlərin əlamətlərindən təmizləmək idi. Arya Samaclılar induizmin bütün dini ədəbiyyatından yalnız **Vedaları** tanıyır, görünməyən tək Allaha inanır, onun təsvirinə sitayiş etmənin və ənənəvi mərasimlərin əleyhinə çıxış edirdilər. Onlar xüsusi ibadət otaqlarında və şəxsi evlərdə ibadət edirlər. Onların mənəvi rəhbərləri özlərinin cəmiyyətlərindəndir (kahinlər təbəqəsindən yox). Əvvəllər Arya Samaclılar təbəqələr məhdudiyyətlərinin, dul arvadların ikinci dəfə ərə getmələrinin qadağan olunmasının əleyhinə fəal çıxış edir, xalq maarifinin genişlənməsi uğrunda mübarizə aparıb məktəblər, xəstəxanalar və yetimxanalar açırdılar. Sonralar, başqa dinlərin təsiri altında onların mübarizəsi hind-müsəlman düşmənçiliyinin qızışdırılmasının səbəblərindən biri olub. Hərəkatın tərəfdarlarının ən çoxu Pəncabdandır.

**ASİYƏ**, Asiya – təfsirçilər Asiyə adını, Quranda iki dəfə zikr olunan (əl-Qəsəs, 9; ət-Təhrim, 11) Fironun arvadına verirlər. Tövratda isə, bu qadın Fironun qızı kimi qeyd edilir. Hər ikisi

haqqında eyni hadisə zikr olunur. Quranda Asiyənin ağzından belə sözlər deyilir: "Ey Rəbbim! Mənim üçün öz dərgahında – Cənnətdə bir ev tik. Məni Firondan və onun əməlindən qurtar. Məni zalım qövmdən xilas et!" Bu ayə münasibəti ilə (musəvi olduğu deyilən) Asiyənin Fironun ağır davranışına hədəf olduğu rəvayət olunur. Hətta yüksək bir yerdən üstünə qayaları aşırdığı da söylənilir. Asiyənin yalvarışına görə, Allah, ruhunu özünə cəlb etmiş və yalnız cəsədi daşlar üstünə düşmüşdür.

**ASKLEPİ** – qədim yunan əfsanələrində müalicənin ilahisidir (Romada – Eskulapdır). Yunanlar inanırdılar ki, Asklepi onun məbədində gecəni yatan xəstələri sağaldır, buna görə də bu məbədlərə çoxlu xəstələr yığışırdı. Asklepiyə ehtiram mərkəzi Pelopenisdə yerləşən Epidavrda idi.

**ASLAR** (*köhnə skandinavca* Atis) – Skandinaviya əfsanələrində yüksək səma ilahilər ailəsi: Odin (ən uca ilahi, Asların başçısı), Tor (göy gurultusu və ildırım ilahisi), Baldr (bahar ilahisi), Heymdallr (ilahilərin səma qoruqçusu), Braqi (poeziya ilahisi), Forseti (həqiqəti qoruyan), Ullr (ov ilahisi, xizək, kirşək sürməyin hamisi), Friqq (Odinin arvadı), İdun (gəncliyin ilahəsi), Saqa (rəvayətlər ilahəsi), Nanpa (Baldrın arvadı), Sif (Torun arvadı) və b.

Əfsanəyə görə, Aslar ailəsinə onların keçmiş düşmənləri, vana ilahiləri də – Nyordr (dəniz ilahisi), Frenr (münbitlik, bolluq və sülhün ilahisi) Freyya (münbitlik, məhəbbət və gözəllik ilahəsi) qəbul edilmişlər. Ola bilsin ki, əfsanədə iki ayinin birləşməsi əks edilib. Aslar haqqında təsəvvür təbiət qüvvələrinin təcəssümü, qədim skandinavların qəbilə münasibətlərinin dini idealizə edilməsi idi. Aslar daimi deyillər, onların həlakına qabaqcadan qərar verilmişdir ("ilahilər toranı" təsəvvürü), lakin onların ən yaxşılarına yeniləşmiş xoşbəxt dünyada oyanışları qabaqcadan bəyan edilmişdir. Ola bilsin ki, ilahilərin oyanışları haqqında əfsanə xristianlığın ölməzlik nəzəriyyəsinin təsiri altında əmələ gəlib.

**ASTARTA** – finikiya dinində yer münbitliyinin, məhəbbətin və Ayın ilahəsi, Adonisin sevgilisi. Onun əlaməti göyərçin idi. Bibliyaya görə, Astartanın ayini Fələstində geniş yayılmışdı və qədim yəhudi həvariləri onunla güclü mübarizə aparırdılar. Astartanın surəti İştar haqqındakı babil-assur əfsanələrinə gedib çıxır. Bu surət qədim yunanların Afrodita haqqında təsəvvürlərinin formalaşmasına təsir göstərib.

**ASTRAL AYİNLƏR** (*yun.* astron – "ulduz") – səma cisimlərinə (ulduzlara) dini pərəstiş. Müxtəlif dərəcədə dinlərin çoxuna xas olan bu ayinlər xüsusən qədim Beynənnəhreyndə (Şumerdə, daha sonra Babildə və Assuriyada) yayılmışdı. Torpağın suvarılmasına ehtiyac artdıqca burada çox erkən səma cisimlərinin hərəkətlərinə fikir verilir, çünki Dəclə və Fərat çaylarının daşması bunlardan asılı idi. İnsanın təbiətlə mübarizədə acizliyi anlaşılmaz hadisələrə pərəstişə gətirirdi. Günəş, Ay və beş gözə görünən planet Babil dinində ilahilər elan edilib, Şamaş (Günəş), Sin (Ay), Marduk (Yupiter), İştar (Venera), Nerqal, qəddar ilahi, axirət dünyasının hökmranı (Mars), Nabu (Merkuri) və

Ninurta (Saturn). Uran və Neptun qədim dünya xalqlarına məlum deyildi. Astral ayinlərində ulduz bürcləri çox vaxt ilahi məxluq sayılırdı. Hesab edilirdi ki, hər bir insan öz bürcü altında doğulur və bu bürcü seyr etməklə insanın gələcəyini də qabaqcadan bilmək olar. Buradan da elmvari sistem – astrologiya əmələ gəlib.

**AŞOKA**, Asoka – Maurya sülaləsindən hind imperatoru (e.ə. III əsr) Aşokanın vaxtında Maurya imperiyası bütün Hindistanı (ən uzaq Cənubdan başqa), müasir Pakistanı, Əfqanıstanı və Nepalı tərkibinə daxil edib çox böyük əraziyə malik olmuşdu. Aşoka buddizmi qəbul edib, bu dində idarə etdiyi çoxmillətli imperiyanın möhkəmlənməsi üçün vasitə tapıb, onun yayılmasına hər cür imkan yaradırdı. E.ə. 257-ci ildə o, Pataliputra şəhərində buddistlər məclisini çağırıb burada sonradan buddist qanunlarına daxil edilən mətnləri təsdiq etdirir və bu mətnlərə zidd olan dini ideyaları pisləmişdir. Aşokanın köməyi ilə buddist rahiblərinin Hindistandan kənardakı missionerlik fəaliyyətləri başlanmışdır. Buddist ədəbiyyatında Aşoka sülhpərvər imperator, taxtda oturan xülyaçı kimi təsəvvür edilir.

**AŞŞUR** – qədim assuriyalıların inamlarına görə çar hakimiyyətini himayə edən ali ilahi, çarları istilaçı hərbi səfərlərə və öz ölkəsinin düşmənlərinə qəddarcasına divan tutmağa çağıran müharibə ilahisidir.

**AŞURA** – Məhərrəm ayının 10-na düşən günün adı. Bu gün oruc tutulur. Peyğəmbər Mədinəyə gəldiyi zaman, oradakı yəhudilərdə görüb götürdüyü günlər arasında aşura günü də vardı. Tövratda bu söz böyük günahtəmizləmə günü kimi işlədilir. Peyğəmbər bu orucun tutulmasında da yəhudi adətini qəbul etmişdir; yəni o gün, başqa oruclarda olduğu kimi, yalnız gündüz yox, günəşin batmasından ertəsi axşam günəş batana qədər oruc tutulurdu. Hicrətin 2-ci ilində bunun yerinə Ramazan oruc ayı kimi elan edilmiş və ondan sonra aşura orucunu tutmaq, keçmişdəki kimi, dini mükəlləfiyyət halında qalmayaraq şəxsin ixtiyarına verilmişdir. O zamanın təqvimi haqqında məlumatımız çox naqis olduğu üçün orucun əvvəllərdə, qədim ərəb ilinin hansı günündə tutulduğu, bu gün təyin edilə bilinmirsə də, yəhudilərin 10 tişri ayinlərinə müvafiq olması təbiidir ki, bu hala görə, son bahara rast gəlir, deməkdir. Məhərrəmin 10 günü hələ ilk vaxtlardan başlayaraq aşura günü olaraq zikr edilir. Birinci islam ayının 10-cu gününə uyğun düşünülmüşsə də, digər tərəfdən indiyə qədər aparılan hesablara görə, aşura orucunun əvvəldə, 10 Məhərrəmdə tutulması mümkün olmur. Görünür, yəhudilərə oxşamamaq üçün bəziləri Məhərrəmin 10-cu günü yerinə tasau adı ilə 9-cu gününə və ya 10-cu gününə əlavə olaraq 9 və 11-ci günlərində də oruc tuturdular. Bu günün yəhudi əsasında dayandığı aşkardır. Ərəb ənənəsinin bütün islam adətləri, qədim ərəblərə və dolayısı ilə İbrahimə qayıtması məlumdur. Məhərrəmin 10-cu günü ilə ilk 9 gününün, qədim ərəblər üçün mübarək sayılması mümkündür, lakin bunun aşura ilə heç bir münasibəti yoxdur. Aşura orucu bugünkü müsəlmanlar üçün də sünnədir.

Bu gün, bütün sünni aləminin dindarlarına görə oruc tutulduğu kimi, "tarixi" səbəblərə görə də müqəddəs sayılır: rəvayətə görə, Nuh gəmisindən o gün çıxmışdır və s.; Məkkədə Kəbənin qapısı ziyarət edənlər üçün aşura günündə açılır. Şiə və ya şiə nüfuzu altında olan ölkələrdə, Məhərrəmin 10 günündə bütün başqa adətlər də qarışmışdır (b a x: **Məhərrəm**).

Müsəlmanlar arasında belə bir adət var: rəvayətə görə, aşura günü Nuh gəmisi tufandan xilas olduğu vaxt, şükr ayini olaraq gəmidə olan taxıl və başqa məhsullardan mürəkkəb tərkibli bir şorba bişirdiyi üçün, bu xatirəyə hörmət məqsədilə hər il Məhərrəmin 10-cu günü müxtəlif taxıldan hədik bişirərək qonşulara və kasıblara paylanır.

Aşura günü sürmə çəkmək, qüsl etmək, xına qoymaq, bayramlaşmaq (müsahafə), taxıl bişirmək və sevinc izhar etmək haqqında İbn Təymiyə demişdir: "Bu babda Peyğəmbərdən gələn nə səhih və nə zəif bir hədis yoxdur. Səhabədən və dörd məzhəb imamından və başqa kimsələrdən də bir rəvayət olmadığı kimi, mötəbər kitabların heç birində də buna dair bir xəbər yoxdur". Məsələn, Kufənin rafiziləri İmam Hüseynin aşura, yəni Məhərrəmin 10-cu günü Kərbəlada şəhid olması matəmin hər il o gün keçirir, döyülür, hüzn və kədər izhar edirlər. Bunlara əks olaraq Kufənin nasibiləri o gün bayram edirlər və bu matəmi bidətlə qarşılayırlar. Bunlar "aşura" günü gözlərinə sürmə çəkənin, o ildə gözü ağrımaz və o gün qüsl edən o ildə xəstələnməz və s. isnadlar gətirirlər.

**ATEİZM** (*yun.* a – inkar ədatı və teos – Allah – hərfən – Allahsızlıq) – Allaha (və ya ilahilərə) fövqəltəbii qüvvələrə və ümumiyyətlə, hər bir dinə inamın rədd edilməsi.

**ATOMİSTİKA**, atomizm (*yun.* atomos – "bölünməyən zərrəcik") – maddənin qeyri-müntəzəm, diskret quruluşunu təsdiq edən fəlsəfi və elmi-təbii nəzəriyyə. Adətən, atomistikanın tərəfdarları materialist dünyagörüşünü müdafiə edərək, mistikanın və dinin əleyhinə fəal çıxış edir və onun kainatı yaratma ideyasının qəti əleyhinədirlər. Hələ e.ə. V əsrdə atomistik nəzəriyyəsinin baniləri qədim yunan materialistləri Levkipp, Demokrit, Epikür və onların ardıcılı Roma filosofu Lukresi Kar hesab olunurdu. Onların fikrincə, kainat nə ilahilərin, nə də insanların heç biri tərəfindən yaranmayıb, o, əbədidir, nəhayətsizdir və bölünməyən maddi zərrəciklərdən **(atomlardan)** ibarətdir. Dini-tənqidi istiqamət, həmçinin hind materialistlərinin – Çarvakların (e.ə. IV-II əsrlər) atomistik ideyalarına məxsus idi. Qədim Çin filosoflarının arasında atomistik ideyalarına yaxın olan Lao-tsı (e.ə. VI əsr) idi. O israr edirdi ki, kainat "**TSİ**" adlanan maddi zərrəciklərdən və boşluqdan ibarətdir. Kilsə xadimləri materializmin əleyhinə kəskin mübarizə apararaq atomistikanın tərəfdarlarını təqib edirdilər.

Atomistika elmi-təbii nəzəriyyəyə birinci dəfə kimyaya görə çevrilmişdir (M.V.Lomonosovun korpuskulyar nəzəriyyəsi, D.İ.Mendeleyevin dövri sistemi, C.Daltonun nəzəriyyəsi). Sonralar atomistika fiziki material üzərində inkişaf

edib maddə strukturunun yeganə elmi nəzəriyyəsi kimi qəbul edilmişdir. Radioaktiv şüalanmasının (1895-1896) və elektronun (1897) aşkar edilməsi, atomun bölünməsi köhnəlmiş təsəvvürlərin aradan götürülməsinə və köhnə fizikanın böhranına gətirdi.

**ATON** – Günəş (dairə şəklində). Yeganə ilahi kimi sitayiş edilməsi e.ə. XV əsrin axırında Misir fironu IV Amenxotepin vaxtında həyata keçirilib. Aton şüalı Günəş dairəsi şəklində təsvir olunurdu və hər şüanın ucu əldə qurtarırdı. Atona həsr edilmiş ibadətgahlar – Fivada, Axetatonda və bəzi başqa şəhərlərdə tikilmişlər, lakin IV Amenxotepin xələfi vaxtında ona pərəstiş aradan götürülmüşdü.

**ATTİS** – sonradan Qədim Yunanıstana və Romaya keçirilmiş Malayziya inamlarında – baharın və bitkilərin ilahisi, Kibelanın sevgilisi. Əfsanələrə görə, Attis Kibelaya xəyanət edib, dəlilik özündəngetməsi vaxtında özünü axtalayıb öldü, lakin sonra şam ağacı kimi yenidən həyata gəldi.

Kibelaya və Attisə həsr edilmiş azğınlıq şənliklərində çörək və şərabla qidalanmaqla müqəddəs qonaqlıqlar keçirilirdi.

**AUSPİSİYA** – qədim romalılarda quş falçılığı. B a x: **Avqurlar**.

**AUTODAFE** (ispanca və portuqalca auto-dafe, hərfən – inam aktı) – birinci mənada inkvizisiya tribunasının çıxardığı hökmün təntənəli elanı. Sonralar – hökmün yerinə yetirilməsi: adətən inkvizisiya tərəfindən məhkum olunmuşların camaat qarşısında tonqalda yandırılmaları. Bu istilah məhz yandırılma mənasında işlənirdi. Autodafe – katolik kilsəsinin öz rəqiblərinə terrorist divan tutma metodu idi və o, dönüklərə (yeretik), o cümlədən qabaqcıl mütəfəkkirlərə və görkəmli alimlərə, həmçinin "cadugərlərə", küpəgirənlərə" və kilsə tərəfindən başqa təhlükəli hesab edilənlərə tətbiq olunurdu. "Tövbə edənlər" işgəncələrdən sonra öldürülüb, meyitləri yandırılırdı, "yanılmalarında inad göstərənlər" isə diri-diri yandırılırdılar. Autodafeni əksər hallarda kilsə bayramları günlərində şəhərlərin mərkəzi meydanlarında keçirirdilər. Məhkum olunmuşları qətl yerinə çoxsaylı nümayişlə müşayiət edir, ayaqyalın və biabırçı paltarda aparırdılar. XIII-XIV əsrlərdə meydana gələn autodafe mərasimi XV əsrin sonundan bütün Qərbi Avropada və xüsusən İspaniyada geniş yayılmışdı. Sonuncu autodafe yandırmaq mərasimi 1826-cı ildə Valensiyada baş vermişdir.

**AVATARA** (*sanskritcə* enmə, nazil olunma), **induizmdə** – ilahinin təcəssümü – Avataralar, xüsusən daşavataralar (**on təcəssüm**) haqqında əfsanələr hələ qədim hindlilərdə olub, bu **tənasuh əl-ərvah** (ruhların bir bədəndən digərinə keçməsi) haqqında olan təsəvvürlərin təzahürü idi. Lakin vedi dinində və brahmanizmdə Avataralar haqqında olan nəzəriyyə inkişaf etmədi. Bu nəzəriyyə yalnız e.ə. IV-VI əsrlərdə, induizmin meydana gəlməsi dövründə geniş yayıldı ki, bu da əsasən Vişnu ayini ilə bağlı idi. Vişnu haqqındakı nəzəriyyəyə görə "hər dəfə dini təhlükə gözlənəndə və küfr qalib gələndə" ("Bxaqavadqita"da Vişnuya isnad edilən

sözlərdir), o, insanların həyatına təsir etmək üçün öz təcəssümləri ilə onların aralarında peyda olur. Avataraların sayı ona qədərdir. Onlardan ən çox tanınmışı ikisidir: Rama və xüsusən Krişnadır ki, bunların özlərinə də ilahi kimi baxırlar. Avatara haqqında olan təsəvvür bhakti dini-islahatçı nəzəriyyəsinin tərkibinə də daxil edilib.

**AVESTA** – b a x: **Zərdüştilik.**

**AVİNYON ƏSARƏTİ** (1309-1377) – papalığın tarixində papaların Romada yox, Fransanın cənubunda olan Avinyon şəhərində məcburi qalmalarıdır. Fransa kralı IV Filiplə dini və mülki hakimiyyətlərin səlahiyyətləri haqqında mübahisədə papalar məğlub edildikdən sonra kralın tələbi ilə katolik kilsəsinin başçısı V Kliment papanın iqamətgahını Avinyona keçirmişdi. Avinyon əsarəti dövründə papalar fransızların əllərində oyuncaq olub təsirlik baxımından dərin böhrana uğramışdılar. Papaların özləri və saray əyanlarının əxlaqi pozğunluqlarına qiymət verən, o vaxtlar Avinyonda yaşayan **Petrarka** yazırdı ki, bu şəhər "dünyada mövcud olan bütün şərlərin yuvasına çevrilib", xəyanət yuvasına dönübdür. Papaların və onların əyanlarının Romaya qayıtdıqdan sonra Avinyon əsarətinin bilavasitə təsiri özünü katolik kilsəsinin "böyük parçalanmasında" göstərdi (1378-1417), çünki bu dövrdə kardinalların bir qismi (xüsusən ingilis, alman və italyanlar) papanın birini Romada, digərləri isə (fransız, ispan və şotlandlar) başqasını Avinyonda seçirdilər. Babilistanda qədim yəhudilərin əsarətini (e.ə. 586-538) nəzərdə tutub Avinyon əsarətini bəzən Babil əsarəti də adlandırırlar.

**AVQURLAR** (*lat.* avis – quşdan auqur) – Qədim Romada quş falçılığı (auspisiya), yəni quşların çığırtısı və ya uçuşuna, "müqəddəs" toyuqların dənləməsinə diqqət edib "ilahilərin iradəsini" öyrənmək ilə məşğul olan kahinlər kollegiyası idi. Auspisiyalarsız (baxmaqsız) Romada heç bir mühüm tədbir həyata keçirilmirdi və avqur vəzifəsi ömürlük olaraq çox şərəfli sayılırdı. Əvvəlcə avqurların sayı iki-üç nəfər idi, sonralar 15 nəfərə qalxdı. Eramızın ərəfəsində romalıların auspisiyalara inamları xeyli azaldı və Katonun dediyinə görə fal açan zaman avqurların özləri belə gülməkdən çəkinmirdilər. İndiki zamanda uğursuz falçıları anqur – sadəlövh dinləyiciləri aldadan yalançıların guya çoxmənalı təbəssümü adlandırırlar.

**AVQUSTİN AVRELİ** (354-430) – bəxtəvər (pravoslav kilsəsində), müqəddəs (katoliklərdə) – kilsə atalarının ən görkəmlilərindən biridir. Əvvəllər, o, bütpərəst olub, sonra antik fəlsəfəni öyrənib mətanətliyi (stoisizm) və neoplatonizmi qəbul etmişdir. 387-ci ildə xristianlığı qəbul edir və tezliklə keşişliyin presviter rütbəsini alır, 395-ci ildən isə Şimali Afrikanın Gippon şəhərinin yepiskopu olur. Onun səyli fəaliyyəti əsasən xristianlıqda müxtəlif küfrlü təriqətlərin – manixeyçilər, donatistlər, pelagianlar və s. əleyhinə yönəldilmişdir. Avqustin kilsənin bu küfrlərə dözülməzliyini müqəddəsləşdirərək bunların mütləq məhvinə çağırırdı. Öz yazılarında o, şəxsi mülkiyyəti və ictimai qeyri-bərabərliyi din baxımından əsas-

landırırdı. Özünün "İlahi şəhəri" adlı əsas əsərində o, bəşər tarixinin xristian fəlsəfəsinin layihəsini vermişdir. Buna görə dünyəvi aləm (sivitas terrena) şeytan mülkü (sivitas diaboli) olduğu üçün, kilsənin təmsil etdiyi ilahi dünya (sivitas den) ona qarşı durur və kilsənin məqsədi şeytan dünyasına qalib gəlib onu bütün bəşəriyyətin "həqiqi dininə" çevirməkdir. Avqustinə görə bu mübarizə məhz dünya tarixinin məzmununu təşkil edir. Avqustin, həmçinin Üç Uğnum haqqında xristian təliminin ilahiyyat əsaslarını, bəşər övladlarının pozğunluq, ilahi mərhəməti, günahdan təmizlənməsi və s. dini məsələləri işləmişdir. XIII əsrə qədər Avqustinin nüfuzu bütün katoliklər arasında hamılıqla qəbul edilmişdir. XIII əsrdə Akvinalı Foma katolik kilsəsinin ilahi sistemini yenidən işləyib, Avqustinin nüfuzunu azaltdı.

**AVRORA** – Roma əfsanələrində Şəfəq və gün işığının ilahəsidir. Qədim yunan ilahəsi Eos ilə eyniləşdirilir.

**AVTOKEFALLIQ** (*yun.* autos – özü və kefale – baş) – bir kilsənin digər eyni inamlı kilsələrdən müstəqil olması (özünü idarə etməsi). Belə kilsənin ən azı dörd yepiskopluğu olmalıdır.

**AVTONOMİYA** (*yun.* autonomiya – özünüidarəetmə) – Kilsə avtonomiyasının özünüidarəetməsi ondan ibarətdir ki, belə kilsənin başçısı ondan rütbəcə yüksək olan eyni inamlı kilsənin başçısı tərəfindən təyin olunur.

**AYƏ** (*ər.* "möcüzə") – Quranın hər surəsinin tərkib hissəsini təşkil edən misra. Bir neçə sözdən ibarət olan cümlədir, az hallarda mürəkkəb olur. Ayələrin birləşməsi adətən qafiyələnir.

**AYƏTULLAH** (*ər.* "Allahın möcüzəsi, nişanəsi") – XX əsrin əvvəlindən fəqihlər və şiələrin birinci və ikinci məqamı üçün verilən ünvan. İslam tarixi boyunca din, xüsusilə şiə alimlərinin ləqəbləri və adları yanında axund, molla və şeyx, sonra da şeyx ül-islam kimi ümumi adlar işlənmişdir. Xüsusi hallarda təzim mənasında mühəqqiq, əllamə, siqqət əl-islam, hüccət əl-islam, hüccət əl-islam vəl-müslimin və ayətullah ünvanları işləndi. Daha sonra bu ünvanlar ayrı-ayrı şəxslər üçün müəyyən edilmiş və get-gedə ümumi bir ada çevrilmişdir. X əsrdə siqqət əl-islam ünvanı Məhəmməd ibn Yaqub Kəliniyə, XI əsrdə hüccət əl-islam ünvanı İmam Məhəmməd Ğəzaliyə, XIII əsrdə mühəqqiq ünvanı Cəfər ibn Həsən Xilliyə, XIV əsrdə əllamə və ayətullah ünvanları Həsən ibn Yusif Xilliyə aid edilmişdir və bunların hamısı ilk dəfə işləndiyi vaxtdan əsrlər keçdikdən sonra da, ilk sahiblərinə aid şəkildə əbədi qalmışdır. Həsən ibn Yusif Xillinin dərin biliyinə və təqvasına görə o zaman bənzəri olmadığı üçün, ona hətta ayət fizzəka, ayətullah fil-aləmeyn ünvanları da verilmişdi.

Bundan sonra XX əsrə qədər ayətullah ünvanı fəqihlərin heç birinə verilməyib. Əsrin əvvəlində bu ünvan ilk dəfə böyük seyyidlərdən Seyyid Məhəmməd Mehdi Bəhr əl-Üluma, bir neçə on il sonra Şeyx Mürtəza Ənsariya, Şeyx Hüseyn Nəcəfə və Seyyid Məhəmməd Həsən Şiraziyə verilmişdir. İran məşrutə hərəkatının rəhbərlərindən bu ünvan Seyyid Müctəhid Behbehaniyə, Seyyid Məhəmməd Müctəhid Təbatəbaiyə, bu dövrün

tarixçiləri Molla Kazım Xorasaniyə, Hacı Mirzə Hüseyn Mirzə Xəlilə, Şeyx Abdullah Mazandaraniyə və b. verilmişdir. 1922-ci ildə Qumda toplanmış böyük fəqihlərin bir neçəsi bu ünvanı aldı və tədricən ən görkəmli fəqihlərdən bir neçəsi ayətullah əl-uzma ("böyük ayətullah") adlandırıldı.

**AZAEL**, Azazel (*qədim yəhudicə* keçi-ilahi) – qədim yəhudilərin təsəvvürlərinə görə bu, keçiyəbənzər səhra ilahisi idi və Yaxve ilahi üçün yom-kipur bayramında qurban kəsilən kimi, buna da bir keçi qurban kəsilirdi. Guya möminlərin günahları ilə yüklənmiş həmin keçi səhraya qovulur və orada möminləri günahlardan azad edirdi. "Qovulan keçi" ifadəsi məhz buna aiddir. C.Frezer öz "Qızıl budaq" əsərinin bir cildini bu adətin müxtəlif xalq və qəbilələr arasında yayılmasına həsr etmişdir. Kabbalada Azael əcinnə və səhra şeytanlarının başçısıdır.

**AZAN** – əslində "bildirmə" deməkdir və cümə namazına və 5 dəfə salata (namaza) dəvəti ifadə edən sözdür. Müsəlman ənənəsinə görə, Peyğəmbər Mədinəyə girişindən az sonra, hicrətin 1 və 2-ci ilində, möminlərə namaz vaxtını bildirmək üçün ən uyğun tərzi səhabələri ilə müzakirə etdi. Bəziləri od yandırmaq, boru çalmaq və ya təbil vurmaq təklif etdilər. Abdullah ibn Zeyd adlı səhabələrdən biri də yuxusunda bir adamın məscid damından müsəlmanları namaza çağırdığını gördüyünü söylədi. Ömər salatı elan üçün bu üsulu tövsiyə etdi və orada olanlar onunla razılaşdıqları üçün Peyğəmbərin əmri ilə azan şəkli belə təyin edildi. Bundan sonra Bilal möminləri bu minvalla namaza dəvət etdi.

**AZLAR** – b a x: **Aslar.**

# B

**BA** – Qədim Misir dinində insandan çox yaşayan və ölümündən sonra bədənini tərk edən can (ruh). İnsanüzlü quş sifətində təsvir edilir. Misirlilər hesab edirdilər ki, bədəni Ba üçün qab kimi saxlamaq lazımdır ki, ölən adam axirət həyatı üçün dirilə bilsin. Buna görə də onlar ölənin meyitini saxlamağa çalışırdılar.

**BABİZM**, babilik – İranda XIX əsrin 40-50-ci illərində feodal təzyiqi, şah istibdadı və xarici kapital əleyhinə kütləvi demokratik üsyanları vaxtında əmələ gəlmiş təriqət nəzəriyyəsi. Babizmin banisi 1844-cü ildə Bab (*ər.* qapı, darvaza, yəni yeni dünyaya açılan darvaza) ləqəbini qəbul etmiş Şiraz taciri Əli Məhəmməd idi (1820-ci ildə anadan olub). O əsasən İran ticarət burjuaziyasının mənafeyi üçün ictimai dəyişikliklər etməyə çağırırdı. Öz moizələrində o, şahın ölkədə qanun-qayda və ədaləti bərqərar edəcəyinə ümid bəsləyirdi. O, elə monarxiyanı arzu edirdi ki, onun vaxtında nə feodal, nə əxlaqsız və xəsis din xadimləri, nə də xaricdən gələn adamlar olacaq və bunların yerinə sənətkarların yuxarı təbəqəsi və tacirlər firavan həyat sürəcəklər. Şah hökuməti Babı həbs edib Maku zindanına saldı. Burada o təkid etdiyi kimi, artıq öz əhəmiyyətini itirmiş olan Quranı əvəz edən "Bəyan" adlı kitabını yazmışdır. 1837-ci ildə Bab özünü Mehdi elan edib, "Bəyan"ını camaata ən kamil vəhy kimi təqdim etmişdir. Bab nəzəriyyəsinin antifeodal istiqamətini İranın məzlum xalqları fəal hərəkətə keçmək çağırışı kimi qəbul etdilər və bəzi yerlərdə Babın dini bayrağı altında üsyanlar da qaldırdılar. Buna görə şah hökumətinin əmri ilə Bab 1850-ci ildə Təbrizdə güllələndi. Babın nəzəriyyəsi iri antifeodal, babilər adlanan üsyanlar ideologiyasının əhəmiyyətli tərkib hissəsi idi. Bu üsyanların iştirakçıları yer üzündə Allahın müqəddəs şahlığının dini-xəyalı idealını həyata keçirmək istəyirdilər. Bu üsyanların təkanverici qüvvələrini İranın kəndliləri, sənətkarları və xırda ticarət burjuaziyası təşkil edirdi. Bab nəzəriyyəsinin demokratik əsaslarını məişətcə kəndli olan **Məhəmməd Əli Barforuşi** inkişaf etdirib və o, görkəmli babi Qüdrət əl-Eynlə birlikdə 1848-ci ildə Şahrud şəhərinin yaxınlığındakı Bedəşt kəndində bir neçə yüz babilərin yığıncağına rəhbərlik etdi. Burada babilər xüsusi mülkiyyətin, feodal biyar və vergilərinin əleyhinə və hakim sinfin imtiyazlarının ləğv edilməsi tələblərilə çıxış etdilər. Üsyan edən babilər Mazandaranda, Barforuş şəhərinin yaxınlığında tikdikləri qalada mülkiyyətin ümumiləşdirilməsinə təşəbbüs göstərdilər. Şah ordusunun rəhbərliyi qalanı bir neçə ay nəticəsiz mühasirədə saxladı, sonra üsyançıları əfv etməklə aldadıb qaladan çıxardılar və hamısını qırdılar (1849). 1850-ci ildə Zəncanda baş verən babilər üsyanı da belə nəticələndi. Eyni ildə İranın Neyriz şəhərində də babilər üsyan

qaldırdılar. Uğursuz kütləvi üsyanlardan sonra babilərin rəhbərləri terrorçu əməliyyata keçdilər. 1852-ci ildə şaha baş tutmayan sui-qəsd oldu. Bundan sonra babilərin hərəkatı tamamilə yox edildi. Sonralar babiliyin əsasında **bəhailik** inkişaf etdi.

**BADİ** – "xəlq və icad edən". Allahın 99 adından biri.

**BAPTİSTLƏR** (*yun.* baptizo – suya salıram, su ilə xaç çəkirəm) – protestantlığın ən böyük bölmələrindəndir.

Baptizm 1609-cu ildə Hollandiyada, mennonitlərin yaşlı adamları xaça çəkmək ənənəsinin təsiri altında olan ingilis mühacirlərinin radikal-protestant mühitində meydana gəlib. Birinci baptist icmaları 1611-1612-ci illərdə İngiltərədə, 1639-cu ildə Şimali Amerikada əmələ gəlib. Lakin baptizmin inkişafı XVIII əsrin axırında metropoliyada və müstəmləkələrdə baptizmin geniş yayılması üçün bazar günü məktəblərinin və missioner cəmiyyətinin açılması ilə bağlıdır. ABŞ-da baptistlər Qərbin müstəmləkələşməsində iştirak edirdilər. Amerika baptistlərinin əksəriyyəti quldarlığın saxlanılmasının tərəfdarları idi. Zəncilər üçün onlar xüsusi "rənglilər üçün kilsələr" təşkil edirdilər. 1845-ci ildə Cənub baptistləri Şimal baptistlərindən ayrılıb Cənub baptistlər konvensiyasını təşkil etdilər və bu təşkilat indi də fəaliyyətdə olub, 8 milyon tərəfkeşlərdən (yalnız ağlardan) ibarətdir. Bəzi məlumatlara görə ABŞ-da 20 milyona qədər baptist var. Onların ixtiyarında bir neçə universitet, çoxlu kollec, seminariya və məktəblər var. İkinci dünya müharibəsindən sonra ABŞ-da baptistlərin xüsusi irticafundamentalist təşkilatları – "Düzgün" baptistlərin ümumi assosiasiyası və Mühafizəkar baptistlər təşkilatı əmələ gəlib. Amerika baptistləri arasında bir sıra siyasi xadim və iri kapitalistlər var: Rokfeller qardaşları və Latın Amerikası ölkələrində çoxlu şöbə və missiyalar təşkil edirlər. XIX əsrdə baptist icmaları Avropa ölkələrində, o cümlədən də Rusiyada əmələ gəldi. 1905-ci ildə Ümumdünya baptistlər ittifaqı təşkil etmişdir. İndi bütün ölkələrdə baptistlərin sayı 30 milyondan artıqdır. İlk dövrdə baptistlər kilsənin dövlətdən ayrılması və din azadlığı uğrunda çıxış edirdilər. Onlar dini ayinləri və kilsə təşkilatlarını çox sadələşdirib öz icmalarının rəhbərliyini (presviterləri) icmalarının şuralarında seçirlər. Bütün möminlər dini baxımdan bərabər və azaddırlar. Protestantlardan fərqli olaraq baptistlər xilas prinsipini yalnız şəxsi inamla bağlayırlar. Onlar müqəddəsləri, qaxımış cəsədləri, ikonaları, kilsə məbədlərini, ibadət libasını, çarmıxı, xaçı və xaç rəmzlərini tanımırlar.

**BARTOLD VASİLİ VLADİMİROVİÇ** (1869-1930) – görkəmli rus şərqşünası, ərəb ölkələri, Orta Asiya və İran orta əsrlər tarixinin və islam tarixinin mütəxəssisi; Peterburq universitetinin professoru (1901-ci ildən), akademik (1912-ci ildən). Bartold Şərq mənbələrinin mükəmməl bilicisi idi. İslam dini tarixi üzrə yazdığı əsas əsərləri: "Xəlif və sultan", "İslam dünyası", "İslam", "Müsəlmanlığın mədəniyyəti", "Müsəlman dünyası", "Müsəlman dünyasında teokratik ideyalar və dünyəvi hakimiyyət", "Müseylimə" və b.

1963-1976-cı illərdə doqquz cildlik əsərləri dərc olunub.

**BASİT** – Allahın adlarından biridir.

**BAUER BRUNO** (1809-1882) – alman idealist filosofu və din tarixçisi. Fəaliyyətinin başlanğıcında sağ hegelçi olub, XIX əsrin 30-cu illərində hegelçilər məktəbinin ən sol cinahına keçmişdir. Bibliya tənqidinə aid olan çoxlu əsərlərində (əsas yazıları – "İnsan İncilinin tənqidi" – üç cild, 1841-1842; "İsa və qeysərlər" – 1877). Bauer "tənqidi fikirləşən şəxslərin" fəaliyyətlərində əks olunan özünüdüşünmənin tarixdəki əsas rol oynamaq idealist konsepsiyasından çıxış edirdi. Bibliya kitablarının tarixinə tətbiq edildikdə bu onu göstərirdi ki, Bauer həmin kitabların müəllifliyini, öz dini yaradıcılığı üçün materialı öz xülyalarından götürən ayrı-ayrı görkəmli şəxslərə bağlayırdı.

**BAYRAMİYYƏ** – Ankaralı Hacı Bayram Vəlinin XIV əsrin birinci yarısında Ankarada təsis etdiyi təriqətin adıdır.

**BEKTAŞİLƏR** – sultan Türkiyəsində böyük nüfuza malik olan dərviş təriqəti. Onun banisi, XV əsrdə əfsanəvi tərcümeyi-halı tərtib olunmuş, Hacı Bektaşi Vəli idi. XII əsrdə Kiçik Asiya dərvişlərinin arasında yaşayan Hacı Bektaşinin haqqında faktiki məlumatlar isə cüzi və qeyri-müəyyəndir. Bektaşilərin inam və ayinləri müsəlman, əsasən şiə və xristian təriqətçiliyindən götürülmüş müxtəlif elementlərin qarışıqlığıdır: Allahdan, Məhəmmədden və Əlidən tərtib edilmiş Üç Uğnuma inam, 12 şiə imamlarına və şəhidlərinə ehtiram, şərab, çörək və pendirlə mərasimi müşayiət etmək, mürəbbiyə ehtiram göstərmək və subay qalmaq. Bu, Kiçik Asiyada müsəlman və xristian təriqətçilərinin (əsasən kəndlilərin) antifeodal üsyanlarda müştərək çıxışları ilə izah olunurdu. Bəktaşilərin Dədə adlanan başçıları Hacı Bektaşinin təxmini məqbərəsi sayılan Kırşehirlə Kayseri arasında yerləşən baş təkkəsində yaşayırdılar. Onların hər bir təkkəsinə baba rəhbərlik edirdi. Hələ dərvişlik məqamına ucalmamış şagirdlər öz rəhbərləri – mürşidləri tərəfindən idarə olunurdular. Bektaşilərin XIX əsrə qədərki böyük siyasi nüfuzları onların yeniçərilərlə sıx əlaqələri ilə müəyyən olunurdu. Türkiyədən başqa bektaşilik Albaniyada da yayılmışdı. 1925-ci ildə Kamal Atatürkün hökuməti bektaşilər təriqətini ləğv etmişdir. Lakin İkinci dünya müharibəsindən sonra bektaşilik Türkiyədə yenidən dirçəlmişdir.

**BEQQARDLAR** – XIII-XIV əsrlərdə bir sıra Mərkəzi Avropa ölkələrində fəaliyyət göstərən xristian təriqəti. Təriqət Flandriyada əmələ gəlib inkişafını Fransada, Almaniyada və İtaliyada da tapmışdır. Təriqətin tərkibinə sənətkarlar və şəhər yoxsulları daxil idilər. Beqqardlar yevangelik yoxsulluğu, vardövlətin ümumiliyini, subaylığı təbliğ, hər cür mülki və kilsə hakimiyyətini rədd edirdilər. Bununla da, şəhərlərin aşağı təbəqələrinin feodal qayda-qanunlarının və bunları müqəddəsləşdirən katolik kilsəsinin əleyhinə kortəbii çıxış edirdilər. Hakim dairələrinin sərt təqibləri təriqətin XIV əsrin axırında ləğv edilməsinə gətirdi.

**BELLONA** – 1. Qədim İtaliya dini ayinlərində yunan müharibə ilahəsi Eniona ilə eyniləşdirilən ilahədir. Onun Romada, Mars meydanında yerləşən ibadətgahı qarşısında senat başqa xalqların səfirlərini qəbul edir və təmtərağa (triumfa) haqq qazanan sərkərdələri qarşılayırdılar. 2. Kiçik Asiya ayinlərində ilahədir. Onun heykəlini Sulla e.ə. I əsrdə Kappadokiyadan Romaya gətirmişdi. Kappadokiya kahinləri təntənəli nümayişlər zamanı Bellonanın eşqinə özlərini yaralayırdılar və beləliklə, insan qanını ilahəyə qurban verirdilər.

**BENEDİKTÇİLƏR** – Mərkəzi İtaliyada Nursalı Benediktin tərəfindən (təxm. 480 – təxm. 543) təsis edilən katolik rahiblər təriqətinin üzvləri. VI əsrdə təsis edilmiş, Qərbi Avropada ilk rahiblər təriqətlərindən birinə aid olan Benediktçilər onlardan sərt intizam tələb edən nizamnaməyə riayət etməli, həmişə monastırda qalmaq, məhrumiyyətlərə dözmək və itaət etmək kimi üç tələbi yerinə yetirməli idilər. Təriqətə yalnız feodal ailələrinin üzvləri daxil ola bilərdilər. Başqalarından monastırlarda əmək qüvvəsi kimi istifadə edilirdi. Lakin nizamnaməyə rəğmən benediktçilər pozğunluğa qərq olub, adi həyat sürür və buna görə də ələ salınır, qəzəblərə məruz qalırdılar. IX-XI əsrlərdə intizamı möhkəmləndirmək üçün nizamnaməyə daha sərt tələbləri salmaq heç bir nəticə vermədi. XI-XIII əsrlərdə benediktçilər papaların katolik dinini Baltikyanı ölkələrdə və slavyan torpaqlarında yaymaq niyyətlərinə kömək edirdilər. İndiyədək bu təriqət katolik kilsəsinin ən iri təşkilatlarındandır. Onların 18 icması və 20 mindən çox rahibi var. Bu icmalardan başqa təriqətin 150-yə qədər təşkilatı da var.

**BEŞ KİTAB** – Bibliyanın tərkibində yəhudilikdə Qanun və ya Tora, yəni təlim adlanan Əhdi-Ətiqin birinci beş kitabı. Yəhudi və xristian ənənələri bunların müəllifliyini Həzrət Musanın adı ilə bağlayırlar. Beş kitaba Kövn, Xuruc, Levit, Ərqam və İkinci Qanunçuluq kitabları daxildir.

**Kövn** – dünyanın yaradılması, Allahla insanların arasında olan müqavilələr (əhdlər), insanlar tərəfindən bu əhdlərin pozulması və bunun nəticələri (Tufan, Sədum və Homorranın dağılması və s.) barədə kitabdır.

**Xuruc**, qədim yəhudilərin Misir fironlarına əsarətə düşməsi, xilas olmaları üçün kömək etməsi, onların Allahı Yaxvenin Musanın hüzuruna gəlib yəhudilərin əsarətdən Yaxve tərəfindən Sina dağında Musaya "Qanun"un (vəsiyyətin) verilməsi, qurbanvermə və ibadət haqqında əmrlərin izah edilməsindən bəhs edir.

**Levit** "Qanun"un yerinə yetirilib-yetirilməməsi ilə bağlı olan ayin, mükafat və cəzalar haqqında olan dəqiq təlimatlardır.

**Ərqam** kitabı Misirdən çıxan qədim yəhudilərin səhradakı sərgüzəştlərindən bəhs edir. İkinci Qanunçuluq birinci dörd kitabda olan məlumatların xülasəsi Musanın xitabət və göstərişləridir.

**BƏDR**, Bədr Hüseyn – Mədinənin cənub-qərbində kiçik qəsəbə, Peyğəm-

BƏHAİLİK

bərin zamanında Bədr, heyvanların sulandığı bir yer idi, burada hər il bazar düzəlirdi. Bu kiçik yer olsa da, müsəlmanlar ilə Məkkə müşrikləri arasında hicri 2 il Ramazanın 17-si və ya 19-da vaqe olan döyüşlə əhəmiyyət qazanıb. Bir sıra təsadüflər nəticəsində baş verən bu döyüş özü əhəmiyyətsiz olmaqla bərabər, Peyğəmbərin nüfuzunu təsis etmiş və bu sayədə islamın intişarına başlanğıc olmuşdur. Peyğəmbərin yüksək qüdrəti burada parlaq bir şəkildə təzahür etmişdir. Belə ki, Peyğəmbər gözlənilməyən bir anda Məkkə ordusu ilə qarşıya gələndə dəhşətə düşən müsəlmanları, sayca özlərindən üstün olan düşməni (300 müsəlmana müqabil 1000 məkkəli müşrik) tamamən məğlub edəcək qədər vəcdə gətirmişdir.

**BƏHAİLİK** – XIX əsrin ortalarında İranda babilər üsyanlarının yatırılmasından sonra əmələ gələn kosmopolitik ictimai-siyasi cərəyan olan Bəhailiyin banisi Bəhaulla ("Allahın nuru") ləqəbini alan görkəmli babi Mirzə Hüseyn Əli Nuri (1817-1892) idi. Babilərin şaha sui-qəsdindən sonra 1852-ci ildə İraqa qaçıb, özünü ilahi vəhy almış Mehdi və Allah oğlu iddiası ilə Babın xələfi elan etmişdi. Sonralar Ədirnədə (Türkiyə) və Akkada (Fələstin) yaşayarkən, nəzəriyyəsini əks etdirən "Kitabi-əqdəs" ("Ən müqəddəs kitab") əsərini yazmışdır. Bəhaulla təkid edirdi ki, bu kitab Quranı və Babın "Bəyan"ını əvəz edəcək. Bəhailik əsasən İran komprador burjuaziyasının mənafeyini əks etdirirdi. Bəhailiyin qardaşlıq haqqındakı nəzəriyyəsi ictimai ziddiyyətləri tanımır, sinfi mübarizəni və inqilabi metodların hamısını qətiyyətlə pisləyir, istismara isə yol verirdi. Nəzəriyyə şəxsi mülkiyyətə zidd çıxanları ciddi cəzalandırmağa çağırır, rahatlığı və cah-calalı isə təqdir edirdi. Bəhaullanın insanların və xalqların qardaşlığı çağırışı onun yalnız "sinfi barışa", hətta müstəmləkəçiliyin və imperializmin əleyhinə mübarizədən vaz keçmək cəhdini izah edirdi. Ümumbəşər universal dini, vahid beynəlmiləl dili, "vahid dünya dövləti" ideyalarını təbliğ edərkən Bəhaulla dövlət sərhədlərinin ləğv edilməsinə çağırır, xalqların milli azadlığı uğrunda mübarizəsinin əleyhinə çıxırdı. Bəhaullanın bu xüsusiyyətləri onu Babilikdən qətiyyətlə fərqləndirirdi və buna görə də o ABŞ, İngiltərə və Almaniyanın siyasətçi müstəmləkəçilərinin diqqətini cəlb edirdi. Bunlara əsasən XIX əsrin sonundan bəhailik bu ölkələrdə din kimi yox, ictimai-siyasi nəzəriyyə kimi yayılmağa başladı. Bəhailik müsəlmanlıq mərasimlərini və ayinlərini bütünlüklə rədd edirdi, buna görə də bəhailər məclislərdə yox, özlərinin təbliğ mərkəzlərində, klublara oxşar yerlərdə toplanırlar. Bəhailərin icmaları İranda qadağan edilib, Türkmənistanda, Azərbaycanda və indi İsraildə fəaliyyət göstərirlər. Bəhailərin müqəddəs məbədi Hayfa şəhərinin Şomron küçəsində yerləşir və indi dünyada mövcud olan bir neçə milyon bəhai hər il buraya ziyarətə gedirlər. Çar Rusiyası bəhailəri himayə edirdi və Aşqabadda onlar üçün ibadətgah tikdirmişdi. Bəhaullanın xələfi Əbdülbəha ləqəbini götürmüş onun oğlu

Abbas Əfəndi idi (1844-1921). Bəhaizmin geniş təbliğatına görə İngiltərə hökuməti ona "ser" ünvanını vermişdir. İndi bəhailərin başçısı Əbdülbəhanın oğlu Şövqi Rəbbanidir, iqamətgahı da İsraildədir.

**BƏLƏD** – məmləkət, şəhər. Əl-Bələd 90-cı surənin adıdır.

**BƏLKİS** (Bilkis, Bilqeyis) – müsəlmanların Səba məlikəsinə verdikləri addır. Kitabi-Müqəddəsin III Çarlar fəslində (I-10, 13) deyilən Səba məlikəsi Süleyman peyğəmbərin ziyarət edərək imtahana çəkmək üçün ona bir sıra müşkül suallar verməsi hekayəti, hətta ilk zamanələrdən etibarən, bu məlikə haqqında bir çox əfsanələr təşəkkül etməsinə səbəb olmuşdur. Quranda (XVII, 20-45) Səbanın günəşə ibadət edən müşrik məlikəsinin Süleyman peyğəmbərdən bir hüdud quşu ilə göndərilən məktub aldığı və bu məktubda peyğəmbərin özünü əsil həqiqi Allaha inanmağa dəvət etdiyi deyilir. Belə tərzdə dəvətdən qorxan məlikə Süleyman peyğəmbərə hədiyyə göndərdisə də, hədiyyələri qəbul edilmədi. Səba məlikəsinin özünün Süleyman peyğəmbərin ziyarətinə getdiyi zaman, peyğəmbər, tanınıb tanınmayacağını bilmək məqsədilə bir ifrit vasitəsilə məlikənin taxtını yanına gətirir, sonra məlikəni, yeri şüşə döşənilmiş divanxanaya gətirir. Məlikənin həqiqətən keçiayaqlı olub-olmadığını bilmək istəyən Süleyman peyğəmbərin əvvəldən təxmin etdiyi kimi, məlikə döşəmədəki aynanı su zənn edərək paltarının ətəklərini yuxarıya çəkir. Axırda da islamı qəbul edir.

**BƏYYİNƏ** – dəlil, şahid. Quranın 98-ci surəsinin adı.

**BƏYYUMİYƏ** – Qədiriyəyə bağlı bir təriqət. Misirdə, Bəyyumda 1698-ci ildə doğulmuş Əli ibn əl-Hicazi ibn Məhəmməd tərəfindən təsis edilib.

**BHAKTİ** (*sanskritcə* "Allaha sədaqətli olmaq") – induizmdə təriqətçilik nəzəriyyəsi. Əvvəllər Bhakti nəzəriyyəsi təkid edirdi ki, insanın xilası "ali həqiqətlər"i bilməsində və mərasimlərin yerinə yetirilməsində yox, əsasən "İlahiyə sonsuz məhəbbət"dədir. XVI əsrdə Bhakti geniş şəhər kütlələrinin antifeodal hərəkatının ideoloji bayrağına çevrilir. Bhaktinin ideoloqları əsasən sənətkar və ticarət təbəqələrindən olublar. XVII əsrdə hərəkata kəndlilər qoşulanda, Bhakti tərəfdarları cəmiyyətin dinc yolla yenidən qurulmasından mübarizənin daha əməli vasitələrinə əl atdılar. Pəncabda Bhakti siqhizm formasında feodallara və Moğollar dövlətinə qarşı uzun zamanlı silahlı mübarizənin bayrağına çevrildi və XVIII əsrin ortasında Siqhlər dövlətinin təşkilinə gətirdi.

**"BHAQAVADGİTA"** (*sanskritcə* hərfən – "Allahın mahnısı") – "Mahabharata"nın tərkibinə daxil olan brahmanizmin əsas ictimai-etik əqidələrini izah edən traktat (e.ə. IX-VI əsrlərdə tərtib edilib). Forma etibarilə Bhaqavadgita Krişnanın, çar Arcunaya onun gözlənilən döyüşdə borcunu yerinə yetirməyə hazır olması ilə əlaqədar nəsihətləridir. Kitab cəmiyyətin dörd varnaya bölünməsini təsdiq edib, hər varnanın vəzifə və hüquqlarını müəy-

yən edir, insanın yeganə vəzifəsini Allaha xidmətdə və "xilasın", "Allahla qovuşmanın" yeganə şərtini bu və ya digər varnaya mənsub olub, insan borcunu (dharma) yerinə yetirməkdə görür. Kitab öyrədir ki, insan öz borcunu yerinə yetirdikdə mükafat haqqında düşünməməlidir. Kitab tələb edir ki, insanın davranışında itaət, səbir, hər şeydən məhrumiyyət, ahimsa (heç bir diri məxluqa zərər gətirməmək) və s. izhar olunmalıdır. Lakin qeyd edilir ki, lazım gələndə zor da işlətmək olar. Krişna Arcunaya izah edir ki, o, kşatri (əsgər) kimi döyüşməli və yaxınlara, qohumlara rəhmsiz olmalıdır. Kitabda qeyd edilir ki, şər və qanunsuzluq ilə mübarizə insanın yox, vaxtaşırı yer üzündə peyda olan Allahın işidir (b a x: **Avatara**). "Bhaqavadgita"nın ideyaları müasir induizmdə qəbul olunmuşdur.

**BİBİHEYBƏT ŞEYXLƏRİ** – Bakının cənub-qərbində yerləşən Şıxlar (Şeyxlər) və ya Bibiheybət adlanan kəndində vaxtilə yerləşən məscidin içində şiələrin yeddinci imamı Musa əl-Kazimin qızı və səkkizinci imamı Əli ibn Musa ər-Rizanin (9.XII.818-ci ildə vəfat edib) bacısı Hükeymə (Həkimə) xanımın məqbərəsi var idi. Məscidin binası üzərindəki kitabələr və əlavə məlumatlar təsdiq edirlər ki, bina hələ XIII əsrin ikinci yarısında mövcud idi.

Rəvayətlərə görə, Hükeymə xanım xəstələnib, öz yaxın adamları və nökərləri ilə IX əsrdə həmin kəndin içində axan müalicə suyuna möhtac olub buraya gəlmişdir. Lakin xəstəlik üstün gəldiyinə görə xanım vəfat etdi və elə bu yerdə dəfn olundu. Onunla gələnlər bu yeri tərk etməyib kənd saldılar. Sonradan müqəddəs məqbərənin xeyrinə vəqflər yazıldı və bu vəqfə mütəvəlli şeyx təyin olundu. Həmin Bibiheybət məqbərəsinin vəqfinə qədimdən "əmlak və sərvətilə" Zığ kəndi, üç neft quyusu, "bəzi torpaqlar", Badamdart adlanan yer, qoyun sürüləri və s. daxil idi. Bu vəqflərə nəzarət edən mütəvəllilər haqqında və vəqfin əmlakına dair on iki sənəd var: I Şah Təhmasibin h. 954-cü il 20 Məhərrəm (12.III.1577) və h. 963-cü il Məhərrəm ayı (16.XI-15.XII.1555) tarixli, Sultan III Muradın h. 999-cu il 26 Zülhiccə (24.XI.1590) tarixli, I Şah Abbasın h. 1015-ci il Zül-Qədə ayı (1607-ci ilin martı), II Şah Abbasın h. 1060-cı ilin Məhərrəm ayı (1650-ci ilin yanvarı), Divani-sədarət tərəfindən verilmiş h. 1064-cü il Cumada əs-sani ayı (19.IV-17.V.1654) tarixli, II Şah Abbasın h. 1064-cü il Şəvval ayı (15.VIII-12.IX.1654) və h. 1066 Zülhiccə ayı (20.IX-19.X.1656) tarixli, Şah Süleymanın h. 1078 Rəbi əs-Sani ayı (20.IX-18.X.1667) və h. 1078-ci ilin Cumada əs-Sani ayı (18.XI-16.XII.1667) tarixli, Fətəli xanın oğlu Əhməd xanın h. 1204-cü il 8 Cumada əs-Sani (23.II.1790) tarixli fərmanları və Bakı qəzası məhkəməsinin h. 1261-ci ilin 26 Zülhiccə ayı (26.XII.1845) tarixli qərarı.

Bibiheybət məqbərəsinin vəqflərini idarə edən mütəvəllilərin siyahısı. **1. Şeyx Bünyad** (mütəvəlliliyi I Şah Təhmasib dövrünə aiddir, lakin

göstərildiyi kimi onun şeyxlər olan cəddləri "keçmiş qərinələrdə, qədim zamanlarda fəaliyyət göstərmişdilər"); **2. Şeyx Qulam Əli; 3. Şeyx Əsgər Əli; 4. Şeyx Məhəmməd Müqim; 5. Şeyx Əli Əsgər; 6. Şeyx Məhəmməd Əmin; 7. Şeyx Əli Məhəmməd; 8. Şeyx Mehdi; 9. Şeyx Məsum; 10. Şeyx Musa; 11. Şeyx Ziyaəddin.**

**BİBLİYA** (*yun.* biblia – kitab) – yəhudi və xristian dinlərinin müqəddəs kitablarının toplusu. İudaizm Bibliyanın yalnız birinci hissəsini – Əhdi-Ətiqi tanıyır, bu da Bibliyanın beşdə dördünü təşkil edir; xristianlıq isə təkcə Əhdi-Ətiqi yox, Əhdi-Cədidi də tanıyır. Yəhudi və xristian ilahiyyatçılarının nəzəriyyəsinə görə Bibliyanın mətni allahruhludur.

**BİDƏT** – Bida, sünnənin tam ziddi olub, bundan əvvəl oxşarı mövcud olmayan, ya da edilməyən bir şey, yaxud iş və hərəkət tərzi kimi, bir yenilik mənasında.

**BİLAL İBN RABAH** (?-641) – islamın ilk müəzzini, əsli həbəşdir, islamı ilk qəbul edənlərdən biridir. Buna görə Peyğəmbərin düşmənləri tərəfindən işgəncələrə məruz qalmışdı. Əbu Bəkr onu köləlikdən azad etdikdən sonra o, Peyğəmbər ilə Mədinəyə hicrət etdi. Peyğəmbər onu özünə müəzzin təyin etmişdi.

**BİRUNİ, ƏBU REYHAN MƏHƏMMƏD İBN ƏHMƏD** (973-1048) – Orta Asiyanın ensiklopedik biliyə və maraqlara malik olan görkəmli ərəbdilli rasionalist alimi. Tədqiqatlarını riyaziyyat, tibb, astrologiya, geologiya, mineralogiya, coğrafiya, tarix və filologiya elmləri üzrə aparırdı. Onun ən iri əsərləri "Ötən nəsillərin yadigarları" ("Qədim dünyanın xronologiyası"); "Mineralogiya", "Məsudun qanunları", "Hindistan". Ptolomeyin geosentrik sisteminin əsassızlığını anlayan Biruni, dünyanın geliosentrik qurulmasının fərziyyəsini irəli sürüb canlı təbiətə, vücudların təkamül inkişafının nəticəsi kimi baxırdı. Allahı bütün varlıqların əsas səbəbi olduğunu qəbul edərək, Biruni Allahın təbiət hadisələrinə daimi müdaxilə etməsini inkar edir, onun ardıcıl inkişafını özünün daxili qüvvəsinin fəaliyyəti ilə izah edirdi.

**BİŞR İBN ƏL-BARİ** – səhabələrdən. Ox atmaqda mahir olduğu üçün Bədr, Uhud və Xəndək döyüşlərində, Hüdeybiyə səfərində və Xeybər fəthində iştirak edib. Hicri 628-ci ildə Xeybərdəki yəhudilər təslim olduqdan sonra Bişr, Zeynəb bint əl-Haris adlı yəhudi arvadı tərəfindən zəhərləndi. Bütün kişi qohumlarını döyüşdə itirən bu qadın bunların intiqamını almaq üçün bir qoyun kəsərək içinə zəhər qoydu və Peyğəmbərə hədiyyə kimi gətirdi. Peyğəmbər hədiyyəni qəbul etdi və aralarında Bişr də olan bir neçə kişini yeməyə dəvət etdi. Peyğəmbər, ağzına qoyduğu ətin dadından işin nə yerdə olduğunu anladı və loxmanı vaxtında yerə tüpürdü. Lakin Bişr saymamazlıq olmasın deyə, ağzına aldığı loxmanı uddu. Bəzilərinin söylədiyinə görə, elə o anda öldü.

**BODİSATVA** (*sanskritcə* – bodhisatva, hərfən – "mahiyyəti bilik olan

kəs") – buddistlərin müasir nəzəriyyəsinə görə, insanın Buddaya dönmə yolunda olan, lakin zövq halına (nirvanaya) qərq olmamış "insanlara məhəbbəti" üzündən və onları xilasedilmə halına gətirmək niyyətini az qala Buddaya, ola bilsin, buddistlər tərəfindən Qautamaya, onun sonuncu doğulmasından qabaqkı bütün həyatı varlıqlarına aid edirdilər. Sonra bu adı insanın Buddaya çevrilməsindən qabaqkı tam dəyişmə halında olanlara verirdilər. Buddistlər panteonunda buddaların sayı artdıqca bodisatvaların da sayı artırdı. Buddistlər öyrədirdilər ki, bodisatva səmalarda başqa ilahilərin arasında yaşayır, lakin özünün budda olmaq vaxtının çatmasını qərara aldıqda, o, yer üzündə doğulub və hələ insan ikən budda olur. Buddistlərin çoxu elə hesab edirdilər ki, Budda Qautamadan sonra çoxlu buddalar və hesabsız bodisatvalar artıq var idi. Xinayanaya əsasən yalnız azad kişi və yalnız "müqəddəsliyin" (b a x: **arxat**) ən yüksək zirvəsinə qalxmış rahib bodisatva ola bilər. Mihayanaya görə isə, bodisatva hər hansı bir dünya əhli (o cümlədən qadın da) ola bilər. Mahayanada bodisatvalar bəşəriyyətin "mürəbbiləri" və "xilaskarları" kimi xüsusi sitayişə malikdirlər. Buddizmin maxayana şəklində Hindistandan kənarda yayıldığı zaman bodisatva ayini çox vaxt yerli ilahilər ayinləri ilə birləşirdilər. Buddizm xadimləri bodisatva haqqında olan təsəvvürlərindən çox vaxt hakim təbəqələrin nümayəndələrinin müqəddəsləşməsi üçün istifadə edirdilər (məs.: II Yekaterina da bodisatva elan edilmişdi).

**BOHEMİYA QARDAŞLARI**, Moraviya qardaşları – XV əsrin ortalarında taborilərin məğlubiyyətindən sonra əmələ gələn çex dini təriqəti. Təriqətə kəndlilər və sənətkarlar daxil idilər. Bohemiya qardaşları dövlətin, cəmiyyətin təbəələrə bölünməsini rədd edib, erkən xristian təsəvvürləri ruhunda mülki bərabərliyi təbliğ edirdilər. Bununla onlar zülmə müqavimət göstərməmək məsləkini həyata keçirməyə cəhd göstərirdilər. Vaxt keçdikcə, Bohemiya qardaşlarının proqram və fəaliyyəti mülayimləşib çex kəndlilərinin antifeodal mübarizəsinin inkişafına mənfi təsir göstərirdi. 1620-ci ildə Çexiya siyasi müstəqilliyini itirdikdən sonra Bohemiya qardaşları təriqəti darmadağın edilmişdir. Onun pərakəndə edilmiş ardıcılları yalnız yüz ildən sonra yığışa bildilər. Saksoniyanın Qeriqut şəhərində onlar yeni, qeriquterlər təriqətini təşkil etdilər.

**BOKKAÇÇO COVANNİ** (1313-1375) – erkən italyan humanist, şair, yazıçı və alimlərindəndir. Ona ümumdünya şöhrəti gətirən onun "Dekameron" ("On gün gündəliyi") əseridir ki, burada müəllif papa sarayından başlayaraq ən aşağı rütbəli keşişədək bütün dini xadimlərin tamahkarlıqlarını, əxlaqi pozğunluqlarını və riyakarlıqlarını ifşa edir. Onun həcvlərinin ən sevimli qəhrəmanları öz moizələrinə zidd çıxan və öz xəsisliklərinin və ya ehtiraslarının qurbanları olan keşişlər, rahiblər və rahibələrdir. Bokkaçço həmçinin əfsanələrin real əsaslarını açmaq təşəbbüsü ilə "İlahilərin genealogiyası" əsərini

yazmışdır. Qadını alçaq və əxlaqsız məxluq elan edən kilsə nəzəriyyəsinin əleyhinə çıxış edərək, Bokkaçço səxavətə, zəkaya və müxtəlif istedadlara malik olan qadınlar haqqında "Məşhur qadınlar" əsərini yazıb. O, tüfeyli həyat sürən zadəganların əleyhinə kəskin çıxışlarında respublikanı tərənnüm edir, istibdadı pisləyirdi. Onun latınca ekloqaları "**Xrizidaya**", yəni qızıla və asan qazanca hərisliyi mühakimə edirdilər. Bokkaççonun ikiüzlü riyakar asketizmə və xurafata qarşı, humanizmlə fikrin azadlığı uğrunda mübarizəsi katolik kilsəsinin ona qarşı nifrətinə səbəb olurdu.

**BOQDO-QEGEN**, Boqdo-xan, Boqdo (*monqolca* boqdo – "müqəddəs", qegen – "işıqlı") – Monqolustanda "canlı budda" kimi tanınan lamant kilsə başçısının adı (b a x: Xubilqan). Üç yüz il ərzində Boqdo-qegenlər monqolları milli əsarətdə saxlamaq alətinə çevirmişdilər. Birinci Boqdo-qegen Undurqegen adı ilə tanınan Lubsan Damba Camsan (1635-1725) monqol feodalının oğlu idi. Öz dini nüfuzundan istifadə edib o, Xalsa-Monqolustan knyazlarını istiqlaliyyətdən vaz keçib Mançjur tabeliyini qəbul etməyə təhrik etdi. Ondan sonrakı Boqdo-qegenlər də həmin siyasəti davam etdirirdilər. Sonuncu Boqdo-qegen Cebtzun Damba xutuxtu ("xutuxtu" həmçinin dini ünvandır) XVI əsrin axırında – XVII əsrin əvvəlində yaşamış buddist hindli rahib bodisatva Daranatanın təcəssümü kimi təqdim olunurdu. O, milli-azadlıq hərəkatının nəticəsində 1911-ci ildə muxtar dövlət olmuş Xaric Monqolustanın xanı elan edilmişdi. Faktiki olaraq Boqdo-qegenin adından ölkəni lamalar və knyazlar idarə edirdilər, özü isə təhkimli kəndlilərdən (aratlar) və bütün ölkənin dindarlarından yığılan nəhəng gəlirləri eyş-işrətə sərf edirdi. 1918-ci ildən Boqdo-qegen əvvəlcə Çin hərbçilərinin, sonra da baron Ungernin ağqvardiyaçı dəstələrinin itaətkar oyuncağına çevrildi. Ölkədə xalq hakimiyyəti qurulduqdan sonra (1921) Boqdo-qegen dövlətin nominal başçısı kimi qalırdı. Onun ölümündən sonra (1924) Monqolustan Xalq Respublikası elan olundu və indi lamant kilsəsinin başçısı, bandidoxambolama adı daşıyan bir rahibdir.

**BOQORAZ VLADİMİR GERMANOVİÇ** (təxəllüsü Tan N.A. 1865-1936) – etnoqraf, dilşünas, din tarixçisi, 1918-ci ildən etnoqrafiya professoru). Xalqçılıq fəaliyyətinə görə çar hökuməti tərəfindən Kolımaya sürgün ediləndən sonra (XIX əsrin 90-cı illəri) orada Uzaq Şimalın yerli əhalisinin həyatını öyrənmişdir. "Çukçalar" (1-2 cild, 1934-1939) və başqa etnoqrafik əsərlərində Sibir xalqlarında dinin, əsasən şamanizmin parlaq təsvirini verib tədqiqat aparmışdır. 1932-ci ildən Leninqrad dini muzeyinin təşkilatçısı və müdiri olmuşdur.

**BOLQAR PRAVOSLAV KİLSƏSİ** – b a x: **Pravoslavlıq.**

**BOLONYA KONKORDATI** (1516) – Papa X Lev və Fransa kralı I Fransisk arasında bağlanmış saziş (konkordat). Ona əsasən papalıq Fransada kral hakimiyyətinin xeyrinə bir sıra imtiyazlardan məhrum olunurdu.

**BONZA** (*yaponca* bodzu və ya bosan – "mömin", *frans.* bonze) – yapon buddist ayinin xidmətçisinin Avropa adı. Müxtəlif qulluq təbəqələri var. Adətən bonzaların üç rütbəsi olur – sıravilər, abbatlar və yepiskoplar; hər rütbənin daxilində də öz bölgüsü var. Bu rütbələrdən kənarda və onlardan aşağıda rahib bonzalar durur. Təriqətlərdən və rütbələrdən asılı olaraq bonzaların xüsusi rəngdə və biçimdə geyimləri, aşırma lentləri və başqa fərqləndirici əlamətləri olur. Bonzaların hamısı bir qayda kimi başlarını qırxırlar.

**BRAHMA** – induizm panteonunda ən yüksək ilahi. Brahmanın ümumi qaydanın yaradıcısı və nəzarətçisi kimi zühuru son veda dövrünə (e.ə. I minilliyin birinci yarısı) aiddir. Bu zaman sinfi cəmiyyət əmələ gəlib, brahmanlar-kahinlər təbəqəsi ayrılıb cəmiyyətdə böyük nüfuza malik olub. Brahmanlar ilahi Üç Uğnum "trimurti" nəzəriyyəsini irəli sürüb onu inkişaf etdirmişlər. Lakin dindarlar arasında Brahma mücərrəd anlayış olduğundan həmin Üç Uğnumun ikisinə **Şiva** və **Vişnu** ilahilərinə sitayiş daha çox yer aldı.

**BRAHMAN** – 1. Bramin, braman kimi yazılması yanlışdır. Hindistanda ən yüksək kastanın nümayəndəsi – kahin. Peşəkar kahinlər təbəqəsi hələ Şimali Hindistanda sinfi münasibətlərin təşəkkül vaxtında ayrılıb cəmiyyətdə yüksək mövqe tutmuşdur. Lakin kahinlik vəzifəsinin irsi peşə olub brahmanların xüsusi təbəqəyə (b a x: **Varna**) çevrilməsi yalnız son veda dövründə Brahma ayininin bərqərar olunmasından və dini mərasimin mürəkkəbləşməsindən sonra olub. Brahmanlar Vedaların öyrənilməsini inhisara alıb, onların dilini (sanskrit) yalnız onlar tərəfindən istifadə edə bilinən müqəddəs dil elan edib və guya bu dil vasitəsilə Allaha təsirin yalnız onlara məxsus olduğunu deyirlər. Brahmanların çoxu dindarlar hesabına dolanır. 2. **Vadantada** Brahma guya xəyal kimi şərh edilən, görünən dünyanın əsasında duran simasız ilahi mütləqdir. 3. Vedaların tərkibində olan dini traktatlar.

**BRAHMANİZM** – e.ə. I əsrin əvvəlində vedi dininin inkişafı kimi meydana gələn qədim hind dini. Brahmanizmin dünyaya gəlməsi dini qanunlarda uyğunluğun yaranmasının başlanğıcına dəlalət edirdi. Bu prosesin birinci növbədə Şimali Hindistanın daha çox inkişaf etmiş quldarlıq dövlətlərini əhatə etməsi, kastalar quruluşunun və kahinlər təbəqəsinin – brahmanların ictimai və iqtisadi mövqelərinin möhkəmlənməsi ilə bağlı idi. Kahinlər elan etdilər ki, insanların əxlaqının normalarını verən yeganə müqəddəs qanunlar Vedalardır. Tədricən Brahmanizmin mürəkkəb dini mərasimlərinin qaydaları yarandı, brahmanın vəzifələri irsi peşəyə çevrildi. Brahmanizm padşah hakimiyyətini, sosial qeyri-bərabərliyi, cəmiyyətin varnalara və kastalara bölünməsini qanunlaşdırıb müqəddəsləşdirirdi. Brahmanlar özlərini cəmiyyətdə alilər alilərinə çevirdilər.

Brahmanizmdə ictimai qeyri-bərabərliyin dini əsaslandırılması dharma, yəni hər varnanın üzvlərinin əsas vəzifələrini izah edən nəzəriyyədir.

Bununla əlaqədar din tərəfindən təsdiq edilmiş varnaların məşğuliyyətlərinin ciddi bölünməsi, hüquq və imtiyazları həyata keçirilmişdir. Sonradan induizmin ən vacib ehkamlarına çevrilən sansara və karmalar haqqında olan nəzəriyyə də inkişaf etmişdir. Brahmanizmə görə kainatın ilk səbəbi ondan kənarda qalan yeganə ölməz ruhdur, insanın da ruhu bunun zərrəciyidir. Brahmanlar öyrədirdilər ki, insan öləndə onun ruhu başqa, yeni doğulan bədənə köçür. Brahmanların nəzəriyyəsinə görə ruhun transmühacirəti (sansara, b a x: həmçinin **tənasux əl-ərvah**), ruh bütün öz nöqsanlarından azad olub ümumi ruhda əriyənə qədər baş verir. Brahmanizmin karma (əvəz cəzası) haqqındakı nəzəriyyəsi sansara haqqında doktrinanı təkmilləşdirirdi.

Brahmanlar bütün əlavə ilahi Üç Uğnum (b a x: **Trimurti**) haqqında nəzəriyyəni irəli sürən ön sırada ən yüksək ilahini **Brahmanı** təqdim edirlər.

**"BRAHMO SAMAC"** (*sanskritcə* Brahmanın cəmiyyəti) – 1828-ci ildə Benqaliyada (Banqladeş) yaradılmış dini-islahatçı təşkilat. "Brahmo Samac"ın yaradılması Hindistan burjua ziyalıları arasında milli şüurun artmasının ilk təzahürü idi. Bu dövrdə Hindistanın görkəmli ictimai xadimi Ram Mohan Roy yeni dini fəlsəfə sistemini (monoteizm təmayüllü) – "brahmadharma" hazırlamışdı. Öz ardıcılları ilə o, "Brahmo Samac"ı təşkil etdi. Bu yeni dini sistemin tərəfdarları, əsasən ziyalılardan olub ortodoks induizmin ən irticaçı tərəflərini – kastalara bölünməni, dul qadınların özünü yandırmalarını, çoxarvadlılığı, ənənəvi mərasimləri və s. rədd edirdilər. "Brahmo Samac"ın tərəfdarlarının sayı o qədər də çox deyildir.

**BRAMİN** – b a x: **Brahman.**

**BREŞİALI ARNOLD** (Arnaldo) – XII əsrin ortalarında katolik kilsəsinin və **papalığın** əleyhinə çıxış edən görkəmli italyan mübarizi, Roma demokratiyasının rəhbəri (təxm. 1110-1155). Breşiada anadan olub gəncliyini Fransada yaşayıb, Abelyarın şagirdi idi. 1135-ci ildə Breşia sakinlərinin yepiskop əleyhinə mübarizəsinə başçılıq edib. 1139-cu ildə Ümumkilsə Lateran məclisində məhkum edilib Fransaya köçməyə məcbur olmuş və burada Abelyara qoşulmuşdur. Katolik kilsəsini kəskin tənqid etmişdir. 1140-cı ildə papalığın ideoloqu klervonlu Bernarın fitnələri nəticəsində Fransanı tərk edir və üç ilə yaxın Sürixdə qalır. Bernarın tələbi isə kilsə hakimləri tərəfindən oradan da qovulmuş və İtaliyaya qayıtmışdır. 1145-ci ildə Romaya gəlib papalığın əleyhinə mübarizədə iştirak edib. 1143-cü ildə romalıların papanın əleyhinə üsyanı nəticəsində təşkil olunmuş Roma respublikasının faktiki rəhbəri olmuşdur. Breşialı Arnoldun görüşləri bürgerlərin katolik kilsəsinin iqtisadi qüdrətini və siyasi təsirini zəiflətmək niyyətlərini əks etdirirdi.

Breşialı Arnold papalığı və onun əlaltılarını kəskin ifşa edir, feodal əyanlarının möhkəm əqidəli düşməni idi. Roma respublikasında daxili firqələr respublikasında mübarizəsinin gedişatı papanın Romaya qayıtmasına imkan yaratdı və o, Arnoldun Romadan qovul-

masına nail ola bildi. İmperator Fridrix Barbarossanın adamları tərəfindən tutulmuş Arnold papaya təslim edilmişdir. Onu öldürüb cənazəsini yandırdılar, külünü də Tibr çayına atdılar.

**BRUNO CORDANO FİLİPPO** (1548-1600) – İntibah dövrünün italyan filosofu, sxolastik fəlsəfə və katolik kilsəsinin əleyhinə mübariz. Neapolun yaxınlığında Nola şəhərində anadan olub, 15 yaşında dominikan rahibi, sonra 24 yaşından keşiş olmuşdur. Öz ideyalarına görə kilsə hakimiyyəti tərəfindən təqib edilən Bruno, rahib əbasını atıb İtaliyadan qaçır və Fransanı, İngiltərəni, Almaniyanı və Hollandiyanı dolaşaraq öz nəzəriyyəsini təbliğ edirdi. Aldanıb vətəninə qayıtdıqda kilsə hakimiyyəti tərəfindən həbs edilib 8 il zindanda saxlanılmışdır. İnkvizisiya, qabağında baş əyməyən və öz əqidəsindən imtina etməyən Brunonu küfrdə günahlandırıb tonqalda yandırılmasına hökm çıxardı. Bruno 1600-cü il fevralın 17-də Romada Güllər meydanında yandırıldı. Onun əsas əsərləri: "Gül üzərində kef məclisi" (1584), "Səbəb, başlanğıc və vahid haqqında" (1584), "Zəfər çalan qəddarın qovulması" (1584), "Kainatın nəhayətsizliyi və dünyalar haqqında" (1584), "Peqasın sirri Killen eşşəyinin əlavəsi ilə" (1585), "Cəsur ruh yüksəkliyi haqqında" (1585). Antik materializmə əsaslanan Bruno kainatın vəhdəti və onun maddiliyi, təbiətin zamanda əbədiliyi və fəzada nəhayətsizliyi haqqında nəzəriyyə yaradıb. Kopernikin sistemini inkişaf etdirərək Bruno təkid edirdi ki, Günəş sistemindən kənarda saysız-hesabsız məskun aləmlər var, ulduzlar başqa planetlər sistemlərinin günəşləridir. Yer isə kainat genişliyində kiçik toz dənəsi olub, kilsə xadimlərinin dediyi kimi, heç də kainatın mərkəzi deyil. Bruno yazırdı: "Maddə bütün şeylərin substansiyasıdır. Əbədi dövranda o, bütövlükdə və hər yerdə hər şeyi arasıkəsilməyən hərəkətlə əhatə edir". Maddəni və təbiəti o, Allahla eyniləşdirirdi, buna görə də onun dünyagörüşünü panteizm adlandıraraq, özünü də materializm formasının təzahürü kimi qəbul etmək olar. Bruno üçün dünya üzərində duran və ona öz qanunlarını qəbul etdirən Allah yoxdur. O, yazırdı: "Allah və təbiət eyniliklə bir maddədir, eynilikdə bir fəzadır, eyniliklə hər yerdə fəaliyyətdə olan bir səbəbdir". Bruno hesab edirdi ki, Allaha isnad edilən yaradıcı iradə maddənin, təbiətin yaradıcılıq fəaliyyətinin özüdür.

Bruno dini və kilsəni tənqid edirdi. O, Üç Uğnum haqqında xristian ehkamını, dini mərasimləri lağa qoyub, axirət dünyasının cəfəng və əfsanə olmasını sübut edirdi. O deyirdi ki, din müharibələrə, cəmiyyətdə ixtilaflara və qüsurlara gətirən zəhərdir.

**BUBER MARTİN** (1878-1965) – filosof, Qüds universitetində yəhudi ilahiyyətçiliyi üzrə professor, yeni xasidizmin təbliğçisi. Onun "Mən və sən" (1924), "Dialogik prinsip haqqında məqalələr" (1954), "Allah mülkü" (1956) və başqa əsərləri ədəbiyyatda çox vaxt "vəhylər" və "günümüzün din məfkurəsinin ən böyük əsərləri" kimi təqdim olunur.

**BUDDA** (*sanskritcə* buddha, hərfi mənada – "biliklə aydınlaşan, anladılan") – buddizmdə bəşəriyyətə guya həqiqi xilasolma yolunu göstərən din müəllimlərinin adı. Buddizmin nəzəriyyəsinə görə, hər dəfə bəşəriyyət bu yoldan kənara çıxanda, insanlara "həqiqəti" göstərmək üçün yeni Budda peyda olur. Bəzən özbaşına "müqəddəsliyə" ucalan və sonra heç kəsə öz nəzəriyyəsini təbliğ etmədən nirvanaya daxil olanlara da Budda adını verirdilər. Buddistlərin dini kitablarında buddaların müxtəlif sayını və onların müxtəlif təsnifatlarını verirlər. Budda adı ilə daha çox müasir buddizmin banisi hesab edilən Siddhartha Qautama nəzərdə tutulur. Onun ənənəvi tərcümeyi-halında göstərilir ki, Budda Qautama nəsilli çar ailəsində, Sakya qəbiləsində dünyaya gəlib. Onun həyatda olmağını buddistlər e.ə. 624-644-cü illərə aid edirlər. Qəmsiz gənclik günlərini keçirən Budda qocalıq, xəstəlik və ölüm haqda fikirləşməyə başlayır və 29 yaşında ailəsini tərk edib, insan bəlalarının səbəblərini başa düşmək və "xilas yolu" tapmaq üçün zahidliyə əl atır. O, brahmanizmin müqəddəs mətnlərini öyrənir, guşənişin olur, lakin öz suallarına cavab tapmır. Yalnız 36 yaşında Qaya şəhərinin yaxınlığında olarkən (Hindistanın Bihar ştatında) o, guya "həqiqi biliyə" malik oldu və bundan sonra Budda adlandı. Öz birinci moizəsini o, Benares şəhərində bəyan etdi və elə burada o, birinci beş şagirdini öz dininə çevirdi və beləliklə də, sanqhi deyilən rahiblər icmasının bünövrəsini qoydu. 80 yaşına, yəni ölümünə qədər o öz nəzəriyyəsini bütün Hindistanda təbliğ edirdi.

Buddanın birinci "tərcümeyi-halları" onun güman edilən fəaliyyətinin vaxtından 500-600 il sonra tərtib olunub və bunlarda onun anadan olduğu vaxt göylə yerin birləşməsi, çayların daşması, Buddanın hava ilə yeriməsi kimi çoxlu fövqəltəbii təfsilatlar var. Ola bilsin ki, Buddanın ənənəvi tərcümeyi-halının əsasında birinci dini müəllim – buddaların həyatları daxil edilmişdir. Onun bizim günlərimizə gəlib çatan tərcümeyi-halı isə əfsanəvi görünür. Əgər erkən dövrdə Budda insan kimi təqdim olunurdusa, sonralar o, ilahiləşdirilmişdir. Onun adına ibadətgahlar tikilir və çox mürəkkəb kobud formalı büdpərəstlik sitayişi əmələ gəlmişdir.

**BUDDİZM** (Buddanın şəxsi adından) – ardıcıllarının, əsasən, Cənub-Şərqi Asiya və Uzaq Şərq ölkələrində daha çox yayıldığı dinlərdən biridir. Buddistlər öz dinlərini dharma – "zahidlik qanunu" adlandırır və Buddanı müəssis hesab edirlər. Buddizm e.ə. I minilliyin ortalarında Şimali Hindistanda meydana gəlib. Əvvəlki qəbilə dinlərini aradan çıxaran, birinci növbədə silkli quruluşun və kahinlərin (brahmanların) mənafeyini güdən brahmanizm artıq qəbul edilmiş ictimai şəraitə uyğun olmuşdu və bütün bunlar buddizmin inkişafına yol açdı.

Buddizmin doktrinasında əsas yeri "dörd nəcib həqiqət" tutur. Bunlar izah edirlər ki, həyat şər və iztirabdır, həyata gəlməyin səbəbi əməldir, əməllərin səbəbi istəkdir, şərdən, yəni həyatdan azad olmaq istəkdən imtina etmək vasi-

təsilə mümkündür və nəhayət, istəklərdən azad olmaq, Buddanın möminlərinə təqdim olunan "nəcib səkkiz dəfə artırılmış Xilas yolu"nu seçməkdədir. Xilas yolunun ən təsirli üsulunu Buddizm onda çox erkən yaranmış və onun təbii hissəsi olan zahidlikdə görür. Buddizmdə birinci zahidlik icmasının əsasını qoyan Buddanın özü hesab olunur. Zahidlər 10 əsas vəsiyyəti yerinə yetirməlidirlər: canlı vücudu qorumaq, bəkarəti gözləmək, yalandan, oğruluqdan, spirtli içkilərdən, yeməkdə israfçılıqdan, dünyəvi keflərdən, ətriyyatın və bəzəklərin istifadəsindən, dəbdəbəli yataqlarda yatmaqdan və qızıl, gümüş kimi hədiyyə qəbulundan vaz keçmək. Dünya əhli üçün vacib olanların birinci beşi vacibdir. Onlar üçün əsas amil zahidlərə qarşı əliaçıq olmaqdır. Öz ruzilərini zahidlər dilənçiliklə qazanmalıdırlar və buna görə də onları bhikşu – dilənçi adlandırırlar. Buddist rahiblərin "müqəddəsliyi"nin dörd rütbəsi var (ən yüksəyi arxatdır). Şəhər yoxsullarını insanların ruhi birliyi haqqında nəzəriyyə ilə, varlı şəhərliləri və hərbiçi əyanları kahinlərin rəhbər mövqelərinin rədd etməsi, mürəkkəb mərasimlərdən və mülki şəxslər üçün asketik məhdudiyyətlərin məcburi olması ilə cəlb edən buddizm Hindistan cəmiyyətində çox tez yayılmağa başladı. E.ə. III əsrdə, imperator Aşokanın vaxtında buddizm rəiyyətlərin həyatını öz nəzarəti altına almaq istəyən dövlətin güclü köməyini əldə etdi.

Buddizmin daxilində həmişə çoxlu təriqət olub. E.ə. I əsrin ərəfəsində buddizm iki əsas qola – himayanaya və mahayamaya ayrıldı. Ola bilsin ki, himayana buddizmin qədim formasına daha yaxındır.

Aşokanın vaxtından başlayaraq Hindistandan kənarda öz nüfuzlarının artırılması ilə maraqlanan hökmdarlar başqa ölkələrə buddist təbliğat dəstələrini göndərməyə başladılar. Eramızın birinci əsrlərində buddizm Cənub-Şərqdə və Orta Asiyada yayıldı, Çinə, sonra da Koreyaya (IV əsr) və Yaponiyaya (VI əsr) daxil oldu. Cənub-Şərqi Asiyada əsasən himayana, Orta Asiyada isə mahayana nəzəriyyəsi yayıldı. Orta əsrlərdə Hindistanda quldar mütləqiyyətlərinin tənəzzülü, feodal parçalanmasının artması, şəhərlərin əhəmiyyətlərini itirməsi nəticəsində buddizm öz əhəmiyyətini itirməyə başladı. XII-XIII əsrlərdə isə buddizm demək olar ki, tamamilə yox oldu. Müasir buddizm yerli dinlərin komplekslərinə çevrilib. Buddizmin lamaizm forması əsasən Tibetdə və Monqolustanda inkişaf etmişdir. Keçmiş SSRİ ərazisində buddistlamaistlərin ən çoxu Kalmıkiyada, Buryatiyada və Tuvadadır.

**BUXARİ**, (əl-Buxari), Əbu Abdullah Məhullah Məhəmməd ibn İsmayıl (810-870) – müsəlman müqəddəs rəvayətlərinin – sünnənin toplayanı və kodifikatoru, hədisləri toplayıb, Buxari "əl-Cami əs-səhih" – ("Həqiqi məcmuə") tərtib edib və bu, sünnilərin müqəddəs kitabı sayılır.

**BULLA** (*lat.* "kürəcik"). 1. Roma papasının perqamentdə yazılmış və möhürlənmiş çox mühüm müraciəti, qərarı və sərəncamı (latın dilində).

Bullalar mətnin birinci sözü ilə qeyd edilirlər. 2. Orta əsrlərdə girdə qurğuşun, bəzən təntənəli hallarda qızıl möhür. Onun bir tərəfində həvari Pyotr və Pavelin təsvirləri, digər tərəfində papanın adı və "servus servorum dei" ("Allah bəndələrinin bəndəsi") sözləri həkk olunur. Möhür papanın fərmanına qaytanla bağlanır.

**BURAK** – Bərqə ("ildırım") yaxın olan bu söz rəvayətə görə, Merac gecəsində Peyğəmbərin mindiyi əfsanəvi heyvanın adıdır. Quranda (XVII, 60; III, 1-18) Peyğəmbərin bir gecədə Məkkədən Qüdsə gedib oradan da göylərə qalxması haqqında işarə edilirsə də, nə Burak adı, nə də belə bir heyvana aid nəfs yoxdur. Lakin təfsirçilər Peyğəmbərin o gecə Beyti Müqəddəsin hicrində, yəni Kəbənin iç dairəsində olmağını və Cəbrayılın ona Burakı gətirdiyini deyirlər. Bu əfsanə bir çox tərəfdən işlənib süslənərək, şairlərin və rəssamların çox sevdikləri mövzuya çevrilmişdir. Burak, incə təfsilatı ehtiva edən təsvirlərdə, qadın başlı və tovuz quyruqlu bir madyan kimi göstərilir. Bu xüsusda diqqəti cəlb edən İran miniatürləri və Fəriddin Əttarın Meraci-nəbini təsvir etdiyi şeirdir.

Eyni zamanda Burak, Məkkəyə atılmış olan oğlu İsmayılı görməyə getdiyi zaman, İbrahimə də minik xidməti göstərmişdir.

**BÜT** – dindarların təsəvvürünə görə ilahini təsvir və əvəz edərək özündə yerləşdirən, insan tərəfindən yaradılan cisim. Büt ayini – bütpərəstlik – lap qədimlərdə sehr və fetişizm zəmisində yaranıb. Müasir dinlərdə bütpərəstlik ikonalara, xaçlara, sənəmlərə, mavzoleylərə sitayiş formalarında yaşayır.

# C

**CABBARİLƏR** (*ər.* cabr – ilahi qüvvə) – b a x: **Qədərilər.**

**CAQQERNAUT** (təhrif olunmuş *sanskritcə* cahannath, hərfən – dünya hökmranı) – hindu ilahisi Vişnu-Krişnanın adlarından biri, Caqqernautun ən böyük məbədi Hindistanın Puri şəhərindədir (Assam ştatı). Burada çoxlu zəvvarlar toplayan Rathcantra dini bayramı keçirilir ("araba nümayişi"). Bayramın əsas mərasimi Caqqernautun heykəlini nəhəng 16 çarxlı arabada bir ibadətgahdan 2 kilometr aralıdakı digər ibadətgaha aparmaqdır. Bu ağır arabanı minlərcə zəvvar sürüb aparır. Səkkiz gündən sonra heykəli əvvəlki yerinə qaytarırlar. Hindu-vişnuilər arasında belə inam var ki, Rathcantranı görənlər xoşbəxtliklə yenidən dünyaya gələcəklər. Rathcantra bayramı zamanı bəzi fanatiklər özlərini arabanın çarxları altına atırlar.

**CAN** – idealist fəlsəfə və psixologiyada istifadə edilən əsas dini məfhumlardan biri. Dini təsəvvürlərə görə, can – maddi dünyanın şərtsiz əksidir və bədəndən tamamilə asılı olmayaraq yaşayan xüsusi mahiyyətdir; insan bədənində yerləşən can onun daxilində fəal başlanğıc olub, bədənə həyat verir (onu canlandırır), insanı təbiətdə müstəqil edir, iradəsini azad, hisslərini, əqli, istedadını və əsas şəxsi xüsusiyyətlərini şərtləndirir. Bununla yanaşı can ölməzdir. Bütün inkişaf etmiş dinlərdə can məfhumu axirət dünyası və fövqəltəbii qüvvənin qüdrəti haqqında olan təsəvvürlərlə sıx bağlıdır: insan canı Allahdan alır və sonra Allah axirət dünyasında əbədi həyat sürmək üçün canı insanın bədənindən geriyə çağırır. Canın bədəndən getməsi bədənin ölməsinin səbəbi hesab olunur. Canın bədəndən müvəqqəti ayrılması guya yuxu görmənin mahiyyətini izah edir. Müasir dövrdə ilahiyyatçılar və filosofların arasında can məsələsinə dair "trixotomik" nəzəriyyə yayılıb (*yun.* trixotomiya – üç hissəyə bölünmə), bu da bədənin, canın və ruhun varlığını qəbul edir.

**CATAKALAR** (*sanskritcə* doğuluş haqqında hekayətlər) – buddizmdə dini ədəbiyyatın bir növü. Buddaya isnad edilir. Onun doğulmasından əvvəl, Qautama şəklində həyatı haqqında hekayətlərdir.

**CAYNİZM** (Cina şəxs adından) – Hindistanda e.ə. VI əsrdə meydana gəlmiş din. Caynizmin ardıcılları hesab edirlər ki, onların dini lap qədimdən 24 peyğəmbər-müəllim tərəfindən gətirilmişdir. Onlardan birincisi Rişabha, axırıncısı da Cina (*sanskritcə* qalib) adlanan Vardhamana Mahaviradır. Buddizm kimi caynizm dini-islahatçı və fəlsəfi nəzəriyyəsinin yayılması iri quldarlıq dövlətlərinin meydana gəlməsi ilə artan sinfi ziddiyyətlərin (xüsusən kşatrilərlə brahmanlar arasında) güclənməsi və geniş kütlələrin narazılığı ilə

bağlı idi. Caynizmin ardıcılları əsasən şəhərin tacir-sənətkar təbəqələri və qismən kəndlilərdən ibarət idi.

Caynizm kasta-silklər sisteminin ilahi təqdirliyini inkar edir və hamının ruhunun xilas olunması imkanını mümkün sayır. Caynizm brahmanların ilahilər panteonunu, qurbanları və Vedaların nüfuzunu rədd edir, brahmanların ayinlərinin və ağalığının əleyhinə çıxır. O, dünya ruhunu (Brahmanı) və dünya nizamının xaliqi və mühafizi kimi tək Allahı inkar edərək, hesab edir ki, həyatı təmsil edən ayrı-ayrı insanların ruhlarıdır. Caynizm insanda iki mahiyyət görür – maddi (bədən) və mənəvi (ruh). Onun nəzəriyyəsinə görə birinci ölümə məhkumdur, ruh isə cismani qılafda qalsa da, əbədidir və növbə ilə çoxlu başqa bədənlərdə yaşayaraq, özlüyündə inkişaf edib dəyişə bilir. Buddizmdən fərqli olaraq, caynizm təkid etmir ki, guya hər bir həyat əziyyətdir, şərdir. Onun nəzəriyyəsinə görə yalnız səfeh həyat şərdir. Caynalar iki məzhəbə bölünür: diqambarlar (çılpaqlar, "hava ilə örtülənlər") və şvetambarlar (ağ paltar geyənlər). Birinci daha qədim məzhəbdir, hər bir dindara həyatın bütün günahlarından vaz keçmək tövsiyə olunur. Şvetambarların həyata münasibəti daha yüngüldür, buna görə də caynalar arasında bunların sayı daha çoxdur.

Caynizm Hindistanda əsasən ölkənin qərb rayonlarında qalıb. Ona iki milyona qədər adam etiqad edir. Bunlar əsasən şəhərin varlı təbəqəsi, tacirlər, sənətkarlar və sələmçilərdir.

**CƏDİDİZM** (*ər.* cədid – yeni, yəni yeni metod, üsul) – XIX əsrin axırında tatarlar arasında meydana gələn və çar Rusiyasının başqa xalqları arasında islam tərəfdarlarına təsir göstərən burjua-millətçi hərəkat. Cədidizm islahatın əsasında feodal-dini ideologiyasını və onunla bağlı olan hüququ (şəriəti) yeniləşdirmək məqsədini qoyurdu. Buna uyğun olaraq cədidizmin tərəfdarları milli-dini məktəbləri "avropalaşdırıb", tədrisə dünyəvi fənləri daxil edib (riyaziyyat, coğrafiya, tarix), dərsləri daha yeni, müasir metodika əsasında keçməyə başladılar. Cədidizm, həmçinin rus və Qərb ədəbiyyatının tatar dilinə tərcüməsi ilə də məşğul olurdu.

**CƏFƏR İBN ƏBU TALİB** (?-629) – Peyğəmbərin əmisi oğludur, ləqəbi ət-Təyyar olub. İslamiyyəti ilk qəbul edənlərdən biri idi və Həbəşistana ikinci karvanla gedən müsəlmanlar arasında olmuşdur. Rəvayətə görə, mühacirlərin rəisi idi və Həbəş nequsunun hüzuruna çıxıb onunla görüşmüşdü. H. 7 (628)-ci ildə Xeybər döyüşünün axırında Həbəşistandan Ərəbistana qayıtmışdı. H. 8-ci ildə Peyğəmbər, bizanslılara qarşı döyüşən Zeyd ibn Hərisə Cəfərin başçılığı altında üç minlik ordu göndərmişdi. Zeydin ölümündən sonra Cəfər komandan təyin edilmişdi. Cəfərdən sonra onun yerinə Abdullah ibn Ravana təyin olundu. Lut gölünə yaxın Muta ətrafında düşmənlə üz-üzə gələn Zeyd, Cəfər və Abdullah bir-birinin ardınca şəhid oldular. Cəfər ət-Təyyarın ziyarətgah sayılan qəbri Muta yaxınlığında indi də durur.

**CƏFƏR İBN MƏHƏMMƏD** (700-765) – on iki imamın altıncısıdır, ləqəbi əs-Sadiqidir. Cəfər h. 80 (700)-ci, ya da h. 83 (703)-cü ildə anadan olub

və atası Məhəmməd əl-Baqirin yerinə imamətə keçmişdir. Siyasətdə heç bir rolu yoxdur. Lakin hədisdə dərin bilgisi, astrologiya, əlkimya və digər ülumi qeybiyyə ilə də məşğul olması qeyd edilir. Lakin ona aid edilən əsərlər sonradan yazılıb. Mədinədə vəfat edib. İmamiyyə məzhəbindən olanlar Cəfərə qədər gələn imamlar silsiləsini qəbulda müttəfiqdirlər, lakin Cəfərin xələfi xüsusunda fikirləri bir-birindən ayrılır, çünki Cəfərin bir neçə oğlu vardı və aralarından ən azı dördü – Məhəmməd, Abdullah, Musa və İsmail – imamət davasında idilər. Oğlu Musa əl-Kazim yeddinci imam kimi daha çox tanınmışdır.

**CƏHAD** (*ər.* cəhd, qeyrət) – Quranın təlimatına görə hər döyüş qabiliyyəti olan müsəlmanın iştirakı vacib olan müqəddəs müharibə. Cəhad ənənəvi islamın əsas təlimatlarındandır. Cəhad ərəb xilafətinin genişlənməsinin əsas amili idi. XIX əsrin ortalarında İranda babilər əleyhinə cəhad elan olunmuşdu. Sultan Türkiyəsində və Qafqaz müsəlmanlarında Cəhad Ğazavat adlanırdı.

**CƏHƏNNƏM VƏ CƏNNƏT** – dini təsəvvürlərə görə bu dünyadakı davranışına görə ölümdən sonra insan ruhunun düşəcəyi məkan: dinin və din xadimlərinin ehkamlarını pozduğuna görə əzab-iztirab üçün ruh cəhənnəmə, bu ehkamlara ardıcıl riayət edənlər isə zövq-ləzzət almaq üçün cənnətə düşürlər.

**CİN** – tüstüsüz alovdan və havadan yaranan fantastik vücud. Qədim ərəb folklorunda və Quranda tez-tez adı çəkilir. Müsəlmanlar hesab edirlər ki, cin insan dərrakəsinə və ehtiraslarına malik olub, xeyirli və şərli işləri görə bilir, insanların və heyvanların müxtəlif cildlərinə girməyi bacarır. Müsəlman əfsanəsinə görə Məhəmməd peyğəmbər cinlər dəstəsinə moizə oxumuşdur.

# Ç

**ÇURİNQA**, tyurinqa (Avstraliyada) – yerli (aborigen) avstraliyalıların inamlarına görə sirli sehrli qüvvəyə malik olan əşyadır. Adətən Çurinqa uzunsov yastı daş və ya ornamentli işlənmiş taxta parçasıdır.

# D

**DAİ** – əslində "dəvət edən, haqq dininə çağıran" mənasındadır. Bu istilaha ən çox ismaililər, qərmətilər və druzlar tarixində rast gəlinir.

**Dai** ismailiyə məzhəbinin mərtəbə silsiləsində beş dərəcədədir [Fatimi xəlifələrindən əl-Müstənsir-billahın (1036-1094) Xorasan dailiyinə təyin etdiyi məşhur şair Nəsir Xosrovun (ona hüccəti-Müstənsiri, hüccəti-Xorasan və sahibi-Cəzirə ünvanları verilmişdir)]. "Vəhci-din" (s. 76, 79, 90) adlı əsərində göründüyü kimi, isnə əşəriyyənin 12 imamına müqabil, batinilərin də, dailərdən başqa, əqidələrini yaymaqla mükəlləf 12 hüccətləri vardır. Bunların hər biri dünyanın ayrıldığı Xorasan, İraq və 12 cəzirənin birində dəvət ilə məşğul olur və imamın elmi, yalnız sahibi-cəzirə olanlar vasitəsilə aləmə yayılırdı. Bari (Allah) təala, əql, nəfs, məkan və xəlalarına müqabil, batinilərin də, sırası ilə sabiq (bari təala), tali (əql), cədd (xəyula), fəth (halan-mütləq), xəyal (zamani-mütləq) terminləri vardır.

Dai sözü biri digərinə tabe olan müxalif mərtəbədə şəxslərə dəlalət etmək üzrə də işlənir. Qərmətilər ilə Fatimilərin tarixlərində böyük dai və ya "dai əd-duad" terminini görürük. Übeydallah, Mehdi olduqdan sonra h. 297 (910)-ci ildə Raqqadaya gedincə, bir ümumi məclis qurmuş və burada böyük dai sifəti ilə mövqe almışdı.

Ən məşhur dailər bunlardı: Abdan və Həmdan Qəmmət (qərməti məzhəbini təsis etmişdilər), Həmədan (İraqın ilk böyük daisi), Zikrəveyh (ona tabe olan dailər sayəsində Suriya və İraq sərhədlərindəki qəsəbələri təxribata uğratmaq üçün kifayət miqdar qüvvə toplamağa müvəffəq olmuş və nəhayət h. 294 (906-7)-cü ildə məğlub edilərək, öldürülmüşdü). Əbu Səid əl-Cənnabi (xəlifə Mötəzidin əsgərlərini Bəsrə ətrafında məğlub etmiş, bütün Bəhreyn şəhərlərini istila etmiş, xilafəti yıxmağa az qala nail olmuş və h. 300-cü (913) ildə ölmüşdür), Əbu Abdullah Mühtəsib ən kiçik mərtəbəli dai olaraq işə başlamışdır. Həqiqi və əsgəri dahiliyi ilə, Ketama qəbiləsinin başına keçmiş və Übeydallahın adı ilə bütün Şimali Afrikanı fəth etmişdi. Übeydallah daha sonra Mehdi elan olunub, h. 296-cı (906) ildə Fatimilər xanədanını təsis etmiş və Əbu Abdullaha qısqanaraq taxta oturduğu ildə (h. 298-94) onu öldürtmüşdür.

**DAQOBA** (sanskritdən sinqalez dilində – dhatuqarbha) – əvvəllər, ola bilsin, guya Budda ilə əlaqədar olan və **stupada** saxlanılan "xatirələr" buddizmin yaddaş tikilisi olan kameranın adıdır. Sonralar Seylonda və Birmada bu ad stupaların özlərinə verilmişdir.

**DALAY-LAMA** (*tibetcə* hərfən – "rahib-okean") – Tibetin lamai kilsə başçısının ünvanı. O həmçinin Tibetin

teotrkatik hakimi olub, dindarlar tərəfindən insan simasında (b a x: **xubilqan**) olan diri Allah (bodisatva) kimi qəbul edilir. Dalay-lama ünvanı XVI əsrdə təsis edilib. Dalay-lama dini və mülkü hakimiyyəti irsi deyil (bütün lamalar kimi, o da subaylıq andı ilə bağlıdır), onun varisi yüksək rütbəli lamalar məclisi tərəfindən seçilir. Bunlar Dalay-lamanın ölümündən sonra doğulan oğlanların hansına "çevrilməsini" müəyyən edirlər.

**DANİYAL** – Bəni İsrail peyğəmbərlərindən olub, islam əsərlərində adı çox az çəkilir. Təbərinin dediyinə görə, Daniyal Buxt Nasr tərəfindən Qüds şəhərində alınan əsirlər arasında idi. Hökmdar, ağıl və biliyini təqdir etdiyi üçün onu özünə sirr katibi etmişdir (b a x: **Əhdi-Ətiq, Daniyal,** 1, 1-6). Bundan sonra Daniyal Keyxosrova haqq dinini qəbul etdirmişdir (**yenə orada,** XIV, 42). Keyxosrov onu vəzir etdi. Daniyal hökmdardan İsrail oğullarının Qüdsə qayıtmalarına və şəhər ilə məbədi yenidən inşa etmələrinə izn istədi, Keyxosrov da israillilərin bu arzularını qəbul etmiş, lakin Daniyalı buraxmayıb yanında saxlamış və peyğəmbərin vətənə qayıtmasına ancaq hökmdarın ölümündən sonra izn verilmişdir.

**DARAKUTNİ,** Əbülhəsən Əli ibn Ömər ibn Əhməd ibn Mehdi (917-995) – tanınmış mühəddislərdəndir: əmirəl-möminin fil-hədis ünvanı verilən bu şəxs h. 305 (917-18)-ci ildə Bağdadda Dal əl-Kutn məhəlləsində anadan olmuşdur. Zamanının adətinə görə, dövrünün ən məşhur mühəddislərindən hədis öyrənmək üçün səyahət etmiş və Bəsrə, Kufə, Vasit, Suriya və Misirə getmişdir. Darakutni hədis elmində tənqidi üsulu xeyli inkişaf etdirən üləmalardan biridir. Vaxtımıza gəlib çatmayan bütün əsərləri içərisində ən çox hədisə aid olanlardır: 1) əs-Sunan (Dehli, 1310) – bu əsər, hədis məcmuələrinin adi tərzlərinə müxalif olaraq, yalnız mühüm fiqh məsələlərinə dair hədisləri ehtiva edir; 2) Kitab iləl əl-hədis – bu əsəri Darakutni hafizəsindən və imla etdirməklə tərtib etmişdir. Bu günə qədər əsərin 2, 3 və 5-ci cildləri çatmışdır (Bankipur kataloqu, № 301-303); 3) İlzamat ələl-səhiheyn – əsər həqiqi hədislərdən ibarətdir (Kəşf əz-zunun, № 1132); 4) Kitab əl-istidrakat vət-tətəbbü; 5) Kitab əl-bəin; 6) Kitab əl-əfrad; 7) Kitab əl-əməli; 8) Kitab əl-müstəcab; 9) Kitab ər-röya və s.

**DARİMİ,** Əbu Məhəmməd Abdullah ibn Əbdürrəhman ibn əl-Fəzl ibn Bəhram ibn Əbdüssəməd ət-Təmimi (797-869) – səmərqəndlidir. Hədis araşdırmaları üçün Xorasan, Suriya, İraq, Misir və Hicaza səyahət etmişdir. Əsərləri: "əl-Müsnəd" hədis kitabı; "əl-Təfsir" və "Kitab əl-dami".

**DARUSSALAM** – Dar əs-salam ("sülh və sükut yeri") – əvvəla Quranda (əl-Ənam, 127 və Yunus, 26) Cənnətə dəlalət edir. Beyzaviyə görə, cənnət, pozğunluğa və ədalətsizliyə müqabil, salamatlıq (salama) bəxş edir. Çünki oraya daxil olanlar Allahın rəhmətinə və mələklərin duasına (sallama) layiq olurlar.

**DAUD** (Davud) – Bəni İsrail peyğəmbərlərindən biri, Quranda bu peyğəmbərin hekayətinə aid bir çox ayələr var. Bunların birində (Sad, 26): "Ya Davud! Biz səni yer üzündə xəlifə etdik. Buna görə də insanlar arasında ədalətlə hökm et", deyilir. Lakin başqa peyğəmbər hekayətlərində olduğu kimi, bundan xəbərlər də Kitabi Müqəddəsdəki xəbərlərdən fərqlidir. Quranda Daudun Calutu öldürdüyü (Bəqərə, 251), Allah tərəfindən ona Zəbur göndərildiyi yazılır. Zəbur Quranda adı çəkilən dörd kitabdan biridir. Daudun peşmançılığı Quranda qeyd olunur (Sad, 17). Daud da hikmətdə Süleyman ilə müştərək idi (Bəqərə, 251, ən-Nəml, 15). Bir gün şumlanan bir tarlada etdikləri zərər haqqında hər ikisi birlikdə diqqətəşayan bir hökm vermişdilər (əl-Ənbiya, 78-79). Şərhçilər deyirlər ki, o vaqiə vaxtında, 11 yaşlı oğlu Süleyman atasının verdiyi hökmü düzəldərək, öz hikmətini göstərməyə başladı. Daud zirehli köynəyi icad edən, yəni zireh lövhələri yerinə bu köynəyi işlədən şəxs kimi göstərilir; dəmir sanki onun əlində yumşalırdı (əl-Ənbiya, 80; Səba, 11), səsi gözəl idi, oxuduğu zaman dağlar və quşlar onu müşayiət edərdilər (əl-Ənbiya, 79; Səba, 11; Sad, 17-18).

Daudun sufilərin yanında olduqca böyük hörməti və xüsusi mövqeyi vardı. Cəlaləddin Rumi "Məsnəvi" poemasında onun adını zikr edir. Çox qədim sufilər kitabı olan "Kəşf əl-məhcub" səsinin füsunkar təsiri haqqındakı əfsanələri gülünc bir tərzdə mübaliğə ilə təqdim edir (səh. 402-403): vəhşi heyvanlar onu dinləmək üçün yuvalarından çıxarlardı, axar sular dayanar və uçan quşlar qanad saxlayardılar. Xalq, günlərlə yemək və içməyi unudaraq çöldə onu təqib edərdi. Dinləyənlərin çoxu bu füsun içində həlak olurdu. Bir dəfə buna görə 700 gənc qız və 13 min kişi ölmüşdü. Həmin kitabda (səh. 197) bəzi daha başqa təsvirlər də var idi. Nəhayət, Allah Dauda belə deyir: "Sən özünü sevmə, çünki sən özünü nə qədər sevməsən, mən səni o qədər sevərəm".

**DAVİD** – Bibliyaya və Qurana görə ikinci İsrail çarı (e.ə. XI əsr). Bibliya Davidi xəyanətkar və qaniçən zalım, pozğun, əxlaqsız, sərkərdə Uriyanın arvadı Virsaviyaya yiyələnmək üçün onu öldürməkdən belə çəkinməyən bir adam kimi qələmə verir. Lakin onu pisləməyib, əksinə, onu "Allah qorxusuna" bağlı olan mömin kimi tərifləyir. Dini ənənə zəburların müəllifliyini isnad edir. B a x: **Daud.**

**DEİZM** (*lat.* deus – Allah) – Allahın təbiətdə və cəmiyyətdə cərəyan edən bütün hadisələrə bilavasitə qarışmasını inkar, lakin Onu dünyanın xaliqi kimi qəbul edən dini-fəlsəfi nəzəriyyə. Deizm nəzəriyyəsinə görə, Allah, dünyanı yaratdıqdan sonra onun varlığına qarışmırdı. Deizmin nümayəndələri Allahı ilk səbəb, adətən Ona kilsə tərəfindən aid edilən xüsusiyyətlərdən: mütləq idrak, qüdrət və s. məhrum olan simasız başlanğıc kimi təsvir edirdilər. Əgər ənənəvi kilsə Allahı qeyri-məhdud hökmdar kimi xatırlayarsa, deistlərin Allahı faktiki hakimiyyətdən məhrum olan konstitusion hökmdar kimi

görünür. Deizm fanatizm və mərasimlər əleyhinə, vicdan azadlığı uğrunda və elmlə fəlsəfənin kilsə tərəfindən himayəsinin əleyhinə çıxış etməyə imkan yaradır. Keçmişdə deistlər kilsə əleyhinə ciddi təbliğat aparırdılar. XVIII əsrdə Deizm bayrağı altında elmi və fəlsəfi fikrin bir çox qabaqcıl nümayəndələri və maarifçiləri çıxış edirdi. Fransada – Volter və Russo, İngiltərədə – Lokk və Toland, Amerikada – Franklin və Cefferson və b. Deizm XIX əsrdə elmin kainatın ilk səbəbinin mexaniki təsəvvüründən azad olunmasından sonra öz proqressiv əhəmiyyətini itirir.

**DEKRETALİYALAR** (*lat.* dekretum – qərar, hökm) – papaların cavablarının ümumi əhəmiyyətə malik olan və kilsə tərəfindən qanunverici sərəncam sayıla bilən xüsusi məsələlər barədə müraciətnamələri. Birinci dekretaliyalar IV əsrə aiddir, amma V əsrdən etibarən arada saxta dekretaliyalar yayıldı ki, papalıq orta əsrlər boyu bunların vasitəsilə öz iddialarını əsaslandırmağa çalışırdı (məs., b a x: **Yalançı İsidorun Dekretaliyası**). XIII əsrdə katolik kilsə Dekretaliyaların nizama salınmasına başlayıb, bunları qanunverici sənədlərə çevirdi.

**DEMETRA** – qədim yunan əfsanələrində əkinçilik və dənli bitkilərin yetişməsi ilahəsi. Romada ona uyğun Tsereradır. Demetra haqqında əfsanə il fəsillərinin, xüsusən payız və baharın dəyişməsinin təcəssümü idi. Əfsanəyə görə, Demetra, qızı Persefonanın Zevsin razılığı ilə yeraltı ilahi Aid tərəfindən oğurlanmasına görə Zevsdən qəzəblənərək, yeri barsız etdi (payız və qışda). Demetra yerin bərəkətini Zevsin Persefonanı yer üzünə ilin dörddə iki vaxtına (bahar, yay) çıxarılmasına razılıq verəndən sonra qaytardı. Demetraya pərəstiş mərkəzi Elevsində idi.

**DEV**, Div (*fars.* köhnə şəkildə dev, Avestada daeva, *sanskritcə* deva – ilahi) – günahları bilinmiş olan şərli ruhlar, zülmət hakimləri, Əhrimanın çoxsaylı məxluqları. Bunların arasında 7 Amşaspəndə müqabil olmaqla, əsas 7 iblis: (Əhriman da daxildir) ayırd edilir. Əfsanəyə görə, Cəmşid, devləri hökmü altına almışdır (b a x: **Firdovsi**, Şahnamə). İran dastanında "ağ dev" (devi-səfid) hökmdar Keykavus ilə müharibə edən Mazandaran hökmdarının yardımına gəlir. Bu devin ölkəsində sehrdə mahir devlər yaşayırlar. Zal oğlu Rüstəm həm bu dev ilə, həm də Akvan (Akoman) və Ərjəng adlı devlərlə döyüşür. Hökmdar Təhmuras, devləri döyüşdə və sehr işlətməklə məğlub etdiyi üçün, Devbənd ("Devləri məğlub edən") ləqəbini almışdı. Təhmurasa qarşı olan orduya "qara dev" (siyah dev) rəhbərlik edərmiş. Təhmurasa yazını öyrədən bu devlər olub.

**DEVADATTA** – Budda haqqında əfsanələrdə onun əmisi oğlu. Budda rahiblər icmasının baş üzvləri sırasında idi. Əfsanəyə görə, Devadatta icmanın rəhbərliyini əlinə almaq istəyirdi və bir neçə dəfə Buddanın həyatına qəsd etmişdi. İstəyinə nail ola bilmədiyi üçün kədərdən öldü və buddistlərin inamına görə cəhənnəmə vasil oldu.

**DƏCCƏL** – 1) axirətdə Allahın rəqibi olan şeytan; 2) axirətdə İsrailə qarşı

millətləri təkrar birləşdirəcək hökmdar; 3) insanları başdan çıxaran və tərəfdarları ən çox yəhudilərdən təşəkkül edən Məsih müxalifi.

**DƏHRİYƏ** – Quranın (əl-Casiyə, 24) müşriklər haqqında nazil olan – "[Qiyaməti inkar edənlər] belə deyirlər: Dünyadakı həyatımızdan başqa heç bir həyat yoxdur; ölürük və dirilirik; – bizi öldürən ancaq dəhrdir" ayəsinə isnad edərək, Allahın vücudunu və dünyanın Allah tərəfindən və yenə Allahın lütf və kəraməti ilə yaradıldığını inkar etməklə qane olmayaraq, dinlərin başlıca ehkamını (ilahi qanunları, axirəti və cəza gününü) tamamilə rədd edən zümrəyə verilən addır.

**DƏRVİŞ** (*fars.* qapı-qapı dolaşan, yəni "dilənçi" mənasında izah olunur) – İslam ölkələrinin çoxunda bu söz "təriqət mənsubu" mənasındadır. Lakin farsca və qədimdən türkcədə "sədəqə toplayan kimsə" kimi daha dar məna ifadə edir ki, ərəbcədə bunun müqabili fağırdır. Mərakeşdə və Əlcəzairdə geniş mənada dərvişləri göstərmək üçün işlənilən söz, hvan şəklində tələffüz olunan və "qardaşlar" mənasını verən ixvandır. Bu ixvan təşkilatı (turuq, tək: tariqə "yol", yəni "təlim, hərəkat və ibadət yolu") islam aləmində dini həyatın təşkilatlanmış şəklidir.

**DİANA** – Qədim İtaliya (Roma) dini təsəvvürlərində – evli qadınların və zahıların himayəçi ilahəsi. Sonralar ovçuluq, işıq verənlərin və həyatın ilahəsi oldu. O, yunan Artemidası ilə eyniləşdirilirdi.

**DİASPORA** (*yun.* səpələnmə, dağılma) – yəhudilərin Fələstindən kənarda yerləşdirildiyi məkanlar. İudeya dövlətinin məhv olunmasından çox əsrlər qabaq qədim yəhudilər Fələstinin Assur, Babil, İran, Roma və b. tərəfindən işğal olunması ilə əlaqədar Babildə, Misirdə və Aralıq dənizinin adalarında məskunlaşmağa məcbur olurdular.

**"DİDAXE"**, "On iki havarinin nəzəriyyəsi" – Əhdi-Cədid qanuna daxil olmayan erkən xristian nəzəriyyəsi. "Didaxe"nin əlyazması 1873-cü ildə Konstantinopolda tapılıb və bu əsər erkən xristianlıq tarixinin ən əhəmiyyətli məxəzidir. "Didaxe" üç hissədən ibarətdir: 1-6-cı fəsillər "həyatın və ölümün yolları"nı təsvir, xaçpərəstlərin həyatda əxlaq normalarından bəhs edir; 7-10-cu fəsillərdə mərasimlər və udalar sadalanır; 11-16-cı fəsillərdə xristian icmasının təşkilat prinsipləri və vəzifəli şəxslərin funksiyaları izah olunur.

**DİONİS** – qədim yunan əfsanələrində üzümçülük, şərabçılıq və sərxoşluq ilahisi. Dionis ayini eyş-işrət xarakteri daşıyırdı: bayramlar (dionisiyalar) qarşısıalınmaz şənliklə, həyəcanlı rəqslərlə, dağlıq yerlərdə qaçmaqla müşayiət edilirdi. Haldan düşən bayram iştirakçıları, xüsusən qadınlar, əlləri ilə qurbanlıq heyvanı diri-diri parçalayıb onun çiy ətini yeyirdilər. Dionisin şərəfinə olan şəbihlərdə onun ölümü, yas ağlaşması, onun surətinin dəfn olunması və üçüncü gündə dirilməsi təsvir olunurdu. Kahin elan edirdi: "İlahi dirildi və biz xilas olacağıq!" Şəbihlərdə Dionis Yakx adlanırdı (Vakx və Baxus buradandır).

**DİRİLMƏ**, voskresenye – həftəlik xristian dini bayramı. Qədimdə kildani-babil astroloji hesablamalarının təsiri altında xalqların çoxu tərəfindən qəbul edilmiş yeddi günlük həftədə, iudaizmin ardınca xristianlıqda da əvvəllər həftənin son, şənbə günü bayram keçirilirdi. Bayramın səbəbi kainatın yaranması haqqında bibliya əfsanəsinə əsaslanırdı. İudaizmlə əlaqələrin qırılması onun bayramlarının rədd edilməsinə gətirdi. Həftənin son günü əvəzinə xristianlar, iranlıların Günəş ilahisi Mitra ayinini götürüb və onu İsanın ölüb dirilməsi əfsanəsilə (mitraizmdə bu ayin Mitranın ölüb dirilməsi ilə bağlıdır) bağlayıb, "Günəş günü" olan həftənin birinci gününü bayram elan etdilər. Bəzi xalqların dillərində həftənin birinci günü indiyədək "Günəş günü" adlanır: *alm.* – zonntaq, *ing.* – sandi. İmperator I Konstantinin vaxtında (IV əsrin əvvəli) Roma imperiyasında xristianlığın dövlət dini elan edilməsinin yeddi günlük həftəsini həyata keçirməklə onun birinci günü də bayram elan edildi.

**DİSSİDENTLƏR** (*lat.* dissedens – "razı olmayan, başqa cür düşünən") – rəsmi dinə, ideologiyaya mənsub olmayan şəxslər.

**DİYƏT**, Diya – bir insanı öldürən və ya yaralayan kimsənin verdiyi qan qiyməti (bahası), yaxud təzminat deməkdir. Cahiliyə dövründə insan öldürənlər, ölənin qan bahası olaraq 10 dişi dəvə verirdilər. Əbdülmütəllib, bir andına görə Kəbə qabağında qurban verməyə məcbur olduğu oğlu Abdullahı 10 dişi dəvə kəsərək xilas etdi, lakin 10 dəfə bu miqdar qurban kəsməyə məcbur olduğu üçün, o vaxtdan bəri bir insanın həyat bahası 100 dəvə oldu. Peyğəmbərin Əmr ibn Həzmə göndərdiyi bir məktubunda təyin edilən qiymət də budur. Eyni məktubda beyinə qədər çatan, yaxud qarını deşən yaralar üçün, yuxarıdakı miqdarın 33; bir göz, bir əl və ya bir ayaq ziyanı üçün 50 və sınan bir diş və ya sümük bayıra çıxacaq dərəcədə olan yara üçün də 5 dəvə təzminat müəyyən edilmişdi. Xəlifə Ömər 100 dəvənin nağd müqabilini 1000 dinar və ya 12 min dirhəm təyin etmişdi. Əhl əz-zəhəb deyilən Misir və Suriya əhalisi 12 min dirhəm diyət verirdilər; diyətlərə 3-4 illik müddətə möhlət verilirdi. Diyətin dişi dəvə ilə ödənilməsi vacib idi. Dəvələrin yaşları ilə miqdarları da bəzi şərtlərə tabe idi. Əmda (bilə-bilə hazırlanan) adam öldürən kimsə bir yaşında 25, iki yaşında 25, üç yaşında 25, dörd yaşında 25 dişi dəvə və **əmda** olmayan öldürmələr üçün isə bir yaşında 20, iki yaşında 20, üç yaşında 20, dörd yaşında 20 dişi dəvə, yaxud iki yaşında 20 erkək dəvə verirdi. Qadınlar 100 dəvəlik diyətin üçdə birinə qədər təzminat verilən hallarda kişilər kimi eyni miqdarda təzminat alırdılar. Diyətin miqdarı üçdə birdən yüksək olan hallarda isə, kişilərə verilənin ancaq yarısını ala bilərdilər. Məliki məzhəbinin diyət haqqındakı hökmü budur. Şafei məzhəbinə görə, qadın bəzi hallarda kişi diyətinin yarısını, məs., bir barmağın itirməsi müqabilində, 10 dəvə yerinə 5 dəvə verir. Ümumiyyətlə, uşaq və

dəlilər şəxsən diyətdən azaddırlar, dəlilərdən alınacaq diyət, dövlət tərəfindən verilir. Bir uşaq ilə bir yetkin birlikdə bir müsəlman əmda öldürərlərsə, yetkin edam olunur, uşaq isə diyətin yarısını verir. Əgər bir kölə ilə bir azad adam birlikdə əmda bir köləni öldürərlərsə, kölə edam olunur, azad adam isə öldürülən kölənin qiymətinin yarısını ödəyir. Əgər bir müsəlman kölə bir yəhudi və ya xristianı yaralayarsa, kölənin ağası onu satıb təzminatı verməyə məcburdur. Lakin müsəlman köləsi onlara təslim edilməz. İki tərəf arasında əmələ gələn döyüşdə bir tərəfin ölən və ya yaralananları üçün ikinci tərəf diyət verir. Heyvanların etdiyi zərərlərdən sahibləri məsuldur.

**DRUZLAR** (*ər.* şəxsi addan) – müsəlman şiə məzhəbinin ardıcılları, ismaililərin bir qolu (b a x: **İsmaililər**). Suriyada və Lübnanda onların sayı 250 minə qədərdir. Onların əsas ehkamı (tək Allahı tanımadan sonra) – "ilahi mahiyyətin" Fatimi xəlifəsi Hakimdə (996-1021) təcəssüm olunmasıdır. Druzlar onun yenidən qayıdacağına inanır, tənasuh əl-ərvahı (ruhların hicrətini) qəbul edib, onu dini rəhbərlərin varəsəliyi ilə bağlayırlar. Druzların öz müqəddəs kitabları var. Bunların oxunması dini məclislərdə iştirak etmə kimi, yalnız icazələri olan və "uqqal" (ağıllılar, savadlılar) adlanan və onlarda ruhani rolunu oynayanlara icazə verilir. Sərt keçidli dağ mahallarında yaşayan druzlar XVI-XVIII əsrlərdə (Osmanlılar dövrü) nisbi müstəqilliyə malik idilər. XIX əsrdə onlar maronitlərlə mübarizədə iştirak edir və Lübnan kəndlilərinin antifeodal üsyanlarının yatırılmasında türk hakimiyyətinə kömək edirdilər. 1924-1925-ci illərdə druzlar fransız hökmranlığının Suriyada qalxan inqilabi hərəkatında ən fəal iştirakçı olmuşlar.

**DÜLDÜL** – Peyğəmbərin ağ dişi qatırının adıdır. Peyğəmbər qazavatlarda ona minərdi. Qatır Peyğəmbərin vəfatından sonra da yaşadı, qocaldı və dişləri töküldü. Deyilənə görə, Müaviyə zamanına qədər (661-680) yaşadıqdan sonra, Yanbu şəhərində öldü. Şiələrin bir rəvayətinə görə, Düldül xeyli yaşamış və Əli onun sırtına minərək xaricilər ilə müharibə etmişdir. Bu qatır Peyğəmbərə Əfəyr adında eşşəklə birlikdə, misirli Müqavqis tərəfindən hədiyyə olaraq göndərilmişdi. Müsəlmanlar qatırı, ilk dəfə elə o vaxt gördülər. "Düldül" sözü kirpi deməkdir.

**DZEN** (*yaponca, sanskritcə* – dhyana – seyrə dalma, fikrə getmə) – mahayanist buddizmin ən mühüm cərəyanlarından (təriqətlərindən) biri. Dzen təriqəti təxminən V əsrdə Çində meydana gəlib. Onun banisi Bodhidharma adlı rahibdir. O hesab edirdi ki, seyrə dalma, ruhu və iradəni möhkəmlədir və bunun üçün səssiz-səmirsiz 9 il divarı seyr edirdi. Dzenin ən geniş yayılması VII-XIII əsrlərdə Çində olub və bundan sonra Koreyaya, oradan da Yaponiyaya keçib. Dzen nəzəriyyəsində ən mühüm yeri seyrə dalma və daxili aləmə qapılma "aydınlaşmaya" malik olmaq iddiası tutur, bu da adamın önündə "fərddən yüksəyi" "şəxsi mən"i oyatmağı, "şəxsi mən"dən və bununla bağlı

olan bütün dərdlərdən özünü azad etməyi və dünyanın "həqiqi" mahiyyətinin dərk edilməsini nəzərdə tuturdu. Dzen nəzəriyyəsinə görə xəyali fərdiyyətdən azad olub bütün dünya ilə qovuşmaq – dünyanın mahiyyətini anlamaq deməkdir və buna nail olmaq əql vasitəsilə yox, yalnız "intuitiv müdrikliyin" və "bilavasitə təcrübənin" yaranması vasitəsilə mümkündür. Dzen nəzəriyyəsinin samuray əxlaq qaydalarının formalaşmasına böyük təsiri olub.

**DZİMMU-TENNO** (*yaponca* tenno – imperator, hərfən – səmavi hökmdar; Dzimmu – şəxsi addır) – guya allahlardan doğulmuş (Amaterasunun nəslindən) və indiki imperator sülaləsinin binasını qoymuş Yaponiyanın birinci əfsanəvi imperatoru. Dzimmu-tenno haqqında olan əfsanələrdə həqiqi tarixi hadisələrlə birlikdə, o cümlədən, guya Dzimmu-tennonun rəhbərliyi altında Küsü adalarından gəlmiş qəbilələr tərəfindən mərkəzi Yaponiyanın zəbt edilməsi ilə yanaşı qədim əfsanələrin də elementləri var.

**DZİNDZYA** (*yaponca* hərfən – Allah kəşanəsi) – məbədli sintoizmin ibadətgahı. Bu, adətən, xonden – ayinlərə aid əşya (ilahinin adı yazılmış lövhəcik, qılınc, güzgü və s.) üçün yer və xeyden – ibadət otağından ibarətdir.

# E

**EA** – babil-assur inamlarında – Səma sularının (yağış və tufan) ilahisi Adaya qarşı qoyulan yer üzü və yeraltı suların ilahisi; Şumer ilahisi Enkaya müvafiqdir. Ona sitayişin mərkəzi Fars körfəzi sahilində yerləşən Eridu şəhərində idi. Əfsanələrdə Ea, insanlara müxtəlif sənətlər, incəsənət növləri və biliklər öyrədən müdriklik ilahisi kimi təmsil edilir. O, kanalları və arxları dolduran, süni suvarmanın (irriqasiyanın) hamisi hesab olunurdu. Balıq quyruqlu insan şəklində təsvir olunurdu. Babil ilahilər panteonuna Ea Anu və Enlil-Bel ilə birlikdə ali ilahilər üçlüyünə daxil idi.

**EDEM** – Fələstindən şərqdə, Fərat və Dəclənin mənbələri yaxınlığında yerləşən əfsanəvi ölkə. Qədim yəhudilərin təsəvvürlərinə görə, burada Adəm və Həvvanın qovulduğu cənnət yerləşirdi. Bibliyanın yəhudi mətnində Eden adlanır.

**EKZARX** (*yun.* ekzarxos – müstəqil hakimiyyəti olan). 1) Qədim Yunanıstanda ibadətgah nəzdindəki kahinlərin başçısı; 2) Bizans imperiyasında vilayət (diotsez) başçısı (hakimi) və vilayət kilsələrini idarə edən yepiskop; 3) Müasir pravoslavlıqda öz xüsusiyyətləri ilə fərqlənən inzibati-ərazi vilayətini əhatə edən kilsə dairəsinin başçısı: rus pravoslav kilsəsinin Ukraynadakı ekzarxı; rus pravoslav kilsəsinin ABŞ-dakı (Moskva patriarxına tabe olan) ekzarxı və s.

**ELFLƏR** (*köhnə skandinavca* əlfar) – alman-skandinav əfsanələrində və bir sıra Avropa xalqlarının orta əsr folklorunda təbiət qüvvələrini təmsil edən, kiçikboylu insanabənzər cisimlər. “Kiçik Edda” açıq, tünd və qara Elfləri ayırır. Açıq Elflər xüsusi, Alfheym dünyasında yaşayır və Freirin mahiyyətini təşkil edirlər. Bunlar insanlara qarşı xeyirxah olur, lakin təhqir olunanda sərt və qisas alan yüngül, mücərrəd cisimlərdir. Onlar əyirmə və toxuculuqla məşğul olan və ay işığında rəqsləri və musiqini sevən qüvvəli sehrbazlardır. Tünd Elflər eybəcər, qaz ayaqlı olub, yerin altında yaşayıb xəzinələr toplayır və qızıldan silah hazırlayırlar. Qara Elflər cırtdanboylu mahir dəmirçilərdir.

**ELİZİUM,** Yelisey düzənlikləri – antik əfsanələrdə möminlərin ölümdən sonra qaldıqları yer, həmişə bahar olan, gül-çiçəkli “müqəddəslərin adaları”. Elə zənn edilirdi ki, Elizium ən uzaq qərbdə, yerin ən axırında yerləşirdi.

**ELOHİM** – b a x: **Yaxve**.

**ENLİL** – Şumer panteonunun baş ilahisi. Babillilər və assuriyalılar onu bel (“hökmdar”) adlandırırdılar. Ona sitayiş mərkəzi Nippur şəhərində idi. Ən qədim şumer əfsanələrinə görə Enlil hava ilahisi, göylər Allahı Anunun və yerin ilahəsi Kinin oğlu idi. Enlil atasını anasından ayırdı (onun doğulmasından qabaq yer və göy bir-biriylə bağlı idi). Sonralar Enlil yerin ilahisinə döndü də ali ilahilər üçlüyünə daxil edildi.

**EPİKÜR** (e.ə. təxm. 341 – təxm. 270) – qədim yunan filosofu, Demokritin davamçısı. E.ə. təxminən 307-ci ildə Afinada öz məktəbini təsis etmişdi. Onun nəzəriyyəsinə görə fəlsəfə insanı fövqəltəbii qüvvələrə, canın ölməzliyinə və fələyə inamların nəticəsində yaranan saxta qorxulardan və xurafatdan azad edir. Epikürçülər öyrədirdilər ki, dünya yalandan, yəni ilahilərin qorxusundan azad olunmalıdır. Epikür ilahilərin varlığını tanıyır, lakin belə hesab edirdi ki, onlar kainatın həyatına qarışmır və saysız-hesabsız dünyaların aralarında yaşayırlar. Ümumiyyətlə, Epikür fəlsəfəni mənəvi fəaliyyəti kimi qiymətləndirərək, hesab edirdi ki, onun vasitəsilə insanlar ətraf dünyanı tədqiq edir və fikirləşərək xoşbəxt həyata çatır, bədənlərinin sağlamlığına və ruhlarının rahatlığına (ataraksiya) nail olurlar. Bununla əlaqədar Epikür etikanı ən əhəmiyyətli hesab edib, həyatın məqsədini kefdə görürdü.

**ERİNİLƏR** – qədim yunan əfsanələrində cəza, əvəzini almaq, lənət ilahələri və Uranın qanından doğulan ilahələr: **Alekto** (yorulmaz), **Tisifona** (qətlə görə intiqam alan) və **Megera** (paxıl). Erinilər qan qisasının qəbilə əsasını təmsil edirdilər və matriarxata qalxan ənənələrin qoruyucuları idi. Mis ayaqlı, qanadlı, saçlarında ilanlar olan və əllərində məşəl və ya qamçı saxlayan qadınlar şəklində təsvir olunurdular. Romalılarda onlara uyğun olan furiyalar idi.

**ERLİK-XAN** – buddist-lamaistlərin nəzəriyyəsinə görə – sərt ilahi, cəhənnəmin hökmranı.

**EROT** (*yun.* Eros) – qədim yunan əfsanələrində məhəbbət ilahisi, Afroditanın oğlu. Gözəl, bəzən hiyləgər və rəhmsiz, qanadlı və qalxanlı, oxlu oğlan və ya gənc kimi təsvir olunurdu. Qədim yunanlara görə onun oxları insanları və ilahiləri məhəbbət əzablarına düçar edirdilər. Qədim Roma panteonunda Erota uyğun Amur və ya Kupidon (*lat.* amor – məhəbbət, kupido – ehtiras) idilər.

**ESKULAP** – b a x: **Asklepi**.

**ESSENLƏR** (ola bilsin suriyani dilində hessa – mömin) – e.ə. II əsr – eramızın I əsrində yəhudi yarımrahiblər təriqəti. Makedoniyalıların, sonra da romalıların Fələstini işğalı şəraitində meydana gəlib. Plininin dediyinə görə, bu təriqətə "həyatdan yorulan və taledən usanan" adamlar qoşulurdu. Talmud xəbər verir ki, Essenlər qapalı icmalarda yaşayıb əkinçiliklə və sənətkarlıqla məşğul olurdular, hakimiyyətə loyal idilər. Onların müştərək mülkiyyəti var idi, təriqətdə nizamlı rütbəlik, müştərək xörək yemək, ət yeməmək, qüsl etməklə güman edirdilər ki, bütün bunlar onları o biri dünya həyatında xilas edəcək. Onların sayı dörd min nəfərə çatırdı.

**EŞMUN** – Finikiya dinində – şəfaverici ilahi. Sidonda və Karfagendə xüsusi rəğbətə malik idi. Yunanlılar onu öz müalicə ilahiləri olan Asklepi ilə eyniləşdirirdilər.

# Ə

**ƏBDÜLMÜTTƏLİB,** Abd əl-Müttəlib ibn Haşim (?-577?) – Peyğəmbərin babası. Bu şəxs haqqında tarixi qiyməti olan bir tək rəvayət var ki, o da oğlu Abdullahın ölümündən sonra nəvəsi ilə məşğul olduğuna dairdir. Onun haqqında başqa rəvayətlər Məkkə və Mədinədə uydurulmuş əfsanələrdən ibarətdir. Özünün əsil adının Şeybə olduğu söylənilir. Mədinədə Bəni Nəccar qəbiləsinə mənsub olan anası Səlmanın, uşağını Mədinədə doğması xüsusunda əri Haşim ilə bir yerdə qalmaları söylənilir. Haşim az bir vaxtdan sonra səyahətdə vəfat edir. Şeybə də Mədinədə böyüyüb axırda əmisi Müttəlibin himayəsində Məkkəyə aparıldı. Müttəlibin köləsi mənasında olan Əbdülmüttəlib ləqəbini bu yolla aldı. Şeybənin başqa əmisi Nofəl ona aid olan mirası qəsb etmək istəyirdi. Lakin Şeybənin ana tərəfindən qohumları Nofəli bu mirası Şeybənin özünə qaytarmağa məcbur etdilər. O, vaxtı ilə doldurulmuş olan Zəmzəm quyusunun yerini röyasında görüb, buranı təkrar qazıdı və qureyşilərin müqavimətinə rəğmən quyu üzərindəki mülkiyyət haqqını mühafizə edə bildi. Bu vəziyyət ona ayrıca həccə gedənlərə su vermək haqqını da bəxş etdi.

**ƏBU LƏHƏB** ("Alov atası", yəni "cəhənnəmlik") – Peyğəmbərin ona son dərəcədə düşmənçiliyi ilə məşhur olan əmilərindən biri. Abd əl-Uzza ibn Abd əl-Müttəlibin, Quranda yada salınan (CXI, 1) və xalq arasında bilinən ləqəbidir. Əbu Ləhəb ölümünə qədər, Peyğəmbərin düşmənləri ilə bərabər Məkkədə qaldı. Əbu Ləhəbin ərəblərdəki qohumluq duyğusu ilə barışmanın qəbul etməməsi, onun arvadı Cümeyl bint Hərb ibn Umeyyənin, hicri 8-ci ilinə qədər Peyğəmbərə düşmənçilik göstərənlərin başında duran Əbu Sufyanın bacısı olması ilə izah oluna bilər. Hər halda Cümeyl Peyğəmbərə əlindən gələn hər cür düşmənçiliyi edir və ərinin ona bəslədiyi kinini də alışdırırdı. Məhz CXI surədə Əbu Ləhəbin düçar olacağı aqibət ilə birlikdə arvadının da cəhənnəmdə uğrayacağı əzablardan bəhs olunur. Bu surənin mahiyyəti budur:

1. Əbu Ləhəbin əlləri qurusun, qurudu da!

2. [Qiyamət günü] ona nə mal-dövlət fayda verəcək, nə də qazandığı [və ya oğul-uşağı].

3. O, alovlu atəşə girəcəkdir.

4. Onun odun daşıyan [Peyğəmbərlə düşmənçilik edən, adamlar arasında söz gəzdirən] arvadı da həmçinin!

5. Onun [arvadının] boğazında xurma lifindən hörülmüş ip olacaqdır!

Əbu Ləhəb çiçək xəstəliyindən öləndən sonra, müsəlmanların ona qarşı olan kininə görə, meyiti çürüyənə qədər dəfn olunmadı.

Əbu Ləhəb heybətli, cüssəli, birdənbirə hiddətə mail olan adam kimi təsvir edilir. Özü sərvət əldə edib, bu sərvəti öz gələcəyinə sərf etmək niyyətində

idi. Oğlu Utba hələ islamdan qabaq Peyğəmbərin bir qızını almışdı. Peyğəmbər nəbiliyini elan edəndə, Utba xaçpərəstliyi qəbul edib, arvadını boşadı. Peyğəmbərin bəd duasına uğradığından Suriyaya səyahəti vaxtında bir şir və ya bir kaftar tərəfindən parçalandığı rəvayət edilir.

**ƏBU TALİB**, Abd Manaf ibn Abd Müttalib (?-619) – Peyğəmbərin əmisi. Atasının ölümündən sonra yetim qalan qardaşı oğlunu himayəsinə götürdü. Ənənələrə görə, Məhəmməd ticarət səyahətlərində ona yoldaşlıq edirdi. Deyilənlərə görə, Əbu Talib kasıb və ailəsi çox olduğundan, Peyğəmbər sonradan onun oğlunu öz evində böyütməklə əmisinə öz minnətdarlığını bildirmişdir. Məkkəlilər öz dinlərinə qarşı olan hücumlarına görə Peyğəmbərə dolayı zülm etməyə başladıqları vaxt ailənin başçısı olan Əbu Talib, qardaşı oğlunu can-başla himayə etdi və məkkəlilərin təkrar sərzənişləri, Əbu Talibi qohumluq himayəsindən ayırmadı. Onun bu hərəkəti, Əbu Ləhəb müstəsna olmaqla, başqa haşimilərə örnək oldu. Qureyşilər haşimiləri öz aralarından qovmaq qərarına gəldikdə, bunların hamısı Əbu Talibin qaldığı məhəlləyə (Şib Əbu Talib) köçdülər və orada uzun müddət sıxıntı içində yaşadılar. Vəfalı əmisinin vəfatı (hicrətdən üç il əvvəl), Peyğəmbər üçün böyük bir zərbə oldu. Haqqında çox şey bilinməyən və Peyğəmbərə bu qədər bağlı olan bu adamın sonradan əfsanə qəhrəmanına çevrilməsinə heyran edilməlidir. Haqqında qəsidələr yazılmışdır.

**ƏBU TURAB** ("toz-torpaq atası") – xəlifə Əli ibn Əbu Talibin künyəsi. Rəvayətə görə, bu künyə ona Peyğəmbər tərəfindən verilib və şiələr bunu şərəfli bir ləqəb sayırlar. Məşhur sufi Əbu Turab Nəxşabinin (859-cu ildə ölüb) künyəsi bu qəbildəndir. Əli tərəfdarlarına bəzən Turabiyyə deyilir.

**ƏBU ÜBEYDƏ** (Əbu Ubayda ibn əl-Cərrah; ?-639) – əsil adı Amir ibn Abdullah ibn əl-Cərrahdır, Bəlharis ailəsindəndir. Peyğəmbər cənnət vəd etdiyi əşərəyi-mübəşşərələrdən biridir. İlk müsəlman olanlardandır, igidliyi və soyuqqanlığı ilə fərqlənirdi. Buna görə Peyğəmbər ona Amin ləqəbini vermişdir. Uhud döyüşündə Peyğəmbərin köməyinə gəlmiş, bütün səfərlərində onunla bərabər olmuş və çox vaxt qoşuna rəhbərlik etmişdir. Daha sonra itaətə gələn qəbilələrə islamı öyrətmək üçün Nəcrana göndərilmiş və ilk xəlifənin seçilməsində mühüm rol oynamışdır. Əbu Bəkr onu ordu dəstələri başında, Suriyaya yollamış və o, Ömərin xəlifəliyi vaxtında Suriya ordusunun baş sərkərdəsi olmuşdur. Şam, Xims, Antakiya, Hələb və başqa şəhərləri fəth etmişdir. Hicri 18 (639)-ci ildə vəfat etmişdir.

**ƏBÜLXƏTTAB,** Əbül-Xəttab Məhəmməd ibn Əbi Zeynəb əl-Əsədi (?-760) – ləqəbi əl-Əcda ("Əlil") olan bu adam, əvvəllər Cəfər əs-Sadiqin tərəfdarı idi. Lakin Cəfər əs-Sadiqin (ümumiyyətlə, bütün imamlar kimi) peyğəmbər, hətta ilahi bir varlıq olduğunu elan etdikdən sonra, ondan rəğbət görmədikdə, əvvəlcə Əlinin sülaləsinə məxsus olduğunu, söylədiyi peyğəmbərlik və ilahilik sifətlərinin öz şəxsində təcəlli etdiyini iddiaya başladı və ətrafına çoxlu tərəfdar topladı. Bunlar xəttabiyə

adı altında birləşmiş, ən azı 50 qoldan ibarət idilər. Təfsilatlara görə Əbülxəttab Kufədə Abbasilər valisi İsa ibn Musa tərəfindən hicri 143 (760)-cü ildə edam edilmişdir.

**ƏBÜLMƏALİ,** Əbu-l-Məali Məhəmməd Übedallah – Hüseyn ibn Əlinin nəslindəndir. Qəznəvi sultanlarının sarayında yaşadığı ehtimal olunur. Hicri 485 (1092)-ci ildə "Kitab bəyan əl-ədyan" adlı farsca din tarixi yazmışdır.

**ƏHDİ-CƏDİD** – xristianların müqəddəs yazılarının külliyyatı. Bibliyanın xristian hissəsi. Əhdi-Cədid istilahı xristianların öz dini kitablarını Əhdi-Ətiq (köhnə) kimi qəbul etdikləri yəhudilərin müqəddəs kitabları külliyyatına qarşı qoymaq məqsədilə yaranmışdı. Əhdi-Cədid adı sırf xristian adi deyil, bu addan kumranilər də istifadə edirdi.

Əhdi-Cədidə dörd incil (Matfeydən, Markdan, Lukadan və İoanndan), Həvarilərin işləri, 21 risalə (o cümlədən müqəddəs Pavelə isnad edilən 14 risalə) və İoannın vəhyi daxil edilib. İncillərin mövzuları xristianlığın banisi "ilahi adam" İisus Xristosun (İsanın) həyat, möcüzə və nəzəriyyəsini təşkil edir. Həvarilərin əməlləri xristianlığın, həvari Pyotr və Pavel tərəfindən yəhudilərin və bütpərəstlərin arasında təbliğ edilməsi haqqında hekayətdir.

Kilsə nəzəriyyəsinə əsasən, Əhdi-Cədidə daxil edilən bütün yazılar ya həvarilər, ya da onların ən yaxın şagirdləri tərəfindən tərtib edilib və yazılma tarixləri də I əsrin ikinci yarısına aiddir. Kilsə, Əhdi-Cədidin kitablarını Allahruhlu elan edib, yəni bu kitablar onları yazanların şəxsi yaradıcılığı yox, səmalardan gələn vəhyin təsiriylə yazılıb.

1893-cü ildə verilən papa XIII Levin ensiklikasında incilşünasların Allahruhluluğu bu sözlərlə müəyyən edilir: "Allah onlara nəyi, məhz nəyi tapşırırdısa, onlar bunu dəqiq müəyyən edir, düzgün bildirməyə cəhd göstərir və bunların hamısını qüsursuz dəqiqliklə izah edirdilər". Beləliklə, katolik kilsə və onunla bu barədə tamamilə razı olan pravoslav kilsəsi də bəyan edirlər ki, Əhdi-Cədidin daxil olan yazıların tərtibatı I əsrin ikinci yarısından başlayaraq ən azı yüz il davam edirdi. Elmi axtarışlar sübut etdi ki, Əhdi-Cədidin ən erkən əsəri "İoannın vəhyi"dir, risalələr əsasən II əsrin birinci yarısına, incillər isə həmin əsrin ortasına aiddir. Bu yazıların ən qədim nüsxəsi olan Muratori kanonuna (200-cü il çərçivəsində) 27 təsdiq edilmiş Əhdi-Cədid əsərlərindən yalnız 22-si daxildir və onun daxilində təsdiq edilməmiş kitablar da vardır. Ayrı-ayrı Əhdi-Cədid yazılarının Allahruhlu olub-olmaması barədə kilsə xadimləri arasında olan münaqişələr hələ IV əsrdə də davam edirdi. Məs., imperator I Konstantinin (306-337) vaxtında yaşayan birinci "Kilsə tarixi"nin müəllifi Yevsevi "Vəhyin", Pyotrun İkinci risaləsinin və sonralar qanunlaşdırılmış başqa kitabların Allahruhlu olmasına şübhə edirdi. Əhdi-Cədidin qanunlaşdırılması yalnız 364-cü ildə Laziqiyyə Ümumkilsə məclisində təsdiq olundu. Lakin ayrı-ayrı yazıların redaktəsi sonralar da davam edirdi.

Əhdi-Cədidə erkən xristian ədəbiyyatının yalnız az bir hissəsi, təxminən

30 incildən yalnız dördü, onlarla vəhylərdən təkcə biri daxil edilmişdi. Hətta kilsə tərəfindən rədd edilməmiş İqnatinin, Polikarpın və Klimentinin risalələri, Qermın "Keşiş"i və "Didaxe"sinin bəzi qanunlaşmış əsərlərdən qabaq tərtib edilməsinə baxmayaraq, bunlar kanona daxil edilməyib. Kilsənin 1500 ildən çox tam hakimiyyəti dövründə Əhdi-Cədid elmi-tənqidi tədqiq edilmədən qorunurdu. Onun elmi-tənqidi yalnız XVIII əsrdən Raymarusdan və fransız maarifçilərinin tədqiqindən başlanır.

**ƏHDİ-ƏTİQ** – Bibliyanın hissəsi, yəhudilikdə və xristianlıqda müqəddəs sayılan kitablar. Xristianların xalis müqəddəs Əhdi-Cədid adlanan kitablarından fərqli olaraq bu adı məhz yəhudilərin müqəddəs kitablarına verirlər. Əhdi-Ətiqin ən qədim olan hissəsi – "Deboranın təranəsi" e.ə. XII əsrə aid olunur. Əhdi-Ətiqə e.ə. II əsrdə tərtib olunan yazmalar da daxil edilib. Əsrlər boyunca Əhdi-Ətiqin tərkibi müxtəlif dəyişikliklərə məruz qalıb və buna şahidlik edən 1952-1960-cı illərdə Ölü dəniz sahilində aşkar olunan Kumran əlyazmaları arasında olan Əhdi-Ətiq dövrünə aid kitabların fraqmentləri və onun günümüzə qədər saxlanılmış qədim-yəhudi (Masoret nüsxəsi) və yunanca (Septuaqinta – əsasən e.ə. II əsrdə İsgəndəriyyədə "70 təfsirçi"nin etdiyi tərcümə) iki nüsxədir. Birinci, Masoret nüsxəsinə görə Əhdi-Ətiqin tərkibinə üç bölmədə yerləşmiş 39 əsər daxil edilib: 1) Tövrat (iudaizmdə Qanun kimi tanınan Musa peyğəmbərin beş kitabı – Kövn, İxrac, Levit, Ərqam və İkinci qanunçuluq); 2) Peyğəmbərlər. Buraya "böyük" peyğəmbərlər (İisus, Navin, hakimlər, Samuilin I və II kitabları, çarların I və II kitabları), "kiçik" peyğəmbərlər (İsayya, İeremiya, İezekiil) və 12 "kiçik" peyğəmbər: Osiya, Ooyl, Amos, Avdi, İona, Mixey, Naum, Avvakum (Habakkuk), Sofoniya, Aqtey, Zaxariya və Malaxiya daxildirlər; 3) Əhdlər və ya Akioqraflar (Zəbur, Süleymanın ibrətləri, İov, Təranələr təranəsi, Ekklesiast, Esfir, Daniil, Ezdra, Neyemiya, Salnamələrin I və II kitabları). Septuaqintaya görə yuxarıda sayılanlardan başqa Əhdi-Ətiqin tərkibinə Tovit, Yudif, Süleymanın hikmətləri, Sirax oğlu İisusun hikmətləri, Varux, Ezdranın II və III kitabları, Makkaveylərin üç kitabı da daxildir.

Nəinki Əhdi-Ətiqin, hətta onu təşkil edən kitabların da çox mürəkkəb tarixləri var. Əsasən bu, uzun əsrlər boyu tərtib edilmiş Tövrata daxil olan müxtəlif əsərlərə də aiddir.

Öz janrlarına görə Əhdi-Ətiqin kitabları çox müxtəlifdir. Buraya qədim salnamələr, tarixi hekayələr, saqalar, əfsanələr, zəfər, toy-düyün, yürüş və matəm himnləri, hikmətlər, dua mahnıları, hüquqi kodekslər, mərasim təmizliyi və qurbankəsmə qaydaları, dini-fəlsəfi traktatlar, eşq və şəhvət novellaları daxildir.

XIX əsrin axırında və XX əsrin birinci yarısında Mesopotamiyada və Yaxın Şərqin başqa yerlərində aparılan arxeoloji qazıntılar göstərdilər ki, Əhdi-Ətiqin bəzi mətnləri ən qədim babil-assur, Misir və xett mətnləri ilə uyğun gəlir.

**ƏHLÜLBEYT**, Əhl əl-beyt ("ev xalqı, ailə xalqı") – Şiələr və ümumiyyətlə, Əlini sevən müsəlmanlar. Qurana

(XXIII, 33) əsaslanaraq əhl əl-beyt ibarəsini yalnız Əliyə, Fatiməyə, bunların oğul və nəvələrinə həsr edirlər. İslamiyyətdə ən yüksək əxlaqi və mənəvi fəzilətləri, siyasi və dini nüfuzda ən yüksək səviyyələri onlarda görürlər. Əli nəslinə dair bu fikirlər eyni zamanda Peyğəmbər ailəsi mənasına gəlir.

**ƏHLÜLKİSA,** Əhl əl-kisa ("libas əhli") – Peyğəmbərin əhli-beytinə (Peyğəmbər, Əli, Fatimə, Həsən və Hüseyn) verilən addır.

**ƏHMƏD** – Quranın əs-Səff (61) surətinin 6-cı ayəsinə görə Peyğəmbərin adlarından biridir.

**ƏHMƏDİYYƏ** – XIX əsrin 80-ci illərində Pəncabda meydana gəlmiş müsəlman təriqəti. Banisi Mirzə Əhməd (Mirzə Qulam Əhməd Kadiani, 1908-ci ildə ölüb) idi və təriqət də onun adını daşıyır. 1889-cu ildə o özünü mehdi (xilaskar) elan edib, islamı xristianlıq və induizm ilə barışdıran sinkretik məzhəbin təbliğçisi olmuşdur. İslamın əsas ehkamlarını qəbul edərək o öz məzhəbinə hind ilahisi Krişnanı daxil edirdi. O, guya ölümdən xilas olub Hindistana köçərək burada İncilin təbliğatçısı olmuş və 120 yaşında vəfat etmiş İsanın qəbrini tapmışdı. Özünü Mirzə Əhməd İsa ilə Məhəmməd peyğəmbərlərin təcəssümü kimi təqdim edir. Dinin dinc yollarla təbliğini nəzərdə tuturdu. Ali müsəlman ruhaniləri Əhmədiyyə nəzəriyyəsini küfr elan etdilərsə də, bu təriqət Hindistanda, Pakistanda və az da olsa Misirdə böyüdü. 1902-ci ildən təriqətin "Revyu of relicions" adlı jurnalı dərc olunur. 1914-cü ildə təriqət iki – Kadian və Laxor istiqamətlərinə bölündü. Birincinin tərəfdarları Mirzə Əhmədi peyğəmbər sayır, ikinci tərəf isə onun yalnız islamın islahatçısı kimi tanıyır. Əhmədiyyə təriqətinin tərəfdarlarının sayı yarım milyona qədərdir.

**ƏXSAİ ƏHMƏD** (1744-1828) – məşhur şiə kəlamçısı və şeyxi təriqətinin banisi əxsalı (Bəhreyn) şeyx Zeynəddinin oğlu. Ölkəsindən gənc yaşında ayrılaraq İrana, Kermanşaha getdi. Sonra isə Kərbəla və Qəzvində yaşadı. 1828-ci ildə Məkkəyə həccə gedərək öldü. Vəli və alim kimi tanınmışdır. Bir çox əsərlərin müəllifidir. Deyilənə görə o, vəhdət-i vücudu şiələrə və ələ Allahilərə mənsubdur. Şagirdi, rəştli Hacı Seyyid Kazım eyni yolda olub. Bunun ölümündən sonra şeyxilərin arasında müxtəlif fikirlər peyda oldu, bəziləri babilərə qoşulur, bəziləri əksinə, Babın iddiaları ilə mübarizə etdilər.

**ƏL-ƏZHƏR** – Qahirədə müsəlman dini-hüquq məktəbi. Əvvəllər, əl-Əzhər 972-ci ildə açılmış müsəlman mədrəsəsi idi. XIII əsrdən əl-Əzhər islam dünyasının ən iri və nüfuzlu tədris müəssisəsi olub və burada sünni müsəlman dünyasının bütün ölkələrindən tələbələr oxuyurdu. Tədris üsulu çox sadə idi və şeyxin (rektorun) icazəsini alan hər kəs burada dərs deyə bilərdi. XIX əsrdən universitetdir. 1961-ci ildə Misir prezidentinin fərmanı ilə əl-Əzhərdə islahatlar keçirilmiş və dini tədris ocağından adi universitetə çevrilmişdir. Öz qabaqkı muxtariyyətini itirib Maarif Nazirliyi tərəfindən idarə edilir.

**ƏLİ İBN ƏBU TALİB** (598?-661) – Peyğəmbərin əmisi oğlu və kürəkəni, əhli sünnəyə görə, dördüncü xəlifə.

Anasının adı Fatimə bint Əsəd ibn Haşimidi. Əliyə, qızı Fatiməni ona verən Peyğəmbər tərəfindən Əbu Turab ləqəbi verilmişdi. Neçə yaşında müsəlman olduğunu sübut etmək imkansızdır. Lakin Xədicə ilə eyni vaxtda ilk və ya ikinci müsəlman olan şəxsdir. Əli, özlərinə qəti olaraq cənnət vəd edilən 10 adamdan (əşərəyi-mübəşşərə) biridir. Peyğəmbərin ölümündən sonra, onun arzusu ilə təşkil olunan altı adamlıq məclisin üzvlərindən idi.

Peyğəmbər, Mədinəyə hicrət etmək qərarına gəlib Məkkəni tərk etdiyi zaman, Əli onun evində qaldı və onun yox olmasını gizlətməyə müvəffəq oldu. Peyğəmbərə verilmiş əmanətləri sahiblərinə qaytarmaq üçün, Əlinin bir neçə gün Məkkədə qalması vacib idi. Əli, Bədr, Uhud, Xəndək və ümumiyyətlə, bütün müharibələrdə Peyğəmbərin yanında olmuşdu, yalnız Təbuk döyüşü zamanı Peyğəmbərin vəkilliyi ilə Mədinədə qalmışdı. Fələkdə, yəhudi Səd qəbiləsinə qarşı döyüşü özü idarə etdi (hicri 6-628-ci il), Uhudda altı yerdən yaralandı, Heybərə hücum edilən gün sancağı daşıyan Əli idi. Hicri 10 (631-32)-cu ildə Yəmənə edilən bir səfəri Əli idarə etdi və həmdanilər islam dinini qəbul etdilər. Ömərə, Peyğəmbərin Məkkədən Mədinəyə köç etdiyi günün (hicrət) tarix üçün başlanğıc olaraq qəbul edilməsini, Əli tövsiyə etmişdi. Vilayətlərdən gələn şikayətləri Osmana xəbər vermək işini Əli öz öhdəsinə götürdü; xəlifənin evinin mühasirəsi (yaum əd-dar) vaxtında belə, Osmanla xeyirxah davranaraq köməyini əsirgəmədi. Osmanın şəhadətindən sonra xilafətə keçməyini təvazö ilə rədd etdisə də, beş günlük tərəddüddən sonra qəbul etdi. Hicri 35-ci ilin Zülhiccə ayının 25-də (24 iyun 656) Mədinədə Peyğəmbərin məscidində ona beyət edildi. Bu mərasim üçün minbərə ilk çıxan xəlifə Əli olmuşdur. 36 (656)-cı ildə o, Mədinədən ayrıldı və bir daha qayıtmadı. Bəsrəyə hücum etdi. Bu şəhərdə qapanmış Aişə, Təlha və Zübeyr onu xəlifə kimi tanımaq istəmədilər. "Dəvə vaqiəsi" bu şəhərin önündə 659-cu il dekabrın 4-də Hüseybədə baş verdi və Əli qalib gəldi. Aişəni 40 seçkin qadınla Mədinəyə göndərdi (b a x: **Aişə**). Bir aydan sonra Kufəyə gəldi, oradan da Mədainə getdi. Raqqada Fərat çayını keçdi və Müaviyə ilə Siffində, bütünlüklə 110 gün davam edən (iyun-avqust 657) bir neçə döyüşlərdə tutuşdu. Sərkərdəsi Əştərin qəhrəmanlığı sayəsində zəfəri qazanmaq üzrə idi ki, Əmr ibn əl-Asi, Müaviyəyə bir hiylə işlətməsini tövsiyə etdi və bu hiylə müsbət nəticə verdi. Belə ki, Şam əsgərləri bu ixtilafın həlli üçün Allahın kitabına müraciət etdiklərinə işarə mənasında mizraqlarının uclarına 500 Quran nüsxəsini bağlayaraq: "Aramızdakı ixtilafın həlli üçün hakim budur!" – deyə bağırmağa başladılar. Bu hiylə İraq əsgərlərinə təsir etdi. Silahdaşlarının təsiri ilə Əli, Müaviyə tərəfindən təklif olunan hakim üsulunu qəbul etməyə məcbur oldu. Müaviyə hakimliyə Əmr ibn Asini təklif etdi; Əli, istəmədiyi halda, Əbu Musa əl-Əşərini hakim kimi göndərməyə məcbur oldu. Əllərində təhkimnamələr (səhifələr) olan iki hakim 658-ci ilin fevral ayında qarşılaşdılar. Kürəkəni

Abdullah ibn Ömərin xəlifə olmasını istəyən Əbu Musa, Əmrin sözlərinə uyaraq, Osmanın haqsız yerə qətlində Əlinin iştirakı olduğuna görə ondan intiqam almaq üçün Müaviyənin səlahiyyətli olduğunu qəbul edib, Əlini xəlifəlikdən devirdi. Əmr də ona tərəf keçib, sonra da Müaviyəni xəlifə elan etdi. Beləliklə, Peyğəmbərin keçmiş yoldaşını, onun açıqürəkliyindən istifadə edərək aldatmış oldu. Əbu Musanın etirazları bir fayda vermədi.

Xaricilər, yəni asilər (şamlılar) ilə müzakirəni qəbul etməyən müsəlmanlar, Əlinin **təhkim key** edənə qədər, ondan ayrıldılar və dörd minlik bir bölük halında Abdullah ibn Vəhb ər-Rəsibinin rəhbərliyi altında, Lə hükmə illa lillah ("Hökm yalnız Allahındır") deyə bağıra-bağıra Əlinin əleyhinə üsyan edərək Mədaini zəbt etdilər və orada o qədər zülm etdilər ki, Əlini onlara qarşı çıxmağa məcbur etdilər. O, Nəhrəvana gəlib xariciləri məğlub və məhv etdi. Onlardan yalnız 10 nəfəri canlarını xilas edə bildilər (17 iyul 658). Bu döyüş tarixdə vəqət ən-nəhr kimi məşhurdur.

Müaviyə, ona qarşı yeni qüvvələr göndərdi. Əli isə əsgərlərinin böyük hissəsinin onu tərk etdiklərinə görə Kufəyə çəkildi və orada xaricilərdən Əbdürrəhman ibn əl-Mülcam əl-Muradi əs-Sarimi tərəfindən qətl edildi. Əbdürrəhman digər iki xarici ilə, Nəhrəvanda öldürülən yaxınlarının intiqamını almaq məqsədilə, Əlini qətl etmək üçün eyni gündə Müaviyə və Əmr ibn əl-Asi ilə sazişə gəlmişdilər. İbn Mülcam xəlifəni dar bir keçiddə gözlədi və zəhərli qılıncla alnından vurdu. Qılınc Əlinin beyninə qədər işlədi. Hadisənin tarixi hicri 40-cı ilin Ramazanın 17-si olaraq göstərilir (24 yanvar 661-ci il); bəzi tarixçilərə görə Ramazanın 22-sidir.

Əli üç gündən sonra vəfat etdi və Kufədə (başqa yerləri də rəvayət edirlər), Fəratın daşmasından qoruyan su bəndinin yanında dəfn edildi; sonralar burada Nəcəf şəhəri (Məşhəd Əli) bina edilmişdir. Əli öldüyü zaman, oğlu Həsənə görə 58, digər oğlu Məhəmməd ibn əl-Hənəfiyəyə görə 63 yaşında idi.

**Sünnilərə görə Əli.** Əli 586 hədis demişdir. Bu hədisləri Əlidən oğulları Həsən, Hüseyn və Məhəmməd ibn əl-Hənəfiyədən başqa İbn Məsud, İbn Ömər, İbn Abbas, Əbu Musa əl-Əşəri, Abdullah ibn Cəfər, Abdullah ibn əz-Zübeyr və başqaları rəvayət edirlər. Mədinədə Əlinin hökmləri mübahisəsiz qəbul olunurdu, müşkül hallarda ona müraciət edilirdi. Əli çox mömin adam idi. Aclığa qalib gəlmək üçün qarnının üstünə ağır daş bağlayaraq bədəninə əziyyət verməkdən çəkinməz, bütün var-yoxunu sədəqə olaraq kasıblara paylayırdı. Dünyaya nifrət edib dəfələrlə deyirdi: "Dünya bir leşdir, ondan bir parça arzu edən, itlərə yoldaş olsun", "bu dünyadan vaz keçənlər və yalnız axirətin həsrətini çəkənlər nə xoşbəxt adamlardır!"

**Şiələrə görə Əli.** Əli hər şeydən əvvəl "Allahın sevimlisi, dostu (vəli Allah)", ülviyyətə, vilayətə (vilaya) yaxın dostluq bağları ilə bağlanmış insandır. Bu vilayət sözünə çox keçmədən "övliyalıq" mənası verildi. Əli müsəlmanlara görə, tam mənası ilə, bir vəlidir və bu vəsf onu, sadəcə Allahın

Peyğəmbəri (nəbi) olan Məhəmməddən dərin bir surətdə ayırır. Saysız qolları ilə, bütün şiəlik bu təsəvvürdən tərbiyə alır. Buna görə də, şiələr Əliyə imamlıq, mücahidlik, vəlilik vəsflərinin üçünü də birdən verirlər. Şiələrə görə Əliyə imamlığın verilməsi Peyğəmbərin vida həccindən qayıtmasında, Humm gölü sahilində vəzi vaxtında xalqa bu sözləri dediyi zaman başlayır: "Mən axirətə rihlət edəcəyəm. Sizin aranızda bir-birindən daha mühüm iki şey qoyub gedirəm. Bunlar – Quran və əhl-i beytimdir".

Peyğəmbər hələ Hüdeybiyə döyüşündən qayıdanda (29 aprel 628-ci il): "Mən kimin ağasıyamsa, Əli də onun ağasıdır" demişdi. Şiələr tərəfindən Əlinin ləqəbi, ünvanı və ya sifəti kimi işlənilən sözlər bunlardır: mürtəza ("Allahın rizasına nail"), Əsəd Allah əl-qalib ("Allahın yenilməz şiri"), Şiri-yazdan ("Allahın şiri"), şahi-vilaət, şahi-övliya, şahi-mərdan ("insanların şahı, sultanı"). Bundan başqa daha bir çox ləqəbləri var.

**Əlinin məziyyətləri.** Əlinin eyni zamanda mühərib, şücaətli və vəli xüsusiyyətlərinə sahib olması xüsusən şiələr arasında onun adı ətrafında məziyyətlərin təşəkkülünə səbəb olmuşdur. Məs., Siffin döyüşündən bəhs edən Məsudi (Muruc, IV, səh. 376) bizə Əlinin bir gündə öz əli ilə 523 adam öldürdüyünü xəbər verir. Daha sonra onun haqqında fövqəltəbii bir çox şeylər deyilmişdir. Məs., onun necə Zülfəqqar (xalq dilində Zülfiqar) adlı qılıncı ilə atlıları yəhərlərindən düşürmədən başlarını bədənlərindən ayırdığı, ya da bədənlərini ikiyə böldüyü hekayət edilir. O, qorxmadan, dimdik düşmənini gözləyən, sadəcə qolunun bir uzadılmasında 33 düşməni yerə sərən bir qəhrəman kimi təsəvvür edilir. Lakin mühərib olaraq nə qədər böyük olursa olsun, o, vəli rolunda, qiyası qəbul olunmayacaq qədər böyük görünməkdədir. Tərəfdarlarının, Peyğəmbərin möcüzələri ilə müqayisə etməkdə çəkinmədikləri kəramətlər göstərir. Yaqubidə, Əli hicrət gecəsi Peyğəmbərin yerini tutduğu vaxt, Allahın onu qorumaları üçün Mikayıl və Cəbrayılı göndərdiyi qeyd edilir. Bu iki mələyin biri Əlinin başı üstündə, digəri də ayaq başında durmuş və onu düşmənlərindən mühafizə edir, ona atılan daşları əlləri ilə kənarlaşdırırdılar. Başqa əsərlərdə də Əlinin bir çox kəramətləri zikr edilir: Sahbada (Xeybərin yaxınlığında) günəş batandan sonra Allah, Əli namazını qılsın deyə, günəşi geriyə döndərir; Kufə məscidində oğurluğunun cəzası olaraq əli kəsilən zəncinin əlini Əli yenə əvvəlki halına salır; bir qadınla Əlinin yanında dava edən və bu vaxt bağıran bir xaricinin başını it başına çevirir; duası ilə, Peyğəmbər tərəfindən bir bədəvi ərəbə vəd edilən 80 dəvəni torpağın altından çıxarır; Babil ətrafında, oraları dəhşətə salan aslana, onun üzüyünü göstərməsini birinə həvalə edir. Əlinin üzüyünü görən aslan yox olur; bir ölünü diriltdir.

Şiələrə görə Əlinin kəramətləri mindən çoxdur, lakin kitablarda 60-ı təsbit edilmişdir ki, bunlardan sayılanlardan başqa – bir daşqın vaxtı Fərat çayına sularını çəkməsini əmr etmişdi, əllərinin içində dəmiri xəmir kimi yumşaltması,

dəmirdən dəyirman daşı milini Xalib ibn Validin boynuna asması və buna halqa şəklini verməsi, Peyğəmbərin cəsədini torpaqdan çıxararaq Əbu Bəkrə göstərməsi və s. kimiləri də var.

Əlinin ədaləti haqqındakı məziyyətlər Davudun və Süleymanın möcüzələri ilə bərabər edilməyə layiqdir; hikmətlərinə və kəlamlarına gəldikdə isə, bunlar bütün müsəlman və Şərq məmləkətlərində məşhurdur. İran şairi Rəşidəddin Vatvat bunlardan yüzünü toplamışdır. Anadolu səlcuqi sultanı Qiyasəddin III Keyxosrovun vəziri Fəxrəddövlə Əli ibn Hüseyn 670 (1272)-ci Sivasda olan Göy mədrəsəsinin divarlarında bunların bir neçəsini həkk etdirmişdir.

**ƏLİ İBN ƏL-HÜSEYN ZEYNALABİDİN** (655-713) – Həzrət Əlinin övladlarından. Özündən daha böyük (əkbər) olan qardaşından ayırmaq üçün, kiçik (əsğər) kimi bilinən bu Əli, çox mömin olduğu üçün Zeyn əl-Abidin ("Allaha ibadət edənlərin zinəti") ləqəbini almışdır. Şiələrin on iki imamlarından biridir. On iki imamdan dördüncüsü olan və Hüseynin başqa oğullarının şəhadətindən sonra sağ qalması və imamlıq sülaləsinin özündən artması baxımından Əbüləimmə, bəzən də Seyyid Səccad və Seyyid əs-Sacidin ləqəbləri ilə tanınan Əli Zeyn əl-Abidinin Kərbəla müharibəsində ishal xəstəliyinə mübtəla olmasına görə, atası tərəfindən döyüşə girişməsinə icazə verilməmişdi. Atası Hüseyn ibn Əli 680-ci ildə Kərbəla müharibəsində həlak olduqdan sonra Şəmir ibn Zül-Cavşan o vaxt xəstə olan Əlini də öldürmək istədi, lakin onu Ömər ibn Səd xilas etdi. Übeydallah ibn Ziyad onu Hüseyn ailəsindən sağ qalmış digər bir neçə adamla birlikdə xəlifə I Yezidin yanına göndərdi. Xəlifə onları yaxşı qarşıladı və Mədinəyə qayıtmalarına kömək etdi. Mədinəlilər I Yezidin əleyhinə üsyan etdikləri zaman, Əli üsyançılarla bir yerdə hərəkət etməkdən imtina edənlərdən biri olmuşdur. Buna görə, Xarrada qazandığı böyük zəfərdən və Mədinəyə müzəffər girişindən sonra sərkərdə Müslim ibn Utba xəlifədən Əli ilə dostanə münasibətdə olmaq əmrini aldı. Bəzilərinə görə Əli 92 (711)-ci ildə, bəzi məxəzlərə görə isə 94 (713)-cü ildə, 58 yaşında vəfat etmişdir.

**ƏLİ ÖVLADI** – Əli ibn Əbu Talibin nəsli. Deyilənlərə görə, Əlinin on dörd oğlu və ən azı on yeddi qızı olmuşdur: 1) Peyğəmbərin qızı Fatimədən (sağ ikən Əlinin yeganə arvadı olmuşdur): Həsən, Hüseyn, kiçik yaşında ölmüş Mühəssin (şiələrə görə Mühsin), böyük Zeynəb, böyük Ümm Külsüm; 2) Hizamın qızı Ümm əl-Bənindən: əl-Abbas, Cəfər, Abdullah, Osman (Kərbəlada öldürülənlər); 3) Xalid oğlu Məsudun qızı Leyladan: Übeydallah, Əbu Bəkr; 4) Ümeys əl-Həsamiyanın qızı Əsmadan (Hişam ibn Məhəmmədə görə) Yəhya, kiçik Məhəmməd, yaxud (Vaqidiyə görə ikinci doğulan Məhəmməd, cariyə oğlu olduğundan) Yəhya, Əvi; 5) Xalid ibn Valid tərəfindən Eyn ət-Təmrdə əsir alınmış Rəbiənin qızı Səhba ləqəbli Ümm Həbibdən: Ömər, Ruqayya; 6) anası Peyğəmbərin qızı Zeynəb olan Ümamədən: ortancıl Məhəmməd; 7) Cəfər qızı Həvladan: künyəsi İbn əl-Hənəfiyə olan böyük

Məhəmməd; 8) Urva ibn Məsud əs-Səqəfinin qızı Ümm Səiddən: Ümm əl-Həsən, böyük Rəmla; 9) İmrülqeysin qızı Məhyatdan: kiçik yaşda ölən bir qız; 10) adları məchul müxtəlif analardan: Ümm Hani, Meymunə, kiçik Zeynəb, kiçik Rəmla, kiçik Ümm Külsüm, Fatimə, Ümamə, Ümm əl-Kiram, Ümm Səlama, Ümm Cəfər, Cumanə, Nəfisə.

Bu oğullarından beşi övlad qoyublar: Həsən, Hüseyn, Məhəmməd ibn əl-Hənəfiyə, Ömər və Abbas. Hüseyn qolu ən məşhur olanıdır. Doğrudan da, Əlidən enən bu qol şiələrin on iki imam qoludur; Əli Zeyn əl-Abidin, Məhəmməd əl-Baqir, Cəfər əs-Sadiq, Musa əl-Kazim, Əli ər-Riza, Məhəmməd əl-Cavad, Əli əl-Hadi, Həsən əl-Əsgəri, Məhəmməd əl-Mehdi.

Əli ibn Əbu Talibin övladı və nəsli ümumiyyətlə, bədbəxt olmuşdular; düçar olduqları fəlakətlər islam tarixinin səhifələrini doldurur. Əli övladı Əməvilərdən zülm gördülər (Xarranda, İmam İbrahim, Kufədə Zeyn əl-Abidin), İranda şiələr davasına qarşı göstərilən məhəbbəti öz xeyirlərinə çevirən Abbasilər tərəfindən süquta düçar edildilər. Mədinədə Həsən və Cəfər əs-Sadiq, Bağdadda Zeyd ibn Musa əl-Kazim, Tusda Əli ər-Riza, Bağdadda Məhəmməd əl-Cavad kimi aralarından bir çoxu zəhərlənib öldürüldülər. Başqaları xəlifənin əleyhinə üsyan etdilər. Döyüşlərdə və ya cəllad əlinə düşərək can verdilər. Xüsusən Həsən qolundan bir çox bəxtsiz səltənət davakarı çıxmışdır: 145 (763)-ci ildə Mədinədə Məhəmməd ən-Nəfs əz-Zəkiyə (Məğribdə bir hakim sülalə quran İdrisin qardaşı), Bəsrədə bunun digər qardaşı İbrahim, 169 (786)-cu ildə Məkkədə Hüseyn ibn Əli, 199 (815)-cu ildə İraqda Məhəmməd ibn Tabataba, Mədinədə Məhəmməd ibn Süleyman, Bəsrədə (Zeyd ibn Musa əl-Kazimlə eyni vaxtda) Əli ibn Məhəmməd, Yəməndə İbrahim ibn Musa, Təbəristanda əl-Həsən ibn Zeyd, Yuxarı Misirdə Əhməd ibn Məhəmməd, Təbəristanda Həsən ibn Əli (301-914) və s. Təqvası (möminliyi), vəlilik mərtəbəsi və əxlaq saflığı ilə fərqlənən Hüseyn qolundan isə bəxtsizlər az olub: yuxarıda adı çəkilən Zeyd ibn Musadan başqa 200 (816)-cü ildə Məkkədə üsyan edən Məhəmməd ibn Cəfər əs-Sadiqin, Mədinədə əl-Hüseyn əl-Əftasın, Xorasanda Məhəmməd əl-Qasimin, Qəzvində əl-Həsən əl-Kərkinin, Şamda İbn Riza adlanan Mühəssin (Mühsin) ibn Cəfərin adları çəkilə bilər.

Peyğəmbərin xeyli çox olan nəsli indi bütün müsəlman ölkələrində yayılmışdır və onlara **seyyid** və ya **şərif** deyirlər. Onlar əhalidən yaşıl sariq geyinməklə fərqlənirlər. Amma çox azlarının nəsəblərini təsdiq edən şəhadətnamələri və ya nəsəb şəcərəsi var. Onlardan bəziləri ömürlərini hətta uydurmalarla keçirirlər.

**Əli övladı hökmdar sülalələri:**

a) **Həsən qolu:** 1) Məqribdə İdrisilər, İdris ibn İdris ibn Abdullah ibn Həsən əl-Musannanın nəsli, 343-364 (954-974)-cü illərə qədər; 2) Məkkədə, sonra Yəməndə Süleymanilər, Süleyman ibn Davud ibn Həsən əl-Musannanın nəsli; 3) Məqribdə Süleymanilər, İdris ibn Abdullah ibn Həsən əl-Musannanın qardaşı Süleymanın nəsli; 4) Məkkədə və Yəməndə Bəni Uhayzir, Məhəmməd

ən-Nəfs əz-Zəkiyənin qardaşı Musa əl-Cavanın nəsli, 251-350 (865-961)-ci illərə qədər: 5) Yəməndə Bəni Tabataba, 280 (893); 6) Məkkənin əmirləri olan Havaşim (Bəni Falitə), Abdullah ibn Həsən əl-Musanın qolundan Əbu Haşim ibn Məhəmməd nəsli, 460-598 (1067-1202)-ci illər; 7) Sudan daxilində Qanada Bəni Saleh ibn Abdullah ibn Musa nəsli; 8) Amul Həsəniləri, 250-300 (864-913)-cü illər; 9) Bəni Qatada, 598 (1202)-ci ildən son vaxtadək Məkkə əmirləri; 10) Fəsdə (Mərakeş) Sədi şərifləri 957-1070 (1550-1659)-ci illər; 11) Fəs Filali şərifləri, 1075 (1664)-ci ildən zamanımıza qədər; 12 və 13) Fəsdə Vəzzani və Kittani şərifləri – zamanımıza qədər.

b) **Hüseyn qolu:** 1) Cəfər əs-Sadiq nəsli, Fatimilər, yaxud Übeydilər, 297-567 (910-1171)-ci illər; 2) Təbəristan və Deyləm Hüseyniləri, 301-318 (913-930)-ci illər; 3) Curcan daxilindəki başqa qollar, 304-356 (916-967)-cı illər; 4) Mədinədə Bəni Mühanna, 601 (1204)-ci ildən əvvəl; 5) Rəssilər, Qasim Rassinin (ölümü 246-860) nəsli, Zeyd ibn Əli ibn əl-Hüseyn qolundandır, 680 (1281)-ci ilə qədər Yəmən və Sənada idilər; 6) Təbəristan Zeydiləri, 250-316 (864-928)-cı illər; 7) Qasim ibn Məhəmməd nəsli olan Səna Zeydiləri, 1008 (1599)-ci ildən imam Yəhyaya və oğlu Seyfülislam Məhəmməd əl-Bədrə qədər.

**ƏLİ RİZA**, Əli ər-Riza ibn Musa ibn Cəfər (765?-818) – şiələrin səkkizinci imamıdır. Abbasi xəlifəsi Məmun Mərvdə ikən Əli Rizanı cəlb etmək üçün, iki elçi göndərib (806) özünü xilafətə vəliəhd təyin edərək, ona Riza min al Məhəmməd ləqəbini vermişdir. Xəlifə, əsgərlərinə qara paltar əvəzinə yaşıl paltar geyinməyi əmr etmiş və sancaqlarının da rəngini dəyişdirmişdir. Abbas ailəsinin nümayəndələrini kənar edərək, Əli Rizanın seçilməsinə (2 Ramazan 201-24 mart 817) səbəb, bu adamın möminliyi və biliyi idi. Bu təyin bir çox üsyanlara, başlıca İbrahim ibn əl-Mehdini xəlifə elan edən Bağdad xalqının qiyamına səbəb oldu. Əli, qardaşı öldürülən vaxtdan bəri xalq arasında hökm sürən və vəzir Fəzl ibn Səhlin gizli hazırladığı fəsadları xəlifəyə xəbər verdi. Fəzl ibn Səhlin Səraxsda, bəlkə də xəlifənin məxfi göstərişi ilə qətlindən sonra Məmun Mərvi tərk etdi və atası Harun ər-Rəşidin qəbri yanında bir müddət qalmaq üçün Tusa gəldi. Elə bu vaxt Əli bu şəhərdə (Kukan məhəlləsində) 202-ci ildə səfərinin sonunda (818-ci il sentyabrın əvvəli), çoxlu üzüm yediyindən birdən-birə öldü. Tərəfdarları, Əli Rizanın zəhərləndiyini iddia edərək Əli ibn Hişam tərəfindən verilmiş bir narı yediyinə görə üç gün sürən xəstəlikdən sonra vəfat etdiyini hələ də danışırlar. Öləndə 44 və ya 49 yaşı var idi. Onun ölümündə xəlifə çox ağlamış, yasında olmuş və namazını qıldırmışdır. Harun ər-Rəşidin qəbri yanında dəfn edilmiş və türbəsi (**Məşhəd**), Tus şəhəri yerində əmələ gələn Xorasanın bugünkü mərkəzinin adı olmuşdur.

Şiələr Əli Rizaya bir çox kəramətləri aid edirlər: dua ilə yağış yağdırmış və yağışı hasil edən buludlardan hər birinin hansı vilayətə təyin olunduğunu bildirmişdir; bir odun parçasını sürtüb

qayadan qızıl sikkə çıxartmışdır; Abdullah ibn Muğirənin Məkkədə qıldığı bir namazından onun özünə xəbər vermişdir; insanların könlündən keçən şeyi bilmiş və bunu bir çox şeylərlə isbat etmişdir; insanların öləcəyi vaxtı qabaqcadan xəbər vermişdir. Qışın ortasında bir bağçanı yaşıllaşdırmış və orada üzüm bitirmişdir.

**ƏMİNƏ** – Süleyman peyğəmbərin əfsanəvi arvadıdır. Süleyman qüdrət və elminin tilsimi olan üzüyünü bir gün ona əmanət etmişdi. Qadın bu üzüyü Süleymanın qiyafətinə girən bir cinə vermiş və Süleyman, bir çox macəralardan sonra, üzüyü təkrar əlinə keçirmişdir.

**ƏMİNƏ, AMİNƏ** – Peyğəmbərin anasıdır. Nəsəb kitablarının müəlliflərinə görə o, Bəni Zühra qəbiləsindən olan Vahb ibn Abd əl-Dar naf ilə arvadı Bəni Abd əl-Dar qəbiləsindən olan Abd əl-Uzzanın qızı Bəhranın qızıdır. Atası da, anası da məkkəlidir. Əminənin Abdullah ibn Abd əl-Müttalib ilə evlənməsi barədə, b a x: **Abdullah** Əminə oğlu ilə birlikdə, Mədinəni ziyarət etdikdən sonra Əbvada vəfat etdi. Öldüyü vaxt oğlu altı yaşında idi.

**ƏMİRƏLMÖMİNİN**, Əmir əl-Möminin – möminlərin başçısı. Bu ünvan ilk dəfə xəlifə Ömərə verilmişdir. Şərqdə Əməvi və Abbasi xəlifələri əmirəlmöminin ünvanını aldıqları kimi, rəqibləri (Fatimilər, Qərmətilər və Ələvilər) də eyni ünvanı işlətdilər. Ancaq Bağdadın süqutundan sonra (1258) Şərqdə kiçik hökmdarlar da əmirəlmöminin ünvanını daşımağa başladılar.

Məqribdə bu ünvan daha çox yayılmışdır. Rustamilər, Əğləbilər, Zirilər və Əndəlus mülük əttavaiflər tərəfindən işlənilmişdir. Buna müqabil Abbasilərin tabeliyini qəbul edən xanədanlar, məs., Murabitlər, əmirəlmüslimin ünvanını işlədirdilər. Rəqibləri olan Müvəhhidinlər isə, müstəqil Afrika xəlifəliyini təsis etdilər və əmirəlmöminin ünvanını götürdülər. Qismən Həfsilər ilə Marinilər və Zəyyanilər özlərini bunlara bənzədənlər idi. İndi də Fəs şəriflərinə əmirəlmöminin deyilir. Demək lazımdır ki, hələ hicri 2-ci ilində Abdullah ibn Cəhş ordu ilə Nəhləyə göndərildiyi zaman ona əmirəlmöminin ünvanı verilmişdi.

Osmanlılar zamanında, xüsusən xilafətin Osmanlı xanədanına keçməsindən sonra, əmirəlmöminin ünvanı Osmanlı sultanlarına da verilmiş və bu ünvan səltənətin xilafətdən ayrılaraq, ləğvinə qədər davam etmişdir. O vaxt xilafət məqamında olan şəxsə sadəcə xəlifət əl-müslimin deyilmişdir.

**ƏMİRƏLMÜSLİMİN**, Əmir əl-Müslimin – müsəlmanların başçısı. Əvvəlcə Murabitlər tərəfindən işlənmişdir. Əmirəlmöminin ünvanına qarşılıqdır.

**ƏNAM** – Naam sözünün cəmi, davar. Eyni zamanda Quranın VI surəsinin ünvanıdır.

**ƏNBİYA** – Nəbi sözünün cəmi, peyğəmbərlər. Surət əl-Ənbiya Quranın XXI surəsinin ünvanıdır.

**ƏNFAL** – Nəfal sözünün cəmi, qənimət. Quranın VIII surəsinin adı Surət əl-ənvaldır.

**ƏNSAR**, Əl-Ənsar – köməkçilər, yardımçılar. Məkkədən hicrət etdiyi zaman Peyğəmbəri yaxşı qəbul və ona yardım etmiş olan Mədinə müsəlmanlarına

verilən addır. Onlara bəzən, daha doğru olaraq, ənsar ən-Nəbi ("Peyğəmbərin yardımçıları") deyilir. İlk baxımda, bu ad nasirin cəmidir. Lakin nasir burada bəhs mövzusu olan dini istilahın mənasını ifadə etmir. Ənsardan müfrəd mənada olmaqla, ənsari sözü düzəlmiş və bu yeni zamanda, "ənsar"ın nəsli mənasına bir nisbət və ümumiyyətlə, "ənsara mənsub" mənasında bir sifət olaraq da işlənməkdə olub, bunun cəmi ənsariyyundur. Quranda (İmran ayəsi, 45, Səf, 14), İsanın ağzından, öz tərəfdarlarına "Allahın ənsarı" deyildiyindən, görünür ki, burada ənsar sözünün xristian anlamında olan nasara sözü ilə oxşarlığından istifadə edilmişdir. Mühacirin ilə birlikdə, ənsar da möminləri hidayətə çatdıran ilk əvvəlkilər arasında zikr olunur (Tövbə, 100). Quranda IX surənin 117-ci ayəsindən başqa, ənsar adı ilə həqiqətən Mədinə müsəlmanlarının qəsd edildiyi yeganə ayə budur.

Məkkədə köməkdən məhrum olan və ağır rəftara məruz qalan Peyğəmbər həccə gələn mədinəlilərdən bir neçə adama islamı qəbul etdirib, onların himayəsini təmin etdikdən sonra, 622-ci ildə Mədinəyə hicrət etdi və vəd edilən himayəni orada gördü. Özünə və bir qismi müşkül vəziyyətdə olan camaatına mədinəli dostlarının maddi yardımın təmin olunduğu kimi, islamın yayılması üçün də kömək edildi. Mədinədəki müsəlman camaatı mühacirun ilə ənsardan təşəkkül etmişdir. Peyğəmbərin hələ ibtidada ənsar ilə mühacirunu bir-birinə qarışdıraraq, bu iki ünsürü bir-birinə bağlamaq yolundakı cəhdlərinə rəğmən, arada daima bariz bir fərq qalmışdır. Peyğəmbərin ən yaxşı dostları Məkkədən hicrətində özünü müşayiət edənlər olmuşdur.

Ənsar, bütün ağırlığına rəğmən, kasıblara yardım vəzifəsini böyük bir sədaqət ilə ifa etdi. Məkkəyə qarşı aparılan ilk döyüşlərdə ənsardan heç biri iştirak etməmişdir. Ənsarın hərbə qarşı göstərdiyi bu biganəlik, Peyğəmbəri xeyli düşündürmüşdü. Lakin o, insanların özünə yardım etmədikləri təqdirdə, Allahın yardımına nail olacağı qənaətini bəsləyirdi. Əsasən bir qədər sonra hamiləri olan ənsar, tabe vəziyyətinə keçdi. Peyğəmbər öz davasına yardım etmələrini tələb etdiyi kimi, onları düşmənlərinə hər hansı bir şəkildə kömək etməkdən məhrum etdi. Lakin ənsar, Peyğəmbərin tərəfini saxlamağı qəbul etdiklərinə görə, peşman olmadı. Peyğəmbər: "İslam dininə yardım edənə Allah yardım edər" – demişdi. Dediyi də düz çıxdı. Böhranlı dövrlər keçəndən sonra, ənsar, firavanlığa qovuşdu, şəhərdə zəngin qənimətlər toplandı və ticarət çox genişləndi. Məkkənin fəthindən sonra, bəzi ənsarlar Peyğəmbərin idarəni bu şəhərə köçürməsindən qorxdular. Lakin Peyğəmbər onların yaşadığı yerdə yaşamaq və öldüyü yerdə ölmək niyyətində olduğunu söylədikdə, bu əndişələr dağıldı.

Peyğəmbərin ölümündən sonra xəlifələr seçki ilə iqtidara gətirildiyi müddətdə, ənsar öz aralarından birini rəhbərliyə keçirdikləri kimi, xilafətin məkkəli Qureyş ailəsinə keçməsi və varislik üsulunun qəbulundan sonra iqtidar mövqeyindən tamamilə uzaqlaşdırıl-

dılar. Buna müqabil onlar Peyğəmbərin həyat və sünnələri ilə hədis tədqiqlərinə qoyularaq, islamiyyətin ilk mühəddislər təbəqəsini təşkil etdilər.

**ƏSAS**, təməl – İsmailiyə məzhəbində bu sözün xüsusi bir mənası var. Bu məzhəbdə, əqli aləmin təcəssümü olaraq, aləmin 7 dövrəsinin başında zühur edən natiqə (kəlam-i ilahinin hamili, peyğəmbər) samit deyilən 7 imam xələf olur. Bu 7 samitdən sonra, natiqin təkrar zühuru ilə, yeni bir dövrə başlanır. Hər 7 samit qrupunun başında nəfs-i aləmin təcəssümü olaraq, əsas (yaxud naqib) olur. Natiq özünə tədricən ilham edilən həqiqi əqidənin sirrini əsasa keçirir. Bu surətlə natiq olan Adəmin əsası – Sis, Musanın – Harun, İsanın – Butrus, Məhəmmədin – Əli və Məhəmməd ibn İsmailin əsası da Fatimi sülaləsinin banisi Mehdi Übeydullahın babası Abdullah ibn Meymun əl-Qəddahdır.

**ƏSHAB** (*ər.* tək sahib), yaxud Səhabə (tək səhabi), "yoldaşlar" – İslam istilahlarından biri, "Peyğəmbərin yoldaşları" mənasında. Əvvəlcə, bu söz Peyğəmbərlə uzun müddət bir yerdə olmuş və səfərlərində ona yoldaşlıq etmiş olan adamlara aid idi. Sonralar Peyğəmbər ilə bu qədər sıx bir münasibət qeydi axtarılmadan, Peyğəmbər sağ ikən onunla qarşılaşmış və ya sadəcə, onu görmüş olan möminlər də, yaşlarına baxmadan, əshabədən sayılırdı.

**ƏSMA** – xəlifə Əbu Bəkrin qızı. Anasının adı Qətlə və ya Quteyla bint Əbd əl-Uzza idi. Aişənin böyük bacısı olan Əsmanın hicrətdən 27 il əvvəl dünyaya gəldiyi rəvayət edilir. Peyğəmbər ilə Əbu Bəkrin hicrətləri zamanı daşıdıqları su tuluğu ilə çörək torbasını, ip yerinə, ikiyə böldüyü belağrısı ilə bağladığı üçün ona Zat əl-Nitaqeyn ("İki belibağlı qadın") ləqəbi verilmişdir. İslamı ilk qəbul edənlərdəndir və ilk müsəlman olanlardan Zübeyr ibn əl-Əvvam ilə evlənmişdir. Əri o vaxt çox kasıb olduğundan Əsma zəhmətli işlərlə məşğul olurdu. Əri Həbəşistana hicrət etdiyi zaman, Əsma onunla getmədi. Peyğəmbər ilə Əbu Bəkr Mədinəyə hicrət etdiyi zaman, üç gün bir mağarada gizləndikləri vaxt, Əsma onlara hər axşam su və yemək daşıyırdı. Hicrətdən sonra Mədinə yaxınlığındakı Qubada yerləşdi. Böyük oğlu məşhur Abdullah ibn əz-Zübeyri orada dünyaya gətirdi və bu surətlə, hicrətdən sonra doğulan ilk müsəlmanın anası oldu. Əsmanın beş oğlu və üç qızı var idi. Bir qədər sonra Zübeyr Əsmadan ayrıldı. Buna görə Əsma oğlu Abdullahın yanına getdi və onun macəralı həyatında iştirak etdi.

**ƏŞRƏFİYYƏ** – Qadiriyə təriqətinin bir qolu, müəssisi şimal-qərbi Anadolu qadiriləri arasında ikinci Pir olaraq tanınan Əşrəf oğlu (İbn əl-Əşrəf, Əşrəfzadə) Abdullah Rumidir (1353-1469).

**ƏVVƏL** – İlk, başlanğıc. Allahın 99 adından biridir.

**ƏYYUB** – Kitabi-Müqəddəsdəki Ayyub olub, Quranda peyğəmbərlər arasında adı var. Quranda ondan "qulumuz" deyə bəhs olunur və səbirli insan nümunəsi kimi göstərilir.

# F

**FAKİH** – islam dini hüququ üzrə mütəxəssis. Fakihlər orta əsr islam dövlətlərində çox böyük nüfuza malik idilər. Bəzən fakih sözü alim mənasında da işlənirdi.

**FARİSEYLƏR** – II əsrin 70-ci illərinə qədər fəaliyyət göstərən qədim yəhudi dini-siyasi təriqəti. Təriqət sadukeylərlə mübarizədə, tərkibinə İudeyanın quldarlar cəmiyyətinin orta təbəqələri – yəhudi "qanunöyrədənlər"i, tacirlər, mülkədarlar və dindarların, orta və aşatı rütbəli keşişlərin nümayəndələri daxil olan partiya kimi təşkil olunmuşdu. Fariseylər ruhun əbədiliyini və axirət əzablarını, qiyamət gününü və Məsihin gəlməsini təbliğ edir, ibadətgahların gəlirlərini mənimsəyən dini əyanların əleyhinə çıxır, qurban verilmənin dualarla əvəz edilməsini tələb edirdi və deyirdilər ki, hər kəs keşişsiz ibadət etməyə qadirdir. Fariseylər xalq kütləsini "natəmizlər" hesab edib, onlara istehza ilə yanaşırdılar.

**FATİHƏ** (*ər.* açan, başlayan) – Quranın birinci surəsi, 7 ayədən ibarətdir, ən qədim surələrdən biridir.

**FATİMƏ** (təxm. 605-633) – Məhəmməd peyğəmbərin Xədicədən olan qızı, dördüncü xəlifə Əlinin arvadı və onun Həsən və Hüseyn adlı oğullarının anası.

**FAVN** – Qədim Roma əfsanələrində çöllər və meşələr ilahisi, sürülərin hamisi, yunanların Panı ilə eyniləşdirilir. Favi Saturnun nəvəsi və latın qəbiləsinə adını verən əfsanəvi çar Latının atasıdır. Keçibuynuzlu və qulaqlı təsvir olunurdu. Favnın qadın təcəssümü (qızı və ya bacısı) Favna (Fauna) idi və heyvanlar aləmi onun adını daşıyır.

**FEB** – b a x: **Apollon.**

**FEMİDA** – qədim yunan əfsanələrində ədalət ilahəsi, Uranın və Geyanın qızı, Zevsdən onun Xoşbəxtqanunilik (Evnomiya), Haqq (Dike), Mir (Eyrena), Tale (Moyr) və ilin fəsilləri (Or) ilahələri adlı qızları olmuşdur. Femida ilahilərin məclislərini toplayırdı və Zevsin daimi məsləhətçisi idi. Femida yer üzündə xalq məclislərinin hamisi sayılırdı. Əlində qılınc və tərəzi, uzun paltarda və gözündə sarğı (qərəzsizliyi göstərir) təsvir olunurdu.

**FİNİKİYA DİNİ** – e.ə. II-I minilliklərdə Finikiyanın şəhərlərində və müstəmləkələrində, xüsusən Karfagendə yayılmış politeistik etiqad və ayinlər. Siyasi pərakəndəliyə görə finikiyalıların qədim misirlilər, babillilər və yunanlardan fərqli olaraq vahid ilahilər panteonu, mürəkkəb kahin rütbələri və təmtəraqlı ayinləri yox idi. Onların ibadətgahları çox sadə idi. Hər bir şəhərin öz yerli ilahəsi var idi və bu ilahilərin adları hakimiyyətin müxtəlif rəmzlərini təşkil edirdi: Vaal – "hökmran", El – "ilahi", Molox – "çar", Melkart – "şəhərin çarı", Adonis – "ağa". Əvvəllər finikiyalıların etiqadları çöllərdən və səhralardan gəlmiş ceddlərinin köçəri həyatını əks etdirirdi. Sonra bunları əkinçilik ayinləri əvəz etdilər. Bu

ayinlər nəbatatın gənc ilahisinin ölməsi və həyata qayıtması əfsanələri ilə bağlıdır (Aliyon-Vaal və onun bacısı və ya arvadı Anat haqqında, Adonis və Astarta haqqında). Finikiya dilində ilahilər çar hakimiyyətinin və quldarlıq quruluşunun hakimləri kimi təqdim olunurlar. Finikiyada insan qurbanları da verilirdi.

**FLORA** – Qədim Roma dinində güllərin, baharın, gəncliyin və şənliyin ilahəsi. Onun şərəfinə Romada ibadətgah tikilərək oyunlar, tamaşalar, şənliklər və azğınlıqlarla müşayiət edilən florariya bayramı keçirilirdi (aprelin 28-dən mayın 3-dək).

**FORTUNA** – Qədim Roma dininin təsadüf, tale və bəxt ilahəsi. Bir əlindən bolluq tökülən, ikinci əlində lövbər saxlayan, gözləri sarıqlı və ya kor qadın kimi təsvir olunurdu.

**FREYYA**, Freya (*islandca* Frenya, köhnə isveç dilində Frona – xanım, arvad) – skandinav əfsanələrində Nyodrın qızı, Frenrin bacısı və sevimlisi, Vanlar nəslindən olub yayın, münbitliyin, doğumun, məhsulun, rifahın, sonralar eşqin və gözəlliyin ilahəsi, ilahələrin ən gözəlidir. Öz sevgilisini, münbitliyin ilahisi olan Odu (Ottarı) axtararkən Freyya şahin lələklərindən tikilmiş paltarda (bulud), qızıl göz yaşlarını (taxıl) tökərək bütün dünyanı gəzmişdir. Bəzən Freyya pişiklər qoşulmuş arabada və ya möcüzəli qaban üstündə gəzən kimi təsvir olunurdu.

**FRİQQ** (*köhnə skandinavca* Friqq, qədim qot dilində Friya – sevgili, xanım) – skandinav əfsanələrində Odinin arvadı, Baldrın anası. Əvvəlcə, günəş ilahəsi, sonra da ailə və evlənmənin, qadın və anaların, doğuma icazənin ilahəsi oldu. Friqqin atributları cəhrə və açarlar idi.

**FURİYALAR** – Roma əfsanələrində intiqam ilahələri.

# G

**GEYA** (*yun.* ge – yer, torpaq) – qədim yunan əfsanələrində Yerin ilahəsi, məhsuldar əzəlin və dünyanın ilk səbəbinin təcəssümü. Özü xaosdan törənib, öz üzərinə səmanı, dağları, dənizləri və bütün diriləri əmələ gətirmişdir. Sonralar Geya ayini Demetra ayini ilə birləşdi.

**GƏBR** (*fars.*) – Zərdüşt dininin ardıcılı mənasında işlənilən və İrandan gəldiyi tamamilə müəyyən edilməmiş bir istilahdır. Bu sözün ərəbcə kafir (türkcə gaur) sözündən törəndiyi düşünülür. B a x: həmçinin **Parslar.**

**GİGİYENA** (gigiyena sözü buradandır) – yunan əfsanələrinə görə, sağlamlığın ilahəsi, müalicə ilahisi Asklepinin yoldaşı və köməkçisi. Əlində içinə zəhərini tökən dövrəsinə ilan sarılmış cam saxlayan qadın şəklində təsvir edilirdi (qədimdə ilan zəhərinə böyük qiymət verirdilər). Bu, dövrəsinə ilan sarılmış cam tibbin, əczaçılığın və farmakologiyanın əlamətinə çevrilmişdir.

**GÜLŞƏNİ**, İbrahim ibn Məhəmməd (?-1534) – Xəlvətiyyə təriqətinə bağlı Gülşəniyə qolunun piridir. Diyarbəkr vilayətində doğulmuşdur. Atası Şeyx Məhəmmədin nəsəbi Oğuz Ataya qədər çıxarılır. İbrahim, əmisi Şeyx Seyyid Əlinin himayəsində təhsil ilə məşğul ikən, biliyini artırmaq qayəsi ilə Mavəraünnəhrə getməyi nəzərdə tuturdu. Bu niyyətlə yola çıxaraq Təbrizə gəlir. Uzun Həsənin qazı əsgəri Mövlana Həsən uşağın zəka və qabiliyyətini görüb, təhsil və tərbiyəsinə diqqət göstərir. İslami elmləri tam bir qabiliyyətlə əldə edən İbrahimə Mövlana Həsənin sevgi və etimadı getdikcə artır, hökmdar da ona qayğı göstərir. O zaman xəlvətilərin ikinci pir saydıqları Seyyid Yəhya Bakuvi Şirvaninin məşhur xəlifəsi Dədə Ömər Rövşəninin şöhrəti bütün Azərbaycana yayıldığından, sultan Həsən, qardaşı İdrisin də meyil etdiyi bu şeyx ilə görüşmək istəyir. Rövşənini Təbrizə dəvət üçün sultanın İbrahimi göndərməsi, ona olan etimadının bariz bir dəlilidir. Rövşəni ilə görüşən İbrahimdə ani bir dəyişmə baş verir və artıq tamamən təcrid əhli olaraq zühur edir. Rövşənidən xilafət alaraq onun təriqətini ehyaya çalışdığı zaman, bu şeyxin bir münasibətlə işarəsi ilə Gülşəni ləqəbi ilə şöhrəti hər tərəfə yayılır.

İbrahim Gülşəninin Təbrizdə sultan Yaqubun Rövşəni üçün tikdirdiyi zaviyədə irşad vəzifəsində xidməti uzun müddət davam etmədi. Ərdəbil xanədanına mənsub şiələrin zühuruna görə, Bayındır bəylərinin cavahirat və mallarını zaviyəsində mühafizə etdiyi bəhanə edilərək, zülm və böhtana hədəf oldu. Gülşəni sünnü şeyx sayıldığından dolayısı ilə həyatını bu bəladan xilas edə bildi. Oğlu Əhməd Xəyali ilə birlikdə Diyarbəkrə qaçan İbrahim Gülşəni, şəhərin hakimi Əmir bəy ilə qardaşı Qayıtmaz bəydən son dərəcədə hörmət gördüsə də, burada çox qalmayaraq Ruxaya, Əlaəddövlənin yanına getdi və

buradan da Qüds yolu ilə Misirə hərəkət etdi.

Misir xalqı, Rövşəninin Şeyx Timur-Taş ilə Şeyx Şahin kimi iki məşhur xəlifəsi vasitəsi ilə nəfsinə alışdıqları sufiliyə, daha da qüdrətə gətirən Gülşəniyə böyük etimad göstərdi. Qazi əl-Quzzat Əbdülbərr ibn Şəhna ilə adları çəkilən iki xəlifənin ondan Misirdə qalıb yaşamasını xahiş etmələrinə görə, Gülşəni Qahirədə Qübbət əl-Mustafada yerləşdi. Gülşəninin qüdrətli şəxsiyyəti burada da, Sultan Quridən xalqa qədər, geniş bir ardıcıllar dairəsi təsis etməkdə gecikmədi. Hökmdarın köməyi ilə Gülşəni, Müəyyədiyədə zaviyə təsis edərək, buranı Gülşəniyə dərgahı halına gətirdi. Sultan I Səlim Misir səfərindən sonra eyni hörmət və kəramət havası içində fəaliyyətinə davam edən Gülşəniyə bir çox türk hərbçiləri (yeniçerilər və sipahilər) inam gətirdi. Onun oğlu Əhməd Xəyali də Misiri və Suriyanın sonuncu məmlük sultanı II Tuman bəyin (?-1517) dul arvadı ilə evlənmişdi. Vəzir İbrahim paşa Misirdə olarkən Gülşəninin bu mövqeyini xoşlamadı və onu xalqın və sultanın gözündən salmaq üçün çarə axtardı. Sultan Süleymana İbrahim Gülşəninin bu mövqeyini izah edərək, şeyxi İstanbula çağırmağa müvəffəq oldusa da, sarayın başqa yüksək rütbəli şəxslərinin şeyxi istəyənləri arasında olması İbrahim paşanın arzularının yerinə yetirilməsinə mane oldu. Sultan qapıçıbaşı Rüstəm Ağanın onun hüzuruna gətirdiyi Gülşəniyə son dərəcə hörmət göstərərək, 104 yaşında olan və gözləri qapanmış şeyxi həkimlərinə göstərdi. Həkimlərin köməyi ilə şeyxin gözləri açıldı. Gülşəninin İstanbul məscidindəki kitabları şəhər xalqının qəlblərini cəzb etmiş, sultanın və şeyxülislamın Gülşəniyə göstərdikləri məhəbbət məşhur alimlərdən xalqa qədər çox kimsələrin onun təriqətinə keçmələrini təmin etdi.

Misirə qayıtdıqdan sonra əl-Muəyyədiyədə zaviyə inşaatı ilə məşğul olan İbrahim Gülşəni Mat qütb əz-zaman İbrahim misrasının dəlalət etdiyi 940-cı il Şəvvalın doqquzunda (23.IV.1534) vəfat etdi. Yerinə keçən oğlu Şeyx Əhməd Xəyalidən (1569-cu ildə ölüb) başqa, Həsən Zərifi (1576-cı ildə ölüb), Sadiq Əli (1554-cü ildə ölüb) və Aşiq Musa (1567-ci ildə ölüb) adlı xəlifələri vasitəsi ilə təriqəti intişar edilmişdir.

Əsərləri: 1) Mənəvi, rəməl bəhrində 40 min beytli məsnəvidir, gülşənilər arasında çox məşhurdur. Mövlana Rumi-Rövşəni və Gülşəni arasında ruhi bir rabitə qəbul edildiyindən, gülşənilərin mövləvilərə bağlılıqları vardır. Bu cəhətdən adı çəkilən kitab, məsnəvinin özü olub meydana gətirilmişdir.

2) Farsca divan;

3) Ərəbcə şeirlər divanı. Gülşəni bu şeirlərdə Xəlil məxləsini işlətmişdir;

4) Türkcə divan;

5) Raznamə, rəməl bəhrində, türkcə sufi bir məsnəvidir;

6) Kənd əl-cavahir.

# H

**HABİL VƏ QABİL** – Adəmin iki oğluna müsəlmanların verdiyi adlardır. Quranda adları zikr edilməyən bu iki qardaş hərəsi qurban nəzir edirlər. Onlardan Qabil qurbanının qəbul edilmədiyini gördükdə, qısqanclıqdan Habili öldürür. Allah tərəfindən göndərilən bir qarğa yeri qazıyıb, Qabilə cəsədin necə dəfn olunacağını göstərir (əl-Maidə, 27 və s.).

**HACI** – Məkkədə Kəbəni ziyarət etmiş (b a x: **həcc**) müsəlmanlara verilən ad. Hacı sözü şəxsin adının əvvəlində deyilir.

**HAQADA** (*qədim yəhudicə* hekayət) – Talmudda əfsanələr, təmsillər və kəlamlar haqqında "qanunlar"a uyğun gələn şərh və hekayətlər. Haqadanın materialları qədim yəhudilər arasında Tövratla eyni bir vaxtda, yəni təxminən e.ə. V əsrdə tərtib olunub və bunun tərtibatına yunan və Roma mədəniyyəti həmçinin Avesta təsir göstərmişdir. Yüz illərlə bu material yalnız şifahi əfsanələr kimi gəzmiş və yalnız III-V əsrlərdə Talmudun tərtibatçıları tərəfindən yazılıb nizama salınmışdır. Haqadanın fantastik hekayələrində daim mələkələr və cinlərin yığıncaqları fəaliyyət göstərirlər. Haqadanın tez-tez təkrar olunan forması: "Müqayisə üçün götürək filan padşahı ki, o...". Padşahlar haqadada həmişə insanların atası kimi təqdim edilirdilər.

**HARAM** (*ər.*) – 1) şərən icazə olmayan; halalın ziddidir. Sözün harami, haramzadə və s. şəkillərində məna baxımından inkişafı üçün bax lüğətlərə; 2) qadağan edilmiş müqəddəs bir şey. Bu mənada Məkkə və Mədinənin (çox vaxt birliklə əl-Harameyn) mübarək torpaqlarına işarədir. Təbir eyni zamanda özgələrin girməsi qadağan olunan ev dairəsinə və bu dairədə (haram) qalan qadınlara da işarədir.

**HARRAZ**, Harraz Əbu Səid Əhməd ibn İsa (?-899) – qədim sufilərdən biri, fəna və bəqa nəzəriyyəsinin banisidir. "Kitab əs-sidq" adlı əsəri var.

**HARUN**, Harun ibn İmran – Tövratda Aron kimi zikr olunan şəxsdir. Fironun oğlan uşaqlarının öldürülməsi haqqında əmri çıxardığı zaman, Musadan üç il əvvəl anadan olmuşdur. Musa, Allah tərəfindən İsrail oğullarının Misirdən çıxması üçün Firondan izin almağa göndərildiyi zaman, öz soyundan birinin ona yoldaş verilməsini istədi. Fironun məclisində iştirak edən Harun bu işə cəlb olundu və xitabatda qüdrətli olduğundan dolayı Musanın sözçüsü oldu. Qızıl dana heykəlinin qurulmasında ən böyük hissə onun payına düşür. Talmuda görə, israillilərin özünü öldürmələrindən qorxduğu üçün belə hərəkət etmişdi. Lakin başqa rəvayətlərə görə israillilər Haruna çox bağlı idilər. Ərəb salnaməçiləri isə yazırlar: "Musa və Harun bir gün, içindən nur saçan bir mağara görüb oraya girdilər və o mağarada qızıl taxta rast gəldilər. Taxtın üzərində "ölçüsü kimə uyğunsa, ona məx-

susdur" cümləsi yazılan bir kitabə var idi. Musa üçün çox kiçik oldu. Taxta Harun oturdu və elə o anda ölüm mələyi (mələk əl-movt) zühur edərək, onun ruhunu aldı. Harun 127 yaşında idi. Musa israillilərin yanına qayıtdığı vaxt, ondan Harunun harada olduğunu soruşdular. Musa: "Öldü!" – cavabını verdi. "Onu sən öldürdün!" – dedilər. Elə o anda Harunu aparan mələklər göründü və: "Musanı belə bir cinayətdə ittiham etməyiniz!" – dedilər. İkinci bir rəvayətə görə, Musa israilliləri Harunun məzarına aparmış, onu diriltmiş və o da öz əcəli ilə öldüyünü təsdiq etmişdi.

**HARUT VƏ MARUT** – Quranda (əl-Bəqərə, 102) aşağıdakı sözlərlə adı çəkilən iki mələk: "...Süleyman kafir olmadı, lakin şeytanlar, sehri və Babildə Harut və Marut adlı iki mələyə nazil olanları xalqa öyrədərək kafir oldular". Bu ayəyə müxtəlif hekayələr də bağlıdır. Xülasəsi budur: göydəki mələklər insanların qəbahətli uşaqlarını tədqiq etdikləri zaman, Allah hüzurunda bunlara qarşı hiss etdikləri saymazlığı izhar etdilər. Lakin Allah belə cavab verdi: "Sizlər də eyni vəziyyətdə olsaydınız, daha yaxşı hərəkət etməzdiniz". Mələklər bu hökmü qəbul etmədilər və təcrübə üçün yer üzünə mələk göndərilməsinə izin aldılar. Bunun üçün Harut və Marut seçildi, onlara bütlərə tapınmaq, zina etmək, insan öldürmək və içki içmək kimi böyük günahlardan çəkinmək əmr olundu. Lakin çox gözəl bir qadın gördükləri zaman, dərhal ona vuruldular və günah işlədərkən cinayət zamanı yaxalananda, onların üstünə çıxan adamı öldürdülər. O vaxt Allah mələklərin nəzərlərini yer üzünə qardaşlarına tərəf çevirdi, mələklər də: "Həqiqətən, doğru söyləmişdin!" – dedilər. Günahkarlardan cəzalarını bu dünyadamı, yoxsa o biri dünyadamı çəkmək istədiklərini soruşdular. Birinci təklifi qəbul etdikləri üçün Babildə həbs edildilər və o zamandan bəri ən müşkül əzablar içində yaşayırlar. Bir Misir tarixində Harut və Marutun Misir çarı Aryaq zamanında yaşadıqları göstərilir.

**HAVARİYUN, HƏVARİLƏR** – b a x: **Apostollar.**

**HEBA** – qədim yunan əfsanələrində ilahə, Zevsin və Heranın qızı, gəncliyin təcəssümü.

**HEFEST** – yunan əfsanələrində əsasən yeraltı odun ilahisi, odla bağlı olan sənətlərin və dəmirçiliyin hamisi idi. Onun adı ilə bağlı olan məbədlər əsasən vulkanların yanında yerləşirdi (Lemnos adasında, Siciliyada, Etnanın yanında və i.a.). Hefest atası Zevs tərəfindən cəzalandırılmış anası Heranı müdafiə etdiyinə görə, atası onu göydən tullamışdı və buna görə də o, çolaq təsvir olunurdu. Romalıların ilahilər panteonunda o, Vulkan adlanırdı.

**HELİOS** – Qədim Yunanıstanda Günəş ilahisi. Yunanların təsəvvürü ilə Helios səhərlər odpüskürən atlar qoşulmuş arabaya minib, okeandan qalxıb, səma üzərində Şərqdən Qərbə gedir, gecələr isə qayıqla Yerin Şimal yarısını dövrə edib yenə Şərqə qayıdırdı. Klassik dövrdə Heliosun ayini Apollon ayini ilə birləşib o, Rodos adasının ilahi hamisi sayılırdı.

**HERA** – yunan əfsanələrində Kronosun və ilahə ana Reyanın (və ya Yeri

təcəssüm edən ilahə Geyanın) qızı, Zevsin bacısı və arvadı, kəbin və ailə həyatının ilahəsi, qadınların və mamaçılığın himayəçisi. Hera ayini qədim qadınların hərəkət ilahələrinə sitayişindən əmələ gəlib. Heraya həsr edilmiş məbədlərin ən ehtiramlıları hələ Mikena dövründə Olimpiyada və Arqolipdə yerləşirdilər. Klassik dövrdə Zevsin arvadı kimi Hera səma hökmdarı hesab olunurdu. Hera Roma əfsanələrində Yunonaya uyğun gəlir.

**HERMA** – yolların və yolçuların hamisi idi. Onun altlığı olan büstünü Qədim Yunanıstanda adətən küçələrdə, meydanlarda və yollar ayrıcında qoyurdular.

**HERMES** – yunan əfsanələrində əvvəlcə bərəkət gətirən, sürülər və otlaqlar ilahisi idi. Çiynində quzu ilə təsvir olunurdu. Klassik dövrdə Hermes ilahilərin xəbərvərəni, ölənlərin ruhunu Yeraltı dünyaya (Aid) keçirən sayılırdı. O, eyni zamanda gözəl natiqliyin, idman yarışlarının hamisi, əlifbanın, ölçü və vəznlərin ixtiraçısı, lakin daha çox yolların, müsafirlərin, tacirlərin, ticarətin və aldatma ilə oğurluğun ilahisi hesab edilirdi. Hermes ayağında qanadlı səndəl, başında şlyapa və əlində xəbərçi əsası olan halda təsvir edilirdi. Hermes Roma əfsanələrində Merkuriyə uyğundur.

**HEYDƏR,** Haydar – aslanın ərəbcə adlarından biridir. Bu ad ona ənsəsinin qalınlığı və iki qabaq pəncəsinin qüvvəsinə görə verilib. Əlinin anası Fatimə bint Əsəd, oğluna əvvəlcə öz atasının adı olan Əsəd (Aslan) adını vermişdi. Lakin Əbu Talib səyahətdən qayıdanda bu adı Əli ilə dəyişdirdi. Özünə bağlanan şeirlərdə Əli **Heydərə** məxləsini işlətmişdir.

**HEYZ,** hayz (*ər.*) – qadınların aybaşı adətləri. Hələ Peyğəmbərdən əvvəl qadınlar **heyz** halında (haiz) olduqları zaman, bayram və qurban ayinlərində iştirak etməzdilər. Heyz halında olan qadın, şəriətə görə, qeyri-təmizdir: Qurana əl vurmadığı kimi, məscidə də ayaq basa bilməz. Təmiz olmaq üçün heyz zamanının sonunda qüsl etməsi lazımdır. Qurana (əl-Bəqərə) görə, bərdən əvvəl qadınlar, heyz halında olan qadınlar ər-arvad münasibətlərində ola bilməzlər.

**HƏBİB ƏN-NƏCCAR** ("Dülgər Həbib") – antakiyalıdır, ərəblər çox ziyarət edilən və onun qəbrinin yerləşdiyi Silpius dağına Həbibin adını vermişlər.

Adı Quranda çəkilməsə də, bəzi surələrdə (Yasin, 13 və s.) ona işarələr vardır. Hekayəti belədir: Allah, Antakiya əhalisini dinə dəvət üçün, iki rəsulu (Yəhya və Yunusu), sonra da üçüncüsünü (Şəmunu) göndəribmiş. Əhali onları, təbliğatlarından vaz keçmək üçün ölümlə təhdid edəndə, şəhərin ən uzaq yerindən qaça-qaça bir adam gəldi və şəhər camaatına, elçilərin dediklərinə inanmağı nəsihət etdi və öz imanını izhar etdi. Bu vaxt qəzəbə gələn xalq ona qarşı döndü və onu öldürmək üçün üstünə hücum edərkən: "Cənnətə daxil ol!" – bağıraraq istehza etdi. Həbib isə, şəhidlik rütbəsinə layiq görüldüyündən sevincini izhar etdi. Odur ki, Allah bütün kafirləri yox etdi və tək bir nida ilə hamısı birdən öldü.

Diməşqdə Həbibin kəsilmiş başını sol əli ilə qaldırıb, sağ əlinə alaraq, başı

ilə bağıra-bağıra Qurandan ayələr oxuyaraq üç gün, üç gecə şəhərin içində, qəribanə bir halda dolaşdığının təsviri vardır.

**HƏCC** (*ər.*) – Məkkə, Arafat və Minanı ziyarət, İslamın beş rüknündən biridir. Şəriətə görə, istər kişi olsun, istərsə qadın, hər həddi-büluğa çatmış müsəlman, taqəti olduğu halda, ömründə ən azı bir dəfə həcc ziyarətinə mükəlləfdir (b a x: **Ali-İmran**, 97). Taqəti təyin edən bəzi hal və şərtlər vardır. Dəlilər və əsirlər, özlərinə yoldaşlıq edəcək ərləri və yaxın qohumları (zu məhrəm) olmayan qadınlar bu mükəlləfiyyətdən azaddırlar. Zəruri xərclərdən məhrumiyyət, minəcək vasitənin və yollarda əmin-amanlığın olmaması da həcc mükəlləfiyyətini aradan götürən hallardandır. Şafei məzhəbi həcc mükəlləfiyyətinin ölümdən sonraya keçirilməsinə də icazə verir. Bu halda ölənin mirasından veriləcək pul ilə əvəzedici təyin edilir və ölənin adına o həccə gedir. Bir neçə müsəlman olmayanlar da həcc mövsümündə Məkkəyə getmişlər.

Peyğəmbər tərəfindən qəməri ilin (hər üç ildə bir ay əlavəsi ilə) mütləq surətdə qəbulundan sonra, daima Zülhiccə ayının birinci yarısında ifa edilən həccin zamanı sıra ilə bütün mövsümlərə təsadüf edir. Hacıların çoxu həcc mövsümünün ərəfəsində gəlirlər, lakin aralarından xeyli qismi, həcc ilinin Ramazan ayını Məkkədə keçirmək üçün daha qabaq gəlir ki, bu xüsusən böyük savab sayılır. Həcc mərasimini ifa etdikdən sonra ya dini elm təhsili üçün, ya da ömrünü mübarək şəhərdə tamamlamaq məqsədi ilə Məkkədə yerləşib qalan hacılar da var. 10 Zülhiccə bayramının cüməyə təsadüf etdiyi illərdə hacıların sayı çox artır (belə həccə əl-həcc əl-kəbir deyilir).

Səyahətə başlayar-başlamaz hacıya ihrama girməsini tövsiyə edirlər, Məkkədə mührim (ihram geymiş) olaraq qədəm qoyulur və ümrə ifa edilir. Hacıların hamısı bu mərasimi və başqa ayinləri bir rəhbərin (şeyx, dəlil, mütavvif) müşayiəti ilə yerinə yetirirlər. Dəlil lazım olan duaları oxuyur və yanındakılar da bunları təkrar edirlər. Dəlillər, bundan başqa hacıların digər məsələlərini də həll edirlər. Yerli dili və adətləri bilməyən hacılar dəlilsiz çətinlik çəkirlər.

Kəbə ətrafında yeddi dəfə dövr edib (tavaf), Safa və Mərva arasında yeddi dəfə tez-tez gedib gəldikdən (səy) sonra, saç kəsdirilərək əsil həccə başlayana qədər ihramdan çıxmaq olmaz. Lakin əgər ihrama həm ümrə, həm də həcc (qıran) üçün girilibsə, həccdən əvvəl ihramdan çıxmağa icazə verilir (b a x: **ihram**).

Həccin qaydaları budur: adət üzrə, Zülhiccənin yeddinci günü Məkkə camesində bir vəz verilir; bu vəzdən hacılar həccin üsul və ərkanını öyrənərək, bunları yerinə yetirməyə hazırlaşırlar. O gün axşamüstü və ya ertəsi gün səhər hacılar Məkkədən çıxırlar. Zülhiccənin səkkizinci gününə yovm ət-tərviyə (sulama, suvermə günü) deyilir, çünki izaha görə, o gün sonrakı günlər üçün su tədarük etmək hacılara görə adətdir. Şəhərin xaricində iki (Suriyadan və Misirdən) məhməl birləşib irəliləməyə başlayırlar. Arxadan piyada və ya heyvan üstündə gedən adamlar yola düşürlər.

Minadan və Müzdəlifədən (buna Cam və əl-Məşər əl-haram da deyilir) keçərək camaat Arafat ovasına gəlir. Burada durmaq (vüquf) lazımdır. Əsil vüquf Zülhiccənin doqquzuncu günü günəşin qürubuna qədər olur. Bu vaxt tamamlanana qədər iki xütbə oxunur və adəti üzrə bunlar mübarək şəhərin qazisi tərəfindən oxunur. Qazi mübarək dağın üstündə olan minbərə qədər at üstündə gedir, minbərə çıxır və xütbəsini uca səslə oxuyur. Həyəcana gələn camaat bunu ləbbəykə sədaları ilə qarşılayır. Günəş qərbdə, dağların arxasında qeyb olanda ifazə (və ya dəf, nəfr), yəni Müzdəlifəyə doğru gediş başlanır. Haramın sərhədini təşkil edən Ələmeyndən keçirlər, bir azdan gecə qaranlığı başlanır və məşəllər yandırılır. Bu surətlə və nadir hallarda hadisəsiz Müzdəlifəyə gəlirlər. Burada həm məğrib (axşam), həm də gecə namazlarını qılıb, səhərə qədər qalırlar. Zülhiccənin onuncu günü yovm ən-nəxr olduğu üçün səhər açılanda məscidin yanında bir vüquf da edilir və Məkkə qazisi təkrar xütbə oxuyur. Səhər namazı qılındıqdan sonra zəvvarlar Minaya gedirlər. Başqa bütün vəzifələr orada ifa olunur. Hər hacı üç Camradan Camrat əl-Əqabaya yeddi kiçik daş atmalıdır. Hələ Müzdəlifədə ikən bu məqsəd üçün kiçik daşlar yığırlar. Mina vadisinin qərb tərəfində olan adı çəkilən Camraya doğru yola düşürlər. Şəriətin əmri ilə o gün yalnız bu Camranın daşlanması vacibdir, başqa Camralar ertəsi günlərdə daşlanır. Zülhiccənin onunda hacılar tərəfindən ilkin şərtdəki Camra (Camrat əl-Ula, Camrat əs-Suğra), sonra ortadakı (Camrat əl-Vüstə) və nəhayət, qərbdəki Camra (Camrat əl-Sülfə, Camrat əl-Əqsa, Camrat əl-Əqaba) daşlanır. Hər Camraya Müzdəlifədən gətirdikləri yeddi daş atılır.

Əqidəyə görə bu daşlamanın hədəfi şeytandır. Şeytan o yerdə İbrahim peyğəmbərə görünmüş və İbrahim də onu daşa basıb qaçırtmışdır. Daşlama bitdikdən sonra ləbbeykə səsləri kəsilir və bununla da əsil həcc tamamlanmış olur. Lakin həcc ilə əlaqəli başqa mərasim də var. Əvvəla, o günə adını vermiş olan (yovm ən-nəxr – qurbankəsmə günü) qurbankəsmə mərasimi gəlir. Əksəriyyəti qoyun və keçi olmaqla, minlərlə qurbanlıq heyvan, bədəvilər və Mina tacirləri tərəfindən gətirilib satılır. Qurbanlarını özləri kəsmək istəməyən hacılar bu iş üçün vəkil təyin edirlər. Qurban ətlərini kasıb-kusuba paylamaq savab sayılır. O gün islam aləminin hər tərəfində qurban kəsimi sünnədir. Qurban kəsilmədiyi halda bunun əvəzi olaraq oruc tutulur.

Qurbanlar kəsildikdən sonra hacıların saçlarının qırxılması adətdir. Bunun üçün Minada cərgə-cərgə bərbərxanalar var. Hacı kimi bərbər də qırxma vaxtı qibləyə tərəf dönür və bəzi müəyyən qaydalara riayət edir. Bundan sonra ihramdan çıxan hacılar ələladə qiyafətə və hala gəlirlər (buna ihlal deyirlər). Yuxarıda sıra ilə təsvir edilən şeylər: daşlama, qurbankəsmə və baş qırxma şərən sünnədir. Qurbankəsmə üçün şərən müəyyən vaxt olmasa da, digər iki iş Zülhiccənin onuncu günü yerinə yetirilməlidir.

Adət üzrə o gün Məkkəyə qayıdaraq bir tavaf ifa edilir və bu yolla Kəbənin

yeni keçirilmiş örtüyü (kisva) ilk dəfə olaraq görünür. Əgər Minada ikən qiyafət dəyişməmişsə, burada dəyişib ələladə əlbisə geyilir. Mübarək Zəmzəm suyundan içmək və ya bunu üstünə çiləmək də adətdir, lakin bu başqa günlərdə də ola bilər.

Zülhiccənin 11-13-cü günlərinə əyyam ət-təşriq deyilir. "Yemək, içmək və zövq etmə günləri" kimi təyin edilən bu günlər Minada keçirilir. Hər gün nahardan sonra üç Camranın hər birinə təkrar yeddi daş atılır. Sabir təpəsinin yamacında bir daş üstündə qurbankəsmə adəti də var. Deyilənə görə İbrahim peyğəmbər oğlunu o yerdə qurban etməyə hazır imiş. Şəriət, Zülhiccənin 12-ci günündən etibarən Minadan ayrılmağa icazə verir. Ümumiyyətlə, bu icazədən istifadə edib o gün Məkkəyə qayıdırlar. Məkkəyə yaxın bir yerdə Əbu Ləhəbin məzarı hesab edilən bir yeri də daşlamaq adətdir. Nəhayət, vida ümrəsi (ümrət əl-vəda) ifa edilir. Bu məqsədlə Tənim adlı yerə gedərək yenidən ihrama girirlər. Səyyahların bəziləri Tənimə əl-Ümrə adını da verirlər. Təfav və səy ifa olunduqdan sonra həcc tamamlanır. Bir neçə gün sonra hacılar Məkkədən ayrılıb, Peyğəmbərin qəbrini ziyarət üçün Mədinəyə gedirlər.

**HƏDƏS,** Hadas (*ər.*) – şərən təmiz (tahir) olmamaq. Fiqh şərən çirkli olma halını, biri "kiçik" və digəri "böyük" hədəs olmaqla, ikiyə ayırır. Hədəs halında olan bir müsəlman ancaq şərən təyin edilmiş tərzlərdə yuyunmaq (vüzu və ya qüsl) surətiylə, ibadət üçün lazım olan təmizliyi əldə edə bilər. Mühdis olana (yəni "kiçik" hədəs halında olana) namaz qılmaq qadağan olduğu kimi, Kəbə ətrafında təvaf etmək və müshafa toxunmaq da qadağandır. Bundan başqa "mühdis"in namazı və təvafı, şərən hökmsüz və dəyərsizdir. "Böyük" hədəs halı üçün də eyni qaydalar mövcuddur.

**HƏDİS** (*ər.* rəvayət, hekayət) – Məhəmməd peyğəmbərin və onun silahdaşlarının həyatında baş vermiş hadisələrə və onların kəlamlarına əsaslanan rəvayətlər. İki hissədən ibarət olur: birincisində hədisi bir-birinə hekayət edən adamların adları sadalanır, ikincisində hekayətin özü verilir. VII əsrin sonu – VIII əsrin əvvəlində yaranmışdır. IX-X əsrlərdə on minlərlə hədis mövzuya görə tərtib olunmuşdur. Məs.: Buxarinin "Səhih"ində 7275 hədis toplanmışdır.

**HƏFSƏ** – Xəlifə Ömərin qızı və Peyğəmbərin arvadı. Birinci əri qureyşi Hümeys ibn Hüzafə idi, lakin o, Bədr döyüşündən bir az sonra vəfat etdi. Uşaqları olmayıb. Bu vaxt Həfsənin 20 yaşı var idi. Ömərin köməyini təmin etmək istəyən Peyğəmbər Uhud "günündən" sonra Həfsə ilə evləndi. Bir ara Peyğəmbər onu boşadı, lakin sonra dini fəzilətlərini, yəni namaz qılıb, oruc tutmasını təqdir etdiyi üçün Allahdan gələn əmrə görə nikahı təzələdi. Həfsə Aişə ilə eyni səviyyədə olaraq, Peyğəmbərin başqa arvadlarından üstün mövqedə idi və bütün nüfuzunu "üçlər"in, yəni Peyğəmbərə Əbu Bəkr və Ömərin xələf olmasına çalışan dəstənin məqsədi uğrunda işlədirdi. Başqa arvadlar kimi Xeybər qənimətlərindən ona da bir hissə çatmış və Peyğəmbərin vəfatından sonra özünə divanda qeyd

edilən və təqribən 10 min dirhəm miqdarında olan illik təminat almışdı. Bununla bərabər, Həfsə, mütəmadi fəaliyyət göstərən Aişənin tam ziddinə olaraq, təvazökar idi. Peyğəmbərdən uşağı olmayıb. Həfsə hicrətin 45-ci ilində, 60 yaşında ikən Mədinədə vəfat edib.

**HƏLİMƏ** – Bənu Səd ibn Bəkr qəbiləsindən olan qadındır, ənənəyə görə Peyğəmbərin süd nənəsidir. Həlimə bir qıtlıq ilində, qəbiləsindəki başqa qadınlarla birlikdə Məkkəyə əmizdiriləcək uşaq axtarmağa gəlmişdi. Nəhayət, yetim olan Məhəmmədi taparaq süd oğlu kimi yanına götürdü və buna görə ailəsi ən böyük səadətə çatdı.

**HƏLLAC,** Hüseyn ibn Mansur (təxm. 858-922) – orta əsr sufiliyində ən sol istiqamətin görkəmli nümayəndəsi, qərmətilərə yaxın olan mistik. Milliyyətcə farsdır. Həllac ömrünü İranda, Orta Asiyada, Hindistanda, Ərəbistanda və İraqda səyyar xətibliklə keçirirdi. O, müsəlman mərasimlərini və hüququnu inkar edirdi. Həllacın fikrincə, kim öz nəfsini islah edərək, həzzin və şəhvətin məhrumiyyətinə dözüb, yüksək məqama, alimlik mərtəbəsinə çatarsa, insani keyfiyyətdən arınar, ilahinin ruhu onda təcəssüm edər, bu vaxt onun bütün işi Allahın işi olar. Həllac özünün belə bir dərəcəyə çatdığını bildirmiş, "Mən haqqam" (Ən-əl-həqq) ifadəsini işlətmişdir. Müsəlman din xadimlərinə və hakim dairələrinə dair həllacın xatalı moizələri onun bir neçə dəfə həbsinə səbəb oldu. Sonuncu həbsində onu qamçıladılar və işgəncələr verdilər, sonra dar ağacına mıxlayıb, başını kəsdilər. Bundan sonra eybəcər hala salınmış meyitini yandırdılar.

**HƏMZƏ** – Əbd əl-Müttəlibin oğlu və Peyğəmbərin əmisidir; künyəsi Əbu Yələ və ya Əbu Ümərə olub, anası Hala bint Vühəybdir. Onun eyni zamanda Peyğəmbərin süd qardaşı olduğunu da rəvayət edirlər.

**HƏNƏFİLƏR,** Hənəfiyyə – adını imam Əbu Hənifədən almış məzhəbə mənsub olanlar. Əbu Hənifənin ən nüfuzlu şagirdləri Əbu Yusuf Yaqub" (h. 182 (795)-ci ildə ölüb) ilə Məhəmməd ibn əl-Həsən əş-Şeybanidir (h. 189 (805)-cu ildə ölüb). Bunların birincisindən qalan "Kitab əl-xərac" əsəri vergilərdən və dövlət hüququna dair məsələlərdən bəhs edir. İkincisinə aid olan əsərlər məzhəbin ana kitablarından sayılan və onlara bir çox şərhlər yazılan "Kitab əs-əsl" (və ya əl-Məbsut) ilə "əl-Cami əs-Sağır" və "əl-Cami əl-Kəbir"dir. Bu iki şagird məzhəbin əsaslarının təşəkkülündə Əbu Hənifədən daha çox müyəssər olmuşlar. Hənəfi məzhəbi İraqda meydana gəlmiş və Abbasilər dövründə dövlətin əsas fiqh məzhəbi olmuşdur. Məzhəb şərqə doğru yayılaraq, Xorasan və Mavəraünəhrdə ən böyük inkişafına çatmışdır. Bir çox məşhur hənəfi fakihləri bu məmləkətlərə mənsubdur. Hicri V (X) əsrdən monqollar dövrünə gəlincəyə qədər, Buxarada İbn Maza ailəsindən gələn hənəfi rəisləri, varisliklə və sədr ünvanı altında, şəhərin siyasi idarəsində də hakim olmuşdular. Xorasanda hicri III (IX) əsrdən etibarən hənəfilər oradakı suvarma təsiri üzərində haqq sahibi olmuşlar. Məğribdə hənəfilər hicri

VI (XI) əsrə qədər malikilər ilə birlikdə idilər. Siciliyada isə hakimlik edirdilər. Abbasi xilafətinin süqutu ilə hənəfilik tənəzzülə uğradığı zaman, Osmanlı dövlətinin qurulması ilə əlaqədar, məzhəb yenidən dirçəldi. Osmanlı səltənəti dövründə əhalinin başqa məzhəbə mənsub olduqları yerlərə, İstanbuldan həmişə hənəfi məzhəbinə mənsub olan hakimlər göndərilirdi və bunun nəticəsi olaraq əski Osmanlı dövlətinin idarəsi olan yerlərdə, məs.: Maliki fiqhinin yayıldığı Tunisdə olduğu kimi, Misirdə də hənəfilik rəsmən tanınmış bir məzhəbdir. Bundan başqa bu gün Əfqanıstan, Türkmənistan və Özbəkistanda da hənəfi məzhəbi hakimdir. Son zamanlar müsəlmanlar arasında hənəfilik Türkiyədə, Balkanlarda, Albaniyada, Bosna-Hersoqovinada, Acarıstanda geniş yayılmışdır. Yunanıstan, Polşa, Bolqarıstan və Rumıniyadakı müsəlmanlar da hənəfidir. Azərbaycan və Dağıstan türklərinin, çərkəslərin mühüm bir qismi və Şimali Qafqaz türklərinin hamısı hənəfi məzhəbindəndir. Çin, Mancuriya və Yaponiya müsəlmanlarının əksəriyyəti hənəfidir. Tatarıstan, Sibir, Qırğızıstan və Qazaxıstan türklərinin hamısı hənəfidir. Hicaz ərəbləri içərisində, Yəmənin Ədən bölgəsində də hənəfilər var. İraqda hənəfilər çoxdur. Suriya müsəlmanlarının böyük qismi hənəfidir.

Məzhəbin qədim fakihlərinin ən sayılanları bunlardır: əl-Həssaf (h. 261 (874)-ci ildə ölüb); ət-Təhavi (h. 321 (933)-ci ildə ölüb); əl-Hakim (h. 334 (946)-cü ildə ölüb); Əbülleys əs-Səmərqəndi (h. 375 (986)-ci ildə ölüb); əl-Quduri (h. 428 (1036)-ci ildə ölüb), onun "əl-Muxtəsər" adlı əsəri sonrakı müəlliflər üçün müraciət kitabı olmuşdur. Bunlardan sonra "əl-Məbsut" əsərinin müəllifi Şəms əl-Əimmə əs-Sərahsi (h. 483 (1090)-cü ildə ölüb) və son dərəcə sistemli "əl-Bədai əs-sənai" adlı kitabın müəllifi əl-Kasani (h. 587 (1191)-ci ildə ölüb) gəlirlər. Daha sonra yetişən gənc müəlliflər adları çəkilənlərin əsərlərini geridə qoyan yeni əsərlər və şərhlər yazmışlar. Bunların ən əhəmiyyətlilərindən biri, əl-Marginaninin (h. 593 (1297)-cü ildə ölüb) "əl-Hidayə"sidir və buna əs-Sınakinin (h. 700 (1300)-cü illərdə yazıb) "Nihayə" əl-Babartinin (h. 786 (1384)-cı ildə ölüb) "İnayə" və əl-Kurlaninin (h. VIII (XIV) əsr) "Kifayə" adlı şərhləri vardır. Hidayanın Mahmud ibn Sədr əş-Sariya əl-Əvvəl (h. VII (XIII) əsr) tərəfindən Viqaya adı altında bir şərhi var, buna Sədr əs-Saria əs-Sani (h. 747 (1346)-ci ildə ölüb) tərəfindən "Niqaya" adında şərh yazılmışdır. "Niqaya", əl-Kuxistani (h. 950 (1543)-ci ildə ölüb) tərəfindən "Camiər-rumuz" adı altında yazılmış bir kitabda şərh edilmişdir.

Hənəfi fiqhinə dair ən mühüm şərhlər bunlardır; 1) əz-Zaylai (h. 743 (1343)-cü ildə ölüb) "Təbyin əl-həqaiq"; 2) əl-Əyni (h. 855 (1451)-ci ildə ölüb) "Rəmzəl-həqait"; 3) Molla Miskin əl-Hərəvi "Təbyin əl-həqait" (h. 811 (1409)-ci ildə yazıb); ət-Tai (h. 1192 (1785)-ci ildə ölüb) "Tavfiq ər-rəhman" və 5) ən mühümü İbn Nucaym (h. 970 (1563)-ci ildə ölüb) "əl-Vəhr ər-raiq".

Ən mühüm fitva məcmuələri bunlardır: Burhanəddin İbn Maza

(təqribən h. 570 (1174)-ci ildə ölüb) – "Zahirət əl-burhaniyyə"; Qazi-xan (h. 592 (1196)-ci ildə ölüb) – "əl-Xaniyyə"; Siracəddin əs-Səcavəndi (h. VI (XII) əsrin axırı) – "əs-Siraciyyə"; İbn Əlaəddin (h. 830 (1397)-cu ildə ölüb) – "ət-Tatar-Xaniyyə" və s.

**HƏNİF** (*ər.* cəmi hunafa) – Quranda (məs., Yunus, 105; əl-Həcc, 31; ər-Rum, 30; əl-Beyyinə, 5 və başqaları) həqiqi və saf din tərəfdarlarının hamısına aiddir. Hənіflər xüsusən İbrahim peyğəmbəri Allaha saf və təmiz ibadət etmənin nümayəndəsi kimi göstərirlər. Ümumiyyətlə, İbrahim peyğəmbər Ali-İmran, 89; əl-Ənam, 79, 161; Yunus, 105; ən-Nəhl, 120-123; əl-Həcc, 31-də bütlərə pərəstiş edənlərin əleyhdarı kimi göstərilir, lakin eyni zamanda bir-iki yerdə İbrahim peyğəmbər nə xristian, nə də yəhudi olmayan bir şəxs kimi təsvir edilir. Məs.: Bəqərə, 135-də [Yəhudilər və xaçpərəstlər müsəlmanlara]: "Doğru yolu tapmaq üçün yəhudi, yaxud da xaçpərəst olun!" – dedilər. [Ya Məhəmməd!] Sən de: "Biz batildən haqqa tapınan hənif İbrahimin dinindəyik, çünki o, Allaha şərik qoşanlardan deyildi" və Ali-İmran, 67; "İbrahim nə yəhudi, nə də xaçpərəst idi! O ancaq hənif müsəlman (Allaha təslim olan) idi və Allaha şərik qoşanlardan deyildi" ayələrində olduğu kimi hənif və müslim sözlərinin burada sadəcə yan-yana gəlməsi, sözün xüsusi bir din mənasını daşımadığını bildirir. Bu cəhət əl-Həcc, 31-dəki hünafai li-llahi ibarəsindən də aydın olaraq anlaşır. Quranda bu sözlə qəsd edilən mənanı anlamaq baxımından ər-Rum surəsinin 30-cu ayəsi xüsusi əhəmiyyət kəsb edir. Bu ayədə: "Ya Məhəmməd. Ümmətinlə birlikdə batildən haqqa tapınaraq üzünü hənifən Allahın fitri olaraq insanlara verdiyi dinə (islama) tərəf tut" – deyilir. Bundan aydın bir surətdə anlaşır ki, söz sonradan zühur edən bəzi xüsuslara, bir tərəfdən şirkə və digər tərəfdən kitab əhli onların qismən təhrif edilmiş dinlərinə zidd olan bir dinə dəlalət edir. İrad edilən ayələrin nüzul tarixlərinə gəlincə, bunların əksəriyyətinin Mədinədə nazil olduqları deyilə bilirsə də, əl-Ənam, 79; Yunus, 105 və əl-Beyyinə, 5 ayələrinin Məkkədə, yoxsa Mədinədə nazil olduqlarını demək çətindir.

Hənif sözünün islam aləmində sonrakı işlənmə tərzi Qurandakı kimidir. Hənifiyyə (nadir halda Hənəfiyyə) İbrahim peyğəmbərin dinini ifadə edir. Məhəmməd peyğəmbər İbrahim peyğəmbərin saf dinini yeniləşdirməsindən dolayı, hənif əksər hallarda müslim mənasında işlənməkdədir və hənif sözü "saf, həqiqi" dinə dəlalət edir.

**HƏNİFİLİK** – VI-VII əsrin əvvəlində Ərəbistanda dini hərəkat. Onun nümayəndələri – hənіflər – qəbilə və yerli ilahilərin ləğv edilməsinə, təkallahlılığa çağırırdılar. Hənifilik ərəblərin ibtidai icma münasibətlərinin dağılması və dövlətin yaranması prosesində siyasi birləşmə arzularını əks etdirirdi. Hənіflərin çoxu asketizmin tərəfdarı idi. Hənifiliyin ən fəal və ardıcıl nümayəndəsi Bənu Hənifə qəbiləsində (Yəmamanın əkinçilik vilayətində) çıxış edən Müseylimə idi. Quranın bir neçə surəsində hənifilərin dediyi kimi, Allah yox, Rəhman sözü işlənir.

**HƏRİRİYYƏ** – Suriyada Rifaiyyə təriqətinin bir qolu olub, h. 645 (247)-ci ildə Busrada vəfat edən Əli ibn Əbilhəsən əl-Həriri əl-Mərvari tərəfindən təsis edilmişdir.

**HƏSƏN,** əl-Həsən ibn Əli ibn Əbu Talib (təxm. 625-699) – şiə imamları sülaləsinin ikinci imamı, Əlinin və Fatimənin böyük oğlu. Əlinin 661-ci ildə öldürülməsindən sonra onun tərəfdarları Həsəni xəlifə elan etdilər. Lakin o, iri məbləğdə pul və geniş ərazini əhatə edən mülklərdən alınan gəlirlərin ona verilməsi əvəzində camaat qarşısında bu ünvandan Əməvilər sülaləsinin banisi, Suriya canişini Müaviyənin xeyrinə əl çəkdi. Siyasi cəhətdən zəif və fəaliyyətsiz Həsən "Əbu Təlaq" ("Boşanma atası") kimi məşhur idi: o tez-tez dörd arvadından birini boşayıb, yeni qadınla evlənirdi və həyatı boyu yüz dəfədən artıq evlənmişdi.

**HƏSƏN,** Əl-Həsən ibn Zeyd ibn Həsən (?-783) – Əlinin nəvəsinin oğludur. Həyatını itaətə və ibadətə həsr etmiş, atası və babası kimi, hər cür siyasi işlərdən uzaq qalaraq, Abbasi xilafəti ilə xoş keçinmişdir. Qızı xəlifə Əbülabbasa ərə getmişdi. Özü də xəlifənin sarayında yaşamış, Əli övladından olan qohum-əqrəbasından və onların tərəfdarlarından eşitdiklərini xəlifə əl-Mansura çatdırmışdır. H. 150 (767)-ci ildə əl-Mansur onu Mədinəyə vali təyin etdi, lakin h. 155 (772)-ci ildə xəlifənin narazılığını qazanıb vəzifədən kənar edildi, mal-dövləti müsadirə olundu. Lakin vəliəhd əl-Mehdi ona himayədarlıq etmiş, əl-Mansurun ölümündən sonra, bütün mallarını geriyə qaytarmışdı. H. 167 (783)-ci ildə həccə gedərkən əl-Hacirdə vəfat edən Həsən orada dəfn edildi.

**HƏSƏN,** Əl-Həsən ibn Zeyd ibn Məhəmməd ibn əl-Həsən (?-884) – Əli sülaləsindən, Təbəristanda bir xanədanın qurucusudur. Tahirilərin burada zülmü o qədər artmışdı ki, yerli zadəganlar bu yerlərdə hökm sürən ələvilik zehniyyəti təsiri altında olan və iqtidar mövqeyinə keçirmək üçün həmin ailədən bir nümayəndə axtarırdılar. Əli sülaləsindən bir nəfərin tövsiyəsi ilə Reydə olan əl-Həsənə müraciət edildi. Bu cür seçib dəvət edilmə çox yaxşı nəticə verdi, çünki əl-Həsən Əli sülaləsində əzəmət və səbat baxımından nadir bir şəxs idi. O, Təbəristan xalqının bir qismi ilə deyləmli şeyxlərin bəziləri tərəfindən hökmdar elan edildi. Əl-Həsən Tahiriləri məğlub etdi. Amul və Sari şəhərlərini, az sonra Rey şəhərini aldı. O daima müxtəlif tərəflərdən gələn hücumlara qarşı özünü müdafiəyə məcbur olmuş, bir neçə dəfə məmləkətdən qovulmuşsa da, hər dəfə ona dost olan Deyləmdə sığınacaq tapmış, oradan təkrar Təbəristana qayıtmışdır. H. 270 (884)-ci ildə əl-Həsən məmləkətə sahib olandan sonra vəfat etdi və özündən sonra ailəsi h. 316 (928)-cı ilə qədər Təbəristanda hökm sürdü. Əl-Həsən həqiqətən dindar idi. Şeirləri və fiqhə dair əsərləri var.

**HƏSƏNİ,** Hasani (cəm- Hasaniyun) – Əli ilə Peyğəmbərin qızı Fatimənin oğlu Həsənin nəslindən gələn **ələvi** şəriflərinə verilən addır. Əli ilə Fatimənin digər oğulları Hüseyn nəslindən olanlar üçün b a x: **Hüseyni.**

**HƏSSƏN,** Hassan ibn Sabit ibn əl-Münzir ibn ən-Nəccar əl-Ənsari əl-Həzraci (563-682) – Peyğəmbərin şairi olub, onun düşmənlərinin hücumlarına qarşı şeirləri ilə çıxış etməsinə görə bütün müsəlmanlar arasında fövqəladə şöhrət və hörmət qazanmışdı.

**HƏŞŞAŞİNLƏR** (*ital.* assassino, *frans.* assassin – geniş mənada muzdlu qatil) – məxfi feodal-dini terrorçu təşkilat təriqəti. XI əsrdə İranda ismaililər tərəfindən təşkil edilmişdi. Sonralar Suriyada və Lübnanda fəal tərəfdarlarının hesabına artmışdır. Həşşaşinlər öz müstəqilliyi uğrunda iri feodallar və dövlət hakimiyyəti əleyhinə mübarizə aparan, səlcuqilərlə və səlibçilərlə vuruşan və dövlətli tacirləri qarət edən yerli xırda feodalların mənafeyini təmsil edirdilər. İranda həşşaşinlərin başçıları olan imamların iqamətgahı, ölkənin şimal-qərbində yerləşən Ələmut qalası idi. Həşşaşinlər o yerlərdə bir sıra qala və qəsrləri də zəbt etmişdilər. Öz siyasi məqsədləri üçün həşşaşinlərin başçıları təşkilatın sıravi üzvlərinin – fədailərin, yəni özlərini qurban vermək istəyən yoxsul kəndli və şəhərlilərin arasından toplananların kor-koranə tabeçiliyindən və canlarından keçmələrindən istifadə edirdilər. Bunların fanatizmini artırmaq üçün həşşaşinlərin başçıları onlara həşiş verirdilər. Röyalarında gördükləri mənzərələri, başçılar onlara cənnət bağları kimi təsvir edərək deyirdilər ki, əgər fədai filankəsi öldürsə, o həmişə cənnətdə qalıb keflər içində olacaq. İran həşşaşinlərinin axırına 1256-cı ildə Ələmutu zəbt edən monqollar çıxdılar. Suriya və Lübnan həşşaşinlərinin axırıncı dayağını isə 1272-ci ildə məmlüklər ləğv etdilər. B a x: həmçinin **Ağaxan.**

**"HƏVARİLƏRİN İŞLƏRİ"** – Əhdi-Cədidin tərkibində olan ən böyük əsərlərdən biridir. "Həvarilərin işləri" Lukanın İncilinin davamıdır və üslub baxımından ona yaxındır. İohanın İncili kimi "Həvarilərin işləri" də Əhdi-Cədidin son hissələrindəndir və onların tərtibatı təxminən II əsrin üçüncü rübünə aiddir. "Həvarilərin işləri"nin birinci 12 fəslinin tərkibi həvari Pyotra isnad edilən, əsasən yəhudilər arasında aparılan xristianlıq təbliğatından ibarətdir. Sonrakı 16 fəsil "bütpərəstlərin həvarisi" olan Pavelə isnad olunur və onun təbliğçiliyinə aiddir.

**HƏVVA** – Adəmin arvadı. Adəm cənnətdə yuxuda ikən sol qabırğasından alınan bir sümükdən yaradılmışdı və bu əməliyyatdan Adəm heç bir ağrı hiss etməmişdi: belə olmasa idi heç bir kişinin arvadına qarşı məhəbbəti olmazdı. Adəm arvadına, canlı bir vücuddan yaradıldığı üçün Həvva adını vermişdi. Adəm torpaqdan və Həvva sümükdən yaradıldıqlarından, kişi, yaşı artdıqca gözəlləşdiyi halda, qadın yaşa dolduqca çirkinləşir. Cənnətdə təqsirin böyüyü Həvvanındır (Quran, əl-Əraf, 20), çünki İblisə uyaraq şər ağacının meyvəsini o yemişdir. Bir rəvayətə görə Həvva ərinə əvvəlcə şərab və sonra qadağan olunan meyvəni vermiş və buna görə də səhvinin səbəbi özü olmuşdur. Bunun üçün şərab bütün pisliklərin mənbəyi sayılır. Başqa bir rəvayətə görə, bu qadağan olunmuş meyvəni yeməsi bütün bəşəriyyəti əbədi matəmə qərq etmişdir. Aralarında aybaşı, hami-

ləlik, doğum sancıları və s. olan on cəza Həvva qızlarına ulu analarının təqsirini xatırladır. Əgər qadın doğum vaxtında ölərsə, şəhid mərtəbəsinə qalxıb, əri ilə cənnətdə rastlaşır. Cənnətdən çıxarıldıqdan sonra ər-arvad Məkkəyə gedərək, həcc mərasimini yerinə yetirdilər. Həvva ilk aybaşısını orada gördü. O zaman Adəm ayağını yerə vurdu və yerdən Zəmzəm fışqırdı, Həvva da bu su ilə qüsl etdi. Həvva Adəmdən iki il sonra öldü və onun yanında dəfn edildi.

**HİCRƏT,** hicrə (*ər.* köçmə) – Peyğəmbərin Məkkədən Mədinəyə hicrəti və hicri tarixinin başlanğıcı.

Peyğəmbər Məkkədə qureyşilərin müxalifətinə üstün gələ bilmədiyinə görə Mədinəyə köçməyə qərar verdi. Ərəbcə hicrə sözünü bəziləri kimi "fərar" mənasında işlətmək xətadır, çünki həcərə sözünün əslində ifadə etdiyi fikir fərar deyil. Bu kök rabitələri kəsmək, qəbiləsini tərk etmək, köçmək mənasındadır. Məsudi "Tənbih vəl-işraf" adlı əsərində deyir: "Peyğəmbər Məkkədəki səhabələrinə Mədinəyə hicrət etmələri əmrini vermişdi. Bunlar karvanlar halında hərəkət etdilər. Mədinəyə ilk gələnlər arasında sonralar xəlifə olan Ömər də var idi. Şübhə yox ki, hicrətdən əvvəl Mədinə əhalisi ilə bəzi müzakirələr cərəyan etmişdi. Daha sonra Peyğəmbər Əbu Bəkrlə birlikdə hərəkət etdi. O özündə qalan bəzi əmanətləri sahiblərinə qaytarmaq üçün Əlini Məkkədə saxlamışdı. Əli üç gün Məkkədə qaldı. Sonra o da mühacirlərə qoşuldu.

Peyğəmbəri öldürmək istəyən qureyşilər səhər onun evinə gəldilər, lakin orada yalnız Əlini tapdılar. Əli qılıncı ilə bunları dəf etmişdi. Qureyşilər oradan Peyğəmbəri Mədinə yolunda təqibə getdilər. Peyğəmbər bunların gəldiyini bilib, Əbu Bəkrlə birlikdə qayalar arasında bir mağaraya girdi. Allahın iradəsi ilə hörümçək elə o dəqiqə mağaranın ağzını hördü. Qureyşilər hörümçəyin torunu görüb, buraya heç kimin girmədiyini düşündülər və çıxıb getdilər. Bu vəziyyət Quranın ət-Tövbə surəsinin 40-cı ayəsinin təfsirinə kömək edir: "Hər ikisi mağarada olduğu vaxt öz dostuna (Əbu Bəkrə): "Qəm yemə, Allah bizimlədir!" – dedi".

Yol boyu ənsarlar karvan-karvan Peyğəmbərin gəldiyi yola çıxmış və dəvəsinin yüyənindən tutub, qəbilələrində qalmağını istəmişdilər. Lakin Peyğəmbər hamıya bu cavabı verdi: "Qoyunuz dəvəm yolunu getsin, çünki o Allahın əmrlərinə itaət edir!"

Peyğəmbər Mədinəyə gəldikdə Əbu Əyyub əl-Ənsarinin evində qonaq olmuşdu.

Bundan əvvəl də Cəfər ibn Əbu Talibin rəhbərliyi altında Peyğəmbərin bir neçə yoldaşının Həbəşistana hicrəti olmuşdu. Bu hicrətdə bir neçə qadın da var idi. Onların arasında Əbu Sufyanın Həbəş çarı Neçaşiyə ərə getmiş qızı da var idi.

Hicrətin həqiqi tarixi haqqında müxtəlif fikirlər vardır. Ən çox yayılmış fikrə görə, hicrət Rəbi əl-əvvəl ayının 8-də olub (622-ci il sentyabrın 20-si). Bu tarix başqa bir fikrə görə Məkkədən çıxma tarixi yox, Mədinəyə gəlmə tarixidir. Bəzi rəvayətlərdə bu tarix Rəbi əl-əvvəl ayının ikisi, bəzilərinə görə, on ikisi kimi verilir. Biruninin rəvayətinə

görə müsəlmanlar Mədinəyə çatdıqları gün yəhudiləri Aşura (tövbə və istiğfar) bayramını keçirən gördülər.

Ayın səkkizi gününün seçilməsinə səbəb bu günün bazar ertəsi gününə təsadüf etməsi olmuşdur. Bir rəvayətə görə Peyğəmbərdən nə üçün bazar ertəsi gününü mübarək saydığını soruşduqda, bu cavabı vermişdir: "O gün doğuldum, o gün risalətə çatdım və yenə o gün hicrət etdim".

Hicri tarixinin başlanğıc elan edilməsi xəlifə Ömərin işidir. Təqvim tarixinin hicri başlanğıcında şəxsən Peyğəmbər tərəfindən təsbit edildiyinə dair rəvayətlər həqiqətə uyğun deyil. Bir rəvayətə görə Yəməndə xəlifənin valisi olan Yəla ibn Ümeyyə tərəfindən təsbit edilmişdir. Lakin Ömər tərəfindən təsbit edilməsi daha doğrudur.

Rəvayətlərdə bəzi ixtilaflar olmaqla bərabər, deyilənə görə Ömər beytülmal qələmlərini, qeyd dəftərlərini və vergiləri təsis etdikdən sonra tarix qoymaq barədə çətinlik çəkmiş, ya da tarix qoymadığından dolayı etirazlara uğramışdır. Biruninin bir rəvayətinə görə Əbu Musa əl-Əşəri Ömərə yazmışdı: "Bizə tarixsiz məktublar göndərirsiniz!" Xəlifə yanındakılarla məsləhət etmiş, Yunan və İran adətləri tədqiq ediləndən sonra bir təqvimin təsdiq edilməsi qərarlaşdırılmışdır. Bəziləri tarixin Peyğəmbərin anadan olma günündən etibarən hesab edilməsini təklif etdilər, lakin bunun vaxtı qeyri-müəyyən idi. Deyilənə görə, Peyğəmbərin hicrət zamanından etibarən hökmran olmağa başladığını irəli sürərək, bu zamanın tarixə başlanğıc sayılmasını təklif edən Əli olmuşdur. Bu qərar hicrətin 17-ci və ya 18-ci ilində verilmişdir. 16-cı ilində verildiyini deyənlər də var. Üstün fikir 17-ci ilində verildiyidir.

Bu tarixin təsdiq edilməsindən əvvəl müsəlmanlar öz illərinə izin ili, zəlzələ ili, vida ili və s. adlar verirdilər. Peyğəmbər dinə dəvətə başladığı vaxt, ərəblər illəri "Fil vaqiəsi" ilindən etibarən sayırdılar.

İndi hicrətin ili birinci il kimi təsbit edilmişdir. Halbuki təqvim üsulu Quranın bir ayəsi ilə təsis edilmiş olduğundan, aylar qabaqkı kimi saxlanılmış və Məhərrəm ayı birinci ay sayılmışdır. Bunun səbəbi bu ayın həcc mövsümündən sonra ilk iş ayı olmasıdır. Buna görə hicri tarixin başlanğıcı, hicrət vaqe olduğu gün deyil, hicrət ilinin Məhərrəm ayının birinci günüdür.

**HİMENEY** – antik əfsanələrdə kəbin ilahisi. Onun ayini Qədim Yunanıstanda meydana gəlmişdi. Romada da geniş yayılmışdı. Əfsanəyə görə, ilahə Demetranın şərəfinə keçirilən şənlikdə Himeney bir dəstə qızla birlikdə quldurlar tərəfindən oğurlanmışdı. Lakin o, quldurları qırıb qızları azad etmiş və buna görə qızların pərəstişkarına çevrilmişdir.

**HİRƏ** – Məkkənin təqribən üç ərəb mili şimal-şərqində Sabir dağının qarşısında yerləşən dağdır. Bu iki dağ çox vaxt bərabər zikr olunur və iki dəniz dalğasına bənzədilir. Hər iki dağ suyun olmamasına görə çox az tikanlı kollar istisna olmaqla, hər cür bitkidən məhrumdur. Hirə Sabirdən daha yüksəkdir və daha qayalıdır. Peyğəmbərə bu dağın indiyədək qalmış bir mağarasında iki

vəhy nazil olmuşdur. Buna görə bu dağ Cəbəl Nurda adlanır.

**HOSPİTALYERLƏR** – XII əsrin əvvəlində Fələstində meydana gəlmiş katolik hərbi rahiblər ordeni. Hospitalyerlərin məqsədləri "müqəddəs torpaqlar"ı ziyarət edənlərə yardım göstərmək (pulla, yaşayış yerləri ilə, yeməklə və tibbi yardımla) və Yerusəlim krallığının "kafirlər"dən müdafiəsini təşkil etmək idi. Faktiki onların əsas məqsədləri müsəlman dövlətləri ilə mübarizədə öz hökmranlıqlarını gücləndirmək və qərb işğalçılarının Suriyada və Fələstində tutduğu ərazini genişləndirmək idi. Öz adlarını hospitalyerlər 1070-ci ildə Amalfa tacirləri tərəfindən qoyulmuş Yerusəlimdəki müqəddəs İoann adına hospitaldan (yəni "sığınacaq", *lat.* hospitaliya – "qonaqsevənlik") götürmüşlər. I səlib yürüşündən sonra bura ordenin banilərinin yığışdığı mərkəzə çevrilmişdi. Hospitalyerlər əvvəlcə üstündə ağ xaç olan qara, sonra da qırmızı çiyinlik geyirdilər. XII-XIII əsrlərdəki səlib yürüşlərində hospitalyerlərin rolu çox böyük idi. Şərqdə işğalçı siyasət yürüdən papalar bu ordenə böyük kömək edirdilər. 1154-cü ildə papa IV Afanasi hospitalyerlərə böyük hüquq və maliyyə imtiyazları vermişdi. Orden, hər şəhərində hərbi hissələr yerləşən təkcə Yerusəlim krallığında deyil, hətta bütün Qərbi Avropa da iri hərbi-siyasi qüvvəyə çevrilmişdi. Səlibçilər Şərqdən qovulandan sonra, hospitalyerlərlə birlikdə 1291-ci ildə iqamətgahlarını Kipr adasına, sonra 1306-1308-ci illərdə xristian Bizansdan aldıqları Rodos adasına keçirtdilər. Rodos cəngavərləri 1522-ci ildə türklər onları qovana qədər adada qaldılar. Bir vaxt hospitalyerlər Tarablus şəhərini də tutmuşdular. 1530-cu ildən onlar alman imperatoru V Karl tərəfindən bağışlanmış Malta adasında yerləşdilər. Bunun əvəzinə onlar türklərə və Şimali Afrika dəniz quldurlarına qarşı mübarizə aparmağı öhdələrinə götürdülər. Hospitalyerlər burada 1798-ci ilədək qalıb Malta cəngavərləri adını daşıdılar. Bundan başqa ordenin Qərbi Avropada da bir neçə mülkləri var idi. 1792-ci ildə Fransada baş verən inqilab onları ölkədən uzaqlaşdırdı. Rusiya imperatoru I Pavel hospitalyerlərdən Fransa və Türkiyəyə qarşı müharibədə istifadə etmək niyyəti ilə, 1797-ci ildə onlarla müqavilə bağladı. O, Rusiyada 1817-ci ilədək fəaliyyət göstərən hospitalyerlərin "böyük priorluğunu" təşkil etmişdi. 1798-ci ildə Napoleon I Pavel ordenin "böyük magistri" seçilmişdi. 1800-cü ildə ingilislər Maltanı aldıqda hospitalyerlər buranı və başqa mülklərini itirdilər. 1834-cü ildə ordenin iqamətgahı Romaya köçürüldü. 1870-1871-ci illərdə Fransa-Prussiya müharibəsindən sonra ordenin qadınlar təşkilatı yarandı. Müasir dövrdə orden əsasən aristokratiya və kral sülalələrinin nümayəndələrini, zadəganları və s. ünsürləri birləşdirir. Onun 2500-ə qədər üzvü var. Ordenin təşkilatları AFR, İngiltərə və b. ölkələrdə fəaliyyət göstərir.

**HURİLƏR** (*ər.* qaragözlülər) – möminlərə cənnətdə kef verən əfsanəvi qızlar. Qurani-Kərimdə hurilər nə insanların, nə də cinlərin əlləri dəyməmiş pak qızlar kimi təriflənirlər.

**HUS YAN** (1369-1415) – böyük çex vətənpərvər və humanisti, milli azadlıq uğrunda mübariz, Çexiyada islahatçılığın (reformasiya) rəhbəri. Kəndli ailəsində doğulub, Praqa universitetini bitirib. 1398-ci ildə həmin universitetin professoru olub. Universitetdə almanlaşmanın əleyhinə islahatlara rəhbərlik edirdi. 1401-ci ildən azad sənətlər fakültəsinin dekanı, 1402-ci ildən rektor və eyni vaxtda Praqanın Vifleyem kilsəsində keşiş olub. Öz moizələrində Hus almanların təzyiqi və papa hakimiyyətinin əleyhinə kəskin çıxış edirdi. O, kilsənin var-dövlətdən əl çəkməsini, onda bir vergisinin ləğv edilməsini erkən xristian kilsə nizamının bərpasını tələb edir, din xadimlərinin xüsusi təbəqəsinin əleyhinə çıxış edirdi. Buna görə o, kilsədən qovulmuşdur. Praqadan uzaqlaşan Hus fəaliyyətini ölkənin cənubunda davam etdirirdi. Onun ədalətsiz hakimiyyətə tabe olmamaq nəzəriyyəsi şəhər və kənd əhlinin antifeodal mübarizəsinin ideoloji əsasına çevrildi. Çexiyada və onun kənarlarında Husun nəzəriyyəsinin yayılması katolik kilsə xadimlərinin və feodal hakimiyyətinin təlaşa düşməsinə səbəb oldu. Konstansada keçirilən kilsə məhkəməsinə çağırılan Hus imperator Sigizmundun müdafiə fərmanına baxmayaraq, həbs olunub 1415-ci il iyulun 6-da dönük kimi tonqalda yandırıldı. Husun başlıca əsəri "Kilsə haqqında" kitabıdır (1413). Hus çex ədəbi dilinin yaradıcılarından biridir.

**HÜLMANİYYƏ** – sufi təriqətlərindən biri, Şamda Əbu Hülman əl-Farisi əl-Hələbi tərəfindən təsis edilmişdir. Bəsrəli İbn Salimin (909-cu ildə ölüb) müridi hesab olunur. Əsas əqidələri bunlardır: 1) Cismani gözəlliyə sahib olan kimsələrin şəxsində Allah təzahür edir; 2) Bu şəxslərdə Allahın təcəssüm etməsini bilən kimsəyə hər şey mübahdır (icazəlidir).

**HÜRUFİLİK**, hürufiyyə – Astrabadlı Fəzlullah tərəfindən h. 800 (1398)-cü ildə Xorasanın Astrabad qəsəbəsində əsası qoyulmuş təriqət. Fəzlullah həmin il özünü, Allahın və kainatın mahiyyətini və həqiqəti öz zatında təcəssüm edən yeni peyğəmbər elan etmişdi. Bu zata görə islam təsəvvüfünün ümumiyyətlə qeyd etdiyi kimi, Allahın əsil mahiyyəti gizlin xəzinə olub (kənzi-məxfi), ilk təzahür və təcəssümü kəlam şəklində ilk illətdən (illəti-üla) ibarətdir. Kəlam isə əsil şəklində xüsusi sifət əldə etməmiş mücərrəd bir kəlami-nəfsi mahiyyətindədir. Bir nəhai reallıq kimi təzahür edən bu mücərrəd kəlam bəzi ünsürlərə ayrılıb və ünsür halında xarici şəkil alır. Bu ünsürlər isə ərəb əlifbasının 28 və fars əlifbasının 32 hərfidir. Kəlam da bu şəkilləri alınca kəlami-mücərrədlikdən kəlami-məlfuz halına keçir. Bu kəlami-məlfuzun şəkillərinin tərkib surətlərindən hiss və şüur aləmi vücud alır. Hürufilərin etiqadları xülasə olaraq belə tərif oluna bilər: hürufilər aləmin əbədiyyətinə və daim dövri hərəkətinə, təbii hadisələrin əmələ gəlməsinə inanırlar. Cənabi-Haqq insanın üzündə təzahür və insanı fərqləndirən bir kəlamdır. Bu kəlamın ünsürlərində də bir qiyməti ədədiyyə var: üzdə dörd kirpik, iki qaş, bir saç vardır ki, yeddi edər. Bu yeddini dörd ünsür ilə zərb etsək, ərəb

əlifbasının 28 hərfini təşkil edər, yaxud başqa bir tərzdə belə izah olunur: dörd kirpik, iki qaş və savadi-əzəm deyilən saç. Bu yeddi xütubi-ümmiyə kimi izah edilir ki, hər insan üzündə bu xətlər ilə doğulur. Həmçinin yeddi xütuti-abiyə vardır ki, bunlar sonradan çıxan xətlərdir: iki saqqal tükləri, yanağın iki tərəfindəki tüklər, iki bığ, bir də alt dodaqdakı tüklər. Bunları hal və mahal etibarı ilə ayrı-ayrı götürsək 28-i alırıq ki, bu da ərəb hərflərinin sayıdır. Fəzlullah bunlara farscadakı kaf, je, çim və pe hərflərini əlavə edərək saylarını 32-yə çatdırmışdır. Bu kəlami-məlfuzu tərkib edən 28 və yaxud 32 hərfi insanın üzündə görmək olar. Bu xüsusda belə bir izah var: madam ki, haqqın özünün peyğəmbərlər vasitəsilə təqdim edilməsi tədrici olmuşdur, kainatın əsil ünsürü olan bu hərflərin hər peyğəmbər getdikcə, daha çox sayda məlum olması təbiidir. Məsələn, Adəmə – 9, İbrahimə – 14, Musaya – 22, İsaya – 24, Məhəmmədə – 28 və son peyğəmbər Fəzlullaha da 32 hərf məlum olmuşdur. Bu peyğəmbərlərdən son dördünə məlum olan ünsürün sayı, hər birinə nazil olan kitabların yazılmış olduğu dilin əlifbasındakı hərf sayı qədərdir. Bu ibrani dilində – 22, yunancada – 24, ərəbcədə – 28 və farscada – 32-dir. Bu tədricə görə Allahın vəhylərini təbliğə məmur edilən peyğəmbərlərdən sonuncusu Fəzlullahın özündən qabaq gələnlərə məlum olan hər şeyin mənasını aydın edən açara sahib olduğu aşkarlanır.

Yenə bu səbəblərə görə Quranda mənası bəyan edilməyə möhtac olmayan, yaxud bir şəkildə məna verilə biləcək ayələr (mühkamat) ilə surələrin başında olan müqəttəat kimi, mənası anlaşılmayan, yaxud cürbəcür təhrifə müsait olan ayələr (mütəşəbbihat) təfsir üləmasının əksinə izah edilir. Surələr başlanğıcında gələn qeyri-müqərrər 14 hərfin təşkil etdiyi müqəttəatı hürufilər mühkamat sayırlar və "əsil kəlami-ilahi bu on dörd kəlmədir ki, vəchi adəm ondan fəth olunmuşdur", – deyirlər. İnsan üzündəki xütuti-ümmiyənin hal və mahal etibarı ilə əldə edilən sayı ilə (14) bu müqəttəatı təşkil edən hərflərin sayındakı uyğunluğu iddialarının sübutu kimi göstərirlər. Haza min fəzli rəbbi, zalikə fəzlullah, vallahu zül-fəzli-l-əzim bəyanlarında olduğu kimi Qurandakı fəzl kəlmələrinin hamısından murad Fəzl hürufi olduğunu və insanın üzündə də fəzl adının oxunduğunu deyirlər. Eyni üzdə burnu əlif, iki tərəfi lam, gözləri də ha hərflərinə bənzətməklə insan üzündə yazılmış Allah kəlməsini də oxumağa çalışırlar. Şəriətin əmrinə uyğun olaraq, insanın islamın beş əsas rüknünə iman etməsi bildirildikdən sonra, bu beş rüknün həqiqi mənaları da hürufiliyə görə izah edilir. Kəlimeyi-şəhadət, namaz, oruc, həcc və zəkatı da eyni zorakı şərhlə bu 28 və 32 hərfə müncər edirlər. Kəlimeyi-şəhadət üçün belə şərhlər verirlər: bunda əvvəla Allahın birliyinə şəhadət vardır. Allah sözündə beş ərəb hərfi mövcuddur. Bu hərflərdən hər birinin ayrı-ayrı imlasından 14 ədəd hərf meydana gəlir. Məhəmməd kəlməsi də eyni yoldan, yəni hərflərin mim, ha, mim, dal şəklində yazılmaları ilə yenə bu 14 hərfə gətirilir. İki 14 birləşəndə 28 edir ki, bu da kəlimeyi-şəhadəti verir.

Kəlimeyi-şəhadətin başladığı əşhəd sözündə də dörd hərf var, bunun əlavəsi ilə 32 edir ki, bu da haqqın zatişərifidir. Salat (dua) üçün də eyni təhrif yolu ilə gedərək deyirlər ki: mütəttəatı təşkil edən i, l, r, k, h, ü, a, s, x, m, q və n hərflərinin ərəbcə imlalarında sad hərfindən d, əlif hərfindən **f**, nun hərfindən də **v** olmaqla meydana daha üç hərf çıxır ki, bu surətlə cəmi 17 hərf alınır. Bu da dinc vaxt qılınan namazların fərz rəqətlərinin sayına bərabərdir. Digər tərəfdən səfər namazlarında gündə 14 rəqət fərz namaz qılınır. Bu say da hürufilərə görə hürufi-mütəşəbihatın sayını əvəz edir. Bu on birə farscadakı kaf, je, çim, pe hərfləri əlavə edilərsə, 15 əldə alınır ki, bu da cümə günləri qılınan beş vaxt namazın fərz rəqətlərinin sayıdır. Belə təhrifli izah yolu dinin bütün ümdələrinə, surələrin, ayələrin təfsirinə eyni cürətlə və məntiqi uyğunsuzluqlara əhəmiyyət verilmədən tətbiq edilir.

Hürufiliyin bir sistem olaraq qanunverici əsərlərinin başında məzhəbin qurucusu Fəzlullahın "Kəbir" adlı əsəri durur. Onun yarısı farsca, yarısı Astrabad ləhcəsində yazılmış bu əsərindən başqa, adının "İskəndərnamə" olması mühtəhəl edilən "Ərşnamə" əsəri və "Məhəbbətnamə" adlı mənzuməsi olduğu bəllidir. Türk dilində ən mühüm əsər Firiştə oğlunun "Eşqnaməsi", "Cavidani-kəbir"in tərcüməsidir. Onun "Axirətnamə" adlı əsəri də vardır. Mir Əli əl-Əlanın "Üstüvanamə" və "Məhşərnamə" əsərləri, Viram Abdalın risaləsi, Cavidanın şərhi, bunlardan sonra Rəfiinin "Gəncnamə"si, Pənahinin "Məsnəvi"si kimi mənzum əsərlər də dövrümüzə qədər gəlib çatmışdır.

**HÜSEYN,** Əl-Hüseyn ibn Əli ibn Əbu Talib (626?-680) – Əlinin Peyğəmbərin qızı Fatimədən olan ikinci oğlu, əhl əl-beytdən (Peyğəmbərin ailə üzvləri) olub, Kərbəla şəhididir. O zamana qədər ərəblər arasında adı təsadüf edilməyən qardaşı Həsənin adı kimi babası tərəfindən adlandırılmış və qardaşı ilə bərabər hər ikisinə birdən əl-Həsənin ("iki Həsənlər") də deyilir. Hüseynin uşaqlığı haqqında hədislərdə kifayət qədər məlumat var. Bunlara görə Peyğəmbər Hüseyn doğulduğu vaxt qulağına: "O, cənnət uşaqlarının ağasıdır (seyid)" – demişdir. Peyğəmbər Həsənlə Hüseyni fövqəladə sevirdi. Bir dəfə: "Hüseyn məndəndir, mən Hüseyndəyəm, Allah Hüseyni sevənləri sevər" – demişdi. Üsamə ibn Zeyd bir gecə Peyğəmbəri görmüş və onun: "Bunlar mənim oğullarımdır, qızımın oğullarıdır. Allahım, mən onları sevirəm, sən də onları sev və onları sevənləri sev!" – dediyini rəvayət etmişdir (Tirmizi, əs-Səhih, Qahirə, 1352, c. XIII, s. 192). Bir gün Peyğəmbər Ümm Salmanın evində olarkən Həsən gəldi, onu qucağında sağ tərəfdə oturdu, sonra Hüseyn gəldi, onu qarşısında oturdub, Əlini çağırdı və: "Siz ey (Peyğəmbərin) ev əhli! Allah sizdən çirkinliyi yox etmək və sizi tərtəmiz, pak etmək istəyir – dedi (b a x: **əl-Əhzab, 33**; Tirmizi, c. XIII, s. 200).

Hüseynin uşaqlığı Peyğəmbərin dərin sevgisi içində keçmişdi. Ancaq bu hal çox sürməmişdi. Hüseyn 5 və ya 6 yaşında ikən babası Peyğəmbəri və bir azdan

sonra da anası Fatiməni qeyb etdi. Hüseynin necə boya-başa gəldiyi haqqında əlimizdə məlumat yoxdur. Lakin h. 15 (636)-ci ildə Ömərin xilafəti vaxtında divan təşkil edilib, müsəlmanların alacaqları qulların miqdarı təyin edilərkən, Hüseynə Bədr döyüşünün iştirakçılarına verilən miqdarda pul verildi (**Təbəri,** Tarix-ər-rüsul, c. I, s. 2413). H. 30 (651)-cu ildə Osmanın xilafəti vaxtında Səid ibn əl-Asın Kufədən Xorasana təşkil etdiyi səfərdə Hüseyn qardaşı Həsənlə birlikdə iştirak etdi. Beş il sonra Hüseyni Mədinədə görürük. Xəlifə Osmanın qətli ilə nəticələnən üsyanda Əli Həsənlə Hüseyni xəlifənin evinə göndərdi və əmr etdi ki, evə heç kimi buraxmayıb, onu müdafiə etsinlər (h. 35 – 656). Asilər içəriyə girmədilər, lakin başqa bir evdən keçərək xəlifənin evinə keçdilər və Osmanı şəhid etdilər.

Bundan sonra Hüseyn atası ilə birlikdə Kufəyə getdi və onun bütün səfərlərində iştirak etdi. Atası Əlinin öldürülməsindən sonra (h. 40-661) Hüseyn yenə də ikinci plandadır. Bunun səbəbi bəlkə Əli ölərkən ona Həsənə itaət etməsini deməsidir (b a x: **Təbəri,** c. I, s. 3461). Həsən Kufəyə və kufəlilərə söykənərək əməvilərə üstün gələ bilməyəcəyini anlayıb, müsəlmanlar arasında qanlı ixtilaflara son qoymaq üçün haqqından əl çəkməyi qərara alaraq Müaviyə ilə müzakirələrə başladı. O, qərarını Hüseynə bildirdikdə, Hüseyn etiraz etmək istədisə də, arzu və haqlarına rəğmən səsini çıxarmadı və h. 41 (662)-ci ildə Həsənlə birlikdə Mədinəyə qayıtdı (**Təbəri,** c. II, s. 9). Həsən tutduğu yolu axıradək getdi, hətta ölərkən, bəzi rəvayətlərə görə həqiqətən zəhərləndiyini zənn etməsinə rəğmən, kimdən şübhə etdiyini ondan soruşan qardaşına şübhələrini açmadı: "Allah daha yaxşı intiqam alacaq!" deməklə kifayətləndi (Əbülfərəc əl-İsfahani Məqatil ət-talibiyin, Qahirə, 1949, s. 74).

Bir qədər sonra xilafətdə ortalığa ciddi ixtilaf çıxdı. Təbərinin (c. II, s. 173) yazdığına görə Müaviyə siyasi dühası ilə məmləkətdə sakitlik və asayişi təmin etdikdən sonra h. 56 (676)-cı ildə oğlu Yezidə beyət edilməsini istədi. Yezid, hərəkətlərinə görə fasiq (pozğun) sayılırdı və belə adamın xəlifəliyə namizədliyini qəbul etmək mümkün deyildi. Hüseyn, Abdullah ibn Ömər, Abdullah ibn əz-Zübeyr, Əbdürrəhman ibn Əbu Bəkr və İbn Abbas təbii ki, bunu qəbul etmədilər. Müaviyə ölüb yerinə Yezid xəlifə olduqda (h. 60-680), Mədinə əmiri əl-Valid ibn Utbaya məktub göndərib, nəyin bahasına olursa olsun, o vaxta qədər ona beyət etməyənlərin and içmələrini əmr etdi. Əl-Valid, Hicazda olan əməvilərin böyüyü sayılan Mərvan ibn əl-Həkəmlə danışdıqdan sonra Hüseyn ilə İbn əz-Zübeyri çağırıb Müaviyənin ölümünü xəbər vermədən onları beyətə məcbur etmək istədi. Lakin Hüseyn özü kimi bir adamın gizlicə beyət etməyəcəyini və qərarını ertəsi gün xalqın qabağında bildirəcəyini dedi. Gecə ikən Hüseyn bütün ailə üzvlərini götürüb Məkkəyə yollandı (Rəcəb 60-680; **Təbəri,** II, 220). Yalnız qardaşı Məhəmməd ibn əl-Hənəfiyyə onunla getməyə razı olmadı və Hüseynə də ehtiyatlı hərəkət etməsini tövsiyə etdi.

Kufə xalqı Hüseynin Yezidə beyət etməkdən imtina etdiyini və Məkkəyə

gəldiyindən xəbər tutanda ona dəvət məktubları yazdılar və Əbu Abdullah əl-Cədalinin başçılığı ilə elçilər göndərdilər. Şabas ibn Ribi, Süleyman ibn Surad və Kufənin başqa əyanları da Hüseynə məktub göndərib bildirdilər ki, onlar ona beyət edəcəklər. Hüseyn, vəziyyəti yerində öyrənmək üçün əmisi oğlu Müslüm ibn Aqili elçilərlə Kufəyə göndərdi. O, Kufəyə gəldikdə tərəfdarlarından İbn Avsaca adlı birinin evinə düşdü və Hüseynin adına beyət almağa başladı. 12 və ya 18 min adam ona beyət etdi. Müslüm də bu nəticəni Hüseynə çatdırdı.

Bu arada Yəzidin adamları vəziyyəti ona bildirdilər. Yəzid, Bəsrə valisi Übeydullah ibn Ziyadı həm də Kufəyə vali təyin etdi və Müslümü ələ keçirərək öldürməsini əmr etdi. Übeydullah dərhal Kufəyə gəldi. Müslüm tutulub başı kəsildi və cəsədi xəndəyə atıldı.

Digər tərəfdən, Hüseyn Müslümdən aldığı xəbərlərə güvənərək və Yəzidin onu öldürtmək istədiyini qəti olaraq anladığından, Kufəyə getməyi qərara aldı. Bu fikrini bildirdiyi adamlardan İbn Abbas, kufəlilərə etimadın əleyhinə çıxdı. O, atası və qardaşının başına gələnləri xatırladaraq Hüseyni bundan vaz keçməyə, daha ehtiyatlı olmasını, güclü qalalara malik və xalqı ona tərəfdar olan Yəmənə getməsini tövsiyə etdi (**Təbəri,** II, 274 və s.). Lakin Hüseyn onun bu xeyirxah tövsiyələrini eşitmədi. Yəzidin xəlifəliyini tanımamış olan İbn əz-Zübeyr isə Hicazdakı hərəkətlərində müstəqil qalmaq istədiyi üçün Hüseynə dərhal hərəkətə keçməsini məsləhət gördü. "Mənim bu qədər tərəfdarlarım olsa idi, heç durmazdım!" Sonra Hüseynə Hicazda hərəkət hazırlayacağını və ona beyət edəcəyini vəd etdi. Hüseyn bütün ailə üzvləri ilə birlikdə Kufəyə yola düşdü. Yeni təyin edilmiş Mədinə valisi Əmr ibn Səid əl-Əşdaq gec xəbər tutsa da, Hüseyni geri döndərmədi. Məkkədə Peyğəmbərin nəvəsinin girişdiyi hərəkətlərini doğura biləcəyi faciəli nəticələr hər kəsi təşvişə salırdı. Xüsusən, ailə üzvləri ilə birlikdə getməsinə görə, Abdullah ibn Cəfər ibn Əbu Talib ailənin məhv olmasından qorxaraq, Əmr ibn Səidin yanına gedib, ondan iman istədi və Hüseynin etimad etməsi üçün valinin qardaşı Yəhya ibn Səidi götürdü. Lakin Hüseyn yuxusunda Peyğəmbəri gördüyünü və başladığı işin istər lehinə, istər əleyhinə olmasına baxmayaraq yolundan dönməyəcəyini bildirdi (**Təbəri,** II, 279 və s.). Elə bu vaxt Müslüm Kufədə öldürüldü.

Yolda, əs-Sifahda Hüseyn məşhur şair Fərəzdaq ilə qarşılaşdı (**Təbəri,** II, 277). Vəziyyəti ondan xəbər alanda şair: "Xalqın qəlbi səninlə, lakin qılıncları Bəni Ümeyyə ilədir, qəza isə göydən enəcəkdir" – dedi. Sonra Bəni Əsəd qəbiləsindən iki bədəvi ilə qarşılaşdı. Onlar da xalqın fikirlərindən dönməsini, Übeydullahın Kufədə hakim olduğunu və Müslümün öldürüldüyünü xəbər verdilər. Bu halda Hüseyn geriyə dönməyə qərar verdi, lakin Müslümün qardaşları intiqam almaq və ya ölmək istədikləri üçün qayıtmağa razı olmadılar. Hüseyn yanında olanlara və qoşulmuşlara bildirdi ki, istədikləri vaxt onu tərk edə bilərlər. Çoxları ondan ayrıldılar, Hüseyn təkcə ailə üzvləri və çox az

tərəfdarları ilə birlikdə yoluna davam etdi. Bir azdan sonra Übeydullah ibn Ziyad tərəfindən göndərilmiş qoşunla üz-üzə gəldi. Əl-Xurr ibn Yəzidin rəhbərliyi altında olan min nəfərlik qüvvə onu uzaqdan təqib edir, ancaq nə Kufəyə getməsinə, nə də geri dönməsinə imkan vermirdi. Buna görə də Hüseyn açıq bir qayəsi olmadan şimala doğru getməyə davam etdi.

Übeydullah bu arada üsyan etmiş deyləmiləri dağıtmaq üçün dördminlik bir ordu hazırlamış və Ömər ibn Səid ibn Əbi Vaqqası Reyə vali təyin edərək bu ordunun başçısı qoymuşdu. Əl-Xurr ibn Yəziddən xəbər gəlincə dərhal Ömər ibn Sədə ordusu ilə Hüseynin üzərinə hücum etməsini və məsələni həll etməsini əmr etdi. Ömər ibn Səd bu vəzifəni yerinə yetirməkdən imtina etdikdə, Übeydullah onu vəzifəsindən kənar etməklə, hətta bəzi rəvayətlərə görə, evini yandırmaqla, İraqdakı torpağını müsadirə etməklə hədələdi. Buna görə Ömər ibn Səd vəziyyəti anlamaq üçün möhlət istədi. Ertəsi gün Übeydullahın əmrlərini qəbul etdiyini bildirdi və ordusu ilə Hüseynə hücum etdi. Onlar yaxınlaşarkən Hüseyn yenə yanındakılara gecə ikən dağılıb qaçmalarını tövsiyə etdi. Lakin qardaşı əl-Abbas, oğlu Əli və Aqilin oğulları bu təklifi rədd edərək, həyatlarını xilas etmək üçün onu tərk etmək alçaqlığını heç bir zaman özlərinə rəva bilməyəcəklərini dedilər.

Ömər ibn Səd ordusu ilə gələndə Hüseyn onlara müraciət edərək dönməsinə müsaidə edilməsini istədi. Lakin heç kəs bu sözlərə qulaq asmadı. O vaxta qədər, azacıq ehtimalla olsa belə, ordunun onun tərəfinə keçəcəyinə ümid bəsləyən Hüseyn artıq yalnız Peyğəmbərin nəvəsi olmasına güvənir və heç bir müsəlmanın ona toxunmayacağını zənn edirdi. Lakin onun bütün ümidləri boşa çıxdı. Ömər ibn Səd vəziyyəti Übeydullaha yazdı. O, Yəzidə beyəti təklif etdi və Hüseyni sudan ayırmağı əmr etdi. Ömər də Əmr ibn Həccacı 500 atlı ilə göndərib Hüseynin çayla əlaqəsini kəsdi. Sonra bir neçə dəfə ordu daxilində Hüseynlə baş-başa danışdılar. Heç kim söhbətin mövzusunu bilmədiyi üçün müxtəlif dedi-qodular başlandı. Lakin başa düşmək olardı ki, Hüseyn Yəzid tərəfindən qəbul edilməsi vacib olan son təkliflərini hazırlayırdı. Güman ki, bu təkliflər aşağıdakılar ola bilərdi: gəldiyi yerə qayıtmaq, Şama gedib şəxsən Yəzidə təslim olmaq və ya müsəlman vilayətlərindən birində yaşamaq. Bu təklif Əməvilərin arzu edə biləcəkləri ən müvafiq təklif idi. Ömər ibn Səd təkliflərin qəbul ediləcəyinə və özünün bu ağır vəzifədən azad olacağına sevinib, söhbətin mövzusunu dərhal Übeydullaha çatdırdı.

Übeydullah bu təklifi müvafiq görüb qəbul etdi, lakin bir zaman Siffin döyüşündə Əli ilə yanbayan vuruşmuş Şamir ibn Zül-Cavşan vacib bir fürsətin əldən gedəcəyini deyib onu bu fikirdən daşındırdı (b a x: **Təbəri,** II, 315). Üstəlik də Ömər ibn Sədin Hüseynlə görüşüb danışdığını əlavə etdi. Buna görə Übeydullah, Ömər ibn Sədə məktub yazıb Hüseyni təslim etməyi tapşırdı. Ömər ibn Sədin döyüşə başlamayacaq halda, bu məktubu gətirən Şamiri orduya rəhbər təyin edə biləcəyini bildirdi.

H. 61-ci il məhərrəmin 9-da bu xəbər Ömərə çatanda o, əmrləri yerinə yetirəcəyini bildirdi. Bu vaxt Hüseyn artıq başa düşmüşdü ki, xilas yolu yoxdur. Übeydullahın son qərarı ona bildiriləndə, təbii ki, qəbul etmədi. Yalnız ertəsi günə qədər möhlət istədi. Ömər ibn Səd dedi-qodulardan çəkindiyi üçün bir qərara gəlməyib Şamirin fikrini soruşdu. O da fikrini bəyan etməkdən çəkindi və hamıya müraciət edib fikirlərini bilmək istədi. Nəhayət, təklif qəbul edildi.

O gün Hüseyn yanında olanlara onu tərk etmələrini və onlara izin verdiyini təkrar bildirdi, lakin ətrafı yenə mərdliklə bunu rədd etdi. Bu vaxt çadırda bacısı Zeynəb fəryad edir, döyünür və üst-başını yırtırdı, axırda da özündən getdi. Hüseyn ona ayıldıqdan sonra təsəlli verdi. Gecəni dua, namaz və istiğfar ilə keçirdilər.

Ertəsi gün, h. 61-ci il məhərrəmin 10-da (680-ci il oktyabrın 10-u, cümə) Hüseyn 23 atlı və 40 piyadadan ibarət olan qüvvələrinin sağ cinahına Züheyr ibn əl-Qeyni və sol cinahına Həbib ibn Müzahiri başçı təyin etdi. Bayrağı qardaşı əl-Abbas götürdü və arxalarını çadırlara söykədilər. Hüseyn atına mindi və qabağına bir Quran qoydu. O, atın üstündə orduya yaxınlaşaraq, sonuncu dəfə orduya müraciət etmək istəyirdi. Bu halı görüb fəryad edən bacısını susdurduqdan sonra Allaha həmd etdi və bunları dedi: "Peyğəmbərimizin qızının oğlu, vəsisinin oğlu, əmisinin oğlu mən deyiləmmi? Şəhidlərin ağası Həmzə atamın əmisi deyilmi? Şəhid Cəfər ət-Təyyar əmim deyilmi? Allah elçisinin mənim üçün və qardaşım üçün "cənnət xalqı uşaqlarının seyyidləridir və sünnə əhlinin göz bəbəkləridir, fərəhləridir" dediyini duymadınızmı?" Lakin Übeydullahın adamları şərtlərindən başqa bir şeyə qulaq asmırdılar. Züheyr ibn əl-Qeyn də irəli çıxıb onları məşum niyyətlərindən vaz keçməyə çağırdı. Şamir ona ox atdı və sözləri tamamilə təsirsiz qaldı. Yalnız işin bu dərəcəyə çatacağını gözləməyən əl-Xurr ibn Yəzid peşman olub Hüseynin tərəfinə keçdi. Bu arada Ömər ibn Səd gəlib bir ox atdı və döyüş başladı.

Döyüş bir müddət tək-tək şəxslər arasında cərəyan edirdi, ancaq bu halda çox itki verdiklərini görən Kufə ordusu təkbətək döyüşdən vaz keçib toplu halda hücuma başladı. Bir ara Şamir Hüseynin çadırını yıxmaq istədisə də, Şabas ibn Ribi buna mane oldu. Günortadan sonra Hüseynin adamları azaldıqlarını gördükdə, onun ətrafına yığıldılar və onun qabağında həlak oldular. Yalnız əz-Zahhak ibn Abdullah əl-Mişraqi Hüseyndən izin alıb qaçıb xilas oldu. Döyüşün axırına doğru Hüseyn özü də vuruşmaya girdi. Bu vaxt yalnız üç-dörd adam qalmışdı. Onu bəlkə daha tez öldürə bilərdilər, ancaq rəvayətlərə inanmaq lazım gələrsə, heç kəs öldürücü zərbəni vurmağa cəsarət etmirdi. Şamir bir daha adamlarını hücuma sövq etdi və hər tərəfdən hücum başlandı. Zürə ibn Şarik Hüseynin sağ əlini və omuzunu qılıncla vurdu. O, yıxılıb qalxarkən Sinan ibn Ənas ən-Nəhai ona zərbə endirdi. Sonra atdan düşüb başını və saçlarını kəsdi. Orada olanlar həlak olmuş Hüseyni soyub, hər şeyini götür-

dülər. Bu vaxt Hüseynin vücudunda 33 mizraq və ox, 34 qılınc yarası var idi (bədənində olan qançırlar hesaba alınmadan). Sonra çadırlar və qadınlar qarət edildi, xəstə və yataqda olan Əli ibn əl-Hüseyni də öldürmək istədilər, lakin Ömər ibn Səd və başqaları mane oldular. Çadırdan qarət edilən və qadınlardan alınan şeylər qaytarıldı. Hüseynin tərəfindən 72, düşməndən isə 88 nəfər öldürülmüşdü. Yaralıların sayı daha çox idi.

Hüseynin kəsilmiş başı Kufəyə gətirildiyi zaman Übeydullah əlindəki əsası ilə Hüseynin dodaqlarına toxundu. Orada olan Əbülbərzə əl-Əslami və ya Yəzid ibn Ərqam dura bilməyib, ondan əsasını çəkməsini tələb etdi, çünki Peyğəmbərin bu dodağı öpdüyünü çox görmüşdü (**Təbəri**, II, 370). Übeydullah bu hərəkəti ilə kifayətlənməyərək Hüseynin əsir alınmış zavallı bacısını və qızlarını lağa qoymaq istəmişdi.

Bütün bu hadisələr cərəyan edərkən xəlifə Yəzidin vəziyyəti və onun verdiyi əmrlər tamamilə bəlli deyildir. Sonrakı şiə müəlliflər Hüseynin öldürülməsi əmrini şəxsən Yəzid tərəfindən verilmiş olduğunu qeyd edir və əsil məsuliyyəti onun üzərinə atırlar. Lakin bu fikir ilk şiələrdə yoxdur. Ən qədim mənbələrin hamısı Hüseynin başı Şama gətirildiyi zaman Yəzidin çox mütəəssir olduğunu, gözlərinin yaşardığını və onu gətirənlərə: "Hüseyni öldürməmiş olsaydınız, yenə itaətinizdən məmnun olardım. Allah İbn Sümeyyaya (Übeydullaha) lənət etsin. Vallahi, əgər Hüseynin yanında olsaydım, onu əfv edərdim. Allah Hüseynə rəhmət etsin!" – dediyini, mükafat və ehsan ümidləri ilə başı gətirənlərə bir şey vermədiyini qeyd edirlər. Hüseynin ailəsi gətirildiyi zaman onları belə halda görən Übeydullaha qəzəblənmiş, bütün ailəsi ilə bərabər Hüseynin ölümünə ağlamış və sonra onların bütün ehtiyaclarını təmin edərək Mədinəyə yola salmışdır. Bütün bu rəvayətlər hadisənin məsuliyyətini Übeydullah ilə Şamirin üzərinə qoyur. Ancaq Yəzidin sonradan Übeydullahı əzl etməməsi, göstərdiyi təəssür əsəbiləşməsində səmimi olduğuna şübhə yaradır. Nə olursa olsun, Übeydullah da, Şamir də Hüseynin öldürülməsindən və yanında olan ailə üzvlərinin yox edilməsindən Yəzidin mütəəssir olacağını, qəzəblənəcəyini zənn etsəydilər, Hüseynlə belə rəftar edə bilməzdilər. Heç olmazsa, Hüseyn Yəzidə təslim olmağa razılaşanda bunu ona bildirib, ondan alacaqları təlimata görə hərəkət edərdilər.

Diqqətəşayan olan cəhətlərdən biri də döyüşün gedişatıdır. Üstün qüvvəyə malik olan Ömər ibn Sədin ordusu hər halda Hüseyni sağ-salamat əsir ala bilərdi. Lakin bu qayə ilə hər hansı bir hərəkət edildiyi haqqında kiçik rəvayət belə yoxdur. Bundan başqa, hücumlar şəxsən Hüseynə yönəldilərək, adamları, uşaqlar və qohumları öldürülmədən Hüseyn şəhid edilə bilərdi. Rəvayətlər kimsənin bunun məsuliyyətinin üzərinə götürmək istəmədiyini deməklə kifayətlənirlər. Nəhayət, orada olanlar daha az qan tökərək, heç olmazsa, əllərini Hüseynin məsum uşaqlarının və qohumlarının qanlarına batırmadan bu işdən çıxmağı düşünə bilərdilər. Bunlar, Übeydullahın orada yalnız

Hüseynin bərtərəfləşdirilməsi qayəsi ilə hərəkət etmədiyini, bəlkə daha mənfur planlar hazırlanmasını ehtimal etməyə əsas verir.

Hüseynin bu surətlə şəhid edilməsi, Übeydullaha görə, Əməviləri mühüm bir rəqibdən qurtarmalı idi. Lakin bu hadisə müsəlmanların qəlbində sağalmaz bir yara asdı. Sonralar başlayan bütün müxalifət hərəkatlarında Hüseynin intiqamı səbəb göstərildi. Bu səbəbdən və ya bu bəhanə ilə saysız-hesabsız müsəlmanların qanı töküldü. Şiələr Məhərrəm ayının onunda matəm günü keçirirlər (b a x: **Məhərrəm**). Bu acı hadisə ilə əlaqədar çoxlu şiə və sünni şairlər mərsiyələr yazmışlar.

**HÜSEYNİ**, Hüsayni (cəmi – Hüseyniyun) – Mərakeşdə, Əlinin oğlu Hüseyndən (Peyğəmbərin qızı Fatimədən) gələn şəriflərin ləqəbi.

Həsənilərdən fərqli olaraq Hüseynilər Mərakeşə nisbətən gec gəldilər. Saqaliyun və İraqiyun adı ilə iki əsas zümrə təşkil edirlər.

Saqaliyun (yəni Siciliyadan getmiş olanlar) norman istilası ilə yurdlarından çıxarılmışlar. Əvvəlcə, onlar İspaniyaya sığındılar və oradan Marini sultanı Əbülabbas Əhməd ibn Əbu Səlimin vaxtında (XIV əsrin sonu) Mərakeşə köçdülər. Bunlar Əli ər-Riza vasitəsi ilə Hüseynin nəslindəndir.

Hüseynin İbrahim əl-Murtaza qolundan törəyən İraqiyun zümrəsi Qrenadanın xristianlar tərəfindən zəbtindən sonra İspaniyanı tərk edib Mərakeşdə sığınacaq tapdılar (1492).

# X

**XARİCİLƏR,** Əl-Xavaric (tək – xarici) – islamiyyətin ən qədim firqələrindən birinə mənsub olanlar. Siyasi tarix baxımından məqsədləri (xüsusən Əlinin xilafətinin son iki ilində və Əməvilər dövründə) bir çox vilayətlər əllərinə keçdikcə, fasiləsiz üsyanlar yolu ilə İslam dövlətinin şərqində asayişi pozmaq və ilk növbədə Müaviyənin Əliyə və sonra Abbasilərin Əməvilərə qarşı zəfərlərinin əhəmiyyətini azaltmaqdan ibarət idi.

1. **Xaricilər hərəkatının başlanğıcı.** Məzhəb ayrılığına səbəb olan hadisə, Müaviyənin Siffin müharibəsi (h. 37-ci ilin Səfər ayı – 657-ci ilin iyul ayı; b a x: **Əli ibn Əbu Talib**) vaxtında Əliyə etdiyi bir təklifdən irəli gəlmişdir. Buna görə, müharibəyə səbəb vermiş Osmanın qətli məsələsindən doğulan ixtilafı, "Quran ehkamına görə" həll etmək üçün iki hakim təyin ediləcəkdi. Əli ordusunun istər müharibə yorğunluğundan, istərsə qurranın Quran hökmünün, özlərinin Osmana qarşı açdıqları, onun qətlinə səbəb olmuş qanlı davanın haqlılığını göstərmək üçün, Təmim qəbiləsindən olan döyüşçülərin bir qismi məhkəmənin qurulmasına müxalif oldu. Onlar "hökmün yalnız Allaha aid" (lə xükmə illa li-llah) olduğunu deyərək, ordunu tərk etdilər və Kufədən çox uzaq olmayan Hərura qəsəbəsinə çəkilərək, heç tanınmayan bir döyüşçünü, Abdullah ibn Vəhb ər-Rasibini özlərinə rəis seçdilər. Bu ilk firqəçilər özlərinə əl-həruriyyə və ya əl-mühakimə adını verdilər ki, bu adlar sonrakı xaricilərə də şamil olunmuşdu. Bu kiçik zümrə, bir-birini təqib edən pozğunluqlarda, xüsusən qurranın intizarına tamamən zidd olaraq nəticələnən hakimlər qərarına görə (təxminən 37-ci ilin Ramazan və ya Şəvvalı – 658-ci ilin fevral-martı), getdikcə böyüdü. Aralarında qurranın da olduğu Əli tərəfdarlarının bir qismi, Abdullah ibn Vəhbin qərargahına getmək niyyəti ilə Kufədən gizlincə çıxdılar (xaraca). İbn Vəhb bu vaxt Dəclənin sol sahilində, Fars yollarının birləşdiyi Cuha məntəqəsində (sonralar xilafətin mərkəzi olacaq) kiçik Bağdad qəsəbəsinin olduğu körpü başında qərargah qurmuşdu. Xaricilərə bu adın verilməsi onların möminlər camaatından çıxmış olduqlarına dəlalət edən xüsusi sifətdən çox yuxarıda deyilən Kufədən çıxmışları ilə bağlıdır. İlk xaricilərin başqa bir adı da əş-şurat (tək – şari) – satanlar, yəni Allah yolunda canlarını satanlardır.

Xaricilərin müdhiş təəssübü (fanatizmi), sərt hökmləri və şiddətli hərəkətləri dərhal özünü göstərdi. Əlinin xilafətə iddialarının hökmsüz olduğunu elan etdikləri kimi, Osmanın hərəkatını da qəbahətləyərək, qətlindən dolayı intiqam almaq fikrini də rədd etdilər. Hətta daha da irəli gedərək onların nöqteyi-nəzərlərini qəbul etməyənlərin, Osman ilə bərabər Əlini inkar etməyənlərin kafir və qətllərinin vacib olduğunu elan etdilər. Az sonra, qadınlar da daxil

olmaqla, çoxlarını öldürdülər. Xarici ordusunun əhəmiyyəti, din nəzərində irqlərin müsavatı prinsipini irəli sürmələrindən dolayı, ərəb olmayan qəbilə ünsürləri də özlərinə ilhaqla getdikcə artdı. Müaviyə ordusu ilə üz-üzə gəldikləri zaman, o vaxta qədər döyüşlərdən çəkindiyi üçün üsyançıları qorumaq yolunu tutmuş Əli, sülh vaxtı sona yetişdiyindən, getdikcə bu təhlükəyə müdaxilə etməyə məcbur oldu: xaricilərin qərargahına hücum etdi və Abdullah ibn Vəhb ilə bir çox tərəfdarlarını tələf edərək müdhiş pozğunluğa uğratdı (Nəhrəvan döyüşü, 9 Səfər 38-17 iyul 658). Lakin zəfər Əliyə baha başa gəldi: üsyan tam söndürülmədiyindən bu mücadilə hicri 39-40-cı illərdə kiçik məhəllə qiyamları halında davam etdi. Sonralar Əli özü də Nəhrəvan döyüşündə adamların mühüm bir qismini qeyb edən bir qadının əri Əbdürrəhman ibn Mülcam əl-Muradi adlı bir xarici tərəfindən öldürüldü (b a x: **Əli**).

2. **Xaricilərin Əməvilər dövründəki müharibələri.** Əlidən sonra hakimiyyətə keçən Müaviyənin ağıllı və əzmli idarəsi xaricilərin etdikləri təxribatın qarşısını aldı. Lakin o da şiələrin fəaliyyətini və ehtiraslarını söndürmədiyi kimi, xaricilər hərəkatını da ortadan götürmədi. Mənbələrdən öyrəndiyimizə görə, Müaviyənin 20 illik idarəsi (660-680) müddətində Bəsrədə olduğu kimi Kufədə də üsyanlar başlamışdı. Bunlar xarici şəhidlərin sayını artırdı. Şəhidlərin intiqamını almaq hissi xariciləri fəal mübarizəyə səsləyirdi. Bəsrədə Ziya ibn Əbihi ilə oğlu Übeydallahın valilikləri zamanı üsyanlar daha da güclənmişdi. Əbu Bilal Mirdas ibn Udayya ət-Təmiminin rəhbərlik etdiyi bu üsyanlar xaricilər üçün yeni bir hərəkat tərzini təyin etdi: artıq onların mübarizəsi gözlənilməz döyüş şəklini almışdı və müvəffəqiyyətləri, xüsusən əfsanəvi süvarilərin sürəti ilə bağlı idi. Bu süvarilər birdən toplanır, müdafiəsiz şəhərlərə basqın edir və hökumət qüvvələrinin təqiblərindən sürət hesabına xilas olurdular.

Xəlifə I Yezidin ölümündən sonra baş verən daxili müharibə üzündən əmələ gələn ümumi qarışıqlıq vaxtında xarici hərəkatının əhəmiyyəti artdı, Xilafət iddiaçısı Abdullah ibn Zübeyrin əlinə keçən yerli hakimiyyətin qərarsız hala düşməsinə hər şeydən çox bu keyfiyyət kömək etdi. İbn əz-Zübeyrin süqutundan sonra Əməvi valiləri, qaliblərin olduğu qədər, məğlubların da düşməni olan bu üsyançılarla müharibə etdilər. Məhz bu dövrdə xaricilər arasında yarı siyasi, yarı dini firqələr ayrılmağa başlayır, lakin onların mənşələri tamamilə aydın deyildir. Artıq xilafətin bütün şərq tərəflərində şiddətli xarici üsyanları baş verirdi. Üsyanların başında Əzariqə (Əzraqilər), İbadiyyə və Sufiyyə firqələrinə adlarını verən şəxslər dururdu. Bu hərəkatların içində islam dövlətinin birliyi üçün ən təhlükəlisi, azğın və uzlaşma bilməyən, mahiyyəti baxımından ən müdhişi şübhəsiz Nafi ibn əl-Əzraq üsyanı idi. Bu üsyan xaricilərin Kirman, Fars və başqa Şərq vilayətləri üzərində hakimiyyətini müvəqqəti təmin edərək, Bəsrə və ona tabe olan ərazinin əmniyyəti üçün daim təhlükə törədirdi. Həmin təhlükə, əvvəla, Muhəlləb ibn Ali Sufra, sonra

Həccac ibn Yusuf tərəfindən, Nafi ibn əl-Əzraqın məğlubiyyəti və həm onun, həm də ən böyük üsyan başçılarından biri olan Qatari ibn əl-Fucanın ölümləri ilə nəticələnən və illərcə sürən mübarizədən sonra (698-ci və ya 699-cu il) qismən aradan qaldırılmışdı.

Xaricilərin fəaliyyət sahələrindən biri də, İbn əz-Zübeyrin valiliyi dövründə h. 62 (685)-ci və h. 72 (692)-ci illər arasında Ərəbistan oldu. Başçılardan Əbu Talut, Nəcdə ibn Amir və Əbu Fudəyk bir-birinin arxasınca Yəmamə, Hədrəmaut və Yəmən ilə Taif şəhərini zəbt etdilər. Yalnız dini əndişəyə görə xaricilər müqəddəs Məkkə və Mədinənin fəthindən çəkindilər.

Xaricilər heç bir zaman əsgəri və siyasi hərəkat sahəsində həqiqi birliyə sahib olmadıqları kimi yeganə bir əqidə sistemi də vücuda gətirə bilməmişlər. Onların hamısında müştərək bir nöqtə vardı ki, o da islamiyyətdəki bütün məzhəb ixtilaflarının hərəkət nöqtəsi olan xilafət məsələsi ilə əlaqəsi idi.

**XƏDİCƏ** – Peyğəmbərin arvadı. Qureyşi Əbd əl-Uzza ailəsindən Hüveylidin qızıdır. Bütün rəvayətlər Peyğəmbəri tanıdığı və onu xidmətinə çağırdığı vaxt öz ticarət işlərini idarə edən zəngin bir dul qadın olduğunu bildirirlər. İki dəfə ərə getmiş və bu izdivaclardan uşaqları olmuşdu. Ərlərindən biri Məhzum qəbiləsindən və ikinci Təmim qəbiləsindən Əbu Həla adında kişi olub, əsil adı müxtəlif şəkillərdə qeyd olunur. Bununla bərabər, bəziləri Əbu Həlanı Peyğəmbərin tərəfdarlarından sayırlar. Xədicənin atası ölmüşdü, amma bir rəvayətə görə o, sağ idi və evlənməyə zidd idi. Peyğəmbərin o zaman 25, Xədicənin isə 40 yaşı var idi. Ərəb qadınlarının tez qocalmasına dair məlumat Xədicənin Peyğəmbərdən ən azı beş uşağı olduğuna istinadən (b a x: **Məhəmməd**) gərək doğru olmasın. Arvadının var-dövləti Peyğəmbərə mücadilələri zamanı çox kömək etmişdi. Xədicənin varlı tacirlərin rəqabəti nəticəsində ağır zərərlərə uğraması və rəvayətə görə, hicrətdən üç il əvvəl ölümü, Peyğəmbəri büsbütün taqətsiz bir hala salmışdı. Xədicənin əri üzərindəki şəxsi təsiri də böyük idi.

**XƏLİFƏ** (*ər.* xalifa – varis) – feodalizm və kapitalizm dövründə bəzi müsəlman ölkələrinin hökmdarları.

Birinci xəlifələr ("Raşidun") 632-661-ci illərdə Xilafəti idarə edən və ali dünyəvi və dini hakimiyyətə malik olan Məhəmməd peyğəmbərin varisləri idi (Əbu Bəkr, Ömər, Osman, Əli). Eyni hakimiyyətə Əməvi xəlifələri də malik idilər (661-750). X əsrdən Abbasi xəlifələri müsəlmanların dini başçılarına çevrilib, heç bir dünyəvi hakimiyyətə malik deyildi, lakin sünni müsəlman ölkələrinin ali feodal süzereni hesab olunurdular. 1258-ci ildə Bağdadın monqollar tərəfindən alınmasından sonra, Abbasi xəlifəsi Qahirədə, məmlük sultanlarının yanında ixtiyarsız saray məmuruna çevrilmişdi. 1517-ci ildə Misirin türklər tərəfindən fəthindən sonra, türk sultanları xəlifə ünvanını öz titullarının arasına daxil etdilər və bu ünvanı 1923-cü ilədək, Türkiyə Cümhuriyyətinin təşkilinə qədər daşıdılar. Xilafətin Türkiyədə ləğv olunmasından sonra (1924), xəlifə ünvanını devrilmiş

sultanın bir qohumu daşıyırdı. Bundan sonra Hicazın kralı Hüseyn özünü xəlifə elan etdisə də, lakin o bu ünvanla tanınmadı.

**XƏTTABİYƏ** – qatı şiə (ğulat) məzhəbinin adı. Bu ad, uluhiyyətin imam Cəfər əs-Sadiqə məxsusluğunu (702-705) və onun sonradan özündə təcəssüm etdiyini iddia edən Əbülxəttab Məhəmməd ibn Əbi Zeynəb əl-Əsədi əl-Əcdadan gəlir. Bu adam Kufədə bəzi müvəffəqiyyətlər qazansa da, h. 147 (765)-ci ilə qədər orada bir neçə il valilik etmiş İsa ibn Musanın hücumuna uğramışdır. Tərəfdarlarını daşlar, qarğılar və bıçaqlarla silahlandıraraq, bu silahların qılınclara və mizraqlara qalib gələcəyini söyləsə də, bu vədi boşa çıxmışdır. Onun 70 adamı öldürülmüş, özü də Fərat çayı sahilində ələ keçirilərək yandırılmış və başı Bağdada göndərilmişdir.

Xəttabilərin əqidələrinə dair məlumat çox azdır.

**XİNAYANA** (*sanskritcə* kiçik araba, "xilasın dar yolu" mənasında) – buddizmin mahayanadan fərqləri olan əsas qollarından biridir.

**XNUM** – Qədim Misir dinində Yuxarı Misirdə, xüsusən ölkənin cənubunda, Elefantində sitayiş edilən ilahi. O, dünyanı və insanları dulusçuluq dairəsində yaradan ilahi, münbitlik bəxş edən və Nil çayının məcrasını qoruyan kimi təsəvvür edilirdi. Xnum müqəddəs qoyun kimi və ya qoyunbaşlı təsvir olunurdu. Esnedə Xnumun arvadı ilahə Neyt hesab edilirdi.

**XOMEYNİ** Ruhullah Musəvi (1902-1989) – imam, ayətullah əl-uzma. Xomeyn şəhərində ruhani ailəsində doğulmuşdur. Atası Seyyid Mustafa Xomeyni ali ruhanilik məqamına çatmış bir şəxs idi, 1903-cü ildə sui-qəsd nəticəsində öldürülmüşdür.

Güclü istedada malik olan Xomeyni dini təhsilini alandan sonra biliyini artırmaq üçün 1920-ci ildə Əraka getmişdir. 1922-ci ildə Quma qayıdır və burada 35 yaşınadək təhsilini mükəmməlləşdirib müctəhid dərəcəsinə çatmışdır. Tələbəlik illərindən Xomeyni Rza xanla birlikdə 1921-ci il hadisələrinin fəal iştirakçısı olmuşdur. Sonralar Pəhləvi sülaləsi din xadimlərinin hüquqlarını məhdudiyyətə salanda, Xomeyninin siyasi mübarizəsi şah üsuli-idarəsinin əleyhinə yönəldi. Bu mübarizə 1962-ci ilə qədər davam etdi. Ayətullah Xomeyni şah rejiminin ən böyük müxalifi kimi dillər əzbəri oldu. 1962-ci ilin martında o, həbs edilir və az sonra azad olunur, lakin mübarizəsini davam etdirdiyi üçün yenidən zindana atılır. Bu xəbər xalqa çatanda Tehranda, İsfahanda, Məşhəddə, Təbrizdə, Şirazda, Kaşanda və b. yerlərdə onun azad edilməsi tələbi ilə kütləvi nümayişlər keçirildi. Şah qüvvələri 15 min nəfərlik nümayişi atəşə tutdu. 1961-ci ilin may ayında ayətullah həbsdən buraxıldı, lakin müxalifət fəaliyyətini davam etdirdiyinə görə, 1965-ci ildə ölkədən sürgün edildi. Xomeyni əvvəl Türkiyəyə, sonra isə İraqa gedir. O, 13 il Nəcəf şəhərində yaşamış və oradan İran müsəlmanlarının şah rejiminin əleyhinə mübarizəsinə rəhbərlik etmişdir.

1978-ci ilin yanvar ayında İran qəzetlərində ruhanilər və şəxsən Xomeyni

haqqında təhqiramiz məqalələr dərc olunması ilə ayətullahın rəhbərliyi altında xalqın şah üsuli-idarəsinin əleyhinə üsyanı başladı. 1979-cu il yanvarın 16-da şah İrandan qaçmağa məcbur edilir və fevralın 1-də vətənə qayıdan imam Xomeyni xalq tərəfindən böyük hərarətlə qarşılanır. Hakimiyyət imamın rəhbərlik etdiyi inqilabçıların əlinə keçdi. Martın 1-də imam Xomeyni İran İslam Respublikasının təşkilini elan etdi və on il ərzində ölkəyə rəhbərlik etdi.

1989-cu il iyunun 3-də ayətullah əl-uzma imam Ruhullah Xomeyni vəfat etdi.

İmam Xomeyninin 54 adda elmi, dini, fəlsəfi əsərləri və şeir kitabları var: "Kəşf əl-əsrar", "Misbax əl-hidaya", "Ədəb əs-salat", "Cəhad əkbər", "Kitab ət-təhhara" (4 cild), "Kitab əd-bi" (5 cild) və s.

**XRİSTİANLIQ** – I əsrin ortalarında meydana gəlmiş, IV əsrdə Roma imperiyasının dövlət dininə çevrilmiş və buddizm və islamla birlikdə dünyada ən yayılmış dinlərdəndir.

**XUBİLQAN** (*monqolca* əslini, simasını itirmiş) – lamaizmdə yüksək rütbəli lamaların adıdır. Guya Buddanın və Bodisatvanın yer üzünə növbəti nazil olmaları zaman onlar bu lamalarda təcəssüm olunurlar. Xubilqana dindarlar tərəfindən diri allah kimi sitayiş edilir və onun bütün əməlləri günahsız sayılırdı. Xubilqanların bədənlərinin ifrazatı belə müqəddəs və əlacedici hesab edilirdi.

**XURDE** – lamaistlərdə dua "dəyirman"ı. Taxtadan düzəldilmiş və daxilinə buddist dualardan ibarət silindr yerləşdirilmişdir.

**XUTBA** (*ər.* nitq, moizə) – məsciddə baş molla (imam-katib) tərəfindən cümə günü gündüz namazı vaxtında və böyük bayramlarda (Qurban bayramı, Orucluq bayramı) oxunan dua.

**XÜRRƏMİLİK** – Abbasilər xilafətinə qarşı Azərbaycanda və qonşu ölkələrdə yaranmış təriqət. İslam dövründə meydana çıxmış xürrəmilik, babəkiyyə və məzyədiyyə adlanan iki qola bölündü. Xürrəmiliyin ardıcıllarına "muxəmmirə" (*ər.* "qırmızı geyinmişlər") və ya "surxələm" (*fars.* "qırmızı bayraqlılar") deyirdilər. Tarixdə ilk dəfə yadellilərə qarşı qırmızı geyimdə və qırmızı bayraq altında çıxış edən xürrəmilər olmuşlar. Xürrəmilər icmasını imamlar idarə edirdi. Xürrəmilərin dini etiqadı işıq və zülmətin, yəni xeyir və şərin rəmzi olan iki mənəvi qüvvəyə, inama əsaslanırdı. "Xürrəm" sözünün mənşəyini hələ orta əsr tarixçiləri müxtəlif mənada izah edirdilər. Bəzilərinə görə, bu söz Ərdəbil yaxınlığındakı Xürrəm kəndinin adı ilə, bəzilərinə görə isə "şad, şən, şəhvətpərəst" anlayışları ilə bağlıdır. Onların atəşpərəst olduğunu deyənlər də var. Bəzi tədqiqatlara əsasən "xürrəm" pəhləvicə "xvar" (xur) – "od, günəş" sözü ilə bağlıdır. Xürrəmilər islamın və xüsusi mülkiyyətin əleyhinə çıxır, torpağı kəndlilərə vermək, maddi nemətləri bərabər surətdə bölüşdürmək ideyasını irəli sürürdülər. Məhz buna görə, xürrəmiləri vaxtilə həmin ideyalar uğrunda vuruşmuş məzdəkilərin ardıcılı hesab edirdilər. Xürrəmilik Babək hərəkatının ideyası əsası olmuşdur.

# İ

**İBADƏT,** İbadət (*ər.* ibadanın cəmi) – Allaha tapınma. İbada məfhumuna bu mənada Quranda rast gəlirik (məs., Yunus, 26; əl-Kəhf, 110; Məryəm, 65). Lakin eyni zamanda, bəzi yerlərdə bütlərə tapınma üçün də işlənir (Məryəm, 82; əl-Əhqaf, 5-də olduğu kimi). Bu məfhum bütünlüklə islam şəriətinin birinci qismini özünə daxil edir: bunlar – tahara, salat, zəkat, savm, həcc və bəzən cəhaddır.

**İBADİYYƏ,** Əl-İbadiyyə – xaricilərin əsas qruplarından məzhəb olub, mənsublarına bu gün Oman, Şərqi Afrika və Liviyanın bəzi yerləri ilə Cənubi Əlcəzairdə təsadüf edilir. Bu adı Abdullah ibn İbad əl-Murri ət-Təmimi ilə bağlayırlar. İbadiyyənin başlanğıcını hicri 65-ci ilə aid edirlər. Bu il Abdullah ibn İbadın qatı xaricilərdən ayrıldığını rəvayət edirlər.

**İBLİS** – Şeytana xas ad. Ehtimal edilir ki, bu söz *yun.* diabolosun pozulmuş şəklidir. İblisə şeytan, Əduvv Allah ("Allahın düşməni"), əl-Əduvv ("Düşmən") adları da verilir. Lakin şeytan təkcə ismi-xass deyil. O, Quranın xüsusən, Adəmə dair ilk qissələrdə (əl-Bəqərə, 31 və s., əl-Əraf, 11; əl-Hicr, 31 və s.; əl-Kəhf, 50; Taha, 115 və s.; Sad, 74 və s.) Adəmin yaradılmasına müxalifətdə olduğu və cənnətdə Həvvanı yanlış yola sövq etməsi ilə dolayı görünür. Allah Adəmi torpaqdan yaradıb, ona həyat ruhunu üfürdükdə, mələklərə Adəmə səcdə etmələrini əmr etdi. Yeganə etiraz edən İblis oldu, çünki o, atəşdən yaradılmış olduğu üçün, özünü üstün hesab edərək, torpaqdan yaradılan Adəmə səcdə etməyi özünə sığışdırmırdı. Məhz buna görə də cənnətdən qovuldu.

**İBN EZRA,** Avraam ben Meir (1092-1167) – Toledoda doğulmuş yəhudi filosofu, neoplatonik və şair. İbn Ezra Əhdi-Ətiqin birinci rasionalistik tənqidçilərindən idi. O, üstüörtülü cəsarətli fikirlər söyləyərək təkid edirdi ki, Tövrat Musa tərəfindən yazıla bilməzdi, çünki bu əsərin mənşəyi daha sonrakı əsrlərə aiddir. İbn Ezranın bu fikri yalnız XVII əsrdə E.Spinoza tərəfindən açılıb inkişaf etdirilmişdir. Şeirlərində İbn Ezra öz azadfikirliliyini daha açıq bəyan edir, dini tərki-dünyanı (asketizmi) rədd edib, təbiəti öyrənməyə çağırır və insan zehninin ucalığını tərənnüm edirdi.

**İBN RÜŞD,** Əbülvalid Məhəmməd ibn Əhməd (latınlaşmış adı Averroes; 1126-1198) – böyük ərəb filosofu. Kordovada doğulub, Mərakeşdə vəfat etmişdir. İbn Rüşd orta əsr aristotelizmində materialistik elementləri inkişaf etdirən və öz fəlsəfi sistemini yaradan dərin mütəfəkkir idi. Allahın varlığını təsdiq edərək, İbn Rüşd onu maddənin xaliqi hesab etmirdi və öyrədirdi ki, maddə əvəzsiz, əbədidir və yox ola bilməz. Onun təlimi üzrə, hərəkət maddə kimi əbədidir, heç kəs tərəfindən dayandırıla bilməz və özü də maddənin iqti-

darıdır. Maddi dünyada zərurət hakimlik edir və Allah da buna tabedir. Dünyanın Allah tərəfindən yaradılmasını qəbul etməyərək, o, axirəti, ölüb-dirilməni və qiyamət gününü inkar edirdi. İbn Rüşd hesab edirdi ki, insan ruhu bədənlə sıx əlaqədə olub ondan ayrılmazdır və fərdi olaraq ölməz deyil. Ölməz bütünlüklə bəşəriyyətdir, onun ümumi idrakı, kollektiv idrak bütün insan nəsillərinin zehni fəaliyyətidir. İnsan dərrakəsi həqiqəti dərketmə qabiliyyətindədir. İbn Rüşd öz dövrü üçün proqressiv olan "ikili həqiqət" nəzəriyyəsinin yaradıcılarından biri idi. Buna görə elmi-fəlsəfi fikrin nailiyyətləri dini nəzəriyyələrlə uyğunlaşmaya, düz gəlməyə də bilər. Öz məşhur "Təkzibin təkzibi" əsərində İbn Rüşd müsəlman ortodoks ilahiyyətçi, "Filosofların təkzibi" obskurant əsərinin müəllifi və islamda "möminliyin rüknü" sayılan Qəzalinin mühafizəkarlığı və mistisizmi əleyhinə qətiyyətlə çıxış edib. İbn Rüşdün nəzəriyyəsinin Avropa ölkələrində fəlsəfənin inkişafında böyük və faydalı təsiri olub. Müsəlman və xristian din xadimləri onun əleyhinə mübarizə aparıblar.

**İBRAHİM** – Bibliyada, Tövratda (Kövn kitabında – Avraam) və Qurani-Kərimdə adı çəkilən əfsanəvi ulubaba. İbrahimin əfsanəsində yəhudi din xadimləri yəhudiləri Allah tərəfindən seçilmiş ümmət kimi qələmə verirlər. Bibliyaya görə, Allah İbrahimlə saziş bağlayıb ki, onu itaətkarlığı əvəzində ("qabağımda gəz və qüsursuz ol") "böyük millət" atasına çevirəcək (Kövn, XVII, 10-14). Yəhudilərin İbrahimi özlərinin ulu babaları və möminliyin nümunəsi hesab edirlər (Kövn kitabında deyilir ki, İbrahim hətta öz varis oğlunu Allaha qurban etməyə hazır idi). Tövrat əfsanəsinin meydana gəlməsindən qabaq İbrahimə qəbilə başçısı kimi ehtiram edilirdi.

**İBRAHİM İBN ABDULLAH** (715-763) – Əlinin nəvəsi Abdullah ibn əl-Həsənin oğlu. Onu qardaşı Məhəmməd ilə bərabər, gələcəkdə xilafət məqamını işğal etmək düşüncəsi ilə böyütdülər. Bu təsir altında onlar Abbasi hakimiyyətini qəsbkar hesab edirdilər ki, bu da həqiqət idi. Çünki rəvayətə görə, Əbu Cəfər, Əməvilərin süqutundan qabaq Məhəmmədə xəlifə sifəti ilə beyət etmişdi. Buna görə, xəlifə Əbu Cəfər üçün hər iki qardaş təhlükəli idi. Onlar təqib edildilər və gizlənmək üçün Məhəmməd Mədinəyə, İbrahim isə Bəsrəyə getdi. Məhəmməd 762-ci ildə üsyan bayrağını qaldırdıqdan sonra, İbrahim də Bəsrədə qardaşına qoşulub üsyan qaldırdı. Əvvəlcə vəziyyət pis olmadığından xəzinəni ələ keçirərək ordu təşkil edib, Əhvazı, Farsı və Vasiti ələ keçirdi. Lakin 762-ci il dekabrın 6-da qardaşı Məhəmmədin Mədinədə şəhid olmasının qara xəbəri gəldi. Xəlifə ordusunu Mədinəni alandan sonra İraqa göndərdi və 763-cü ilin fevralın 14-də Kufənin cənubunda bu ordu İbrahimin əsgərlərilə üzləşdi. Əvvəlcə, İbrahim üstün gəlirdi, lakin sonra döyüşün gedişi dəyişdi və İbrahim bir neçə yara alıb döyüş meydanında həlak oldu. Onun başını kəsib xəlifəyə göndərdilər. Ailəsinin bir çox üzvləri kimi İbrahim şəxsən igid adam olmaqla bərabər ruhən kövşək və idealist idi.

**İD ƏL-ƏDHA** (eyni zamanda id əl-qurban və ya id əl-nahr), "Qurban bayramı" və ya əl-id əl-kəbir, "böyük bayram" – hacıların Minada qurban kəsdikləri (b a x: **həcc**) 10 Zülhiccə ilə ondan sonrakı üç gündə, əyyam ət-təşriq keçirilir. Hələ qədim ərəblərdə də mövcud olmuş bu qurban kəsmək adəti, islamiyyətdə yalnız hacılar üçün deyil, həm də sünnə olmaq ləyaqəti ilə birlikdə bütün müsəlmanlara şamil edilmişdir (qurbanın ancaq nəzir halında yerinə yetirilməsi məcburi – vacib bir mükəlləfiyyətdir).

Bu sünnə (müəqqədə əla-l-kifayə), azad olan və qurban etmək üçün bir qurban almaq imkanı olan hər müsəlmana şamildir. Qurbanlıq heyvanlar erkək qoyun (adambaşına bir baş), dəvə və ya öküzdür (yeddi kişilik bir dəstəyə bir baş). Bunlar müəyyən yaşda olmalı və bir gözü kor, topal və başqa naqislikləri olmamalıdır. Bunlar səlat əl-id ilə başlayan və üç gün davam edən əyyam ət-təşriqin üçüncü günəşin batması ilə qurtaran müddətə kəsilir. Qurban kəsənə bunlar tövsiyə edilir: 1) təsmiyə, bismillah çəkmək; 2) səlat əla-n-nəbi, peyğəmbərə salavat gətirmək; 3) Qibləyə yönəlmək; 4) təsmiyədən əvvəl və sonra təkbir gətirmək; 5) qurbanın qəbul edilməsi üçün dua etmək. Qurbanın bir hacətin, nəzirin nəticəsi kimi kəsildiyi halda, qurban kəsən ondan heç bir tikə yeməməli, hamısını paylamalıdır. Əgər qurban səbəbsizdirsə, qurban kəsən qurbanın üçdə birini istifadə edir, qalanını paylayır.

**İD ƏL-FİTR**, "orucun açılması" – Ramazan bayramı və ya əl-İd əs-sağır ("kiçik bayram") və ya şəkər bayramı. Şəvval ayının birinə və sonrakı günlərə düşür. Əgər müsəlman zəkat əl-fitri Ramazan ayı qurtarmadan verməmişsə, ən gec Şəvvalın birində verməyi ona vacibdir. Zəkatını (fitrə) bu gün camaat ilə qılınan bayram namazından əvvəl verməlidir.

**İDDƏT**, İddə (*ər.*) – dul və ya boşanmış qadınların evlilik bağı açılandan sonra, yenidən evlənmək üçün gözləmək məcburiyyətində qaldıqları şəri möhlətdir. Dul qadınların tabe olduqları iddə, şəriətə görə, dörd ay on gündür (b a x: **Quran**, əl-Bəqərə, 234). Qədim ərəblər iddəti daha davamlı yas vaxtına salırdılar. O zamankı adətlərə görə dul qadın çadıra qapanmağa, orada bir il qalmağa məcbur idi. Bu müddətə yuyunub təmizlənməzdi.

**İDRİS** – Quranda adı iki yerdə zikr olunur (Məryəm, 56 və s.): "[Ey Məhəmməd!] Quranda İdrisi yad et. O, həqiqətən, həddindən artıq doğru danışan bir zat – bir peyğəmbər idi. Biz onu yüksək bir məqama (cənnətə, yaxud dördüncü göyə) qaldırdıq" və əl-Ənbiya surəsi, 85-də İsmail və Zül-Kifl ilə birlikdə, səbir edənlərdən (sabirun) biri kimi yad edilir.

**İHRAM** – 1) Kətan və ya pambıqdan, altdan biçilməmiş iki parçadan ibarət olan müsəlman zəvvarın geyimi. Parçanın birisi baldırlara sarılır, digəri birinciyə qabaqdan və arxadan bənd edilir, zəvvarın sol çiynindən aşırılaraq sinəsini və kürəyini örtür. İhramın ilkin vəzifəsi keçdiyi yerlərin əhalisinə gəlişin dinc məqsədini göstərmək idi.

2) Məkkəyə və onun ətraflarına böyük və ya kiçik ziyarət vaxtı (həcc və ümrə) islamın müsəlman üçün təyin edilən xüsusi halı (vəziyyəti). İhram halında qanlı vücud öldürülməsi, bitkilərin torpaqdan çıxarılması, ağac və kolların sındırılması, saç və dırnaqların tutulması, üzün qırxılması, kef çəkmə və s. qadağandır.

**İXVAN ƏS-SƏFA,** İxvanas-safa (*ər.* Paklıq qardaşları) – X əsrin ikinci yarısında (h. 373-983) qatı şiə, daha doğrusu, ismaili təmayüllü siyasi-dini bir birliyin varlığına şahid oluruq. Mərkəzi Bəsrə olan bu birliyin üzvləri öz aralarında bir-birinə "İxvan əs-səfa deyirdilər. Çünki qayələri qarşılıqlı yardımetmə sayəsində, bütün vasitələr və xüsusən təmiz, pak əməllərlə, ölümsüz ruhlarının xilasına çalışmaqdır. Siyasi fəaliyyətləri haqqında heç bir məlumatımız yoxsa da, nəzəri olaraq əxlaqın saflığı üçün sərf etdikləri cəhd sayəsində ensiklopedik mahiyyətə və öz birliklərinin hədəflərinə görə işlənmiş bir sıra risalə təlif etdiklərini bilirik. Risalələrin məzmunu tamamən elektrik bir mahiyyətdə olub, əsas nöqtəsini, dünyanın ilahi mənşəyi və ruhun Tanrıya qayıtması əqidəsi təşkil edir. Necə ki, sözlər danışanın ağzından çıxmaqda, işıq günəşdən gəlməkdədirsə, dünya da Tanrıdan tökülməkdədir; əvvəla, Tanrıdan vəhdəti və ondan dərəcə-dərəcə, 2-ci olaraq ağıl, ağıldan 3-cü olaraq nəfs və bundan 4-cü ilk maddə, ondan 5-ci təbiət, ondan 6-cı cisimlər, ondan 7-ci fələklər aləmi, ondan 8-ci ünsürlər aləmi, ondan 9-cu ünsürlərdən qurulmuş mədənlər, nəbatlar və heyvanlar çıxar. Maddə, bu tökülməkdə, təcəssümün və hər cür şər və nöqsanın əsası kimi görülür. Fərdi ruhlar, aləmşümul ruhun bir parçasıdır. Necə ki, aləmşümul ruh, qiyamət günü Tanrıya qayıdacaqsa, fərdi ruhlar da, bədənin zəif olması ilə, eləcə də, aləmşümul ruha qayıdacaqlar. Saflıların ölümünə kiçik, aləmşümul ruhun xaliqinə qayıdışına da böyük diriliş (bəs bəd əl-mövt) adı verilir.

Təmtəraqlı xitabət üslubu ilə yazılmış və bir çox təkrarlar ilə dolu olan saflıların bu 52 risaləsinin hamısı, heç olmasa xarici baxımdan, elmlər ensiklopediyasına bənzəyir. Birinci hissədəki 14 risalə, riyaziyyat və məntiq başlanğıcından; ikinci hissənin 17 risaləsi təbii elmlərə və nəfis elmə; üçüncü hissənin 10 risaləsi metafizika və axırıncı hissənin 11 risaləsi sufilikdən, astronomiya və sehrdən bəhs edir. Dördüncü hissənin bir risaləsində birliyin mahiyyət və təşkilatından da söhbət gedir.

**İKONA,** surət (*yun.* enkon, hərfən – təsvir, görkəm, surət) – dində sitayiş edilən ilahilərin, müqəddəslərin və başqa fövqəltəbii vücudların bədii (nadir hallarda qabarıq) təsviri. İkonalara sitayiş pravoslav, katolik, buddizm və lamaizm dinlərində yayılıb.

**İQBAL MƏHƏMMƏD** (1873-1938) – hindistanlı liberal xadim, islamın islahatçısı, şair (urdu və pəncabi dillərində). İqbal "islamda dini məfkurəni islah edib təmizləməyə" cəhd edirdi ki, onun cəmiyyətin sosial-siyasi inkişafına təsiri daha da güclü olsun. X əsrin əvvəlində o, Hindistan müsəlmanlarının müstəqil dövlətinin yaranması ideyası ilə çıxış edirdi və bu niyyət Hindistanın

bölünməsi və Pakistanın yaranması ilə nəticələndi. İqbal "Rusiyanın ateist kommunizmini" pisləyirdi.

**İLYAS** – Tövratda adı çəkilən İlya (Elia, İliya) peyğəmbər. Quranda adı iki dəfə çəkilir. VI (əl-Ənam) surənin 85-ci ayəsində, Zəkəriya, Yəhya və İsa ilə birlikdə, təfsilatsız əməli-salehlərdən biri kimi adı çəkilir. XXXVII (əs-Saffat) surənin 123-130-cu ayələrində adı bütün peyğəmbər qissələrinin ştampına uyğun çəkilir.

**İMAM** (*ər.* qabaqda duran, cəmi aimmə) – Quranda yeddi dəfə tək, beş dəfə cəm haqqında rastlanır və nümunə, işarə, misal və rəhbər mənalarını ifadə edir. Adi həyatda elmi istilah olub üç müxtəlif mənası vardır: 1) Camaat ilə namaz qılan hər möhtərəm müsəlman, namazın ədəb və ərkanını kifayət dərəcədə bilirsə, imamlıq vəzifəsini ifa edə bilər. Əvvəldən qərar verilməmişsə, bu şərəf camaatın ən savadlı və ya ən hörmətli üzvünə düşər. Lakin adi məscidə malik olan camaat, haqqını verməklə ayrıca şəxsi, din elmini bilməsi şərti ilə bütün namazlara imamət etməyə təyin edə bilər. İmamlıq (imama) nə bir sənət, nə də bir rütbədir. İmam namazda imamət etdiyi müddətdə imam sayılır. İranlılar imam üçün pişnəmaz terminini işlədirlər. 2) Yalnız sünnilər imam istilahını, islamın ən qabaqcıl alimləri, məs., sünni məzhəblərin müəssisləri üçün işlədirlər (İmam Əbu Hənifə, əş-Şafei, əl-Qəzali və b.); 3) İmam istilahının şiələr tərəfindən istifadəsi o qədər çox, o qədər müxtəlifdir ki, burada bütün şəkilləri yada salmaq mümkün deyil. İmam məfhumunun təkamülü və inkişafı çox uzun və çox qarışıqdır. Burada şiə məzhəblərinin razılıq etdikləri mərkəzi fikir Əli ibn Əbu Talibin nəslindən birinin islam aləminin ən yüksək hakimi olmasıdır. Başqa bütün fikirlər uzun və ağır münaqişə mövzularıdır.

İmam anlayışının ilk dərəcəsi Zeydilərdə ən təmiz qalmış şəkli, əvvəla imamət namizədlərindən özünü Əlinin oğulları Həsən və Hüseynə qədər olan nəsəbin vacibliyidir. Bu namizəd lal ola bilməz. Vücudda və ağılda naqis olmalıdır, dində və kəlamda məlumatlı olmalı, rəhbərlikdə ümumi istedada malik olmalıdır. Özü, ya onun tərəfdarları tərəfindən seçilir, ya da imaməti silah qüvvəsi ilə alır. Zeydilər, başqa bütün şiə məzhəblərinə müxalif olaraq, eyni zamanda qanuni bir çox imamların ola biləcəyinə və bəzi vaxtlar heç bir imam olmayacağına inanırlar.

Bundan sonrakı dərəcə, ilk isnə əşəriyyə və islamiliyə fikirlərini əks etdirir. Burada imam termini, əsas etibarı ilə xəlifə termininin sinonimidir və yalnız ilk xəlifələrə deyil, hətta onlara görə Allahı dananlar sayılan Əməvi və Abbasi xəlifələri üçün "saxta imam" şəklində işlənilir. Həqiqi imam vəzifəsi, bu dərəcədə peyğəmbərlərin nəbiliyinin davamı və bəşəriyyətin bundan sonra sövq və iradəsi şəklində ilahi bir vəzifə kimi qəbul edilir. Bundan dolayı müəyyən bir zamanda yalnız bir qanuni imam olacaq, yəni Əlinin və arvadı Fatimədən gələn Peyğəmbərin doğrudan-doğruya nəslindən biri bu mövqeyi tutacaqdır. Bu vəziyyətdə həmin imam, Əlinin və

qabaqkı imamların qanuni xələfi sayılır. Bu mənsəb ona yalnız irsən və öz atası tərəfindən xüsusi bir təyin ilə (nass) keçir. Bu imam bütün islam aləmi üzərində dünyəvi hakimiyyət haqqından başqa, islamın on yüksək ruhani rəhbərlik səlahiyyətinə malik olur. Bu ruhani rütbə islam dininin batini cəhətini bilən tək zat olmasından gəlir. Peyğəmbər, bu batini cəhətləri səhabələri arasında başa düşən adamlar tapmasından dolayı, öz yaxın yoldaşı, qohumu və dostu olan və özünə daim qardaşlıq etdiyi Əli ibn Əbu Talibə açmışdı. Həqiqi imam bu gizli elmi öz əcdadından miras olaraq alır və bundan dolayı, yalnız şəxsinə məxsus bir hörmətinə görə və Quran ilə hədislərin qəti təfsirini ifa etməyə qadir olur ki, bu təfsirlər üzərində islamın hüquq sistemi qurulmuşdur. Bu işlərdə imam, Cənabi haqqın xariqülade sövq və iradəsinə dayandığı üçün (təyid), məsum (məsum), yəni qəbahətsizdir. Bəzən onun hərəkəti nə qədər yanlış görünsə də, yenə məsum hesab olunur, çünki sadə və adi fanilər onun hərəkətlərinin yüksək səbəblərini bilməzlər.

İmamət nəzəriyyəsinin ən mühüm kövni qüvvət yol göstərən ilahi nurudur ki, o, əzəldən bəri davam edir və xilqətin alətidir. Bu qüvvətin hamisi olan imamlar, bir-birini fasiləsiz və fasilə qəbul etməyəcək bir tərzdə, təqib edirlər. Onlardan biri daim dünyada mövcuddur. Dünyadan imam bir dəqiqə belə ayrılarsa, aləm məhv olar. İmamın rolu, ümumiyyət etibarilə, sufi camaatındakı pir və mürşüdün rolu ilə eynidir. Yalnız onun dəlalətinin köməyi ilə həqiqət bilinir, yəni nicat əldə edilir. Daimən aləmə yayılan imamlıq nuru ilə Peyğəmbərin, yaxud səhabələrinin vəzifələri ikinci dərəcədə əhəmiyyətli olurlar.

Bu mənada islam dövründə ilk pir Əli idi. Nə qədər o, görünüşə görə, Peyğəmbərin şagirdi idisə də, imam ilə Allahın arasındakı münasibət bu nəzəriyyədə, az-çox xristian ilahiyyatındakı İsa ilə Allah arasında münasibətin eynidir və bu bir çox mistik rəmz və kinayələrə zəmin olmuşdur. Bu mərhələyə şiələrə xas yeni idrak deyilə bilinər. Nə qədər alim ilahiyyatçılar bunu yaxşı qarşılamasalar da, hər halda böyük şiə kütlələrinin ideologiyası olub, yalnız ən qatı sufilərə deyil, ismaililərə də təsir etmişdir.

İmamət nəzəriyyəsinin bir çox şəkillərindən müxtəlif şiə məzhəblərində yalnız ikisi daha çox yanlış anlaşılmışdır: bunlardan biri imamın ruhunun vücuddan vücuda keçməsinə və onun təkrar vücuda gəlməsinə etiqaddır. Lakin şiələrin böyük əksəriyyətinin bunlarla əlaqəsi yoxdur.

Digər bir məsələ də, imamın möcüzə göstərib göstərməyəcəyi məsələsidir. Bu nöqtədə xalq etiqadı qayət möhkəm olub, imamlardan özlərinin ilahi tərəfindən göndərilmiş olduqlarını sübut etmək üçün möcüzə gözləyirlər. İmamlar belə fikirləri qətiyyətlə rədd edirlər (b a x: **İsnə Əşəriyyə**).

**İMAMƏT** – b a x: İmam.

**İMAMİLƏR** – b a x: İmam və **İsnə Əşəriyyə.**

**İMAMZADƏ** – imamların nəslinə verilən farsca ünvandır.

İMAN

**İMAN** – Əmi kökünün əsas mənası "əmin-amanlıq", "asudəlik" və "qorxu qarşısında əmniyyət". Dördüncü babı "qorxusuz etmək" mənasına gəldiyi kimi, "bir şeyə və ya birisinə inanıb güvənmək" mənasına da gəlir. Bu etibarla, əl-iman elmi kəlamda bunları ifadə edir: 1) Allaha, Rəsuluna və onun nəbiliyinə və 2) bu nəbiliyin mühtəvasına inanıb, güvənmək. Bu iki mənadan birincisi üzərində əsaslı şəkildə durmaq üçün, ümumiyyətlə, üç vəziyyəti nəzərə almaq lazımdır:

1. Quran, iman və islam arasında bəzən bir fərq görür, lakin əksər hallarda bu iki sözü eyni mənada işlədir. Bu saleh əməllərə (amal-i salih) olan münasibətləri baxımından iki mənalıdır. Kəlamçıların hədislərdə izləri görünən münaqişələri bundan irəli gəlir. İman sözünün istilah kimi işlənməsinin fiqh və kəlamda bir-birinə zidd olması da yenə bundan dolayıdır. Bir hədisə görə, qəlbində bir misqal imanı olan kimsə cəhənnəm atəşindən xilas olacaq. Lakin buradakı imanın mənası nədir? Bəzilərinə görə, bu daxili və sağlam bir inancdır (əqd bi-l-qəlb), bəziləri buna dil ilə iqrarı (şəhada bi-l-lisan) əlavə edirlər, başqa bəziləri də, üçüncü bir ünsürün olmasını şərt kimi əlavə edirdilər: bunlar, imanın beş ana şərti olaraq göstərilən əməllərdir (amal bi-l-ərkan). Birinci təfsir əşari və maturidilərin əksəriyyətinin görüşüdür. İkincisi, hənəfilərin, üçüncüsü də xaricilərin təfsiridir. Kərramilərə görə, iman dil ilə təsdiqdən (təsdiq bi-l-lisan) ibarətdir. Yəni bir iqrardır və dolayısı ilə də, dar mənasında islam sözünün sinonimidir. Başqaları, məs., cəbəriyənin qolu olan cəhmilərə görə, iman sadəcə ağıl yolu ilə əldə edilən bir mərifətullah (mərifə) və peyğəmbərlərə gələn nəbiliyin vəhy yolu ilə iqrarıdır. Sünnülər, hər zamankı kimi, sələflərinin (əs-sələf) nöqteyi-nəzərinə əsaslanaraq imanın səmimi bir inanc olaraq qəbul və təsdiq, buna etiqad etməkdən sözlə iqrarda olmaqdan və xeyir işləməkdən ibarət olduğunu iddia edirlər (b a x: **əqidə**). İkinci ünsür dar mənada islamdır. Bununla bərabər, təsdiq və islama sahib olub və sağlığında işlədiyi təkcə bir böyük günaha (kəbirə) tövbə etmədən ölən kimsə, mötəzililərə görə nə mömin, nə də kafir deyildir, lakin fasiqdir və əbədi olaraq cəhənnəmdə yanacaq. Bu axırıncı nöqteyi-nəzərdə xaricilər mötəzililər ilə birləşirlər. Lakin onlara görə, bütün günahlar böyük günahlardır. Sünnülərdə fasiq yuxarıda təsvir edildiyi şəkildə göstərilməklə bərabər, onun cənnətə girəcəyinə ehtimal verilir, çünki günahlar möminlər üçün atəş, cəhənnəm olmayıb, onu pak edən bir atəşdir. Mürcilər bu görüşün tamamilə qarşı tərəfindədirlər. Bu təriqətin islamiyyətin ilk dövründə zühuru, müsəlman olduqlarını deyib, eyni zamanda açıqca pis əməllər işləyənlərə də müsəlman gözü ilə baxmalarından irəli gəlir. Xaricilər, belə kimsələri, qeydsiz və şərtsiz kafir adlandırırlar. Buna müqabil mürcilər, Allah tərəfindən bütün sirlərin faş edilməsinə qədər qərarı "təxirə" salmağı və müsəlman gözü ilə baxmağı üstün tuturdular.

Bu və ya başqa şəkildə və bir dərəcəyə qədər, islamiyyət bu nöqteyi-nəzəri qəbul

etdi. Üzlərini qibləyə çevirib namaz qılanların hamısı, sorğusuz-sualsız müsəlman sayılacaqlar. Son olaraq islam olduğunu iqrar edən və müsəlman kimi hərəkət edən, yəni islamlığın ibadətə aid xarici əməllərinə riayət edən, lakin daxilindən imansız olan kimsənin vəziyyəti gəlir. Bu kimsə münafiq və münkiridir. Bu münasibət ilə bunu xatırlamaq lazımdır ki, "itaət" (taa) və "yaxşı hərəkətlər" (əməli salehə) islamiyyətdə ilk dəfə olaraq ibadət qaydalarına (əl-ibadat) uymaq mənasına gəlirdi.

2. İman artıb əksilərmi? Quranda imanın artırılmasından çox bəhs edilir və cəddlərin fikrinə görə, itaət imanın qüvvətlənməsinə, itaətsizliyin isə zəifləməsinə səbəb olur. Əməli-saleh imanın əsasında olmadığı kimi, ona təsir də edə bilməz. Bəlkə kəmiyyət baxımından onu çoxaldan əlavələr kimi nəzərə alına bilər. Bunun tərsinə olaraq itaətsizlik hərəkətləri imanı kəmiyyət baxımından azaldır, lakin onun əsası dəyişmədən qalır. Buna görədir ki, Peyğəmbər misqal ağırlığında imandan bəhs etmiş və bununla imanın ölçüsünün dəyişə biləcəyini açıq ifadə etmişdir. İmanın təsdiq və əməli-salehdən ibarət olduğuna inananlar, onun artıb-əksilə biləcəyini irəli sürürlər, halbuki imanı sadəcə təsdiqdən ibarət sayanlar deyirlər ki, onda kəmiyyət söhbəti mövzu ola bilməz.

3. Ta başlanğıcdan bəri, sadəcə: "Mən mömınəm" ("ənə mumin") deyib, buna inşa Allah qeydini və bundan başqa haqqan, ya da İndəllah sözlərini əlavə etməyənlərə qarşı nifrət bəslənirdi (məs., Qəzali, İhya ülum əd-din, II, 4-cü fəsil, 3-cü məsələ). Bu etibar ilə, əşarilər ilə şafei, hənbəli və məlikilərin əksəriyyəti, **in şa Allah** qeydinə əlavəsini istəyir, halbuki məturidilər və hənəfilər bunu qadağan sayır və sadəcə haqqan sözünün əlavə edilməsinə kömək edirdilər.

**İMRAN** – Tövratda Amramdır. Yişhər ibn Qahis ibn Lavinin oğlu olan İmran, Yuhabid ilə evləndi və 70 yaşında ikən bu qadından oğlu Musa dünyaya gəldi. O, 137 yaşında öldü (Xuruc, VI, 18-20). Bu hekayə, Tövratdakı hekayədən bu nöqtədə ayrılır: Tövratın rəvayətinə görə, Amram Kehatın oğlu, Yizharın qardaşıdır və 127 yaşına qədər yaşamışdır. İmran Misirin baş vəziri oldu və o hər gecə Fironun yatağı başında növbədə durmalı idi. Bir gecə Fironun sarayında onun arvadını qanadlarında aparan bir quş gördü və elə bu an arvadına qarşı eşqi alovlandı və onunla cinsi əlaqədə oldu. Bundan sonra quş, Fironun sarayı qabağında duran min qarovulçuya görünmədən qadını evinə apardı. Ertəsi gün münəccimlər Firona gələcək düşməninin analığa düşmüş olduğunu, onun ulduzunun doğulduğunu xəbər verdilər. Firon Misirin bütün mamaçalarına, evdən evə gedib, hansı qadınların hamilə olduğunu öyrənmələrini əmr etdi. Bununla bərabər, mamaçalar, İmran Fironun yanından heç ayrılmadığı üçün onun qadınını müayinədən keçirməyə cəsarət etmədilər. Musa doğrudan da ölümdən belə xilas olmuşdu. Talmud da, Amramı Misirin ən görkəmli şəxsiyyəti kimi qələmə verir. Quranda (Ali-İmran, 35) deyilən və qarnındakı uşağını Allaha nəzir etmiş qadının əri olan İmran, Tövratdakı İmran və ya Amram ilə eyni

şəxs deyil. Sələbi (s. 220), bu adı daşıyan iki şəxs arasında 1800 illik müddət olduğuna işarə edir. Bununla bərabər, Quranda bu surədə adı çəkilən İmran "İmran ibn Masan" və ya "ibn Sahim"dir ki, bunun arvadı "Hanna" Faquzun qızı və Məryəmin anası, İsanın nənəsidir. Buna görə, bu İmran ibn Masan İncildəki (Matfeydən, 1, 15) Yaqub ibn Matan ilə eyniləşdirilir.

**İNCİLLƏR** (*yun.* yevangelion – şad xəbər) – xaçpərəstliyin banisi İsanın bu dünyadakı həyatında bəhs edən erkən xristian əsərləri. Təxminən 30 incilin adı məlumdur. Lakin kilsə tərəfindən "Allahruhlu" kimi qəbul edilən və Əhdi-Cədidə onun ən vacib hissəsi kimi daxil olan dörd incil var – Matfeydən, Markdan, Lukadan və İoanndan. Başqa incillər kilsə xadimləri tərəfindən məhv edilirdi. Kilsə rəvayətinə görə Matfey və İoann həvari idilər, Mark və Luka isə həvari Pyotr və Pavelin ən yaxın şagirdləri olublar.

Birinci üç incil məzmun etibarilə bir-birinə yaxın idi – buna görə bunları sinotipik (*yun.* sinopsis – müştərək icmal) adlandırırlar. Dördüncü incil məzmun və üslub etibarilə başqalarından fərqlənir və ola bilsin ki, hamısından gec tərtib olunub. İncillər, yəqin ki, II əsrin birinci yarısında meydana gəliblər. Nə risalələrdə, nə də ki, "İoannın vəhylərində" İsaya isnad edilən kəlamlar iqtibas olunmur. Yəqin ki, risalələr və "Vəhylər" müəlliflərinə incillər tanış deyildi.

İncillərin ən qədim papirus fraqmentləri II əsrin ikinci rübünə aiddir (Raylendsin papirusu).

**İNDRA** – vedilər panteonunun ilahisi. Riqveda (b a x: **Vedalar**) himnlərinin dörddə biri ona ittihaf edilmişdir. Əvvəllər o, tufan, yağış və göy gurultusunun ilahisi hesab olunurdu. Vedalar rəvayət edirlər ki, İndra suyu oğurlayan şər iblisi Vritrunu ildırımla vurmuşdur. Hindistan hökmdarlarının hakimiyyəti möhkəmləndikcə İndra ali ilahi, hökmdar hakimiyyətinin himayəçisi kimi sayıldı.

**İNDUİZM** (*fars.* hindu – İnd çayı) – müasir Hindistanda ən çox yayılmış və brahmanizm nəzəriyyəsi əsasında ölkə əhalisinin müxtəlif etiqadlarını vahid sistemdə birləşdirən din. Adətən induizm adını onun tərəfdarları – induistlər işlətmirlər. Öz dinlərini onlar arya-drahma ("arilərin qanunu") və sanatana-dharma və ya sadəcə sanatana ("əbədi qanun") adlandırırlar.

İnduizmin brahmanizmin intibahı kimi geniş yayılması Qupta imperiyasında (IV-VI əsrlər) quldarlığın süqutu və feodal münasibətlərinin başlanğıcına aiddir.

İnduizmin səciyyəvi xüsusiyyətləri Vedaların "ilahi həqiqətlərin" pozulmaz mənbəyi kimi tanınmasındadır. Dharma ("vəzifə"), karma ("əvəzini vermək") və sansara ruh ("həyatın kəsilməməsi") haqqında olan nəzəriyyəni induizm əsas tutur. İnduizmə görə insanın ruhu onun cismani ölümündən sonra başqa, yeni doğulan bədənə keçir ("sansara" ruhun bədəndən bədənə keçməsi deməkdir) və karma qanununa görə əgər insan öz dharmasını pozubsa, o daha aşağı ictimai vəziyyətli insana, hətta heyvana və ya həşərata çevrilir. Belə-

liklə, insanın "xilası" onun dharmanın daim yerinə yetirməsindən asılı olur.

**İNKVİZİSİYA** (*lat.* inkvizito – təhqiqat, istintaq) – XIII əsrdə katolik kilsəsinin fikrincə təhlükəli "kafirlərin", azadfikirlilərin, papa hakimiyyətinin düşmənlərinin və başqalarının təqib edilməsi üçün yaradılmış katolik kilsəsinin xüsusi idarəsi. 1233-cü ildən papalıq bu idarəni özlərini "Allah itləri" adlandıran dominikanlar ordeninə həvalə etmişdir. İnkvizisiyanın tarixi, bəşəriyyət əleyhinə olan fasiləsiz cinayət silsiləsidir. Çoxlu görkəmli alimlər, yazıçılar, həkimlər, insan azadlığı uğrunda mübarizələr və saysız-hesabsız sadə adamlar inkvizisiyanın qurbanı olmuşlar. İnkvizitorlar dindirmə vaxtı ən rəzil üsullardan, işgəncələrdən istifadə edirdilər. Ölümə məhkum olanlar inkvizisiya tərəfindən adi məhkəmələrə verilib tonqallarda yandırılırdılar. Xalq qarşısında məhkumların yandırılmasına autodafe – "din işi" deyilirdi. İnkvizisiya kilsə tərəfdən xüsusən xalq hərəkatlarının əleyhinə tətbiq edilirdi.

İnkvizisiya Avropanın demək olar ki, bütün ölkələrində var idi. Amerikanın fəthindən sonra kilsə xadimləri inkvizisiyanı orada da tətbiq etdilər. Bəzi məlumatlara görə, bütün ölkələrdə inkvizisiyanın 9-12 milyon qurbanı olub. İnkvizisiya xüsusilə İspaniyada vəhşilik edib. Burada ali inkvizitor Torkvemada (1498-ci ildə ölüb) qulluq etdiyi 18 il ərzində 10220 adamı diri-diri yandırıb. Onun cinayətləri üzündən 114 mindən çox ailə əzab çəkib. İnkvizisiyanın fəaliyyəti XIX əsrin əvvəlinədək davam etmişdi. Axırıncı autodafe 1826-cı ildə İspaniyada baş vermişdi. İnkvizisiyanın ləğv edilməsi haqqında papanın sərəncamı yalnız 1835-ci ildə verilmişdi.

**İNTİÇİUMA**, daha doğrusu mbambiuma, mbatyalkatiuma – totemik heyvanın və ya bitkinin ovsunlu "çoxaltma" mərasimi (b a x: **totemizm**). İntiçiuma sözü Avstraliyanın Aranda qəbiləsinə mənsubdur, lakin buna bənzər mərasimlər Mərkəzi və Şimali Avstraliyanın bir neçə başqa qəbilələrində də var. Avstraliyanın yerliləri inanırlar ki, ildə bir dəfə müəyyən mövsümdə ovsunlu mərasim keçirməklə bir qəbilə (totem) üzvləri öz toteminə təsir göstərərək, onu çoxalda bilərlər. İntiçiuma mərasimi totemli heyvanın ətini yeməkdən ibarətdir.

**İNVESTİTURA** (*lat.* vestitura, investo – geyindirirəm, geydirirəm) – orta əsrlərdə katolik kilsəsində yepiskopun və ya abbatın vəzifəsində və rütbəsində təsdiqetmə mərasimi vaxtında onlara üzük, əlağacı (keşiş əlamətinin nişanı) və əsanın (vəzifəsinə görə mülkü hakimiyyətin rəmzi) verilməsi. XI-XII əsrlərdə investitura papalıqla hökmdarlar arasında inadlı mübarizə obyektinə çevrilmişdi. 1122-ci ildə papalıqla alman imperatoru arasında bağlanan bir sıra sazişlərə, o cümlədən Vorms konkordata görə, papalığa kilsə investiturası verilirdi (üzüklə əlağacı), hökmdarlara isə mülki investitura, yəni yepiskopun və ya abbatın torpaq mülkiyyəti sahibliyi verilirdi.

**İOSİF FLAVİ** (37 – təxm. 95-ci illər) – yəhudi tarixçisi. Adlı-sanlı kahinlər nəslindən olub, İudeya müharibəsində iştirak edərək romalılar tərəfindən əsir

alınıb, Roma sərkərdəsi Vespasian Flavinin qulu olmuş, sonra azad buraxılmışdır. İosif Flavi böyük "İudeya müharibəsi" və "Yəhudilərin qədimlikləri" əsərlərinin müəllifidir. Bu kitablarda I əsrdə Fələstində cərəyan edən hadisələr əks edilib. Əsrlər boyu xristian kilsə xadimləri İosif Flavinin yazdıqlarına İsanın real şəxs olmasını və onun Məsihə kimi fəaliyyətini təsdiq edən sənəd kimi baxırdılar. İndi sübut olunub ki, bu sənədlər IV əsrin şəksiz saxtakarlığıdır.

**İSAYYA** – guya e.ə. VIII əsrdə yaşamış bibliya peyğəmbəridir. Bibliyanın bir peyğəmbərlik hissəsi ona isnad edilir. Lakin kitabda İran şahı Kiruşla bağlı olan hadisələrə işarələr var, bu da ki e.ə. VI əsrə aiddir. İsayya kitabının mətni ən azı üç mənbə əsasında tərtib olunur və elm aləmində bunlara Birinci İsayya, İkinci İsayya və Üçüncü İsayya deyilir, lakin bu kitabları bir-birindən uzun əsrlər ayırır.

**İSHAQ** – Tövratda və Quranda adı çəkilən Bəni İsrail peyğəmbəri. İslam ənənələrinə görə, aşura gecəsi atası İbrahimə hələ doğumundan bir il qabaq dünyaya gələcəyi Allah tərəfindən xəbər verildi. İbrahim süfrəsinin başında kasıblar və ac adamlar olmasa, bir şey yeməzdi. Üç gün, ya on beş gün keçir, evinə bir qonaq gəlmir. Sonra üç qərib adam gəlir və İbrahim onlara qızarmış dana əti təklif edir. Lakin qonaqlar buna əl vurmurlar (Quran, Hud, 69 və s.) və əvəzini vermədən ətdən bir loğma da yeməyəcəklərini söyləyirlər. İbrahim dedi ki, bunun əvəzi yeməkdən qabaq və sonra edəcəkləri duadır. Buna görə qonaqlar İbrahimə bir oğlan uşağı olacağı müjdəsini verirlər. Arvadı Sara gülməyə başlayır, çünki onun doxsan, İbrahimin də yüz iyirmi yaşı var idi. İbrahim isə dedi: "Belə olsa, mən onu Allaha qurban edərəm!" İshaq yeddi yaşından məbədə getməyə başlayır. Elə bu vaxt İbrahimə yuxusunda Allaha qurban kəsməsi əmr edilir. Ertəsi gün İbrahim bir öküz kəsib ətini kasıblara paylayır. Gecə eyni səs ona təkrarən: "Allah daha qiymətli qurban istəyir!" – dedi. İbrahim bu səfər dəvə kəsir. Ertəsi gün yenə eyni səs: "Allah oğlunun qurban etməsini istəyir!" – deyir. İbrahim dəhşət içində oyanır və "Oğlum! Yuxuda gördüm ki, səni qurban kəsirəm", – deyir. Oğlu belə cavab verir: "Atacan! Sənə nə əmr olunursa, onu da et. İnşallah mənim səbirlilərdən olduğumu görəcəksən". (Quran, əs-Saffat, 102). Bıçaqla ip götürüb bir yerdə dağa çıxırlar. İshaq dedi: "Ata, köynəyimi çıxar ki, anam üstündə qan ləkəsi görüb ağlamasın. Məni bərk bağla ki, qımıldamayım və məni qurban edərkən gözlərini başqa tərəfə çevir ki, cəsarətini yox etməyəsən! Allah məni yox etmək təsəllisini versin. Köynəyimi anama ver təsəlli tapsın və ona məni necə qurban etdiyini danışma. İbrahim bıçağı oğlunun boğazına dirədisə də, bıçaq üç dəfə əlindən yerə düşdü. Bu vaxt qulağına "Ya İbrahim! Artıq sən röyanın düzgünlüyünü (Allah tərəfindən olduğunu) təsdiq etdin!" – deyə bir səs gəldi (Yenə orada, 104-105). Bundan sonra bir qoç peyda olub, Habilin qurbanı olduğunu və bu vaxta qədər cənnətdə olduğunu dedi. Bu qoç, qurban kimi göndərilmişdi.

**İSİDA** – Qədim Misir dinində ilahədir. Ona sitayiş Aşağı Misirdə meydana gəlib. Ən qədim dövrlərdə İsida göyü təcəssüm edirdi. Sonralar o, Osirisin arvadı və Qorun anası hesab olunurdu. Bəzi əfsanələrə görə İsida 40 hissəyə parçalanmış və Misirin torpaqlarına səpələnmiş Osirisin bədənini bir yerə yığıb, dəfn etmişdir. Ona uşaqların, analığın himayəçisi və rifah verən ilahə kimi sitayiş edirdilər. Adətən, İsida körpə Qora döş verən qadın kimi, başında iki əyri inək buynuzu ilə haşiyələnmiş günəşvari örtüklə təsvir olunurdu. Onun müqəddəs heyvanı inək sayılırdı.

**İSİDORUN YALANÇI DEKRETALİYALARI** – IX əsrin ortalarından XVII əsrədək fəaliyyətdə olan katolik kilsənin hüquqi əsaslarını təşkil edən saxta kilsə sənədlərinin məcmuəsi. Sevilya yepiskopu İsidora (570-636) əsassız isnad edilən bu məcmuəyə papa I Klimentdən papa I Qriqoriya qədər vaxtı əhatə edən (90-731) yüzdən artıq uydurma risalə, dekretaliya, kilsə məclislərinin saxtalaşmış qərarları, Konstantının hədiyyəsi və başqa saxta sənədlər daxil idi. Bu sənədlər kilsədə və mülki hakimiyyət üzərində papaların birinciliyini və dünya hakimiyyətinin papalara xas olmasını əsaslandırırdı. XV əsrdən başlayaraq 1628-ci ilədək İsidorun dekretaliyalarının saxta olması müxtəlif tədqiqatçılar tərəfindən bir neçə dəfə sübut olunmuşdu.

**İSLAM** (*ər.* itaətetmə), müsəlmanlıq – ən yayılmış dinlərdən biridir. Onun ardıcılları Yaxın Şərqin (Türkiyə, Suriya, İordaniya, İraq, Ərəbistan yarımadasının ölkələri, Misir, Sudan, Somali, Eritreya), Orta Şərqin (İran, Əfqanıstan, Pakistan), Məqribin (Mərakeş, Əlcəzair, Mavritaniya, Tunis, Liviya), İndoneziyanın, Malayziyanın, Bruneyin əhalisinin əksəriyyətini təşkil edir. Bundan başqa, müsəlmanlar Livanda, Hindistanda, Çində, Həbəşistanda, Albaniyada, keçmiş Yuqoslaviyada, Nigeriyada, Bolqarıstanda və başqa ölkələrdə yaşayırlar. Keçmiş SSRİ ərazisində müsəlmanlar Azərbaycan, Türkmənistan, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Tatarıstan, Başqırdıstan, Çeçenistan, Dağıstan, Acarıstan və Rusiyanın bir çox vilayətlərində yaşayırlar.

İslam VII əsrin əvvəlində Qərbi Ərəbistanda, Hicazda meydana gəlib. İslamın zühuru ərəblərdə sinfi cəmiyyətin və dövlətin əmələ gəlməsi ilə bağlı idi. İslamın banisi müsəlmanların Allahın elçisi və ən böyük Peyğəmbər kimi tanıdıqları Məkkə əhli Həzrət Məhəmməddir.

İudaizmin və xristianlığın təsiri altında formalaşan ibtidai islamın nəzəriyyəsi Qurani-Kərimdə izah olunub. Müsəlmanlar Quranı Allah kəlamı, ilahi vəhy hesab edirlər. Bəzi müasir islamşünaslar hesab edirlər ki, bizim günlərə çatmış Quran islamın zühur etməsinin birinci əsrində bir neçə müəllif tərəfindən tərtib edilib. İslamın əsas ehkamı – tək həqiqi ilahini – Allahı tanımaqdır. Çoxallahlıq ən ağır günah hesab olunur. Allah göylərin və yerin və onların üzərində nə varsa hamısının xaliqidir və insanlar üzərində hökm sürür. Axirətdə səbirli möminləri zövq-ləzzət, günahlıları isə cəhənnəm atəşi gözləyir. Müsəlmanlar

hər gün namaz qılmalı, oruc tutmalı və ömürlərində bir dəfə həccə getməlidirlər. Bundan başqa müsəlman zəkat verməli və sədəqə paylamalıdır.

VII-VIII əsrin əvvəlində gedən ərəb fütuhatları nəticəsində geniş Xilafətin tərkibinə erkən feodal münasibətlərinə keçmiş ölkələr daxil olub. Fateh ərəblər bu münasibətlərin təsiri altına düşdüklərinə görə İslam ideologiyasında dəyişikliklər əmələ gəldi. Yeni feodal quruluşu öz əksini sünnədə tapdı, bu da İslamın inkişafında yeni mərhələ açdı. Sünnə IX əsrdə kodeks halına salınandan sonra Quranla bərabər İslamın müqəddəs ədəbiyyatına daxil edildi. Feodal xilafətində mürəkkəb sosial və siyasi vəziyyəti əks etdirən sünnə praktiki olaraq ibtidai İslamın abidəsi olan Qurandan daha böyük əhəmiyyətə malik oldu. Bunu hətta müsəlman ilahiyyatşünasları və hüquqşünasları qəbul edirlər.

Kəndli, yoxsul və bədəvilərin antifeodal hərəkatları öz ideoloji ifadəsini müxtəlif müsəlman təriqətlərinin nəzəriyyələrində tapmışdır. İslamda VII əsrin ortalarında ictimai bərabərsizlik uğrunda amansız mübarizə aparan birinci təriqət xaricilər idi.

İslamın VII-VIII əsrlərdə Xilafətdə yayılması xristianlıq, iudaizm, zərdüştilik və əsasən maniliyin müqaviməti ilə rastlandı. Xeyli kobud antropomorfizmin və ibtidai determinizmin (təqdir haqqında nəzəriyyə halında) tərəfdarları olan erkən İslamın vaizləri və ilk çağlarda İslam həqiqətlərinin heç bir əsaslandırmaya ehtiyacı olmadığını hesab edənlər, başqa dinlərin tərəfdarları ilə toqquşmalarda aciz qalırdılar. Feodal ideologiyası olan İslamın müdafiəsi üçün yaranan toqquşmalarda, VIII əsrin axırında mötəzililər çıxış edirdilər. Qədim yunan və ellinist fəlsəfəsi və onun dialektikası ilə tanış olan, islamda ətalətli ortodokslarla mübarizə aparan mötəzililər müsəlman ilahiyyətinin – Kəlamın əsasını yaratdılar. Kəlamın banisi görkəmli mötəzili, ortodokslarla güzəştin tərəfdarı, sonralar onların tərəfinə keçmiş və onlara güclü təsir etmiş Əşəri (təxm. 873-935) hesab olunur.

Hələ islamın mövcud olmasının birinci yüzilliyində bu dində əsaslı parçalanma əmələ gəldi – müsəlmanlar öz dinlərinin iki əsas istiqamətinin tərəfdarlarına – sünnülərə və şiələrə bölündülər. Parçalanmaya Xilafətdə hakim sinfin iki dəstəsi arasında gedən hakimiyyət uğrunda mübarizə səbəb olmuşdu. Ümummüsəlman kütləsindən xəlifə Əlinin, özünü şiə adlandıran tərəfdarları ayrıldılar. Əvvəlcə onlar İraq ərəblərindən ibarət idilər, sonra tədricən onların tərəfinə İran əhalisi keçdi. Sünnülərin tərəfində Əməvilər sülaləsinə tabe olan Asiyanın və Afrikanın əksər müsəlmanları qaldılar. Dini və mülkü hakimiyyətə malik olan müsəlman möminlər icmasının (yəni bütün müsəlmanların) başçısı kimi, sünnülər Məhəmməd peyğəmbərin varisi saydıqları xəlifəni tanıyırdılar. X əsrdən, Bağdad xilafətinin dağılması ilə əlaqədar Abbasilər sülaləsindən olan xəlifə siyasi hakimiyyətini, demək olar ki, tamamilə itirmiş, müsəlmanların baş mollasına çevrilmişdir.

Feodal müsəlman cəmiyyətinin sonrakı inkişafı feodal hüquqşünaslığının fiqhinin hazırlanmasını tələb etdi. Sün-

nülərdə fiqhin əsasları və ya kökləri kimi, Quranla və sünnə ilə birlikdə, icma və qiyas qəbul edildi.

VIII və IX əsrlərdə müsəlman hüququnun qaydaları işlənib hazırlandı. Sünnülər bu məsələlərdə dörd məzhəbə-hənəfilərə, malikilərə, şafeilərə və hənbəlilərə bölündülər. Günümüzə qədər qalan bu məzhəblərin baniləri bunlardır: Əbu Hənifə (təxm. 700-767), Malik ibn Anas (715-795), Şafei (767-820) və İbn Hənbəl (780-855). Bu dörd şəxs danılmaz nüfuza malik olub, başqalarından asılı olmayaraq müstəqil ictihad tətbiq edənlər idilər. Onlardan sonra "ictihadın qapıları bağlandı" və müsəlman hüququnun yeni ictimai və siyasi hadisələrə tətbiqi fitvalar vasitəsilə həyata keçirilirdi.

Müsəlmanlara təsir göstərmək üçün şəriətdə dəqiq və əsaslı surətdə işlənmiş islamın mürəkkəb mərasimliyi böyük əhəmiyyətə malik oldu. Bu, mömində Allahdan asılı olmaq hissiyatını yaradır. Bu hissiyatın inkişafında xüsusi rolu bayramlar oynayır (Qurban bayramı, Merac, Mövlud və həmçinin Ramazan ayının orucluğu). İslamın yayılmasında Quranın təfsirinin və Məhəmmədin tərcümeyi-halının böyük əhəmiyyəti var (sirə).

IX-XI əsrlərdə, feodal münasibətlərin inkişafı dövründə İslamın mistik-asketik istiqaməti – sufilik inkişaf edir.

**İSMAİL** – İbrahim peyğəmbərin oğlu. Quranın bəzi yerlərində adı çəkilir. İkinci (əl-Bəqərə) surənin 136-cı (Ali-İmran, 84) və dördüncü (ən-Nisa) surənin 163-cü ayələrində ona vəhy gəldiyindən söhbət gedir. On doqquzuncu (Məryəm) surənin 54-55-ci ayələrində xalqı salat ilə zəkata dəvət edən bir rəsul, bir peyğəmbər kimi zikr edilir. Onun bu şəkildə göstərilməsi, Peyğəmbərin "İbrahim dini" haqqında təsis etdiyi əqidəyə tamamilə uyğundur. İkinci surənin 133-cü ayəsində İbrahim və İshaq ilə birlikdə, Yaqubun cədlərindən biri kimi, 125-ci ayədə Məkkədə, Kəbəni bütlərdən təmizləyən kimi zikr olunur.

Bir rəsul kimi İsmail və ona gələn vəhylər haqqında heç bir rəvayət yoxdur. İbrahim dininin intişarı ilə olan münasibətləri də bəyan edilməyir. İsmail Həcərin İbrahimdən olmuş ilk uşağı idi və Həcər ilə Sara arasında ədavət var idi. Həcəri çirkin etmək məqsədilə Sara onun qulaqlarını deşdirmişdi (rəvayətə görə qadınların qulaq deşməsi elə bu vaxtdandır). İsmail İshaq ilə dalaşırmışlar. Nəhayət, Saranın qısqanclığına görə, İbrahim, Həcər və İsmaillə birlikdə Ərəbistana getməyi qərara alır. Yolçulara Cəbrayıl rəhbərlik edirdi. İbrahim ilə İsmail Kəbənin təməlini qoymuşlar və məbədin tikilməsində İsmail atasına kömək etmişdir. Bu iş bitdikdən sonra İbrahim uşağını anası ilə birlikdə quru və susuz səhrada qoydu. Bu sıxıntı içində Həcər əs-Səfa və əl-Mərva təpələrində su axtarmış və bir təpədən ikincisinə getmişdir ki, bu da sayın mənşəyini təşkil edir. Buna görə, Cəbrayıl: "Sən kimsən? İbrahim sizi kimə əmanət etdi?" – deyə soruşdu. Bu anda səbri tükənən uşaq ayağı ilə (və ya əli ilə) qumu eşələməyə başlamış və o yerdə bulaq peyda olmuşdu. Əgər Həcər suyu dəstiyə doldurmağa

tələsməsəydi, Zəmzəm daim axan olacaqdı. Rəvayət edilir ki, Cəbrayıl torpağı topuğu ilə qazıyıb və ayağının altından Zəmzəm fışqırmışdı.

Bu vaxt Curhum qəbiləsi Kəbənin yaxınlığında yerləşirdi. Həcərin vəfatından sonra İsmail onlardan bir qızla evlənmişdi. Buna görə İsmail Şimali Ərəbistan qəbilələrinin cəddi sayılır.

**İSMAİLİLƏR** – ərəb Xilafətində XIII əsrin ikinci yarısında əmələ gəlmiş və ən çox yayılmış müsəlman şiə təriqəti. Təriqətin adı şiə imamı Cəfərin böyük oğlu İsmaildən alınmışdır. Cəfər İsmaili guya şərab vurğunu olduğuna görə imam rütbəsindən məhrum etmişdi, lakin həqiqətdə isə bunu oğlunun sünnü xəlifələr əleyhinə fəal əməliyyat tələb edən dəstəyə bağlılığına görə etmişdi. Bu dəstə şiəlikdə parçalanmaya səbəb olub, ismaililər təriqətini yaratdı. Cəfərin qərarına zidd olaraq təriqət İsmaili (ismaililərin bəziləri isə oğlu Məhəmmədi) imam kimi tanıdılar. İsmail haqqında gerçək xəbərlər yalnız IX əsrin axırından məlumdur. İsmaililərin dini-fəlsəfi nəzəriyyəsində neoplatonizmin və buddizmin təsiri görünür. Bu nəzəriyyəyə əsasən anlaşması imkansız olan Allah ümumdünya idrakını xəlq edib. Bu idrak ümumdünya ruhunu, ruh isə qavranması mümkün olan maddəni, yəni gözə görünən dünyanı yaradıb. Ümumdünya idrakın dünyəvi təcəssümünü ismaililər yeddi peyğəmbərdə (Adəm, İbrahim, Nuh, Musa, İsa, Məhəmməd, İsmail) görürlər. Onların hərəsi xüsusi tarixi dövrü və ilahi vəhyin yeni mərhələsini təcəssüm edir. Ümumdünya ruhun dünyəvi təcəssümünü ismaililər imamlarda görür və imamların hər biri bir peyğəmbərin yanında təmsil olunur. (Məhəmmədin yanında Əli, İsanın yanında Pyotr) və hər bir imam peyğəmbərin moizələrinin mənalarını izah edir. Ruhların bədəndən bədənə keçməsi haqda Şərq təsəvvürünü qəbul edən ismaililər hesab edirlər ki, onların imamları Məhəmmədin və Əlinin ruhlarının varisləridir və beləliklə də, ilahi vəhyləri birbaşa peyğəmbərdən qavramışlar. İsmaililərin missionerləri (dailəri) orta əsrlərdə Yaxın və Orta Şərq dövlətlərinin əsarətdən narazı olan kəndliləri və sənətkarları arasında fəal təbliğat aparırdılar. İsmaililər mütəşəkkil fəaliyyət göstərən gizli təşkilat yaratdılar. Onların rəhbərliyi iri feodalların əlində idi və ismaililər şüarları altında gedən antifeodal üsyanlar yalnız həmin rəhbərlərin mənafeyi ilə bağlı idi. Məs., ismaililərin hərəkatına arxalanaraq Fatimilər 909-cu ildə Tunisdə hakimiyyətə gələ bildilər. XI əsrin sonunda ismaililər arasında neoismailizm cərəyanı əmələ gəldi, bu da imamlarını ilahiləşdirən həşşaşilər təriqətinin yaranmasına gətirib çıxartdı.

Son vaxtlarda ismaililərin ən nüfuzlu və məşhur istiqaməti "diri Allah" ağaxan tərəfindən idarə edilənidir. İsmaililərin icmaları demək olar ki, bütün müsəlman ölkələrində, xüsusən Pakistanda, Şərqi Afrikada, Suriyada, Tacikistanda, Pamir dağlarında (Bədəxşanda) var.

**İSNƏ ƏŞƏRİYYƏ**, İsna Aşariyyə (*ər.* isnə əşərə "on iki" deməkdir), "on ikincilər" – bu ad yeddi imam tərəfdarları Səbiyyələrin əksinə olaraq, on iki

imamı tanıyan şiələrə verilmişdir ki, bunlar imamlıq məqamının Əli ər-Rizadan oğlu Məhəmməd ət-Tağıya və onun oğlu Əli ən-Nağıya, sonra onun oğlu əl-Həsən əl-Əsgəri əz-Zəkiyə və nəhayət aradan qeyb olmuş və axır zamanda qayıdaraq, qiyaməti xəbər verəcək və dünyanı ədalətlə idarə edəcək olan əl-Mehdiyə gedəcəyini söyləyirlər. On iki imamın sırası belədir: 1) **Əli əl-Murtaza,** 2) **əl-Həsən əl-Müctəba,** 3) **əl-Hüseyn əş-Şəhid,** 4) **Əli Zeyn əl-Abidin əs-Səccad,** 5) **Məhəmməd əl-Baqir,** 6) **Cəfər əs-Sadiq,** 7) **Musa əl-Kazim,** 8) **Əli ər-Riza,** 9) **Məhəmməd ət-Taqi,** 10) **Əli ən-Naqi,** 11) **əl-Həsən əl-Əsgəri əz-Zəki,** 12) **Məhəmməd əl-Mehdi əl-Hüccə.** H. V (XI) əsrdən etibarən, qəti olaraq qəbul edilmiş sıra budur. Lakin bu məzhəb daim ahəngdən məhrum və daim ixtilaf halında olduğu üçün, bir zaman on bir firqəyə bölünmüşdür. Bunların ayrı adları olmayıb və bir-birində bu nöqtələrdə ayrılırlar: 1) əl-Həsən əl-Əsgəri ölməyib, sadəcə qeyb olub; 2) əl-Həsən əl-Əsgəri nəsil qoymayıb ölüb, lakin qəbrindən çıxıb qayıdacaq; 3) əl-Həsən vəsiyyətində qardaşı Cəfəri xəlifə təyin etmişdir; 4) Bu axırıncısı varis qoymayıb ölmüşdür; 5) Əlinin oğlu Məhəmməd imamdır; 6) əl-Həsənin ölümündən iki il əvvəl Məhəmməd adlı bir oğlu olmuşdur; 7) Onun doğrudan da oğlu olmuşdur, lakin atasının ölümündən səkkiz ay sonra dünyaya gəlmişdir; 8) əl-Həsən nəsil qoymadan ölmüş və dünya isə insanların günahları səbəbindən imamsız qalıb; 9) əl-Həsənin bir oğlu olmuşdur, lakin kim olduğu məlum deyil; 10) Dünyada bir imamın olması lazımdır, lakin bunun əl-Həsənin nəslindən olub-olmayacağı məlum deyil; 11) Əli ər-Rizada dayanırlar və son imamın gəlməsi gözlənir ki, bu səbəbə görə həmin firqəyə **vaqifiyyə** (yəni "imamın ölümünün həqiqi olub-olmaması haqqındakı fikirləri təxirə salanlar") adı verilib.

İsnə əşəriyyəyə əvvəl qətiyyə **(qitiiyyə)** adı verilmişdi, çünki vaqifiyyələrin xilafına olaraq, onlar imamın ölümü həqiqətini qəbul edirdilər, ya da başqalarına görə, imamların silsiləsini yalnız bunun nəslinə bağladıqları üçün, Cəfərin oğlu Musa əl-Kazimdə birləşdirirdilər. Başqaları Musadan sonra onun oğlu Əhmədin imamlığını qəbul etmədilər və Əli ər-Rizanı tanımadılar. Bundan başqa onun oğlu Məhəmməd, atası vəfat edərkən kiçik yaşda olduğundan, ondan imamətlə bağlı dərs almadığı da deyilib. Başqaları onun imamlıq vəsfini qəbul edirsə də, lakin oğullarından hansının, yəni Musanınmı, yoxsa Əlininmi özünə xələf olması lazım gəldikdə tərəddüd etmişlər. Əlidən sonra, eyni məsələ Cəfər ilə əl-Həsən arasında çıxdı. Əl-Həsən əl-Əsgərinin imamətinə qail olanlara, müxaliflər tərəfindən, əl-Ximariyyə adı verildi, çünki bunlar seçilmiş olan imamın cahil olduğunu deyirdilər. Əl-Həsənin ölümündən sonra, bəziləri onun nəsil qoymadığını güman edərək, bir məşuqənin oğlu olduğu deyilən Cəfəri imam qəbul etdilər. Musa əl-Kazimi nəslindən olduqlarını iddia edən Səfəvilər, şiəliyi və xüsusən isnə

əşəriyyə əqidəsini İran dövlətini rəsmi dininə çevirdilər. Şah I İsmail taxta keçər-keçməz (1500), Azərbaycan xatiblərinə xütbələrini on iki imam adına oxumaları və müəzzinlərədə "Əlinin vəliyullah olduğuna şəhadət edirəm" şəklində, bir şiə dəsturu əlavə etmələri xüsusunda qəti əmrlər verdi. Əsgərlər zidd olanların öldürülməsi haqqında əmr aldılar.

**İSRAFİL** (*ibranicə* Serafimdən gəlir) – mələk ismi. Bu mələk fövqəladə nəhəngdir, ayaqları yeddi qat yerin altında olduğu vaxt, başı ərşin sütunlarına çatır. Dörd qanadı var, bunların biri şərqdə, biri qərbdədir, qanadlarının biri ilə vücudunu örtür, biri ilə də Allahın calalından özünü mühafizə edir. Bədənində qıllar, ağızlar və dillər var. Lövhi-məhfuzda yazılan Allahın iradələrini oxumaq və hər dəfə bu iradələri yerinə yetirməyə məmur olan yaxın mələyə bildirmək onun vəzifəsidir. Bir gün və bir gecə ərzində üç dəfə cəhənnəmə nəzər atar və iztirab içində qıvrılar. O qədər çox ağlar ki, dünya onun göz yaşlarında boğula bilər.

Üç il ərzində Peyğəmbərə yoldaşlıq etmiş və ona peyğəmbərliyini bildirmişdir, axırda onun yerinə Cəbrayıl keçmiş və ona Quranı təbliğ etməyə başlamışdır.

İskəndər İsrafilə Zülmət ölkəsinə gəlmədən əvvəl təsadüf etmişdi. O orada bir dağın üstündə oturaraq gözləri yaşarmış halda boru (sur) çalırmış. Sur Mələyi adlanmağının əsas səbəbi, Allah ölüləri qəbirlərində dirildəndə, borunun çalınması əmrini verdiyi anda çala bilmək üçün, onu daim ağzında saxladılmasıdır. Başqa cəhətdən, İsrafilin Qiyamət günü hər kəsdən əvvəl oyandırılacağı da deyilir. Sonra Qüdsdə Səhrətullahda dayanıb, ölülərə həyata qayıtmaq işarəsini verəcəkdir.

**İSRAİL** – Bəni İsrail peyğəmbərlərindən olub, adına Quranda yalnız bir dəfə təsadüf edilir. Musəvi millətini ifadə etmək üçün işlənən Bəni İsrail istilahına sıx təsadüf edilir. Quranda (Ali-İmran, 93) belə deyilir: "Tövrat göndərilməmişdən əvvəl İsrailin (Yaqub peyğəmbərin) yalnız öz-özünə haram etdiyi şeylərdən başqa bütün təamlar (yeməklər) İsrail övladına halal idi". Təfsirçilərə görə, bunun Bəni İsrailin günahkarlığından dolayı nazil olduğu mənasını ifadə edir. Bəni İsrailin cəddi özünə yalnız dəvə əti ilə südünü haram etmişdi ki, bəzilərinə görə, bunun səbəbi də, onun özünü gecələri yatmağa mane olan, lakin gündüzləri rahat qoyan ənnəsa deyilən xəstəliyə mübtəla olması idi. Quranda İsrail haqqında olan sözlər Yaqub adı ilə bir yerdədir. Yaqub həqiqətdə əkiz qardaşı Ausdan daha yaşlı idi. Özü Ausdan əvvəl doğulmasına baxmayaraq, Aus buna əsəbiləşmiş və iki qardaş hələ ananın bətnində ikən dava etməyə başlamışdılar. Buna görə Aus: "Əgər sən məndən qabaq doğulmaq istəsən, vallahi anamın qarnını yırtıb, onu öldürərəm!" – dedi. Odur ki, Yaqub istəyindən vaz keçdi və Aus birinci doğuldu. Beləliklə, ilk doğulan övlada məxsus imtiyaz, haqsız olaraq ona verilmişdi. Yaqub isə əmisinin yanına qaçdı. Ausun qorxusundan gündüzlər gizlənib, gecələr yola düşürdü (yasri və ya yasir fil-layl) və İsrail adı da buradan gəlir.

**İSTİXARƏ**, istixara (*ər.*) – niyyət edilən bir təşəbbüs, səyahət və s. xüsusunda qərarsız bir adamın, özünü səlamətə, qərar ilhamına çatmaq üçün dediyi dua. Bu istilah, xüsusən Allahumma xir li-rasulikə, xir lahu, Xara llahu li kimi cümlələrdə işləndiyi mənası ilə, xara felindən gəlir. İslamda dini istixarənin mərasimi, iki rükət namazdan sonra deyilən uzun duadan ibarətdir (salla rak-atay əl-istixara). Bu duanın mətni Peyğəmbərə isnad olunur.

**İŞAN** – xanəgahlarda və ya Orta Asiyada yerləşən məzarların yanında yaşayanlar; Tatarıstan və Başqırdıstanda olan dərvişlərin rəhbər və müdəbbirləri, Yerli müsəlmanlar arasında işan adətən müqəddəs, gələcəkdən xəbər verən və öz duaları ilə xəstəlikdən sağaldan kimi tanınırdı.

**İŞRAKİYYUN** – Şihabəddin əl-Sühavardi əl-Məqtulun (1191-ci ildə ölüb) "Hikmət əl-işraq" adlı əsərində bəhs etdiyi işrak fəlsəfəsinin ardıcıllarına, özü tərəfindən, başqa bir əsəri olan "Kitab əl-məşari vəl-mütarahat"da verilən addır.

**İŞTAR** – Babil-assur dini etiqadlarında məhəbbət və münbitlik ilahəsi, Şumer İnannası ilə eynidir. Əfsanələrə görə, İştar baş ilahilərə mənsub olub, cəhənnəmə enir, göylərə qalxırdı və burada Zəhra (Venera) planeti kimi parıldayırdı. Quldarlıq istibdad hakimiyyətinin inkişafı ilə İştar cəngavər ilahiyə, çar hakimiyyətinin hamisinə çevrilir. O, öküzün belində duran, əlində qalxanı və oxları olan qadın kimi təsvir olunurdu. Ən qədim əfsanələrdə İştar öz məşuqlarını məhv edən sərt və ehtiraslı kimi təqdim edilirdi. Sonrakı əfsanələrdə o, Tamuzu sevən, ona sadiq olan və onu axirət dünyasından xilas edən arvadı kimi təsvir olunurdu.

**İUDA İSKARİOT**, Kariotdan – əfsanəvi şəxs. Xristian ənənəsinə görə, 12 həvaridən biri, onların xəzinədarı və İsanı 30 quruşa satan. İuda İskariotun adı satqınlığın rəmzinə çevrilib.

**İUDAİZM** – əsasən yəhudilər arasında yayılmış dindir. İudaizm e.ə. II minilliyin sonunda əmələ gələrək, Ərəbistanın köçəri yəhudi qəbilələrinin etiqad və adətlərini, həmçinin e.ə. XIII əsrdə yəhudilər tərəfindən işğal edilmiş Fələstinin yəhudilərdən qabaqkı əhalisinin əkinçilik ayinlərini mənimsədi. Sonradan formalaşmış iudaizmin əsas ehkamları Yaxveyə səmaların və yerin xaliqi kimi (əvvəllər Yaxveyə qəbilə və ya nəsil budağı – Leviyə və İudaya – iudaizmin adı da buradandır – ilahisi kimi, sonra da bütün yəhudilərin allahı kimi) pərəstiş edirdilərsə, sonradan Yaxveyə daha çox öz "seçkin İsrail xalqının" qayğısına qalan kimiyə inam bəslənilir, ölümdən sonra əvəz verənə, Məsihənin gəlməsinə, axirətin yaxınlaşmasına və ölülərin dirilməsinə inam təsdiq olunurdu. İudaizm çoxsaylı adətləri, duaları, orucları, bayramları təyin edib, dindarların bütün həyatını Torada izah olunan və sonradan Mişnada və Talmudda inkişaf etdirilən 613 təlimatla (248 əmr və 365 qadağan edən) bağlayır.

İudaizmin tarixini şərti olaraq aşağıdakı dövrlərə bölmək mümkündür: 1) qədim quldarlıq (bibliya iudaizmi);

2) orta əsr feodal (talmud-ravvin iudaizmi) və 3) yeni, burjua (islah olunmuş iudaizm).

Bibliya iudaizmi – qədim yəhudi ibtidai icmasının etiqad və ayinlərinin (ruhlara və əcdad patriarxlara ehtiram və təbiətlə afətlərə pərəstiş) və erkən quldarlıq cəmiyyətinin politeizmin və monoteizminin sintezidir. Monoteizm, müqəddəs Bibliya kitabında göstərilən kimi, Yaxveyə yeganə yox, yalnız ali və həm də qəbilə ilahisinə kimi inama yaxındır.

Qədim, bibliya iudaizmi e.ə. II minilliyində Ərəbistan səhrasında köçəri həyat sürən və e.ə. XIII əsrdə İsrail qəbilələr ittifaqını təşkil etmiş sami qəbilələrinin inam və ayinlərindən əmələ gəlib. Yəhudilər Fələstini işğal etdikdən sonra iudaizm bir neçə yüzilliklər dövründə e.ə. XI-X əsrlərdə əmələ gəlmiş iki quldarlıq dövlətlərinin – Qədim İsrailin və İudeyanın dininə çevrilmişdir. 444-cü ildə bibliya iudaizmi Torada əsaslandırılmış və iri quldarların və kahinlərin maraqlarını əks etdirmişdir.

E.ə. I əsrdə romalılar Fələstini işğal etdikləri şəraitdə və quldarlıq cəmiyyətinin böhran keçirdiyi vaxtda, Bibliya iudaizmi "qanunöyrədənlər", yəni iri torpaq sahiblərinin və tacirlərin ideoloqları olan Toranın təfsirçiləri tərəfindən Talmud iudaizminə çevrilməyə başladı. Bu iudaizmdə Torada hələ qeyd edilməmiş məsihənin gəlməsinə, ölümdən sonra cəza almaq və ölümdən sonra dirilməyə inamlarını intişar edilməsi müəyyən olunur. Asiyada və Avropada orta əsrlərdə Talmud iudaizmi ravvinlər tərəfindən işlənmişdir.

Bu, orta əsrlər iudaizmi XIX əsrdə Qərbi Avropada və ABŞ-da islahatlara məruz qaldı və yeni, modern və ya islah olunmuş iudaizm əmələ gəldi. Onun tərəfdarları məsiha istəklərini, yemək haqqında ağır qanunları və s. rədd etdilər. Müasir dövrdə mömin yəhudi, Talmud iudaizminin ehkam və qaydalarını qəbul edir, islah olunmuş iudaizminin tərəfdarları isə yalnız "əsaslı ehkamları" və Bibliya həvarilərinin "etik" iudaizminin əlavəsilə, bəzi başqa qaydaları tanıyırlar.

Bibliya iudaizminin islah olunmuş iudaizmə keçidi yəhudi xalqının müxtəlif sinifləri və təbəqələri arasında gedən kəskin mübarizə şəraitində baş verirdi. Belə ki, e.ə. VIII əsrdən başlayaraq həvarilər Yaxve ayininin mərkəzləşməsi uğrunda çıxış edərək yerli ilahilər ayinini müdafiə edən kahinlərlə üz-üzə gəlirdilər. E.ə. II əsrdən eramızın 70-ci ilinə qədər fariseylər saddukeylərlə (kahinlər əyanları) təkcə "yazılmış qanun"un yox, həm də "şifahi əfsanə"nin, onun ruhun ölməməzliyi, ölümdən sonra cəza almaq, ölülərin dirilmək və məsihanın gələcək çarlığı ideyaları ilə birlikdə tanınması uğrunda mübarizə edirdilər. VIII əsrdə karaimlər fariseyliyin davamçıları olan talmudistləri rədd etdilər; XIII-XVII əsrlərdə bəzi kabbalist (b a x: **Kabbala**) mistiklər əleyhinə XVIII əsrdə isə xasidlər (b a x: **xasidizm**) ravvinlər əleyhinə çıxış etdilər; XIX əsrdə ilahiyyatçı islahatçılar öz modernist görüşlərini ortodoksların orta əsr nəzəriyyələrinə zidd qoydular.

**İUSUS NAVİN,** Yoşua Nun – Bibliyaya görə peyğəmbər, Musanın arxadaşı.

Əfsanəyə görə o, guya qədim yəhudiləri Hanaan torpağına, yəni Fələstinə gətirmişdir.

**İYEQOVA** – b a x: **Yaxve.**

**İYEZİDLƏR, İAZATLAR** – zərdüştilikdə xeyirxah ruhlar, xeyirxah ilahi Axuramazdanın köməkçiləri. Onlardan biri Mitra idi, ondan başqa külək, od, su, səma cisimləri ruhları və b. var idi. Onlar haqqında müfəssəl məlumat Zend-Avestadadır (İyezidləri yezidlərlə qarışdırmamalı).

**İYEZUİTLƏR** (*lat.* Yezus – İsa) – ən mürtəce katolik rahiblər ordeni, "İsa icması". 1534-cü ildə İ.Loyola tərəfindən təşkil olunub və 1540-cı ildə papa III Pavel təsdiq edib. Orden Reformasiya əleyhinə mübarizə etmək və papalığın və ümumiyyətlə, katolikliyin möhkəmlənməsi üçün yaranmışdı. Orden sərt mərkəzləşmə, sərt nizam-intizam və onun bütün üzvlərinin ömürlük seçilən və yalnız Roma papasına tabe olan rəhbərə – ordenin generalına ("qara papa") gözübağlı, danışıqsız itaət üstündə qurulub. Ordenə üzvlüyə əsasən imtiyazlı siniflərdən cəlb olunurdular. Başqa katolik ordenlərin üzvlərindən fərqli olaraq iyezuitlər üçün rahib paltarını geymək və kilsə yığıncaqlarında iştirak etmək vacib deyil. Çox hallarda iyezuitlər tapşırıqları daha müvəffəqiyyətli yerinə yetirmək üçün ordenə mənsub olmalarını gizlədirdilər. Orden öz fəaliyyətini Avropanın bir çox ölkələrində genişləndirib, sonra da Amerikaya yayıb. Orden hər yerdə katolik kilsəsi və istismarçı olmayan mütərəqqi qüvvələrə qarşı çıxır. Sırf kilsə və ideoloji sahələri ilə məhdudlaşmayaraq İyezuitlər dövlətlərin siyasi həyatına qarışırlar.

**İZİDA** – b a x: **İsida.**

# K

**KA** – qədim misirlilərin təsəvvürlərində "ilahi", həyati qüvvəsini doğulduğu vaxtdan alan insanın mənəvi oxşarı. Ka görünməzdir, lakin canlandırdığı kimsənin simasındadır. Ka insanın ölümündən sonra bədənini tərk edir, lakin həmişə ölənin qayğısına qalır.

**KABBALA** (*qədim yəhudicə* hərfən – rəvayət) – iudaizm tərəfdarları arasında yayılmış orta əsr dini-mistik nəzəriyyəsi. Kabbala nəzəriyyəsinin izahını əks etdirən VIII əsrdə yazılmış birinci kitab "Sefer İyetsira" ("Yaranma kitabı") idi. Onun anonim müəllifi öyrədirdi ki, bütün mövcud olanın əsası vahid Allahdır, kainat yəhudi əlifbasının 22 hərfi və 10 rəqəmi əsasında qurulub. Kabbalistik mistikanın sonrakı inkişafı təxminən XII əsrdə yazılmış anonim "Zoqar" ("Parlama") adlı kitabda əks olunub. Allahın heç bir atributa malik olmamasını iddia edərək, "Zoqar" Allaha nəhayətsiz bir şey kimi, əşyalar dünyasına isə ilahi qüvvələrin emanasiyası (axma, tökülmə, şüalanma) kimi baxır. Öz-özünə zidd olaraq 10 sefirotdan, ilahinin xaliq edən atributlarından bəhs edir və deyir ki, ilahi bunların vasitəsilə açılır və dərk olunur. Kabbala ruhların köçməsini mümkün hesab edir. Kabbala hesablamalarına əsasən fallar açılırdı. Ondan sehrdə də istifadə edirdilər.

**KAFİR** (*ər.*) – "naşükür, gizlədən, inanmayan", sonra "gördüyü yaxşılıqları gizlədən", yəni "nankor". Bu mənalarda sözə qədim ərəb şerində və Quranda (əş-Şüara, 195) rast gəlinir. Bu söz Quranda dini məna alıb: "Onlar bunu özlərinə verdiyimiz nemətlərə nankorluq etmək üçün edirlər" (ən-Nəhl, 55) və "Bizim onlara verdiyimiz nemətləri inkar etsinlər deyə (şirkə, küfrə düşərlər)" – b a x: **ər-Rum, 34; əş-Şüəra, 83.** Əvvəllər Peyğəmbəri inkar və təhqir edən imansız məkkəlilərə kafir deyilirdi: Qaf, 2 və b.

Kafir əbədi olaraq cəhənnəm atəşində yanacaq. Bu ilahiyyatın dəyişməz əqidəsi kimi qalıb. Lisan əl-ərəb əsərinə görə (VI, səh. 459 və s.) kafirlər bu qruplara ayrılırlar: 1) küfr əl-İnkar – Allahı tanımayan, Onu inkar edən; 2) küfr əl-cuhud – Allahı tanımaqla bərabər, onu təsdiq etməyən və bundan dolayı, müqəddəs (tənvir) edilmiş olmalarına rəğmən kafir qalanlar; 3) küfr əl-müənədə – Allahı tanıyan və təsdiq edən, lakin həsəd və qərəz üzündən kafir qalanlar; 4) küfr ən-nifaq – zahirən Allahı təsdiq etməklə bərabər, qəlbən təsdiq etməyən və bu səbəblərə görə ikiüzlü olduqlarından kafir qalanlar.

**KAHİNLİK** – əsasən politeist dinlərdə xidmət edən ayin xadimləri. Kahinlərin ən mühüm vəzifələri qurbankəsmə mərasimlərini keçirmək idi. Sinifli cəmiyyətdən qabaqkı dövrdə kahinliyi nəsildə ən yaşlılar, sehrkarlar və şamanlar ifa edirdi. İbtidai icma quruluşunun dağılması ilə kahinlər hakim sinifə daxil olan xüsusi imtiyazlı qrupa ayrıldılar. Hindlilərin, misirlilərin, yəhudilərin, romalıların, asteklərin və b. ən qədim

quldarlıq dövlətlərində kahinlər əllərində böyük siyasi hakimliyi saxlayaraq, nəhəng var-dövlətə malik idilər. Müasir pravoslavlıqda keşişlər kahinlərin yunan adlarını – iyerey (hiyereos) saxlayıblar. Katolik dinində Roma papası "potifers maksimum" (ali kahin) adını daşıyır.

**KAQAL** (*qədim yəhudicə* koqol, hərfən – cəmiyyət) – XIII əsrdən XIX əsrədək Şərqi Avropa ölkələrində (Rusiyada 1844-cü ilədək) yəhudi icmalarının özünüidarə sistemi. İcmanın özü yəhudilərin bütün həyatını otkup (iltizam) təriqi ilə Kaqala təhvil verərək, onu vergi məngənəsinə çevirirdi. Teoratik üsulu ilə tərtib olunmuş kaqal varlı yəhudilər təbəqəsinin zəhmətkeş yəhudilərin üzərində olan hakimiyyəti alətinə çevrilmişdi. Kaqalın rəhbəri olan baş ravvin hakimlik, cəza vermək və cəmiyyətdən uzaqlaşdırmaq hüququna malik idi. Orta əsrlərdə ravvinə tabe olmayan şəxsi əmlakından məhrum edib öldürə də bilərdilər.

**KALVİN JAN** (1509-1564) – protestantizmin qolu olan kalvinizmin banisi. Fransada varlı ailəsində doğulub, ilahiyyatı və hüququ öyrənmişdir. 1535-ci ildə o, protestantlığı qəbul edərək, xaricə köçmüşdür. 1536-cı ildə onun əsas əsəri – "Xristian dinində təlimat" nəşr edilib. Bu kitabda kalvinist ideologiyasının əsasları, xüsusən qədər haqqında nəzəriyyəsi izah olunur. Cenevrəyə köçən Kalvin buranı nəinki İsveçrənin, hətta Fransanın, Hollandiyanın, Şotlandiyanın və İngiltərənin reformasiya hərəkatının mərkəzinə çevirməyə çalışırdı. Cenevrədə kalvinist kilsəsinin teokratik diktaturası quruldu, hakimiyyət demək olar ki, bütünlüklə Kalvinin əlində idi və o, başqa fikirli adamları amansızcasına təqib edirdi. 1542-1546-cı illərdə onun iştirakı ilə 58 nəfər qətl olunub, 76 nəfər isə sürgün edilmişdi. 1553-cü ildə onun təkidi ilə ispan alimi M.Serveta yandırılmışdı. Kalvinin adı dini fanatizmin rəmzinə çevrilmişdi.

**KALVİNİZM** – Reformasiya dövründə əmələ gəlmiş protestanizmin bir qolu. Kalvin tərəfindən işlənmiş və Cenevrədə qalib gəlmiş bu yeni din tezliklə ümumavropa əhəmiyyətinə malik olub, Fransada (b a x: **Quqenotlar**), Şotlandiyada, İngiltərədə (b a x: **Puritanlar**), Macarıstanda, Çexiyada, Almaniyada və b. ölkələrdə yayıldı.

Kalvinist nəzəriyyəsi Bibliyanı müqəddəs kitab kimi tanıyır. Kalvinizm nəzəriyyəsinin fərqləndirici xüsusiyyəti şərtsiz qədərdir. Kalvinizmə görə bütün insanlar seçkinlərə və məhkumlara bölünürlər: birincilər hələ dünyaya gəlməmiş Allah tərəfindən qabaqcadan səmavi səadətə, ikincilər isə – əbədi əzablara məhkum olunublar, nə insanın fəaliyyəti, nə də onun inamı onun taleyini dəyişdirə bilməz, çünki insanın "xilası" inamına görə deyil, Allah tərəfindən "seçilib" "xilas olmağa" məhkum edilməsinə inandığına görədir.

Kalvinist ibadətgahlarında səcdəgah, ikona, şam, xaç və keşişlərinin də xüsusi paltarı yoxdur.

**KANT İMMANUİL** (1724-1804) – alman filosofu, Köniqsberq universitetinin professoru, klassik alman idealizminin müəssisələrindən biri, aqnotik. O hesab edirdi ki, insanlar yalnız hadisələri (fenomenləri) dərk edir, mahiyyətləri ("özündə şeylər") isə dərk edə bilmirlər. Fəlsəfi fəaliyyəti "tənqidə

qədərki" və "tənqidi" dövrə bölünür. Yaradıcılığının "tənqidi" dövründə Kant "Xalis zamanın tənqidi" (1781), "Praktik zəkanın tənqidi" (1788), "Mühakimə qabiliyyətinin tənqidi" (1790) və s. əsərlərini yazmışdır. Hər üç əsərin əsasını Kantın hadisə və olduğu kimi mövcud olan şeylər – "özündə şeylər" haqqında təlimi təşkil edir.

Alman burjuaziyasının ideoloqu kimi Kant dinə qarşı münasibətində ardıcıl deyildi. O, elmlə dinin arasında barışmaz ziddiyyət görür, Allahı və ruhun ölməzliyini dərkedilməz hesab edib deyirdi ki, onların varlığı nəzəri baxımdan sübut edilə bilməz. O, ilahiyyatçıların istifadə etdiyi Allahın varlığı haqqında sübutların hamısını xüsusi olaraq nəzərdən keçirib rədd etmişdir. "Yalnız idrak hüdudlarında din" adlı əsərində (1793) Kant tarixi xristianlığa tənqidi yanaşıb, ona qarşı xristianlığın yalnız əxlaqi doktrina olması haqda öz anlayışını qoydu. Kanta görə, tarixi xristianlığın müsbət əhəmiyyəti yalnız inkişaf etməmiş bəşəriyyət üçün vacib idi. Hər bir sirli fəaliyyət, ayinlər və s. Kanta görə Allaha yalançı qulluqdur. "Xeyirxah həyat tərzindən başqa insanın Allaha lazım olan güman etdiyi hər bir iş yalnız dini xəyal və Allaha yalançı qulluqdur". Kantın bu əsəri katolik kilsə tərəfindən qadağan olunmuş kitabların siyahısına salınmışdı.

**KARAİMLƏR** (*qədim yəhudicə* karaim – qiraətçi) – əhalinin kiçiksaylı etnik qrupu, mənşə etibarilə Talmudu rədd edən iudaizmin bir təriqəti. Karaimlər təriqəti VIII əsrdə Babilistan yəhudilərinin arasında meydana gəlib. Onun meydana gəldiyi vaxt başında Anan ben David dururdu. O öyrədirdi ki, ilahi vəhyli ehkamlar yalnız Əhdi-Ətiqdə olanlardır. Bununla yanaşı karaimlər yəhudi dininə islamın və VIII əsr ərəb fəlsəfəsinin əsaslarını daxil edirdilər. Onlar talmudistləri ələ salaraq rabbonitlər, yəni avtoritet tərəfdarları adlandırırdılar. Karaimlərlə rabbonitlər arasında cərəyan edən mübarizə çox kəskin idi və ortodoks iudaizmin xadimləri karaimləri amansızcasına təqib edirdilər. Vaxt keçdikcə karaimlər xüsusi etnik qrupa döndülər. Onlar Ön Asiya, Şimali Afrika, Cənub-Şərqi Avropa ölkələrində və b. yerlərdə yaşayırlar.

**KARDİNAL** (*lat.* kardinalis – baş) – katolik kilsəsində Roma papasından sonra ən yüksək rütbə. Bu rütbəyə qaldırmaq yalnız papanın səlahiyyətindədir. Kardinallar öz növbələrində aralarından papanı seçirlər (b a x: **Konklav**). Kardinallar Vatikanda müxtəlif yüksək vəzifələr tutur və ayrı-ayrı ölkələrdə katolik kilsəyə rəhbərlik edirlər. Müxtəlif ölkələrdə olan rəsmi təşrifatlarda kardinal rütbəsi knyaz və ya hersoqa bərabər olur və onu "zati ali həzrətləri" adlandırırlar. Kardinal qırmızı rəngli libas və papaq geyir.

**KARDİNALLAR KOLLEGİYASI** (*lat.* kollegium – müəyyən şəxslər dəstəsinin məclisi) – katolik kilsəsi kardinallarının məcmusu. Kardinallar kollegiyasının üç bölməsi var: kardinal-yepiskoplar, kardinal-keşişlər və kardinal-dyakonlar. 1586-cı ildə papa V Sikst təyin etdi ki, kardinalların sayı 70-dən çox olmamalıdır: onlardan 6 kardinal-yepiskop, 50 kardinal-keşiş və 14 kardinal-dyakon olmalıdır. Papa XXIII İoann (1958-1963) kardinallar kol-

legiyasının sayını artırdı, papa VI Pavel isə kardinallarının tərkibini 125 nəfərə çatdırdı. Əsrlər boyu kardinallar kollegiyasının mütləq çoxluğunu italyanlar təşkil edirdi. İkinci dünya müharibəsindən sonra siyasi mülahizələrə görə kardinallar kollegiyasının tərkibi Latın Amerikası, Asiya və Afrika ölkələrinin kardinalları hesabına artırıldı.

**KARMELİTLƏR** – təxminən 1154-ildə müqəddəs Bertold tərəfindən Fələstində təsis olunan katolik rahiblər ordeni. Əvvəllər rahiblərin iqamətgahı Karmel dağında idi (ordenin adı buradandır). Səlib yürüşlərinin iflasından sonra karmelitlərin əksəriyyəti Qərbi Avropaya köçmüş və papa IV İnokentinin vaxtında "dilənçi" ordeninə çevrilmişdir. 1452-ci ildə qadınların kamelit ordeni təşkil edilmişdir. Karmelitlər icmaları Qərbi Avropa dövlətlərinin çoxunda, ABŞ və Latın Amerikasında yayılmışdır. Ordenin mərkəzi Romadadır.

**KARTEZİAN** (Kartuzian) **ORDENİ** – 1084-cü ildə Fransanın cənubunda, Şartrezdə (*lat.* Kartuzia – ad da buradandır) müqəddəs Bruno tərəfindən təsis edilmiş katolik rahiblər ordeni. Orden rəsmi 1176-cı ildə təsdiq edilmişdir. 1234-cü ildə qadınların Kartezian ordeni təşkil edilib. Orta əsrlərdə bu orden ən iri feodal mülkədarlardan olub. Kartezian ordeninin mühüm gəlir mənbəyi "Şartrez" likorunun hazırlanması və satılması olub. XVIII əsr fransız burjua inqilabından sonra Kartezian ordeni mülklərinin çoxunu və öz keçmiş əzəmətini itirdi. Müasir dövrdə ordenin kiçik rahib icmaları İspaniya, İtaliya və İsveçrədə fəaliyyət göstərir.

**KASTA** (*portuqalca* kasta – nəsil və qəbilə mənasındadır) – dinlə təqdis edilən qapalı, əslində irsi peşələr və adətlərlə bağlı olan insanların endoqam qrupu. Kastaların qədim Hindistanda və Şərqin başqa ölkələrində meydana gəlməsi cəmiyyətin sinfi parçalanması ilə bağlı idi. Hindistanda kastalar deyəsən dörd varnanın təşkili ilə bir vaxtda meydana gəlib. Kastalar quruluşunu təsdiq edən induizm hər kastanın vəzifələrini dəqiq müəyyən etmişdir. Müasir dövrdə Hindistanda 3500-ə qədər kasta və kastaçılar var. İngilis müstəmləkəçiləri kastaların saxlanmasının tərəfdarları olmuşlar. İndi Hindistan konstitusiyası ümumi bərabərlik bəyan edir, lakin kastalar fərqi ölkədə qalmaqdadır, bu da ictimai tərəqqiyə əngəl törədib insanların həyatına çoxlu işgəncə və faciələr gətirir. Siqnalların buddizmə etiqad etməsinə baxmayaraq müasir kastalar arasındakı fərqlənmələr Seylonda böyük rol oynayır. Kastalar fərqliyi Yaponiyada da mövcuddur (Eta və Xinin kastaları).

**KAZERUNİ** (Kazaruni), Şeyx Əbu İshaq İbrahim ibn Şəhriyar (973-1034) – İshaqiyyə və ya Kazeruniyyə təriqətinin banisi. Kazerunda (Şiraz) yaşayıb və orada bir türbədə dəfn olunub. İshaqilər təriqəti İrandan Hindistana və Çinə qədər yayılmışdır.

**KAZİMEYN** – İraqda indiki Bağdadın bir məhəlləsi. Vaxtilə qədim bir şəhər olub. Şiələrin ən məşhur ziyarətgahından biridir. Şəhərin adı, ərəb qrammatikasının təsniyə qaydasına görə, iki Kazim mənasını ifadə edir. Burada Əlinin nəslindən iki şəxs – Musa əl-Kazim (vəf. 802) və Məhəmməd əl-Cavab (vəf. 834), yəni şiələrin on

iki imamından yeddincisi və doqquzuncusu dəfn olunub.

İndi Kazimeyn şiələrin ən böyük dörd mübarək ziyarət yerlərindən biridir. Hər il minlərcə şiə Kazimeyni ziyarət edir və hər dəfə buraya 25-30 min şiə zəvvarı toplanır. Şiələrin ən yüksək ruhani rəisləri sayılan dörd müctəhidin biri Kazimeyndə qalır. Kazimeyndəki imarət, İraqın, şiələrə borclu olduğu dini binaların ən möhtəşəm və zənginlərindən biridir. İran və Hindistan şiələri buna milyonlar sərf ediblər. Qızıl örtülü qübbələri və minarələri gələn səyyahlara lap uzaqdan görünür. Binanın bugünkü görünüşü, qübbələrdəki çini örtükləri ilə bərabər, ailəcə İmam Musa əl-Kazimə mənsub hesab edilən I Şah İsmayılın vaxtında başlanılmışdı. Onun tamamilə bitirə bilmədiyi tikinti işləri 1534-cü ildə Bağdada gələn Qanuni Sultan Süleyman tərəfindən başa çatdırıldı. 1796-cı ildə Ağa Məhəmməd şah Qacarın əmri ilə və xərci özü tərəfindən ödənilərək, qübbə qızılla örtüldü. 1870-ci ildə Nəsrəddin şah böyük qüvvənin və minarələrin üstündəki qızıl təbəqəsini təzələdi.

**KƏB İBN ƏL-ƏŞRƏF** (?-625) – Mədinədə Peyğəmbərin müxalifi, musəviliyin güclü tərəfdarı. O, Bədr döyüşünün nəticəsindən çox mütəəssir olaraq Məkkəyə getdi və burada qureyşiləri Peyğəmbərə qarşı çıxışa təhriki üçün şeirdəki böyük qabiliyyətini işlətdi. Sonra Mədinəyə qayıtdı və deyilənə görə, burada müsəlman qadınlarını, onlara yazdığı eşq şeirləri ilə töhmət etdi. Peyğəmbər: "Məni bu adamdan kim xilas edəcək?" – deyə bəd dua etdiyi zaman, Məhəmməd ibn Məsləmə bu işi üzərinə götürərək, yoldaşları ilə onu öldürdü.

**KƏBƏ** (*ər.* kub, zər) – Məkkədəki müsəlman ibadətgahı, qədim ərəblərin məbədlərindən biri, sütunlarla əhatə edilmiş həyətin ortasında yerləşən boz daşdan qurulmuş, tavanı yastı olan dördkünc bina. Kəbənin uzunluğu 13 m, eni 12 m və hündürlüyü 15 m-ə yaxındır. Kəbənin içəri boş otağına meydançanın səmtindən təxminən 2 m hündürlükdə olan qapıdan əlavə nərdivanla qalxmaq olar. Kəbənin bayır divarlarının birinə "qara daş" saldırılıb. Müsəlmanlar Kəbəni Allah evi adlandırır, onu ziyarət edirlər.

**KƏBİR** – XIV əsrin axırında və ya XV əsrin əvvəlində yaşayan bhaktinin ideoloqlarından biri. Benaresdə anadan olub; müsəlmandır və toxucular kastasına mənsub idi. Şagirdləri tərəfindən qələmə alınmış moizə və təlimlərində o, kasta ayrılığına, dini mərasimlərə, çoxallahlıqlara zidd çıxaraq təkid edirdi ki, Allah hüzurunda hamı – alilər də, rəzillər də, müsəlmanlar da, hindular da birdir. Kəbirin və onun şagirdlərinin Hindistanın dini təriqət hərəkatlarının, birinci növbədə siqhizmin inkişafında böyük rolları olub.

**KƏBİRLƏR** – Balkan yarımadasının yunanlardan əvvəlki əhalisinin – pelasqların qədim ilahiləri. Göründüyü kimi, bunlar əsasən məhsuldarlığın ilahiləri idilər. Klassik dövrdə onların ayini Lemnos, İmbros və Samofrakiya adalarında saxlanılıb, şəbihlər və orqiyalar ilə müşayiət edilirdi.

**KƏFARƏT,** Kəffara – əsil mənası günahı "örtən". Kəfarət əsasən müsəlman olan köləni azad etməkdən, buna

imkanları olmayanlar üçün üç günlük (bəzi hallarda iki aylıq) oruc tutmaqdan, yaxud, bunun əvəzinə, müəyyən miqdar kasıblara (10-60) yemək və geyim verməkdən ibarətdir. Bəzi hallarda Quran günahkara bir kəfarət təyin edir. Məs., qəsdli və qəsdsiz qatil üçün (ən-Nisa, 93), andı pozmanın pis nəticələrini kənar etmək üçün (əl-Maidə, 89) və s.

**KƏHF** – Quranın XVIII surəsinin adı.

**KƏLAM** (*ər.* söz, elm; *yun.* loqosa uyğundur) – müsəlman sxolastik ilahiyyatı. Təsisçisi Əşəridir (873-935). O, islamın sünni məzhəbinin işlənib hazırlanması üçün mötəzililərin bir sıra anlayış və dəlillərindən istifadə etmişdir.

**KƏRBƏLA** – İraqın əsas şəhərlərindən biri, Peyğəmbərin nəvəsi Hüseynin türbəsinin olduğu yer. Hüseynin başsız cəsədinin dəfn olunduğu Qəbr əl-Hüseyn adı verilən yer. Çox keçmədən bura şiələrin məşhur ziyarətgahı oldu. 1303-cü ildə Qazan xan Kərbəlanı ziyarət edərək Hüseynin türbəsinə böyük hədiyyələr verdi. Fərat çayından buraya kanal çəkdirdi. Qanuni Sultan Süleyman 1535-ci ildə şəhərə gələrək kanalı təmir etdirdi və küləyin qumlarla örtdüyü sahələri yenidən bağça halına saldırdı. Sultan III Murad 1585-ci ildə Hüseynin məzarı üzərindəki türbəni təzələdi. Şah Hüseynin (1694-1722) qızı Raziyə Sultan Begim, Hüseynin türbəsinin bəzənməsi üçün 20 min nadirilik vəqf təsis etdi. Ağa Məhəmməd xan Qacar XVIII əsrin sonunda Hüseyn türbəsinin qübbəsi və minarəsini qızılla örtdürdü. 1801-ci ildə Saudun başçılığı altında 12 min vəhhabi Kərbəlanı istila edib üç mindən çox adam öldürdülər, evləri və bazarları xarabaya çevirdilər. Hər şeydən əvvəl Hüseynin türbəsinin qızıllarını və başqa xəzinələrini qəsb edib, imamın tabutunu dağıtdılar. Lakin bu fəlakətdən sonra türbəyə şiə aləminin hər tərəfindən əvvəlkindən daha çox sərvət və hədiyyələr yağdı. Hüseynin türbəsindən 600 m şimal-şərqdə imamın ögey qardaşı Abbasın türbəsi var. Xalq arasında Hüseynin türbəsi yanında dəfn olunanların cənnətə girəcəkləri etiqadı hakimdir. Buna görə bir çox yaşlı və əlil ziyarətçi, həyatlarının son günlərini keçirmək üçün bu türbənin yanına gəlir və ya ölülər buraya gətirilib dəfn edilirdi.

**KƏRİM** – insanlar haqqında işlənərsə, comərd, möhtərəm, əsil və nəcib, əşya baxımından işlənərsə bərəkətli, möhtəşəm və hörmətli mənalarına uyğun gəlir. Əl-Kərim, Allahın 99 adından biridir (Quran, əl-Əraf, 180). Lakin Quranın iyirmi yerində keçən bu sözün ancaq iki yerdə Allahla əlaqəsi var. Peyğəmbər, mələk və istehza təriqi ilə müşriklər haqqında hədislərdə bu termin çox vaxt əl-Kərim ibn əl-Kərim deyilən Yusif peyğəmbər üçün işlənir.

**KƏRRAMİYYƏ** – adını Əbu Abdullah Məhəmməd ibn Kərrəm (Kəram və ya Kiram) Sicistanidən (869-cu ildə ölüb) alan bir məzhəb. Qüdsdə dəfn olunub. Əqidə fikirləri "Əzab əl-qəbr" ("Qəbr əzabı") adlı əsərində və bunun parçaları Şəhristaninin "Əl-Fərq beynəl-firaq" kitabında verilir. Məzhəb sonralar üç kiçik qola – Həqqariyyə, Təraiqiyyə və İshaqiyyə bölündü.

**KİSVƏ** (*ər.* paltar, libas) – Kəbənin üzərinə salınan örtük. Qara ipək və ya yun parçadan tikilir, yuxarı zolaqlı hissəsində üzərində qızıl naxışlarla Quran ayələri yazılıb. Hər il dəyişən kisvə

zolaqları kəsilib təbərrük kimi zəvvarlara satılır.

**KLİMENT**, Tit Flavi, İsgəndəriyyəli (təxm. 150 – təxm. 215) – xristian kilsəsinin banilərindən biri. Kliment Misirin İsgəndəriyyə şəhərində kilsə məktəbinin elanedilmişlərin, yəni xaçaçuranı qəbul etməyə hazırlaşanların rəhbəri idi. "Hansı varlı xilas olacaq" əsərində Kliment təkid edirdi ki, var-dövlət cənnətə düşmək üçün manea deyil. Onun fəaliyyəti şəhadət edir ki, II əsrin axırında – III əsrin əvvəlində xristianlıq təkcə Roma imperiyasının şərq vilayətlərində "əzab çəkən və basılmışların" arasında yox, hətta varlılar təbəqəsinə mənsub olanların da arasında yayılırdı.

**KOQEN** – yəhudi keşiş-kahin. Bibliya koqenləri əfsanəvi baş keşiş Harunun nəslindən olanlar kimi təsvir edir və məhz bu da onların Yaxve ayinində keşiş olmalarına dəlildir. B a x: həmçinin **Levit.**

**KONKLAV** (*lat.* bağlı otaq) – növbəti papanın ölümündən sonra yeni papanın seçilməsi üçün çağırılan kardinallar məclisi. Konklavın işlədiyi müddətdə (seçkilər bağlı bülletenlərin vasitəsilə keçirilir) kardinallar və onlara kömək edənlər Vatikanın Sikstin kapellası binasında yerləşirlər. Kapellanın giriş qapısı hörülür və kardinallardan birisi lazım olan səs miqdarını almayana qədər (üçdə iki üstəgəl bir səs) açılmır. 1389-cu ildən papalar yalnız kardinallar arasından seçilir. 1523-cü ildən son papa polyak Pavel İoanna qədər, papalar həmişə italyanlar olub.

**KONKORDAT** (*lat.* konkordare – razılıqda olmaq) – Vatikanla başqa dövlətin arasında həmin ölkədə katolik kilsəsinin fəaliyyətinin şərtlərini müəyyən edən müqavilə.

**KONSTANTİN HƏDİYYƏSİ** (*lat.* Donatno Konstantini) – VIII əsrdə papalığın teokratik iddialarını əsaslandırmaq üçün papa sarayında tərtib edilmiş fərman. Guya IV əsrdə, Roma imperatoru Konstantin, papa I Silvestra və onun xəlifələrinə İtaliya və Roma imperiyasının qərb vilayətləri üzərində ali hakimiyyəti bəxş edib və sək məqamını tanıyıb. Bu, tarixə "Konstantin hədiyyəsi" adı ilə daxil olub. Sonralar bu fərmanın saxtalığı sübut olunur.

**KOVSƏR**, Kövsər – Quranda (108, 1) deyilib və buna görə surə əl-Kövsər adlanır. Qədim şeirlərdə də rastlanan bu söz "bolluq", "çoxluq" mənasını verir və bu səbəbə görə, bir çox islam alimləri 108-ci surənin birinci ayəsindəki əl-Kövsəri əl-xeyr əl-kəsir kimi təfsir edirlər. Lakin doğru olan bu izahla bərabər, başqa təfsirlər də var. Bu məna, hədislərin təsiri ilə ikinci plana çəkilmişdir. Bu hədislərə görə, Peyğəmbər Kövsəri cənnətdə bir çay kimi təsvir etmişdir. Yaxud Peyğəmbər bunun özünə təxsis edilən bir hovuz olduğunu və Meracda özünə göstərildiyini demişdi. Daha qabaqkı surələrdə cənnəti sulayan çaylardan bəhs edilir (Məhəmməd, 15; əl-Ğaşiyə, 12 və s.). Lakin bunlar ancaq Mədinə dövründə daha ətraflı təsvir edilmişdir. Məs., b a x: xüsusən 48-ci surənin (Məhəmməd) 15-ci ayəsinə: "Orada adı dəyişməyən, qoxumayan sudan irmaqlar, təmi çönməyən süddən çaylar, içənlərə ləzzət verən şərabdan nəhrlər və təmiz baldan irmaqlar vardır". Bu irmaqlar daha qabaq musəvi və xristian axirət təsvirinin cənnətdə fərz

etdiyi yağ, süd, şərab və bal irmaqlarına bərabərdir.

**KRİŞNA** (*sanskritcə* hərfən – tünd, qara) – Qədim Hindistanın yarıməfsanəvi çar qəhrəmanı. Eramızın əvvəlində o, Vişnu ilə eyniləşdirilirdi və ona xilaskar allah-insan və Vişnunun ən çox yayılmış təcəssümü kimi pərəstiş etməyə başladılar. Lakin Krişnanın ayini bundan qabaq da məlum idi. Brahmanizmin ilahilərin tərkibinə o, çobanların və maldarların ilahisi kimi daxil olmuşdu. Vişnuizm ona hesabsız igidliklər isnad edir. Krişnanın heykəli adətən əlində ney olan oğlan kimi və çox hallarda sevgilisi gənc çoban qızı – Radha ilə yanaşı təsvir olunur. Krişna hind folkloru və ədəbiyyatının, o cümlədən "Mahabharata"nın daimi qəhrəmanıdır.

**KRONOS** – titanlardan (azmanlardan) ibarət olan ən qədim yunan ilahilər panteonunun baş ilahisi. Kronos, atası Uranı (səmanı) şikəst edib dünya hakimiyyətini öz əlinə alır, lakin onun özünü də oğlu Zevs hakimiyyətdən devirir. Dünya üzərindəki hakimiyyətinin Urandan Kronosa və Kronosdan Zevsə keçməsi haqqında əfsanələr Qədim Yunanıstanda e.ə. II minillikdə müxtəlif xalqların hakimiyyət dövrlərini və ictimai-iqtisadi dəyişiklikləri əks etdirirdilər. Kronos Romadakı Saturnla müqayisə olunur.

**KSENOFAN** (e.ə. təxm. 580 – təxm. 480) – Eley məktəbinin qədim yunan filosofu, şair, antik ateizmin görkəmli nümayəndəsi. Ksenofan ilahilərin və qəhrəman yarımilahilərin varlığını, falları və gələcəyi görmək inamlarını və ruhların bədəndən bədənə keçməsi nəzəriyyəsini tənqid edirdi. Ateizmin tarixində o, birinci olaraq ilahilərin insan fantaziyasının törəməsinin məhsulu olduğu fərziyyəsini irəli sürmüşdü. Lakin onun ateizmi ardıcıl deyildi. O həm insanlardan, həm də yunan ilahilərindən fərqli olan tək Allahın varlığı haqqında danışırdı. Həmin tək Allahı, o, kosmos və təbiət hesab edirdi.

**KUPİDON** – b a x: **Erot.**

**KÜFR** – rəsmi dini ehkam və ayinlərdən, doktrinalardan kənara çıxmaq, bunlara mənfi yanaşmaq. Hər hansı bir nəzəriyyəni küfr adlandırmaq, onu mühakimə və rədd etmək deməkdir. Həqiqətdə isə dini ixtilaflar arxasında küfrlərdə müxtəlif sinfi bölgələrin ictimai-siyasi maraqları və ziddiyyətləri gizlənirdi. Küfrlər adətən din örtüyü altında rəsmi din tərəfindən müqəddəsləşmiş ictimai quruma qarşı dini – ictimai hərəkatlara çevrilirdi. Küfr hərəkatları çox hallarda dinin cəmiyyətdə hakim olduğu vaxtlarda (son antik və orta əsrlərdə) kütləvi sinfi mübarizə formasını alırdılar. İctimai ədalətsizliyə etiraz edərək kufələr, bəzi hallarda bütün Yer kürəsini şər dünyası, şeytan mülkü və s. adlandırır, bu dünyanı idarə edənlərin (hakim siniflərin, hakimiyyətin, kilsənin) əleyhinə mübarizəyə çağırırdılar. Erkən orta əsrlər xristianlığında olan küfrlər arasında Qafqaz Albaniyasında və Bizansda pavlikianları, islam dövründə Azərbaycanda xürrəmiləri, Orta Asiyada mübayyizələri (ağpaltarlıları) qərmətiləri və s. göstərmək olar.

**KÜRE** (*frans.* küre, *lat.* kurare – qayğısına qalmaq) – Fransada, Belçikada və bəzi başqa ölkələrdə katolik məhəllə keşişi.

# Q

**QABİZ** (*ər.* "saxlayan") – Allahın adlarından biri.

**QADİR** (*ər.* "qüvvətli, qüdrətli") – Allahın adlarından biri.

**QADİRİYYƏ** – Əbu Məhəmməd Mühyiddin Əbdülqadir ibn Abdullah Gilaninin (1078-1166) adı ilə bağlı olan sünni təriqəti.

**QAFFAR** (*ər.*) – "bağışlayan, əfv edən". Allahın adlarından biridir.

**QAFUR** (*ər.*) – "bağışlayan, əfv edən". Allahın adlarından biri.

**QALAXA** (*qədim yəhudicə hərfən* – norma, qanun) – Talmudda ayrı-ayrılıqda hər bir qanun və həmçinin onların məcmusu. Qalaxa yəhudilərin dini, ailə və adi həyatını müəyyən qaydaya salır. Qalaxa e.ə. IV əsrə aiddir. O zaman "kitabçılar" adlanan dilşünaslar yəhudi xalqının yaşayış tərzini dəyişməsi ilə əlaqədar iudaizmi ona uyğunlaşdırmaq məqsədilə Əhdi-Ətiqə şərhlər yazmağa başladılar. Qalaxa eramızın I əsrində Yerusəlim məbədinin sökülməsindən və Yabna şəhərində "qanunöyrədənlər" (Tanaylar) məktəbinin əsası qoyulandan sonra inkişaf edib. Tanay Akiba təkid edirdi ki, Əhli-Ətiqin hər hərfinə o, dağlar hündürlüyündə qalaxalar yarada bilər. Qalaxa 210-cu ildə Tanay İequda Qanasi tərəfindən birinci dəfə bir yerə yığılıb redaktə edilmişdir.

**QARA MÜSƏLMANLAR** (öz adı "islam milləti") – XX əsrin 30-cu illərində ABŞ zəncilərinin arasında meydana gəlmiş müsəlman təriqəti. Qara müsəlmanların nəzəriyyəsinə görə, qara adam (zənci) ağ adamdan üstündür, ağların hakimiyyətinin əleyhinə cihad elan edilməli və öz başçıları olan İllaycə Məhəmmədə Allah elçisi, Məsih Nəbi kimi şəksiz tabe olmaqdır.

**QARUN**, Karun – Quranda bu ad üç yerdə çəkilir (əl-Qəsəs, 76-82; əl-Ənkəbut, 39; əl-Mumin, 20, 24). Son iki ayədə Qarun hamanla birlikdə, Fironun İsrail oğullarına zülm edən müşrik vəziri kimi təsvir edilir, Musaya qarşı təkəbbüranə davranır və onun sehrbaz və saxtakar olduğunu söyləyirdi. Qarunun əfsanəsi iki ayrı şəkildə inkişaf etmişdir: 1) Zənginliyi və biliyinə görə tanınan Qarun (b a x: **Quran əl-Qəsəs, 78**) əlkimyanın ixtiraçılarından biri sayılmışdı; 2) Misirdə Qarun adı, göl adları ilə qarışdırılmışdır: Fəyyumda Moyeris gölünün qalığına Qarun deyilir.

**QAUTAMA** – Qədim Hindistanda bir neçə zadəgan nəsillərin adıdır. Budda da bu adla tanınır.

**QAZALİ** (əl-Qazzali), Əbu Həmid Məhəmməd ibn Məhəmməd (1058-1111) – islam ilahiyyatçısı və hüquqşünası. Sufiliyin təsiri altında sünnülükdə mistik elementləri qüvvətləndirdiyinə görə "Bürhan əl-islam" (İslamın sübutu) ləqəbini almışdır. Qazali dünyanın hisslərlə və əql vasitələri ilə dərk olunmasına şübhə edirdi. "Ehya ülum əd-din" əsərində o təkid edirdi

ki, həqiqət yalnız Quranda və sünnədə mövcuddur və insanın davranışı Allah qorxusu və Qiyamət gününün gözlənilməsi ilə istiqamətləndirilməlidir.

**QAZİ** (*ər.* "hakim") – müsəlmanlarda mülki və cinayət işlərinə baxan və şəriətlə adətlər əsasında qərarlar çıxaran dini şəxs. Qazi həmçinin notariusun vəzifələrini daşıyır, qəyyumluq işlərinə, vəsiyyətlərin yerinə yetirilməsinə və mirasların bölünməsinə nəzarət edirdi. O, vəqfləri də təftiş edirdi.

**QEB** – qədim misirlilərin dinində torpaq və bitki ilahisi, ölülər ayini ilə də bağlı olub. Qebin arvadı səmalar ilahəsi Nut idi. Qeb onun üstündə əyilmiş qadın surətli və hava ilahisi Şu tərəfindən dəstəklənən Nut olan sərilmiş insan şəklində təsvir olunur.

**QEMARA** – b a x: **Talmud.**

**QEYB** (*ər.* qayb) – ümumi halda hazırda olmayan və ya gizli olan mənasındakı ğaib şəklində, gözə görünməyən mənəvi aləm mənasındadır. Belə halda aləm əl-ğayb xassələr ilə idrak edilən aləm əş-şəhadədən ayırd edilir. Quranda ümumiyyətlə, bu mənada işlənilir. Qeyb iki cürdür: biri peyğəmbərlər tərəfindən insana bildirilən aləm və digəri yalnız Allaha məlum olan aləmdir ki, Quranda (VI, 59) zikr edildiyi kimi, bu qeyb aləminin açarları onun yanındadır.

**QƏDƏMİ-ŞƏRİF** (Qədəm Rəsul, Allah) – xalq etiqadının Peyğəmbərə ətf etdiyi möcüzələr arasında, ayağını bir daşa basdığı zaman, izi qaldığı halı da vardır. Bu möcüzə, ümumiyyətlə, Peyğəmbərin kölgəsinin yerə düşmədiyi, saçının bir teli oda düşərsə yanmadığı, milçəklərin paltarına qonmadığı, yaxud səndəllərin qumda iz qoymadığı kimi başqa möcüzələrlə bir yerdə zikr edilir. Bununla bərabər, ən qədim islam müəllifləri belə bir möcüzədən danışmırlar, bu barədə heç bir hədis də yoxdur. Lakin islam aləminin bir çox yerlərində Peyğəmbərin mübarək sayılan bir və ya iki ayaq izinin olması, bu möcüzənin mövcud olması haqqında kifayət dəlil kimi sayılır. Bu ayaq izlərinin ən məşhuru, Qüdsdə Ömər məscidində Peyğəmbərin Meracda Buraqa mindiyi qayanın üzərindədir. Dəməşqin cənub qapısı yanında, Havran yolu üstündə olan bir məsciddə, Peyğəmbərin bir ayaq izi var. Qahirədə iki qədəmi-şərif vardır: biri Asar ən-Nəbi adında olan məsciddə, ikincisi də Qayıtbayın türbəsindədir. Tantada, Seyyid Əhməd əl-Badavinin türbəsində və İstanbulda, Sultan V Əbdülhəmidin türbəsində (Topkapı sarayında Xirqən-Səadət dairəsində və Əyyub Ənsarinin türbəsində) ayaq izləri göstərilir.

Qədəmi-şərifə edilən bu təzimin ən çoxu Hindistandadır (Qaurdakı Qədəmi-Rəsul məscidi, Dehlidəki məscid, Aliqarxdakı Camal qəbiristanı), Belasordakı Qədəmi-Rəsul məscidindəki daşda Peyğəmbərin iki ayaq izi ilə ayrıca Həzrət Əlinin də ayaq izləri var və s. Bakıda, Buzovnada olan Əliayağı piri də bu qədimi-şərifdəndir.

**QƏDƏRİLƏR** (*ər.* qədər – "qabiliyyət, imkan") – müsəlmançılıqda – insanda azad iradənin olması və Allah qarşısında öz hərəkətlərinə görə məsuliyyət daşıması haqqında ilahiyyat

nəzəriyyəsi. Qədərilər VII əsrin axırında – VIII əsrdə qismət tərəfdarları, fatalist olan cabbarilərin düşmənləri kimi meydana gəlmişlər. Qədərilərin ən məntiqliləri mötəzilələr idi.

**QƏLƏM**, qalam (qamış) – ərəb hərfləri ilə yazı yazmağa yarayan alət. Quranda 58-ci (Nun) surəsi "And olsun qələmə və **(mələklərin)** yazdıqlarına ki..." – deyə başlandığı üçün, bəzən bu surəyə surət əl-Qələm adı verilir. Təbərinin təfsirində deyilir ki, hədislərə görə qələm, gələcək hadisələri yazmaq üçün, Allah tərəfindən ilk yaradılan şeydir. Bunun üçün iki izah verilib; 1) yazı yazmağa təxsis edilmiş alət, yazı kimi, ilahi bir lütfdür; 2) uzunluğu yer ilə göy arasındakı məsafə qədər olan bir işıq qələmi, Qiyamət gününə qədər meydana gələcək olan bütün vaqiələri yazmışdır.

**QƏLƏNDƏRİYYƏ** – deyilənə görə, Qələndər və ya Qələndəri adında bir nəfər tərəfindən təsis edilən bu təriqətin ilk dövrlərinin tarixi haqqında bizə qədər gələn bütün mütaliələrə görə, bu təriqət İranın şərqindən gəlmiş başqa dərviş təriqətlərinə bənzəyən təşkilat deyildir. Bəlkə bu Məqrizinin Qahirədəki Qələndəri təknəsinin təsvir etdiyi bir növ gəzən dərvişlərdir (b a x: Xitat, Bulak, 1270, II, səh. 432 və s.). Burada və məs., Sədi, Sührəvərdi və Caminin dövrlərində qələndərlər haqqında verdikləri təsvirlərə görə, sabit məskənləri və müəyyən qaydaları olmayan, dini təlimatlarla ictimai vərdişlərdən tamamilə ayrılmış gəzəyən, sərsəri dərvişlərdir. Qələndərilər daha çox İranda yayılmışdılar və əsas camaatları heç olmasa XVIII əsrdə Səfəvilərin iqamətgahı olan Ərdəbildə idi. Anadoluda və hətta Rumelidə Osmanlı dövlətinin ilk zamanlarında və XVI əsrə qədər hökumətə qarşı hücumlar və təhlükəli üsyanların baş verməsində çox vaxt mühüm rol oynayırdılar.

Təriqət İranın Savə şəhərindən olan Şeyx Camaləddin tərəfindən Misirə, Dumyata gətirilmişdir. Özü də buradakı zaviyədə dəfn olunub. Saqqal və qaşlarını qırxıb, bir eşq macərasından xilas olduğu zamandan etibarən, qırxmağı davam etdi və müridləri də onu təqlid edirdilər. Hər halda bu təriqət qədim olmalıdır, çünki onun h. 610-cu ildə (1213) fəaliyyəti Şamda məlumdur. Əxlaqları çox süstdür. Həmədanlı Baba Tahir Üryan: "Mən qələndər deyilən sərsəri sufiyəm, nə atəşim, nə yerim, nə yuvam var. Gündüz dünyanı gəzirəm, gecələr də başımın altında bir kərpic ilə yatıram" – deyib.

**QƏNİMƏT** (*ər.* ğənima) – islam alimləri bu sözü məğlub edilən kafirlərdən müharibədə zəbt edilən silahlar, minik heyvanları və bütün başqa daşınan əmlaklar kimi göstərirlər. Qənimətin beşdə dördünün bilavasitə döyüşdə iştirak edib-etməməsindən asılı olmayaraq müharibəyə hazır olan əsgərlər arasında paylanması vacib idi. Atlılar piyadaların aldıqlarının üç mislini alırdılar. Döyüşdə düşməni öldürən onun üstündə olan bütün sursatı da alırdı.

Qalan beşdə biri Allaha aiddir: "Bilin ki, ələ keçirdiyiniz hər hansı qənimətin beşdə biri Allahın, Peyğəmbərin, onun

qohum-əqrəbasının, yetimlərin, yoxsulların və yolçularındır (pulu qurtarıb yolda qalan müsafirlərindir). Allah hər şeyə qadirdir!" Quranın bu ayəsi (VIII, 41) Bədr müharibəsindən bir az sonra nazil olmuşdur. Ərəb başçıları hələ qədimdən bəri qənimətlərin bir hissəsini götürürdülər və buna görə Quranın bu ayəsi ilə, Peyğəmbərin dövlət xərclərini ödəmək üçün qənimətdən Allah adına beşdə birini alması yenilik olmayıb.

**QƏRMƏTİLƏR** – ismaililər təriqətinin qolu olan müsəlman təriqətinin tərəfdarları. Qərmətilər hərəkatı IX əsrin axırında Cənubi İraqda, Suriyada və Fələstində üsyanlara təkan vermişdi. X əsrdə qərmətilərin xilafətə qarşı mübarizəsi çox sərt səviyyəyə qalxdı. Bu vaxt dini fanatizmə qərq olan qərmətilər nəinki feodalları və varlı şəhərliləri, hətta onların nəzəriyyəsini qəbul etməyən camaatı da məhv edirdilər. Ərəbistanda qərmətilər həccə gedən zəvvarları qarət edib öldürür, bəzən də əsir alıb qul kimi satırdılar. 930-cu ildə qərmətilərin bir dəstəsi Məkkəyə hücum edib şəhər əhli və zəvvarlar arasında qırğın törətdilər. Qənimət kimi onlar Kəbənin qara daşını apardılar və bu daş Məkkəyə yalnız 20 ildən sonra qaytarıldı. Qərmətilər dövlətində sələmçilik qadağan edilmişdi. Onlar şəriəti inkar edir, müsəlman mərasimlərini rədd edirdilər. Onların dini ayinlərə aid binaları yox idi.

**QƏYYUM,** Əl-Kayyum (*ər.*) – Allahın adlarından biri, bəzi kəlam alimlərinə görə, ən böyüklərindən biridir. Söz əsasında "əbədi" mənasını ifadə edir. Bu söz Quranda üç dəfə çəkilir (əl-Bəqərə, 255, Ali-İmran, 2 və Taha, 111), hədislərdə (Peyğəmbərin gecə duası) qəyyam şəklində də təsadüf olunur.

**QİSMƏT** (türkcə) – müsəlmanların dini nəzəriyyəsinə görə – labüdlük, tale, Allah tərəfindən insanın qabaqcadan qərarlaşmış müqəddəratı və hərəkətləri. İslamda qismətin ən qəti tərəfdarları insanda yalnız Allah iradəsinin alətini görən cabbarilər idi. İslam tarixində qismət haqqında doktrinanın yenidən baxılmasına çoxlu təşəbbüslər olub (qədərilər, mötəzilələr, müasir müsəlman modernistləri).

**QİYAMƏT** – əl-Qiyama ("qalxma, ayağa qalxma", bəs, bər əl-movtda insanlar haqqında) və əs-saa ("saat, hesab saatı") təbirləri, islam kəlam alimləri tərəfindən, əl-məad ("geri dönmə", yəni ölümündən sonra həyata dönmə) ümumi təbiri ilə ifadə edilmişdir.

Müsəlmançılıqda qiyamətdə vaqe olacaq hadisələrin ilk şəkil halında anlanması: 1) "Sonun", qiyamətin gəldiyini xəbər verən idarə və əlamətlər, xüsusən Dəccəlin meydana gəlməsi. Bunlar bütün insanları dəlalətə çəkəcək və bundan sonra İsa və ya Mehdi (ya da İsa, həm də Mehdi kimi) gələcək və Dəccəli öldürəcək. Bunu iman dövrü təqib edəcək; 2) İlk boru **(sur)** səsi. Yaşayan hər şey öləcək. Fasilə. İkinci sur səsi bütün yaşayanları həyata çağıracaq və onları birləşmə yerində **(məhşər)** toplayacaq. Orada Allahın hüzurunda tər tökərək uzun vaxt dayanmaq **(movrif)**;

3) hesab, mühakimə başlanır. Allahın doğrudan-doğruya hər kəsi sorğuya çəkməsi. Əməl dəftərləri. Vəziyyəti şübhəli olanların əməllərinin ölçülməsi. İşlənmiş pisliklərin haqq-hesabı ilə insanın insana və insanın heyvana etdiyi pisliklərin qaytarılması; 4) cənnətə doğru cəhənnəm üzərindən atılmış körpü **(sirət)**. Şəfaət, Peyğəmbərin hovuzu; 5) cəhənnəm atəşi; 6) cənnət bağçası, bərzəhlər.

Peyğəmbər üçün qiyamət və hesab günü birinci dərəcədə əhəmiyyətli idi və Quranda bunlar haqqındakı məlumatlar çoxdur.

**QNOMLAR** (*almanca* Qnomen) – alman-skandinav əfsanələrində və Avropa xalqlarının bəzilərinin folklorunda çeçələ barmaq boyda adamcığaz, müdrik sehrbazlar, yerin altında yaşayan və yalnız gecələr yer üzünə çıxan mahir dəmirçilər; qarşısıalınmaz qüvvələrin təcəssümü. Əfsanələrə görə, qnomlar Odin üçün qılınc, Tor üçün gürz və qüvvə kəməri döyüb hazırlayıblar, Freira üçün möcüzəli gəmi və qızıl tüklü qaban yaradıblar. Qnomlar insanlara qarşı xeyirxahdılar. Sonrakı əfsanələr qnomların qüvvətli hökmdarlara, əyanlara, orduya və i.a. malik olan yeraltı dövlətlərindən bəhs edirlər. Azərbaycan əfsanə və nağıllarında qnomların qarşılığı cırtdanlardır.

**QOLQOFA** (*arameycədən* qulqulfa – kəllə) – Yerusəlimin ətrafında olan təpədir. Edam yeri kimi adlanan Qolqofada qədimdə canilər qətl olunurdu. İncilə əsasən bu yerdə İsa peyğəmbər çarmıxa çəkilmişdi. Buna görə xristianlıqda Qolqofa əzab-işgəncələrin sinonimi olmuşdur.

**QOR** – Qədim Misir dinində Osirisin və İsidanın oğlu, atasının intiqamını ilahi Setdən alan Günəşin ilahisi, Firon hakimiyyətinin hamisi. Şahin və ya şahin başlı insan surətində ehtirama malik idi.

**QROSSMEYSTER** (*almanca* qros – böyük, meyster – ağa) – alman hərbi rahiblər ordenlərində böyük magistr.

**QUQENOTLAR** (*frans.* quqenots, *alman.* Endjenossen – "and ittifaqı ilə birləşənlər". İsveçrədə kalvinistlərin adı) – XVI-XVII əsrlərdə mütləqiyyət və katolik kilsəsinin əleyhinə birləşən Fransa kalvinistləri. Bunlar ölkənin əsasən cənub və cənub-qərb bölgələrinin burjuaziya və sənətkarlarını və kralın apardığı mərkəzləşmə siyasətinin əleyhinə çıxan dvoryanların bir hissəsini birləşdirirdilər. Quqenot hərəkatının rəhbərliyi Burbon sülaləsinin şahzadələri və Şatilyon zadəgan ailəsinin əlində idi. Feodallarla burjuaziyanın maraqlarını üz-üzə gətirən katoliklər və quqenotlar arasında cərəyan edən mübarizə, Fransada 1562-1594-cü illərdə uzun və qanlı vətəndaş müharibələrinə gətirdi. Bu müharibələrdə qazanılmış və 1598-ci ilin Nant fərmanında qeyd edilmiş siyasi hüquqlar kardinal Rişelye vaxtında (1629-cu ilin "mərhəmət fərmanıyla") quqenotların əllərindən alınmadı, 1685-ci ildə isə XIV Lüdoviq kalvinist ayinlərini qadağan etdi. Quqenotların təqibi yalnız XVIII əsrin axırında olan Fransa burjua inqilabından sonra dayandırıldı və onlar öz hüquqlarında katoliklərə bərabər oldular.

**QUM**, Qumm – Tehrandan 120 km cənubda şəhər. Şiəliyin **İsnə əşəriyyə** qolunun mərkəzlərindən biri. Burada bir çox övliya və müridlərin türbələri var (454 ədəd), yeddinci imam Musa əl-Kazimin qızı; səkkizinci imam Əli ər-Rizanın bacısı Fatimənin türbəsi və Səfəvilərə mənsub olan şahların məzarları buradadır (Ayətullah Mərəşi öz evinin daxilində dəfn olunub).

**QURAN**, Qurani-Kərim – bir milyarddan artıq insanın etiqad etdiyi islam dininin müqəddəs kitabı, ərəb ədəbi dilinin ən möhtəşəm abidəsi və səmavi kitabların ən sonuncusudur. İlahi gözəlliyə malik olan bu əsər ulu Tanrının öz möcüzəsi kimi milyonlarla insanın qəlbinə hakim kəsilmiş, onların canına, qanına hopmuş, beyninə nüfuz etmişdir. Quranın ilahi gözəlliyini təsdiq etməyə təkcə bu kifayətdir ki, ərəb dilini bilməyənlər belə onu dinləməkdən doymur, ən müqəddəs kəlam kimi cani-dildən ona qulaq asırlar. Hər gün yeyilən çörək insanın ürəyini vurmadığı kimi, gündə bir neçə dəfə eşidilən Qurani-Kərim də insanı yormur, əksinə ona mənəvi möhkəmlik, səbat və təsəlli bəxş edir, qarşısında əbədiyyətə doğru yeni, əsrarəngiz bir aləm açır.

Qurani-Kərim Məhəmməd peyğəmbərə təqribən 23 il ərzində Allah-təala tərəfindən vəhy olunmuşdur. Bəqərə surəsinin sonuncu iki ayəsi istisna olmaqla (bu iki ayə Peyğəmbərə bilavasitə Allah-təala tərəfindən vəhy edilmişdir) Qurani-Kərim Məhəmməd əleyhissəlama Allahın əmrilə vəhy mələyi Cəbrayıl vasitəsilə nazil olmuşdur. Mələyin əsas vəzifəsi Allahın əmrlərini peyğəmbərlərə olduğu kimi çatdırmaq, onları oxutdurub öyrətmək və əzbərlətməkdir. Mələk tərəfindən peyğəmbərlərə təlim edilən vəhy heç bir zaman unudulmur, onların hafizəsində nəqş olunub qalır. Sonra peyğəmbərlər həmin əmrləri, hökmləri olduğu kimi öz ümmətlərinə çatdırır, təbliğ edirlər.

Qurani-Kərimin vahid bir kitab şəklində tərtibinə ilk dəfə Yəmamədə baş verən bir vuruşda Allah kəlamını əzbər bilən yetmişə qədər əshabə şəhid olduqdan sonra, Ömərin təşəbbüsü ilə Əbu Bəkrin xəlifəliyi zamanında başlanmış, sonra bu iş Osmanın xəlifəliyi dövründə davam etdirilmişdi. Əbu Bəkr həmin işi Peyğəmbər əleyhissəlamın əsas vəhy katiblərindən biri olan Zeyd ibn Sabit başda olmaqla Quranı əzbər bilən bir neçə yaxın əshabəyə tapşırmışdı. Onlar Peyğəmbər əleyhissəlam dövründən dəri, sümük, daş və xurma ağacının qabıqları üzərində yazılmış, həmçinin bir çox əshabənin hafizəsinə həkk olunmuş ayələrin hər birinin Allah kəlamını əzbər bilən iki mötəbər şəxsin şahidliyi ilə qeydə aldıqdan sonra bunları cild halına saldılar. Tərtib edilmiş nüsxə əvvəlcə Əbu Bəkrin, sonra isə Ömərin yanında saxlanırdı. Ömər vəfat edərkən həmin nüsxənin öz qızında – Peyğəmbərin zövcələrindən biri olan Həfsədə qalmasını vəsiyyət etmişdi.

Tarixi qaynaqlar Quran nüsxələrinin eyni zamanda Əli əleyhissəlam, Peyğəmbərin digər yaxın əshabələri Übeyy ibn Kəb, Abdullah ibn Məsud, Miqdad və Əbu əş-Əşəri tərəfindən yazıldığını da xəbər verir.

Xəlifə Osmanı isə yenidən bu işə sövq edən aşağıdakı hadisə olmuşdu. Məşhur sərkərdə Hüzeyfə ibn əl-Yəmən hicrətin 35-ci ilində suriyalı və iraqlı əsgərlərdən ibarət ordunun başında Azərbaycanda döyüşən zaman şamlılar Übeyy ibn Kəbin, kufəlilər Abdullah ibn Məsudun, bəsrəlilər isə Əbu Musa əl-Əşərinin tərtib etdiyi Quranı oxuyur, hərə öz nüsxəsinin, öz qiraətinin düzgün olduğunu iddia edirdi. Hüzeyfə Mədinəyə qayıtdıqdan sonra Azərbaycanda baş vermiş hadisəni Osmana danışıb, bu sahədə təcili bir iş görməyin vacib olduğunu ona demişdi. Xəlifə Osman özü də həmin fərqləri hiss etmişdi. Çünki Mədinə qarelərinin öz aralarında belə Quranın qiraəti barəsində bəzən Allah kəlamının təhrif olunmasına gətirib çıxarda bilən fikir ixtilafı var idi. Buna görə də Osman Məhəmməd peyğəmbərin yanında katiblik edən məşhur əshabələri bir yerə yığıb Əbu Bəkrin xəlifəliyi zamanında tərtib edilmiş Quranı onlara vermiş, oradakı ayələri yenidən nələrdən keçirib, dəqiq düzəlişlərlə vahid bir mətn tərtib etməyi tapşırmışdı. Bir müddətdən sonra Zeyd ibn Sabitin başçılıq etdiyi bu işçi heyət Allah kəlamının vahid mətnini tərtib etdi. Osman həmin mətni dörd, yaxud altı nüsxədə yazdırıb, birini Mədinədə saxladı, digərlərini Şam, Kufə və Bəsrəyə göndərdi. Qalan bütün nüsxələr isə yığılıb yandırıldı. Beləliklə, islam aləmində Qurani-Kərimin bu gün əlimizdə olan vahid mətni qaldı.

İslam ərəb aləmində şəhər əhalisi sabitləşdikcə onlar məscidlərə toplaşıb Quranı düzgün oxumağı öyrənirdilər. Məscidlərdə Quranı öyrənmək məqsədilə xüsusi məktəblər, mədrəsələr təşkil olunduğu üçün bu işi gözəl bilən müəllimlərə böyük ehtiyac hiss olunurdu. Nəticədə, Quranın qiraət variantları, avazla oxunması, təfsiri, surə, ayə, söz və hərflərinin sayı böyük diqqətlə öyrənilməyə başlandı. Həmin dövrdə bu, bir tərəfdən Allah kəlamını düzgün oxuyub, düzgün izah etmək, digər tərəfdən isə islam dinini möhkəm qorumaq, onun təhrif edilməsinə yol verməmək sahəsində görülən ən zəruri iş hesab olunurdu.

Quran sözünün mənası "oxumaq", "tələffüz etmək", daha doğrusu Allahdan Məhəmməd əleyhissəlama nazil olan sözlərin oxunması, tələffüz edilməsi deməkdir. Qurana, həmçinin müshəf (səhifələnmiş kitab, lülə halında bükülmüş kağız), zikr (xəbərdarlıq, xatırlatma, öyüd-nəsihət), fürqan (haqla nahaqqı ayırd edən) və s. də deyilir.

Məhəmməd əleyhissəlama ramazan ayında nazil olan Quran 114 surədən, müxtəlif qiraət variantlarına və bölgülərə görə 6200-dən çox ayədən, 77934 sözdən ibarətdir. Quranın fəsillərini təşkil edən surələr bir-birindən bismillahla ayrılır. Yalnız IX surədə bismillah ifadəsi yoxdur. Müfəssirlər bunun səbəbini onun VIII surənin ardı olması ilə izah edirlər. Quranın ilk surəsi fatihə istisna edilməklə qalan surələr əsasən uzundan qısaya qaydası ilə düzülmüşdür. Surələrin, eləcə də bir sıra ayələrin xronoloji ardıcıllığı isə təfsirlərdə müəyyən edilmişdir. Hər surə ayələrə bölünür; ayə bəzən bir, iki və ya bir neçə sözdən,

bəzən də bir, iki və ya bir neçə cümlədən ibarət olur. Ayələrdə ümumiyyətlə, 1-dən 68-ə qədər söz mövcuddur. Quranın ən uzun surəsi Bəqərə 286 ayədən, ən qısa surəsi Kövsər isə 3 ayədən ibarətdir. Musanın Tövratından, İsanın İncilindən fərqli olaraq Qurani-Kərim Peyğəmbər əleyhissəlama birdənbirə, bütöv şəkildə deyil, hissə-hissə, əvvəlcə Məkkədə, sonra isə Mədinədə nazil olmuşdur. Odur ki, Quranın nazil olması dedikdə onun Allah-təalanın əmri ilə Cəbrayıl tərəfindən təqribən 23 il ərzində Məhəmməd peyğəmbərə ayə-ayə, hissə-hissə çatdırılması nəzərdə tutulur. İslam alimlərinin fikrincə, Quranın təxminən 90 surəsi Məkkədə, 24 surəsi, yəni beşdə biri Mədinədə nazil olmuşdur. İlkin Məkkə surələri həcmcə çox qısadır.

Avropa alimləri Məkkə və Mədinə dövrlərini qəbul etməklə yanaşı, Məkkə dövrünün özünü üç mərhələyə ayırırlar: 1) Birinci Məkkə dövrü (48 surə). Burada əsasən Allahın vəhdaniyyətindən bəhs edilir. Ulu Tanrı çox zaman Allah, Rəbb deyə adlanır. Həmin surələrdə fəsahət və bəlağət güclü, onların dili, üslubu şairanədir; 2) İkinci Məkkə dövrü (21 surə). Bu dövrdə də təkallahlılıqdan, qiyamətdən geniş bəhs olunur. Burada qiyamətin əyani təsvirindən daha çox, onun qulaqlara oxunmasına, eşitdirilməsinə üstünlük verilir. İkinci Məkkə dövrünə daxil olan surələr sakit surələrdir. Onlarda təxəyyülündən daha çox dalğınlıq, düşüncə hakimdir; keçmiş peyğəmbərlərin hekayətləri, xüsusilə Musa ilə bağlı əhvalatlar təsvir olunur. Bu surələr üslub baxımından yüksək nəsr nümunəsidir. Onlarda Quranın ehkamı güclənir. Allahın varlığını Onun ayələri – möcüzələri və qüdrət əlamətləri ilə anlamağa xüsusi fikir verilir. Allahın Rəhman adı tez-tez işlənir. Buna görə həmin mərhələyə Rəhman dövrü də deyilir; 3) Üçüncü Məkkə dövrü (21 surə). Bu dövrdə ayrı-ayrı peyğəmbərlərin hekayətləri mühüm yer tutur, bir sıra dəlillər təkrar edilir. Surələrin həcmi tədriclə artır, un, in qafiyələri çox işlənir; ya əyyuhən-nas ("ey insanlar") ifadəsi tez-tez təkrar olunur. Bu surələr dil baxımından çox aydın olsa da, üslub baxımından quru, rəsmidir.

Mədinə dövründə isə (24 surə) Məkkədə olduğu kimi, ümumiyyətlə, insanlara deyil, ayrı-ayrı firqələrə, o cümlədən nadir hallarda bütpərəstlərə və xaçpərəstlərə də müraciət olunur, xaçpərəstlərin bəzi ehkamlarına etiraz edilsə də, onlara dost mövqedən yanaşılır. Yəhudilərə və Mədinədəki münafiqlərə isə tez-tez etiraz bildirilir. Mədinə surələri müsəlman icmasının bir çox dini, hüquqi və əxlaqi ehkamlarını özündə ehtiva etdiyinə görə burada rəsmi üslub üstünlük təşkil edir. Bununla belə, bəzi ayələr (II, 16-cı və sonrakı ayələr; 266-cı və sonrakı ayələr) üslub baxımından çox bəlağətli və şairanədir. Onu da qeyd etmək lazımdır ki, yuxarıdakı dörd dövrə bölünən surələrin Quranda düzülüşü ardıcıl deyildir. Onların ardıcıllığını bilmək üçün təfsirlərə müraciət etmək lazımdır.

Bütün ərəb qəbilələrinin ən müqəddəs ziyarətgahı Kəbənin yerləşdiyi Məkkədə

yaşayan Qureyş qəbiləsinin ləhcəsi VI-VII əsrlərdə Ərəbistan yarımadasında əvvəlcə ümumxalq dili, sonra isə əbədi dil rolunu oynamağa başlamışdı. İslamdan qabaqkı dövrdə bu dildə artıq Müəlləqat kimi möhtəşəm poeziya nümunələri yaradılmış, onlar ölməz sənət əsərləri kimi Kəbənin divarlarından asılmışdı. Qureyş ləhcəsində nazil olmuş Qurani-Kərim isə ərəb dilində ilk təkrarolunmaz nəsr nümunəsidir.

Dünya mədəniyyətinin ən möhtəşəm abidələrindən biri olan Qurani-Kərim müsəlmanlığın dini-fəlsəfi, hüquqi qaynağı olmaqla yanaşı, həm də çox mühüm bir ədəbi-tarixi salnamədir. Quranda ərəblərin islamdan əvvəlki tarixinə, adət-ənənələrinə, həyat tərzinə, dinlərinə, sami xalqların dünyagörüşünə, etiqadlarına, ümumiyyətlə, bəşər tarixinə, onun keçmişinə və gələcəyinə dair çox qiymətli məlumatlar vardır. Qurani-Kərim Yerin, Günəşin, Ayın, səyyarələrin hərəkət etməsini heyrətamiz bir şəkildə bəyan etmiş, sonradan baş verəcək bir çox hadisələr, elmi kəşflər barəsində doğru-düzgün məlumat vermişdir. Quranın hələ lazımınca açılmamış, dərk edilməmiş ayələri isə bu gün insan idrakına sığmayan kəşflər, ixtiralar bir-bir yerinə yetdikcə Quran ayələrinin də əsil məzmunu, mahiyyəti tədriclə anlaşılır. Eyni zamanda həyat, cəmiyyət inkişaf etdikcə, elmi kəşflər, müasir, kosmik tədqiqatlar artdıqca həmin ayələr yeni məzmun, yeni mahiyyət kəsb edir və yenə də insan idrakı üçün bir müəmma olaraq qalır. Qurani-Kərimi oxuyan onun təkcə çətin, mütəşabih ayələrinin deyil, eyni zamanda zahirən asan anlaşılan ayələrinin də arxasında batini bir məna, rəmz olduğunu görüb, bundan heyrətini gizlədə bilmir və onun, doğrudan da, fövqəlbəşər söz, Allah kəlamı olduğuna inanır. Peyğəmbər əleyhissəlamdan rəvayət olunan bir mötəbər hədisdə bu barədə belə deyilir: "Quranın zahiri və batini (daxili məzmunu) vardır. Batinin də bir batini, ondan sonra isə yeddiyə qədər batini vardır".

Burada yeddi rəqəmi bildiyimiz müəyyən say, ədəd deyil, qədim ərəblərdə işlənən intəhasız çoxluq mənasındadır.

İslamın ilk dövrlərində Qurani-Kərim göydən nazil edilmiş kitab olmaqla yanaşı, yeni zamanda bütün elmləri, ictimai-siyasi həyatın ən mühüm problemlərini, cəmiyyəti düşündürən və narahat edən məsələlərin cavabını, müsəlman icmasının əsas hüquqi məsələlərini özündə cəmləşdirən yeganə nüfuzlu mənbə hesab olunurdu. Yeni dinin tədriclə beyinlərə, fikirlərə hakim kəsildiyi, həyatın bütün sahələrinə nüfuz etdiyi bir dövrdə qapalı qəbilə həyatına adət etmiş bütpərəst ərəblərin qarşısına ictimai-iqtisadi münasibətlər, ailə həyatı, qohumluq-dostluq əlaqələri, fərdi həyat, ibadət, etiqad və başqa məsələlərlə bağlı yeni problemlər çıxır, onlar həmin problemləri həll etmək üçün yollar axtarırdılar. Bu məqsədlə tez-tez Peyğəmbər əleyhissəlama müraciət edilir, ondan bu və ya digər müşkül məsələnin açılması, həll olunması xahiş edilirdi. Peyğəmbərimiz Allah dərgahına üz tutub bu suallara cavab istəyir, həmin cavablar ona Allah-təala

tərəfindən Cəbrayıl vasitəsilə ayə-ayə nazil edilirdi.

Qurani-Kərim bütün kainatın yaradıcısı, hər şeyin xaliqi Allah-təalanın birliyini, Onun qüdrət və əzəmətini, əzəli və əbədi varlıq olmasını tərənnüm edən ilahi bir kitab, müqəddəs bir himndir, o, insanı məhz Allaha ibadət etməyə, Ona heç bir şərik qoşmamağa, bütün işlərdə yalnız Ona bel bağlamağa, Ondan kömək və mərhəmət diləməyə, heç kəsin deyil, yalnız Allahın qarşısında kiçilməyə, yalnız Ona boyun əyməyə çağırır. Qurani-Kərim eyni zamanda insanı uca tutur. Allahın onu ən gözəl biçimdə yaratdığını, cəmi məxluqatdan üstün tutduğunu, dağları, dənizləri və çayları, suda-quruda yaşayan bütün heyvanları onun ixtiyarına verdiyini bildirir. Allaha hər cür ibadətlə məşğul olan nurani mələklərə belə hörmət əlaməti olaraq insana səcdə qılmağı, ona təzim etməyi buyurur.

Qurani-Kərim qadının cəmiyyətdəki yerini və hörmətini yüksəklərə qaldırır, onun kişi ilə birlikdə ailədə xüsusi mövqe sahibi olduğunu, uşaqların tərbiyəsində ata ilə yanaşı məsuliyyət daşıdığını bildirir. O, kişilərə qadınla zərif bir məxluq kimi nəzakətlə rəftar etməyi, onun ehtiramını saxlamağı, mehr, mal-dövlət məsələlərində onlara güzəştə getməyi tövsiyə edir. O həm də ailə yükünün əsasən kişinin çiyninə düşdüyünü nəzərə alıb qadından kişiyə itaət etməyi tələb edir. Qurani-Kərim Cahiliyyət dövrünün ən vəhşi adətlərindən biri olan körpə qızların diri-diri torpağa basdırılmasını qadağan etmiş, nikah, varislik məsələlərində ər-arvadın qarşılıqlı əlaqələrində islamdan əvvəlki dövrlərlə müqayisədə qadınlara xeyli üstünlük vermişdir. Qurani-Kərim kişiyə eyni zamanda dörd arvad almağa icazə versə də, onlara ehtiyac, zərurət olmadıqda bunu etməməyi, ömürlərini bir qadınla başa vurmağı məsləhət bilir. Allah kəlamı qadından ismət və iffət, kişidən namus və qeyrət, ər-arvaddan isə nümunəvi əxlaq tələb edir.

Qurani-Kərim Adəm oğluna valideynlərinə hörmət etməyi, son nəfəsə qədər onların qulluğunda durub ehtiramlarını gözləməyi, qohum-əqrəbaya kömək etməyi, qohumluq əlaqələrini qoruyub saxlamağı, onları daha da möhkəmləndirməyi əmr edir. Qurani-Kərim yetimi ərsəyə çatdırıb malını qorumağı, ona düşən mirasdan bir çöpə belə haqsız yerə toxunmamağı, yoxsula, miskinə, müsafirə, qəribə, dilənçiyə – ümumiyyətlə, ehtiyacı olan hər bir kimsəyə təmənnasız yardım göstərməyi vacib buyurur.

İslam aləmində Qurani-Kərimlə bağlı ən çətin məsələlərdən biri də onun təfsiri və tərcüməsi məsələsidir.

Məlumdur ki, Allah kəlamının ayələrinin hər biri bu və ya digər hadisə ilə əlaqədar nazil olmuşdur. Hər ayənin öz nazilolma səbəbi vardır. Allah kəlamını doğru-düzgün başa düşmək üçün Peyğəmbərimiz onların hər birini öz əqli səviyyəsinə müvafiq olaraq izah edərdi. Məhəmməd əleyhissəlamın vəfatından sonra Əli ibn Əbu Talib, Abdullah ibn Abbas, Mücahid, Qətalə, Müqatil, İbn Cübeyr kimi yaxın əshabələr bu işi

davam etdirmiş, Allah kəlamını Peyğəmbərdən eşidib bildikləri, ondan rəvayət olunan hədislər əsasında təfsir etmiş, mənasını ümmətə çatdırmışlar. Sonrakı dövrlərdə Qurani-Kərimə müxtəlif məzhəb və istiqamətlərdə saysız-hesabsız təfsirlər yazılmış, ayələrin zahiri və rəmzi mənaları açıqlanmışdır.

Quran təfsiri islam aləmində ən çətin elm hesab olunur. Təfsirə yalnız elmlə müctəhidlik mərtəbəsinə yetişən alim cürət edə bilər. Qurani-Kərimi təfsir etməyə girişən müctəhid iyirmi ana **(əsas)** elmi və ondan ayrılmış altmış qolu mükəmməl bilməlidir ki, bunların da məcmuu səksən elm təşkil edir. Həmin elmlərə dərindən yiyələnməyən şəxsin etdiyi Quran təfsiri yarımçıq, naqisdir ki, bu da böyük günah sayılır.

İslam ehkamına görə, Qurani-Kərimdəki elm və bilgilər üç qisimdir. Birinci qismə Allah-təalanın isimləri və sifətləri daxildir ki, ulu Tanrı onların mahiyyətini heç bir bəndəsinə bildirməmişdir. Onları Allahdan başqa heç kəs bilməz. İkinci qismə daxil olan bilgilər yalnız Məhəmməd əleyhissəlama bildirilmişdir. Üçüncü qismə daxil olan bilgiləri Allah-təala Məhəmməd əleyhissəlama öyrətmiş və ona həmin bilgiləri öz ümmətinə öyrətməyi əmr etmişdir.

Qurani-Kərimə orta əsrlərdə yazılmış məşhur təfsirlər içərisində Təbərinin, Əbu Həyyanın, Fəxrəddin Razinin, Beyzavinin təfsirlərinin, Zəməxşərinin "Kəşşaf", Cəlaləddin Məhəlli və Cəlaləddin Süyutinin "Təfsir əl-Cəlaleyn", Şeyx Təbərsinin "Məcmə əl-bəyan" əsərlərini, eləcə də "Təfsiri Əbis-Səud", "Təfsiri-Səfi" və başqalarını göstərmək olar.

Qurani-Kərimin sufi təfsirinə, rəmzi yozumuna həsr edilmiş əsərlər içərisində Mühyiddin ibn Ərəbinin məşhur təfsiri, həmçinin Cəlaləddin Ruminin Allah kəlamının batinini, daxili mahiyyətini anlamaq üçün əvəzsiz qaynaq olan "Məsnəvi"si xüsusi yer tutur.

Qurani-Kərim qədimdən bəri türk və fars dillərinə tərcümə edilmişdir. Quranın elm aləminə məlum olan ilk türkcə tərcüməsi XI yüzilliyə aiddir. Cığatay ləhcəsində olduğu ehtimal edilən bu tərcümənin bir nüsxəsi Peterburq Şərqşünaslıq İnstitutunun kitabxanasında, digər nüsxəsi isə Mançestr şəhərindəki kitabxanada saxlanılır. Allah kəlamının oğuz ləhcəsində olan natamam bir tərcüməsi Britaniya muzeyində, 1338-ci ildə Elxanilər üçün həmin ləhcədə Şirazda yazılmış başqa bir nüsxələri isə Türkiyədədir. Hazırda türk dilində Quranın yüzə yaxın tərcüməsi və təfsiri mövcuddur.

Avropada Qurani-Kərimin tərcüməsi və təfsirinə orta əsrlərdən bəri böyük maraq göstərilmişdir və 1513-cü ildə italyan, 1616-cı ildə alman, 1647-ci ildə fransız, 1648-ci ildə ingilis dillərində tərcümə edilmişdir. Bu gün həmin dillərdə Quranın otuza qədər tərcüməsi vardır.

Qurani-Kərimin ruscaya tərcümələrinin ən mükəmməli İ.Y.Kraçnovskinin tərcüməsi hesab olunur.

Qurani-Kərimin Azərbaycan dilinə tərcüməsinə orta əsrlərdən başlanmış, lakin, təəssüf ki, bu tərcümələr əlyazma

şəklində qalıb nəşr edilməmişdir. Zaqafqaziya şeyxülislamı Məhəmməd Həsən Movlazadə Şəkəvinin 1908-ci ildə Tiflisin Qeyrət mətbəəsində çap olunmuş "Kitab əl-bəyan fi təfsir əl-Quran" adlı ikicildlik tərcümə təfsiri də öz elmi siqləti və dəqiqliyi ilə nəzər-diqqəti cəlb edir.

Qurani-Kərimin Azərbaycan dilinə ədəbi tərcümənin son nailiyyəti kimi akademik Ziya Bünyadovun və professor Vasim Məmmədəliyevin Qurani-Kərimin 1991-ci il şərhli nəşrini göstərmək olar.

**QURBAN BAYRAMI** (*ərəbcə-türkcə*) – müsəlmanların ən böyük dini bayramı. Orucluğun qurtarmasından 70 gün sonra keçirilir və adətən üç gün davam edir. Qurban bayramı günü müsəlmanlar canlı qurban verir: müəyyən mərasimlə qoyun və ya dəvə kəsilir. Kəsilmiş heyvanın ən yaxşı parçasından və dərisindən din xadimlərinə pay göndərilir, ətindən isə bayram yeməyi hazırlanır. Məsləhət görülür ki, ətdən kasıblara və dilənçilərə də vermək vacibdir və ya onları süfrəyə dəvət edirlər ki, bayram günlərində ac və narazılıq edən olmasın. Qurban bayramı islama qədim köçəri heyvandar ərəblərdən qalmışdır. Ərəblər öz ilahilərinə və səhra cinlərinə qurban verirdilər (yəni qonaq edib, yedizdirirdilər) ki, onların heyvanlara və adamlara zərəri dəyməsin.

**QURU** – brahman hindlilərdə alimin, ya müdrik adamın adı.

# L

**LAMA** (təbiətcə – ən yüksək səmavi) – əvvəllər Tibetin lamait kilsəsinin ən yüksək xadimi, sonralar Tibetdə, Monqolustanda və Rusiyada (Kalmıkiyadan başqa. Burada Lama ünvanını yalnız rəhbər din xadimləri daşıyırlar), ümumiyyətlə, buddist rahib. Rahiblik andlarının ciddiliyinə görə lamalar üç dərəcəyə bölünürlər: ən yüksəyi – qelun, sonra – qetsul və ən kiçiyi – bandi. Lamaizm lamaları günahsız və qüsursuz elan edib, dindarları onların "Buddanın yer üzündə nümayəndələri" olduqları üçün bütün nəsihətlərinə əməl etməyə çağırırdı. İctimai baxımdan lamalar ən yüksək (xubilqan, xutuxt, qeqen, xambolama və b.) və aşağı rütbəlilərə bölünürdülər. Yüksək rütbəlilər öz vəziyyətlərinə görə, qəbul edilmiş qaydaya görə, mənşəcə feodallar sinfinə aid idilər.

**LAMAİZM** – buddizmin maxayana istiqamətinin qolu, Tibetdə əmələ gəlmişdir. Lamaizmin müəssis XIV əsrin axırında – XV əsrin başlanğıcında yaşamış Tibet laması Tszonxava hesab olunur. XVI əsrin axırında lamaizm Monqolustanda, XVII əsrdə Buryatiyada və kalmıklarla tuvinlərin arasında yayılmışdır. Lamaizmin əsas xüsusiyyətləri xubilqanlar ayininin fövqəladə inkişafı, lamalığın (rahibliyin) kütləvi yayılması və adətlərin orijinallığıdır.

Lamaizm öyrədir ki, buddalar və bodisatvalar yer üzünə insanların xilası üçün enib, ən uca lamalara və buna görə xubilqanlara ("canlı buddalara") çevrilirlər.

Uca lamaları ilahiləşdirərək, lamaizm dindarlardan bu ucalara ibadət və onlara fövqəladə cisimlər kimi hörmət etməyi tələb edir. Dalay-lama, pançenertni və Tibetdə olan monastır başçılarının çoxu xubilqan hesab olunurlar. Xubilqanlar panteonuna təkcə lamalar yox, mülkü hökmdarlar da daxil olunurdu: monqollarda Çingiz xan və başqa xanlar, buryatlarda Dara-exe ilahənin xubilqanı kimi II Yekaterina və b.

Öz mərasimlərində lamaizm çox şeyi – məs., dağların və çayların ruhlarına ibadəti, bəzi heyvanların ilahiləşdirilməsi və s.-ni şamanlıqdan götürmüşdür. Lamaist ibadət mərasimində musiqidən istifadə edilir (monastır orkestri), "müqəddəs" rəqslər və pantomimalar oynanılır və s.

**LARLAR** – Qədim Roma dinində ilahiləşdirilmiş əcdadlar: icmanın, şəhərin və ya küçənin əfsanəvi hamiləri (məs.: Romul və Rem, onların dayəsi Akka Larensiya, Tit, Tasi və evlərin, ailələrin xeyirxah ruhları.

**LAT**, əl-Lat – Qədim Ərəbistan ilahəsi. Bu ad (əl-ilahətdən gəlir) "ilahə" mənasını verir və bəlli məbudun, ərəblərə görə, Günəşin ismi-xassı olmuşdur. Bu ilahəyə müxtəlif bədəvi qəbilələr tapınırdı. Onun adına Taifin

yaxınlığında (Məkkədən şərqdə), Bacc vadisində məbəd var idi. Məbədin rəmzi, üzərində müxtəlif süs olan ağ daş idi. Əl-Latın adı çox vaxt əl-Uzza ilahəsi ilə birlikdə çəkilir. Qureyşilərdə əl-Uzza və Manat, əl-Lat ilə birlikdə o dərəcədə yüksək tutulurdu ki, Peyğəmbər bu üç ilahənin Allah nəzdində şəfaətçilik etdiyini qəbul etmək məcburiyyətində qaldı, lakin çox çəkmədi ki, bunu inkar etdi. Əbu Sufyan əl-Lat ilə əl-Uzzanı Uhud döyüşünə gətirmişdir. Məkkənin alınmasından sonra, Taif yanındakı əl-Lat məbədi söküldü, lakin əl-Lat unudulmadı. Bu gün də Taifdə əhalinin əl-Uzza, Hubal və əl-Lat deyə adlandırdıqları və xəstəliklərə qarşı dərman tapmaq ümidi ilə gizlincə ziyarət etdikləri daş yığınları var.

**LATONA,** Leto – qədim yunan əfsanələrində – Zevsin Heradan əvvəlki arvadı, Delos adasında doğduğu Apollonun və Artemidanın anası.

**LEQAT** (*lat.* leqatus – elçi) – Roma papası (Vatikan) tərəfindən ölkələrə xüsusi tapşırıqla (müvəqqəti, fövqəladə və ya daimi) göndərilən dini xadim.

**LETO** – b a x: **Latona.**

**LEVİT** (*qədim yəhudicə* hərfən – ilan) – Bibliya iudaizmində kahin, ibadətgah xadimi. Levitlər, Bibliyadakı Leviyanın nəslinə bağlı olan silkin nümayəndələridir.

**LİLİT** – Babil ovsunlarında qadın cinsli gecə ruhu, ola bilsin, gecənin təcəssümü. Talmudda Lilit Adəmin birinci arvadı, nəhənglərin, qəddar ruhların anası, gözəl, cazibədar, uzunsaçlı qadın şəklində, tənha yatan kişiləri ziyarət edən gecə kabusu. Orta əsr yəhudi xurafatlarında – bayquş sifətində uçan və uşaqları oğurlayan gecə cini.

**LOĞMAN,** Luqman – islamiyyətdən qabaqkı ərəblərdə əfsanəvi bir şəxs olub. Quranda adı çəkildiyi kimi, sonrakı dövrlərin əfsanə və şerində də yer almışdır. Loğman əfsanəvi inkişafında üç əsas səhifə təqdim edir: 1) Qurandan qabaqkı səhifə: Loğman əl-Müəmmar, cahiliyyənin uzun ömürlü qəhrəmanı; 2) Quran səhifəsi: Loğman, zərbi-misal halına gəlmiş həkim, şair; 3) Qurandan sonrakı səhifə: Loğman, hikmətli kiçik qissələr qəhrəmanı.

1. **Qədim Ərəbistan ənənələrində Loğman**

Qədim əfsanələr belə Loğmanı müxtəlif simalarda təsvir edir: a) Müəmmar kimi, b) qəhrəman kimi, c) həkim kimi. Ona uzun ömür keçirməsi təklif edilmişdi. Həyatının boyu kimi yeddi qartalın həyat boyunu seçdi: bir qartal yaşa dolur, bu ölüncə ikincisini bəsləyir – beləliklə, altı qartal bəsləyir və özü həyatda qalırdı. Yeddincisi Lubad adlı qartal ölər-ölməz özü də ölür. Uzun həyatı təmsil etməyə yarayan təşbehlər arasında ərəblərin misal gətirdikləri qartal ilə bənzətmə idi. Loğmana, cahiliyyə dövrü qəhrəmanlarının başına gələ biləcək müxtəlif macəralar isnad olunur. İslamdan qabaqkı ərəblər Loğmanı həkim kimi tanıyırlar.

2. **Loğman, zərbi-misal hökmünə girmiş şair Loğman** surəsində Loğman həkim halına gətirilir və ona dini nəsihətlər verdirilir. Bunlar nə Loğmanın,

nə də Peyğəmbərin damğasını daşıyır, lakin ümumiyyətlə, şeirlər zümrəsinə girir. Diqqətəşayan bir nümunə: "Əgər yerdəki bütün ağaclar qələm, dəryalar isə mürəkkəb olsaydı və yeddi dərya belə ona qoşulsaydı, yenə də Rəbbimin sözləri [yazılıb] tükənməzdi" (Loğman, 27). Bunlara bənzər təşbehlər başqa rəvayətlərdə də vardır. Peyğəmbər Loğmanı həkim kimi qəbul etdiyindən, Allahın Loğmana həkim həyatı ilə peyğəmbər həyatı arasında seçmə imkanını vermiş olduğunu anlamaq olar. Loğman hikməti seçdi və Davud peyğəmbərə vəzir oldu. Davud peyğəmbər onu bəxtiyar sayır: "Allah səni təqdis etsin, sənə hikmət, bizə əzab", Loğman Yunus peyğəmbər zamanına qədər yaşadı.

3. **Loğman hikmətli qissələr qəhrəmanı**

Peyğəmbərdən qabaq və sonra Loğmana hikmətli şeirlər söyləyən bir şair kimi ehtiram göstərilmişdi. Ehtimal əmsal hikmətli sözlər, atalar sözləri, qissələr mənasında da işləndiyi üçün, bir neçə əsr sonra o, qissə qəhrəmanı halına da gətirildi və beləliklə, ərəblərin Ezopu oldu. Ən qədim qissələr Loğmanı qəhrəman gördükləri, ən qədim islami ənbiya hekayələri onu həkim, bir vəzir və hətta bir peyğəmbər etdikləri halda, sonrakı dövrün Şərq hekayələri onu xarrat, çoban, biçimsiz kölə, misirli kölə, nubiyalı və ya Həbəş kölə halında təsvir edirdi. Bu son xüsusiyyətlər açıqca Ezop əfsanələrindən alınmışdır. Qədim ərəb ədəbiyyatı Loğman haqqında hekayələri tanımırdı. Onlar xeyli sonralar, orta əsrlərin sonlarında meydana çıxdı. 1229-cu il tarixli Paris əlyazması Loğmanın 41 hekayəsini əhatə edir.

4. **Bənzər əfsanəvi şəxslər**

Loğman müxtəlif qiyafətlərə girir. O, müəmmar (qoca), qəhrəman, həkim, hikmətli şeir deyən şair və hekayə qəhrəmanıdır.

**LOQOS** (*yun.* loqos – söz, fikir, ağıl, məfhum, mahiyyət) – bəzi dini və fəlsəfə nəzəriyyələrində Loqos anlayışına ilahi qanunu əhəmiyyəti verilirdi. Nəzəri anlayış kimi, Avropa fəlsəfəsində Loqos birinci dəfə Heraklitdə rastlanır və dünya idrakını, əbədi dünya qanununu, taleyini və görünən mübarizədə örtülü birliyi izah edir. Aristoteldə Loqos – məfhumu və dərrakəni (xarici və daxili) izah edir. Yəhudi – İsgəndəriyyə məktəbində Loqos ruhi mahiyyət kimi təsdiq olunur. Bununla əlaqədar, Loqos haqqında nəzəriyyə dini mahiyyətə malik olur. Filonda Loqos – ilahinin yaradıcılıq enerjisi, ağılı və həmçinin Allahın birinci xilqətidir; İnsan kainat kimi Loqosun şəklidir. Filon nəzəriyyəsində "loqos – Allahda olan sözdür və bu söz Allahın özüdür və Allahla insanın arasında vasitəçidir". Loqosun ilahiyyat ideyası Riqveadda ("Söz, Allahdan gələn müdriklikdir"), Zend-Avestada da ("Söz – ibtidai mahiyyətdir, dünyanı xəlq edir") rastlanır.

**LÖVH,** lavh (*ər.*) – yastı səhifə, lövhə. Birinci mənaya Quranda rast gəlirik (əl-Qəmər, 13): Burada Nuhun gəmisinə Zat əl-vah deyilir. İkinci mənada lövh, üzərində yazı olan və bunun cəmi olaraq əlvah şəkli işlənir.

Əl-davat vəl-lavh təbirinə uyğundur. Ma beynə-l-lavhayn "iki lövhə arasında olan" təbiri də, hədisdə bütün Quranı ifadə üçün işlənmişdir.

**Əl-Lövh,** Quranda (əl-Buruc, 22) lövh məhfuz adını daşıyan lövhəni ifadə edir. Bu ayəyə görə, bu təbir ümumiyyətlə, "yaxşı mühafizə edilmiş" lövhə mənasına uyğun gəlir. Lakin burada bu iki sözün qrammatik baxımdan bir-biri ilə əlaqəli olduğu şübhəlidir. Həqiqətən, məhfuz(un) kimi oxunarsa, söz lavh(in) ilə deyil, daha qabaqkı Quran(un) sözünə bağlanır və tərcüməsi də belə olmalıdır; "Bəlkə bu lövhədə mühafizə edilmiş olan ovulmuş Qurandır". "Mühafizə edilmiş", hər cür dəyişikliyə qarşı saxlanmış (qorunmuş) mənasına uyğun gəlir.

**Əl-Qədr** surəsinin birinci ayətinin təfsirində lövhə bir dəfə də bəhs mövzusu olur: "Onu (Quranı) Qədr gecəsində nazil etdik". Bu ayədə həm Peyğəmbərə nazil olan ilk vəhyə, həm də yeddi qat göydə olan bu lövhədən ən altdakı qata nazil olan Qurana işarə edilir. Bu lövhə, Quranın əsli olmaq etibarilə Ümm əl-kitabın eynidir.

**LUT,** Kitabi-müqəddəsdə Lot – Lutun islam qissələrində və Quranda Kitabi-müqəddəs və Haqadadakından daha böyük əhəmiyyəti vardır. Bu asanlıqla izah oluna bilər, çünki Lutun tarixi, günahkar (Quranda adı çəkilməyir) Səddum şəhərinin tarixi ilə əlaqəli olub, Peyğəmbər nəzərində, sələfləri Hud, Saleh, Nuh və Şüeyb ilə birlikdə, rəzalətlərlə mücadilə edən bir peyğəmbər idi. Məhəmməd Peyğəmbər, özünə düşmənləri tərəfindən yalançılıq isnad ediləndə, özündən əvvəl Nuh, Ad, Səmud, İbrahim və Lut qövmlərinin də öz peyğəmbərlərini yalançılıqda ittiham etmiş (Quran, əl-həcc, 43) olmalarını düşünüb, təsəlli alırdı. Lut qövmi (qovm Lut, Qaf, 13-ixvan Lut) ümumiyyətlə, Səmud ilə Mədyən arasında göstərilir. Lut Quranda mürsəl, Allahın rəsulu (əş-Şüəra, 160; əs-Saffat, 133), rəsul amin, güvənilən peyğəmbər (əş-Şüəra, 162), Allahın elm və hikmətindən nəsib olan (əl-Ənbiya, 74) kimi göstərilir. İbrahim öz qövmini xəbərdar etdiyi zaman, Lut ona inanır (əl-Ənnəbut, 26). Lut qonaqpərvərliyi rədd edən (əl-Hicr, 70), qəriblərə hücum edən, lotuluq edən, o vaxta qədər heç bir qövmin etmədiyi vəhşiliyə düşən günahkarların yanına göndərilir. Onlar, fəzilətlə yaşayanları rədd edəcəyik – deyə Lutu təhdid edirlər: "Əgər sən həqiqəti söyləyirsənsə, bizim üzərimizə Allahın qəzəbini yağdır" (əl-Ənkəbut, 28). O vaxt Allah cəza mələklərini göndərir. İbrahimin şəfaəti boşa çıxır (Hud, 71, 78). Mələklər Lutun yanına gəlirlər. Lutun qövmi, qonaqların namuslarına təcavüz məqsədilə onlara təslim olunmalarını istəyirlər. Lut, qızlarını boş yerə təklif edir və axırda özünü çarəsiz hiss edir. Mələklər ona təsəlli verir və: "Biz sizi xilas edəcəyik, yalnız heç kəs üzünü döndərib baxmasın. Lakin arvadı bunu edəcək". Şəhər alt-üst olur (Hud, 84; əl-hicr, 74). Allah tərəfindən işarə edilmiş daşlar (sicill) yağmağa başlayır.

**LÜTER MARTİN** (1483-1546) – Almaniyada bürger reformatorçuluğun (islahatçılığın) başçısı, lüteranlığın –

protestantlığın birinci və əsas formasının təsisçisi. Qazmaçı ailəsində doğulan Lüter Erfurt universitetini bitirib, monastıra daxil olur, sonra da Vittenberq universitetində müəllim işləyir. 1517-ci il oktyabrın 31-də o, Vittenberq kilsəsinin qapısına Roma-katolik vəsiqələrinin satılmasında və başqa sui-istifadələrdə təqsirləndirən 95 tezisini asaraq, Roma papasına meydan oxudu. Katolik kilsəsində əmələ gələn qəzəb ona gətirib çıxardı ki, Lüterin çıxışı Almaniyanın bütün siniflərini hərəkətə gətirib, Reformasiyaya təkan verdi. Lüter protestantlığın əsas prinsiplərini qısaca və dürüst ifadə edib katoliklərin ideoloqları ilə mübahisələr keçirmiş, Roma kilsəsinin əleyhinə silahlı mübarizəyə çağırmış və papanın onu kilsədən qovmaq haqqında fərmanını (bulla) etiraz əlaməti olaraq yandırmışdı. Vorms şəhərinə Reyxstaqa çağırılan Lüter öz nəzəriyyəsindən əl çəkmədən imtina etdi.

**LÜTERANLIQ** – Protestantlığın əsas istiqamətlərindən biri. Bu dini nəzəriyyənin hazırlanmasında və lüteranlığın ayrıca kilsə kimi təşkilində M.Lüter böyük rol oynadı. Lüteranlıq ən çox Almaniyada (40 mln. qədər), İsveçdə (7 mln. yaxın), Danimarkada, Finlandiyada, Norveçdə, İslandiyada, Baltikyanı ölkələrdə yayılıb.

# M

**MA** – Kappadokiyanın (Kiçik Asiya) qədim dini etiqadlarında – ilahə ana. E.ə. I əsrdən onun ayini Romaya daxil olur və burada müharibə ilahisi Bellona ilə birlikdə onun adına şənliklər düzəldilirdi.

**MAHABHARATA** (*sanskritcə* "Bharatanın nəsli haqqında böyük dastan") – e.ə. təxminən VI-II əsrlərə aid əfsanəyə görə müəllifi müdrik Vyasa sayılan qədim hind epik poeması. Mahabharata lap qədim zamanlarda baş verən hadisələri əks etdirir, qədim Hindistan, o cümlədən onun dini haqqında külli miqdarda məlumat verir. Poemanın mərkəzində Qastinapur çarlığında iki çar sülaləsi – Kauravlar və Pandavlar arasındakı ixtilaf durur. Öz doğma şəhərindən qaçan Pandavların müxtəlif sərgüzəştləri və əziyyətləri təsvir olunur. Mahabharatanın hind dini və ictimai nəzəriyyələrinin tarixində müstəqil əhəmiyyətə malik olan xüsusi bölməsini "Bhaqavadqita" təşkil edir.

**MAİDƏ** – Quranın beşinci surəsi, Məkkədə nazil olub, 120 və bəzilərinə görə, 122 və ya 123 ayədən ibarətdir. Maidə "yemək süfrəsi" mənasına uyğun gəlir. Təfsirçilər surəyə bu adın, 112-ci ayədə İsa tərəfdarlarının bir qisminin göydən maidə etməsi üçün dua edilməsindən dolayı verildiyini qeyd edirlər. Surədə tez-tez ədalət və doğruluq əmr edən, Allah qorxusu təlqin edən xitablara yer verilmişdir. Surənin vazil tarixinə gəldikdə, təfsirçilər əl-Fəth surəsindən sonra nazil olduğunu qeyd etsələr də, bu ancaq bəzi hissələrə aiddir, çünki ayələr müxtəlif vaxtlarda nazil olublar. Surənin böyük hissəsi Xudəybiyə hadisələrindən etibarən (h. 6-628-ci ilin baharı) nazil olunmağa başlamış, bəzi hissələri fəth ili (h. 8-630), bəzi ayələri isə vida həcci vaxtında (h. 20-632) nazil olmuşdur.

**MAQLAR** (*qədim fars.* maqus) – Əhəmənilər dövründə (e.ə. VI-IV əsrlərdə) İranda böyük nüfuz qazanmış qədim Midiya kahinləri. Onlar xüsusi qəbilə təşkil edib, endoqam ailələr qururdular. E.ə. 522-ci ildə maq Qaumata özünü öldürülmüş şahzadə Bardiya kimi qələmə verərək üsyan qaldırıb, İran taxtını ələ keçirdi. Üsyan yatırılandan sonra maqların çoxu məhv edildi. Lakin sonralar e.ə. V əsrdə Kserks şahın vaxtında onlar yenidən böyük nüfuza malik oldular. İran maqları, Babil dininin kahinləri (xaldeylər) kimi gələcəkdən xəbər verməklə və ovsunlamaqla məşğul olurdular.

**MALİK,** Malik ibn Anas (?-795) – islam faqihi, Maliki məzhəbinin qurucusu. Ona "Mədinə imamı" da deyilirdi. İmam Malikin tam adı Əbu Abdullah Malik ibn Anas ibn Əbi Əmir ibn Əmr ibn əl-Xaris ibn Qayman ibn Hüseyl ibn Əmr ibn əl-Həris əl-Əshabidir. Doğum tarixi dəqiq məlum deyildir. Hicri 90 (709)-cı və 97 (715)-ci illər arasında qeyd olunur. Bir hədisə görə Peyğəmbər şəxsən Əbu Hənifə və əl-Şafei kimi,

onun da taleyini qabaqcadan xəbər vermişdir. Əl-İsfahaninin Kitab əl-əğanisinə görə Malik əvvəl müğənni olmaq istəmiş və ancaq anasının nəsihətinə görə bundan vaz keçib, özünü tamamilə fiqhə həsr etmişdir. Müxtəlif mənbələrə görə müəllimlərinin sayı 300-dən 900 nəfərə qədərdir. İmam Malik bütün həyatını Mədinədə keçirmişdir. H. 145 (762)-ci ildə Əli ailəsinə mənsub və xilafət iddiasında olan Məhəmməd ibn Abdullanın qaldırdığı üsyana qoşulmuş, lakin küçələrə çıxmayıb evində qalmışdır. Buna rəğmən h. 147 (764)-ci ildə hərəkatın dağıdılmasından sonra Mədinə valisi Cəfər ibn Süleyman tərəfindən qamçı ilə döyülmüş və nəticədə fəqərə sütunu zədələnmişdir. Sonra imam Malik xəlifə əl-Mehdi ilə barışdı. Xəlifə öləndən sonra oğlu Harun ər-Rəşid onunla daim görüşürdü. İmam Malik h. 179 (795)-cu ildə Mədinədə, qısa xəstəlikdən sonra vəfat etdi (təqribən 85 yaşı var idi). Şəhərin valisi Abdullah ibn Zeynəb dəfn mərasimi zamanı cənazə namazı qıldı.

İmam Malikin əsas əsəri "Kitab əl-muvatta"dır ("Basdırılıb düzəldilmiş"), Zeyd ibn Əlinin "Kitab əl-məcmu"su istisna edilərsə, bu günə qədər çatmış ən qədim müsəlman fiqh kitabıdır. Bu əsər Mədinədə və Məkkə mühitində yayılmış olan sünnədə qəbul edilmiş icmaya əsasən dinin qanun və hüququ haqqında tam məlumat yaradır, icma və sünnədən çıxış edərək hələ təsbit edilməmiş olan nəzəri göstərişlər verir.

Digər əsərləri – "Təfsir", "Risalə fil-qədər və-r-rədd əla-l-qədəriyyə", "Kitab ən-nüfum" və "Kitab əs-sirr".

Maliki məzhəbi xüsusən islam aləminin qərb hissəsində yayıldı: Məğribdə (Tunis, Əlcəzair, Mərakeş və müsəlman İspaniya), Afrikanın islamı qəbul etmiş bütün ölkələrində bu məzhəb hökm sürür.

**MANA** – Melaneziya və Polineziya xalqlarının dillərində – görünməz, fövqəltəbii qüvvə. Bunların daşıyıcıları insanlar, heyvanlar, şeylər və ruhlar ola bilərlər. Mananın fəaliyyəti guya insanların müxtəlif işlərdə müvəffəqiyyətində və ya uğursuzluğunda təzahür edir.

**MANDEİLƏR** – eramızın əvvəlində Mesopotamiyada yaranmış dini təriqət. Mandeilər nəzəriyyəsində xristianlığın, iudaizmin və başqa Qədim Şərq dinlərinin elementləri qarışıb və ön planda işıqlı çarlıq qaranlıq çarlığa qarşı qoyulmuşdur. Bunların nəzəriyyəsinə görə işıqlı qüvvələrdən biri həyatın bilinməsini əks etdirən Manda-dihayədir. Təriqət də bunun adını daşıyır. Mandeilər işıqlı dünyaya yol açan və dəstəmazı təsis edən Yəhya peyğəmbərə sitayiş edirlər. İsanı, İbrahimi və Musanı onlar saxta peyğəmbər hesab edirlər. Mandeilər təriqəti e.ə. I əsrdə yayılmışdı, lakin xristianlıqla rəqabətə dözməyib dağıldı. Bir qismi manixeylərlə birləşmişdir. Hazırda mandeilərin kiçik zümrələri İraqda və İranda fəaliyyət göstərirlər.

**MANİ** (təxm. 215-276) – yarıməfsanəvi dini müəllim, manixeizmin (b a x: **manilik**) təsisçisi. Maninin ənənəvi tərcümeyi-halında çoxlu uydurma var. Ona isnad edilən dini-fəlsəfi əsərlər və rəngkarlıq tabloları dövrümüzə çatmayıb. 242-ci ildə İran şahı I Şapurun tacqoyma mərasimində Mani birinci dəfə Ktesifonda (Mədain) öz nəzəriyyəsini

təbliğ məqsədi ilə açıq çıxış etdi. Zərdüşt kahinlərinin qəti müqavimətləri ilə rastlaşan Mani Orta Asiyaya qaçır, sonra əfsanəyə görə, Hindistana və başqa ölkələrə gedərək öz nəzəriyyəsini təbliğ edirdi. 273-cü ildə Mani Ktesifona qayıdır. Burada kahinlər Manini küfrdə günahlandıraraq, şahı onu zindana salmağa və sonra da qətlinə fərman verməyə məcbur edirlər.

**MANİLİK** – III əsrdə Sasani İranın tərkibində olan İraqda meydana gələn din. Tez bir vaxtda manilik Çindən tutmuş İtaliyaya qədər yayıldı. Banisi Manidir. Onun nəzəriyyəsinə görə aləmdə nur və zülmət çıraqları, ruhi və maddi başlanğıclar, insanın ruhu və bədəni bir-biriylə yanaşı mövcuddurlar. Nur çarlığında Allahla mələkələr hökmranlıq edir, zülmət dünyasında isə – şeytanla cinlər. Nur yaxşılığa uyğundur, zülmət isə şərə. Hər insanın ruhu nurun və yaxşılığın məhsuludur, bədəni isə zülmətin, ruh bədənin zülmətində əzab çəkir. Ümumdünya tarixinin mahiyyətini nurla zülmətin, ruhla maddənin, yaxşılıqla şərin, Allahla şeytanın aramsız mübarizəsi təşkil edir. Bu mübarizə dünya yanğını ilə nəticələnəcək və maddə məhv, ruh isə azad olacaq. Mübarizənin gedişində insan nurlu başlanğıca kömək etməlidir. Maninin şəhvəti keyləşdirmək (asketizm), subaylıq, yemək qadağaları (ət, balıq, şərab, süd yeməyindən çəkinmək), diri heyvanları öldürmək qadağası, yalan, oğurluq, var-dövlət və hətta şəxsi mülkiyyət haqqında göstərişləri də buradan irəli gəlir. Bütün bu göstərişlər yalnız "seçkin" mani rahibələrinə məcburi idi, sıravi dindarlara isə "seçkinlər" arasına daxil olmaq yalnız ömürlərinin axırında mümkün olurdu. Ön Asiyada manilik bilavasitə məzdəkizmə təsir göstərdi. Ərəb xilafətində VII-IX əsrlərdə manilik islamın yayılması üçün mühüm əngəllər törədirdi.

**MARA** (*sanskritcə* ölüm) – buddist panteonunda ölüm ilahəsi. Qədim buddistlərin təsəvvürləri ilə Mara hissiyyat aləmində hökmranlıq edir və buna görə hər bir diri məxluq ölməlidir. Dünyəvi, fani şeyləri buddistlər Maranın əsas vasitələrindən hesab edirdilər və bu vasitələr ona ölən və doğulan insanları öz hakimiyyəti altında saxlamağa imkan verirdi. Buddanın və "müqəddəs"lərin Mara ilə mübarizəsi buddist ədəbiyyatı və incəsənətində daimi mövzudur.

**MARABUTLAR** (*ər.* mürabit – ribat sakini) – Şimali Afrika dərvişləri. Orta əsrlərdə Böyük Səhranın şimal sərhədlərində ribatlarda (hərbi yaşayış məntəqələri) yaşayan müsəlman döyüşçü rahiblərin adıdır.

Onlar cəhad bayrağı altında qənimət və qul əldə etmək üçün bu səhradan cənubda yaşayan qəbilələrə basqın edirdilər. XI əsrin ortalarında marabutlar əl-Murabitlər (Əlmoravilər, 1058-1147) sülaləsinin nümayəndələrinin başçılığı ilə bərbər qəbilələrini hərəkətə gətirib Mərakeş və Pireney yarımadasının böyük hissəsini işğal etdilər, Marabutların dar möminliyi və fanatizmi orta əsrlərdə və yeni dövrdə onları bir-biri ilə mübarizə aparan feodal dəstələrinin əlində oyuncağa çevirirdi.

**MARDUK** – Babil dinində ulu ilahi. Əvvəllər ilahilər panteouna kiçik

ilahilərin biri kimi daxil idi. E.ə. XVIII əsrdən başlayaraq Babilin ölkənin mərkəzinə çevrilməsindən sonra Marduk "ilahilərin çarı" adlandırılır. Əfsanəyə görə, Marduk ilahiləri dəhşətli nəhəng əjdaha Tiamatdan xilas edir və buna görə də o, ilahilərdən yüksək hakimiyyəti alıb dünyanı yenidən qurur və bunun üçün də Tiamatın bədənindən istifadə edir.

**MARİYƏ**, Mariya – Peyğəmbərə hədiyyə edilən qipti cariyə. Bir rəvayətə görə Şamun adlı birisinin qızı idi. Hicrətin 7-ci ilində, bacısı Sirin ilə birlikdə Peyğəmbərə göndərilmişdi. Peyğəmbər Mariyəni özünə saxladı. Sirini isə Həssan ibn Sabitə verdi. Peyğəmbər çox sevdiyi Mariyəni Mədinənin yuxarı səmtində bir evdə yerləşdirdi və deyilənə görə səhər-axşam onu görməyə gedirdi. Mariyənin bir oğlu oldu və Peyğəmbər buna çox sevindi. İbrahim adı verilən bu uşaq kiçik yaşında ölmüşdür və rəvayətə görə o, öldüyü gün günəş tutulmuşdu. Əgər bu məlumat doğrudursa, İbrahimin 632-ci ilin yanvarında, Peyğəmbərin vəfatından bir neçə ay əvvəl öldüyü bəlli olur. Mariyənin gözəlliyi və Peyğəmbərin ona qarşı duyduğu sevgi başqa arvadların şiddətli qısqanclığına səbəb olurdu. Peyğəmbər onları sakitləşdirmək üçün Mariyə ilə görüşməyəcəyinə söz verdisə də, sonradan bu sözündən döndü. Əbu Bəkr və Ömər Mariyəyə böyük hörmət bəsləyirdilər və ömrünün sonunadək (h. 16-cı ilin Məhərrəm ayı, fevral 637-ci il) ona köməklik göstərirdilər.

**MARONİTLƏR** – xristianlıqda başçısı patriarx olan və xüsusi kilsə təşkil edən cərəyanlardan birinin ardıcılları. Əksəriyyətini suriyalılar təşkil edən maronitlər əsasən Lübnanda (Livan) və Suriyada yaşayırlar. IV-V əsrlərdə yaşayan İoann Maronun adını daşıyan maronitlərin Suriyada böyük bir monastırları var. XII əsrdən katolik kilsəsi ilə əlaqədədirlər. Onlar Roma papasının başçılığını qəbul ediblər.

**MARS** (*lat.* Mars, *ital.* Mamers) – Roma ilahilər panteonunda müharibə ilahisi, yunan Aresinə müvafiqdir. Ona Romulun və Remin atası Yupiter və Kvirinlə birlikdə Roma şəhərinin müdafiəçisi kimi sitayiş edilirdi. Onun simasında at yarışlarının hamisini görürdülər, əvvəllər isə hesab edirdilər ki, o, zəmiləri və sürüləri qoruyandır. Romada Marsın adına ibadətgah olub və orada onun müqəddəs qalxanı və nizəsi saxlanılırdı.

**MASONLUQ**, frankmasonluq (*frans.* hərfi mənada – azad daşyonan) – XVIII əsrdə İngiltərədə meydana gələn və bir sıra ölkələrdə yayılan burjua-zadəgan hərəkatı. Kilsəyə qarşı bir qədər azadfikirli olduqları üçün masonlar 1738-ci ildə papalıq tərəfindən lənətlənmişlər. 1723-cü ildə birinci masonlardan olan Andersenin dərc edilmiş "Nizamnamələr kitabı"nın xüsusi bəndləri masonlardan "düşüncəsiz ateist" və "ədəbsiz kafir" olmamalarını tələb edirdilər. Avropa ölkələrində masonluq zadəgan xüsusiyyətlərinə malik olub feodal əyanları tərəfindən istiqamətlənirdi. Masonlar arasında I Pavel, II Fridrix və başqa çarlar, krallar da var idi. Masonlara I və III Napoleonlar hamilik edirdilər. Rusiyada masonluq XVIII əsrin 30-cu illərində meydana çıxmışdır.

**MASORETLƏR** (*qədim yəhudicə* masora – rəvayət) – Bibliyanın mətninə şərhlərin müəllifləri və onun redaktorları.

**MAYYA** – 1) Brahmanizmdə və induizmdə – ulu Allah, xəlq edən Allah sayılan dərkedilməz qüvvə. Vedantada xüsusi inkişaf etdirilmiş nəzəriyyəyə görə, Allah – yeganə reallıqdır, dərk etdiyimiz dünya isə Allahın Mayya vasitəsilə yaradılmış sırf görünmə illüziyasıdır. 2) Buddizmdə – Buddanın anası.

**MAZDAİZM** – Midiyada (e.ə. IX-VI əsrlərdə) və qədim İran Əhəmənilər şahlığında (e.ə. VI-IV əsrlərdə) hökm sürən din. Onun adı bu dinin ulu allahı Mazdanın (Ahuramazda) adından gəlir. Mazdaizmin zərdüştiliklə yaxınlığı var. Hər iki dini birləşdirən cəhət şər ilahisi Anhra-Maynyu ilə mübarizə edən xeyirxah ilahi Ahuramazdanın və atəşin ayinidir. Lakin mazdaizmdə Ahuramazda şah hakimiyyətinin hamisi olub, onunla hansı bir peyğəmbərin vasitəçiliyi olmadan təmasa girir (Zərdüşt Əhəməni yazılarının heç birində həkk olunmamışdır). Şahın düşmənləri, Ahuramazdanın nifrətini oyadanlar edam olunurdular. Şah Kserksın hakimiyyətinə qədər (e.ə. V əsr) Ahuramazda mazdaizmdə ulu ilahi hesab edilsə də, lakin o, yeganə ilahi deyildi: onunla bərabər zərdüştiliyi rədd edən yerli qəbilə ilahilərinə də (divlər) sitayiş edilirdi. Kserks, hakimiyyətinin əvvəlində ayinin mərkəzləşməsini keçirdi. Divlərə sitayiş qadağan edildi. Lakin sonrakı yazılarda Ahuramazda ilə birlikdə ilahə Anahitin və ilahi Mitranın adları da çəkilirdi.

**MEHDİ**, əl-Mehdi (*ər*. hərbi mənası "özünə rəhbərlik edilən"dir) – bütün istiqamətlər (huda) Allahdan gəldiyi üçün, söz nəhayət "özünə Allah tərəfindən yol göstərilən", yəni xüsusi və şəxsi bir tərzdə Allahın hidayətinə nail olan mənasını almışdır, çünki Allah, islamiyyətin bilavasitə uluhiyyətçiliyində, dünyada bütün varlıq və əşyanın, insan olsun, ya heyvan, öz-özlərini tanımalarına və varlıqları ilə yaşamaları üçün zəruri olan hər şeyi bilmələrinə rəhbərlik edir. Allahın adlarından biri əl-Hadi ("rəhbər") (Quran, əl-Həcc, 51; əl-Furqan, 31) və ilahi istiqamət fikri Quranda bir çox dəfələr zikr edilir. Lakin qəribədir ki, mehdi sözü ancaq dörd dəfə çəkilir. Mehdi sözü keçmişdə, bəzi kimsələr üçün gələcəkdə də qiyamət ilə əlaqəli bir şəxsiyyət üçün işlənir. Yüksək mənada olmaqla, bu təbir, çox qədim zamanlarda, Əlinin Fatimədən başqa arvadından olan oğlu Məhəmməd ibn Hənəfiyə üçün işlənmişdir. Hüseynin Kərbəlada vəfatından sonra, Muxtar ibn Əbi Übeyd bu Məhəmmədi özünü xilafətə namizəd elan etməyə təşviq etdi və ona "Vasinin (əl-Vasi) oğlu Mehdi" adını verdi. Buradakı Vasi Peyğəmbərin xalqın iradəsini Əliyə vəsiyyət etdiyini qəbul edənlər tərəfindən, onun üçün işlənilən bir təbirdir. Bu hadisə Həsən və Hüseynin, yəni Əlinin Peyğəmbərin qızı Fatimədən doğulan iki oğlunun, ölümündən sonra baş vermişdir və imamlığa keçmə baxımından şiələrin görüşlərindən başqa görüşlər olduğunu göstərir. Bu, Məhəmməd, Peyğəmbər ilə eyni qandan olduğu üçün yox, Əlinin oğlu olması sifəti ilə varis idi. Lakin

beləcə o ona zorla verilən bu mövqeyi rədd etmiş, lakin özü də istəmədən, Keysanilər firqəsinin qurucusu olmuşdur. Onlar onun ölməz olub qaldığı, Razva dağından geri gəlməsini gözləyirdilər. Bu iddia şair Kuseyyir (h. 105-723-cü ildə ölüb) və Seyyid əl-Ximyari (h. 173-789-cu ildə ölüb) tərəfindən müdafiə edilmişdir. Beləliklə, Məhəmməd, 12 imamlı şiələrin gizli imamı kimi, mehdi müntəzər ("gözlənilən mehdi") halına gəldi. Məhəmmədin rəqibi Muxtar, şiələşən Muxtariyyə firqəsini qurdu və Hüseyn ibn Əlini dəstəklədi.

On iki imamlı şiələrin, qayıtmasını (rəcə) gözlədikləri gizli imama da şiələr əl-Mehdi adını vermişlər.

**MEHRAB** – məscidin daxili divarında qiblə tərəfini, Məkkə istiqamətini və namazqılan müsəlmanın üzünü tutacağı tərəfi göstərən oyuq.

**MERAC**, Mirac (*ər.*) – əslində nərdivan, sonra yüksəliş, xüsusən Peyğəmbərin göyə çıxışı. Quranda (ət-Təkvir, 19-25 və ən-Nəcm, 1-12) Peyğəmbərə səmavi xəbər gətirənin göründüyü anlaşılır. Buna oxşar ikinci görünmədən də (ən-Nəcm, 13-18) danışılır. Hər iki halda da Peyğəmbər özünə uzaqdan səmavi bir təzahürün yaxınlaşdığını görür, lakin özünün götürülüb, səmaya aparılmasına dair heç bir işarə yoxdur. Quranda (əl-İsra, 1) işarə edilən hadisə isə başqa cürdür: "Bəzi ayələrimizi göstərmək üçün bəndəsini (Peyğəmbəri) bir gecə Məscidül-haramdan ətrafını mübarək etdiyimiz Məscidül-əqsaya aparan Allah pak və müqəddəsdir". Məscidül-haramın Məkkədəki məbəd olduğu Qurandakı ifadəyə görə sabitdir, lakin Məscidül-əqsa haradadır? Hədisdə qəbul edilən izahlardan birinə görə, Məscidül-əqsa Qüdsdə olmalıdır, lakin Quranın 30-cu (ər-Rum) surəsinin üçüncü ayəsində Fələstindən ədna əl-ərz (ən yaxın bir yerdə) kimi bəhs edən Peyğəmbər, necə olur ki, Qüdsdə yerləşən bir məbədə Məscidül-əqsa deyə bilir? Məscidül-əqsa ilə Peyğəmbər ehtimal ki, göyün yeddinci qatının ən yüksək nöqtəsində, mələklərin Allaha həmd və səna etdikləri bir yerdir. Buna görə, Quranın 17-ci (əl-İsra) surəsinin birinci ayəsində, bir gecə səmalara yüksəldiyi haqqında Peyğəmbərin şəxsi şəhadətinə sahib oluruq. Lakin bu şəhadət və vaqiəni işarə etməklə kifayətlənir və bunun seyri haqqında bir şey bildirmir. Səmaya çıxma imkanı məsələsinə Quranın bir çox yerində toxunulmuşdur. Qırxıncı (əl-Mumin) surəsinin 36-37-ci ayələrində Firon Hamana: "Mənim üçün bir uca qəsr tik ki, bəlkə, yollara – göylərin yollarına yetişsin və Musanın Allahını görüm", – deyə əmr verir (b a x: 28, **əl-Qəsəs** surəsinin 3-cü ayəsinə). Quranın 52-ci (ət-Tur) surəsinin 38-ci ayəsində münkirlərə: "Yoxsa vəhyi dinlədikləri bir nərdivanları vardır?" və 6-cı (əl-Ənam) surəsinin 35-ci ayəsində Peyğəmbərin göylərə nərdivan söykəyib, yerə bambaşqa ayələr gətirməsi halında onu dinləyənlər üzərindəki təsiri nə olacağı təxmin olunur. Qədim şairlər, bir kimsənin xilas olmaq istədiyindən qaçmaq üçün nərdivan ilə göyə çıxmasından bəhs edərdilər. Peyğəmbərlə bərabər keçdiyi yeddi göydən hər birinin qapısı önündə

Cəbrayıldan özünün və yoldaşının adı soruşulurdu. Cəbrayıl onlara cavab verdikdən sonra, "Məhəmməd Peyğəmbər kimi göndərilibmi?" sualı verilirdi, bu da Meracın Peyğəmbərin risalətindən az bir zaman sonra olduğunu göstərir. Göyün hər qatında qabaqkı peyğəmbərlərdən birinə təsadüf edirlər. Hədislərin çoxunda Adəm göyün birinci, Yəhya və İsa ikinci, Yusif üçüncü, İdris dördüncü, Harun beşinci, Musa altıncı və İbrahim yeddinci qatında olurlar. Qədim rəvayətlər Peyğəmbərin göyün yeddinci qatında, Allahın "ərşi" qarşısına çıxdığı və orada namaz haqqında Allah ilə danışdığını söyləyirlər.

**MERKURİ** (*lat.* merks – əmtəə) – Qədim Roma əfsanələrində ticarət ilahisi. Sonralar yunan Hermesi ilə yeniləşdirilib səyahətdə olanların hamisi və ilahilərin müjdəçisi hesab edilirdi.

**MEYMUNƏ**, Maymuna – Peyğəmbərin axırıncı arvadı. Havazin qəbiləsinin Bəni Sasaya qoluna mənsub olan əl-Harisin qızı və Abbasın baldızıdır. Birinci ərindən boşandıqdan və ikinci əri qureyşi Əbu Rukm öləndən sonra dul qalıb Məkkədə yaşayırdı. Peyğəmbər də burada ona evlənməyi təklif etdi, lakin məkkəlilər bunu qəbul etmədilər. Belə ki, Məhəmmədin burada uzun zaman qalmasını istəmirdilər. Buna görə nikah Məkkənin şimalında Sarif mövqeyində bağlandı. Mehr kimi verilən pul 500 dirhəm idi. Meymunə Peyğəmbərin başqa arvadlarından çox yaşayıb, h. 61 (681)-ci ildə Sarifdə ölüb və orada dəfn edilib.

**MEYTƏ,** Mayta (*ər.* meytin müənnəsi) – "ölü, leş" (ağılsız məxluqlar üçün işlənir), isim kimi ölü heyvan, kəsilməmiş ölən heyvan mənasını verir.

Meytənin sifət kimi işlənməsini Quranın Yasin surəsinin 33-cü ayəsində görürük. İsim kimi Quranın ən-Nəhl surəsində (115) keçir: "Allah sizə ancaq ölü heyvanı (meytə), qanı, donuz ətini və Allahın adı çəkilmədən kəsilmiş heyvanı haram buyurmuşdur [özgənin malına əl uzatmamaq şərtilə]. Başqa bir şey tapa bilməyib zəruri ehtiyacını ödəyəcək qədər bunlardan yeməyə məcbur olan şəxsə [günah yazılmaz]. Çünki "Allah bəndələrini bağışlayan və rəhm edəndir!" Eyni fikir əl-Ənam (6) surəsinin 119 və 145-ci ayələrində də var. Bu surənin 139-cu ayəsində deyilir: "Müşriklər həmçinin: "Bu heyvanların qarınlarındakı balalar yalnız kişilərə məxsusdur, onlar qadınlarımıza haram edilmişdir", – dedilər. Əgər bala ölü (meytə) doğularsa, kişilər və qadınlar ona (onu yeməyə) ortaqdılar". 145-ci ayədə isə deyilir: "Ya Rəsulum! De ki: "Mənə gələn vəhylər içərisində murdar olduqları üçün ölü heyvan (meytə) axar qan, donuz əti və ya Allahdan başqasının adı ilə (bismillah demədən) kəsilmiş heyvanlar istisna olmaqla, hər hansı bir kəsin yediyi yeməklər içərisində haram buyurulan bir şey görmürəm. Bununla yanaşı, hər kəs məcburiyyət qədər [bunlardan yesə, Allah ona cəza verməz?! Çünki sənin Rəbbin, həqiqətən bağışlayan və rəhm edəndir!"] (bax həmçinin: **əl-Bəqərə,** 173; **əl-Maidə,** 2, 3).

Ümumi qənaətə görə, meytəni yemək zorunda qalan kimsə, onu yeyə bilər: yalnız aclıqdan ölməmək üçün, meytə yeməyə məcbur qalanda, doyuncayamı,

yoxsa ölməyəcək qədərmi yemək məsələsində fikirlər müxtəlifdir. Təkcə şafeilər və hənbəlilər kimsənin belə məcburiyyətə düşməməsini istəyirlər.

**MƏDİNƏ**, Əl-Mədinə – Ərəbistanın məşhur şəhəri, hicrətdən etibarən, Peyğəmbərin qaldığı yer, ilk xəlifələr zamanında ərəb dövlətinin mərkəzi. Şəhərin ərəbcə əsil adı Yasrib, Ptolomey və bizanslı Stepanosda Yathrippa (belə oxumaq lazımdır) idi. Buna müqabil əl-Madina şəhər mənasına gələn cins adıdır və aramı dilindən alınıb. Quranın Məkkədə nazil olan ayələrində bu söz, cins adı olaraq, əl-Mədain cəm şəkli ilə gedir, halbuki Mədinədə nazil olan surələrdə Mədinə Peyğəmbərin yeni iqamət yerinə dəlalət etdiyi ismi-xasdır (əl-Mümtəhinə, 102, 121; əl-Əhzab, 60; əl-Münafiqun, 8). Bunun müqabilində, qədim Yasrib adı ancaq bir dəfə (əl-Əzhab, 13) çəkilir.

Peyğəmbər və ona sadiq qalan möminlər Mədinəyə gəldikdə, şəhərin cənub kənar məhəlləsi olan Qubada qısa bir müddət qaldıqdan sonra, şəhərə daxil oldular. Peyğəmbər Həzrəc qəbiləsinə mənsub bir şəxsin, Əbu Əyyub Xalid ibn Zeydin evinə düşdü və daim qalmaq üçün yer düzəldənədək burada qaldı. Rəvayətə görə, Peyğəmbər bu evi seçməyi dəvəsinin ilhamı ilə bağlamışdı. Vədinə sadiq qalaraq, Peyğəmbər 732-ci il iyunun səkkizinə, yəni ölümünə qədər Mədinədə qaldı. Bir rəvayətə görə (Təbəri, 1, s. 1817), onun nəşi bütün bir gün dəfn edilmədən qaldı. Sonra Aişənin evində yatağının olduğu yerdə dəfn edildi. Bu gecikmənin səbəbi Peyğəmbərin ölümünün şəhərdə əmələ gələ biləcək böyük qarışıqlığın qarşısını almaq idi. Onun qüdrəti sayəsində yaranmış böyük birlik dərhal dağılmaq üzrə idi. Ənsarlar toplanıb, Səd ibn Ubadanı rəis seçdilər, başqaları bu arada iqtidarı ənsarlar ilə mühacirlər arasında bölüşməyi təklif edirdilər. Yalnız Ömərin sürətli və güclü müdaxiləsi islamiyyət üçün çox yararlı oldu və Əbu Bəkrin xəlifə kimi seçilməsinə imkan verdi. Beləliklə, Əbu Bəkr ilə iki sələfi gənc dövlətin mərkəzi halına gələn və qüdrəti sürətlə böyüyən Mədinədə qaldılar. Əbu Bəkr ilə Ömər, Peyğəmbər kimi Aişənin evində dəfn edildilər, lakin Osmanın nəşi gecə ikən qapı tayında və lənətlər ilə daşlanaraq, yəhudilər qəbiristanına aparıldı. Bu dövrdə kimsə şəhər haqqında düşünmürdü, hətta Peyğəmbərin ölümünü təqib edən ridda arasında belə düşünülmürdü. Əlinin hakimiyyəti Mədinə üçün böyük dəyişiklik gətirdi. Özü ilə rəqibləri arasında böyük döyüşlər baş verib, əyalətlərdə sərt müharibələr cərəyan edincə, xəlifə dünyadan uzaq bir guşədə olan Mədinədə qalaraq, bu qədər böyük bir dövlətin idarə edilməsinin imkansız olduğunu anladı. İlk xəlifələr mərkəzdə qalıb, başqa məmləkətlərin fəthi üçün buradan ordu göndərdikləri halda, Əli özü orduların başına keçdi və 656-cı ilin oktyabr ayında, bir daha geri dönməmək qərarı ilə, Mədinəni tərk etdi. İdarə mərkəzi olaraq əvvəl Kufəni seçdi; Müaviyənin zəfərindən sonra Diməşqə köçdü. Mədinə, qədim rəqibi Məkkə kimi, bundan sonra dünya hadisələrindən uzaq bir əyalət şəhəri mahiyyətini aldı. Bu dəyişmənin qədim zamanın dindar

MƏDİNƏ

kimsələri üzərində etdiyi təsir, diqqətəşayan rəvayətdən görünür. Həmin rəvayətə görə, bəzi əsil ənsarlar, Əlinin Mədinəni tərk etmək fikrindən vaz keçməsinə çalışmışlar: "Tərk etdiyin şeylər, Peyğəmbərin məscidində namaz qılmaq, məzarı ilə minbəri arasında dolaşmaq, bütün bunlar İraqda tapacağını umduğun şeylərin əvəzidir. Ordu başçılarını müharibəyə göndərən Ömərin idarə tərzini düşün. İndi aramızda o zamankılar qədər istedadlı şəxslər yoxdurmu?" Lakin xəlifə onlara bu cavabı verdi: "Dövlətin zənginliyi və ordular İraqdadır və suriyalılar bizə hücum etməyə hazırdılar. Mən onların yaxınlığında olmaq istəyirəm".

Mədinə müqəddəs xatirələri ilə, Peyğəmbərin məzarı ilə, təbii ki, əhəmiyyətsiz bir şəhər ola bilməzdi. Əksinə, Peyğəmbərin siması müsəlmanların zehnində nə qədər böyümüşdüsə, şəhərin müqəddəsliyi də o qədər qüvvətlənmişdi. Lakin həyat orada dövrün əhəmiyyətli hadisələrinin cərəyan etdiyi şəniyyətdən getdikcə uzaqlaşdı. Siyasi hadisələrin səbəb olduğu qarışıqlıqlardan uzaq yaşamaq istəyən hər kəs, bütün haqlarını dərk edincə, Əlinin oğlu Həsən kimi, Mədinəyə çəkildi. Hüseyn də Kufədən Mədinəyə getmişdi. Lakin haqlarını silahla qəbul etdirmək üçün, cürətli təşəbbüsə atılmaqla onlar yenidən Mədinəni tərk etdilər. Mədinə ənsarlarından heç birinin onlarla bərabər yola çıxmamaları yürüşün taleyini həll etdi. Hüseyn öldürüldükdə, arvadları ilə oğlu Mədinəyə göndərildi, burada sakit həyat keçirir, heç bir şeyə qarışmırdılar. Əlinin oğlu Məhəmməd ibn əl-Hənəfiyyə də eyni şəkildə Mədinədə yaşadı. Lakin Mədinə şəhərini bütün başqa yerlərdən üstün sayanlar yalnız Peyğəmbərə və əqrəbalarına çox bağlı olanlardan ibarət deyildi. Qədim qohumlarının bir çoxu, Əməvilər, burada keçirilən sakit və lətif həyatın cazibəsinə qapıldılar və Şama getmək istəmədilər. Mədinə, fütuhat müharibələrindən əllərinə keçən böyük var-dövlətin sakitlik içində zövqünü almaq istəyin yeni bir sinfin bir növ iqamət yeri halını almışdı. Mədinədə həyat yavaş-yavaş əhlikef bir şəkil almağa başladı və axırda müqəddəs şəhər pis şöhrət qazandı. H. 127 (745)-ci ildə bir üsyan vaxtında da son əməvi xəlifəsi II Mərvan üsyançıların birindən soruşdu ki, necə oldu ki, Mədinəni şərabları və mütrib qadınları onu üsyanda iştirak etməkdən ayırdı (**Təbəri,** II, s. 1910). Yalnız xarici görünüşünə baxılırsa, bu dövr Mədinənin parlaq dövrü olmuşdur və rövnəqi şairlər tərəfindən tərənnüm edilmişdir. Yaxşı sulanan şəhər, bağçalar və çiçəkli çəmənliklər ilə əhatə olunmuşdu. Xüsusən Vadi əl-Əqiqin daxilində zəngin qureyşilərin tikdirdikləri bir sıra möhtəşəm saraylar var idi ki, izləri bu gün belə görünür.

Mədinə əhalisinin başqa bir hissəsini orada keçirilən sakit həyat digər səbəblərdən dolayı cəzb edirdi. Bunlar dünyəvi zövqlər axtarmırdılar, lakin həyatlarını şəhərin dolu olduğu müqəddəs xatirələrə həsr edirdilər. Mədinə sünnəsinə və eyni zamanda Mədinə icmasına istinad etməsi etibarı ilə, Peyğəmbərdən gələn dini və fithi ehkamı toplayıb, tədqiq edirdilər. Bu təmayülün ən çox diqqətəşayan nümayəndəsi Maliki

məzhəbinin təsisçisi, ətrafına böyük miqdarda tələbə toplamış olan "Kitab əlmuvatta"nın müəllifi Malik ibn Anas olub. Tələbələrindən biri, İbn Zabala, Mədinə şəhərinin ilk tarixini yazmışdır (h. 199-814), lakin bu əsər bizə gəlib çatmayıb.

Mədinə o zaman xəlifənin təyin etdiyi valilər tərəfindən idarə olunurdu. Bununla yanaşı, şəhər, Peyğəmbərin ölümünü təqib edən ilk əsrlərdə baş verən hadisələrdən tamamilə bitərəf qalmayıb. Xəlifə Yəzid vaxtında, hətta bütün Əməvilər zamanında, Mədinədə xəlifəyə qarşı bir növ düşmənçilik hökm sürürdü və əhalisinin çoxu, Məkkədəki rəqibləri Abdullah ibn Zübeyrə qarşı müsait davranırdılar. H. 63 (683)-cü ildə mədinəlilər üsyan etdilər və Abdullah ibn Hənzələni rəhbər seçib, şəhəri şimal tərəfdən qorumaq üçün, divar çəkib, xəndək qazıdılar. Xəlifə onlara qarşı ordu göndərdi və Bəni Hərisə qəbiləsinin xəyanəti nəticəsində mədinəlilər məğlub oldu. Əməvi hakimiyyətinin axırında h. 130 (748)-cu ildə mədinəlilər xaricilərə məğlub oldular, lakin Mərvanın orduları onların özlərini darmadağın etdilər. Abbasilər hakimiyyətə gələndə, Əli tərəfdarları iki qardaş Abdullah oğulları Məhəmməd və İbrahim, silahla onların haqlarını qəbul etdirmək istədilər, lakin xəlifə ordusu bu niyyətləri dəf etdi. 20 ildən sonra (h. 169-726) Əlinin yeni bir tərəfdarı – Hüseyn ibn Əli, Abbasilərə qarşı baş qaldırdı. Mədinə əhalisini incitdi və axırda öldürüldü.

Sonrakı əsrlərdə tarixçilər Mədinəni ancaq nadir hallarda yada salırdılar və dedikləri də çox vaxt əhəmiyyətsiz idi. H. 654 (1256)-cü ildə Mədinə "Hicaz atəşi" adlanan müdhiş vulkan püskürməsinə məruz qaldı. Püskürmə əl-əvvəl ayının son günündə yüngül bir zəlzələ ilə başladı, sonrakı günlərdə zəlzələ gücləndi. Salnaməçilər yazırlar ki, o zaman qayaları və daşları əridən və şəhərin şərqindən axıb, sonra şimala doğru axını davam edən lava seli yayıldı. Şəhər əhli, dua və günahlarını tövbə edərək, Peyğəmbərin məzarı yanındakı məscidə sığındılar. Bu hadisə ilə məscidin bəladan xilas olma etiqadı gücləndi.

1804-cü ildə Vahhabilər şəhəri zəbt etdilər. Xəzinələr qarət olundu. Peyğəmbərin məzarını ziyarət qadağan edildi. Türbənin qübbəsini yıxa bilmədilər, lakin qiymətli qaş-daş xəzinələrini, dindarların hədiyyələrini talan etdilər. Osmanlıların Misir valisi Məhəmməd Əlinin oğlu Tosun Mədinəni yalnız 1813-cü ildə geri almağa müvəffəq oldu. 1924-cü ildən Məkkə və Mədinə şəhərləri Səudiyyə Ərəbistanının tərkibindədir.

**MƏDRƏSƏ** (*ər.* məktəb) – məscid nəzdində olan ruhani məktəb. Mədrəsələrdə mollalar, xətiblər, şəriət məhkəmələri üçün qazilər, müəllimlər və dövlət idarələri üçün məmurlar hazırlanır.

**MƏHƏMMƏD** əleyhissəlam (570-632) – Peyğəmbərlərin sonuncusu və islam dininin qurucusudur. Ərəb dilində Muhamməd kimi tələffüz olunan bu sözün mənası "çox təriflənmiş, çox öyülmüş", "çox təriflənən, çox öyülən" deməkdir. Özündən əvvəl bu ad heç kəsə verilməmişdir. Həzrəti-İbrahimin oğlu Həzrəti-İsmailin nəslindəndir. Era-

mızın V əsrinin əvvəllərindən etibarən Məkkənin idarəsini əlinə almış Qureyş qəbiləsinin Bəni-Haşim soyuna mənsubdur.

Məhəmməd (ə.s.) bir rəvayətə görə, eramızın 570-ci ilinin rəbiül-əvvəl ayının 17-də, bazar ertəsi günü, başqa bir rəvayətə görə isə, həmin ayın 12-də, Fil müharibəsindən 50 və ya 55 gün keçmiş dünyaya gəlmişdir. Bəzi tarixçilər onun 569-cu ildə, digərləri isə 571-ci ildə doğulduğunu iddia edirlər. Lakin qəbul olunmuş ümumi ənənəyə görə, Məhəmməd əleyhissəlamın doğum ili 570-ci il hesab edilir. Tarixçilərin verdikləri məlumata görə, Məhəmməd əleyhissəlamın anadan olduğu gün möcüzə baş vermişdir. Belə ki, həmin gün Kəbədəki bütlər üzüqoylu düşmüş, İrandakı Sahə gölü qurumuş, atəşpərəstlərin baş məbədindəki manqalın alovu sönmüşdü.

Qəribədir ki, Məhəmməd əleyhissəlamın doğumu da, ölümü də, peyğəmbərliyə çatması da, hicrəti də bazar ertəsi gününə düşür.

Məhəmməd əleyhissəlamın atası Abdullah bin Əbdül-Müttəlib oğlunun dünyaya gəlməsindən bir neçə həftə əvvəl Mədinəyə etdiyi bir ticarət səfəri zamanı xəstələnmiş və orada da vəfat etmişdir. O zaman Ərəbistanda qəbul olunmuş adətə görə, yeni doğulmuş əsilzadə körpələr Məkkəyə nisbətən daha mülayim iqlimli bir yerdə yaşayan süd anasının himayəsinə verilirdi. Məhəmməd (ə.s.) körpə çağında Səd bin Bəkr qəbiləsinə mənsub olan Həlimə adlı bir qadına verilmiş və dörd il bu süd anasının yanında qalmışdı. O həmin dövrdə arasıra anası Əminə bintu Vəhəblə görüşmək üçün Məkkəyə gətirilərdi. O, Məkkəyə qayıtdıqdan sonra anası Əminə yolda xəstələnib, Əbva vahəsində vəfat etmiş, Məhəmməd (ə.s.) isə anasının xidmətçisi Ümmü Əymən adlı bir qadın tərəfindən babası Əbdül-Müttəlibə verilmişdir.

Məhəmməd (ə.s.) 8 yaşında ikən babası Əbdül-Müttəlib vəfat etmiş və o, əmisi Əbu Talibin himayəsinə keçmişdir. O, bir müddət çobanlıq edərək maddi vəziyyəti yaxşı olmayan əmisinə kömək etmişdir. 12 yaşında ikən əmisi Əbu Taliblə birlikdə ticarət karvanı ilə Şama (Suriyaya) getmişdir. Bu səfər əsnasında o, Qüdslə Şam arasında yerləşən Busra şəhərində Bəhira adlı bir xaçpərəst rahiblə görüşmüşdür. Bəhira bu uşağa diqqətlə baxıb onunla bir qədər söhbət etmiş, sonra heyrət içində Əbu Talibə onun müqəddəs kitablarda vəsf edilmiş sonuncu peyğəmbər olacağını xəbər verib, uşağı təkbaşına heç yerə buraxmamağı tövsiyə etmişdi.

Məhəmməd (ə.s.) 585-ci ildə Qureyş və Qeys qəbilələri arasında baş vermiş Ficar müharibəsinə getmiş və orada vuruşan əmilərinə ox daşımışdır.

Məhəmməd (ə.s.) bir müddət əmisinin yanında ticarətlə məşğul olduqdan sonra özünün düzgünlüyü, halallığı sayəsində Məkkə əhalisinin nəzər-diqqətini cəlb etmiş, belə ki, Məkkənin ən varlı tacirlərindən Xədicə bintu Xuveylid öz ticarət işlərinin idarəsini ona həvalə etmişdi. Məkkənin bir çox zənginləri bir yerə getdikləri zaman öz mal-dövlətlərini və qiymətli şeylərini əmanət olaraq ona tapşırırdılar. Xalq arasında ona

Muhammədunil-əmin (etibarlı, bel bağlanılası Məhəmməd) deyirdilər.

Məhəmməd (ə.s.) 25 yaşında ikən Xədicə ilə evlənmişdi. Bu xoşbəxt izdivacdan onun dörd qızı – Zeynəb, Ruqiyyə, Ümmu-Kulsum, Fatimə və iki oğlu Qasim və Abdullah dünyaya gəlmişdi. O, evləndikdən sonra əmisi Əbu Talibin məişət yükünü yüngülləşdirmək üçün onun kiçik oğlu Əlini öz himayəsi altına almışdı. Əli körpə yaşlarından öz əmisi oğlu Məhəmmədin yanında yaşamış, onun qayğısı ilə əhatə olunmuşdu.

Mənbələrin verdiyi məlumata görə, ilk gəncliyindən ulu babası İbrahimin dinində olan hənəfilərlə sıx əlaqədə bulunan Məhəmməd (ə.s.) bütlərə nifrət edir, hər ilin Ramazan ayını Məkkə yaxınlığında yerləşən Cəbəlun-nur dağındakı Hira mağarasında günlərlə qalar, yalnız azuqəsi tükəndiyi zaman Məkkəyə qayıdıb Kəbəni təvaf edər, sonra zövcəsi Xədicənin yanına gələr, daha sonra yenidən Hiraya dönərdi.

O, bir gün yenə Hira mağarasında qaranlıq və səssizlik içində təfəkkür dəryasına qərq olduğu zaman birdən zülmət içindən bir nur parlamış, vəhy mələyi Cəbrayıl əleyhissəlam nazil olub Allahın bu mömin bəndəsinə Quranı-Kərimin "1. Yoxdan yaradan Rəbbinin adı ilə oxu. 2. O, insanı laxtalanmış qandan yaratdı. 3. Oxu, sənin Rəbbin ən böyük kərəm sahibidir. 4. O Rəbbin ki, qələmlə (yazmağı) öyrətdi. 5. O Rəbbin ki, bilmədiklərini öyrətdi" – buyuran "Ələq" surəsinin ilk beş ayəsini oxutmuşdu. Bu hadisədən son dərəcə heyrətlənən Məhəmməd (ə.s.) qorxudan titrəyərək evə qayıtmış, bir müddət şaşqın vəziyyətdə qalmış, özünə gəldikdən sonra əhvalatı xanımı Xədicəyə söyləmişdi. Xədicə bunu xristian dininə qail olan əmisi oğlu Vərəqə bin Novfələ danışmışdı. İbrani (yəhudi) və suryani dillərini yaxşı bilən, Tövratı və İncili dəfələrlə oxumuş Vərəqə Xədicəni diqqətlə dinlədikdən sonra onun ərinin musəvilərin və isəvilərin çoxdan gözlədiyi axirüzzəman peyğəmbər olduğu müjdəsini vermişdi. İslam tarixçilərinin əksəriyyətinin fikrincə, bu hadisə 610-cu ilin Ramazan ayında baş vermiş, həmin ildə 40 yaşında olan Məhəmməd əleyhissəlama peyğəmbərlik verilmiş, Qurani-Kərim lövhi-məhfuzdan dünya səmasına nazil olmuş, onun ilk ayələri Cəbrayıl vasitəsilə Peyğəmbərimizə vəhy edilmişdi. "Ələq" surəsinin yuxarıdakı ilk beş ayəsindən sonra bir müddət vəhy kəsilmişdi. İslam tarixində "fətnətul-vəhy" adlanan bu fasilə bəzi rəvayətlərə görə, bir neçə ay, digər rəvayətlərə görə isə, hətta bir neçə il davam etmişdi. Məhəmməd (ə.s.) vəhyin kəsilməsindən çox həyəcanlanmış, qəmqüssəyə düşmüşdü. Nəhayət bir gün "Zuha" surəsinin "And olsun səbrə. And olsun sakitləşməkdə olan gecəyə ki, Rəbbin səni nə tərk etdi, nə də sənə acığı tutdu" buyuran ilk üç ayəsi nazil olduqdan sonra kəsilən vəhyin yenidən başlandığını bilən Məhəmməd (ə.s.) çox sevinib aram oldu. Çox çəkmədi ki, "Muddəssir" surəsinin "Ey (libasına) örtünüb bürünmüş (Peyğəmbər)! Qalx (insanları Allahın əzabı ilə) qorxut!" müjdəsini verən ilk iki ayəsi nazil olub, Məhəmməd əleyhissəlama Allah-təala

tərəfindən rəsulluq (elçilik) vəzifəsinin bəxş olunduğunu bildirdi. O həmin ayələri zövcəsi Xədicəyə oxudu. Xədicə və onun yanında olan, yaxud bir rəvayətə görə, yolda əmisi oğlu ilə rastlaşan Əli heç bir tərəddüd etmədən islamı qəbul etdilər. Bu ayələri eşidən Peyğəmbərin azad köləsi və oğulluğu Zeyd bin Havisə və Əbu Bəkr də sözsüz islama döndülər. Əbu Bəkr islamı qəbul etdikdən sonra onun ardınca Osman ibn Əffan, Əbdürrəhman bin Ohf, Səd bin Əbi Vəqtas, Zübeyr bin Əvvam, Təlhə bin Übeydullah kimi Məkkənin adlı-sanlı adamları müsəlman oldular. Məhəmməd (ə.s.) ilk dövrdə islama dəvəti gizli şəkildə həyata keçirirdi. Lakin 614-cü ildə "Hicr" surəsinin "(Ya Rəsulum!) Sənə əmr olunan Quranı açıq-aşkar təbliğ et və müşriklərdən üz döndər. Şübhəsiz ki, istehza edənlərin (şərindən) səni qorumağa Biz kifayət edərik!" ayələri nazil olduqdan sonra o, islam dinini aşkar təbliğə başladı. Məhəmməd (ə.s.) tez-tez Kəbəyə gedib Qurani-Kərimin mübarək ayələrini oxuyur, öz qövmünü islamı qəbul etməyə çağırırdı. İlk dövrlərdə bu təbliğə laqeyd yanaşan Qureyş qəbiləsi tədriclə müsəlmanların sayının artdığını, Məhəmməd əleyhissəlamın bütləri və bütpərəstliyi rədd etdiyini gördükdə, mövqelərini dəyişib müsəlmanlara əziyyət verməyə başladı. Məhəmməd (ə.s.) islamı təbliğ etmək, yaymaq üçün əlindən gələni edirdi. Qurani-Kərimin "Şüəra" surəsinin "(Əvvəlcə) ən yaxın qohumlarını (Allahın əzabı ilə) qorxudub xəbərdar et!" buyuran 214-cü ayəsi nazil olan kimi qohum-əqrəbasını və qureyşiləri Kəbənin yaxınlığındakı Səfa təpəsinə toplayıb onlara tapındıqları bütpərəstliyin yanlış olduğunu bildirdi. Bundan qəzəblənən Qureyşin adlı-sanlı adamları qəbilənin ağsaqqallarından olan Əbu Talibin yanına gedib qardaşı oğluna yiyə durmasını, onu susdurmasını tələb etdilər, əks təqdirdə özlərinin onu susduracağını bildirdilər. Daxilən qardaşı oğlunun təbliğinə rəğbət bəsləyən Əbu Talib Məhəmməd əleyhissəlamı yanına çağırıb bütləri pisləməməsini, Qureyşin azğın sərvət sahiblərini qəzəbləndirməməsini rica etdi. Əmisini böyük məhəbbətlə sevən Məhəmməd əleyhissəlam onun bu xahişini qəbul etmədi. Bəzi qureyşilər isə ona bütləri pisləməyəcəyi təqdirdə çoxlu mal-dövlət, sərvət, hətta Məkkənin rəisliyi vəzifəsini verəcəklərini vəd etdilər. Peyğəmbər onların bu təklifini də qətiyyətlə rədd etdi. Bu zaman ərəblər içərisində mətin cəngavər kimi şöhrət qazanmış Həmzə ibn Əbdül-Müttəlibin Əbu Cəhlin Peyğəmbərə etdiyi bir həqarət nəticəsində islamı qəbul etməsi, onun ardınca Ömər ibn Xəttabın islama dönməsi müsəlmanlara böyük qüvvət verdi. Lakin bütpərəst qureyşilər bunların müqabilində müsəlmanlara verdikləri əzab-əziyyəti daha da artırır, onları şiddətli işgəncələrə məruz qoyurdular. Müsəlmanların vəziyyətinin gündən-günə pisləşdiyini görən Məhəmməd əleyhissəlam möminlərdən istəyənlərin Həbəşistana hicrət (köç) edə biləcəklərini söylədi. Beləliklə, 614-cü ildə 11, yaxud 12 kişidən və 4 qadından ibarət ilk müsəlman qafiləsi Həbəşistana hicrət etdi. Bundan bir az sonra, yəni 615-ci ildə 77 kişidən və 13 qadından

(başqa bir rəvayətə görə, 80 nəfərdən) ibarət ikinci müsəlman dəstəsi Həzrəti Əlinin qardaşı Cəfər Təyyarın başçılığı altında Həbəşistana köçdü. Məkkədə qalan müsəlmanlar Əbu Talibin yaşadığı məhəllədə toplandılar. Bütpərəst qureyşilər möminlərlə bütün əlaqələrini kəsib onları mühasirəyə aldılar. Müsəlmanlar olmazın əzab-əziyyətə məruz qaldılar. Nəhayət, bu qədər əziyyət, sıxıntıya son qoymağın vaxtı gəlib çatdığını iddia edən bəzi qureyşilərin tələbi nəticəsində bir müddət sonra mühasirə aradan qaldırıldı.

Mühasirə götürüldükdən 7-8 ay sonra baş verən iki mühüm hadisə Məhəmməd əleyhissəlamın dərin hüznə qapılmasına səbəb oldu. Bunlardan birincisi Peyğəmbəri həmişə düşmənlərdən müdafiə edən əmisi Əbu Talibin ölümü, ikincisi isə onu maddi və mənəvi sıxıntı çəkməyə qoymayan sevimli zövcəsi Xədicənin vəfatı idi.

Bu dövrdə Məhəmməd əleyhissəlamın həyatında baş verən ən mühüm hadisələrdən biri də isra və meracdır. İsra gecə səyahəti deməkdir. 619-cu ilin Rəcəb ayının 27-ci gecəsi Məhəmməd əleyhissəlam Məkkədəki Məscidül-Haramdan, yaxud öz evindən və ya əmisi qızı Ümmi Haninin evindən Allahın bir möcüzəsi olaraq Qüdsdəki Məscidi-Əqsaya gətirilmiş, oradan da merac adlanan, mahiyyətini bilmədiyimiz xüsusi bir nərdivanla göylərə yüksələrək, Allah dərgahına qalxmışdır.

Məhəmməd əleyhissəlam hər il həcc mövsümündə Məkkəyə gələn qəbilələrlə görüşər, onları islama dəvət edərdi. Bir dəfə o, Məkkə yaxınlığında yerləşən Əqəbədə zəvvarları gözləyərkən 6 nəfər mədinəli ilə rastlaşdı. Onlar o zaman Yəsrib adlanan Mədinədə məskunlaşmış Xəzrəc qəbiləsinə mənsub idilər. Peyğəmbər bu altı kişiyə Qurandan ayələr oxudu və onları islama dəvət etdi. Onlar islamı qəbul etdilər və Mədinədə islamı yaymağa başladılar. Nəticədə Xəzrəc qəbiləsinin böyük bir qismi dönüb müsəlman oldu. Tədriclə islam dini Mədinədə məskun olan Övs qəbiləsi içərisində də yayılmağa başladı. 621-ci ilin həcc mövsümündə 10 xəzrəcli və 2 övslü Məkkəyə gəlib Əqəbədə Məhəmməd əleyhissəlamla görüşdülər və ömürlərinin sonuna qədər ona sadiq qalacaqlarına and içdilər. İslam tarixində buna birinci Əqəbə beyəti deyilir. Müsəb bin Ümeyr də islamı öyrətmək üçün Mədinəyə göndərildi. Bütün bu səylər öz nəticəsini vermiş və Mədinə əhalisinin, demək olar ki, hamısı müsəlman olmuşdu. 622-ci ilin həcc mövsümündə Müsəb ilə birlikdə 73 qadın və 2 kişi Məkkəyə gəldi. Onlar Əqəbədə Peyğəmbərlə görüşüb onu Mədinəyə dəvət etdilər, canları və qanları bahasına onu qoruyacaqlarına and içdilər ki, buna da ikinci Əqəbə beyəti deyilir. Bundan sonra Məhəmməd əleyhissəlam əshabələrinə Mədinəyə getməyə izin verdi. 622-ci ilin aprel ayında Mədinəyə hicrət başladı. Müsəlmanlar Məkkəni qafilələr halında tərk edirdilər. Qısa bir müddətdə Məkkənin bəzi məhəllələri boşaldı. Müsəlmanların Mədinədə məskunlaşması qureyşiləri yenidən qəzəbləndirdi. Onlar Məhəmməd əleyhissəlamı öldürməyi qərara aldılar. Bundan xəbər tutan Peyğəmbər özünə verilmiş əmanətləri sahiblərinə çatdırmaq üçün, Həzrəti-

Əlini öz yatağında yatırdaraq gecə ikən evdən çıxdı, əmanətləri sahiblərinə çatdırdıqdan sonra Əbu Bəkrlə əvvəlcədən qərarlaşdırdıqları yerə getdi. İki dost gecə ikən Mədinəyə doğru hərəkət etdilər. Qureyşilər onların qaçdığından xəbər tutan kimi ardlarınca düşsələr də, heç bir şey edə bilməyib, kor-peşman geri qayıtdılar. Müsəlmanlar bir həftə yol getdikdən sonra Mədinə yaxınlığında Quba adlı bir yerə yetişdilər və bir müddət orada qalıb Həzrəti-Əlini gözlədilər. Onlar həmin müddət ərzində Qubada bir məscid tikdilər ki, bu islam tarixində ilk məscid hesab edilir. Nəhayət, müsəlmanlar bir cümə günü Qubanı tərk edib Mədinəyə doğru irəlilədilər. Bütün Mədinə əhzi əziz qonaqları böyük bir təntənə ilə qarşıladı. Hamı Məhəmməd əleyhissəlamın öz evində qonaq qalmasını istəyirdi. Lakin o, dəvəsini, Əbu Əyyub Xalid bin Zeyd əl-Ənsarinin evi qarşısında çökdüyünü görüb, oraya qonaq düşdü. Sonralar Peyğəmbər dəvənin çökdüyü yeri satın alaraq orada bir məscid və özü üçün bir ev tikdirdi.

Hicrət Məhəmməd əleyhissəlamın həyatında və islam tarixində bir dönüş nöqtəsidir. Belə ki, islam dini Mədinədə hakim mövqe tutmuş, Məhəmməd əleyhissəlam Mədinədə qurulmuş ilk islam dövlətinin başçısı olmuşdur. Hicrət dövründə Mədinədə üç qrup əhali yaşayırdı. Bunlar ənsardan, yəni mədinəli müsəlmanlardan, mühacirlərdən, yəni hər şeylərini tərk edərək Mədinəyə köçmüş məkkəli müsəlmanlardan, bir də çox qədim zamanlardan Mədinədə məskunlaşmış üç yəhudi qəbiləsindən ibarət idilər. Məhəmməd əleyhissəlam yurdlarını tərk etmiş mühacirlərin iqtisadi vəziyyətini qaydaya salmaq məqsədilə onların hər birinin ənsardan biri ilə qardaşlaşdırdı. Digər tərəfdən üç yəhudi qəbiləsi ilə qarşılıqlı anlaşma əldə edildi. Bu qarşılıqlı anlaşma yəhudilərin hər cür hücumdan, basqınlardan qorunmasını, sərbəst şəkildə ibadət edə bilmələrini nəzərdə tuturdu. Bunun müqabilində yəhudilər də Məhəmməd əleyhissəlama və müsəlmanlara qarşı nə sözlə, nə də işlə heç bir pis hərəkət etməməli idilər. Yəhudilər müqaviləni pozacaqları tərzdə onların malı və canı müsəlmanlara halal hesab edilirdi.

Hicrətdən sonra müsəlmanlar qureyşilərin zülm və təqiblərindən asudə olmuşdular. Lakin Qureyş təhlükəsi hələ tamamilə aradan qalxmamışdı. Qureyşilər ətraf qəbilələrdə sazişə gələrək müsəlmanları Mədinədə təcrid etmək istəyirdilər. Bunu görən Məhəmməd əleyhissəlam cavab tədbiri olaraq Şama gedən Məkkə karvanlarının yolunu kəsib qureyşilərin can damarını qırmaq qərarına gəldi. Bu əsnada Mədinədəki müsəlmanlarla qureyşilər arasında möminlərin xeyrinə qurtaran Birinci Bədr və Əşirə savaşları baş verdi.

İslam tarixində müsəlmanların qureyşiləri hədəf alan ilk önəmli səfərlərindən biri Nəhlə səfəridir. 624-cü ildə baş vermiş bu səfər zamanı Abdullah ibn Cəhşin komandanlığı altında kiçik bir dəstə Nəhlə vadisinə tərəf yönəlib orada bir Qureyş karvanı ilə rastlaşdılar və karvanı ələ keçirdilər. Nəhlə səfəri müsəlmanlarla qureyşilər arasındakı münasibətləri daha da gərginləşdirdi. Məhəmməd əleyhissəlam Məkkə kar-

vanlarını ələ keçirərək qureyşiləri iqtisadi baxımdan zəiflətmək məqsədini güddüyü halda, Qureyş qəbiləsi də müsəlmanları hərbi cəhətdən əzmək planlarını hazırlayırdı. Hicrətin ikinci ilində, demək olar ki, bütün Qureyş ailələrinin qatıldığı böyük bir karvanın Şama getməsi xəbəri müsəlmanlara məlum oldu. Məhəmməd əleyhissəlam ənsardan və mühacirlərdən ibarət bir dəstə düzəldib karvanı ələ keçirməyi təklif etdi. Təklif qəbul olunan kimi 300 nəfərdən artıq bir dəstə düzəldi. Müsəlman ordusu 624-cü ilin 9 martında Mədinədən çıxıb Bədrə gəldi və orada karvanı gözləməyə başladı. Lakin karvanın rəisi Əbu Süfyan vəziyyəti öyrəndiyindən təhlükəni sovuşdurmaq üçün bir sıra tədbirlərə əl atdı. O, bir tərəfdən Məkkəyə xəbər göndərib onlardan yardım istədi, digər tərəfdən də karvanın yolunu dəyişib onu təhlükədən xilas etdi. Əbu Süfyanın xəbəri Məkkədə böyük həyəcan doğurmuşdu. Qısa bir müddət ərzində Əbu Cəhlin komandanlığı altında 950 nəfərdən ibarət bir ordu düzələrək Mədinəyə tərəf yola çıxdı. Ordu yolda ikən karvanın təhlükədən sovuşduğu xəbərini aldı, lakin geri dönmədi. İki ordu Bədrdə üz-üzə gəldi. Vuruşun əvvəlində Əbu Cəhl öldürüldü, nəticədə əsgərlər arasına vahimə düşdü və Qureyş ordusu məğlub oldu. Döyüş meydanında 14 müsəlman şəhid olmuş, 70 Qureyş əsgəri qətlə yetirilmişdi. Beləliklə, İkinci Bədr savaşı müsəlmanların bütpərəstlər üzərində ilk ən böyük qələbəsi oldu. Bu döyüşdən sonra müsəlmanlar müdafiə mövqeyindən hücuma keçdilər və artıq özlərinin bir qüvvə kimi yetişdiklərini nümayiş etdirdilər.

Məkkəlilər fidyə ödəyərək Bədr əsgərlərini azad etdikdən sonra Əbu Süfyan bir neçə yüz nəfərdən ibarət bir ordu ilə Mədinənin yaxınlığına qədər gəlib orada bəzi təxribat işləri gördü və sonra təcili surətdə geri qayıtdı. Müsəlmanlar qureyşiləri təqib etsələr də, onlara çata bilmədilər.

Məkkəlilər Bədr vuruşuna səbəb olan karvanın məruz qaldığı təhlükəni hələ də unutmamışdılar. Onların bütün həyatı ticarətlə bağlı olduğu üçün, o biri il Şama gedəcək bir karvanı başqa yolla aparmağı qərara aldılar. Məhəmməd əleyhissəlam onların bu planını öyrənən kimi Zeyd ibn Harisiyə özü ilə birlikdə yüz süvari götürüb karvanı ələ keçirməyi əmr etdi. Müsəlmanlar karvanı ələ keçirdilər. Buna cavab olaraq qureyşilər qatı bütpərəst Əbu Süfyanın komandanlığı altında 3000 nəfərlik bir ordu təşkil edib Mədinənin yaxınlığındakı Uhud dağı ətəyində qərar tutdular. Məhəmməd əleyhissəlam vəziyyətlə əlaqədar olaraq təcili bir yığıncaq çağırıb, nə cür hərəkət etmək barədə ənsar və mühacirlərlə məsləhətləşdi. Müsəlmanlar əvvəlcə şəhərdən çıxmayaraq müdafiə mövqeyində durmağı təklif etdilər. Peyğəmbər bu təklifi razılıqla qəbul etdi. Lakin bir gündən sonra müəyyən təhriklər nəticəsində müsəlmanların çoxu düşmənlə vuruş qərarına gəlib Peyğəmbəri şəhərdən kənara çıxmağa məcbur etdilər. Məhəmməd əleyhissəlam istəməyərəkdən çoxluğun fikrini qəbul etdi. Beləliklə, 625-ci ilin 23 martında iki ordu Uhudda bir-biri

ilə qarşılaşdı. Müsəlman ordusunun sayı 900 nəfərdən ibarət idi. Döyüş məkkəlilərin qələbəsi ilə bitdi. Müsəlmanlardan 27 nəfər şəhid oldu. Peyğəmbərin əmisi, məşhur cəngavər Həmzə də şəhid olanların arasında idi. Uhud döyüşündə Peyğəmbərin alnı cızılmış, dodağı yaralanmış, mübarək dişi sınmışdı.

Birillik fasilədən sonra qonşu qəbilələrə qarşı axınlar yenidən başladı. Dumətul-Cəndək və Bəni-Müstəliq savaşları müsəlmanların qələbəsi ilə qurtardı. Bir az sonra Uhud qələbəsindən ruhlanmış məkkəlilər böyük bir ordu ilə yenidən Mədinə üzərinə hücuma keçdilər. Uhud müharibəsinin acı nəticəsini unutmamış müsəlmanlar bu dəfə Mədinə ətrafında xəndək qazıyıb tam müdafiə mövqeyinə keçdilər və şəhərdən kənara çıxmamağı qərara aldılar. İslam tarixində Xəndək müharibəsi adı ilə məşhur olan bu döyüş müsəlmanların qələbəsi ilə sona çatdı.

Məhəmməd əleyhissəlam 628-ci ilin ilk baharında yenidən Məkkəyə getməyi qərara aldı. O, 628-ci ilin 13 martında yanlarında qılıncdan başqa silahı olmayan 1500 nəfər əshabəsi ilə yola çıxdı. Müsəlmanlar yolda heç bir maneəyə rast gəlmədən Məkkənin 60 kilometrliyində yerləşən Üsfan adlı bir yerdə qərar tutdular. Onların bu hərəkətindən xəbər tutan məkkəlilər döyüş qərarına gələrək müttəfiqlərindən yardım istədilər. Xalid bin Vəlid öz ordusunun ön hissəsini Üsfan istiqamətinə göndərdi. Bu zaman Məkkəyə daha çox yaxınlaşmağa can atan Məhəmməd əleyhissəlam onun yaxınlığında yerləşən Hüdeybiyyəyə gəlib çatdı. Peyğəmbər Məkkəyə elçi göndərib, səfərinin məqsədinin yalnız həcc ziyarəti olduğunu, lakin ona mane olacağı təqdirdə vuruşdan dönməyəcəyini və eyni zamanda qureyşilərlə bir saziş bağlamağa da hazır olduğunu bildirdi. Məkkəlilər əvvəlcə bu təklifə razılıq vermədilər. Elçilər bir neçə dəfə gedib-gəldilər, vəziyyət gərginləşdi. Hər an vuruş başlanacağı gözlənilirdi. Yanlarında qılıncdan başqa silahları olmayan müsəlmanların vəziyyəti ağır idi. Məhəmməd əleyhissəlam əshabəsini bir yerə topladı, onlardan sədaqət andı içməyi tələb etdi. Müsəlmanlar son damla qanlarına qədər vuruşacaqları, ölənə qədər Peyğəmbərə sadiq qalacaqları barədə and içdilər. Bu andiçmə mərasimi islam tarixində "Beyətur-Rizvan və ya "Beyətun təhtəşşəcər" adları ilə məşhurdur. Nəhayət, Peyğəmbərin ciddi səyi və böyük diplomatik fəaliyyəti nəticəsində məkkəlilərlə saziş bağlamaq işi baş tutdu. Hüdeybiyyə müqaviləsi adlanan bu sazişin şərtlərinə görə, qureyşilərlə müsəlmanlar arasında 10 il müharibə olmayacaq, həmin il müsəlmanlar tərəfindən həcc mərasimi yerinə yetirilməyəcəkdi. Eyni zamanda qərara alınmışdı ki, qureyşilərdən biri öz sahibinin, yaxud qəyyumunun razılığı olmadan Məhəmməd əleyhissəlamın yanına gedib ona pənah apararsa, təkrarən geri qaytarılsın. Müsəlmanlardan isə biri Qureyşə pənah apararsa, o, geri təhvil verilməsin.

İlk baxışda müsəlmanların əleyhinə görünən və buna görə də bəzi möminlərin etirazına səbəb olan Hüdeybiyyə müqaviləsi tezliklə öz müsbət nəticələrini verməyə başladı. Hər şeydən əvvəl

onu qeyd etmək lazımdır ki, qureyşilər Məhəmməd əleyhissəlamı və müsəlmanları rəsmən tanıyıb onlarla saziş imzalamaq məcburiyyətində qalmışdılar.

Hüdeybiyyədən qayıtdıqdan bir ay sonra Məhəmməd əleyhissəlam Xeybər yəhudiləri üzərinə hücum etmək qərarına gəldi. Bunun səbəbkarı Xeybər yəhudilərinin özləri idi. Onlar bütpərəst ərəbləri müsəlmanlarla vuruşa təhrik edir, özləri də müsəlmanlarla düşmən olan ərəb qəbilələri ilə birlikdə Mədinə üzərinə qəfildən hücum etməyə hazırlaşırdılar. Barış təklifini qəbul etmədiklərinə görə Peyğəmbər onlarla vuruşmaq məcburiyyətində qalmışdı. Beləliklə, 628-ci ilin aprel ayında Məhəmməd əleyhissəlam 1600 əsgərdən ibarət bir ordu ilə Mədinədən çıxıb gözlənilmədən Xeybərə hücum etdi. Müsəlmanlar yəhudilərin böyük ümid bəslədikləri müttəfiq qüvvələrin onlarla birləşməsinə imkan vermədilər. 20 günlük mühasirədən sonra Xeybər təslim oldu. Həzrəti-Əli Xeybər müharibəsində misilsiz şücaət göstərdi.

629-cu ildə Şama göndərilən 15 nəfərlik müsəlman kəşfiyyat dəstəsi Qəssanilərin sərhəd mühafizəçiləri tərəfindən pusquya salınaraq öldürüldü. Yenə həmin ildə Busraya göndərilən müsəlman elçisi edam edildi. Buna görə də Məhəmməd əleyhissəlam oğulluğu Zeyd ibn Harisənin başçılığı altında 3000 əsgərlik bir ordunu Şama göndərdi. Ordu Lut gölünün cənubunda yerləşən Muta adlı yerə yetişən zaman Bizans qoşunları ilə rastlaşdı. Müsəlman ordusu sayca özündən çox olan Bizans qoşunları ilə vuruşda məğlub oldu. Döyüş zamanı orduya komandanlıq edən Zeyd ibn Harisə, Cəfər bin Əbu Talib, Abdullah bin Rəvahə və başqaları şəhid oldular. Xalid ibn Vəlid başsız qalmış ordunu bir yerə toplayaraq qırılmaqdan qurtardı və sağ-salamat Mədinəyə gətirdi. Bu igidliyinə görə Peyğəmbər Xalid ibn Vəlidə Seyfullah (Allahın qılıncı) ləqəbini verdi.

629-cu ilin sonlarında qureyşilər Hüdeybiyyə müqaviləsinin qüvvədən düşdüyünü elan etmək üçün müsəlmanlara böyük bir dəstəvüz verdilər. Buna səbəb o olmuşdu ki, müsəlmanlarla müttəfiq olan Xüzaə qəbiləsi ilə Bəkr qəbiləsi arasında baş verən anlaşılmazlıqda qureyşilər Bəkr qəbiləsini açıq-aşkar müdafiə etmişdilər. Bu isə Hüdeybiyyə müqaviləsini pozmaq demək idi. Bu addımın doğuracağı təhlükəni yaxşı dərk edən Qureyşin başbilənləri Əbu Süfyanı Mədinəyə göndərərək məsələni sülh yolu ilə nizama salmağa təşəbbüs göstərdilər. Əbu Süfyan Mədinəyə yetişdikdə bütün qapıların üzünə bağlı olduğunu gördü. Məhəmməd əleyhissəlam haraya gedəcəyini bildirmədən səfərə hazırlıq əmrini vermişdi. Xəndək vuruşunda məkkəlilərlə bir sırada durmuş Süleym və Qətəfan qəbilələri bu səfərdə qureyşilərin üzərinə yürüyürdü. Bütün ehtiyat tədbirlərinə baxmadan səfərin Məkkə üzərinə təşkil edildiyi hamıya bəlli oldu. Məkkəlilər dəstə-dəstə gəlib islama dönür, Peyğəmbərə beyət edir, onun ordusunun sıralarında dururdular. 630-cu ilin yanvar ayında 10 min nəfərlik müsəlman ordusu Məkkənin ətəyindəki Mərruz-Zəhran adlı yerdə öz qərargahını qurdu. Artıq Məkkənin müsəlmanlara müqavimət göstərə bilməyəcəyini

dərk edən Peyğəmbər ordu komandanlarına ciddi təhlükə yaranmadığı təqdirdə qan tökməmələrini əmr etdi. Şəhərin məhəllələri heç bir qan tökülmədən fəqh edildi. Bir neçə nəfər istisna olmaqla əfvi-ümumi elan edildi. Məhəmməd əleyhissəlam Məkkəyə girər-girməz, Kəbəyə daxil olub Allahın evini bütlərdən təmizlədi. Təqribən 8 il əvvəl bir neçə yüz əshabəsi ilə birlikdə tərk etmək məcburiyyətində qaldığı doğma Məkkənin fəthi və qureyşilərin islama dönüşü ilə Məhəmməd əleyhissəlamın ən böyük məqsədlərindən biri artıq həyata keçmiş oldu.

Məkkənin fəthindən sonra müsəlmanlar başqa bir ciddi təhlükə ilə qarşılaşdılar. Həvazin qəbilələri hələ Məkkənin fəthindən əvvəl müsəlmanlar üzərinə böyük yürüş planı hazırlamışdılar. Məkkənin fəthindən iki həftə sonra Həvazin qəbilələri 20 minlik bir ordu ilə Taif ətrafında toplaşdılar. Məhəmməd əleyhissəlam 630-cu ilin yanvar ayında 12 minlik bir qoşunla onların qarşısına çıxdı. Həvazin və Səqif qəbilələrinin müttəfiq qoşunlarının komandanı Malik bin Ovf öz süvari birləşmələrini iki ordu arasındakı Hüneyn vadisinə yerləşdirmişdi. Onlar vadinin hər iki yamacında pusqu qurmuşdular. Soyuq və yağmurlu bir gündə müsəlman ordusunun ön hissələri vadiyə daxil oldu. Onlar vadinin ortasına yetişdikdə qəfil hücuma uğradılar. İslam intizamına hələ tam alışmamış bədəvilər qaçmağa başladılar və müsəlmanlığı yenicə qəbul etmiş qureyşiləri də özləri ilə birlikdə qaçmağa sövq etdilər. Vəziyyət çox ağır idi. İslam ordusunun nüvəsini təşkil edən ənsar və mühacirlər arasına belə vahimə düşmüşdü. Belə təhlükəli bir anda Məhəmməd əleyhissəlam: "Ey ənsar, ey ölümdən qorxmamağa and içənlər!" deyərək qılıncını sıyırıb ortaya atıldı. Qaçmağa üz qoymuş müsəlman əsgərləri Peyğəmbərin bu sözlərindən ruhlanaraq yavaş-yavaş geri dönməyə başladılar. Özünü cəmləşdirən ordu yenidən hücuma keçdi. Müsəlmanlar Taifin üzərinə yürüyüb onu mühasirəyə aldılar. 14 günlük mühasirədən sonra Taif təslim oldu. Malik ibn Ovf əsir düşmüş arvadını və uşaqlarını xilas etmək üçün islamı qəbul etdi. Həvazin qəbilələri birliyinin böyük bir qismi də dönüb müsəlman oldu.

Məhəmməd əleyhissəlam 631-ci ildə Şam üzərinə yeni bir yürüş təşkil etmək qərarına gəldi. Bu, Peyğəmbərin bilavasitə iştirak etdiyi son hərbi səfər idi. Ordu Mədinədən çıxıb Təbuk adlanan yerə gəldi, 10 gün orada qaldı, lakin qarşısına heç bir düşmən qüvvəsi çıxmadı. Tarixdə Təbuk yürüşü adlanan bu səfər elə bir önəmli nəticə vermədən başa çatdı.

Hicrətin 10-cu ilində, yəni 632-ci ildə islam dini artıq Ərəbistan yarımadasının ən ucqar guşələrinə belə hakim kəsilmişdi. Peyğəmbər Allahın ona buyurduğu islam dinini layiqincə təbliğ etmiş, öz risalətini bacarıqla yerinə yetirmişdi. Allahın elçisi kimi özündən əvvəlki peyğəmbərlərin heç birinə nəsib olmayan bir qüdrət qazanmış Məhəmməd əleyhissəlam hicrətin 10-cu ilinin zilqədə ayının 25-də (632-ci ilin 21 fevralında) özünə cani-dildən bağlı olan 100 minlik bir əshabə ordusu ilə həccə getmək qərarına gəldi. Tarixə Vida

həcci kimi daxil olmuş bu səfər əsnasında Məhəmməd əleyhissəlam öz yaxın əshabəsinə həccin bütün əməllərini, həcc ziyarətinin qayda-qanunlarını lazımınca öyrətdi. Həcc əsnasında Ərəfatda və həccdən Mədinəyə qayıdarkən Qədiru-xumm adlanan yerdə vida xütbəsi söyləyən Peyğəmbər əleyhissəlam bu tarixi xütbəsində islam dininin gələcək inkişaf yollarını müəyyənləşdirdi, onun parçalanmaması, müsəlmanların təfriqəyə düşməmələri üçün özünün tövsiyələrini ümmətə bəyan etdi. Peyğəmbər öz xütbəsində müsəlmanların bir-biri ilə qardaş olduqlarını, bir-birlərinin canlarına və mallarına qəsd etməmələrini, qohumluq, ailə tellərinin müqəddəs olduğunu, hər bir müsəlmanın qadınlarla, kölələrlə yaxşı davranmalı, nəzakətlə rəftar etməli olduğunu bildirdi. Onun ümmətə olan ən əsas tövsiyələrindən biri də islamın birliyini göz bəbəyi kimi qoruyub saxlamaq idi. Peyğəmbər əleyhissəlam həm vida xütbəsində, həm də ölüm yatağında olarkən üzünü bütün ümmətinə və yaxın əshabələrinə tutaraq demişdi: "Ey camaat! Sizin aranızda iki şeyi əmanət qoyub gedirəm, onlardan biri Allahın kitabı, o biri isə mənim əhli-beytim, yəni ailəmdir. Onlardan möhkəm yapışın!"

Nəhayət, Məhəmməd əleyhissəlam ümmətə "Maidə" surəsinin həcc ziyarəti əsnasında nazil olmuş: "Bu gün sizin üçün dininizi kəmalə yetirdim, sizə olan nemətimi tamamladım və din olaraq sizin üçün islamı bəyənib seçdim" ayəsini oxudu. Bununla da, Quranın nüzulun sona yetməsi, Peyğəmbərin din təbliği vəzifəsinin başa çatması bəlli olurdu. Bu ayə oxunduğu zaman Məhəmməd əleyhissəlamın tezliklə Allah dərgahına gedəcəyini bilən Əbu Bəkr Siddiq göz yaşlarını saxlaya bilməmişdi.

Məhəmməd əleyhissəlam Mədinəyə qayıtdıqdan sonra Bizansa qarşı yeni bir hərbi səfər təşkil etməyi qərara aldı. 632-ci ilin may ayının 25-də səfərə hazırlıq başladı. Ordunun komandanlığı Zeyd Harisənin oğlu Üsaməyə tapşırıldı. Hər tərəfdən mücahidlər axışıb Mədinəyə gəlirdi. Bu zaman Məhəmməd əleyhissəlam xəstələndi və bu müsəlmanlar içərisində bir əndişəyə səbəb oldu. Peyğəmbərin xəstəliyinin gündən-günə şiddətlənməsinə baxmayaraq o, səfərə hazırlıq işləri ilə ciddi maraqlanırdı. Ordu üçün Mədinə yaxınlığındakı əl-Curf adlanan yerdə qərargah qurmuşdu. Peyğəmbərin xəstəlik nəticəsində gündən-günə zəifləməsi, əldən düşməsi müsəlmanların diqqətini başqa işlərdən yayındırmış, əllərini işdən soyutmuşdu. Onun ölə biləcəyinə inanmayanların sayı çox idi. Nəhayət, islam Peyğəmbəri hicrətin 10-cu ilinin səfər ayının 28-də, başqa bir rəvayətə görə isə, rəbiüləvvəl ayının 12-də canını həmişə intizarında olduğu öz Rəbbinə tapşırdı, gözlərini əbədi olaraq yumub Allah dərgahına qovuşdu.

Üsamənin başçılığı altında olan ordu Peyğəmbərin vəfat xəbərini eşidər-eşitməz Mədinəyə döndü. Yüz minlərlə müsəlman öz sevimli Peyğəmbəri ilə vidalaşmaq üçün Ərəbistanın hər tərəfindən Mədinəyə axışdı. Məhəmməd əleyhissəlamın yuyulması, kəfənlənməsi və dəfn işləri ilə Həzrəti-Əli məşğul oldu. Peyğəmbərin əmisi Abbas və

oğulları bu işdə ona kömək etdilər. Peyğəmbər gecə vaxtı öz evində, xəstə yatdığı yerdə dəfn edildi. Əvvəlcə kişilər, sonra qadınlar, daha sonra uşaqlar meyit namazı qıldılar.

Peyğəmbər əleyhissəlam Xədicənin sağlığında başqa bir qadınla evlənməmiş, ömrü boyu bu sevimli zövcəsini dərin hörmət və ehtiramla yad etmişdi. Lakin Xədicədən sonra Məhəmməd əleyhissəlam bir sıra qadınlarla evlənmişdir ki, onlar aşağıdakılardır: Savdət (Sudət), Aişə, Həfsə, Zeynəb bintu-Həzimə, Zeynəb bintu-Cəhş, Ümmu-Sələmə, Cuveyriyə bintul-Haris, Meymunə bintul-Harisil-hilaliyyə, Ümmu-Həbibə, Səfiyyə, Mariyeyi-Qibtiyyə. Bu qadınlardan Aişə Əbu Bəkrin qızı. Həfsə Ömərin qızı, Ümmu-Həbibə isə Əbu Sufyanın qızı idi. Bu zövcələr içərisində Məhəmməd əleyhissəlamın yalnız Mariyeyi-Qibtiyyədən İbrahim adlı oğlu olmuş, o da çox körpə ikən vəfat etmişdir.

Peyğəmbər əleyhissəlamın 50 yaşından sonra etdiyi bu izdivaclardan məqsədi heç də qeyri-obyektiv şərqşünasların və islamşünasların iddia etdiyi kimi, kef, əyləncə, şəhvət, ehtiras deyil, müxtəlif ərəb qəbilələri arasında birlik yaratmaq, düşmən qüvvələri neytrallaşdırmaq, döyüşlərdə həlak olmuş islam mücahidlərinin övladlarını və dul qadınlarını başsız qoymamaq, islam dininin hökmlərini, şəriət qayda-qanunlarını qadınlara daha yaxşı başa salmaq və Cahiliyyət dövrünün bəzi zərərli adətlərini aradan qaldırmaq idi. Əgər Məhəmməd əleyhissəlamın bu izdivacları kef, əyləncə, şəhvət xatirinə olsa idi, o bunu cavan vaxtlarında, gəncliyinin qızmar çağlarında edərdi.

Məhəmməd əleyhissəlam ortaboylu, ağbənizli idi, saçlarını ortadan ayırıb yanlara darayardı. Peyğəmbərin qaşları hilal şəkilli, gözləri iri və qara, saqqalı sıx, sinəsi geniş və seyrək tüklü idi. Üzü həmişə nur saçardı.

Beşikdən qəbrədək sadə həyat tərzi keçirmiş, gündüzlərini, gecələrini xeyirli işlərə və ibadətə həsr etmiş Məhəmməd əleyhissəlam bütün insanlara dünyada və axirətdə xoşbəxt olmağın yollarını göstərmişdir. O, ümmətə tövsiyə etdiyi əməlləri ən əvvəl özü yerinə yetirib yüksək əxlaq nümunəsi nümayiş etdirmişdir. Peyğəmbərin qəlbi bəşəriyyətə məhəbbət, insana sevgi hissləri ilə dolu idi. Allahın bu elçisi o qədər mərhəmətli idi ki, həmişə əlində olanı yoxsullara verər, bəzən özü ac qalardı. Peyğəmbərimiz uşaqları çox sevər, onları qucağına alıb oxşardı. Günlərin birində bir ərəb Peyğəmbərin bir uşağı qucağına alıb, öpdüyünü görmüş və təəccüblə: "On uşağım var, heç birini öpməmişəm", – demişdi. Məhəmməd əleyhissəlam ona: "Mərhəmət etməyənə mərhəmət olunmaz", – deyə cavab vermişdi.

Bir dəfə namaz qılarkən, oynamaq üçün onun çiyinlərinə çıxmış sevimli nəvələri Həzrəti-Həsənin və Həzrəti-Hüseynin oyunlarını tamam edib yerə düşmələrini gözləmiş, onların bu hərəkətini xoş sifətlə qarşılamışdı.

Məhəmməd əleyhissəlam son dərəcə təvazökar idi, kasıbla varlıya fərq qoymazdı, yoxsul bir adam belə onu bir iş üçün dəvət etsə idi, gedərdi. O tez-tez kasıbların evlərinə gedib onlardan hal-əhval tutar, məclislərdə heç kəsin

onun üçün ayağa qalxmasına razı olmaz, buna görə də məclislərə gecikməz, vaxtında gedərdi. Xəstələri yoluxar, onların şəfa tapmaları üçün dua edərdi. Məclisə, izdihamlı yerə getdiyi zaman harada boş yer görsə, orada oturar, özünün yuxarı başa dəvət edilməsini sevməzdi. Paltarını, çəkməsini özü yamayar, lazım olan şeyləri bazardan özü alar, başqasına yük olmazdı. Peyğəmbərimiz qonağı çox sevər, ona özü xidmət edərdi. O, müsəlman olmayan qonaqlarla da belə davranardı. Günlərin birində bir nəfər onu ziyarətə gəlmiş, hüzuruna daxil olduqda titrəməyə başlamışdı. Bunu görən Peyğəmbər: "Dostum, titrəmə. Mən ki hökmdar deyiləm, quru çörək yeyən bir qureyşi qadının oğluyam", – deyə ona müraciət edib sakitləşdirmişdi.

Peyğəmbərimizin yaşayışı sadə və təmiz idi. O daim təmiz geyinər, bədənini təmiz saxlayardı. Gündə bir neçə dəfə dişlərini yuyar, ətirlənməyi çox sevərdi. Əshabəsinə də təmizkar olmağı, məscidə, ictimai yerlərə təmiz getməyi tövsiyə edərdi. Az yeyər, süfrədən doymamış durardı. Məclisdə olduqda isə hamının doyunca yeməsinə imkan vermək üçün, süfrədən əlini hamıdan axırda çəkirdi.

Məhəmməd əleyhissəlam insanların ən comərdi idi. Özündə olan bir şeyi ehtiyacı olan kimsəyə verməkdən çəkinməzdi. İmkanı olan yerdə heç kəsi əliboş qaytarmazdı. Ona təşəkkür edən möhtaclara: "Mən ancaq paylayanam, verən Allahdır", – deyərdi. Bununla belə o, dilənçiliyi sevməz, dilənçilərə işləyib qazanmağın yolunu göstərərdi.

Məhəmməd əleyhissəlam heç kəsin qəlbini qırmaz, heç kəsi təhqir etməz, heç kəsə pis söz deməz, heç yerdə öz böyüklüyünü büruzə verməzdi. O heç kəsdən intiqam almazdı, bağışlamağı sevərdi. Ona yaxşılıq edənlərin yaxşılığını isə heç vaxt unutmaz, daim minnətdarlıqla yadında saxlayardı. Peyğəmbərimiz özündən yaşlılara ehtiram göstərər, özündən kiçiklərə isə mərhəmət və şəfqətlə yanaşardı.

Məhəmməd əleyhissəlam tərkidünyalığı, tənbəlliyi, boş oturmağı sevməz, həmişə bir işlə məşğul olardı. O, Mədinə məscidinin tikintisində daş daşımış, orada fəhlə kimi çalışmışdı.

Məhəmməd əleyhissəlam həm də gözəl ailə başçısı idi. Qadınları ilə son dərəcə nəzakətli davranar, ev işlərində onlara kömək edərdi. O tez-tez ümmətinin kişilərinə müraciətlə: "Sizin ən xeyirliniz qadınlarla ən yaxşı davrananınızdır", – deyərdi.

Qurani-Kərimdə "usvətun Həsənə" ("gözəl örnək") adlandırılan Məhəmməd əleyhissəlamın həyatı, ibadəti, yaşayış tərzi, parlaq şəxsiyyəti təkcə müsəlmanlar üçün deyil, bütün bəşəriyyət üçün kamil insan, gözəl əxlaq nümunəsidir. Məhəmməd əleyhissəlam Allahın bəşəriyyətə göndərdiyi son dinin, son səmavi kitabın təbliğatçısı və peyğəmbərliyin axırıncısıdır. Onun adı Quranda bir dəfə Əhməd və dörd dəfə Muhamməd şəklində vəsf edilmişdir.

Əslində islam "yeni" bir din deyildir. "Allah yanında haqq olan din islamdır" buyuran Quranın hökmünə görə Haqq-təalanın ilk peyğəmbərdən etibarən öz elçiləri vasitəsilə tamamlanmış, onun təbliği ilə kəmalə yetmişdir. İslam bütün dövrlərin və zamanların tələbinə, ehtiyacına cavab verən ilahi bir dindir.

Məhəmməd əleyhissəlam, Qurani-Kərimdə xəbər verildiyi kimi, yalnız ərəblərə deyil, bütün insanlığa peyğəmbər göndərildiyi üçün, o, Allahın bu müqəddəs dinini təkcə Ərəbistan yarımadasında təbliğ etməklə kifayətlənməmiş, Həbəşistan, Misir hökmdarlarına, İran şahına, Bizans imperatoruna və başqa dövlət başçılarına məktublar göndərərək onları böyük bir əzmlə islama dəvət etmişdir. Bu baxımdan Məhəmməd əleyhissəlamın diplomatik missiyası da müasir baxımdan xüsusi əhəmiyyətə malikdir.

**MƏHƏMMƏD,** Muhammad ibn Abdullah (?-762), ən-Nəfs əz-Zəkiyyə – Əli ilə Fatimənin böyük oğlu Həsənin nəvəsinin oğlu. Əli oğullarının arzu və iddialarının həyata keçməsini hərəkətsiz sükunət içində gözləyib, şəxsi müdaxilə və zor ilə ələ keçirmək istəyənlərdən biri idi. Özü və qardaşı İbrahim gələcəkdə hökmdar olmaq üçün tərbiyə edilmişdilər və ona Məhəmmədin atası tərəfindən Mehdi ləqəbi verilmişdi. Hicri 145-ci il Rəcəb ayında (762-ci ilin oktyabrı) Məhəmməd Mədinədə Abbasilərə qarşı üsyan qaldırdı. İmam Malik ibn Anasın Abbasilərə verdiyi andın qanunsuz olduğunu elan etməsi ilə, şəhərin ən nüfuzlu şəxsləri də onun tərəfinə keçdilər. Məkkə də yeni hökmdara təslim oldu. Lakin xilafətin ordusu üstün gəldi və Ramazan ayının 14-də (6 dekabr 762) Məhəmməd şəhid oldu. Başı kəsilərək xəlifəyə göndərildi.

Məhəmməd boylu-buxunlu, güclü-qüvvətli və əsmər bədənli kimi təsvir olunur. Buna görə xəlifə onun adını Məhəmməd ("Qaralaşdırılmış") qoymuşdu. Haqlı olaraq, ən-Nəfs əz-Zəkiyyəni ("Təmiz ruhlu") ləqəbini daşıyırdı, çünki özü bütün şəxsi cəsarəti ilə birlikdə, mülayim təbiətli bir insan idi. Lakin o dövrdə səltənət rəqibinə lazım olan məziyyətlərdən məhrum idi.

**MƏHƏMMƏD,** Muhammad ibn əl-Hənəfiyyə (637-701) – Əlinin, h. 16-cı ilində Həvladan doğulmuş oğludur. Həvla, Bəni Hənifə qəbiləsinə mənsub olub, əsir düşür və Mədinəyə gətirilib Əliyə verilmiş idi ("evinin xidmətçisi idi"). Həsən və Hüseyn kimi, damarlarında Peyğəmbərin qanı yoxdursa da, Məhəmməd ibn əl-Hənəfiyyə də Əli ailəsinin mənsublarının işlərindən kənarda qalmadı. Bu əsla onun xətası deyildi, çünki o daim böyük ehtiyatla hərəkət edirdi. Həsən haqlarından imtina etdikdən, Hüseyn 680-ci ildə Kərbəlada şəhid olduqdan sonra çoxları ona ailənin təbii başçısı nəzəri ilə baxdılar. Lakin Məhəmməd ibn əl-Hənəfiyyə Əməvilər dövründə cərəyan olan siyasi hərəkatlardan kənarda qaldı.

**MƏHƏMMƏD,** Muhammad ibn Əli – Hüseynin nəvəsi Əlinin oğlu, künyəsi Əbu Cəfərdir. Dərin biliyinə görə ona əl-Baqir ("Elmin dərinliklərinə qərq olan tədqiqatçı") adı verilmişdir. Bu sülaləyə mənsub olan hər kəs kimi, Məhəmməd də, şiə firqəsi tərəfindən imam kimi tanınırdı. Ölüm tarixi hicri 114 (732)-cü, 117 (735)-ci, ya da 118 (736)-ci il olaraq göstərilir.

**MƏHƏMMƏD,** Muhammad ibn Əli ər-Riza – 12 imamı tanıyan şiələrin doqquzuncu imamı. H. 195-ci ilin Ramazan ayında (811-ci ilin iyunu) Mədinədə anadan olub. Zənciyə oxşadığına görə, Sabiqə, Dürrə və Xayzuran kimi adları olan anasının nubiyalı cariyə olması

ehtimal edilir. Bu qadına şərəf ünvanı məqsədi ilə adına "Misirli Məryəmin ailəsindən" ibarəsi əlavə edilirdi. Xəlifə Məmun Əli ər-Rizanı sarayına gətirib 830-cu ildə onu öz qızı Ümm əl-Fəzl ilə evləndirdi. Mötəsim taxta çıxdığı zaman onu Bağdada çağırdı və Məhəmməd h. 220 (835)-ci ilin əvvəlində oraya gəldi, lakin həmin ilin noyabrında öldü. Şiələrə görə, xəlifənin istəyilə uşaqsız qalan Ümm əl-Fəzl tərəfindən zəhərlənmiş idi. Bu Məhəmməd şiələr arasında fəal bir rol oynamamışdır. Atasının fəlakətindən sonra, bir gün Məhəmmədin xəlifə olacağını və onun vaxtında Əli ailəsinin fəal siyasi qayələrini gerçəkləşdirə biləcəyini ümid edən zeydilər təkrar əvvəlki hərəkat tərzlərinə qayıtdılar. Şiələr doqquzuncu imamı Əbu Cəfər əs-Sani künyəsi ilə tanıyır, rəsmi ünvanı ət-Taqi ("Allahdan qorxan") olub, bəzən ona əl-Cavad ("Comərd") ləqəbi verilirdi. Rəvayətə görə, atasının borclarını da ödəmişdi.

**MƏHƏMMƏD ƏHMƏD,** Muhammad Ahmad ibn Abdullah (1843-1855) – Sudan Mehdisi. Əli və Peyğəmbər ilə qohum olduğunu sübut etmək üçün, şəcərəsini ata tərəfdən Həsən ilə Abbasa çatdırmışdı. O, üç oğlan və bir qız uşağı olan və gəmi inşaatında işləyən dülgərin ikinci oğlu idi. Çox erkən yaşında sufiliyə meyil edərək, ilk təhsilini aldıqdan sonra Şeyx Məhəmməd Şərifin başçılıq etdiyi Səmmaniyə təriqətinə daxil oldu. Yeddi illik müridlikdən sonra, Məhəmməd Şərif onu təriqət şeyxliyinə yüksəltdi. Qısa müddət Xartumda qalan Məhəmməd Əhməd burada evləndi, sonra Ağ Nilin Abba adasına gedib orada məscidlə bir xəlvətxana tikdirib, ətrafına müridlər toplamağa başladı. 1872-ci ildə Şeyx Məhəmməd Şərif də yanına köçdü. Lakin əvvəldən mehdi təsəvvürünün təsiri altında olan Məhəmməd Əhməd özü mehdi əl-müntəzər olmaq fikrinə düşdü və odur ki, şeyxlə arası pozuldu. Tezliklə, onun mehdilik iddiasına zəmin yaradıldı. Məhəmməd Əhməd ənənəvi ifadə ilə özünün "dünyanı günahlardan və pisliklərdən təmizləməyə" dəvət edilmiş olduğunu duymuşdur və bu məqsəd uğrunda şiə xalqını əvvəlcə ölkədə hakim olan "Kafir türklər"ə qarşı mücadiləyə dəvət etdi. Əvvəlcə Sudanın Kordufan və Darfur vilayətlərində bir çox qəbilə rəislərini beyətə (Peyğəmbərə isnadən "sədaqət andı") ilə özünə bağladı və çox mahiranə bir şəkildə qüvvətli və fəal adamları (məs., sonra xəlifəsi olan və heç bir şeydən çəkinməyən Abdullah ət-Təaişi) öz tərəfinə çəkdi. Daha sonra özünü, mehdi kəsb edən, Peyğəmbəri gördüyünü bildirən bəyannamə və təbliğlər ilə xalqı təhrik etmişdi. Bu gizli təhriklərin mərkəzi Dar Nubada Qadir təpəsində idi. 1881-ci ilin iyulunda Məhəmməd Əhməd ilk dəfə açıq mehdi kimi ortaya çıxmışdı. Hökumətin onunla keçirdiyi müzakirələr nəticəsiz qaldı və ona qarşı göndərilən iki ordu da mehdiçilər tərəfindən məhv edildi. Bunun da sonrakı döyüşlərə çox təsiri oldu və Mehdinin əleyhinə təşkil edilən iki hərbi səfər də (1882-ci ildə) müvəffəqiyyətsiz nəticələndi. Mehdiçilərin əldə etdikləri Sudan vilayətlərinin sayı artdı. 1884-cü il – Mehdi ordusunun ən böyük nailiyyət ilidir. 1885-ci il yanvarın 30-da mehdiçilər Sudanın mərkəzi olan Xartum şəhərini ingilislərdən aldılar. Bu döyüşdə

ingilis generalı Qordon öldürüldü. Lakin bu müvəffəqiyyətdən sonra Məhəmməd Əhməd çox yaşamadı. 1885-ci il iyunun 22-si o, tif xəstəliyindən vəfat etdi. Xələfi olan xəlifə Abdullah ona Omdurmanda bir türbə tikdirdi və bu şəhər ingilis generalı Kitçener tərəfindən 1898-ci ildə alınana və mehdiçilərin üsyanının yatırılmasına qədər hərəkatın mərkəzi oldu.

**MƏHƏMMƏDİYYƏ,** Əl-Muhammadiya – müxtəlif rafizi təmayüllərin, xüsusən aşırı (hədsiz) şiə Məhəmmədiyyə təmayülünün adı.

Bəzi şiələr, hələ ilk zamanlarda imaməti Peyğəmbərin qızı Fatimənin nəslindən gəlməyən Əli övladına və sonradan Əli soyundan gəlməyən kimsələrə inam bağlayırdılar. Mənsuriyyə təmayülü, Əbu Mansur əl-İclinin şəxsində belə bir inam tapmışdır ki, bu zat, İraq valisi olan Yusif ibn Ömər əs-Səqafi tərəfindən, xəlifə Hişamın vaxtında, yəni h. 125 (743)-ci ildən qabaq edam olunmuşdur. Şiəliklə aşırılıq üzündən imam Cəfər əs-Sadiq tərəfindən qovulan Əbu Mansur bu təmayülü daha da aşırılığa çatdıraraq, Əli övladlarını bərtərəf etməyə müvəffəq oldu: ona görə Peyğəmbərin ailəsi göy üzü, şiələr yer üzü, bizzat özü də, Quranın Ali-İmran surəsinin 50-ci ayədəki bəhs mövzusu olan "göydən göndərilmiş" idi. Çünki göy üzünə etdiyi bir ziyarətdə birbaşa Allaha toxunmuş və Allah tərəfindən ona təlimat verilmişdir, dini qaydaların ləğv ediləcəyi bildirilmişdir.

Mansurun ölümündən sonra, Hüseyniyə firqəsi, onun oğlu əl-Hüseyni, Məhəmmədiyyə firqəsi isə, Məhəmməd ibn Abdullah ibn əl-Həsən ibn əl-Həsən ibn Əli ibn Əbi Talibi imam kimi qəbul etmişdi. Ən-Nəfs əz-Zəkiyyə ("Təmiz ruhlu") ləqəbi ilə tanınan bu imam – h. 145 (762)-ci ildə Mədinədə xəlifə Mansurun ordusu ilə vuruşaraq ölmüşdür. Məhəmmədiyyə firqəsi, guya Əbu Mansurun vəsiyyətinə görə, yenidən təkcə Əli övladlarının tanınmasını istəyir və bu silsiləni təsbit edirdi: Əbu Mansur üçün Hüseynilərdən Məhəmməd əl-Baqirin vəsiyyəti və bu bərikinin, musəvi qolu ilə birlikdə Hüseyni Məhəmməd ibn Abdullah üçün olan vəsiyyəti: əvvəlcə Musa, sonra Nuhun oğlu Yuşa, sonra da Harunun oğulları. Bu sıra, hər iki halda da, iki qardaş soyu (bətnən) arasındakı anlaşılmazlığı qabaqlamaq məqsədi ilə düzəlmiş olmalıdır. Məhəmmədiyyənin qapalı təriqət olduğu haqqında heç bir bilgimiz yoxdur.

Bundan fərqli daha bir Məhəmmədiyyə firqəsi Mimiyyadır. Əliyə Allah gözü ilə baxan bu firqə adını Peyğəmbərin uluhiyyətinə olan inancdan almışdır. Başlıca nümayəndəsi olan əl-Fəyyaz ibn Əli h. 279 (892)-cu – 289 (902)-cu illər arasında edam edilmişdir.

**MƏHƏRRƏM,** Əl-Muxarram – hicri ilinin birinci ayı. Cahiliyyə dövründə qədim Məkkə ilinin iki ayına Səfər I və Səfər II adı verilirdi. Bu Məhərrəm və Səfərə dəlalət edən təsniyə əs-səfərani (iki Səfər) şəklində olurdu. Cahiliyyə dövrü bölümündə ilk 6 aylıq müddət hər biri iki ay olan üç aydan ibarət idi: iki Səfər, iki Rəbi və iki Cumadanı təqib edirdi. İki Səfər ayının birincisi, mübarək aylara daxil olan bir ay olub, əl-Məhərrəm sifətini aldı və sifət yavaş-yavaş bu ayın həqiqi adı oldu.

Zülqədə və Zülhiccə də mübarək aylardan sayıldığından, ilin artıq bir ay ehtiva etməsi halı müstəsna, ilin dörd mübarək ayından (Əşkur hurum) üçü bir-birini təqib edirdi. Həqiqətdə, şəmsi il hiccədən sonra gəlirdi və mübarək deyildi. Bu səbəbə görə müsəlman alimləri, edilən bu əlavəni təkrar Səfər ayının yerini alan bəhs mövzusu Məhərrəmin dəyişməsi, yəni Məhərrəmin dini olmayan vəsfinin bəyanı olaraq göstərirlər. Buradan aşağıdakılara işarə edirdilər: örf və adətə görə, Məhərrəm saydıqları həcc ayını təqib edən ay, yəni Səfər, mübarək aylardan deyil və ikinci ay, yəni onlara görə Səfər Məhərrəmdir. Təbii ki, bu təqdirdə Səfərin üçüncü olaraq gəldiyi nəzərə alınır. Lakin araya qoyulan ay müsəlmanlıqla bərtərəf edildiyindən, vəziyyətin nə səbəbdən belə olduğu gözdən qaçmışdır.

Məhərrəm 30 gündür. İl başı sayılan birinci gündən başqa bu günlər xüsusən diqqətə layiqdir: Məhərrəmin doqquzuncu günü zahid şiələrin oruc günü; Məhərrəmin onuncu günü əl-Hüseyn ibn Əli ibn Əbu Talibin, xəlifə Yəzid ibn Müaviyənin ordularına qarşı döyüşərkən öldürüldüyü Kərbəla müharibəsinin (h. 60-680) ildönümü və dolayısı ilə şiələrin böyük matəm günü; o gündə hacılar şiələrdə müqəddəs sayılan yerlərdə, xüsusən Kərbəlada ayinlər icra edirlər. Burada təmsili surətdə təkrarlanan Əlinin oğlu Hüseynin şəhidlik səhnəsi birinci dərəcəli rol oynayır.

**MƏLAKƏLƏR** – iudaizm, xristianlıq və islamda Allahın səmavi xadimləri, dini etiqadlara görə "görünməyən dünya"nı məskun edən fövqəltəbii cisimlər.

**MƏNAT**, Manat – Qədim ərəb ilahəsi. Mahiyyətini ancaq adından müəyyən etmək mümkündür, çünki cəm halında olması aydın olan bu ad (manavat yerinə), aramı dilində menata, cəmi – menavata ("parça, hissə"), ibrani dilində mana, cəmi – manot və eyni zamanda qədər-ilahi moni ilə münasibəti var. Ərəbcədə buna müqabil olan maniya, cəmi – manaya (qismət, qədər, ölüm qədəri) sözü mövcuddur. Buna görə Mənat qədər və xüsusən ölüm qədəri ilahəsi idi. Məkkənin şimalında, Mədinə yolu üstündə Muşallal adı daşıyan bir təpənin yanında Qudayddakı hüzeylilərin olduğu yerdə, onun qara daşdan ibarət olan müqəddəs yeri var idi. Lakin bir çox ərəb qəbilələri, xüsusən Mədinədəki Əvs və Həzrəclər ona ibadət edirdilər. Məkkədəki əl-Lat və əl-Uzza ilahələri ilə birlikdə, çox etibarlı idilər (b a x: **Quran,** ən-Nəcm, 19 və s.). Mənat ən qədim bütlərdən idi.

**MƏRYƏM** – İsa peyğəmbərin anası. Müsəlmanların izahına görə, bu ad "dindar qadın" (əl-abidə, b a x: **Quran,** Ali-İmran, 36) mənasındadır. Quranda [İsa] ibn-Məryəm ("Məryəmin oğlu [İsa]) tərkibində dəfələrlə zikr olunur (b a x: **əl-Bəqərə,** 87, 253; **Ali-İmran,** 36 və s.; **ən-Nisa,** 157, 171; **əl-Maidə,** 17, 86, 75, 78, 110; **ət-Tövbə,** 31; **Məryəm,** 34; **əl-Muminun,** 50; **əl-Əhzab,** 7; **əz-Zuxruf,** 57; **əl-Hədid,** 27; **əs-Səff,** 6, 14).

Atasının adı əsla çəkilmir, çünki yenə müsəlman ənənəsinə görə, İsanın yer üzündə atası yox idi. Bu parçaların çoxunda İsa, ümumiyyətlə, anasından daha yüksək görünür. Bununla bərabər,

Məryəmin mövqeyi, mətn baxımından olduğu qədər, tarix baxımından da əhəmiyyətlidir. Məryəmin adı Quranda ən qədim hissələrdən başlayaraq, ən son Mədinədə nazil olan hissələrə qədər, hər yerdə var. Quranın əl-Muminun surəsinin 50-ci ayəsi ilk Məkkə dövrünə aiddir: "Məryəm oğlu [İsanı] və anasını [qüdrətimizdən yaranmış] bir möcüzə etdik. Onları abad (rahat) və axar sulu uca bir yerdə yerləşdirdik". Quranda Məryəmin hamilə olmasına ehtimal ilk işarə belədir.

Məryəm surəsinin 20-ci ayəsində bu fikir təkrar olunur. Məryəm özünə oğlan uşağı doğacağını bildirən ruha (mələyə) bu cavabı verir: "Mənim necə oğlum ola bilər ki, mənə indiyədək bir insan əli belə toxunmamışdır?" Ət-Təhrim surəsinin 12-ci ayəsində hamilə keyfiyyəti bu müqəddəs ruha isnad olunur (b a x: **İncil**, Lukadan, 1, 34 və s.; "Məryəm isə mələyə dedi: "Bu necə ola bilər? Axı mən heç bir ər tanımıram?" Mələk cavab verərək dedi: "Sənin üzərinə Müqəddəs Ruh enəcək və Təalanın qüdrəti səni kölgəsi ilə örtəcək").

Bakirənin hamilə olması Mədinədə nazil olunmuş 66-cı (ət-Təhrim) surəsinin 12-ci ayəsində zikr olunur: "Allah [mömin qadınlara] həmçinin namusunu, ismətini möhkəm qoruyub saxlamış İmranın qızı Məryəmi də misal çəkir. Biz [Cəbrayıl vasitəsilə] libasının yaxasından ona öz ruhumuzdan üfürdük. Məryəm Rəbbinin sözlərini, kitablarını təsdiq etdi və [Allaha] itaət edənlərdən oldu".

Quranın III (Ali İmran) surəsinin 42-ci və sonrakı ayələrində üçüncü dəfə şad xəbər və İsanın doğulması zikr edilir: "[Ya Məhəmməd!] Xatırla ki, bir zamanlar mələklər belə demişdilər: "Ya Məryəm, həqiqətən Allah səni seçmiş, [eyblərdən] təmizləmiş, [cəmi] aləmlərin qadınlarından üstün tutmuşdur. Ya Məryəm! Öz Rəbbinə itaət et" (b a x: **Lukadan,** 1, 28). Məryəm həqiqətən Asiyə, Xədicə və Fatimə ilə birlikdə, mövcud olan və olacaq qadınların ən yaxşısı olan dörd qadından biri və cənnət qadınlarının birincisi sayılır.

Ənənəyə görə, hamili şad xəbər (təbşir) bu şəkildə olmuşdur: Cəbrayıl saqqalsız, parlaq üzlü, qıvrımsaçlı gənc adam şəklində oğlan uşağını doğacağını ona bildirdi. Məryəm heyrətini ifadə etdi, lakin mələyin təskinedici cavabı qarşısında Allahın əmrinə itaət etdi. Bundan sonra mələk çıxardığı köynəyinin yarığı arasından üfürdü. Mələk çəkilib gedincə köynəyi geydi və hamilə oldu. Təbşir, Məryəmin qablarını doldurmaq üçün, həmişə getdiyi Silvan quyu mağarasında vaqe olub. Məryəm 10 və ya 13 yaşında imiş. O gün ilin ən uzun günü idi. Xristian ənənəsində də, Məryəm mələyin səsini ilk dəfə, qablarını doldurmağa getdiyi vaxt duymuşdu.

**MƏSCİD,** Mascid – ərəbcədə "dik durmaq, əyilmək, baş əymək, alını yerə qoymaq" kimi mənalara uyğun gələn **scd** kökündən məkan adı olub, islamiyyətdə "ibadət yeri, məscid, came" mənasını alıb.

**MƏSCİDİ-ƏQSA,** Əl-Məscid əl-Əqsa, Məscidül-əqsa – Qüdsdə qədim Süleyman məbədinin olduğu yerdə tikilmiş camenin adıdır. "Ən uzaq məscid" mənasında olan bu təbir ilk

dəfə Quranın 17-ci (əl-İsra) surəsinin birinci ayəsində rastlanır: "Bəzi ayələrimizi [qüdrətimizə dəlalət edən qəribliklər və əcaiblikləri] göstərmək üçün bəndəsini (Peyğəmbəri) bir gecə [Məkkədəki] Məscidi-haramdan ətrafını mübarək etdiyimiz Məscidi-Əqsaya aparan Allah pak və müqəddəsdir".

**MƏSCİDİ-HARAM,** əl-Məscidi əl-Haram, Məscidül-Haram – Məkkədə Kəbənin olduğu sahədəki camenin adıdır. Adı Quranda tez-tez çəkilir: müşriqlərin, xalqın Məscidi-Harama girməsini qadağan etmələri böyük günahdır (Quran, əl-Bəqərə, 217; b a x: əl-Maidə, 2; əl-Ənfal, 34; əl-Həcc, 25 qiblə əl-Məscid əl-Haram istiqamətindədir (əl-Bəqərə, 144, 149). Əhdlər də ancaq əl-Məscid əl-Haramda təsdiq olunur (ət-Tövbə, 7).

Bu surələrdə əl-Məscid əl-Haram ilə sonralar olduğu kimi, təkcə bina deyil, sadəcə müqəddəs bir yer sayılan Məkkəyə işarə edilir. Hədisə görə, əl-Məscid əl-Haramda qılınan namazın xüsusi dəyəri vardır. Bu, ən qədim bir məscid olub, Qüds məscidindən (əl-Məscid əl-Əqsa) 40 il qabaq tikilib.

**MƏŞHƏD** – Xorasan vilayətinin mərkəzi və İranda şiələrin ən böyük ziyarət yeri.

İslam tarixinin böyük şəxsiyyəti olan xəlifə Harun ər-Rəşidin qəbri (809-cu ildə ölüb) 10 ilə qədər bir müddət Tusun yaxınlığında olan Nukanda, ya da bunun bir hissəsini təşkil edən Sənəbad kəndində qaldı. On ildən sonra xəlifə əl-Məmun Mərvdən qayıdanda atasının qəbrini ziyarət etmək üçün bir neçə gün burada qaldı. On iki şiə imamından səkkizincisi olan yeznəsi və səltənət varisi Əli ər-Riza ibn Musa bu vaxt onun yanında idi. O, h. 203 (818)-cü ildə qəflətən vəfat etdi (ölüm günü haqqında rəvayətlər müxtəlifdir) və Harun ər-Rəşidin qəbri yanında dəfn edildi. Sənəbadı bütün şiə aləmində məşhur edən xəlifə Harun ər-Rəşidin türbəsinin deyil, fövqəladə əzizlənmiş imamın, Peyğəmbərin ailəsinə mənsub Əli ər-Rizanın türbəsinin burada yerləşməsi oldu və əvvəllər kiçik bir yaşayış yeri olan Sənəbad böyük şəhər halına gələrək əl-Məşhəd ("Mübarək məzar") adını aldı. Yer adı kimi Məşhəd ilk dəfə X əsrin sonunda əl-Müqəddəsidə rastlanır. Yaqut əl-Həməvi şəhəri əl-Məşhəd ər-Rizavi (Rizanın mübarək türbəsi), Həmdullah Qəzvini adını Məşhədi-müqəddəs kimi təqdim edir. İndi şəhər Məşhədi-Riza, Məşhədi-Müqəddəs və ya Məşhədi-Tus adlanır (b a x: **Məhəmməd Mehdi əl-Ələvi**. Tarix Tus vəl-Məşhəd ər-Rizavi, Bağdad, 1927).

Sənəbad-Məşhədin əhəmiyyəti, buradakı müqəddəs ziyarətgahın şöhrəti və eyni zamanda Tusun süqutu ilə bərabər artmışdı. Teymurun oğlu Miran şah h. 791 (1389)-ci ildə Tusa öldürücü bir zərbə endirdi. Şəhər bir neçə ay sürən mühasirədən sonra ələ keçirildi, qarət olundu və xarabaya çevrildi. Rəvayətə görə, əhalidən on min kişi qılıncdan keçirildi. Xilas olanlar ələvi imamın müqəddəs türbəsi ətrafına yerləşdilər. Bu tarixdən etibarən Tus tərk olundu və Məşhəd bu bölgənin mərkəzinə çevrildi.

İranın bütün böyük şəhərləri kimi, Məşhəd də müharibələr və çevrilişlər meydanı olmuşdu. Əli ər-Rizanın türbə-

MƏŞHƏD

sini qorumaq məqsədi ilə, hələ 1037-ci ildə Məsud Qəznəvi dövründə şəhər möhkəmləndi. 1121-ci ildə şəhər divarla əhatə olundu və bir müddət düşmənlərdən qorundu. Lakin 1161-ci ildə oğuzlar şəhəri ələ keçirib qarət etdilər (müqəddəs türbəyə toxunulmadı). Şəhər və müqəddəs türbəyə böyük xidmətlər göstərənlərin bəlkə ən başında ilk Teymuri hökmdarı Şahruh (1406-1446) və onun dindar arvadı Cövhər Şad dururlar. Səfəvi sülaləsinin iqtidarı ələ keçirməsi ilə Məşhəd üçün parlaq dövr başlamışdır. Şah I İsmayıl şiə məzhəbini dövlətin rəsmi dini halına gətirdi. Bu vaxt Məşhəd və Qum xüsusi diqqət mərkəzinə çevrildilər. Bu şəhərlərdəki müqəddəs türbələrin ziyarəti həddindən artıq inkişaf etdi. Hökmdarlar Məşhəddə inşaata böyük əmək sərf edirdilər. Bu yolda ən çox Şah I Təhmasib və xüsusən Şah I Abbas səy göstərirdilər. 1507-ci ildə özbək Şeybani xanın orduları Məşhədi zəbt edib 20 il əllərində saxladılar və buna görə əhali çox əziyyət çəkdi. 1528-ci ildə Şah I Təhmasib özbəkləri Məşhəddən çıxara bildi və şəhəri daha möhkəm divarlarla əhatə edib, yeni bürclər tikdirdi. Buna görə özbəklərin 1535-ci ildə olan hücumu nəticəsiz qaldı. Lakin 1544-cü ildə özbəklər şəhəri ala bildilər və əhalisini qılıncdan keçirdilər. 1589-cu il Məşhəd üçün çox fəlakətli oldu. Əbdülmümin Şeybani dörd ay şəhəri mühasirədə saxladı, şəhər təslim oldu və müqəddəs yerlər qarət olundu. 1598-ci ildə Şah I Abbas şəhəri geri ala bildi. Şah II Təhmasibin vaxtında 1722-ci ildə Abdali əfqan qəbiləsi Xorasanı işğal edərək Məşhədi də əllərinə keçirdilər. İranlılar şəhəri 1726-cı ildə qaytara bildilər. Nadir şah özünə Məşhəddə türbə tikdirdi. Onun ölümündən sonra bütün Xorasan qüdrətli əfqan şahı Əhməd Durraninin əlinə keçdi. Kərim xan Zəndin Xorasanı qaytarmaq niyyəti boşa çıxdı. Əhməd şah iranlıları məğlub edib, 1757-ci ildə Məşhədi yenidən ələ keçirdi. Əhməd şah və xələfi Teymur şah Xorasanı yarımmüstəqil dövlətə çevirib, Şahruhu başçı seçdilər. Bunun hakimiyyəti yarım əsrə qədər çəkdi. Teymur şahın ölümündən sonra Ağa Məhəmməd şah Qacar 1795-ci ildə iqtidarı Şahruhun əlindən alıb özünü edam etdirdi. Ağa Məhəmməd şahın vaxtsız ölümü (1796) əfqanlara Məşhədi yenidən əllərinə keçirməyə imkan verdi. 1803-cü ildə Fətəli şah şəhəri geri ala bildi. 1825-ci ildən başlayaraq Xorasan türkmən qəbilələrinin axınlarından böyük zərər çəkdi. Yalnız şahzadə Abbas Mirzənin ordusu Xorasana asayişi qaytardı. Özü də burada 1833-cü ildə vəfat etdi. 1847-49-cu illərdə Xorasan valisi Həsən xan Salar üsyan edib Məşhəddə qapandı. Nəsrəddin şahın taxta çıxdığı vaxt Xorasan müstəqil bir vəziyyətdə idi. 1911-ci ildə heratlı Yusif xan, Məhəmməd Əli şah adı ilə özünü Məşhədə hakim elan etdi və bu, bir müddət Xorasanda qarışıqlığa səbəb oldu. Bu əhvalat, rus qüvvələrinin məmləkətə girməsi üçün bir bəhanə oldu. 1912-ci il martın 29-da ruslar Məşhədi topa tutdular, şəhər əhalisindən və ziyarətə gələnlərdən çoxunun ölümünə səbəb oldular. İranın

bu mühüm ziyarətgahının topa tutulması bütün islam aləmində qayət acı təsir yaratdı. Bir azdan sonra Yusif xan iranlıların əlinə keçib edam edildi.

Məşhədin baş küçəsi müqəddəs məhəllədən keçərkən iki səmtə ayrılır: şimali-qərbdə Bala (Yuxarı) Xiyaban, şimali-şərqi və cənubi-şərqdə Pain (Aşağı) Xiyaban məhəlləyə, adətən, Best adı verilir. Buraya Harami-şərif, ya Harami-müqəddəs, ya da Haram ər-Rizavi deyilir. Çox vaxt qısaca İmam da deyilir. Best həm də sığınma yeri hüququna malikdir. Buraya sığınan borclular onlara borc verənlərdən qorunmuş olurlar. Canilər ancaq baş mütəvəllinin əmri ilə təslim edilə bilərlər, bu da ancaq üç gündən sonra ola bilər. Bestə girmək müsəlman olmayanlara qadağandır.

Müqəddəs məhəllə içində şəhərin ən zəngin və ən çox rəqabət görən bazarları, ən yaxşı təchiz edilmiş mədrəsələri, ən gözəl karvansaraları və hamamları yerləşir. Bütün bunlar və buradakı yerlər "imamın malı" sayılır. Müqəddəs məqamın ayrıca bütün İran vilayətlərində və xüsusən Məşhədin dairəsində, böyük sərvətlər təşkil edən müxtəlif kəşfləri, mülkləri, binaları, kanalları var.

Məşhədə ayaq basan hər ziyarətçinin üç gün pulsuz qalmağa haqqı var, burada hər gün 500-600 ziyarətçi pulsuz yeməklə təmin olunurlar. Şərtlərinə uyğun olaraq, imam Əli ər-Riza türbəsini ziyarət edən hər şiə hacısı adına Məşhədi ünvanını əlavə etmək haqqını qazanır. İslamiyyətin böyük ziyarət məqamları arasında Məşhəd, şiələrin etiraflarına görə, yeddinci mövqedədir. Məşhəddən əvvəl yalnız Məkkə və Mədinə deyil, İraqdakı dörd şiə ziyarətgahı olan Nəcəf, Kərbəla, Samirə və Kazimeyn var. Şiələrin bir inamına görə isə, Məşhəd beşinci yerdə olan Kazimeyndən sonra altıncıdır və yeddinci yerə keçən Samirədən qabaqdadır.

**MƏZDƏK** (V əsrin 50-ci illəri – 528 (529) – V əsrin sonunda İranda yaranmış dini-fəlsəfi və sosial təlim olan məzdəkiliyin banisi. Məzdək fikirlərini Həmədanda yaymağa başlamışdı. O, həyat nemətlərini bərabər bölüşdürməyi təbliğ edirdi. Onun başçılıq etdiyi hərəkat (V əsrin sonu – VI əsrin əvvəli) feodal istismarına qarşı çevrilmişdi. Sasani hökmdarı I Qubad kahin və əyanların nüfuzunu zəiflətmək və mərkəzi hakimiyyəti möhkəmlətmək məqsədilə məzdəkilərə yaxınlaşmışdır. İctimai tələblər və şüarlar irəli sürən məzdəkilər əyanların əmlakını ələ keçirib yoxsullara paylayır, sadə adamları yüksək dövlət vəzifələrinə təyin edir, hərəmxanaları ləğv edirdilər. Mövcud olan mənbələrə əsaslanaraq Məzdək əqidəsinin təfərrüatı ilə yenidən təsis və onunla İranın başqa din və ya məzhəbləri arasındakı münasibətləri təsbit etmək mümkün deyil.

Məzdəkin şəxsiyyəti haqqında az şey bilinir. Atasının adı Bamdad idi, doğulduğu yer ya İstəhr, ya da Təbriz göstərilir. Bəzi mənbələrə görə o, zərdüşti rahib (mobəd), ya da rahiblərin böyüyü (Mobedan mobəd) idi. Əqidəsinin təfsilatı məlum deyil, lakin ondan iki əsr əvvəl yaşamış mübəşşiri Zərdüştün əqidəsini inkişaf etdirib yaydığı həqiqətdir.

Məzdəki ilə yaxınlaşan Qubad hər şeydən əvvəl, dini amillər ilə hərəkət etmişdi və dinin özünə təmin edə biləcəyi siyasi qazanclardan istifadə etməklə bərabər, yeni əqidənin dini mühtəvasının cazibəsinə qapanmış idi. Beləliklə, Məzdəklik mühüm bir qüvvə olub, dövlət təşkilatına təsir göstərirdi. Lakin görülən tədbirlər, xüsusən qadınların şərikli olması, malların müştərək olması (yalnız zənginlərdən vergi alınması) xüsusunda məzdəki məfkurələrinin nə dərəcədə həyata keçirilməsi bilinmir. Lakin həqiqi olan şey budur ki, Xosrov Ənuşiravan, hakimiyyətinin başlanğıcında, mülkiyyət və ailə təşkilatında meydana gələn faciəli nəticələrə çarə qılmaq üçün, mühüm tədbirlərə keçmək məcburiyyətində qalmışdı. Hökmdarın Məzdək tərəfdarı siyasəti və dinin getdikcə artan qüdrəti sarayda üsyana səbəb oldu və Qubad taxtdan salınaraq həbs edildi. Yerinə qardaşı Camasp seçildi. Qubad qaçıb, eftalitlərin yanına sığınmağa və onların köməyi ilə ölkəsini təkrar əldə etməyə (488-ci və ya 499-cu ildə) müvəffəq oldu. Bu arada, şahın taxtdan düşürülməsinə rəğmən, din getdikcə daha çox yayılmış və qüvvəsi əndişəverici bir hal almışdı. Din tərəfindən təşviq edilən xalq əsilzadələrin mülklərini qarət edir, qadınlar qaçırılırdı. Bütün bunlar ölkəyə qayıdan şahı dəhşətə gətirdi. Özü yenidən taxta çıxarkən, dərhal bəlli-başlı düşmənlərindən intiqam aldı və Bizans imperiyasına qarşı müharibə etmək üçün, əsilzadələr və rahiblər sinfinin əksəriyyəti ilə sazişə girməyin vacibliyini anladı. Şahzadə Xosrov din tərəfdarlarını bir sıra fəaliyyətlərilə, taxt üzərindəki haqlarını təhdid edilməkdə olduğunu görürdü, çünki bunlar nüfuzlarından istifadə edərək, Qubadın böyük oğlu Padşahvarşahın seçilməsini təmin etmək istəyirdilər. Bir də ki, Xosrov Məzdəkdən intiqam almağı səbirsizliklə gözləyirdi. Məzdək dinin əsaslarına hörmətini göstərmək üçün Qubadın özünə təqdim etdiyi Xosrovun anasını, arvad kimi almaqdan vaz keçmişdi. Hələ o vaxtdan siyasi məziyyətlərini göstərən Xosrov, atasına təsir göstərirdi. O da Məzdəkin dinini qəbul edənlərlə bərabər ilahiyyata dair bir münaqişəni bəhanə edərək, onları kütlə halında saraya gətirərək, qətliam edilmələrinə əmr vermişdir. Bu əhvalat 528-ci ildə və ya 529-cu ilin əvvəlində baş vermişdir. Ərəb müəllifləri bunun haqsız olaraq, Xosrovun hakimiyyətinin əvvəlində cərəyan etmiş olduğunu göstərirlər və bu hərəkat Xosrova Ənuşiravan ünvanını qazandırdı. Öldürülənlərin sayı məlum deyildi. Qubad 531-ci ildə öldü və ondan sonra Xosrov müştərəkçiliyin tətbiqi ilə pozulmuş olan mülkiyyət və ailə təşkilatını yenidən nizama salmaq üçün, xüsusi tədbirlərə keçdi. Sağ qalan məzdəkilərə olmayan işgəncələr verildi, onların kitabları yandırıldı. Təqiblərdən xilas olan məzdəkilər İranın müxtəlif yerlərində və dağlarında gizləndilər. Sonralar məzdəkilərin əqidələri müxtəlif məzhəb və dinlərdə özünü göstərməkdə idi (b a x: **ismaililər**, **xürrəmilər**, **mühəmmirə**, **mübayyizə** və s.).

**MƏZHƏB** (*ər.* yol, istiqamət) – sünnilikdə məktəb və ya sistem. İndiki dövrdə sünni müsəlmanların tanınmış

dörd məzhəbi var: hənəfilər, malikilər, şafeilər və hənbəlilər. Bunların müəssisləri Əbu Hənifə (təxm. 700-767), Malik ibn Anas (715-795), əş-Şafei (767-820) və İbn Hənbəl (780-855) islam hüququnun danışıqsız avtoritetləri sayılırlar.

**MİDRAŞ** (*qədim yəhudicə* draş – tədqiqatçı) – orta əsr yəhudi din ədəbiyyatının bir növü. Tərkibində "qanunçuların" moizələri, onların bibliya kitablarının mətnlərinə verdikləri şərh və nəsihətləri və həmçinin bunlara bənzər əsərlərin külliyyatı. Cəhənnəm, Məsiha, Qüds məbədi və b. haqqında midratlar var.

**MİKAİL** – bu mələyin adı bir dəfə Quranda (əl-Bəqərə, 98) çəkilir: "Hər kim Allaha, Onun mələklərinə və peyğəmbərlərinə, Cəbrailə və Mikailə düşməndirsə, şübhəsiz Allah da [belə] kafirlərə düşməndir".

**MİLLƏT** (*ər.* millə – din, adət) – bu söz *ibranicə* və *yəhudicə* – xristian-aramicə olan milla, mella ("məfhum, söz") şəkillərinə nə qədər yaxındırsa, bunun Quranda məlum olub qəbul edilən din və ya adət mənasını necə aldığını isbat etmək mümkün deyil. Bu təbirin ərəbcəmi, yoxsa Peyğəmbər zamanında və ya ondan əvvəl ərəbcəyə daxil olmuş yabançı sözmü olduğu da qəti olaraq bilinmir. Quranda (hətta çox aydın olmayan Sad surəsinin 7-ci ayəsində: əl-millə əl-axıra "din" mənasını ifadə edərək, ya müşriklər (əl-Ərff, 86 və b.; İbrahim, 13; əl-Kəhf, 20) ilə musəvi və xristianların dini (əl-Bəqərə, 120), ya da həqiqi din (Yusif, 38) haqqında işlənir. Mədinədə nazil olan ayinlərdə bu söz xüsusi məna qazanır. Burada yəhudilərə qarşı münaqişədə İbrahim millәsindən bəhs edilir (əl-Bəqərə, 130; Ali-İmran, 95; ən-Nəhl, 123; əl-Həcc, 78) ki, Peyğəmbərin bu dini ehya etməklə mükəlləf olduğu mənasına uyğun gəlir.

**MİN** – Qədim Misir dinində – səhrada karvanları və yolları hifz edən ilahi. Qaldırılmış əlində qamçı və başı lələklərlə bəzənmiş insan kimi təsvir edilirdi. Onun adı ilə bağlı ibadətgah Nil çayı ilə Qırmızı dəniz arasında yerləşən Koptos şəhərində idi. Min həmçinin, məhsuldarlıq ilahisi də hesab edilirdi.

**MİNARƏ** (*ər.* mənarə – mayak) – məscid üzərində qüllə. Onun üstündən müəzzin gündə beş dəfə müsəlmanları namaza çağırır.

**MİNBƏR** – xətibin məsciddəki yeri.

**MİNERVA** – Yupiter və Yunona ilə birlikdə Qədim Roma dininin Kapitoli üçlüyünə daxil olan əsas ilahilərdən idi. Minerva ağıllı, ixtiraçı və sənətkarlığa hamilik edən ilahə kimi təsəvvür edilirdi. Minervanın şərəfinə Romada – Aventində və Eskvilində ibadətgahlar tikilmişdi və martla iyun aylarında beş günlük şənliklər keçirilirdi.

**MİR MƏHƏMMƏD KƏRİM** Mir Cəfər oğlu Mir Cəfərov (1855- 2 mart 1938) – 1904-cü ildən 1918-ci ilədək Zaqafqaziya qazısı və eyni vaxtda Bakı quberniya məclisinin sədri. Quranın, Curci Zeydanın "Ərmənusa əl-Misriyyə", "Kərbəla yanğını", "On yeddi Ramazan", "Əzrai-Qureyş" adlı əsərlərinin Azərbaycan dilinə tərcüməçisi, "Səlib müharibələri" adlı kitabın (I cild) müəllifi. Heç bir təqsiri olmadan, kitabxanasında "39 ədəd müxtəlif antisovet (!) Quranı" olduğu, "öz dini ayinləri ilə

antisovet təbliğatı" apardığı üçün Azərbaycan Daxili İşlər Komissarlığının Fövqəladə üçlüyünün qərarına əsasən 1938-ci il martın 2-də güllələnmişdir.

**MİŞNA** – b a x: **Talmud.**

**MİTRA** (*iranca və sanskritcə*) – arilərin hindlilərə və iranlılara bölünmədikləri vaxta qədərki ən qədim ilahisi. Hindistanda vedalar dövründə, Qədim İranda və Mitanni çarlığında (Şimali Mesopotamiyada, e.ə. XVI-XIII əsrlərdə) Mitra səmavi nurun, günəşin və həqiqətin ilahisi sayılırdı. İranda əvvəllər Mitranın ikicinsli, sonra da Herodotun yunan Afroditası ilə müqayisə etdiyi ilahə kimi təsəvvür edirdilər. Daha sonralar Mitra kişi ilahisinə çevrildi. Mazdeizmdə və zərdüştilikdə Mitra ikinci dərəcəli hesab olunurdu və Zend-Avestada Ahuramazdaya tabe olan iyezidilərdən (xeyirxah ruhlardan) biri idi.

**MORMONLAR** (*ing.* mormons, öz adı – "axirət gününün müqəddəsləri") – XIX əsrin 20-ci illərində ABŞ-ın Nyu-York ştatında Cozef Smit tərəfindən təsis edilən təriqət. 1930-cu ildə nəşr etdiyi "Mormon kitabı"nda Smit təkid edirdi ki, İsa doğumundan hələ altı yüz il qabaq öz nəzəriyyəsini naməlum "Yerusəlim israillilərinə" – Amerika sakinlərinə (!) izah etmişdi.

**MOYRALAR** (*yun.* moira, hərfən – hissə, təqdir, bəxt) – qədim yunanların etiqadlarına görə – ilahilərin və insanların taleyini müəyyən edən üç ilahə: Kloto həyat sapını əyirirdi (əlində mil təsvir edilirdi, Laxesis insanın bəxtini kəsirdi (üstündə insanların taleyini həkk etdiyi şarla təsvir edilirdi), Antropos insanın payına düşənlərin hamısını siyahıya alırdı və onun həyat sapını qırırdı (ölüm vaxtını qeyd etdiyi günəş saatı və qayçı ilə təsvir olunurdu).

**MÖTƏZİLƏ** islam dinində rasiolizm istiqamətli ilk teoloji sistem. İslam tarixində qəbul olunmuş ənənəyə görə, mötəzilə ilk dəfə Bəsrədə Vasil bin Ətanın (vəfatı 748) öz müəllimi Həsən Bəsrinin (vəfatı 728) dərsini tərk etməsindən, onun məşğələlərindən ayrılmasından sonra təşəkkül tapmışdır.

Bir gün Həsən Bəsrinin dərs dediyi Bəsrə camesinə gələn bir şəxs böyük günah etmiş adama (murtəkibul-kəbirəyə) bəzilərinin (xaricilərin) kafir, bəzilərinin (mürcimlərin) isə mömin dediklərini söyləmiş və ondan bu barədə öz fikrini söyləməsini xahiş etmişdi. Həsən Bəsri belə bir adamın münafiq (zahiri ilə batini eyni olmayan, dilində bir söz deyib, ürəyində ayrı şey deyən, imanı ilə əməli bir-birinə uyğun gəlməyən) olduğunu bildirmişdi. Bu zaman özündən heç bir şey soruşulmayan Vasil bin Əta müəllimi Həsən Bəsrinin cavabını gözləmədən, böyük günah işləmiş adamın nə həqiqi mömin, nə də həqiqi kafir olduğunu, onun imanla küfr arasında orta bir mövqedə (əl-mənzilətu beynəl mənziləteyn) durduğunu söyləmişdi. Bununla da Vasil böyük günah işləmiş adam barəsində o zamana qədər islam aləmində mövcud olan bütün fikirləri rədd edib yeni bir fikir irəli sürmüşdü. Bunu görən Həsən Bəsri təəccüblə: "Qəd itəzələ ənna Vasil", yəni "Vasil bizdən ayrıldı" demişdi. Həmin hadisədən sonra Vasil bin Əta ustadı Həsən Bəsrinin məşğələlərini tərk etmiş, tezliklə dostu Əmr bin Übeyd də

(vəfatı 761) ona qoşulmuşdu. Beləliklə, Vasil bin Ətaya və tərəfdarlarına "ayrılanlar", "tərk edənlər" mənasında olan " əl-Mutəlizə" adı verilmişdir.

Vasilə və onun yolunu tutanlara mötəzilə adı verilməsinin başqa izahları da mövcuddur. Məsudi Vasilin və ardıcıllarının böyük günah işləmiş şəxsi imandan da, küfrdən də ayırdıqlarına görə mötəzilə adlandırıldıqlarını söyləyir. Bağdadi isə Vasilin və dostlarının böyük günah işləmiş şəxs barəsində islam aləmində özlərinə qədər mövcud olan fikirlərdən ayrılıb müstəqil bir mövqe tutduqlarına görə bu adı qazandıqlarını qeyd edir.

Etizal və mötəzilə (ayrılma və ayrılanlar) sözlərinin islamiyyətdə işlədilməsi əslində daha keçmişlərə aiddir. Səhabə dövründə Həzrəti-Əli ilə Aişə arasında, yenə də Həzrəti-Əli ilə Müaviyə arasındakı ixtilaflara qoşulmayıb bitərəf qalanlara da mötəzilə deyirdilər. Lakin səhabə dövründə işlədilən mötəzilə ilə hicrətin II əsrinin əvvəllərində meydana çıxmış mötəzilə məzhəbinin adları arasındakı bu oxşarlıq yalnız zahirdə, söz eyniliyindədir.

İslam fikir tarixində kəlam (ilahiyyat) elminin banisinin mötəzilə olduğu yekdilliklə qəbul edilir. Mötəzilə məzhəbinin yaranmasının əsas səbəblərindən biri islam dünyasında zaman-zaman meydana çıxan əqidə ixtilafları və siyasi ixtilaflardır. Mötəzililər bu ixtilafları kəskin tənqid edir və mübahisəli məsələlər barəsində özlərinin yeni mülahizə və müddəalarını irəli sürürdülər. Ona görə də mötəzililərin görüşlərinin əksəriyyəti ixtilafda olduqları cərəyanlarla mübahisə zamanı meydana çıxmışdır. Məsələn, mötəzililər böyük günah işləmiş şəxs və imanın həqiqəti mövzusunda bir tərəfdən xaricilərin, digər tərəfdən isə mürciilərin əleyhinə çıxırdılar. Xaricilər əməli imanın bir hissəsi (cüzi) hesab edirdilər. Başqa sözlə, xaricilərin fikrincə, kəlimeyi-tövhidi və şəhadəti təsdiq edib söyləyən bir kimsə şəriətin vacib buyurduğu şeylərdən birini yerinə yetirməsə, yaxud böyük bir günah etmiş olsa, kafir hesab edilir. Xaricilər onların bu fikri ilə razılaşmayanları özlərinin qəti düşməni hesab edirdilər. Belə ki, xaricilərdən Nafi bin Əzrəq özünə tabe olanlardan başqa hamını təkfir edir, onlarla evlənməyə icazə vermir, onların kəsdiyi heyvanların ətini yeməyi qadağan edir, özlərinin isə qanlarının halal olduğunu söyləyirdi.

Mürciilər isə imanı mücərrəd bir etiqad halına gətirmişdilər. Onlar əməlin imanın bir hissəsi olmadığını, buna görə də böyük günah işləmiş bir kimsənin imandan (müsəlmanlıqdan) çıxmadığını elan edirdilər. Təbii ki, mürciilərin bu tezisindən onların Əməvilərə loyal münasibət bəslədikləri, hətta onların hərəkətlərinə bəraət qazandıqları hiss olunurdu.

Məşhur ilahiyyatçı Şəhristaninin obrazlı ifadəsi ilə desək, mürciilər belə güman edirdilər ki, küfrlə birlikdə iman yarayar, imanla birlikdə günah zərər verməz.

Mötəzililər bu məsələdə, yuxarıda qeyd etdiyimiz kimi, onların hər ikisini tənqid edib tamamilə yeni bir mövqe tutmuşdular.

Mötəzililər ortodoksal islamın əleyhinə çıxaraq Qurani-Kərimi məxluq (yaradılmış) hesab edir, bununla da Quranın Allahın əzəli kəlam sifəti olduğunu inkar edirdilər. Burada yeri gəlmişkən qeyd etmək lazımdır ki, Quranın məxluq olduğu ideyasını ilk dəfə yəhudilər ortaya atmışlar. Yəhudilərdən Ləbid bin Əsəm əvvəlcə Tövratın məxluq olduğu fikrini irəli sürmüş, sonra bunu Qurana da aid etmişdir. Ləbidin bu ideyası mötəzililiyə dövrünün tanınmış kəlam mütəxəssisi Səd bin Dirhəm vasitəsilə keçmişdir.

Vasil bin Əta, Əmr bin Übeyd, Əbül-Hüzeyl əl-Əllaf (vəfatı 849), İdrahim ən-Nəzzam (vəfatı 845), Əbu Əli əl-Cübbai (vəfatı 915), Qazi Əbdül-Cabbar (vəfatı 1024) və Zəməxşəri (vəfatı 1143) kimi görkəmli alimlər tərəfindən təmsil edilmiş mötəzilə məzhəbinin etiqad prinsipləri öz əksini aşağıdakı beş əsasda (əl-üsul əl-xəmsə) tapmışdır:

1) Tovhid. Tovhid əsası mötəzilə əqidəsini ən mühüm prinsiplərindən biridir. Allah birdir, tayı-bərabəri yoxdur. Vəhdaniyyət (birlik) və qidəm (qədimlik) Allaha məxsus olan ən gözəl sifətdir. Əgər Allahın qədimliyi xaricində Ona müxtəlif sifətlər aid edilərsə, bu zaman bir çox qədim varlıqların mövcudluğu ortaya çıxır ki, bu da Allahın birliyi əqidəsinə ziddir. Allah (hər şeydən) əvvəldir, aləmi yoxdan var etmişdir. Allah vacibül-vücuddur. Onun sifətlərindən heç biri bəşər sifətlərinə bənzəməz. Əgər belə bir bənzətmə olsa, o zaman Allahla bəndə arasında oxşarlıq əmələ gələr. Buna görə də mötəzililər Allahın vəhdaniyyət və qidəm xaricindəki digər sifətlərini təvil yolu ilə (yozulma) vəsf etmişlər. Daha doğrusu, mötəzililər vəhdaniyyət və qidəm xaricində Allaha qədim sifətlər aid etməyi caiz bilmirlər.

Mötəzililərə görə – Allahın həyat (dirilik), elm, səm (eşitmə), bəsər (görmə) sifətləri vardır – deyilməz; Allah zatı ilə diridir, zatı ilə billəndir, zatı ilə eşidəndir, zatı ilə görəndir – deyilər. Quranda bildirilən bu sifətlər Allahın zatı xaricində qəbul edilərsə, Allahda digər qədimlərin varlığı qəbul edilmiş olar. Qədimlik (əvvəli olmamaq) isə yalnız Allaha məxsus olduğu üçün belə bir əqidə tovhid prinsipinə ziddir. Deməli, Allahın qədimliyi və birliyi istisna olmaqla, digər zatı sifətlər yalnız təvil yolu ilə vəsf edilə bilər.

2) Ədl (ədalət). Mötəzililərin tovhiddən sonra əsaslandıqları ən önəmli prinsipdir. Təsadüfi deyildir ki, islam fikir tarixində mötəzililəri "Əhlül-ədli vət-tovhid" ("Ədalət və tovhid əhli"), yaxud "Əshabul-ədl" ("Ədalət prinsipi tərəfdarları") adları ilə tanıyırlar.

Mötəzililərin ədalət prinsipinin əsasında insanın öz əməllərini etməkdə azad olduğu, Allahın öz ədaləti üzündən pis, çirkin əməlləri yarada bilməyəcəyi ideyası durur. Mötəzililərin fikrincə, insan öz əməllərini seçməkdə tam azad, tam müstəqildir. İnsan öz əməllərini seçmə və həyata keçirtmə qüdrətinə malikdir. Bu əməllərin yaradılmasında Allahın müdaxiləsindən söhbət gedə bilməz. Əgər insan öz əməllərini seçməkdə azad, müstəqil olmasaydı və insanın əməllərini Allah yaratmış olsaydı, insanın həmin

əməllərə görə sorğu-suala çəkilməsi, məsuliyyət daşıması doğru olmaz, ədalət prinsipinə uyğun gəlməzdi. "İnsan bütün əməlləri özünün iradəsi və qüdrətilə etdiyi üçün Allah qarşısında məsuliyyət daşıyır" deyən mötəzililər bu müddəalarını Qurani-Kərimin Allahın ədalətli olduğu, Qiyamət günü insanın öz əməllərinə görə cavab verəcəyi barəsindəki ayələri ilə təsbit edirlər.

Mötəzililər eyni zamanda Allahdan zülm, haqsızlıq kimi pis əməllərin baş verə bilməyəcəyini, Allahın yalnız və yalnız ən yaxşı, ən gözəl olanı (əl-əsləh) yaratdığını, pis əməllərin isə insanın özü tərəfindən yaradıldığını qeyd edirlər.

Mötəzililərin ədalət prinsipi ilə bağlı görüşlərindən biri də insan üçün ən yaxşı, ən uyğun olanı (əl-əsləh) yaratmağın Allaha vacib olduğunu iddia etmələridir.

3) Vəd və Vəid. Vəd dünyada yaxşı əməllər edənlərin axirətdə mükafatlandırılması, vəid isə dünyada pis əməllər edənlərin axirətdə cəzalandırılmasıdır. Bu isə öz-özlüyündə mötəzililərin yuxarıda izah etdiyimiz ədalət prinsipinin məntiqi nəticəsidir. Çünki yaxşı əməllər edənlərin mükafatlandırılmaması Allahın ədaləti ilə bir araya sığmadığı kimi, pislik edənlərin cəzalandırılmaması da ilahi ədalətlə bir araya sığa bilməz. Deməli, yaxşılıq edəni mükafatlandırmaq, pislik edəni isə cəzalandırmaq Allaha vacibdir. Allah nə vədindən, nə də vəidindən dönər. Bundan çıxış edərək mötəzililər belə hesab edirlər ki, günah işlədikdən sonra tövbə etməyənin bağışlanmasından və peyğəmbərlərin onlar barəsində şəfaət etməklərindən söhbət gedə bilməz.

4) Əl-Mənzilətu beynəlmənziləteyn. Əvvəldə qeyd etdiyimiz kimi, mötəzililərin etiqadlarına görə, böyük günah etmiş kimsə nə mömindir, nə də kafir, o, imanla küfr arasında olan bir mərtəbədə – fisq mərtəbəsindədir. Tövbə etmədən ölərsə, əzabı kafirinkindən yüngül olsa da, cəhənnəmdə əbədi qalar. Tövbə edərsə, ölümündən sonra mömin olaraq cənnətə gedər.

5) Əl-Əmru bil-məruf vənnəhyu ənil-münkər. Mötəzililərin əqidəsincə, yaxşı işlər görməyi əmr etmək, pis işlər görməyi qadağan etmək hər bir müsəlmanın borcudur. Özlərinin bu prinsipini Quran ayələri və əqli dəlillərlə izah etməyə çalışan mötəzililər sosial həyatda, cəmiyyət daxilində ciddi nəzarət tərəfdarı kimi çıxış edirlər. Mötəzililər əslində Qurandan gələn bu prinsipdən öz əqidələrini başqalarına zorla qəbul etdirmək, onların fikirlərini qəbul etməyənlərə, ideya əleyhdarlarına amansız divan tutmaq üçün istifadə etmişlər.

Mötəzililərin bu beş prinsipdən əlavə daha başqa əqidə əsasları da vardır ki, onlardan aşağıdakıları xüsusilə qeyd etmək lazımdır:

a) Allahı axirətdə görmək qeyri-mümkündür;

b) Quran məxluqdur (yaradılmışdır);

c) Əql nəqldən (dinin əsasını təşkil edən mətnlərdən) üstündür;

ç) Yaxşı və pis mövzusunda əql əsasdır. Din ancaq əqlin qavradığı məsələləri izah edir.

Abbasi xəlifəsi Məmunun (vəfatı 833) dövründə mötəzililik dövlətin rəsmi məzhəbi halına gətirilmiş, mötəziliyin

əqidə əsasları barəsindəki mübahisələrin, disputların yerini cəbr və zorakılıq tutmuşdu. Xəlifə Məmun qazil-qüzat (baş qazi) Əbu Musa əl-Murdarın təşviqi ilə xalqı bu əqidəni qəbul edərək, ona inanmağa məcbur etmişdi. O, valilərə əmrlər göndərərək, qaziləri və din alimlərini bir yerə toplayıb, onlardan müsəlman ümmətini Quranın məxluq olmasına inandırmağı tələb edirdi.

Məmun daha irəli gedərək Bağdad valisi İshaq bin İbrahimə əmr göndərib, o dövrün yeddi böyük hədis alimini bu barədə sorğu-sual edilmək üçün öz hüzuruna çağırtdırmış, onlar da canlarının qorxusundan Quranın məxluq olması fikrini təsdiq etmişdilər.

Yalnız Əhli-sünnət imamlarından Əhməd ibn Hənbəl və dövrünün böyük alimi Məhəmməd bin Nuh ağır işgəncələrə məruz qalmalarına baxmayaraq Quranın məxluq olması fikrini rədd etmişdilər. Məhəmməd bin Nuh qandallanmış halda ölmüş, sözündən dönməmişdi.

Məmun özündən sonra bu siyasəti davam etdirməyi qardaşı Mötəsimə də (vəfatı 842) vəsiyyət etmişdi. Əhməd ibn Hənbəl Mötəsim dövründən də vəhşi işgəncələrə məruz qalmasına rəğmən, Quranın məxluq olması fikrini qəbul etməmiş, nəhayət bir müddət sonra sərbəst buraxılmış və Mötəsimin ölümünə qədər bu məsələ ilə əlaqədar kimsə ona toxunmamışdı.

Mötəsimdən sonra xəlifə olan Vasiq (vəfatı 847) zamanında eyni terror davam etmiş, hətta Vasiq o dövrün tanınmış alimlərindən Əhməd bin Nəsr Quranın məxluq olması fikrini qəbul etmədiyi üçün onun başını öz əlləri ilə vəhşicəsinə kəsmişdi.

İslam tarixində "mihnə" ("çətinlik", "sınaq", dövrü adlanan bu üç xəlifənin zamanında mötəzililər öz ideya əleyhdarlarına amansız divan tutmuş, onlara olmazın işgəncələr vermişlər.

Yalnız Vasiqin ölümündən sonra onun yerinə keçən Mütəvəkkilin zamanında (vəfatı 861) bu məsələ soyumağa başlamış, nəticədə xəlifənin əmri ilə "Quran məxluqudur" demək yasaq edilmiş, vəziyyət tam tərsinə çevrilmiş, elm siyasətin oyuncağı olmaqdan qurtulmuş, layiq olduğu yeri tutmuşdur. Beləliklə, Abbasi xəlifələrinin müəyyən bir hakimiyyət dövründə mötəzililərin təsiri və təşviqi ilə islam dünyasında axıdılan qanlar dayandırılmış, haqq batili yox edib, öz yerində bərqərar olmuşdur.

Bütün bunlarla yanaşı qeyd edilməlidir ki, mötəzilə islam fikir tarixində ilk rasionalist cərəyan, ilk kəlam məktəbi kimi islam dininin nəzəri əsaslarını, əqidə bünövrəsinin qorunub saxlanılmasında müstəsna rol oynamışdır.

Mötəzililiyin ilk əvvəldə islamiyyəti müdafiə etmək məqsədilə fəlsəfəyə müraciət etməsi, fəlsəfəyə meyil göstərməsi şübhəsizdir. Mötəzilə islam dinini yalnız xristian teologiyası və fəlsəfəsinin hücumlarından qorumaqla kifayətlənməmiş, eyni zamanda islamiyyətin əsaslarını fəlsəfi metodlarla ən gözəl tərzdə açıqlamış və bunları bir çox əcnəbi millətlərə qəbul etdirməyə də müvəffəq olmuşdur. Mötəzilə eyni zamanda xristian teologiyasının və qədim yunan fəlsəfəsinin təsirinə də məruz qalmışdır. Məhz yunan fəlsəfəsinin təsiri nəticəsində mötəzililər etiqad məsələlərində nəqllə

(Quranla, hədislərlə) yanaşı, əqlə önəmli yol vermiş, hətta əqli ön plana çəkmiş, əqlə uyğun gəlmədiyini hesab etdikləri nəqlləri təvil yolu ilə izah etməyə səy göstərmişlər. Elə buna görə də onlar dini etiqad, islamın əsasları məsələsində nəqlə üstünlük verən, əqli o qədər də səlahiyyətli hesab etməyən sələf alimləri tərəfindən kəskin surətdə tənqid edilmişlər.

Etiqad məsələlərində əqlə bu qədər üstünlük vermələri mötəzililəri əsas hədəflərindən yayındırmış, onlar tədriclə ümdə vəzifələrini unudub dini məsələlərdən daha çox fəlsəfi mövzularla məşğul olmuşlar. Məhz buna görə də mötəzililərə ilk islam filosofları demək olar.

İlk zamanlar yalnız islamın iman əsaslarını müdafiə etmək kimi səmimi düşüncələrlə hərəkət edən mötəzililərin, zaman keçdikcə fəlsəfəyə aludə olub öz əsas vəzifələrinin öhdəsindən gələ bilmədikləri üçün islamiyyətin bir çox nəzəri məsələlərinin, əqidə problemlərinin elmi izahı, onların yad təsirlərdən və kənar hücumlardan qorunması sonralar əsas etibarilə şiə və əhli-sünnət kəlam məktəblərinin öhdəsinə düşmüşdür.

**MUSA** – Müqəddəs kitablarda adı çəkilən peyğəmbər. Qibti dilində mu – "su", sa – "ağaclar" deməkdir.

1. Musa Quranda Məhəmməd Peyğəmbərin sələfi və özündən örnək alınacaq bir peyğəmbər kimi göstərilməklə, Peyğəmbərin gələcəyinin onun tərəfindən bildirildiyi (əl-Əraf, 157) anladılır; İslam dini eyni zamanda Musanın dinidir (əş-Şura, 13); Musa da Peyğəmbərin surət və şəkli üzərə təsvir edilir. Peyğəmbər kimi, o da xalqı atalarının dinindən ayırmaqda (Yunus, 78) və sehrə baş vurmaqda (əl-Qəsəs, 19) ittiham edilirdi. Musa ilə Harunun imanı musəvilərə yox, daha çox asi Firona göndərilmiş olduğu deyilir. Ona Tövrat, Kitab, Furqan, Suhuf (əl-Bəqərə, 53; əl-Ənbiya, 48; ən-Nəcm, 38; əl-Əla, 19) vəhy edilmiş idi. Allah onu tənvir, sövq və idarə etməkdədir. Musa haqqındakı təsəvvürlərdə yəhudi dini kitablarının əfsanə ünsürləri ilə yanaşı, müqəddəs kitabların ünsürləri də vardır. Buna görə, bacısının müşayiətində Musa tərk edilir, başqa süd analarının südünü əmmir və anası tərəfindən əmizdirilir. Döyülən bir yəhudinin köməyinə gələrək, bir misirlini öldürür, lakin şeytanın işi olan bu cinayətinə görə peşman olur. Təqib edildikdə Mədyən ölkəsinə qaçır. Bir quyu başında bir qocanın iki qızının sürüsünə su verir. Qızlardan biri utana-utana onu atasının evinə dəvət edir. Musanın həyat hekayətinin başlanğıcı üçün b a x: **Quran, əl-Qəsəs, 1-28; Kitabi-Müqəddəs, Xuruc, II** və sonrakı fəsilləri. Peyğəmbərliyi haqqında bir çox ayələr var.

Müqəddəs Tuva vadisinin alov-alov yanan kolları arasından (Taha, 10-12; ən-Naziat, 16) Musanın qulağına qaibdən səslər gəlir: ona nəleynini çıxarması əmr edilir; Firona aparacağı [xəbər], Peyğəmbərliyinə, ilan olan əsaya və ağappaq olan ələ aid vəhy nazil olur. Danışmağı güclə anlaşılır (əz-Zuxruf, 52); Harun vəzir sifəti ilə onunla birlikdə gedir (Taha, 31; əl-Furqan, 36); Firon Musanı onu böyüdənlərə qarşı nankorluqda ittiham edir (əş-Şüəra, 18). Firon sehrbazları toplayırsa da, onların əsalarını Musanın əsası udur. Sehrbazlar Musanın dinini qəbul ilə Allaha

iman edirlər; Firon cəza olaraq, bunların əllərini, ayaqlarını kəsib asdırır (əl-Əraf, 109-126; Taha, 57-76; əş-Şüəra, 34-51). Firon özünə Allah kimi tapınmasını istəyir və özünü Musanın Allahına çatdıracaq bir qüllə tikdirməsini Hamana əmr edir (əl-Qəsəs, 38). Musa doqquz möcüzə göstərir (əl-İsra, 101; Taha, 56-76; ən-Nəml, 12). Möcüzələr bunlardır: 1) ilan olan əsa; 2) ağ əl; 3) tufan; 4) çəyirtkələr; 5) bit; 6) qurbağalar; 7) qan; 8) zülmət; 9) Qırmızı dəniz sularının yayılması.

Musa, Allahın yanında 30 və 10 gecə qalır (əl-Əraf, 142); lövhələr üzərində Allahın əmrlərini gətirir. Qeyb olunan vaxtında Samiri böyürən qızıl buzovu qurban edir (əl-Əraf, 148; Taha, 7 və b.). Musa lövhələri qırır. Allahı görmək istəyir, lakin Allahın görünmək üçün təcəlli etdiyi dağ toz halına gəlir (əl-Əraf, 143). İsrail oğulları müharibədən qorxurlar və 40 il səhrada dolaşmaq zorunda qalırlar (əl-Maidə, 21-26), Musanın düşmənləri, Harun, Firon və Haman yox olurlar (əz-Zümər, 39).

2. Musa Müqəddəs kitablarda Moisey (sudan çıxarılmış və ya xilas edilmiş. B a x: **Xuruc**, II, 10 və b.) yəhudilərin rəhbəri və qanunvericisi, peyğəmbəri və birinci tarixçisi. Miladdan qabaq 1574-cü və ya 1576-cı ildə anadan olub, Amramın və İoxavedanın oğludur. Xurucda (II, 1-10) və həvarilərin əməllərində (VII, 19-22) yazılan Musanın dünyaya gəlməsi, uşaqlığı və böyüməsi macəraları Qurandakı eyniliklə verilir. Yəhudini müdafiə etməsi, misirlini öldürməsi, qaçması və s. (həvarilərin əməlləri, VII, 23-28) əhvalatlar da eynidir.

Yəhudiləri Misirdən çıxarıb üç aydan sonra onları Sina dağının yanına gətirən Musa, dağın başına çıxır və Allahdan on əmr alır ki, bunlar da yəhudilərin on ilahi qanunları olurlar. Sonra Musa Allahın əmri ilə yenə dağ başına çıxır, orada qırx gün və qırx gecə qalır və Allahdan üzərlərində olan on qanun həkk olunmuş iki daş lövhəsini alıb dağdan enir (b a x: **Xuruc**, XIX, XX, XXIX, XXXI, 18).

Günahlarına görə yəhudilər 40 il Sina səhrasında dolaşdılar. Yəhudilər həsrəti çəkilən torpağa çatanda, Musaya bu torpağa qədəm qoymağa Allahdan icazə verilmədi və o öz səlahiyyətlərini İisus Navinə verir. Sonra Allah onu İeruxonla üzbəüz olan Nevo dağının başına çağırır və buradan Musa həsrəti çəkilən torpağı (İsraili) görməyə nail olub, elə bu dağın başında 120 yaşında vəfat edir. “Onun dəfn edildiyi yeri indiyə qədər heç kəs bilmir” (İkinci qanunçuluq, XXXIV, 6).

**MUSA ƏL-KAZİM** (745-799) – İsnə-əşəriyyə şiələrin yeddinci imamı. Cəfər əs-Sadiqin oğludur. H. 128 (745)-ci ildə Peyğəmbərin anası Əminənin qəbri olduğu ələl-Abvada dünyaya gəlib. Mədinədə atasının yanında böyüyüb. Atasının ölümündən sonra (h. 148-765), siyasətlə məşğul olmayıb, yenə Mədinədə qaldı. H. 169 (786)-cu ildə ələvilərin üsyanında iştirak etmədi. Buna baxmayaraq xəlifələrin nəzərində şübhəli sayılırdı. H. 179 (795)-cu ildə Harun ər-Rəşid onu əvvəlcə Bəsrəyə, sonra da Bağdada göndərdi. Ən yayılmış rəvayətlərə görə, Musa əl-Kazim h. 183-cü ilin Rəcəb ayında (799-cu il, avqust-sentyabr) həbsdə vəfat edib.

Musa əl-Kazim haqqında şiələrin rəvayətləri çoxdur. Düşmənin hücumunu ustalıqla qarşıladığına və düşmənin onun tərəfinə keçdiyinə görə Musa "hiddətlini yeyən" mənasında olan əl-Kazim ləqəbini almışdır. Bütün zamanların tərcümeyi-hallarında, Musanın kəramətlərinə ayrılan bölmələrdə onun fitri biliyi qeyd olunur. Xəlifə Harun Musanı öldürmək üçün heç bir müsəlman qatil tapmadı və onu öldürmək üçün "firəng" qatillərini gətirtdi. Lakin firənglər Musa əl-Kazimin şərəfli ailədən olmasına görə, onu öldürməkdən imtina etdilər. Musanın duaları, rəvayət yolu ilə bizə gəlib çatmışdır. Bundan başqa həbsxanada yazdığı məktublar və xəlifə Harun ər-Rəşidə qarşı imamət iddialarını haqlı göstərən şəxsi yazısı var. Bu son yazıda o, imamlığı haqqını Peyğəmbər ilə qohumluğuna isnad edir.

Musa əl-Kazimin künyəsi Əbu İbrahim, Əbül-Həsən, ya da Əbu Əlidir. Uşaqlarının sayı haqqındakı rəqəmlər 30 ilə 60 arasındadır. Ümumiyyətlə, 37-sinin adı var. Xələfi Əli ər-Rizadan başqa, qismən İmam Əhməddən çox Zeyd mühüm rol oynamışdır. Zeyd Bəsrədə üsyan zamanı Abbasilərin tərəfdarlarını öldürüb, özlərini yandırdığı üçün Zeyd ən-Nar ("Atəş Zeyd") ləqəbini almışdı. Sənada buna bənzər hərəkətlərinə görə, İbrahimə əl-Cəzzar ("Qəssab") adı vermişlər. Fatimənin Qumda ölən bir qızının məzarı bu şəhərə mübarək bir məqam qazandırmışdır. Musa əl-Kazim isə Bağdadın yanında olan Qureyş qəbiristanında dəfn olunmuş, nəvəsi doqquzuncu imam Məhəmməd Cavad da onun yanında dəfn edilmişdir. Beləliklə, Kazimeyndə iki mübarək məqam meydana gəldi.

**MUZA** – qədim yunan əfsanələrində incəsənətin himayəçi ilahəsi. Əvvəllər mifologiyada bir muzanın, sonra – üçünün, daha sonra isə doqquzunun adı çəkilir və bunlar təkcə incəsənətin yox, elmin müxtəlif sahələrinin himayəçiləri kimi tanınırdılar. Muzaların adları: Klio – tarixin himayəçisi, Evterpa – musiqi və elegiya şerinin, Kalliopa – qəhrəmanlıq eposunun, Erato – lirik poeziyanın, Terpsixora – rəqslərin və xorey lirikanın, Melpomena – faciənin, Taliya – komediyanın, Polikimniya – pantomimanın, Uraniya – astronomiyanın ilahisi idi.

**MÜCADİLƏ,** Əl-Mücadilə – Quranın 58-ci surəsinin adıdır. Ən sanballı rəvayətlərə görə Mədinədə nazil olmuşdur. İlk 10 ayənin Mədinədə, başqalarının isə Məkkədə nazil olduğu və ya bunun əksi də rəvayət edilir. Təfsirçilərin əksəriyyətinə görə, 22, bəzilərinə görə 21 ayədir. Əl-Mücadilə ismi-fail forması ilə "çəkişən, bərk münaqişə edən, şikayətdə olan qadın" mənasındadır.

Əl-Mücadilə surəsi islamda ailə təsisi və qadın hüququ baxımından əhəmiyyətli bir ayə ilə başlanır. Cahiliyyət dövründəki bir adətə görə, bir kişi arvadını və ya arvadının bir bədən üzvünü anasının bir bədən üzvünə bənzədirsə, məsələn, arvadına: "Sən mənə anamın arxası kimisən!" deyərsə, arvadını həmişəlik özünə haram edir. Buna zihar deyilir. İslamda hələ bu barədə hökm olmadığı halda səhabələrdən Övs ibn Samit belə zihar etmişdi. Buna görə arvadı Havlə bint Sələbə çox

mütəəssir olmuş və Peyğəmbərə müraciət etmişdi. O, qocalığından, kimsəsi olmadığından və ehtiyacından şikayət edirdi. Peyğəmbər boşanmaq lazım gəldiyini bildirir, qadın isə israrla əri ilə barışmaq istəyirdi. Həmin hadisə ilə əlaqədar bu ayələr nazil oldu və zihar edən kimsələr bir kəffarə verdikdən sonra ər-arvad kimi yaşamaq imkanı əldə etdilər.

**MÜDƏSSİR,** Əl-Müdassir ("libasına örtünüb bürünmüş") – Quranın 74-cü surəsinin adı. Məkkədə nazil olmuşdur. Qəbul edildiyinə görə 56, bəzilərinə görə 55 ayədir. Surəyə müdəssir adının verilməsinin səbəbi ilk ayəsində Peyğəmbərə bu sözlə xitab edilməsidir. Peyğəmbərə Xira dağında ilk vəhy gəldiyi zaman o ona xitab edən Cəbrayılı görmüş, bu xariqülada mənzərə və hal qarşısında dəhşətə gəlmiş və arvadı Xədicənin yanına gedərək: "Məni örtün!" demişdir. Sonra bu surənin yeddi ayəsi nazil olmuşdur. Bu söz "peyğəmbərlik və ya fəzilət və kamillik libasına bürünmüş" şəklində də təfsir edilir.

Bu surətdə, Peyğəmbərə, islama inanmayanları, küfrdə inad və israr göstərənləri tutduqları yolun vahim nəticələrini bildirərək, qorxuya düşürməsi və doğru yola dəvət etməsi bildirilir. Bəzi şəxs və hadisələrə işarət edən təbliğlər eyni yolda gedənlər haqqında ümumiləşdirir və surə Allahın əfvedici, bağışlayıcı olduğunu xatırladaraq bitir.

Əl-Müdəssirin ilk beş ayəsinin ilk nazil olan ayələr olduğunu deyənlər varsa da, ümumi qənaətə görə, bunlar 96, əl-Ələt surəsinin birinci beş ayəsindən sonra və 73, əl-Müzəmmil surəsindən qabaq, tarix etibarı ilə ikinci olaraq nazil olmuşdur. On birinci və sonrakı bir neçə ayədə haqqında bəhs edilən zəngin və çoxuşaqlı kimsənin islamın əleyhinə kəskin qarşıduranlardan olan Qureyşi əyanı Valid ibn Muğirə olduğu iddia edilir. Valid, Qurandan bəzi ayələri dinləmiş, bunların insan və cin sözünə oxşamadığını söyləmiş, tərifləmişdi. Bundan təlaşa düşən qureyşilər bir yerə yığışıb onu çağırdılar və fikrini soruşdular. Danışıqların axırında Valid dinlədiyi ayələrin təsiredici bir sehr, lakin insan sözü olduğunu dedi ki, 19 və ondan sonrakı bir neçə ayə bu hadisə üzərə nazil olmuşdur. 30-cu ayədə cəhənnəmin mühafizəsinə təyin edilən mələklərin sayının 19 olmasının bildirilməsinə görə bunu istehza mövzusu etmək istəyənlər olmuşlar. Onun dalınca gələn ayənin nüzul edilməsinin səbəbi də həmin hadisə olub.

**MÜƏZZİN** (*ər.* elan edən, dəvət edən) – azanı oxuyan məscid xadimi.

**MÜHACİRLƏR,** Əl-Mühacirun – Quranda tez-tez çəkilən və Peyğəmbərin Mədinəyə hicrətində onunla gedənlərə verilən addır. Mühacir təbiri Peyğəmbərin özü haqqında işlənmir, yalnız ondan əvvəl, onunla bərabər və ondan sonra hicrət etmiş və sonradan Mədinə əhalisinin mühüm bir qismini təşkil etmiş olan kimsələr haqqında deyilir. Peyğəmbərin, Mədinənin yerli olan səhabələrinə özlərini mühacirlərdən ayırmaq üçün ənsar adı verilib, çünki mühacirlər Məkkədəki yurdlarını tərk etdikdən sonra əsasən onların yardımına və fəal himayələrinə möhtac qalmışdır. Bunlara qarşı davamlı sevgi oyandırmaq Peyğəmbərin başlıca vəzifələrindən biri olmuşdur. Peyğəmbər, böyük bəla-

ğətlə, onları Allahın xas qulları kimi təsvir edir: "Həqiqətən, Allaha iman gətirənlər, Məkkədən Mədinəyə köçüb gələn və Allah yolunda cihad edən şəxslər Allahın mərhəmətinə ümidvardırlar" (əl-Bəqərə, 218); "Hicrət edənlərin, öz yurdlarından çıxarılanların, Mənim yolumda əziyyətə düçar olanların, vuruşanların və öldürülənlərin günahlarının üstünü Allahdan bir mükafat olaraq örtəcəyəm" (Ali-İmran, 195).

**MÜHƏSSİN,** Muhassin ibn Əli (bugünkü tələffüzü: Mühsin) – şiələrin ənənəsinə görə, Əli ilə Fatimənin üçüncü oğlu olub, vaxtından qabaq doğulduğuna görə, dünyaya ölü gəlmişdir. Buna səbəb də, xəlifə Əbu Bəkrin əmri ilə Ömər və Qunduz ibn Ümeyr tərəfindən Fatimənin evində aparılmış axtarış göstərilir.

H. IV (X) əsrdə Mühəssinin xatirəsinə Hələbdə bir məqam təsis edilmişdir. Müxəmmisə şiələri (Nüseyrilər də buraya daxildir) Mühəssinə ayrı bir ibadətgah təsis etmişlər. Bunların təsiri altında şiələrin təziyələrində, Qiyamət günü və Əli övladı şəhidlərinin təsvirlərinə qanlar içində olan Mühəssini əlində aparan Peyğəmbəri də daxil edirlər. Allahın ədalətini təmin etmək üçün, onu yuxarı qaldırırlar.

**MÜQƏDDƏSLƏR** – çox hallarda həyatları xüsusi möminlik savabları və möcüzə əlamətləri ilə şöhrət qazanmış şəxslərdir. Belələri öldükdən sonra insanlarla Allahın arasında vasitəçi olub, insanların talelərinə təsir göstərir, onlara kömək və himayəlik edirlər.

Müasir dinlərdə inkişaf etmiş Müqəddəslər ayini ibtidai insanlar arasında yayılmış əcdadlar ayininə gedib çıxır. Monoteizmin politeizmlə birləşməsinin bir formasıdır, çünki müqəddəslər möminlər tərəfindən aşağı səviyyəli ilahilər kimi qəbul edilirlər. Çox hallarda müqəddəslərin arasına mifik (əfsanəvi) şəxslər də daxildir.

Müqəddəslər ayini xristianlıqda və islamda geniş yayılıb. Bu ayinin xristianlıqda yaranmasına qədim yunan və Qədim Roma dinləri böyük təsir göstərmişlər. Öz müqəddəslərinin tərcümeyihallarının tərtibatı üçün məlumatları xristian kilsəsi müxtəlif mənbələrdən – Əhdi-Ətiqin və İncilin rəvayətlərindən, Roma – yunan əfsanələrindən, folklordan və s.-dən götürürdü. Müqəddəslər ayininin inkişafı üçün xristianlığın "bütpərəst" xalqlarının arasında yayılması böyük rol oynayırdı: yerli ilahilərin kilsə vasitəsilə xristian müqəddəslərinə çevrilməsi xristianlıqdan əvvəlki ayinlərin "xristianlaşma" yolu ilə aradan çıxarmasını sürətləndirdi. Xristian kilsəsinin on minlərlə müqəddəsi var və bunlar müxtəlif rütbələrə bölünürlər: ulu babalar, nəbilər, həvarilər, kilsə ataları, əziyyət çəkmişlər və əzabkeşlər, zahidlər, asketlər və s. Bunların bəzilərini ecazkar adlandırırlar.

İslamda (xüsusən şiəlikdə) və iudaizmdə (tsadiklərə hörmət) də müqəddəslər insanlarla Allah arasında olan vasitəçilər, xilaskarlar və möcüzə göstərənlər kimi hörmətə malikdirlər.

**MÜLK,** Əl-Mülk – Quranın 67-ci surəsinin adı. Məkkədə nazil olub, 30 ayəsi var. Surədə ən çox işlənilən bu söz "hakimiyyət" mənasındadır və birinci ayəsindən alınıb. Bu surəyə Təbərəkə adı da verilir (təbərəkə əlləzi biyadihi əl-mülk).

Əl-Mülk surəsində Allahın qüdrəti və ucalığı anladılaraq, xüsusən Onun yaradıcılıq sifətini aşılamaqla, yaradıcı kainatda hökm sürən nizam və ilahi qanuna işarə edilərək, görmə, eşitmə və hissetmə xassələrini ehsan etdiyi halda, Allaha inanmayan, əsərindən ibrət almayan və Peyğəmbəri yalançı sayanların çəkəcəyi əzab yada salınır.

Bu söz, hökmdarlıq, hakimiyyət mənasında olub, Allah haqqında və Əhdi-Ətiqdə mövcud islamdan qabaqkı bəzi şəxsiyyətlərə münasibəti ilə Quranda işlənmişdir. Mülk Quranda əksərən təkbaşına işlənir. Mülk Allaha aiddir, bunda heç bir şəriki yoxdur, göy və yer ilə ədalətin mülkü Allahındır, mülkü istədiyinə verir, kafirlərin mülkdə heç bir payı və haqqı yoxdur.

**MÜMİNUN,** Əl-Müminun ("möminlər, inananlar, iman edənlər") – Quranın 23-cü surəsinin adı. Birinci ayənin mətni – Qad əfləhə əl-Müminun və surənin adı kimi qəbul olunur. 64-74-cü ayələri xaric Məkkədə nazil olunub. Məkkə dövrünün axırlarına aid olduğunu, bu dövrdə nazil olan surələrin sonuncusu olduğunu söyləyənlər, ayrıca, yuxarıda işarə edilən ayələrdən başqa, zəkatdan bəhs edən dördüncü ayədə olduğu kimi, bəzi hissələrin Mədinə dövrünə aid olması ehtimalına işarə edənlər də var.

Surə, möminləri tərif və təsvir ilə başlanır, onların Allaha və insanlara qarşı vəzifələrini və necə davranmalarını anladır. Allahın insanları necə yaratdığı və onlara nələr bağışladığı zikr edilir. Sonra qədim peyğəmbərlərdən Nuh və qövminin ona etdikləri, Nuhdan sonra gələn peyğəmbərlərin – Musa, Harun və İsanın qarşılaşdıqları çətinliklər ilə onlara müxalifət göstərənlərin aqibətlərindən danışılır. Peyğəmbərə inanmayanlara gəldikdə, onların uğradıqları və uğrayacaqları fəlakətlərdən bəhs olunur. Nəhayət, Allahın qüdrəti, böyüklüyü və birliyi izah olunaraq, yaxşılıq edənlərin yaxşılıq, pislik göstərənlərin pislik görəcəkləri qiyamət günü xatırladılır.

**MÜMTƏHİNƏ,** Əl-Mümtəhinə ("imtahana çəkilən qadın") – Quranın 60-cı surəsinin adı. Mədinədə nazil olmuşdur, 13 ayəsi var. Adı surənin 10-cu ayəsindən alınıb. Bu surəyə eyni kökdən ismi-fail və məsdər şəkilləri ilə əl-Mümtəhinə və əl-İmtahan, ayrıca 1 və 7-ci ayələrindən alınıb, əl-Mavadda ("məhəbbət") adları da verilmişdir.

Hüdeybiyyə sülhü (h. 6-628) ilə Məkkənin fəthi (h. 8-630) arasında nazil olan bu surədə ümumiyyətlə, müsəlmanların münasibətlərinə dair hökmlər var. Surənin baş tərəfi mühacirlərdən Xatib ibn əl-Bəltəənin məkkəlilərə, Peyğəmbərin gizlində saxladığı Məkkə fəthinə hazırlaşdığını bildirən məktub yollamaq təşəbbüsünə görə nazil olmuşdur. İlk altı ayədə islamın düşmənləri ilə, ən yaxın qohum-əqrəbadan da olsalar, dost olmamaq, onlara qarşı gizli məhəbbət bəsləməmək və inanmamaq lazımlığını bildirmiş, buna görə müsəlmanların müşrik qalan yaxınlarına qarşı düşmənçiliklərini artırmaqla, bu gərginliyi götürmək üçün 7-ci ayə nazil olmuşdur. 7 və 8-ci ayələrdə belə kimsələrin də yaxın bir zamanda dost ola biləcəkləri bildirilmiş, din uğrunda müharibə etməyənlərlə yaxşı keçinmək tövsiyə edilmişdir. 10-11-ci ayələr islamı qəbul ilə Mədinəyə iltica edən qadınlar haqqındadır. Hüdeybiyyə sülhünə görə Mədi-

nəyə hicrət edənlər qaytarılacaqdılar. 10-cu ayə müsəlman olan bir qadının müşrik kişinin nikahında qalmayacağından, müsəlman kimi gələn və buna görə sorğu-suala çəkildikdən sonra, təkcə din qayğısı ilə gəldiklərində qənaət əldə edilən qadınların, ərləri tərəfindən verilən mehrin ödənməsi şərti ilə, qaytarılmamaları haqqında nazil olmuşdur. 12-ci ayənin Məkkənin fəthi günü nazil olduğu rəvayət edilir.

**MÜNCİYYƏ,** Əl-Münciyyə – Quranın 67-ci surəsinin adlarından biri olub. Əl-Mülk və əl-Vaqiyə adları ilə də tanınır.

**MÜNKAR VƏ NƏKİR,** İnkir-Minkir – qəbirdə ölüləri sorğuya çəkən və lazım gələrsə, cəzalandıran iki mələyin adı. Qəbirdə kafirlər ilə möminlər və salehlər də günahkarlar qədər sorğu-suala cavab verməlidirlər. Bunlar qəbirlərində qaldırılaraq verilən suala cavab verirlər. Buna görə ölü Qiyamət gününə qədər tək qalır. Günahkarlar və kafirlər doğru cavab verə bilməyəcəklər. Bundan başqa mələklər Allahın istədiyi müddət ərzində (bəzi mənbələrə görə, cümə günləri xaric olmaqla), Qiyamət gününə qədər onları şiddətlə döyəcəklər.

Quranda qəbir əzabı açıq zikr edilməyib. Buna dair müxtəlif yerlərində işarələr var: məs., 47-ci, Məhəmməd surəsinin 27-ci ayəsində: "Bəs mələklər onların üzlərinə, arxalarına vura-vura canlarını alanda halları necə olacaq?"; 6-cı, əl-Ənam surəsinin 93-cü ayəsində: "Kaş sən zalimləri ölüm əzabı içində çapalayan, mələkləri də [bu zaman] əllərini uzadıb: "Çıxarın canlarınızı! Siz bu gün Allaha qarşı nahaq sözlər danışdığınıza və Onun ayələrinə təkəbbür göstərdiyinizə görə alçaldıcı bir əzabla cəzalandırılacaqsınız!" deyəndə görəydin!"; 8-ci, əl-Ənfal surəsinin 50-ci ayəsində: "[Ya Məhəmməd!] Kaş sən kafirləri mələklər onların üzünə və yanlarına vura-vura: "Dadın atəşin əzabını!" – deyib canlarını alanda görəydin!" (əlavə b a x: **ət-Tövbə,** 103; **əl-Muminun,** 21; **ət-Tur,** 47).

**MÜRİD,** (*ər.* davamçı, can atan, cəhd edən) – sufilik təlimi əsasında həyatını dinə həsr edən şəxs.

**MÜRSƏLAT,** Əl-Mürsəlat ("Bir-birinin ardınca göndərilənlər") – Quranın 77-ci surəsinin adı, 50 ayədən ibarətdir. Məkkədə nazil olmuşdur. Surənin bu adı almasının səbəbi, ehtimal ki, bir-birinin ardınca göndərilən peyğəmbərlər, mələklər, ayələr və ya küləklərdir.

**MÜRTƏD,** Murtad – "bir şeydən üz çevirən", xüsusən, islamiyyətdən. Dindən dönməyə irtidad və ya ridda deyilir. İrtidad, ya şifahi dini əqidəni rədd etmək, ya da felən, məs., Qurana hörmətsizlik göstərməklə meydana gələ bilər.

Quranda mürtəd yalnız axirətdə görüləcək cəzalar ilə məhdud olunur. Məs., Məkkənin son dövrünə aid ayələrə (16-cı, ən-Nəhl, 106 və b.) görə, "Allahın qəzəbinə" uğrayacaq və "qəlbi inamla sabit olduğu halda, [küfr sözünü deməyə] məcbur edilən"lərdən başqa, mürtəd qorxunc cəzalara düçar olacaqdır. Mədinədə nazil olan bir ayədə də (Ali-İmran, 85 və s.) belə deyilir: "Onların cəzası, həqiqətən, Allahın, mələklərin və bütün insanların lənətinə düçar olmaqdır" (87): "Onlar bu lənət içərisində əbədi olaraq qalacaqlar. Əzabları əskilmədiyi kimi, onlara [mərhəmət nəzəri ilə] baxılmayacaqdır" (88);

"Yalnız bundan sonra tövbə edərək düzələn şəxslər [bağışlanarlar]. Şübhəsiz ki, Allah bağışlayan və rəhm edəndir!" (89); "İman gətirəndən sonra kafir olan və küfrlərini daha da artıran şəxslərin tövbələri əsla qəbul olunmaz" (90); "Kafir olub kafir kimi ölənlərdən heç birinin dünya dolusu qızılı olsa və [əzabdan qurtarmaq üçün] onu fidyə verə, yenə də qəbul olunmaz. Onları dəhşətli bir əzab gözləyir. Onlara [cəhənnəm odundan xilas olmaqda] heç bir kömək edən olmaz!" (91). Əl-Bəqərə surəsinin 217-ci ayəsi də bundan bəhs edir: "Sizdən hər kəs öz dinindən dönüb kafir olaraq ölərsə, belə şəxslərin bütün əməlləri dünya və axirətdə heçə gedər. Onlar cəhənnəmlikdir və orada əbədi qalacaqlar!"

**MÜSEYLİMƏ** – Peyğəmbərlə eyni zamanda yaşamış yalançı peyğəmbər (əl-Kəzzab). Rəvayətə görə, o, bir elçilər dəstəsi ilə, Peyğəmbəri Mədinədə ziyarət etmiş və onun vəfatından bir az sonra peyğəmbərlik iddiası ilə ortaya çıxmışdır.

Hicri 12 (633)-ci ildə öldürülmüşdür.

**MÜSLİM** – İslam dinini qəbul edən Müsəlman sözünün mənşəyi, ehtimalən, farscadan sifət əlavəsi ilə meydana gələn müslimdir.

**MÜSLİM İBN AQİL** – Hüseyn ibn Əlinin əmisi oğludur. Müaviyənin ölümündən sonra (680), Məkkəyə çəkilən Hüseyn, xəlifəliyini elan etdikdən sonra, tərəfdarlarının onu dəvət etdikləri Kufədə vəziyyəti öyrənmək üçün, Müslimi ora göndərdi. Müslim Kufədə minlərlə şiə tərəfdarlarının olmalarına şahid oldu. Hüseynə xəbər göndərib, dərhal gəlib hərəkatın başına keçməsini tələb etdi. Bu vaxt tərəddüd edən Kufə valisi olan Numan ibn Bəşirin yerinə xəlifə əzmkar və iradəli olan Übeydallah ibn Ziyalı valiliyə təyin etdi. Bu tədbirdən qorxuya düşən Müslim gizləndi, lakin tutuldu və başı kəsilib xəlifə Yəzidə göndərildi.

**MÜZDƏLİFƏ**, Əl-Müzdalifa – Mina ilə Ərəfat arasında bir yerdir. Hacılar Zülhiccənin 9 və 10-cu günlərini bağlayan gecəni, Ərəfatdan qayıtdıqda burada keçirirlər. Ertəsi gün, günəş doğmamış buradan hərəkət edib Mühəssir vadisilə Minaya gəlirlər. Bu yerə əl-məşər əl-haram (Quran, əl-Bəqərə, 198) da deyilir.

Müzdəlifədə əsil mübarək məqam Quzah təpəsi olub, adını da qədim fırtına ilahisi olan Quzahdan almışdır. Peyğəmbərin, Cahiliyyə dövrünə oxşatmamaq üçün, bütün Müzdəlifəni mövqe kimi elan etməsinə rəğmən, bu təpə qədim qüdsiyyətini saxlamışdır.

**MÜZƏMMİL**, Əl-Müzəmmil – Quranın Məkkədə nazil olan 73-cü surəsinin adı. 20 ayədən ibarətdir. Müzəmmil – "libasına bürünmüş" deməkdir. Surəyə bu adın verilməsinin səbəbi ilk ayəsində Peyğəmbərə bu sözlə xitab edilməsidir.

Bu surə Peyğəmbərin gecə qalxıb namaz qılması, Quran oxumasını bildirir. Sonra Peyğəmbərə və dolayısı ilə ümmətinə Allaha isnad, səbir və dözmək tövsiyəsində olub, iman etməyənlərə Fironun aqibəti xatırlanır. Nəhayət, surə bəndələrin Allahın məğfirətini istəmələrini, Onun çox bağışlayıcı olduğunu bildirərək bitir.

# N

**NABU** – Babil dinində müdriklik ilahisi, elmlərin və incəsənətin hamisi.

**NAFİ,** Əbu Rəşid Nafi ibn əl-Əzraq əl-Hənəfi əl-Hənzəli – xaricilər (Əzraqilər) firqəsinin başçısı (684-cü ildə öldürülüb).

**NAFİLƏ** (cəmi – navafil) – lüğəti mənası – mal, qənimət, ehsan, bağışlama və s. Bu söz Quranda iki yerdə xatırlanır: əl-Ənbiyya surəsinin 72-ci ayəsində belə deyilir: "Biz İbrahimə İshaqı, üstəlik Yaqubu da ehsan buyurub (nafilə) onların hamısını saleh kimsələr etdik". Əl-İsra surəsinin 81-ci ayəsində gecənin oyanıq keçirilməsindən bəhs edilirkən, belə işlənmişdir: "[Ya Məhəmməd!] Gecənin bir vaxtı durub ancaq sənə xas olan (nafilə) əlavə namazı qıl". Hədisdə bu mənada tez-tez işlənir. "Onun (Peyğəmbərin) keçmiş və gələcək günahları bağışlandı və əməlləri onun üçün nafilə əməllər kimi oldu" (İbn Hənbəl). Başqa bir hədisdə, Ramazan ayından bəhs edilərkən, bu söz belə işlənmişdir: "Allah onun əcirlərini və navafilini hələ başlamadan əvvəl təyin etdi" (İbn Hənbəl). Başqa bir baxımdan da olsa bu qüdsi hədis tamamilə xüsusi bir əhəmiyyət daşıyır: "Qulum mənə navafil ilə yaxınlaşmaq istədiyi vaxt onu sevirəm. Onu sevdiyim vaxt, onun eşidən qulağı, görən gözü, tutub yuyan əli, yeriməyə yarayan ayağı oluram" (əl-Buxari).

**NAMAZ** (*fars.*) – Müsəlmanların hərgünkü beşqat sübhçağı, günorta, günün ikinci yarısında, gün batanda və gecə ərəfəsində icra edilən ibadəti. Beşqat namaz hicrətin birinci yüzilliyində müəyyən edilib. Hər namaz qabağı dəstəmaz (abdəst) alınır. Namaza, Quranın birinci, Fatihə surəsi, başqa surələrin ayələri, dualar daxildir və qəbul edilmiş hərəkətlə, təzimlərlə və s. müşayiət edilir. Namazı hər bir təmiz yerdə qılmaq olar, namaz qılan üzünü qibləyə tutur. Cümə günləri günorta namazı məsciddə qılınır.

**NANAK** (1469-1538) – sikxlər məzhəbinin banisi. Pəncabda, Lahorun yaxınlığında anadan olub, khatri tacirlər silkinə mənsub idi. Özünü sikxlərin mənəvi rəhbəri (quru) elan edən Nanak induizmin islamla birləşməsi uğrunda çalışırdı.

**NEFTİDA** – Qədim Misir dinində – ilahə, İsidanın, Osirisin və Setin bacıları və sonuncunun arvadı. Bəzən o Anubisin anası hesab edilirdi. Ölənlərin keşikçisi kimi ehtiram edilirdi. İki buynuzlu Günəş diskli formada olan baş geyimində təsvir olunurdu.

**NEMEZİDA** – qədim yunan dinində – moyralara yaxın, lakin onlardan fərqli olaraq insanın taleyini onun xasiyyətlərinə görə müəyyən edən tale ilahəsi. Sonralar cəza verən ilahə hesab olundu. Onun atributları – qamçı, qılınc, üzəngi və mizan olub.

**NEREİDALAR** – qədim yunan əfsanələrində "dəniz ağsaqqalı" Nereyin

qızları və dənizdə üzən adamların hamiləri olan nimfalar.

**NƏBİ** (*ər.*) – peyğəmbər, ibrani nəbi, yaxud aramı nebiya sözündən alınıb, Quranda Məkkənin ikinci dövründən etibarən müfrəd və cəmi (nəbiyun) şəkilləri ilə qəbul olunur; Mədinə dövründə isə, cəminin qısalmışı olan ənbiya şəklində də rastlanır. Quranın Ali-İmran surəsinin 84-87-ci ayələrində nəbiyunun isimləri yer alır. Məryəm surəsinin müxtəlif yerlərində və əl-İsra surəsinin 55-ci ayəsində haqlarında daha çox məlumat vardır. Bunlar Peyğəmbərin adını bildiyi İdrisi (Məryəm, 56) kənara qoysaq, yalnız Əhdi-Ətiq və Əhdi-Cədidəki isimlərdir. Halbuki Allahın xəbər verən (rəsul, cəmi rusul, mürsəlun) isə, ilk dövrlərdə başqa qövmlərə də göndərilmiş idi: məs., Hud və ya Saleh. Qurana görə "peyğəmbərlər" yalnız əhl əl-kitab arasında zühur etmişlər. Quranda peyğəmbər adı verilən kimsələrin yalnız kiçik bir qismi eyni zamanda müqəddəs kitablarda da bu ismi daşıyırlar və Qurandakı ənbiya arasında yalnız Yunus ibn Matta İncildə keçən peyğəmbərlərdəndir. Məhəmməd Peyğəmbərin özü ancaq Mədinəyə gəldiyi zaman nəbi ünvanını almışdır. Buna burda nəbi (ya əyyuha-i-nəbi) şəklində müraciət edilməkdə və peyğəmbərin sonuncusu mənasına xətəm deyilməkdə idi. Quranda (əl-Əraf, 157 və 158) Peyğəmbərə ən-Nəbi əl-ümmi deyilir ki, bununla onun müşriklər arasından çıxmış Peyğəmbər olduğuna qəsd edilir. Çünki musəvilər müşriklərə "ümmat ha olam" – "dünya qövmləri" deməkdə və bunların arasından çıxmış olan məs.: Əyyub və Bələm kimi peyğəmbərləri tanıyırdılar. Musəvilər tərəfindən müşriklərə verilən bu ism Qurana əl-ümmiyun kimi daxil olmuşdur.

**NƏBİLƏR** (kiçik və böyüklər) – *qədim yəhudicə* – nəbi, *ər.* nəba (xəbər vermək). Bibliyanın Əhdi-Ətiqində 16 nəbilik kitablarının müəllifliyi isnad olunan şəxslər. Kitabların həcminə görə nəbilər böyüklərə (İsayya, İyeremiya, İyezekil, Daniil) və kiçiklərə (Osiya, İoyl, Amos, Avdi, İoma, Mixey, Naum, Avvakum, Sofoniya, Akkey, Zaxariya və Malaxiya) bölünürlər. Talmudda Əhdi-Ətiqdə adları çəkilən və başqa ilahilərin ayinləri əleyhinə və Yaxveyə (Elohim) ehtiram etmək uğrunda mübarizə edən 7 nəbi qadın və 78 nəbinin adları çəkilir. Bibliyada adları çəkilən nəbilərin bəziləri real şəxslərdir, bəziləri isə əfsanəvidir. Vaxtikən qədim israillilər Musaya, İisus Navina, İlyasa, Yeliseyə ilahilər kimi ehtiram edirdilər. Bu nəbilərin əksəriyyətinin adları Quranda da çəkilir. Məhəmməd peyğəmbər nəbilərin sonuncusudur (xətmi-nəbi).

**NƏCƏF,** Ən-Nəcəf (Məşhəd Əli) – İraqda; Kufənin 10 km qərbində yerləşən şəhər və ziyarətgah. Yayılmış ənənəyə görə xəlifə Əli Kufə ətrafında, bu şəhəri Fərat çayının daşmalarından qoruyan sədlər yaxınlığında dəfn edilmişdi. Sonralar burada Nəcəf şəhəri əmələ gəldi. Buraya Nəcəf əl-Kufə də deyilirdi. Əməvilər zamanında İmam Əlinin Kufə ətrafındakı məzarının yerini gizli saxlamaq lazım gəlirdi. Buna görə

sonralar bu məzar müxtəlif yerlərdə axtarılmışdır. Çoxları bunun həqiqətən Kufədə, camenin qibləsi altında bir guşədə, bəziləri də əksinə Kufəyə iki fərsah (14-15 km) qalmış məsafədə olduğunu iddia edirdilər. Üçüncü rəvayətə görə, İmam Əli Mədinədə, Fatimənin məzarı yanında dəfn edilmiş idi. Dördüncü rəvayət isə, məzarın Qəsr əl-İmara ətrafında olduğunu bəyan edir. Buna görə, Nəcəfdəki qəbir gerçəkdə Əlinin məzarı yox, islamdan qabaqkı dövrdən qalma müqəddəs bir məzar ola bilər, çünki burada Adəm və Nuhun məzarlarının olduğunu da deyirdilər. Məşhəd Əlidə imamın məzarı üzərində qiymətli xalı və pərdələri olan süslü böyük türbə Mosul Həmdani hökmdarı Əbulheyca tərəfindən inşa etdirildi. Şiə Buveyhi hökmdarı Əzudədövlə h. 369 (980)-cu ildə bir türbə tikdirdi ki, özü və oğulları Şərəfəddövlə və Bəhaəddövlə bu türbədə dəfn olunublar. Bu vaxt Nəcəf kiçik bir şəhər idi. H. 414 (1024)-cü ildə ölən Həsən ibn əl-Fəzl Məşhəd Əlinin divarlarını tikdirdi. H. 443 (1052)-cü ildə Məşhəd bağdadlılar tərəfindən yandırıldısa da, çox çəkmədən təmir edildi. H. 479 (1087)-cu ildə Bağdada gələn Səlcuq sultanı Məlikşah və vəziri Nizaməlmülk Əli və Hüseynin məqbərələrini ziyarət etdilər. İlxani Qazan xan (1295-1304) Nəcəfdə bir dar əs-siyada və bir xanəgah tikdirdi. Vadi əs-Salamda İrandan və başqa ölkələrdən gələn cənazələrin də dəfn edildiyi məşhur qəbiristan var.

**NƏCMƏDDİN KUBRA** (1145-1226) – Kubraviyyə və ya Zəhəbiyyə təriqətinin banisi. XII-XIII əsr iranlı sufilərin ən böyük şəxslərindən biri idi. Orta Asiyada indiyədək qalmış bir çox əfsanə onun adı ilə bağlıdır. Sufiliyin inkişafındakı rolu çox böyük olub və saysız şagirdləri arasında təsəvvüf əqidəsinin çoxlu böyük nümayəndələri vardır. Tam adı Əhməd ibn Ömər Əbülcənnab Nəcməddin əl-Kubra əl-Xivasi əl-Xorezmidir. Bundan başqa əl-Tətimmət əl-Kubra ("Qiyamət") və Şeyxi Vəlitaraş ("vəli yetişdirən şeyx") ləqəbləri var idi.

Əsərləri: 1. Əl-Üsul əl-əşərə – sufiliyin 10 əsas prinsiplərinin xülasəsi; 2. Risalə fil-sülük (Risalə fi elm əs-sülük); 3. Risalə fitturuq; 4. Təvali ət-tənvir; 5. Fəvatih əl-camal; 6. Lumatəllaim və ya əl-haif əl-Haim min Lumat əl-laim; 7. Hidayət ət-talibin; 8. Təfsir.

**NƏFİSƏ**, əs-Seyyidə Nəfisə – İmam Şafeinin məscid-türbəsi istiqamətində Əhməd ibn Tulun məscidinin cənubunda, Qahirənin qapısında yerləşən türbə. Qahirədəki qadın vəlilər arasında, Seyyidə Zeynəb bint Məhəmmədən sonra Sitt Səkinənin (Sükeynənin) yanında Sitt Nəfisə xüsusilə mühüm yer tutur. Bazar günkü rəsmi Quran qiraətlərindəki ümumi sıramalarda əs-Seyyidə Nəfisə, İmam Şafen ilə İmam Hüseyndən sonra, üçüncü gəlir. Türbə kişilər tərəfindən olduğu qədər, qadınlar tərəfindən də, xüsusən gecə ziyarət edilir. Türbənin qapısı ildə ancaq bir dəfə açılır.

Nəfisə, əl-Həsən ibn Zeyd ibn əl-Həsənin bir qızı idi. Əri Cəfər əs-Sadiqin oğlu İshaq əl-Mütəmin ilə Misrə gəldi. Burada geniş bilikli qadın kimi tanındı. İmam əş-Şafeinin evinə

tez-tez gedərək ondan çoxlu hədis öyrəndi. Ölümündən sonra əş-Şafeinin cənazəsi duasını oxumaq üçün Nəfisənin evinə gətirildi. Özü isə h. 208-ci ilin Ramazan ayında (824-cü ilin əvvəli) vəfat etdi. Ərinin və özünün nəşlərini Mədinəyə, ailə qəbiristanına aparmaq istədilər, lakin misirlilər buna mane oldular. Türbəsinin tikilməsində çox hökmdarlar iştirak edib.

**"NƏĞMƏLƏR NƏĞMƏSİ"** – Əhdi-Ətiqin tərkibinə daxil olan kiçik aşiqanə erotik poema. İlahiyyatçılar onu Həzrət Süleymanla bağlayır (e.ə. X əsrdən qabaq) və ona ilahi ilə "seçki xalqı" (yəhudilikdə) arasında olan məhəbbətin rəmzi kimi mistik-simvolik şərhlər verirlər. Əslində isə "Nəğmələr nəğməsi" e.ə. II əsrə qədər yazılmış dünyəvi əsərdir. Hətta Talmudun tərtibçiləri arasında, onun kitaba daxil edilməsi haqqında şübhələr var idi.

**NƏHL,** Ən-Nəhl – bal arısı, Quranda XVI surənin adıdır, 68-ci ayədən alınıb: "Rəbbin bal arısına belə vəhy etdi". Bəzilərinə görə buna "Sürü surəsi" adı da verilmişdir, çünki müxtəlif yerlərində heyvanlardan söhbət gedir.

**NƏML,** Ən-Nəml – qarışqa. Quranın Məkkədə nazil olan 27-ci surəsi. Surənin 93 ayəsi var və adı 18-ci ayədən alınıb: "Nəhayət onlar qarışqa vadisinə gəlib çatdıqda bir qarışqa dedi: "Ey qarışqalar! Yuvalarınıza girin ki, Süleyman və ordusu özləri də bilmədən sizi basıb əzməsinlər!"

**NƏMRUD,** Namrud, Nimrud, ruz – Kitabi-müqəddəsdəki Nimrod adı, islam ənbiya qissələrində, haqqadada olduğu kimi, İbrahimin uşaqlarına dair dini rəvayətlərdə zikr olunur. Bu adın Quranda çəkilməməsinin səbəbi ola bilsin ki, Quranda çox vaxt adların zikr olunmamasına görədir. Aşağıdakı ayələrdən Nimrud hekayətinə Quranda işarələr olduğu aydın görünür: "[Ya Məhəmməd!] Allahın verdiyi hökmranlıq üzündən (azğınlaşaraq) İbrahim ilə Rəbbi barəsində mübahisə aparan şəxsi (Nəmrudu) görmədinmi? İbrahim: "Mənim tanrım həm dirildir, həm də öldürür", – dediyi zaman o, (Nəmrud): "Mən də həm dirildir, həm də öldürürəm", – demişdi. İbrahim ona: "Allah Günəşi şərqdən doğurur, bacarırsansa, sən onu qərbdən doğur" – dedikdə, o kafir donub qalmışdı" (əl-Bəqərə, 258). Quranda bir də Nəmrudun özünə və ya bütlərinə tapınmadığı üçün, İbrahimi cəzalandırmaq istədiyi və ona atəşə atdırdığı xüsusunda olan əfsanə ilə bağlı bir işarə vardır: "Onlar (Nəmrud və ətrafdakılar öz camaatına) belə deyirlər: "Əgər bir iş görəcəksinizsə, İbrahimi yandırın!" Biz də: "Ey atəş!" İbrahimə qarşı sərin və zərərsiz ol!" – deyə buyurduq" (əl-Ənbiya, 68-69). Bu ayədə də Nəmrud qəsd edilir: "Tayfasının [İbrahimin sözlərinə] cavabı: "Onu öldürün, yaxud da yandırın!" deməkdən başqa bir şey olmadı. Amma Allah onu oddan xilas etdi!" (əl-Əngəbut, 24). Onlar dedilər: "Bunun (İbrahim) üçün bir bina tikin [içərisini] odunla doldurub özünü də oda atın!" (əs-Səffat, 97).

Təbəri Nəmrudu, Süleyman ibn Davud və Zül-Qərneyn kimi, dünyaya hökm etmiş üç və ya (Buxtunnəsr ilə bərabər)

dörd hökmdar arasında sayır. Onun münəccimləri bir uşağın doğulmasını, səltənətini devirib, bütləri dağıdacağını ona xəbər verdilər. Beləliklə, İbrahim, Musa, Gilqamış, Semiramis, Sarqon, Karna (Mahabharatada), Traxan (Gilgit çarı), Kiruş, Persey, Edip, Romul və Rem, İsa kimi, doğulduğu gündən etibarən bir hökmdar üçün təhlükə təşkil edən əfsanəvi qəhrəmanlardan biri olur. Azar və ya Tarixin (Teraxın) arvadı, Uşa, Nəmrudu və adamlarını aldatmağa müvəffəq oldular. Vaxtından əvvəl ağıl-kamala çatan İbrahim Nəmrud ilə dini münaqişəyə girişir: Nəmrud Allah olmaz, çünki Allah həyatı da, ölümü də verəndir. Nəmrud cavabında, özünün də eyni şeyləri görə biləcəyini, çünki ölümə məhkum bir adamı bağışlaya bildiyi kimi, öldürə biləcəyini də dedi. Nəmrud İbrahimi atəşə atdırır. Atəş sönür və zərər vermir. Bir mələk İbrahimi atəşdən çıxarır. Nəmrud İbrahimin Allahına öz göyündə hücum etmək istəyir, dörd gənc qartalı ət və şərab ilə bəsləyir. Bir sandığın dörd küncünə uclarında ət parçası olan dörd mizraq düzəldir, özü də sandıqda yerləşir. Ətə çatmaq istəyən qartallar mütəmadi yüksəklərə qalxırlar, dağlar qarışqa yuvasına bənzər, bütün dünya dəniz üstündə bir gəmi kimi görünür. Lakin hər şey mənasızdır və axırda Nəmrud yerə düşür. Bundan sonra İbrahimin Allahına çata bilmək üçün bir qüllə tikdirir. Bu zaman dil qarışıqlığı əmələ gəlir, təkcə bir suryanı dilin yerinə 73 dil meydana gəlir. Allahın mələkləri Nəmrudu təqdir edirlər. Lakin Nəmrud Allaha qarşı döyüşmək məqsədilə ordusunu hazırlayır. Allah onun üzərinə ağcaqanad ordusunu göndərir. Bunlar Nəmrudun adamlarının qanını içir, ətini yeyirlər. Bir ağcaqanad da Nəmrudun burnundan beyninə girir. Dörd əsr zalımanə hökm sürmüş olan Nəmrud, ölümünə qədər dörd əsr də ağcaqanadların işgəncəsini çəkir.

**NƏSR**, Ən-Nəsr – Quranın 110-cu surəsinin adıdır. Mədinədə nazil olmuşdur, üç ayədən ibarətdir. Surənin adı nəsr – "yardım", "dəstək" birinci ayəsindən alınıb.

**NƏSTURİLƏR** – Birinci Dünya müharibəsindən əvvələdək Van (Şərqi Anadolu), Mavsil (Şimali İraq) və Urmiya arasındakı dağlıq bölgəsində yaşayan xristian əşirətlərin adıdır.

Fəal missionerlər olan nəsturilərin əqidəsi bir zaman Asiyada geniş sahəyə yayılmışdır. Onların əhəmiyyətli rol oynadıqları dövr Sasanilərin vaxtına düşür.

**NƏZİƏT**, Ən-Nəziət – Quranın 79-cu surəsinin adıdır. Məkkədə nazil olunmuşdur, 56 ayədən ibarətdir. Nəzaadən cəm halında müənnəs ismi-fail olan bu söz lüğətdə "çəkənlər, bir şeyi yerindən çəkib qoparanlar, çıxaranlar, alanlar, birbaşa qalxıb gələnlər" və s. kimi çox müxtəlif mənalara uyğun gəlir. Təfsirçilər, bütün bunlarla yanaşı, sözü ayrıca məcazi mənalar ilə də təfsir və izah ediblər.

Qiyamət gününü və yenidən dirilməyi qəti olaraq bildirməklə başlayan surədə Musa ilə Fironun qüssəsi izah olunaraq, Musanın peyğəmbərliyinə inanmayan

Fironun aqibəti xatırladılır. Sonra yeri, göyü, gecə və gündüzü yaradan Allahın qüdrəti zikr edilərək, iman etməyənlərin cəhənnəmə və əksinə olaraq, dünyada canlarını naqis arzulardan qorunmasını bacaran və iman edənlərin cənnətə gedəcəklərini bildirir.

**NİKE**, Nika – qədim yunan əfsanələrində döyüş və ya yarış qalibi kimi (çox hallarda qanadlı) təsvir olunurdu. Nikanın atributları dəfnə əklili və palma budağı idi.

**NİMFALAR** (*yun.* bakirə qızlar, gəlinlər) – qədim yunan mifologiyasında təbiət ilahiləri. Onlar Zevsin qızları hesab olunurdular. Hesab edilirdi ki, nimfaların bəziləri suları (okeanidalar, verendalar, nayadalar), bəziləri dağları (oreadalar), çölləri, (napeyalar), meşələri (alseidalar) və b. yerləri məskun edirlər. Bundan başqa ayrı-ayrı yerlərin və ağacların nimfalarına ehtiram edilirdi. Pan, Silen və satirlərlə birlikdə nimfalar Dionisi müşayiət edirdilər. Nimfaların şəhər iqamətgahlarında toylar keçirilirdi. Nimfalar gənc, gözəl qızlar kimi təsvir olunurdular.

**NİRVANA** (*sanskritcə* sakitləşmə, keçmə) – qədim hind dini və fəlsəfi nəzəriyyələrində – Karma qanunları işləməyən halda həyatdanayrılma dəmi; son məqsəd və insanın "xilası". İnduizmdə Nirvana şəxsi varlığın ilahi mütləqiyyətlə, "kainat ruhu" (brahma) ilə birləşməsi kimi şərh edilir. Buddizmdə Nirvana dünyəvi istəklərdən, ehtiraslardan və bağlılıqlardan azad olan və artıq yeni bədən qilafında canlanmayan insan ruhunun ən yüksək halıdır. Bu dini nəzəriyyələrə görə Nirvanaya yalnız bütün keçmiş həyatlarında möminlik yolu ilə "müqəddəsliyin" ən yüksək mərhələsinə ucalmışlar qalxa bilərlər (b a x: **Sansara, Karma**).

**NİSA,** Ən-Nisa, "qadınlar" – Quranın dördüncü surəsinin adı. İlk ayələrində qadınlardan bəhs edildiyi üçün, surəyə bu ad verilmişdir. Bu surə Quranın ən mühüm surələrindəndir, çünki burada yer alan bir çox hökmlər islam hüququnun bir çox mövzularının təməlini təşkil edir. Müxtəlif zamanlara aid ayələri bir yerə gətirən bu surə cürbəcur mövzuları ehtiva edir. Mətn belə xülasə edilə bilər: insanın yaranması, qan qohumluğu, yetimlərin qorunması, miras haqqı, evlənmə, ər-arvad münasibətləri, evlənməyə mane olan hallar, əmanətlər, şahidlik, qəsdən adam öldürmək, cihad və döyüş qaydaları, Allaha və Peyğəmbərə itaət, yəhudi və xristianların cəzalandırılması.

**NİYYƏT**, Niyya (*ər.*) – dinin fərz və ya vacib saydığı əməllərin icra edilməsi. Onu görəcək kimsə bu əməli görmək niyyətində olduğunu qabaqcadan bəyan etməlidir. Duyulan şəkildə və ya daxildən gələn bir bəyana niyyət deyilir. Niyyət olmadan görülən iş batildir. Abdəst, qüsl, namaz, zəkat, oruc, həcc və qurban kimi ibadətin ifasından qabaq niyyət şərtdir. Qəzali (İhya, IV, 316: "Niyyətsiz ibadət mötəbər deyildir" – deyir. Niyyətin ibadət boyunca davam etməsi şərtdir. Niyyətin yeri əqlin və diqqətin təməl üzvü olan qəlbdədir. Buna görə dəlilər mötəbər niyyətdə ola bilməzlər.

Niyyətin məqsədinin nə olduğu da soruşa bilinər. Əl-Bacuriyə görə (Haşiyə, Qahirə, 1303, 1, 57) bir niyyətdə dörd şərtin yerinə yetirilməsi lazımdır: niyyətdə olan kimsə müsəlman olmalı, ağlı başında olmalı, gördüyü əməli yaxşı bilməli və bunu etməyi arzulamalıdır.

**NUH** – Kitabi-Müqəddəsdə olan Noy, Quranda və islam ənbiya qissələrində əhəmiyyətli mövqe tutan bir peyğəmbərin adıdır. Quranda (Hud, 36) Nuh, özünə vəhy nazil olan və ümməti tövbə və istiğfara dəvəti üçün ilk peyğəmbər kimi göndərilib. O, nazir mübin (hifz edən və ixtiraçı; b a x: **Hud, 25; Nuh, 2**), rəsul amin ("Allahın güvənilir elçisi", əş-Şüəra, 107); abd şakurdur ("Allahın şükr edən qulu"; b a x: **əl-İsra, 3**). Allah, Məhəmməd, İbrahim, Musa və İsadan olduğu kimi, Nuhdan da bir əhd almışdır (əl-Əhzab, 7). İbrahim, Musa, Harun və İlyasa olduğu kimi, ona hüzur və rəhmət (Hud, 48) və hər iki dünyada da səlamət (əs-Səffat, 79) vəd edilmişdir.

Nuhun dini İbrahim, Musa, İsa və hətta Peyğəmbərin dini ilə bir tutulur. İbrahim, Musa, İsa və Peyğəmbər kimi, Nuh da haqq dinə mənsub sayılır (Yunus, 73). Nuh xalqdan hər hansı bir kimsə olmaqla, tənəyə məruz qalmışdır (Yunus, 71 və s.) Allah onun yerinə bir mələk göndərməli idi (adı çəkilir: əl-Müminun, 24). Nuh, yanılmaq (əl-Əraf, 60), yalan demək və aldatmaq (əl-Əraf, 64), cinlərin əmrində olmaq (əl-Qəmər, 9), ancaq pis kişilər tərəfindən təqib edilmək (Hud, 25; əş-Şüəra, 141) ilə ittiham olunmuşdur. Nuhun: "Əgər aranızda qalmağım və Allahın ayələri sizə ağır gəlirsə, mən Allaha təvəkkül edirəm. Məni mükafatlandırmaq yalnız Allaha aiddir. Mənim mükafatımı vermək ancaq Allaha aiddir" (Yunus, 71-73; Hud, 29) şəklində cavab verməsi üzündən çəkdiyi müşkilatı xatırlatmaqdadır. Quranda hadisələr belə təsvir olunur: Allah Nuhu günahkar qövmə göndərir. Nuhun adını daşıyan 71-ci surə bu yolda vəz və nəsihətləri ehtiva edir. Qövminin özünü həqir görməsinə görə, Allah Nuha bir gəmi tikməsini əmr edir. Buna görə "təndir qaynayır" (Hud, 40; əl-Müminun, 27); hər şey suyun altında qalır, yalnız hər canlı varlıqdan bir cüt ilə Allaha iman edib və Nuhun gəmisinə götürdüyü kimsələr xilas olunur. Lakin iman edənlər çox azdır. Nuh bir oğlunu çağırırsa da, o gəlmir və bir dağa sığınır, orada sulara batır. Nuh sulara yatmasını əmr etdikdə, gəmi Cudi dağına enir (Hud, 25-49). Nuhun təkcə oğlu deyil, arvadı da (Lutun arvadı ilə birlikdə) günahkarlar arasındadır (ət-Təhrim, 10). Qurandakı Nuh qissəsinin əsil ünsürləri haqqadada da mövcuddur: 1) Nuh ümməti tövbə və istiğfara çağıran bir peyğəmbər olaraq görünür; 2) ümməti gəmi ilə xilas edir; 3) Nuhun ailəsi qaynar suda boğulur (b a x: **Kövn,** XXIX-XXXVI).

**NURBƏXŞİYYƏ,** Nurbaxşiyya – ləqəbi Nurbəxş olan Məhəmməd ibn Məhəmməd ibn Abdullahdan (1393-1465) adını almış bir məzhəb və həb və ya təriqətin adıdır. "İşıq" mənasına uyğun gələn Nurbəxş ləqəbi ona, şeyx Seyyid Əli əl-Həmədani

tərəfindən, bir röyaya görə, xirqəsi ilə bir yerdə verildi. Musa əl-Kazim nəslindən olduğu iddia edildiyindən, Mehdi ünvanını aldı və tərəfdarlarının bir qisminin arzusu ilə xəlifə elan edildi. Bu etibarla, qəzəllərinin başlığında "bütün müsəlmanların imam və xəlifəsi" olaraq zikr edilir. Bir müridinə yazdığı məktubda özü dini və dünyəvi bütün elmlərə ustad olduğunu iddia edir. Əflatuna riyaziyyat və başqa xüsusda dərs verə bilərmiş. Zamanında yaşayan insanları özü kimi müasirə sahib olmaqla qürur duymağa və öz davası üçün çalışmağa dəvət edir. Bu iddialar Teymuri Sultan Şahruh (1405-1447) tərəfindən nəzarətə alındı və 1425-ci ildə həbs edildi. Herata və oradan Şiraza göndərilən Nurbəxşi burada İbrahim Sultan azad etdi. Nurbəxş Bəsrə, Xillə, Bağdadı gəzib, şiələrin müqəddəs yerlərini ziyarət etdikdən sonra, Kürdüstana getdi və orada yenidən xəlifə elan olundu və adına pul basıldı. Şahruhun əmri ilə yenidən həbs edildi və Azərbaycana göndərildi. Oradan qaçıb çoxlu əziyyətlərdən sonra Xalxala getdi. Burada təkrar yaxalanıb, Şahruhun yanına göndərildi. Herata çatdıqda, orada kürsüyə çıxıb, xəlifəliyini rədd etməyə məcbur oldu. 1445-ci ildə, fəaliyyətini tədris sahəsinə həsr etmək şərti ilə azad olundusa da, özündən şübhə edildiyi üçün, Təbrizə, oradan Şirvana və Gilana göndərildi. Şahruh öləndən sonra sərbəst oldu və Reyin Sultan kəndində yaşadı və burada da öldü.

Nurbəxş Britaniya Muzeyində saxlanılan (Add. 16779, 7688) şeirlərində (qəzəl, məsnəvi, rübai) öz şəxsinin əhəmiyyəti üzərində durmaqla bərabər, sufi varlıq-birliyini (vücudiyyə) də büruzə etdirir. Məs.: "Mövcudatın lövhəsindən bir başqasının izini yaxşıca yuyub sildik; aləmin keyfiyyətlər və eyni cövhərdən ibarət olduğunu gördük". Mənsur əsərlərinin farsca olması ehtimal bir Risaləi-əqidə ilə əl-fiqh əl-əhvat adlı fiqhə dair ərəbcə bir kitabdan ibarətdir. Sonuncu əsərin Nur Allah əş-Şüştərinin Məcalis əl-müminin (Bodlean əlyazmaları, 366) əsərinə daxil edilib, parçaları şiə vəsfindədir. İmamın bir çox fəzilətlərə sahib olmasından başqa, bir də Əli və Fatimə nəslindən olması şərtdir. Cihadi-əsğər ("kiçik cihad") üçün bu kifayətdirsə də, cihadi-əkbərdə əlavə olaraq bu mərtəbənin məqamatında kəmala çatmış bir vəli olmaq vacibdir.

Məcalisdə Nurbəxşin iki xələfinin (xəlifə) adı verilir: məxləsi Asiri olan Şəmsəddin Məhəmməd ibn Yəhya əl-Ləhcani əl-Gilani; o, nüsxəsi Britaniya Muzeyində saxlanılan Divanın müəllifidir. Şirazda bir xanəgah tikdirib. Nurbəxşin oğlu olan Şah Qasim Feyzbəxş isə əvvəlcə İraqda yaşayıb, Ağqoyunlu sultanı Yaqubun izni ilə bərəkəti sayəsində vali Hüseyn Mirzənin xəstəliyini müalicə etmək üçün Xorasana getmişdi. Dini mövqeyinə görə, Şah I İsmayılın rəğbətini qazanmışdı.

**NURİ-MƏHƏMMƏDİ,** Nur Muhammadi – Məhəmməd peyğəmbərin ruhunun aləmin yaradılmasından qabaq mövcud bir varlıq olduğunu ifadə etmək üçün işlənilən istilahdır: axırıncı peyğəmbərin təqdir edilmiş cövhəri,

hər şeydən əvvəl, aydın və parlaq bir nöqtə halında yaradılmışdır, sonrakı bütün görkəmli ruhlar ondan çıxmışdır.

Sünnülərdə sufilər arasında bu təsəvvür h. III (IX) əsrdən etibarən meydana gəlmiş və sonra yavaş-yavaş xalqın dini duyğularına hakim olmuşdur. Şiələrdə bu əqidə daha əvvəl və daha qüvvətli məntiqlə ortaya çıxmışdır. Hələ h. II (VII) əsrin əvvəlində Muğirə və Cabir Peyğəmbərin parlaq kölgəsinin (zill) qabaqca yaradılmış olduğunu təlim ediblər.

**NÜSEYRİLƏR, ƏLƏVİLƏR** – ismaililərə yaxın olan müsəlman şiə təriqəti. Öz məzhəblərinə və ayinlərinə Qədim Şərq astral ayinlərini və Şərq xristianlığının elementlərini daxil edirlər. Nüseyrilər Türkiyə və Suriyada yaşayır, əkinçilik və heyvandarlıqla məşğuldular. Onların sayı 400 minə yaxındır. Nəzəriyyələrinin əsas ehkamı Üç Uğnumun varlığıdır: mana (məna, məfhum), ism (ad) və bab (qapı)dır ki, bunlar da Əlidə, Məhəmməddə və onun ardıcılı Səlman əl-Farisidə (Səlman Pak) təcəssüm olunurlar. İlahiləşdirilmiş Əlini nüseyrilər Üç Uğnumun əsas siması hesab edirlər. Təriqətin bəzi qollarında günəşə, aya, sübhə və qüruba ehtiram edirlər. Onlar ruhun bədəndən bədənə keçməsinə də inanırlar. Nüseyrilərin öz dini ədəbiyyatı var, onların əsas müqəddəs kitabı olan "Kitab əl-məcmu" Qurani-Kərimə bənzərdir. Onun 16 surəsi var.

# O

**ODİN** (*köhnə skandinav* Odhin, Othin) – skandinav əfsanələrinin baş allahı, fırtına ilahisi (ondan külək diləyirdilər), qələbəni verən, ölülər ilahisi, kainatın və insanların xaliqi (onun ləqəbi Alfader – ümumatadır), sirli (runik) əlifbanın və şerin ixtiraçısı və mühafizi, müdriklik və füsunkarlıq ilahisi, biliklərin mühafizi. Uzunömürlü olub, lakin başqa skandinav ilahiləri kimi fanidir. O, Friqqin əri, Torun, Baldrın və b. atası hesab olunur. Təkgözlü qoca (bir gözünü müdriklik bulağından içdiyinə görə rehin vermişdi) kimi və boş yerə sərf edilməyən nizə ilə təsvir olunurdu. Odinə qarğa və canavar ithaf olunurdu. Qədim skandinavların təsəvvürlərinə görə, Odin öz səmavi sarayı olan Valqallada yaşayırdı və valkiriyalar döyüşlərdə həlak olmuş qəhrəmanları buraya gətirirdilər. Ona əsirlər qurban verilirdi (Odin üçün ən layiqli əsirlər dar ağacından asılmalı idi).

**OLİMP** – Şimali Yunanıstanda dağ. Zevs başda olmaqla ilahilərin məskəni hesab olunurdu. Qədim yunanlıların təsəvvürlərinə görə Olimp dağında həmişə aydın, günəşli yay, üzərindəki səma isə aydın və mavi olur. Dağ başında Olimp ilahiləri Kefestin tikdiyi qızıl saraylarda yaşayır, vaxtlarını kef və zövqlə keçirib dünyanın taleyini həll edirdilər.

**"OPUS DEİ"** (*lat.* Allah işi) – Avropanın, Amerikanın və Afrikanın bəzi ölkələrində fəaliyyətdə olan və yüksək kilsə xadimləri tərəfindən idarə edilən katoliklər təşkilatı. Təşkilat ziyalıları öz təsir dairəsinə alıb onların vasitəsilə cəmiyyətdə katolik kilsəsinin mövqeyini möhkəmləndirmək niyyətini güdür. 1928-ci ildə İspaniyada yaradılıb, təşkilatın general-prezidenti və mərkəzi idarəsi bu ölkədədir. "Opus dei" professorları, tələbələri, yazıçıları, həkimləri, vəkilləri əhatə edib, öz üzvlərini dövlət idarələrində, ictimai təşkilatlarda, akademik və elmi ocaqlarda, sənaye müəssisələrinin inzibati şuralarında, banklarda və s. yerləşdirir. Təşkilatın öz qəzet və jurnalları nəşr olunur.

**ORAKUL** (*lat.* orare – danışmaq felindən, orakulum) – qədim yunanlar və romalılarda – guya Allaha verilən müraciətə və ya suala onun tərəfindən təlqin edilmiş, gələcəkdən bəhs edən sözlər və gələcəkdən xəbər verilən yer. Qədim yunanlar inanırdılar ki, Orakula ilham verənlər Apollon və başqa ilahilərlə qəhrəmanlardır və Orakulda Zevsin iradəsi bəyan edilir.

**ORİGEN** (185-254) – kilsə "atalarından" biri. O, "Keksaplanı" ("Altıqatlı") – Bibliyanın xüsusi mətnini, Əhdi-Ətiqin və Əhdi-Cədidin bütün kitablarına şərhləri tərtib edib, "Tselsin əleyhinə" adlı 8 cildlik polemik əsər və s. yazıb. O, xristianlığı yunan filosoflarının, o cümlədən Əflatunun nəzəriyyələri ilə yaxınlaşdırmaq istədiyi üçün küfrün yayılmasında ittiham olunurdu.

**ORUC** – yeni, farsca rozə ("günlük, oruc", pəhləvicə ruzak) olan sözün, hər halda X əsrdən az sonra, irani Şərq dillərinin birindən türkcəyə keçmiş şəklidir. Bu sözün ərəbcəsi olan savm, siyam ilə birlikdə, s-v-m kökünün məsdəridir. Sözün ərəbcədə əsil mənası "hərəkətsiz olmaq"dır.

**Oruc adətinin mənşəyi.** Peyğəmbər dövründən qabaq orucun Məkkədə bilinməyən bir əməl olması düzgün hesab edilə bilməz. Heç olmasa ənənəyə görə, yaşayışlarında yəhudi-xristianların dini əməllərinin izləri qalmalı idi. Peyğəmbər müxtəlif səyahətlərində yəhudi və xristianlarda bu adəti görmüş idi və buna görə də yəqin ki, Məkkədə, ilk müsəlmanlar arasında oruc adətini yaymışdı. Bundan daha artıq bir şey demək mümkün deyil, çünki Peyğəmbərin Sirəsində və hədislərdə bu xüsusda deyilənlər ola bilsin ki, məqsədlidir. Məkkə dövrü surələri arasında yalnız Məryəm surəsinin 26-cı ayəsində savmdan bəhs edilir; bir səs Məryəmə: "Mən Rəhman yolunda oruc (sükut orucu) tutmağı nəzir eləmişəm, ona görə də bu gün heç kimlə danışmayacağam!" – deməsini əmr etmişdir. Ola bilsin ki, burada savm sadəcə "oruc" mənasındadır, çünki sükut xristian orucunun əlamətlərindəndir. Hər halda Peyğəmbərin bu əməlin təfərrüatı ilə o qədər də ünsiyyəti olmayıb, çünki ancaq hicrətdən sonra Mədinədə yəhudilərin etdiyi kimi, aşura günündə oruc tutmağı əmr etmişdi. Hicrətin ikinci ilində güvənilən və deyilib yayılan ənənələrə görə, Quranın əl-Bəqərə surəsinin 183 və sonrakı ayələri aşura orucunun yerinə Ramazan orucunu gətirmişdir. Nə üçün tam bu ayın seçildiyi və müsəlmanlardakı oruc müəssisəsinin haradan alındığı xüsuslarına gəldikdə, bunlara dair müxtəlif fərziyyələr irəli sürülmüşdür. İslamiyyətə görə, bu, Allahın yəhudilərə və xristianlara əmr etdiyi, lakin onlar tərəfindən pozulub, Peyğəmbər tərəfindən doğru şəkli ilə yenidən təsis edilən orucdur.

Müsəlmanlıqda oruc əməli ilə bağlı ilk qaydalar Quranın əl-Bəqərə surəsinin 183-185-ci ayələrində verilmişdir ki, bunlar hər halda birlik təşkil edirlər. Oruc Quranda bu yerlərdə zikr edilib: əl-Bəqərə, 196 – burada bəzi hallarda hacılar üçün fərz edilmişdir; ən-Nisa, 92 – müsəlmanlar ilə aralarında əhd olan bir xalqa mənsub olan kimsəni qəsdsiz öldürən bir mömինin bir-birinin ardınca iki ay (kəfarət) oruc tutması fərz edilmişdir; əl-Maidə, 89 – bir and yerinə yetirilməyəndə (kəfarət) üç gün oruc tutmaq lazımdır; əl-Maidə, 95 – həcc vaxtında bir ov heyvanı öldürülərsə (kəfarət) üç gün oruc tutmaq lazımdır.

**Orucun şərtləri.** Şəri mənada oruc mükəlləf olunan hər oruc üçün xüsusi şəkildə niyyət (niyya) edilib, orucu pozan bütün şeylərdən (muftarat) gündüz ərzində ehtiyatlı olmalıdır (imsak); oruc tutan (saim) bütün əqli səriştəsinə sahib (aqil), müsəlman olmalıdır və əgər qadındırsa, onda aybaşıdan və ya doğmaqdan əmələ gələn qan batığı olmalıdır. Oruc bu şərtlərlə həqiqidir: (səhih) dözümlük oluna biləcək halda (qadir) olmaq şərti ilə, həddi-büluğa çatmış (baliğ) hər kəs oruc tutmağa mükəlləfdir.

Orucu pozan şeylər (muftirat) bunlardır:

1) Vücuda, idrak oluna biləcək və mane oluna biləcək qədər, dünyəvi maddələrin girməsi. Bu halda, bərk və ya maye qidaların şpris və ya imalə ilə vurulması, papiros çəkmə, tüfürməli olan sümük kimi şeylərin udulması; vücudun müxtəlif dəliklərinə maye soxmaq və ya damcı-damcı boşaltmaq və ya imalə etmək və ya bir alət soxmaq; vücudun təbii olaraq xilas olmaq istədiyi şeyləri saxlamaq, həşəratın, küçə tozlarının, ağzında qalmış qida qalıntılarının, dərinin özünə çəkdiyi şeylərin, ağız yaxalanarkən çox artıq olmayan udulan suların, bir də məcburi olmasa əgər, rüsl vaxtında burundan tökülə biləcək suyun və dinən təmiz qoxuların vücuda girməsi orucu pozmurlar. Bir kimsə susuzluqdan çox əzab çəkirsə, suyu az bir müddət ağzında saxlaya bilər.

2) Müalicə baxımından, qəza vaxtı, qusmaq istənilirsə, buna icazə verilir.

3) Cinsi əlaqə.

4) Cinsi əlaqələrin nəticəsi olaraq təhrik edilmiş məni axıtma. Bu olmazsa, bunun ehtirasla edilib-edilmədiyinə, buna səbəb olan şəxsin yabançı, ya da zü məhrəm uşaq, qadın və ya qorxmağına görə, müxtəlif hökmlər vardır. Gecə yuxusunda və ya buna oxşar halda şeytanıda (ihtilam) olmaq oruc pozucu (müftir) deyil.

5) Kəfləmə; bu orucu haram edir.

6) Doğum qanları.

7) Narkotik bihuşluq.

8) Sərxoşluq.

Dini hökmlərə görə, oruc bu qisimlərə ayrıla bilər:

1) Məcburi (fərz, vacib): a) Ramazan ayında; b) Ramazan ayında oruc tutulmamış günlərin yerinə oruc tutulacaqsa (qəza); c) bir vəd nəticəsində; ç) bir xəta və ya günahların kəfarəti (kaffara) üçün təyin edilmiş hallarda və d) quraqlıq zamanlarında yerin ən böyük əmiri (imam) yağış duası mərasimini (istisqa) məcburi edərsə.

2) Ramazan xaricində istəklə oruc tutma (savm ət-tətəvvü) tövsiyə edilir; qadın üçün bu ancaq ərinin müsaidəsi ilə ola bilər; heç bir mükəlləfiyət olmadan, pozula bilər; gündüzə qədər qılınması mümkün olan niyyətin açıq və aydın olmasına ehtiyac yoxdur.

3) Bu günlərdə oruc haramdır: iki böyük bayram günlərində, təşriq günlərində (11-13 Zülhiccə – əyyam ət-təşriq) və qadın üçün aybaşı günlərində.

4) Bu günlərdə oruc tutmaq məkruhdur: cümə günü, çünki oruc, diqqəti cümə ibadətindən başqa tərəfə çevirir; bazar və ya cümə ertəsi günü; çünki bu günlərdə yəhudi və xristianlar bayram edirlər. Lakin oruc tutmaq üçün ciddi bir səbəb varsa, tutula bilər. Orucun zərərli olduğundan qorxulacaq zamanlarda da oruc tutmamaq lazımdır. Ümumiyyətlə, şübhəli gündə (yavm əş-şəqq) və Şaban ayının ikinci yarısında, ciddi bir səbəb olmadan oruc tutmaq çox məkruhdur. Şübhəli gün Şabanın 29-dan sonra gələn gündür. Göy açıq olduğu halda, elə olur ki, Ramazan ayının görünüb-görünmədiyi bilinmir. Lakin ciddi bir səbəb varsa, bunlarla bərabər, şübhəli gün ilə Şabanın ikinci yarısını, qəza, nəzr, kəffarə və s. nə şəkildə olursa olsun, bir oruc günü kimi qəbuldur.

Şiələrin oruc ehkamı sünnilərdəkindən aşağıda göstərilən təfərrüatla fərqlidir:

1) Niyyətə bir "rükn" kimi baxılmamalıdır. Ramazan orucu üçün niyyətin açıq deyilməsi zəruri deyildir. Başqa hallarda zəruridir. Niyyəti günortadan qabaq etmək lazımdır.

2) Papiros (siqaret) çəkmək orucu pozan şeylərdən (muftirat) deyil. Lakin imalə (tənkiyə) və bir də gün ağarmasından sonra, qəti olaraq, böyük hadisə (hədəs) içində qalma orucu pozar.

3) Allah sözünü, Peyğəmbər sözünü və ya şiə imamlarının sözünü küfrlü bir tərzdə demək qadağandır və hətta oruc pozandır (muftir). Tamamilə suya girmək qadağandır, lakin bu orucu pozmaz. Oruc vaxtı qərarlı bir şəkildə sükutu mühafizə etmək qadağandır.

4) Bir kimsə qəti olaraq Ramazan orucunu pozarsa, cəzalandırılması lazımdır (kişi və cinsi əlaqəyə görə təqsirkar qadın üçün 25 qamçı zərbəsi). Ramazan ayının başlanmasını təyin etmək üçün iki şahidin şəhadəti lazımdır.

5) Başqaları arasında, gün açılmasından sonra böyük hadisə içində olmaq, daha qabaq təmizlənmək niyyət edilmiş olsa belə qəza orucunu lazım etdirir. Qəza orucunda günortadan əvvəl yemək olar; daha sonra yemək yeyilirsə, bir fidyə vermək lazımdır (üç gün oruc tutmaq).

Oruc tutanın yuxusu da ibadətdir.

**OSİRİS** – Qədim Misir dinində e.ə. III əsrin əvvəlindən sitayiş edilən ilahi. Əfsanələrə görə, Yerin ilahisi Gebin və səmalar ilahisi Nutun oğlu olan Osiris, atasının mülkünə sahib olub onu ədalətlə idarə edirdi (buradan da onun ləqəbi Un-Nefer, *yun.* Onufri, yəni xoşniyyətlidir). Şər ilahisi olan qardaşı Set, Osirisə paxıllıq edərək, onu öldürüb Nil çayına atır. Osirisin bacısı və eyni zamanda arvadı olan İsida ərinin meyitini tapır, lakin Set meyiti oğurlayır və 40 parça edib ölkəyə səpələyir. Çox axtarışlardan sonra İsida bu parçaları yığıb birləşdirir və ovsunlayıb Osirisi diriltdir. Osiris o dünyanın padşahı və ölmüşlərin hakimi olur. Ölən və dirildən ilahi kimi Osiris "ölən" və "dirilən" təbiəti təmsil edirdi. Osiris taxıl ilahisi, rütubət və həyat bəxş edən və qədim misirlilərin etiqadlarına görə ovsunlamalarla yeni həyata doğulan ölülərin hamisi sayılırdı. Adətən, Osiris mumiya şəklində təsvir olunurdu.

# Ö

**ÖLÜLƏR KİTABI** – e.ə. XVI əsrdən başlayaraq Qədim Misirdə ölünün məqbərəsinə qoyulan papirus üzərində yazılmış ovsunlu formul və rəsmlər yığımı. Qədim misirlilərin inamlarına görə Ölülər kitabı ölənə axirət məhkəməsində Osirisin yanında bəraət qazandırmalı və "xoşbəxtlər ölkəsinə" ("İalu sahələri") gedən yollarda maneələrin keçməsinə kömək edirdi.

# P

**"PAKS ROMANA"** (*lat.* Roma dünyası) – ziyalılar arasında katolik kilsəsinin təsirini yayan beynəlmiləl təşkilat. "Paks Romana" Friburq şəhərində (İsveçrə) 1921-ci ilin iyul ayında "katolik studentlərin milli birliklərinin beynəlmiləl katibliyi" kimi təşkil edilmişdir. Müasir dövrdə iki paralel təşkilatlardan ibarətdir – Katolik studentlərin beynəlmiləl hərəkatı və Katolik ziyalıların beynəlmiləl hərəkatı "Paks Romana" hər iki hərəkatı əlaqələndirir. "Paks Romana"-nın bölmələri katolik ölkələrin çoxunda fəaliyyət göstərir.

**PALİ QANUNU** – b a x: **Tripitaka.**

**PAN** – qədim yunanlarda əvvəllər meşə ilahicikləri, meşə ruhları pan adlanırdılar, sonralar Pan meşə ilahisinə, çobanların hamisinə və tütəyin ixtiraçısına çevrildi. Romalılarda Pan tədricən bütün təbiətin, bütün kosmosun universal ilahisinə çevrildi. Əsasən kənd əhli tərəfindən pərəstiş edilirdi.

Keçi ayaqlı, saqqallı və buynuzlu insan şəklində təsvir olunurdu.

**PANÇEN-ERTNİ,** pançen-iqoertni, pançen-lama (*sanskrit və tibetcə* pançen hərfi mənada – müdrik adam, *sanskritcə* erdeni – qiymətli şey) – Tibet dini rütbələrində dalay-lamadan sonra ikinci şəxsiyyət. Lamaitlər pançen-ertnini budda Amitabanın təcəssümü (xubilqan) hesab edirlər və o, hətta buddanın yox, bodisatvanın xubilqanı sayılan dalay-lamadan üstündür.

**PANTEİZM** (*yun.* pan – bütün və teos – Allah) – Allahın "o dünyada" yox, təbiətin daxilində varlığı haqqında nəzəriyyə, allahın təbiətlə eyniləşdirilməsi, allahın təbiətdə və ya əksinə təbiətin allahda ərinməsi. Burada da panteizm iki formaya ayrılır – ateizmə yaxın olan və dini-mistik. Birincinin nümayəndələri (C.Bruno, B.Spinoza və b.) təbiətdən yüksək duran şəxsi allaha öz mənfi münasibətlərini qeyd edib deyirdilər ki, təbiəti heç kəs yaratmayıb, o həmişə var idi, var, olacaq və o ona xas olan təbii qanunlarla idarə edilir, təbiətin özü də elə allahdır. Belə bir panteizm, ardıcıl olmasa da, dinə üstün gəlmək təşəbbüsü idi. Dini-mistik panteizmin forması (İ.S.Eriugena, N.Malbranş və b.) təkid edir ki, allah bütün əşyalarda, hadisələrdə və təbii proseslərdə hansısa fövqəltəbii başlanğıc kimi mövcuddur. Belə panteizm, əksinə, Allah haqqında təsəvvürlərin yeniləşdirilməsi vasitəsilə dinin möhkəmləndirilməsinə yönəlmiş təşəbbüsdür.

**PAPA** – b a x: **Papalıq.**

**PAPA ELMLƏR AKADEMİYASI** (*lat.* Pontifisiya akademia stsientiarum) – 1603-cü ildə Romada təsis olunan "Linçei Akademiyasının" vərəsəsi. 1936-cı ildə papa XI Piy akademiyada islahatlar aparıb, ona indiki adı və statusu verərək əmr etdi ki, o, riyazi və təbii elmlərlə məşğul olmalıdır. Akademiklərin sayı (bunlar katolik olmaya da bilər və papa, namizədləri müxtəlif ölkələrdən

seçə bilər) 70 nəfərə çatdırılmışdır. PEA-nın əsas vəzifəsi elmin dinlə "barışmaq" yollarını axtarmaqdır.

**PAPA VİLAYƏTİ,** Kilsə vilayəti – Mərkəzi Roma şəhərində olan Orta İtaliyada Roma papasının teokratik dövləti. 756-cı ildə franklar kralı Gödək Pipin taxta çıxması münasibətilə xeyir-dua verən papa III Stefana təşəkkür əlaməti olaraq Roma vilayətini, Ravennanı və Kampanyanı ona bəxş etdi (b a x: **Papalıq**). Papa dövlətinin sərhədləri dəfələrlə dəyişilib. 1809-cu ildə Napoleon papanın mülki hakimiyyətini ləğv edir, papa VII Piy Parisə aparılır, Roma və Roma vilayəti ilə Fransa imperiyasına ilhaq olunurdular. Napoleonun məğlubiyyətindən sonra Vena konqresi papa dövlətini köhnə hüdudlarında bərpa etdirdi (Avinyon və Venessensiz). 1848-ci ilin Roma inqilabı papa IX Piyi yenidən öz mülkündən qovdu. Papa Avropa dövlətlərinə müraciət edərək silahlı müdaxilə edib onun hakimiyyətini bərqərar etməyə çağırdı. 1849-cu ilin fevralında Romada respublika elan olundu. Papanın mülkü hakimiyyəti ləğv edildi. Lakin Avstriya, Fransa, İspaniya və Neapolun qoşunları papa hakimiyyətini bərqərar etdilər və 1850-ci ildə IX Piy Romaya qayıdır. XIX əsrin 50-ci illərinin sonunda Papa vilayəti Apenin yarımadasının orta hissəsini əhatə edirdi. Sahəsi 12 min kvadrat mil, əhalisi üç milyona yaxın idi. İnzibati bölgüdə Papa vilayəti 20 əyalətə (leqatlıq və deleqatlıq) bölünürdü.

Papa vilayətinin mütləq hakimi papa idi. Əyalətləri kardinallar və yepiskoplar idarə edirdilər. Polis, ordu, dövlət idarələri və məhkəmələr kilsə xadimlərinin əlində idi. Elm qadağan edilmiş, məktəblər isə keşişlərin sərəncamında idi. 1859-1860-cı illərdə Papa vilayətində xalq üsyanları nəticəsində kilsənin hakimiyyəti devrildi və Papa vilayətinin böyük hissəsi İtaliya krallığı ilə birləşdirildi. Papalığın ixtiyarında Roma və Roma vilayəti qaldı. 1870-ci il sentyabrın 20-də Fransa qoşunlarının Papa vilayətindən getməsindən sonra (Fransa – Prussiya müharibəsinin başlanması ilə əlaqədar), Romaya Qaribaldiyə tabe olan dəstə, sonra da kral qoşunları daxil oldular. Papanın mülkü hakimiyyəti ləğv olundu və Papa vilayətinin torpaqları, Roma mərkəz olmaqla İtaliya krallığının tərkibinə daxil edildi. Papanın sərəncamında Vatikan və Lateran sarayları, ətraf bağlar və b. mülklər Roma daxilində qaldı. Papa IX Piy Papa vilayətini ləğv edənləri lənətlədi və özünü "Vatikan məhbusu" adlandırıb etiraz əlaməti olaraq, ona imtiyazlı və xüsusi hüquqlar verən və 3 mln. 225 min məbləğdə illik təqaüd təmin edən "Təminatlar haqqında qanun"u qəbul etməkdən imtina etdi (1871). Papa dövləti – "Vatikan şəhəri" (b a x: **Vatikan**) kiçik bir ərazidə yenidən 1929-cu ildə Lateran müqavilələri əsasında bərpa olundu.

**PAPALIQ** – Roma papası (*yun.* qappasdan, *lat.* papa – ata, tərbiyəçi, mürəbbi) tərəfindən idarə edilən katolik kilsəsinin dini mərkəzi. Papa – Roma katolik kilsəsinin başçısı və Vatikan dövlətinin mütləq hakimidir. Roma ərazisində yerləşən Vatikanda yaşayır. Kardinallar kollegiyası papanı ömürlük seçir. Katolik kilsəsinin etiqadına görə

Roma papası İsa Məsihin vikarisi (müavini, canişini), "həvarilər knyazı" Pyotrun varisi, ümumdünya katolik kilsəsinin keşişi, Şərq patriarxı, İtaliyanın priması, Roma vilayətinin arxiyepiskopu və mitropoliti olub, dinlə əxlaq normalarında günahsızdır. Tarixən papalıq xristianlığın yayılması prosesində və Qərbi Avropa ölkələrində mərkəzləşmiş katolik kilsə təşkilatının təşkili zamanında formalaşıb. Roma şəhərinin yepiskopları (papaları) bu kilsənin rəhbərliyinə uzunmüddətli mübarizədən sonra gəliblər. Roma imperiyası yepiskoplarının vəziyyəti və böyük sərvətlər onlara fövqəladə iqtisadi və siyasi hakimiyyəti əldə etməyə və bunlarla bərabər papa adını daşıyan başqa yepiskoplar arasında birinciliyi qazanmağa imkan yaratdı. Lakin bu ada monopoliyanı Roma yepiskopları yalnız V əsrdən qazandılar. Roma imperiyasının mərkəzinin 330-cu ildə Konstantinopola keçirilməsi, imperiyanın IV əsrin axırında Şərqi (Bizans) və Qərbi imperiyalara bölünməsi, sonra da V əsrin sonunda Qərbi imperiyanın dağılması, Roma yepiskopunun yüksəlməsinə imkan yaratdı, onun mülkü hakimlərdən müəyyən dərəcədə azad olunmasına səbəb oldu və birinciliyi uğrunda mübarizəsinə kömək etdi. Birinciliyə iddialarını əsaslandırmaq üçün Roma yepiskopları onların guya həvari Pyotrun xələfi olması idi, Pyotra isə İsa peyğəmbər bütün kilsə üzərində rəhbərliyi vəd etmişdi. 756-cı ildə frank kralı Gödək Pip Roma papasının ona göstərdiyi köməyə görə lanqobardlardan aldığı əraziləri papaya bağışladı. Bu hədiyyədən sonra paytaxtı Roma şəhəri olan xüsusi Papa vilayəti əmələ gəldi. Həmin VIII əsrdə papanın mülkü hakimiyyətini əsaslandırmaq üçün Konstantin hədiyyəsi tərtib olunmuşdu, IX əsrin ortalarında araya papaların bütün kilsə üzərində hakimiyyətlərini və papa hakimiyyətinin imperatordan yüksək olmasını təsdiq edən İsidorun yalançı dekretaliyaları çıxarıldı.

Papalıq, mülkü hakimiyyətdən müstəqil olmağa çalışır və papaların mülkü hökmdarlardan üstün olmaq proqramı ilə çıxış edirdi. Bu proqramın fəal yayıcısı papa VII Qriqori idi (1073-1085). O bu proqramı "Papanın diktatı" adlı risaləsində belə bəyan etmişdi (1075): Roma kilsəsi Allah tərəfindən təsis olunub və qüsursuzdur, Roma papası yepiskopları təyin edir və devirir, yeni nizamnamələr elan edir, yeni yeparxiyalar təsis edir, papa bütün hakimiyyətdən yüksəkdir, o, imperatorları devirə bilər, tabelikdə olanları anddan azad edə bilər və onu heç kəs müqəssir saya bilməz. Papa III İnnokenti teokratiya uğrunda fəal mübarizə aparırdı (1198-1216). Papalığın hakimiyyətini Avropanın çox ölkələrində möhkəmlətmək üçün o, feodal çəkişmələrindən və fitnələrdən istifadə edirdi. Papa VIII Bonifasi (1294-1303) və b. da bu istiqamətdə çalışırdı. Lakin papaların teokratiya uğrundakı aparılan mübarizələri nəticəsiz oldu. Papalıq tabe olub güclü dövlətlərdən (Fransa, Almaniya, İspaniya) və İtaliya feodallarından asılı qaldı və bu asılılıq özünü Papaların Avinyon əsarətində göstərdi (1309-1377).

Əsrlər boyu papa taxtı İtaliyanın müxtəlif feodal nəsillərinin arasında gedən mübarizə hədəfi idi və hər nəsil

bu vəzifəyə öz nümayəndəsini seçdirməyə çalışırdı. Vəzifəyə gələn şəxslər öz rəqiblərini küfrdə günahlandıraraq onları zindanlara salıb məhv edirdilər. X əsrin birinci yarısında Romanın zadəgan qadını Marotsi papa taxtına öz oynaş və qohumlarını çıxarır (onun oğlu XI İoann 12 yaşında, nəvəsi XII İoann isə 18 yaşında papa olmuşlar) və istənilməyən adamları öldürtdürürdü. XI əsrin ortalarında papa taxtı uğrunda iki-üç namizəd mübarizə aparır və onların hər biri qohumları tərəfindən papa elan edilirdi. Sonralar kilsə bunların bəzilərini antipapa elan etdi. 1054-cü ildə kilsələr şərq (pravoslav) və qərb (katolik) istiqamətinə bölündükdən sonra, papalıq xristian dünyası üzərində ağalıq etmək istəyini gücləndirib şərq kilsəsini özünə tabe etməyə cəhd atırdı. Buna görə XI əsrin axırından papalığın fəal iştirakı ilə səlib yürüşlərinin təbliği və təşkili başlandı.

**PARKALAR** (*lat.* parera felindən parkae – doğmaq) – Qədim Roma əfsanələrində yunan moyralarına oxşar insan taleyi ilahələri. Ən qədim dövrlərdə romalılar bir parkaya inanırdılar, sonralar parkalar üç oldu.

**PARSİZM** – b a x: **Zərdüştilik.**

**PASXA** (*qədim yəhudicə* pesaxdan *yun.* pasxa – keçmək, etmək) – yəhudi və xristianların bayramı; xristianlıqda əsas bayram hesab edilir.

Ən qədim vaxtlarda maldar yəhudi qəbilələri heyvanların yaz doğuşu vaxtında pasxa bayramını keçirirdilər və bu münasibətlə səhra və otlaqlar ruhlarına quzu qurban kəsirdilər. Oturaq həyatına keçdikdən və əkinçiliyin inkişafından sonra maldarların bayramı yaz gecə-gündüz bərabərliyində başlanan biçin bayramı ilə birləşdi. Yaxve ayininin inkişafı ilə əlaqədar olaraq yəhudi Pasxası kahinlər tərəfindən yəhudilərin Misirdən xuruclarının yadigarı kimi izah olunub, guya Yaxve özü də bu vaxt "öz xalqına" rəhbərlik edirdi. Xristianlıq, bu ənənəni iudaizmdən götürüb pasxa bayramını öz istəklərinə uyğunlaşdırdı. Erkən xristian icmaları Pasxanı İsa Məsihin əzabı, ölümü və yenidən dirilməsi ilə bağlayırdılar. Hesab edilir ki, Məsih həyatında olan bu hadisələr məhz Pasxa dövründə baş verib və buna görə də xristianlar öz bayramını yəhudi Pasxası ilə birlikdə keçirirdilər. Lakin 325-ci ildə Birinci Ümumdünya Kilsə məclisi qərara gəldi ki, xristian pasxası yəhudi pasxasının bitməsindən bir həftə sonra gələn bazar günündə keçirilsin. Bu bazar günü 22 martdan 25 aprelə qədər keçən vaxta düşür və pasxa bayramı bütün bir həftə davam edir.

**PASTOR** (*lat.* hərfən – çoban, otaran) – protestant kilsələrində keşiş.

**PATER** (*lat.* ata) – katolik kilsəsində keşiş.

**PATRİARX** (*yun.* ulu ata, ulu baba) – bəzi xristian kilsələrinin başçılarının dini ünvanı.

**PATRİSTİKA** (*lat.* paterdən – ata) – II-VIII əsrlərdə xristian kilsəsi "ataları"nın işlədikləri kilsə ehkamları, teologiya və xristian fəlsəfəsi əsərlərinin toplusu.

**PATROLOGİYA** (*lat.* pater – ata, loqos – nəzəriyyə) – kilsə "ataları" adlananlara həsr edilən xristian dinşünaslığının bölməsi və həmçinin kilsə rəh-

bərlərinin əsərlərinin toplusu: məs.: J.P. Min tərəfindən tərtib olunmuş və latınca 221 cild və yunanca 162 cilddən ibarət olan "Patrologiya kursus komplatus" (1844-1866), "Korpus skriptorum ekklezistikorum latinorum" (63 cilddə, Vena, 1866-1922) və s.

**PAVEL** – İsanın həvarilərindən biri. Pravoslavlar onu həvari **Pyotr** ilə birlikdə xristian kilsəsinin banisi hesab edirlər (katoliklər bunu təkcə Pyotrun adı ilə bağlayırlar). "Həvarilərin əməlləri"ndə Pavel əvvəlcə xristianları təqib edən riyakar kimi təsvir olunur, sonra isə İsa peyğəmbər şəxsən ona zühur olduğundan o, xaçaçuran mərasimini keçdi (onun öz adı Savl guya elə bu vaxt Pavel adı ilə əvəz olundu). "Əhli-Cədid"də Pavel "bütpərəstlərin həvarisi" adlanır. "Əhdi-Cədid"də ona 14 nəsihət risaləsi isnad edilir. Lakin bunların üslub, dil və əsasən mətnlərin arasında olan fərqlər o qədər böyükdür ki, risalələri bir müəllifin adına yazmaq qeyri-mümkündür. Onların bir hissəsi şəksiz, II əsrdə tərtib olunub, lakin rəsmi kilsə ənənələri təkid edirlər ki, guya Pavel imperator Neronun vaxtında (64 ilin radələrində) əzabla öldürülüb.

**PENATLAR** – Qədim Roma dinində – ailə və onun əmlakını qoruyan ilahilər. Penatların təsviri sönməyən ev ocağının yanında yerləşirdi. Yeni evə köçərkən, ailə penatları özü ilə aparırdı. Dövlətin öz penatları var idi və onların ayinləri Vesta ibadətgahında yerləşirdi.

**PERSEFONA** – yunan əfsanələrində yeraltı mülkün, bitkilərin və münbitliyin ilahəsi. Romada ona Prozerpina adı ilə tapınır və ehtiram edilirdi. Əfsanəyə görə, Persefona ilin bir qismini cəhənnəmdə, öz əri Aid ilə birlikdə, bir qismini də yer üzündə anası Demetra ilə keçirirdi və bu da təbiətin payızda və qışda "ölümü"ndə və yazda, yayda "dirçəlmə"sində müşahidə edilirdi.

**PERUN** – qədim slavyan dinində xüsusən, şərqi slavyanlarda göy gurultusu və ildırımın ilahisi, başqa ilahilərin hökmranı. Yunanların Zevsinə bənzərdir.

**PETRARKA FRANÇESKO** (1304-1374) – İtalyan humanisti, məşhur şair və alim. Uzun müddət Avinyonda yaşayıb, burada dini rütbəyə nail olub, o zaman bu şəhərdə yerləşən papa sarayının həyatı ilə yaxından tanış olmuşdur. Dini görüşlərinə görə, ardıcıl olmamasına baxmayaraq, dinlə, katoliklik ilə əlaqəsini qırmayaraq yeni və humanist nəzəriyyəsini qarşıya qoyurdu. Humanistik idealları və həyata məhəbbəti o, şeirlərində və yazılarında, məs.: "Dünyaya nifrət haqqında" tövbə risaləsində müdafiə edirdi. O, dindarların əxlaqsızlıqlarını, papa idarəsinin pozğunluğunu və tamahkarlığını "Ünvansız məktubları"nda və şeirlərində kəskin tənqid edirdi. Petrarka İntibah mədəniyyətinin banilərindən biri idi.

**PİFİYA** – Apollonun Delfadakı ibadətgahının kahinəsi və buranın kahinləri tərəfindən tərtib edilən və Delfa rəmmalı adından "gələcəyi xəbər verən" qadın. Qədimdə pifiya gənc qız olurdu, sonradan bu vəzifəni 50 yaşı keçmiş qadınlar ifa edirdi. Bu vəzifəyə ən böyük, Sparta və Afina kimi şəhərlərin zadəgan ailələrinin qadın nümayəndələri seçilirdi.

**PİR** (*fars.*) – əslində yaşlı, qoca mənasında olub, ərəbcədəki şeyx sözünün

müqabilidir. Başqa sözlər ilə birlikdə, piri-dihqan ("köhnə şərab"), piri Sərəndib (Adəm) kimi, bir çox tərkiblərdə kinayə yolu ilə başqa mənalar daşıyan yeni sözlər yaradılmışdır. Bəzən də pir adı ilə birlikdə, orada yaşayan məşhur şəxsə ünvan olmuşdur (piri Kənan – Yaqub, piri Heri – Abdullahi Ənsari).

Şəriətdə, ümumiyyətlə, 40 və ya 50-dək kimsələr pir, yəni yaşlı kimi qəbul edilir.

Sufilikdə pir, Allah yolunda gedən, qorxulu və təhlükəli yerləri bilib, müridə doğru yolu və faydalanacağı və ya zərər görəcəyi şeyləri göstərən kimsədir. Bundan dolayı piri-mürşid də deyilir. Sufilərə görə, pirlər hər baxımdan tərtəmiz, Allahın sevimli bəndələri olub, Allahı bəndələrinə, bəndələri də Allaha sevdirdikləri kimi, Peyğəmbərin naibi və qövmin nəbisi kimi qəbul edilir. Özlərinə bir təriqət əlavə edənlərə isə, piri-təriqət ünvanı verilir. Bir para təriqətlərdə (xəlvəti), təriqət qurucusu piri-əvvəl, ondan sonra gələn və təriqətin inkişafında eyni dərəcədə əhəmiyyətli olan şeyx də piri-sani adlanır. Sufilər arasında dörd pir (çahar pir) təbiri ilə isə, Əlinin özlərinə xilafət xirqəsi verdiyi Həsən, Hüseyn, Kumeyl ibn Ziyad və Həsən Bəsri qeyd edilir.

Axilər təşkilatında isə, əsnafların hər birini himayə edən vəliyə pir deyilir.

**PİŞNAMAZZADƏ HACI AXUND FƏRƏCULLA ZEYNALABİDİN OĞLU** (1870-1952) – Nuxa şəhərində ruhani ailəsində anadan olmuşdur. Atası Zeynalabidin Molla Məhəmməd oğlu Nuxaya İranın Xoy şəhərindən gəlmişdi. 15 yaşında qardaşı Fərəculla onu ruhani təhsili almaq üçün Tehrana göndərmişdi. Tehranda olan zaman Sarab xanı Həsən xanın qızı Rübabə xanımla həyat qurmuşdur. Bir ildən sonra Qum şəhərinə getmiş və on il orada müqəddəs məqbərənin nəzdində çalışmışdır. 1896-cı ildə öz vətəninə qayıtmış, axundluqla bərabər maarif işləri ilə də məşğul idi. 1905-ci ildə qız məktəbinin açılmasını təşkil etmişdir.

1943-1944-cü ildə məscidlərin açılmasında böyük rolu olmuşdur. Bu illərdə Məkkə ziyarətinə getmiş və Qafqaz Müsəlmanları Ruhani İdarəsinin üzvü olmuşdur. Bakı şəhərində vəfat etmiş və burada da dəfn edilmişdir.

**PLUTON** – Roma əfsanələrində – yeraltı dünyanın, kölgələr çarlığının (ölənlərin ruhlarının) ilahisidir. Yunan mifologiyasındakı Aid ilə eynidir.

**PONTİFİKAT** – Roma papasının kilsə hakimiyyəti, onun hakimlik dövrü. Papa rütbələrinin birinin adı pontifeks maksimusdur (böyük pontifik).

**POSEYDON** – yunan əfsanələrində dəniz ünsürlərinin ilahisi. Kronosun və Reyanın oğlu, Zevsin və Aidin qardaşı hesab olunurdu. Atın yaradılmasını onunla bağlayırlar. Əvvəllər, Poseydon, yerin ilahisi hesab olunurdu və buradan da onun daimi adı "Yeri əsdirən" idi. Qədim yunanların təsəvvürlərinə görə, Poseydon öz arvadı Amfitrita ilə birlikdə dənizin dərinliyində yaşayırdı və bütün dəniz ilahiləri ona tabe idilər. Kornif boynunda [İstma] üç ildən bir onun adı ilə İstma oyunları keçirilirdi. Poseydon Zevsə oxşar şəkildə, lakin daha qaşqabaqlı, saçı tündrəngli, əlində qayaları doğrayan və tufan qaldıran üçbaşlı əsa

ilə, tritonlar, delfinlər və fantastik dəniz atları – hippokamlar və başqa dəniz canlıları ilə müşayiət edilən kimi təsvir olunurdu.

**PRAVOSLAVLIQ** – xristianlığın şərq qolu, katoliklik və protestantlıqla bərabər onun üç istiqamətindən biridir. Pravoslavlıq 395-ci ildən, Roma imperiyasının parçalanmasından sonra, Şərqi (Bizans) imperiyasının rəsmi dini kimi ayrıldı. Xristianlığın xalis müstəqil qanadı kimi pravoslavlıq 1054-cü ildən, yəni kilsələrin bölünmə vaxtından fəaliyyətdədir. Qərbi kilsənin adı Roma katolik, Şərqi kilsənin adı isə "pravoslav", yunan-katolikdir. "Kafolik" ("katolik"), yəni ümumdünya adını daşımaqda hər iki kilsənin öz nəzəriyyəsini ümumbəşər dininə çevirmək niyyəti görünür. "Pravoslav", yəni "düzgün məzhəb", "Allahı düzgün tərənnüm etmək" istilahında bütün kilsələrə xas olan və başqa dinlərdə olmayan "həqiqilik" iddiası var.

Bizans imperiyasının süqutundan sonra (1453) onun ərazisində və qonşu torpaqlarda müstəqil (avtokefal) pravoslav, öz hökmdarlarına tabe olan kilsələr əmələ gəldi. Buna görə pravoslavlığın katoliklikdə Vatikan kimi vahid ümumdünya mərkəzi yoxdur. Roma papasından fərqli olaraq sabiq imperiyanın paytaxtında yerləşən Konstantinopol patriarxı, indi də ümumdünya ünvanı daşısa da, başqa pravoslav kilsələrin üzərində heç bir hakimiyyəti yoxdur və ənənəyə görə başqa kilsə başçılarının arasında yalnız birinci hesab olunur.

Müasir dövrdə 14 avtokefal pravoslav kilsə var və ənənəyə görə bu kilsələr arasında "ehtiramlı rütbəlik" prinsipinə riayət edilir. Kilsələr arasında ardıcıllıq belədir: Konstantinopol, İsgəndəriyyə, Antakiya, Qüds, rus, gürcü, serb, rumın, bolqar, Kipr, Ellada, Alban, Polşa, Çex və Slovak kilsələri. Bunların arasında ən irisi rus pravoslav kilsəsidir.

Pravoslav dini nəzəriyyəsinin əsasını müqəddəs kitablar (Bibliyanın Əhdi-Ətiqi və Əhdi-Cədidi), "müqəddəs" rəvayətlər (Ümumdünya və yerli kilsə məclislərinin qərarları), "kilsə atalarının" əsərləri və s. təşkil edir. Birinci (Nikeya, 325 il) və ikinci (Konstantinopol, 381 il) Ümumdünya kilsə məclislərində "din rəmzi" adlanan qərar qəbul edilmişdir ki, bu qərar pravoslavlıqda da dəyişməmiş xristian dini nəzəriyyəsinin mahiyyətini izah edir. Həmin "rəmzdə" Üç Uğnumun – Ata Allah (Dünyanın xaliqi), Oğul Allah (insanların xilaskarı İsa Məsih) və Müqəddəs Ruh Allah (pravoslavlıqda – Ata Allahdan gələn, katoliklərdə – Atadan və Oğuldan gələn) varlığı iddia olunur. "Dinin rəmzi" o dünyadakı həyata inanmağı tələb edir.

**PRELAT** (*lat.* hərfən – irəliyə çəkilmiş) – katolik və protestant kilsələrində yüksək rütbəli dini xadim.

**PRESVİTER** (*yun.* hərfən – ağsaqqal) – erkən xristian icmalarında onların işlərini idarə edən şəxs, işlər müdiri. Xristian kilsəsinin təşkilindən sonra keşiş.

**PRIQUNLAR** (hoppananlar) – XIX əsrin birinci yarısında İrəvan quberniyasının Nikitin kəndində molokan kəndli Maksim Rudomyotkin tərəfindən təşkil edilmiş xristian təriqəti. O, ictimai quruluşun əleyhinə çıxış edərək "xilas olunanlar" üçün İsa Məsihin minillik

çarlığının yaxınlaşması və bütün bəşəriyyətin məhv olunmasını vəd edirdi. "Xilas olma" isə "şöhrət çarının", "Günəş çarının" rəhbərliyi altında olmalıdır. Rudomyotkin özü çar elan edilmişdi. Təriqətin nəzəriyyəsinə görə, seçkin adamların bədəninə "müqəddəs ruh" daxil olub, onlara daxili vəhy və xilasın bərəkətini verir. Buna görə prıqunlar məclislərində özlərini "ruh hamamı" vasitəsilə vəcdə gətirirdilər: hoppanıb həyəcanla əl-qol atır, bədənlərini titrədirlər. Prıqunların bəziləri Adəmlə Həvvaya isnad edərək çılpaq hoppanırdılar. Bu təriqətin fəaliyyəti əsasən Qafqazla məhdudlaşır.

**PRİMAS** (*lat.* primus – birinci, qabaqcıl, ən şərəfli) – katolik və anqlikan kilsələrində ölkədə olan yepiskopların başçısı, Arl və Lionun arxiyepiskopu, Alsanın, Maynsın arxiyepiskopu Almaniyanın, Toledonun arxiyepiskopu İspaniyanın, Pizanın və Solernonun arxiyepiskopu, İtaliyanın, Kenterbern arxiyepiskopu Böyük Britaniya anqlikan kilsəsinin primaslarıdır. Roma papasının ünvanına İtaliyanın primaslığı da daxildir.

**PROMETEY** – yunanların əfsanəvi qəhrəmanı, qabağı görən (titan), bəşəriyyətin müdafiəçisi, hamisi. Bəzən onu insanların xaliqi kimi də hesab edirdilər. Əfsanələrin birində o, ilahilərlə insanların arasında qurbanvermə məsələsi ilə bağlı mübahisələrdə insanların qayğısına qalaraq Zevsi aldadır. Zevs də ilahilərə çatan qurbanlıq heyvanlarının ətini insanlara saxlayır, sümüklərini isə ilahilərə verir. Qəzəbə gələn Zevs odu insanların əlindən alır, lakin Prometey odu Olimp dağından oğurlayıb insanlara qaytarır. O, insanlara çox şeylər öyrətdi, əkinçilik və sənətkarlıqla tanış etdi. Zevs Kefestə Prometeyi zəncirlə qayaya bağlatdırdı, sonra üstünə dəmir dırnaqlı və dəmir dimdikli qartal göndərdi ki, o hər gün onun döşünü parçalayıb ciyərini didsin. Ciyərin özü gecə ikən yenidən əmələ gəlirdi. Prometeyi Herakl azad etdi.

**PROTESTANTLIQ** (*lat.* protestant – etiraz edən, razı olmayan) – pravoslavlıqdan və katolikdən sonra xristianlığın üçüncü növü. Protestantlıq Reformasiya dövründə (XVI əsr) əmələ gəlib. İstilah, Almaniyada hökm sürən "hakimiyyət kimindirsə, din də onundur" prinsipinin ləğv edilməsi haqqında 1529-cu ildə Şpeyer reyxstaqının qərarının əleyhinə çıxış edən alman lüteranlarının etirazları ilə bağlıdır.

Bütün protestant din və kilsələri mənşə və dini nəzəriyyələrində bir sıra mühüm xüsusiyyətləri ilə bir-birinə bağlıdır. Protestantlığın Reformasiya dövründə əmələ gəlmiş ibtidai formalarından [lüteranlıq, anqlikanlıq (b a x: **Anqlikan kilsəsi**), svinqlikanlıq, kalvinlik, anabaptizm, unitarlıq və onun şöbəsi olan sosianlıq] yeni formalar təşkil olundu: anabaptizm mennonitlər dininə çevrildi, ibtidai kalvinizm, özündə svinqlikanlığı əridib reformatlığa (b a x: **reformatlar**), presviterianlığa (b a x: **presviterianlar**) və konqreqatlığa parçalandı. Mennonitlər və konqreqatlar əsasında baptist və kvaker dinləri əmələ gəldi. XVII əsrdən sonra protestantlığın yeni, irticaçı formaları yarandı (XVIII əsrdən metodistlər, XIX əsrdən – "Xilas ordusu", adventistlər, iyeqovistlər, XX əsrdən – əllincilər).

**PROZERPİNA** – b a x: **Persefona.**

**PSALOM** (*yun.* psalmos – mahnı) – Allahı tərənnüm edən dini mahnı, himn. Psalomların 150-yə qədəri Bibliyaya ayrı kitab kimi daxildir.

**PTA, PTAX** – Qədim Misir dinində e.ə. III minillikdə Qədim çarlıq dövründə Misir paytaxtı Memfisdə tərənnüm edilən bütün varlığın xaliqi və ilahilərin hökmdarı. Ona heykəltəraşların və dəmirçilərin hamisi kimi də sitayiş edirdilər. Yunanlar onu Gefestlə eyniləşdirirdilər. Ptanın arvadı ilahə Soxmet, oğlu isə Nefertum idi və bunlar Memfis üçlüyünü təşkil edirdilər.

Pta, başı qırxılmış, matəm örtüyündə və əli dəmir əsalı təsvir edilirdi. Ptanın müqəddəs heyvanı Apis adlı öküz idi.

**PURİTANLAR** (*lat.* purus, *ing.* puritans – təmizlik) – XVI-XVII əsrlərdə İngiltərədə kilsə islahatlarının təkmilləşdirilməsi və siyasi dəyişikliklər uğrunda çıxış edən kalvinistlər. Onlar anqlikanlıqda qalan katolik ünsürlərindən kilsəni təmizləməyi, kilsədə rütbələrin (yepiskopluğun) ləğvini, kilsə torpaqlarının müsadirəsini, kilsənin dövlətdən ayrılmasını, müqəddəsləri, orucu və bir çox kilsə bayramlarının ləğvini tələb edirdilər. Puritanlar anqlikan kilsəsi və kral mütləqiyyəti tərəfindən təqib olunurdular. XVI əsrin sonunda – XVII əsrin əvvəlində puritanlar iki cərəyana bölündülər: mötədillərə (presviterianlar) və radikallara (konqreqasionalistlər, independentlər).

**PYOTR**, Peter (xristianlığı qəbul etməkdən qabaq – Simon) – 12 həvari arasında birincisidir. İncilə görə, cənnətin açarları Pyotra veriləcək. Lakin elə oradaca deyilir ki, Pyotr üç dəfə öz müəllimindən üz döndərib, "Qalatiyalılara məktub"da isə (II, 11-14) həvari Pavel tərəfindən ifşa edilən riyakar kimi təsvir olunur. Kilsə əfsanəsində Pyotr Romanın birinci yepiskopu sayılır.

# R

**RA** – Qədim Misir dinində Günəş ilahisi. O, göydə gəmidə gəzir, gecələr gəmi ölülər dünyasına enir, səhər isə yenə üfüqdə görünüb, yolunu davam edir. Ra ayini e.ə. III minilliyin əvvəlində meydana gəlmiş, həmin vaxtdan Misir dinində hakim mövqeyə malik olmuşdur. İlahilər hökmranına çevrilmiş Ra firon şəklində təsvir olunurdu. E.ə. II minillikdə, Fivlərin yüksəlməsi ilə əlaqədar Ra haqqında olan təsəvvürlər, bu şəhərin ilahisi Amon haqqında təsəvvürlə birləşdi (Amon-Ra). Ra sitayiş mərkəzi Aşağı Misirdə, Heliopolda idi.

**RAFİZİLƏR**, Ər-Rafizə və ya ər-Ravafiz – şiələrə verilən adlardan biridir. Əl-Əşəri (Məqalət əl-islamiyin, İstanbul, 1928, s. 10) bu adı Əbu Bəkr və Ömərin xəlifəliyinin qanuniliyini qəbul etməyən bütün şiələri (rafaza) dolayı və onları ğulat və zeydilər ilə birlikdə şiələrin üç firqəsindən biri kimi göstərir. Ona görə ər-rafizə imamiyyənin başqa bir adıdır (s. 29).

**RAHİL** – Kitabi Müqəddəsdəki Raxel, Yaqub peyğəmbərin arvadı, Yusif və Bünyaminin anası. Adı Quranda çəkilir.

Rahilin Yusif qissəsində çox mühüm yeri vardır. Yusif gözəlliyinə görə Rahilə borcludur. Bunlar bütün dünya gözəlliyinin yarısına, başqalarına görə, üçdə birinə və yaxud da haqqadanın (Kidduşin, 49 b.) cədvəlinə görə, onda doqquzuna sahib idilər. Yaqub Labandan ayrılanda, səyahət üçün lazım olan puldan məhrum qalır. Rahilin təşviqi ilə Yusif Labanın bütlərini oğurlayır. Qardaşları tərəfindən satılmış olan Yusif, Rahilin qəbri yanından keçərkən, özünü dəvədən aşağı atır və ağlayıb: “Ey ana, oğluna bax! Məni soydular, quyuya atdılar, daşladılar və sonra əsir kimi satıldım!” – deyir. Bu arada: “Allaha güvən!” – deyə bir səs gəlir. İranlı yəhudi şairi Şahin (XIV əsr) bu mövzunu Firdovsiyə isnad edilən “Yusif və Züleyxa” kitabından götürüb öz Təkvin kitabına daxil etmişdir.

**RAMA** – “Ramayana” və “Mahabharata”nın əfsanəvi qəhrəmanı, induizmdə Vişnunun 7-ci avatarası, çar Daşarathinin oğlu. İnduistlər Ramanı dini vəsiyyətlərə və əhdə sədaqətin, qəhrəmanlığın və namusun timsalı hesab edirlər.

**“RAMAYANA”** – qədim hind epik poeması, “Mahabharata” ilə eyni vaxtda və ya bir az qabaq yazılıb. Əfsanəyə görə onun yaranması Valmikin adı ilə bağlıdır (e.ə. III-II əsrlər). “Ramayana” əfsanəvi şahzadə Ramanın həyatı, sürgünü, sərgüzəştləri və müharibələrindən bəhs edir. “Mahabharata” kimi “Ramayana” da son veda dövrünün tarixini və Hindistanın dinini öyrənmək üçün əhəmiyyətli mənbədir.

**RAMAZAN** – islam təqvimində doqquzuncu ayın adı. Ərəbcə olan bu söz, təkbaşına qəməri təqvimində doqquzuncu ay mənasında işlənməz. Bu mənada daim şəhr (“ay”) sözünə izafə

edilib, şəhr Ramazan ("Ramazan ayı") şəklində işlədilir. Peyğəmbərin bütün hədislərində də belə işlənir. Bu ayın əsil adının natiq olduğu, sonralar isti mövsümə təsadüf etdiyi zamanda, bu ad dəyişdirilərək, ona Ramazan ayı deyildiyi rəvayət edilir.

Ramazan Quranda olan yeganə ay adıdır və burada Ramazan orucunun fərz olması bəhs mövzusu olan ayədə (əl-Bəqərə, 185) deyilir: "Quran Ramazan ayında nazil edilmişdir. Ramazan ayına yetişən şəxslər bu ayı oruc tutmalıdırlar".

Biruni Ramazan ayındakı xatirə tutulacaq günlərdən başqa günlər arasında, bunları da qeyd edir: 6 Ramazan – Kərbəla şəhidi Hüseyn ibn Əlinin anadan olan günü, 10 Ramazan – Xədicənin ölüm günü, 17 Ramazan – Bədr döyüşü günü, 19 Ramazan – Məkkənin fəthi günü, 21 Ramazan – Həzrət Əlinin və Əli ər-Rizanın ölüm günü, 22 Ramazan – Həzrət Əlinin anadan olduğu gün və 26-27 Ramazan gecəsi – leylət əl-qədr.

Qədr gecəsi Quranda (əl-Qədr surəsi) bu gecə "min aydan daha xeyirlidir" şəklində vəsf edilmişdir. Allahın əmri ilə hər vəzifəyə səlahiyyətli (ba-izn Allah min kull əmr) mələklər bu gecədə yer üzünə enirlər və bu gecədə sübh vaxtına qədər hər yerdə asayiş hakimdir. Vəhy məhz bu gecə nazil olmuşdur. Quranın əd-Duxan surəsinin üçüncü ayəsində "mübarək" gecə ilə açıqca bu gecə qəsd edilir. Bundan başqa 27 Ramazan tarixi mütləq bir tərzdə təsbit edilməyib, bunun üçün mömin adamlar Ramazanın son 10 günündəki tək günlərin gecələrini ibadətdə keçirirlər, çünki Leylə əl-Qədr hər halda bu gecələrin biridir.

**RAMMOHAN RAY** (1772-1833) – Hindistanın görkəmli ictimai xadimi, yazıçı, induizmin islahatçısı. Mülkədar-brahman ailəsindəndir. 1812-ci ilədək Ost-Hind şirkətinin vergi idarəsində qulluq edirdi. 1814-cü ildən Kəlkətə şəhərinə köçüb maarifpərvərlik və dini-islahatçılıqla məşğul olub. O, "Brahma samac" təşkilatını yaradaraq, induizmin ən barbar orta əsr adətlərini kəskin tənqid edib, onu müasirləşdirməyə çalışırdı.

**RAVVİN** (*qədim yəhudicə* rabbin sözündən, hərfən ağa, müəllim) – yəhudi keşişi, "qanunöyrədən" və yəhudi icmasının hakimi. Ravvinlər XI əsrdə İspaniyada ortaya çıxıblar. Qərbi Avropada ravvinizmin "atası", sinaqoqadan qovulma məsələsini (herem) qaldıran Kerşon idi. Orta əsrlərdə İspaniyada, Fransada, Almaniyada və Polşada baş ravvin krallar, bəzən də katolik yepiskoplar tərəfindən təyin edilirdi.

**REFORMASİYA** (*lat.* reformatio – dəyişdirmə, düzəltmə) – XVI əsrin birinci yarısında Avropanın bir sıra ölkələrində feodalizm əleyhinə yönəlmiş geniş antikatolik hərəkatı. Reformasiya protestantizmin yaranmasına səbəb olmuşdur. Hərəkat Almaniyada başlanıb bir sıra Avropa ölkələrinə yayıldı və İngiltərədə, Şotlandiyada, İsveçrədə, qismən Almaniyada, Çexiyada və Macarıstanda protestant kilsələrinin papalıqdan ayrılmasına səbəb oldu. Reformasiya bu ölkələrdə kilsə xərclərini azaltdı və mərasimləri sadələşdirdi, katolik kilsəsinin mənəvi diktaturasına son qoydu. Reformasiyanın qalib gəldiyi ölkələrdə kilsənin dövlətdən asılılığı artdı. Elmin və dünyəvi mədəniyyətin inkişafına yol açıldı.

Reformasiyanın gedişatı ayrı-ayrı ölkələrdə müxtəlif idi. Almaniyada hakimiyyət knyazların əlində olduğu üçün alman lüteranlığı özündə katolikliyin bəzi cəhətlərini saxlaya bildi. Anqlikan kilsəsində bu cəhətlər daha üstün oldu. Ən radikal xüsusiyyət özünü İsveçrədə göstərdi (b a x: **Kalvinizm**).

**REFORMATLAR** – kontinental Avropa mənşəli kalvinist kilsələrinin tərəfdarları (Şotlandiya-ingilis mənşəli kalvinist kilsələrinin tərəfdarları presviterian və konqreqasionalist adlanırlar). Reformat kilsələri İsveçrədə, Hollandiyada, Macarıstanda, Çexiyada, ABŞ-da və bəzi başqa ölkələrdə fəaliyyət göstərir.

**RƏCƏB** – Müsəlman təqvimində yeddinci ayın adı. Cahiliyyə dövründə bu ay yaz mövsümündə başlanırdı. Rəcəb müqəddəs (Haram) ay idi. İslamiyyətdə Rəcəb ayı Peyğəmbərin meracına görə, mühüm əhəmiyyətə malikdir. Merac, son dövrdə bu ayın 26-dan 27-nə keçən gecədə olmuşdur. Buna görə, bu gecəyə Leylət əl-Merac deyilir.

**RƏHMANİYYƏ,** Rahmaniyya – Əlcəzairdə bir təriqət olub adını h. 1208-ci ildə (1794) ölən Əbu Kəbrəyn Məhəmməd ibn Əbdürrəhman əl-Fuştuli əl-Curcuri əl-Əzhəridən almışdır. Bu təriqət **xəlvətiyyənin** bir qoludur və rəvayətə görə, bunu bir zaman Mustafa əl-Bəkri əş-Şaminin adına bağlayıb Bəkriyyə də deyirdilər. Tunisdə (Neftada), Mustafa ibn Məhəmməd ibn Əzzuzun adı ilə bağlı bu təriqətə **Əzzuziyyə** deyilir.

**RƏSUL,** Rasul (*ər.* cəmirusul) – göndərilən, elçi, peyğəmbər. Təbir ərəb ədəbiyyatında dinlə əlaqəsi olmayan elçi mənasındadır.

Qurana görə, rəsul ilə xalqı (ümmə) arasında sıx münasibət vardır: Allah hər ümməyə yalnız bir peyğəmbər göndərir (Quran, Yunus, 47; ən-Nəhl, 36; b a x: **əl-Muminun,** 44; **əl-Mumin,** 5). Bunlar Allahın qiyamət günündə hər ümmədən alacağı şahidi zikr edən bəyanlara müqabildir.

Peyğəmbər Allahın bundan əvvəl heç bir peyğəmbəri göndərmədiyi bir xalqa göndərilmiş idi (əl-Qəsəs, 46; əs-Səcdə, 3; Səba, 44). Qurana görə, rəsulluq mövqeyi verilmiş başqa şəxsiyyətlər Nuh, Lut, İsmail, Musa, Şüeyb, Hud, Saleh və İsadır. Peyğəmbərlərin sayı daha çoxdur. Rəsulların əksəriyyəti ilə Kitabi-Müqəddəsdə adı çəkilən və ya bununla bağlı göstərilən İbrahim, İshaq, Yaqub, Harun, Davud, Süleyman, Əyyub, Zün-Nun kimi şəxsiyyətlər nəbilər zümrəsinə daxildir. Peyğəmbərə Quranda bəzən nəbi deyilir. Göründüyünə görə, nəbilər, rəsullar kimi, ümmənin rəisi olmadan xalqlarına öyüd verən və nazir olaraq göndərilənlərdir. Xristianlığa dair əsərlərdə rəsul ilə nəbi arasında fərqlər olduğu göstərilir: rəsul eyni zamanda peyğəmbərdir (nəbi), lakin bütün peyğəmbərlər heç də rəsul deyildir. Bu aydın ifadə edilməmişdir.

**ROMA** – qədim romalıların inamlarına görə, Roma şəhərinin ilahəsi, onun müdafiəçisi və hamisi. Əli nizəli, qalxanlı və dəbilqəli, bəzən də taclı təsvir olunurdu.

**ROŞ-HAŞANA** – yəhudilərin yeni il bayramı. Bibliyada onun adı "Sur səsinin günü"dür (Ərqam, XXIX, 1), çünki əvvəllər bu bayram, guya bu surların səsləri ilə şər ruhların Ayın ətrafından

qovulduğu üçün təntənəli keçirilirdi. Babil əsarətindən sonra Roş-Haşana babillərdən qalmış "Səmavi məhkəmə" günü ilə birləşdi.

**RUDRA** (*sanskritcə* hərfən – uğuldayan, guruldayan) – qədim hind dinində ilahilərdən biri. Ola bilsin Rudra Hindistana arilərin basqın etmələrindən, Veda dövründən qabaq Hind çayının sahillərində yaşayan yerli əhalinin baş ilahisi idi. Rudra göy gurultusu, ildırım, tufan, sənətkarlar hamisi, ovçular, sonralar isə maldarlar ilahisi hesab olunurdu. Veda dinində Rudra ikinci dərəcəli ilahiyə döndü. Brahmanizmin yayılmasından sonra Rudranın dində rolu artdı. Onun adına Şiva, yəni meyil göstərən ləqəbi verildi.

**RUH** – fəlsəfi mənada təbiətə və maddəyə qarşı qoyulan şüura oxşar məfhumdur: tarixi-dini baxımdan qeyri-təbii vücud, bizə məlum olan bütün dinlərdə inamın əsas obyektlərindən biridir. Ruhlara inam hələ ibtidai cəmiyyətdə meydana gəlmişdir (b a x: **Animizm**) və sonralar bütün dinlərin mühüm elementini təşkil etmişdir.

**RUQAYYƏ** (604-624) – Peyğəmbərin qızı, anası Xədicə bint Hüveyliddir. Xədicə, Peyğəmbərdən qabaq, əvvəlcə Əbu Hala ibn Zurara ət-Təmimi, sonra da Atiq ibn Ayiz əl-Məhzumiyə ərə getmiş, birincidən Hala adlı bir oğlan, ikincidən Hind adlı qız doğmuşdur. Peyğəmbərə ərə getdikdən sonra (596-cı ilə yaxın), dörd qız və bir neçə oğlan doğub. İlk islam müəllifləri bu qızların doğulma sırası xüsusunda əksəriyyəti ixtilaf halındadırlar. Bunun səbəbi ərəblərdə, xüsusən cahiliyyə dövründə qız övlada çox əhəmiyyət verilməməsindən irəli gəlir. Bəzi tarixçilər Ruqayyənin, böyük qız Zeynəbdən sonra doğulduğunu, bəziləri onun dörd qızdan ən kiçiyi olduğunu qeyd edirlər.

Ümumiyyətlə, qəbul edildiyinə görə, Peyğəmbərin qızlarının sırası belədir: Zeynəb, Ruqayyə, Ümm Gülsüm, Əminə və Fatimə. Bəzi tarix kitablarında Ruqayyənin atası 33 yaşında ikən, yəni 604-cü ildə doğulduğunu qeyd edirlər. Çox kiçik yaşda olan oğlan və qız uşaqlarının valideynləri tərəfindən nişanlanması adətinin cahiliyyə ərəblərində də olmasına görə, Ruqayyə Peyğəmbərin əmisi Əbdüluzza (Əbu Ləhəb) ibn Əbdülmüttəlibin oğlu Utba ilə nişanlanmışdı.

Daha sonra Əbu Ləhəb islamiyyət və Peyğəmbər əleyhinə davranışına görə, Quranın 111-ci (Əbu Ləhəb) surəsində lənət edildikdə, hələ evlənməmiş (lam yakun daxala biha) oğlunun nişanı pozuldu.

Ruqayyə bundan sonra Osman ibn Əffana ərə getmiş və 615-ci ildə onunla Həbəşistana köçəndə, yolda və ya Həbəşistanda bir uşaq itirmişdir. Həbəşistanda bir neçə ay qaldıqdan sonra Məkkəyə qayıtdılar və 622-ci ildə məkkəli müsəlmanların Mədinəyə hicrət etdiklərinə görə, Ruqayyə ilə Osman da oraya getdilər. Hicrətin ikinci ilində (624) Peyğəmbər Bədr döyüşünə gedən vaxtı Ruqayyə xəstələndi və döyüşün axırına yaxın vəfat etdi. Bu nikahdan olan Abdullah adlı oğlu, iki və ya altı yaşında ikən ölmüşdür.

# S

**SAADİYA QAON**, Saadiya ben İosif (892-942) – yəhudi ilahiyyatçısı, idealist filosof. Misirdə Fəyyumda anadan olub. Əsas kitabı olan "İnam və bilik"də (933) o, azadfikirli Xivi Qabalki ilə mübahisəyə girib, müqəddəs kitabların ilahi ruhluğunu müdafiə edirdi. O güman edirdi ki, əgər fəlsəfəni ilahiyyata tabe etmək olarsa, bu, insanı ateizmdən uzaqlaşdıra bilər. İtaəti və təvazökarlığı təbliğ edərək öyrədirdi ki, insan üçün əsas olan bu dünya yox, axirət dünyasıdır.

**SABİNLƏR**, əs-Sabiə – iki bir-birindən ayrı dini firqələrin adı: 1) Mandeilər və ya subbalər – orta əsr əl-Cəzirənin Yəhya yəhudi-xristian firqəsi; 2) Xarran sabinləri – uzun zaman islam hakimiyyəti altında yaşamış müşriklər firqəsi.

**SAD** – ərəb əlifbasının 14-cü hərfi, say dəyəri 90-dır. Eyni zamanda Sad Quranın Məkkədə nazil olan və 88 ayədən ibarət 38-ci surəsinin adıdır. Bu surəyə ayrıca Davud surəsi adı da verilir. Surədə Peyğəmbərin qarşılaşdığı müxalifətdən, həmçinin daha qabaqcadan göndərilən peyğəmbərlərdən söhbət açılır. Daha sonra bu dövrdə hökmdar olan Davud və Süleymana qarşı düşmənlərinin mübarizəsi, Əyyub peyğəmbərin başına gətirilənlər xatırlanaraq, bütün bu peyğəmbərlərin Allahın köməyi ilə müzəffər olduqları, onlara iman gətirməyənlərin düşdükləri əzablardan bəhs olunur. Surədə bildirilir ki, Peyğəmbərin qarşılaşdığı çətinliklər bir gün aradan qalxacaq.

**SADUKEYLƏR** – e.ə. II əsrin ortalarından b.e. 70-ci ilinə qədər mövcud olan qədim yəhudi dini-siyasi təriqəti. Adını Yerusəlimdəki ibadətgahın birinci keşişlər sülaləsinin banisi Sadokadan götürüb. Təriqətin tərkibinə bütün hakimiyyəti əllərində saxlayan və İudeyanın ən varlı quldarlarının mənafeyini qoruyan keşişlər, zadəganlar daxil idi. Sadukeylər yalnız Beş kitabın (Tövratın) mətnini müqəddəs hesab edir, ruhun ölməzliyini və ölümdən sonrakı cəzaları, ölümdən sonra dirilməyi və Məsihanın gələcək çarlığını inkar və rədd edirdilər. Sadukeylərlə mübarizədə fariseylər dini-siyasi təriqəti meydana gəldi. Sadukeylərlə fariseylər arasında cərəyan edən altıillik mübahisə e.ə. 63-cü ildə Pompeyin Yerusəlimə müdaxiləsini və İudeyanın Roma vilayətinə çevrilməsini asanlaşdırdı.

**SAKYA-MUNİ**, Şakya-Muni (*sanskritcə* Şakya qəbiləsindən müdrik adam) – Buddanın yayılmış adlarından biri.

**SALAT** (*ər.* ibadət) – b a x: **Namaz.**

**SALEH**, Salih – ərəb Səmud qövminə göndərilmiş peyğəmbər. Təhlükəni xəbər verən və adətən, Peyğəmbərə oxşar kimi təsvir edilir. Qövmini islamı qəbul etməyə və yalnız Allaha tapınmağa dəvət edib (əl-Əraf, 73; Hud, 61; əş-Şüəra, 142), özlərinə Allahdan gördükləri lütfləri göstərir (əl-Əraf, 74; əz-Zariət, 43) və onlardan heç bir əvəz istəməməklə fəxr edir (əş-Şüəra, 145). Lakin onlar Salehi qəbahətlə qovaraq,

sehrbaz olmaqda ittiham edirlər (əş-Şüəra, 135); ona vəhy gəlməsinə şübhə edir, onu özləri kimi insan sayırlar (əl-Qəmər, 24); atalarının dinlərini tərk etmək istəmirlər (Hud, 62); qiyamət və haqq-hesab günü olacağı düşüncəsini rədd edirlər (əl-Həşr, 4). Hərəkət tərzi xalq arasında ayrılma yaradır (ən-Nəml, 45); yalnız zəiflər ona inanırlar; lakin qüdrət sahibləri onu ələ salırlar (əl-Əraf, 75). Qüdrət sahibləri, ona moizələrinə zidd olmamışdan qabaq ümid bağlamışlar. Allah bu vaxt Səmud qövminə bir dişi dəvə göndərir (əl-Əraf, 59) və Saleh qövmindən onun sərbəst otlamasının təmini və sularından ona su verilməsi rica edilir (əl-Əraf, 73; əş-Şüəra, 155; əl-Qəmər, 28). Lakin heyvanı tuturlar və onu qəbilədəki dinsizlərdən birinə (əş-Şəms, 12; əl-Qəmər, 29) öldürtdürürlər (əl-Əraf, 77; Hud, 65). Sonra istehza ilə Salehi onları təhdid edən cəzanı başlarına gətirməyə dəvət edirlər (əl-Əraf, 77). Saleh onlara üç gün evlərində qalmalarını əmr edir (Hud, 65). Bu zaman şiddətli fırtına qopur (Hud, 67; əz-Zəriət, 44). VII (əl-Əraf) surəsinin 78-ci ayəsinə görə zəlzələ baş verir (b a x: **əl-Qəmər,** 31; **əl-Həşr,** 5) və ertəsi gün onlar evlərində həlak olurlar.

**SANCAĞİ-ŞƏRİF** – Peyğəmbərə aid olduğu güman edilən və bu gün İstanbulda Topqapı sarayında müqəddəs əmanətlər arasında saxlanan sancaq (bayraq). Ələmi-nəbəvi, ələmi-şərif, livai-səadət və livai-şərif adları ilə də tanınır. Peyğəmbər zamanında müharibələrdə üzə çıxarılan bu sancaq çox sürətlə uçan qartal quşu, "Uqab" adı ilə məşhur idi. Peyğəmbərin ağ və qara rəngdə bir çox bayraqları var idi və bunlardan qara rəngdə olanı Aişənin qapı pərdəsi vəzifəsini görürdü. Uqab adlanan və axırda sancaği-şərif kimi tanınan həmin bayraqdır. Peyğəmbərin həyatında hər əsgər başçısı bayraq daşıyırdı. Yalnız Peyğəmbərin iştirak etdiyi Bədr döyüşündə, ilk dəfə sancaği-şərifi daşınmışdır. Daha sonra, Məkkənin fəth günü bu şərəfə Həzrət Əli nail olmuşdur. Peyğəmbərin vəfatından sonra xəlifə Əbu Bəkr də, bu sancağa qarşı böyük təzim göstərmişdi. İlk dörd xəlifə zamanında, ordu başçılarından və ya yüksək rütbəli əmirlərdən biri, hər tərəfdən təzim göstərilən bu sancağı daim ordunun qabağında daşıyırdı. Suriyadakı Əməvi xəlifələrinə və sonra da Bağdad və Misirdəki Abbasi xəlifələrinə keçən bu sancaq, Osmanlı hökmdarı Yavuz Soltan Səlimin Misiri fəthindən sonra osmanlıların əlinə keçdi. Sancaği-şərifin Qahirədən İstanbula aparılması haqqında müxtəlif rəvayətlər var.

**SATURN** – Roma əsatirində əkinlər və zaman ilahisi, yunan Kronosu ilə eynidir. Əsatirlərə görə Saturn Yupiterdən qabaq, əfsanəvi ümumi bərabərlik və xoşbəxtlik əsrində çarlıq edirdi. Onun adına Romada biçindən sonra, dekabrın ortalarında saturnaliya şənlikləri keçirilirdi.

**SATURNALİYALAR** – Qədim Romada Saturna ithaf olan şənliklər. Dekabrın 17-də başlanıb bir həftə davam edirdi. Püşklə şənliklər dövrü üçün qeyri-məhdud səlahiyyətli hakim seçilirdi. Saturnun əfsanəvi "qızıl əsri"nin xatirəsi naminə işlər və dərslər dayandırılır, ağalar öz nökərlərinə xidmət edir,

hər yerdə qonaqlıqlar və oyunlar təşkil edilir, adamlar bir-birinə hədiyyələr verirdilər.

**SAVAOF** (*qədim yəhudicə* Sebaot, hərfən – fəthedən Allah) – Əhdi-Ətiqə görə, yəhudi Allahı Yaxvenin "fəthedən" və "fəthedənlərin Allahı" kimi adı və vəsfi. Xristianlıqda Yaxve-Savaof Üç uğnumun birincisi ilə – Ata Allahla eyniləşdirilir.

**SEBEK**, Sobek (*yun.* Suxos) Misir dinində Timsah və ya timsahbaşlı insan şəklində Fəyyumun Kom-Ombo vahəsində və başqa yerlərdə ehtiram edilən ilahi. Sebek Nil çayının suları ilə gətirilən münbitliyi təmsil edir və Neyt ilahənin oğlu hesab olunurdu.

**SELENA** (*yun.* selasdan – işıq, işıltı) – qədim yunan əsatirində Ay ilahəsi; bəzən Artemida, Persefona və Gekata ilə eyniləşdirilir. Onun 50 qızı var idi (qəməri təqviminin 50 həftəsini və ya olimpiya oyunlarını bir-birindən ayıran 50 qəməri ayı təcəssüm edirdi).

**SEPTUAQİNTA** – b a x: **Əhdi-Ətiq.**

**SET** – Qədim Misir dinində əvvəllər Ombos şəhərində, sonralar isə ola bilsin, bütün Yuxarı Misirdə pərəstiş edilən ilahi. Daha sonra səhrada və əcnəbi ölkələrdə də ona sitayiş edirdilər. Osirisin qardaşı və qatili olmuşdur. Osirisin oğlu Qor tərəfindən məğlub edilmişdir. Əsatiri səhra heyvanı şəklində təsvir olunurdu.

**SEVDA,** Savda bint Zama ibn Qeys ibn Əbd Şəms (?-643?) – Peyğəmbərin ikinci arvadı, qureyşilərin Bəni Əmr qolundandır. Anası əş-Şəmus bint Qeys ibn Zeyd ibn Əmr, islamiyyəti ilk qəbul edən qadınlardan idi. Sevda, ikinci Həbəş mühacirətinə qatılan müsəlmanlar arasında, əri Sakran və öz qardaşı Malik ibn Zama ilə birlikdə idi. Əvvəlcə o, əmisi oğlu Sakran ibn Əmrə ərə getmişdi. Həbəş mühacirətində xristian dininə dönən Sakran, arvadı ilə oradan Məkkəyə qayıtdı və Peyğəmbərin Mədinəyə hicrətindən qabaq öldü. Sevdanın Sakrandan iranlılarla baş vermiş Calula döyüşündə şəhid olmuş Əbdürrəhman adında bir oğlu var idi. Peyğəmbərin Sevda ilə evlənməsi, onun ilk arvadı Xədicənin ölümündən təqribən bir ay sonra, ona təsəlli vermək istəyən Osman ibn Məzunun arvadı Həvla bint Hakimin vasitəçiliyi ilə oldu. Peyğəmbər Taif ziyarətindən qabaq və nəbiliyinin onuncu ili Ramazan ayında, 400 dirhəm mehr ilə Sevda ilə evləndi.

Sevda hicrətin ilk ilində, Peyğəmbərin Xədicədən olan qızlarından Ümm Gülsüm, Əminə və Fatimə ilə birlikdə, Mədinəyə ərinin yanına getdi. Peyğəmbər Mədinədə Məscidi-nəbəvi yanında əvvəlcə Sevda və bir az sonra evləndiyi Aişə bint Əbu Bəkr üçün evlər tikdirdi. Sevda, Peyğəmbər ilə evləndikdə gənc deyildi. Özü hündürboylu və iri gövdəli olduğu üçün, yaşa dolduqca o qədər kökəlib ağırlaşmışdı ki, vida həccində və ya ondan qabaqkı həccdə xalqın izdihamından əvvəl Minaya gedərkən, Muzdalifada gecələmək üçün Peyğəmbərdən izin almışdı. Yaşlı olmasından dolayı, xidmətindən məmnun olmayan və Bədr döyüşündə qardaşı Əbd ibn Zamanın müsəlmanlar tərəfindən öldürülməsi, köhnə qohumlarından bəzilərinin əsir düşərək Mədinəyə gətirilmələri səbəbi ilə ağladığını görən Peyğəmbər onu

boşadı. Sevdanın Peyğəmbərdən uşağı olmamışdır.

**SEYYİD** (*ər.* ağa) – Məhəmməd peyğəmbərin nəvəsi Hüseynin nəslindən olan müsəlmanların ünvanı.

**SEYYİD YƏHYA** ibn Seyyid Bəhaəddin əş-Şirvani əş-Şamaxı əl-Bakuvi (?-1464) – xəlvətiyyə təriqətinin başçısı, Şeyx Pirzadə Sədrəddin əl-Xəlvətinin şagirdi. Şamaxıda anadan olub. Şeyx Pirzadənin vəfatından sonra Bakıya köçüb. On mindən çox müridi var idi. Rəvayətə görə, o, ömrünün axırında altı ay oruc tutub heç bir şey yemirdi. Məzarı Bakıdakı Şirvanşahlar sarayının həyətindədir.

**SƏBBİH** – Quranın 87-ci surəsinin adı. Surə Məkkədə nazil olmuşdur, 19 ayəsi var. Səbbih ("təsbih et, tərif et və təqdis et") adını ilk ayəsindən almışdır. Eyni ayənin son sözünə görə, əl-Əla ("ən uca, ən yüksək") adı ilə də bəllidir. Peyğəmbərə Allahı və ya Onun uca adını saflıq ilə şükranı əda etməsini bildirərək başlayan surədə Onun qüdrətinə, lütf və ehsanlarına işarə edir. Peyğəmbərə işlərində asanlıq, başarılıq qatacağı müjdələnir. İnsanlara öyüd verməsi istənilir, bundan faydalanan ağacların xilas olması, imana gəlməyənlərin qarşılaşdıqları əzab xatırlanıb, axirətin dünyada daha xeyirli olduğu, bunun qabaqkı peyğəmbərlərə göndərilən kitablarda da zikr edilməsi bildirilir.

**SƏBİL**, *ər.* sabil "yol" deməkdir. Quranda da işlənir: 1) lüğəti mənası ilə, məs.: mən istətaa iləyhi səbilən (Ali-İmran, 97) "oraya yol tapa bilən kimsə"; 2) səbil Allah "Allah yolu" təbirində olduğu kimi; məcazi mənada işlənməsi üçün b a x: **Cihad**; 3) məcazən həqiqi yol, Peyğəmbərin yolu mənasında – ya ləytani-təxəztu maar-rəsuli səbilən (əl-Furqan, 27). "Kaş ki, mən Peyğəmbər vasitəsilə özümə doğru bir yol tutaydım" ifadəsində olduğu kimi; 4) məcazən, bir şeyə çatma, onu əldəetmə vasitəsi və ya zorakılıqdan, sıxıntılardan hifz edən yol mənasında – av yəcələllahu ləhunna səbilən (ən-Nisa, 15) "yaxud Allah onlar üçün bir yol açar"; 5) İbn əs-səbil "yol oğlu", yəni yolçu, yollarda qalmış biçarə ki, mərhəmət və kömək mövzusudur.

**SƏBİYYƏ**, Sabiyya – yeddi tərəfdarları, yeddi imamçılar, görülə bilən imamların sayını yeddi ilə məhdud edən şiə zümrələrinə işarə edən bir təbirdir. İmamlığın atadan oğula ilahi təqdir ilə keçməsinə inanan, şəriətlə uyğunlaşan (məşru) xəlifəlik tərəfdarları şiələrdə, h. 145 (762)-ci ilinə doğru altıncı imam Cəfər əs-Sadiqin oğlu İsmayıl atasından qabaq öldüyündən qarışıqlıq baş verdi. Əksəriyyət İsmayılın yerinə Cəfərin başqa oğlunu, on iki imam tərəfdarlarının (İsnə əşəriyyə) on iki imam sayında yeddinci olan Musa əl-Kazimi, digərləri daha az diqqətə çarpan oğulları Məhəmməd, Abdullah və Əlini qoyduqları halda, ən dar məşruluq tərəfdarları İsmayıla sadiq qalırdılar. Bunlar onun atasından qabaq öldüyünü inkar edirdilər. Bu qayə ilə gətirdikləri sözdə dəlillər bizzat rəqibləri üzərinə də təsir göstərirdi. Bunlar İsmayılı kənar etmək üçün, onun əxlaqına hücum etməyə məcbur oldular: guya xəlifəlik, pis hərəkətlərinə görə ondan alınmışdır. Lakin bu eybləmələr, xüsusən şərab içmənin tənqidi, imama

qarşı yönəlmiş hücumlar kimi deyil, yeddi imam tərəfdarlarına qarşı şəriət hökmlərinin yüngüllüyünə qarşı etiraz kimi izah edilir.

Yeddi imamçılar hərəkatı, mənşəyi etibarilə yeknəsəq deyildi. Mübarəkiyyə, İsmayılda "durdu", İsmayıl bu təriqət üçün son imam və mehdi oldu. Lakin əksəriyyət oğlu Məhəmmədin şəxsində imamlığı davam etdirir ki, bu da rəsmi ət-Tamm ("tamamlayan") adı ilə qaim əz-zaman olmuşdur. Lakin Məhəmməd ət-Tammın mövqeyinə rəğmən, əsil zümrələr İsmayılın adına bağlı qaldılar. Öz mərtəbə silsiləsinə qiymət vermək nəzəriyyəsi ilə yeddi imamçılar nəticədə Vaqifiyyənin ("duranların") çoxsaylı zümrələrindən birini təşkil etdilər.

**SƏDƏQƏ** – "doğrunu demək". Müsəlmanın sədəqə verməsi onun dilinin doğruluğunu (sidq) göstərir. Bu söz ibrani dilində sedaqa sözünün ərəb hərfləri ilə yazılmış şəklidir, əslində "sidq və xulus" mənasını ifadə edir. Lakin "mirailərin" dilində (farsi) dindar israililərin əsas vəzifələri, yəni sədəqə vermək mənasında işlənmişdir. Bu sözün hələ islamın zühurunda meydana gələn və sonralar da mühafizə edilən əsil mənası insanın öz ixtiyarı və ya arzusu ilə verdiyi sədəqə, xeyirpərvərlikdir.

Ərəb müəllifləri sədəqə sözünü iki müxtəlif mənada işlədirlər. Əvvəlcə, bu söz əksərən zəkatın, yəni ixtiyari kömək olmayan və miqdarı müəyyən olan, yoxsullar üçün alınan şəri verginin sinonimi olaraq işlənir. Bu məna Quranın IX (ət-Tövbə) surəsinin 58-ci, 104-cü və sair ayələrində görünür. Bir də Məlik ibn Anasın əl-Muvatta əsərinin Kitab əz-Zəkat bölümündə, zəkat yerinə sədəqə işlənmişdir. Sədəqə sözünün əsil mənası ixtiyari olaraq verilən sədəqədir.

Sədəqə Quranda, yuxarıda göstərilən iki ayədən başqa, adı çəkilən digər yerlərdə bu mənada işlənmişdir. Sədəqə, göstərmək üçün verilməmiş olmaq şərti ilə (əl-Bəqərə, 264), açıq verilə bilər (yenə orada, 275). Lakin gizli olaraq verilən sədəqələr üstün tutulur. Sədəqə faizdən daha bərəkətlidir (yenə orada, 276), lakin sədəqə istənilib verilməlidir (yenə orada, 263). Sədəqə verən, xeyir işləri görməyə qadir olanların cəsarətini qırmamalıdır (ət-Tövbə, 80), əksinə bunları təşviq etməlidir (ən-Nisa, 114).

Sədəqə və zəkat haqqındakı şiə və sünnilərin düşüncələri oxşardır, lakin hər iki zümrə Peyğəmbər ailəsinin zəkatdan istifadə etməyəcəyini qəbul etdiyi halda, şiələr bunların sədəqədən hissə almalarını caiz görürlər.

**SƏFİYƏ**, Safiya bint Huyayy ibn Axtab – Peyğəmbərin arvadlarından biri. Bənn Nazir yəhudi qəbiləsindən idi. Anası Barra (və ya Zarra) bint Samaval mədinəlidir. Atası hicri 4-(626)-cü ildə qəbiləsi il Mədinədən qovulandan sonra, ailə üzvləri və yaxınları ilə birlikdə Mədinədən 150 km şimalda yerləşən Xeybərdə yerləşmişdi.

Səfiyə h. 6 (628)-cı ilin sonunda və ya 7-ci ilin əvvəlində qohumlarından Kinana ibn ər-Rəbi ilə, bəzi mənbələrə görə isə, əvvəlcə yəhudi əyanlarından olan Sallam ibn Maşkam ilə, ondan ayrıldıqdan sonra Kinana ilə evlənmişdir.

Peyğəmbər, Bəni Nazir qəbiləsinin Mədinədən sürgün edilməsindən iki il sonra, 628-ci ildə 1400 nəfərlik ordu

ilə Xeybərin fəthinə çıxdı. 14 gün uzanan mühasirədən sonra Xeybər təslim oldu. Səfiyə əsir düşərək müsəlmanların əlinə keçdi. Bu vaxt onun 17 yaşı var idi. Qənimətlər bölüşdürüləndə Səfiyə əvvəlcə Dihya ibn Xəlifə əl-Kəlbinin payına düşdü. Lakin Peyğəmbər çox ehtimal ki, Səfiyə, Xeybər yəhudi əyanlarından birinin qızı olduğundan həmin qəbilə ilə yaxınlaşmaq üçün Səfiyə ilə evlənmişdi. Peyğəmbər əvvəlcə Səfiyəni islamı qəbul etməyə dəvət etmiş, bu şərt yerinə yetirildikdən sonra Peyğəmbər azadlığını mehrinə əlavə edib, onunla Xeybər və Mədinə arasında yerləşən Səbbada evlənmişdi. O gündən etibarən Səfiyə, Peyğəmbərin başqa arvadları kimi hicab taxdı. Beləliklə, bu hal onun Peyğəmbərin arvadı olduğunu göstərdi. Əvvəlcə, Səfiyə Peyğəmbərin arvadları tərəfindən soyuq və qısqanclıqla qarşılanmışdı.

Ağıllı, yumşaq xasiyyətli və fəzilətli bir qadın olan Səfiyənin yalnız Peyğəmbərin kiçik qızı Fatimə ilə xoş münasibəti var idi.

Peyğəmbərin ölümündən Osmanın xilafətinin axırına qədər olan dövrdə Səfiyə haqqındakı rəvayətlər çox az və əhəmiyyətsizdir. Səfiyə h. 50 və ya 52-ci ildə (670 və ya 672), Müaviyənin xilafətində, yüz min dirhəmlik sərvət qoyub, vəfat etdi. Onun adından on hədis rəvayət edilir. Uşağı olmayıb.

**SƏLİB YÜRÜŞLƏRİ** – XI-XIII əsrlərdə papaların təşəbbüsü və razılığı ilə dini şüarlar altında Qərbi Avropa feodallarının apardıqları müharibələr və XIII-XV əsrlərdə "küfrün" kökünü kəsmək bəhanəsilə istiqlaliyyət hərəkatlarının iştirakçıları əleyhinə yönəlmiş cəza ekspedisiyaları. Əsasən səlib yürüşləri adı altında Qərbin 1096-1270-ci illərdə Yaxın Şərq ölkələrinin işğalına yönəlmiş iri yürüşləri nəzərdə tutulur. Katolik kilsəsi Yerusəlimdə (Qüdsdə) olan İsanın tabutunun müsəlman "kafirləri"ndən azad olunması bəhanəsilə, papalara tabe olan müstəmləkələr yaratmaq niyyəti güdürdü. Avropa cəngavərlərinin quldur dəstələri yüngül qazanc əldə etmək xülyası ilə bu yürüşlərə səfərbər edilmişdi.

XI-XIII əsrlərdə Şərqə 8 iri Səlib yürüşü təşkil olunmuşdu. Ən əhəmiyyətli və iştirakçıları üçün zəfərli nəticələnən birinci (1096-1099) və dördüncü (1202-1204) yürüşlər idi. 1095-ci ilin noyabrında papa II Urban tərəfindən Klermonda elan edilmiş birinci Səlib yürüşünün bayraqları altında 100 minə qədər xristian (əsasən fransızlar) toplaşmışdır. 1039-cu ilin iyulunda Yerusəlimin işğalından sonra Kiçik Asiyanın bir hissəsi, Suriya və Fələstinin dənizkənarı vilayətləri tutuldu və qarət olundu. Yürüş Latın Yerusəlim Krallığının (1108-1178) və üç kiçik feodal dövlətinin təşkili ilə nəticələndi. Papa III İnnokentinin təşəbbüsü ilə təşkil edilmiş IV Səlib yürüşü 20 min fransız, italyan və alman səlibçiləri tərəfindən xristian Bizans imperiyasının paytaxtı Konstantinopolun darmadağın edilməsi və işğal olunmuş ərazilərdə – Balkan yarımadasının və Kiçik Asiyanın bir hissəsində Latın imperiyasının təşkili (1204-1261) ilə sona çatdı. Qalan Səlib yürüşləri (ikincisi) – 1147-1149-cu illərdə, üçüncüsü – 1189-1192-ci illərdə, beşincisi – 1217-1221-ci illərdə, altıncısı –

1228-1229-cu illərdə, yeddincisi – 1248-1254-cü illərdə və səkkizincisi – 1270-ci ildə) müvəffəqiyyətsizliyə uğradı.

**SƏLMAN PAK,** Səlman əl-Farisi (?-656) – Peyğəmbərin səhabələrindən və islam dünyasında ən tanınmış şəxslərdən biridir. Haqqında olan çoxlu rəvayətlərdən ən mükəmməli Məhəmməd ibn İshaqın rəvayətidir. O yazır ki, Səlman İsfahan yaxınlığındakı Cayy (və ya Cəyyan) kəndindən olan bir mülkədarın (dihqan) oğludur. Uşaq ikən xristianlığı qəbul etmiş, ailəsini tərk edib Suriyaya getmiş və orada xəbər tutmuşdur ki, Həzrət İbrahimin dinini ehya edəcək Peyğəmbər gələcək. Onu ziyarət etmək üçün Ərəbistana gedir. Yolda ona bələdçilik edən bədəvi ərəbin xəyanətinə görə əsir düşür və sonra bir yəhudiyə satılaraq Mədinəyə gətirilir. Bir azdan sonra Peyğəmbər Məkkədən buraya hicrət edir. Tezliklə Səlman islam dinini qəbul edir və pul verib öz yəhudi ağasından azad olunur. Mədinənin məkkəlilər tərəfindən mühasirə olunduğu vaxt Səlmanın tövsiyəsi ilə düşməni dəf etmək üçün xəndəklər qazılır.

Şöhrətinin yayılmasında Səlman iranlı olmağına borcludur. O, islamın iranlılar tərəfindən qəbul edilməsində müsəlmanların ilk örnəyini təmsil edir. O, islamı qəbul edən iranlıların milli qəhrəmanı olmuşdur. Səlmanla bağlı hadisələrin çoxundan göründüyü kimi, Peyğəmbər ona iranlıların müsəlman icmasının ən yaxşı ünsürünü təşkil etdiklərini söyləmiş, onu öz ailə (əhl əl-beyt) üzvlərindən saydığını elan etmişdir. Onun maaşı Peyğəmbərin nəvələri Həsən və Hüseynin aldıqları qədər idi. Səlmanın məzarı çox qədimdən dini ehtiram mərkəzi olmuşdur (ən geci IX əsrdən bəri). Bu məzarın qədim Mədain ətrafında onun şərəfinə Səlman Pak ("Təmiz Səlman") adlandıran yerdə olduğu göstərilir. Bu yer bir çox hacıların son ziyarət etdikləri məqamdır, xüsusən Kərbəladan qayıdan şiələr mütləq buraya gəlirlər. Şiələr Səlmanın Əli ilə bağlılığı haqqında çoxlu hədislər yazıblar. Qatı şiə firqələrində Səlman Əlidən sonra gəlir. Nüseyrilər onu üç sirli hərfdən – əyn (Əli), mim (Məhəmməd) və Sin (səlman) təşəkkül edən üçlük nəzəriyyələrində ona üçüncü yeri ayırırlar və Səlman onun qapısını (bab) təşkil edir.

**SƏLSƏBİL** – cənnətin bir çeşməsinin adı, Quranda adı yalnız bir dəfə zikr olunur (Dəhr və ya İnsan surəsinin 18-ci ayəsi): [Zəncəfil] cənnətdə bir çeşmədir ki, [suyu boğazdan çox rahat keçdiyi üçün] Səlsəbil adlanır".

**SƏNƏM,** Sanam (*ər.* cəmi asnam) – lüğətlərə və təfsirçilərə görə, "Allahdan başqa tanınan, sitayiş olunan şey" mənasına uyğun gəlir. Bu söz ümumiyyətlə, daşdan, taxtadan və ya metaldan düzəldilmiş büt kimi açıqlanır. İslamiyyətdən əvvəl ərəblərin sitayiş etdikləri və İbn əl-Kəlbinin "Kitab əl-əsnam" adlı əsərində sayılmış olan bütlərin təsvirinə əsaslansaq, sənəm sözü çox müxtəlif mahiyyətli şeylərə verilib. Hübal, İsaf və Nailə kimi bəziləri həqiqi heykəl idi. Kəbə ətrafında düzəldilmiş başqa bütlər də belədir. Digərləri, əl-Uzza kimi, ağaclar ilə təmsil edilmişdir, bir çoxları isə əl-Lat kimi sadə daşlardır. Nusub (cəmi ənsab) deyilən bu daşlar qurban

qanları ilə islanırdı. Quranda keçmişin bütlərindən bunlar zikr edilir: Vadd, Suva, Yaqus və Nəsr. Peyğəmbər zamanında, Hicazda sitayiş edilən başlıca bütlər qadın ilahələr olan əl-Uzza, əl-Lat, Manat və çox güman ki, kişi bütü olan Hübal idi. Bunun heykəli qırmızı qranitdən idi.

**SİDHARTHA QAUTAMA** – b a x: **Budda.**

**SİLLON** (*frans.* şırım) – 1894-cü ildə Fransada təşkil olunmuş ittifaq. Məqsədi katoliklər arasında "xristian demokratiyası" ideyalarının təbliği idi. Təşəbbüskarı Fransa siyasi və ictimai xadimi, pasifist Mark Sanye idi (1873-1950). Əvvəlcə hərəkat Vatikan tərəfindən qəbul edildi, lakin 1910-cu ildə papa X Piy katoliklərin radikallarından qorxaraq, hərəkatın inkişafının qabağını aldı.

**SİLVAN** – qədim İtaliya inamlarında Favna və Pana yaxın olan bitki və heyvanların ilahisi, meşələrin, sürülərin və otlaqların mühafizi. Silvanın şərəfinə olan bahar bayramı şənliklər və rəqslərlə müşayiət olunurdu. Silvan kəndli paltarı geymiş yaşlı, başında şam budaqlarından əklil, əllərində oraq və meyvələr olan adam kimi təsvir edilirdi.

**SİN, SUEN** – babil-assur inamlarında Ay ilahisi Nannar ilə eynidir. Sin ali ilahi Enlilin oğlu, Günəş ilahisi Şamaşın və münbitlik ilahəsi İştarın atası hesab olunurdu. Sinə sitayiş mərkəzləri Ur və Xarran şəhərləri idi.

**SİNAQOQA** (*yun.* hərfən məclis) – yəhudilərin dini təşkilatı və həmin təşkilatın ibadətgahı. Yəhudi diasporasının genişlənməsindən sonra (Fələstindən kənarlara səpələnmək) Yerusəlimdəki ibadətgahda dini mərasimlərin keçirilməsi qeyri-mümkün olmuşdu. Buna görə qurbankəsmə mərasimi ibadət və Tövratın oxunub şərh verilməsi ilə əvəz olundu və bununla da sinaqoqalar əmələ gəldi. Əvvəlcə, sinaqoqalar müqəddəs kitabı əzbər bilənlər tərəfindən idarə edilirdi, XI əsrdən isə bu vəzifə ravvinlərin əlinə keçdi. Tədricən sinaqoqanın binası ibadətxanaya çevrildi.

**SİNEDRİON** (*yun.* məclis, şura) – e.ə. I – b.e. I əsrində Yerusəlimdə məhkəmə və siyasi funksiyalı kahinlər idarəsi.

**SİNOD** (*yun.* sinodus – məclis) – 1721-ci ildə I Pyotr tərəfindən ləğv edilmiş patriarxatın əvəzinə təşkil olunmuş rus pravoslav kilsəsinin ali idarəsi. Sinodun təşkili ilə kilsə üzərində idarəçilik tamamilə hökumətin sərəncamına keçdi. I Pyotrun tapşırığı ilə Feofan Prokopoviç tərəfindən tərtib edilmiş "Dini nizamnamə"yə əsasən Sinoda daxil edilən yüksək rütbəli din xadimləri çara sədaqət andı içməli içdilər.

**SİNTOİZM, ŞİNTOİZM, SİNTO** (*yaponca* sinto – Allahlar yolu) – erkən feodal Yaponiyasında yerli animistik xalq inamları və şamanizm elementləri əsasında əmələ gəlmiş din. Sintoizm guya bir-birindən törənmiş ilahilər yığımına ibadət etməyi müəyyən edir. Bunların ən əhəmiyyətlisi, lakin əsatir silsiləsindən birinci olmayan, Günəş ilahəsi Amaterasu sayılır. Sintoizmdə ən hörmətli kitab əfsanələr toplusu "Kodziki"-dir. Dövlət dininə çevrilən sintoizmin tərkib hissələri bunlardır: tennoizm – Yaponiya hökmranı imperatorun (Tenno) və onun əcdadlarının ilahi mənşəli

olmaları haqqında ayin; xanədan sintoizmi – ilahilərlə qohumluqda olan imperator ailəsinin ayini; ibadətgahlarda olan müxtəlif ilahilər ayini (ibadətgah sintoizmi); hər "sadiq bəndə" ailəsində ilahə Amaterasu ayini (ev sintoizmi).

**SİON** – Bibliyaya görə çar Davudun iqamətgahı və Yaxvenin ibadətgahı yerləşən Yerusəlimin bir hissəsi (dağ, təpə). Bibliyada dəfələrlə deyilir ki, Sionda "Allah yaşayır", Sion "Allah evidir". Zaman keçdikcə "Sion" sözü iudaizmdə Allaha "sədaqətin" rəmzinə, Allaha "sadiq olan" adamların simvolik adına çevrilib.

**SİONİZM** – XIX əsrin sonunda Qərb ölkələrində yəhudi burjuaziyası arasında əmələ gəlmiş millətçi cərəyan.

**SİRENALAR** (*yun.* seyren – cazibə) – qədim yunanların əfsanələrində cazibəli səsə malik olan yarıqadın-yarıquşlar. Homerə görə sirenalar Tirren dənizindəki adada yaşayıb, öz mahnıları ilə dənizçiləri ovsunlayıb adaya gətirir və burada parçalayırdılar.

**SİRƏ** (*ər.* tərcümeyi-hal) – müsəlman dini ədəbiyyatında Məhəmməd peyğəmbərin islamın yayılmasına yönəlmiş tərcümeyi-halı. Bizə gəlib çatmış ən qədim "Allah elçisinin tərcümeyi-halı" (sirat rasul Allah) VIII əsrin ikinci yarısında xəlifənin tapşırığı ilə Bağdadda İbn İshaq tərəfindən tərtib olunmuş, IX əsrdə İbn Hişam tərəfindən təkmilləşdirilmişdir.

**SİVİLLALAR** – müxtəlif yunan və latın müəllifləri tərəfindən adları çəkilən, gələcəyi görən əfsanəvi qadınlar. Rəvayət görə onlar Yunanıstanın, İtaliyanın və Qədim Şərqin müxtəlif şəhərlərindən idilər. Zevs, Artemida və Apollon ilə qohumluqları ehtimal olunur. Sivillaların fəaliyyətini adətən Apollonun məbədləri ilə bağlayırlar. Guya Apollon onları gələcəyi görməyə təhrik edirdi. Sivillaların sayı on iki idi. Antik müəlliflər daha çox Delfiya sivillası Anbissanın, Eritreya sivillası Kerofilanın (bu həmçinin Kum, Troya, Samossa və i.a. sivillası idi), İtaliya sivillaları Karmentidanın və Mefiditanın, Taburtin sivillası Albuneyanın, qədim yəhudi sivillası Sabbanın (bu, həmçinin Babil və Misir sivillası idi) adlarını çəkirlər.

**SOXMET** (*qədim Misir dilində* – qüdrətli) – şirbaşlı qadın şəklində təsvir olunan Qədim Misir cəngavər qadın ilahəsi. Pta və Nefertumla birlikdə Memfis üçlüyü adlanan Memfisin əsas ilahilərinin triadasını təşkil edirdi. Soxmet məhvedici qüvvələrin təcəssümü idi. Qədim Misir inamlarına görə, o, əsəbiləşəndə yoluxucu xəstəliklər yayır və özü də müalicə edirdi. Əfsanələrdə deyilir ki, o, bəşəriyyəti məhv etmək niyyətində idi.

**STİKS** – yunan əfsanələrində titan Okeanın qızı, ilahə Nikenin anası, "o dünya"nı əhatə edən Stiks çayının nimfası. Tutqun Xaron Stiks çayı ilə köhnə qayıqda ölənlərin canlarını (kölgələrini) Aid çarlığına aparır. Stiks çayının sahillərində gecə dəhşətləri ilahəsi Gekatanın ətrafına toplaşmış nəhəng Stikiya itləri gəzişirlər.

**STUPA** (*sanskritcə* əsas mənası – təpə, torpaq yığını, daş qalağı; əvvəllər – çarın və ya rəhbərin qəbri üstündə tikili) – buddist memarlığında müqəddəs sayılan şeylərin saxlanması üçün monu-

mental tikili. Ən qədim stupaların (e.ə. III-II əsrlər) qəbul edilmiş üç hissəli tərkibi var idi: pilləli bünövrəsi, əsas böyük həcmi və çoxqatlı talvar şəklində üstü. Stupalar yarımsferik (Hindistan, Şri-Lanka), bürcvari (Vyetnam, Çin), kvadrat pilləli (Şri-Lanka, Tailand), zəngvari (Birma, Tailand, Kampuçiya, İndoneziya), butulkaya oxşar (Monqolustan, Çin) olur. Stupa adı yalnız Hindistan və Nepal üçün səciyyəvidir. Şri-Lankada (Seylon) stupa "daqoba", Birmada – "zedi" və "pato", Tailandda – "çedi" və "prani", Laosda – "txat", Monqoliyada "suburqan", Çində və Vyetnamda – "baota", "paqoda" adlanır.

**SUFİLLİK** – b a x: **Təsəvvüf.**

**SUKKOT** (*qədim yəhudicə* çadır, koma) – əvvəllər "ilin sonunda meyvələr yığımına" (Bibliya, Xuruc, XXIII, 16) həsr edilmiş yəhudi bayramı. Sonralar Sukkot yəhudilərin Misirdən getmələri (xuruc) əfsanəsi ilə birləşdirildi. Bayram doqquz gün davam edir.

**SURƏ** – Quranın fəsli. Quranda cəmi 114 surə var. Hər surə müxtəlif saylı (3-dən 286-ya qədər) ayələrə bölünür.

**SUTRA** (*sanskritcə* sap, ip) – qədim hind dini ədəbiyyatında bölmə. Brahmanizmdə Sutra adı ilə müqəddəs vəhyə – Vedaya əsaslanan mərasimə və həyat tərzinə aid qısa göstərişlər məlumdur. Buddizmdə adətən sutra (sutta) adını hansısa bir məsələnin müzakirəsinə aid əsər və ya məcmuələrə verirlər. Məsələn, b a x: **Tripitaka.**

**SUTTA-NİPATA** – Sutta-pitakanın bir hissəsi, erkən buddizm təliminin əsas tərəflərini əks etdirən şeirlər toplusu.

**SUTTA-PİTAKA** – b a x: **Tripitaka.**

**SÜBHANALLAH** – Quranda tez-tez işlənən və "Allahı nöqsan sifətlərdən və uluhiyyətə zidd şeylərdən təmizləyirəm və təqdis edirəm" mənasında tərənnümün ismixasıdır. Bu, ərəbcədə rastlanmayan, lakin arami dilində mövcud olub, eyni zamanda ibranicə və həbəşcə mənimsənmiş sebaha bağlanan bir sözdür. Söz tərənnüm ibarəsi kimi Quranda Musa (əl-Əraf, 143) və İsanın (əl-Maidə, 116), cənnətin imanı bütün saleh kişilərinin (Yunus, 10) və mələklərin (əl-Bəqərə, 28; b a x: **ən-Nəml**, 8) danışığında da tapırıq. Bu ibarə, Allahın möcüzə böyüklüyünü və xariqüladə işlərinin tamaşası qarşısında xitabda olan qüvvətli duyğulanmanı ifadə etmək üçün fərqli hallarda təkrar edilmişdir: "Bəndəsini bir gecə [Məkkədəki] Məscidülharamdan ətrafını mübarək etdiyimiz Məscidüləqsaya (Beytülmüqəddəsə) aparan Allah pak və müqəddəsdir" (əl-İsra, 1), "Bunları bizə ram edən Allah pak və müqəddəsdir" (əz-Zuxruf, 13), "Cütlər yaradan Allah pak və müqəddəsdir" (Yasin, 36), "Hər şeyin hökmü, ixtiyarı əlində olan Allah pak və müqəddəsdir" (Yasin, 83), "Axşam-səhər Allahı təqdis edib, şəninə təriflər deyin" (ər-Rum, 17). Dindar möminlər Quranın oxunduğunu duyduqları vaxt üzlərini səcdəyə qapadıb: "Rəbbimiz pak və müqəddəsdir" (əl-İsra, 108) deyirlər. Bu dua bir günahın etirafı vaxtında da deyilir: "Rəbbimiz pak və müqəddəsdir! Həqiqətən, biz zalim idik!" (Nun, 29). Allahın mütləq böyüklüyü və mükəmməlliyinin ifadəsi olaraq ona, Allahın müqəddəs olduğu və zatına xələl gətirəcək şeylərdən təqdis edildiyi

yerdə rastlanır (b a x: **əl-İsra**, 43), burada bu dua təala ilə birlikdədir. Dindar möminlərin: Dünyanı boş yerə (batilən) yaratmadın, sübhanəkə (sən mənasız şeyi yaratmaqdan azadsan! Ali-İmran, 191) sözündə və ya Musanın Tanrının görünməyəcəyi (əl-Əraf, 143) anlayışında və ya Peyğəmbərin özünün sadəcə bir insan və elçi olduğunu (əl-İsra, 93) söyləyərək həmşəhrilərinin möcüzə istəklərini rədd etməsində də eyni mahiyyətdədir.

**SÜHRƏVƏRDİ,** Əs-Suhravardi, Əbdülqadir ibn Abdullah (1097-1168) – sufi və hənəfi fəqihi.

**SÜHRƏVƏRDİ,** Əs-Suhravardi, Şihabəddin Əbdülfütuh Yəhya ibn Həbəş ibn Əmirak (1155-1191) – işraq fəlsəfəsi qurucusu, sufi. Həqiqi mömin olmadığı irəli sürülərək edam edildiyinə görə ona əl-Məqtul adı verilmişdir. Ailəsi, uşaqlığı və ilk təhsili haqqında məlumat yoxdur. Savadlanmaq üçün Marağaya gedib, orada Məcdəddin əl-Cilinin yanında təhsil almışdır. Burada fiqhi öyrəndikdən sonra İsfahana getmişdir. Dini sahədəki biliklərin burada tamamladıqdan sonra sufilərlə söhbətlərində təsəvvüf bilgilərini artırmışdır. Ömrünün böyük qismini səyahətlərdə keçirən Sührəvərdi İrandan sonra Diyarbəkrə gəlir, Anadolu və Suriyada olur. Sonra Hələbdə yerləşir. O vaxt bu şəhərin hakimi Salaheddin əl-Əyyubinin oğlu əl-Məlik əz-Zahir idi. Bu hökmdar əvvəlcə ona bağlılıq göstərdi. Dini əqidəsinə və cəmiyyətdə qəbul edilməyən fikirlərinə görə onun əleyhinə çıxan alimlər əl-Məlik əz-Zahiri onu edam etməyə təşviq etdilər. H. 587 (1191)-ci ildə edam edilmişdir.

Müxtəlif mənbələrin rəvayətlərinə görə son dərəcə zəkalı olan Sührəvərdi, məzhəbcə şafei idi, fiqh və hədisləri yaxşı bilirdi. Öz fikirlərini sərbəst deməkdən çəkinməzdi.

Sührəvərdinin 50-yə qədər fəlsəfi əsəri var idi. Onların bir hissəsi ərəbcə, bir hissəsi farscadır. Əsərlərinin bəzilərinin ancaq adları bilinir, fikirlərini açıq ifadə edə bilmədiyi ilk dövrlərdə, bunları daha çox təmsili hekayələr ilə ifadə etməyə məcbur olmuşdur. Farsca əsərlərinin böyük qismi bu minvalla yazılıb. Ərəbcə mühüm əsərləri bunlardır: 1) "Kitab əl-maşariq vəl-mütərahat" – 7 bölmədən ibarətdir. Müəllif bu əsərində müxaliflərinin yazdıqlarını təhlil edir; 2) "Kitab ət-təlvihat əl-lövhiyyə vəl-ərşiyyə" – üç hissədən ibarət olan fəlsəfə və ilahiyyat ilə bağlı (məntiq, fizika və metafizika) xülasədir. Yazı üslubu çox mürəkkəb olduğu üçün şərhsiz anlamaq çox çətindir; 3) "Kitab əl-müqavamat" – bundan qabaqkı əsərinə əlavəli qeydlər məcmuəsidir; 4) "Kitab həyakil ən-nur" – tamamilə təsəvvürə aiddir; 5) "Hikmət əl-işraq" – işraq fəlsəfəsi haqqında əsərdir; 6) "Kitab əl-ləməhat fil-həqaiq" – məntiq, fizika və metafizikaya dair bilgiverici bir əsərdir. Sührəvərdinin təsəvvüf mahiyyətli ərəbcə şeirləri də var.

Etiqad baxımından müsəlman olan Sührəvərdinin işraq adını verdiyi və onun davamçılarının işraqiyun adlanan fəlsəfi, fəlsəfi əqidə ilə qədim İran dini əqidələrini, Əflatun, Yeni Əflatunçu, irfaniyə, sünni islam və şiə əqidələrinin bir-biri ilə təlif edilməsindən ibarətdir.

"Kitab əl-işraq" əsərini ən yaxşı vəsfləndirən, işıq, aydınlatma (işraq) metafizikasıdır. Bu, əşyanın dərin həqiqəti olaraq baxılan mənəvi bir işığın Yeni Əflatunçu nəzəriyyəsidir. Təsəvvüfdə, xristian və müsəlman fəlsəfəsində böyük rol oynayan bu nəzəriyyə, islam filosoflarının çoxunda, xüsusən Fərabi, İbn Sina və Qazzalinin yaradıcılığında mühüm yer tutur, lakin heç kim bu rəmzi Sührəvərdi qədər işlətməmişdir. Vacib və mümkünü, mövcud və namövcudu, cövhər və ərzi, səbəb və nəticəni, düşüncə və hissi, ruh və bədəni, bunların hamısını öz işraq əqidəsi ilə izah edir, yaşayan və ya hərəkət edən və ya mövcud olan hər şeyi işıq mənimsəyir və hətta, onun Allahın varlığına dair dəlili bu rəmz üzərində qurulmuşdur. Bilxassə işıq metafizikasına görə özünü sonrakı nəsillərə tanıtmışdır: İşraq sözündən yaranmış işraqiyyun adlanan firqənin banisi olub, İşraqiyəyə oxşar ad daşıyan nurbəxşiyyə təriqəti mənsubları da onu təriqətlərinin qurucusu kimi tanıyır (əslində nurbəxşiyyə təriqətinin qurucusu Sührəvərdi deyil, ləqəbi Nurbəxş olan Məhəmməd ibn Məhəmməd ibn Abdullahdır (1393-1465).

**SÜHRƏVƏRDİ,** Əs-Sührəvardi, Şihabəddin Əbu Həfs Ömər ibn Abdullah (1145-1234) – sufi və şafei ilahiyyatçısı. İlk təsəvvüf bilgisini, "Əvarif əl-Maarif" adlı əsərində adını tez-tez çəkdiyi əmisi Əbunnəcib və məşhur şeyx Əbdülqadir əl-Cilidən almışdır. Bağdada gedib, xəlifə ən-Nasirin sarayında olmuşdur. Sufilərin başçısı idi. 89 yaşında vəfat etmişdir. Sədi Bağdadda olduğu vaxt Sührəvərdinin dərslərinə gedirmiş. 1221-ci ildə xəlifə onu Konyaya, səlcuq sultanı Əlaəddin I Key-Qubadın yanına danışıqlara göndərmişdir.

Ən tanınmış əsəri "Əvarif əl-Maarif" sufiliyin ən geniş yayılmış əsərlərindən biridir. Bu əsər tarixi hadisələrdən bəhs edir və sufilik istilahlarının tanınması üçün dəyərli mənbədir. "Kəşf ən-nəsaih əl-imamiyyə və kəşfəl-yunaniyyə" adlı ikinci əsəri yunan fəlsəfəsinin tədqiqinə dair yazılmış kitabdır.

**SÜKEYNƏ,** Sukayna (?-735) – Hüseyn ibn Əli ibn Əbu Talibin qızıdır. Anası, şairə Rəbab bint İmrulqeys ibn Adi ibn Əvsdir. Qızına Sükeynə adını da o vermişdir. Onun əsil adı Ümeymə və ya Ümeynə, başqa bir ehtimala görə Əminə və ya Aminə idi. Doğum tarixi bilinmir. Atası öləndə kiçik qız idi və Hüseynin ölümündən bəhs edərkən İbn əl-Əsir (IV, s. 73-75) yazır ki, Kərbəla bəlasından sonra orada sağ qalanların arasında Sükeynə də var imiş. Əsirləri böyük qoruyucu dəstənin nəzarəti altında Mədinəyə apardılar və burada Sükeynənin anası kədərdən öldü.

Sükeynə dəfələrlə ərə getməsi ilə məşhurdur. Mənbələrdə onun neçə dəfə, kimlərə və hansı sıra ilə ərə getməsi barədə bir-birindən fərqlənən məlumatlar var. Əbülfərəc əl-İsfahaninin "Kitab əl-əğani"sinə görə, Həsən bin əl-Həsən ibn Əlinin Sükeynə ilə evlənmə təşəbbüsü gerçək olmayıb və Həsən, Sükeynənin bacısı Fatimə ilə evlənmişdir. Sükeynənin evləndiyi kimsələrin adı mənbələrdə iki və ya üç və hətta altı siyahıda verilir. Ən qədim siyahı İbn

Xəllikanın "Vəfəyat əl-Əyan" əsərindədir. Sükeynənin birinci əri Müsəb ibn əz-Zübeyr ibn əl-Əvvam idi (691-ci ildə xəlifə Əbdülməlik ibn Mərvanla döyüşdə öldürülüb). Müsəbdən onun Rəbab adlı qızı olub. Bu qız Müsəbin qohumuna ərə gedib gənc yaşında ölmüşdür. Sükeynənin ikinci əri Müsəbin qohumu Abdullah ibn Osman idi. Bundan Qurayn ləqəbi verilən Osman adlı oğlu oldu. Bu evlənmə çox çəkmədi. Sükeynənin üçüncü əri Zeyd ibn Əmr ibn Osman ibn Əffan idi, lakin bu da az sonra ölmüşdür. Dördüncü əri Ömər ibn Əbdüləzizin qardaşı, 694-cü ildən başlayaraq Misir valisi olmuş əl-Əsbağ ibn Əbdüləziz olub. O, 705-ci ildə ölmüşdür. Beşinci əri İbrahim ibn Əbdürrəhman ibn Əvf əl-Zuhri, altıncısı Əmr ibn Hakim ibn Hizan idi.

Sükeynə, mənbələrdə qeyd edildiyi kimi, zamanının ən diqqətəşayan qadınlarından idi. Saçlarının gözəlliyi məşhur idi, onlara müxtəlif forma verməkdə özünəməxsus görkəm yaradırdı və dövrünün qadınları ondan ibrət alırdılar. Xəlifə Ömər ibn Əbdüləziz bu şəkildə saç bəzənməsini qətiyyətlə qadağan etmişdi.

Sükeynə həyatını müqəddəs şəhərlər arasında keçirmiş və h. 117-ci il Rəbi əl-əvvəl ayının 5-də (4 aprel, 735) Mədinədə ölmüşdü. Qahirədə onun adı ilə bağlı ziyarətgah var.

**SÜLEYMAN** (? – e.ə. təqr. 928) – Davudun oğlu, İsrailin üçüncü çarı. Bibliyaya görə qeyri-adi müdrikliyi ilə şöhrət qazanmışdı. Bibliyanın bir neçə kitabının müəllifi hesab olunur, lakin bunların əksəriyyəti e.ə. II minillikdə Qədim Misirdə tərtib edilmiş "Amenyem-openin nəsihətləri"ndən tərcümə edilmişdir. Süleymanın 700 arvadı və 300 kənizi var imiş və buna görə o, şəhvətpərəst kimi də təsvir olunur. Heyvanların və quşların dillərini bilirmiş. Quranda adı çəkilir.

**SÜNNƏ** (ərəbcə adət, hərəkət tərzi, davranış) – Məhəmməd peyğəmbər və onun kəlamları haqqında hədisləri təşkil edən müqəddəs rəvayətlər məcmusu, sünnilik məzhəbinə etiqad edən müsəlmanların müqəddəs kitabları. Sünnə Qurana izahlı əlavələr verir və dini əhəmiyyətinə görə Qurandan sonra ikinci yer tutur. Təxminən VII əsrin ortasında meydana gəlmiş və sonrakı iki əsrdə inkişaf edərək yeni hədislər hesabına həcmcə artmışdır. IX əsrin ikinci yarısında toplanan on minlərlə hədisdən müəyyən miqdarı seçilmiş və Sünnə adı ilə 6 külliyyatda təshih edilmişdir. Bunların ən mötəbəri Buxarinin "əl-Cami əs-Səhih" kitabı 7275 hədisi ehtiva edir.

**SÜNNİLİK** – islamın əsas istiqaməti, müsəlmanların ən geniş yayılmış ortodoksal təriqəti. Müsəlman ölkələrinin əsas əhalisi sünnilərdir, sayca daha az olan şiələr yalnız İran, Yəmən və cənubi İraqda, Azərbaycanda və Tacikistanın dağlıq bölgələrində yayılmışdır.

# Ş

**ŞABUOT,** şevuot (*qədim yəhudicə* həftələr bayramı) – əvvəllər yəhudi əkinçilik bayramı idi ("biçin bayramı", Xuruc, XXIII, 16), sonralar Allah tərəfindən Sina dağında yəhudi xalqına "qanunun bəxş olunması" münasibətilə bayram kimi şərh olunub. Pasxadan 50 gün sonra keçirilir.

**ŞAFEİ,** Əş-Şafii əl-İmam Əbu Abdullah Məhəmməd ibn İdris – Şafei məzhəblərinin banisi. 767-ci ildə Qəzzə şəhərində anadan olub. Özü qureyşilərdən idi, Haşimi kimi Peyğəmbərə uzaqdan qohumluğu var idi. Anası bəzi rəvayətlərə görə Əlinin ailəsindən idi. Kiçik yaşından yetim qalan Şafei anası ilə Məkkəyə köçüb orada böyümüşdü. Təqribən 20 yaşında Mədinəyə, Malik ibn Anasın yanına gedərək, onun 796-cı ildə ölümünə qədər orada qaldı. Bundan sonra Yəməndə dövlət məmuru oldu. Burada Ələvilərin gizli fəaliyyətinə qarışdı və hətta Zeydi imamı Yəhya ibn Abdullaha beyət etdi. 803-cü ildə başqa ələvilər kimi tutularaq xəlifə Harun ər-Rəşidin yanına, Raqqa şəhərinə gətirildi. 804-cü ildə Şafei Misirə gedir və Malik ibn Anasın tələbəsi kimi yaxşı qarşılanır. 811-ci ildə Bağdada gəlir və dərs deyir. 814-cü ildə yenə Misirə qayıdaraq h. 204-cü il Rəcəbin sonuncu günündə (820-ci il yanvarın 20-si) Fustatda vəfat edir və əl-Muqəttam dağının ətəyində, Bənu Əbdülhəkəm türbəsində dəfn olunur. Silahəddin Əyyubi burada böyük və geniş bir mədrəsə tikdirmişdir. Bu türbə daimi ziyarətgaha çevrilmişdir.

Şafei mövcud olan bütün fiqh məsələləri ilə məşğul olmuşdur. "Ər-Risalə"də fiqh elminin təməllərini və üsullarını araşdırmışdır. Buna görə o, üsul əl-fiqhin banisi hesab olunur. Deyilənə görə, Şafeinin yazıları və dərslərinin məcmuəsi yeddi cildlik "Kitab əl-ümm" əsərini təşkil edir.

Şafeinin tədris fəaliyyəti ilə məşğul olduğu əsas yer – Bağdad və Qahirə idi. Şafeilər əhl ər-rəyin mərkəzi olan Bağdaddan başqa, IX və X əsrlərdə digər yerlərdə də çoxlu tərəfdar qazanmışdılar. X əsrdə onların əsas yurdları Məkkə və Mədinə sayılırdı. X əsrin əvvəlində şafeilər Suriyada yerli dini sülalələrlə mübarizə aparacaq Əbu Zürədən etibarən (915) Diməşq qazılığı məqamını əllərinə almışdılar. X əsrdən şafeilər Suriya, Kirman və Buxaranın bütövlüklə və Xorasanın böyük hissəsinin qazılıqlarına sahib idilər. Bundan başqa Şimali Əlcəzairdə və Deyləmdə güclü təmsil olunurdular. XI və XII əsrlərdə şafeilər Qəznədəki Quri hökmdarlarını öz tərəflərinə çəkmişdilər. Onlar Bağdadda hənbəlilər, İsfahanda hənəfilər ilə fasiləsiz küçə savaşları aparırdılar. Yaqut əl-Həməvinin (1227-ci ildə vəfat etmişdir) yaşadığı dövrdə Reydə şafeilər, şiələr və hənbəlilərlə mübarizədə üstünlük əldə etmişdilər. Misirdə şafeilər Salahəddin Əyyubinin dövründə (1169) təkrar hakim məzhəb sayılırdılar. Bununla bərabər sultan əl-Məlik əz-Zahir Beybars h. 663-cü il Zülqədə ayının 28-də

(II. IX. 1265) Qahirədə və h. 664-cü ildə Cumada əl-Əvvəlin 6-da (13. II. 1266) Diməşqdə Hənəfi, Maliki və Hənbəli baş qazılarını təyin etdi. Osmanlı hakimiyyətindən qabaqkı son əsrlərdə şafeilər islam ölkələrinin mərkəzlərində mütləq üstünlük təşkil edirdilər. XVI əsrin əvvəlində Osmanlı hakimiyyəti dövründə şafeilər hənəfilər tərəfindən yerlərindən qovulur və qazılıq vəzifələrinə İstanbuldan hənəfilər təyin olunurdular. Şafeilər İranda da Səfəvilərin zühuru ilə (1501) şiələr tərəfindən qovulub təqib edildilər. Buna rəğmən, Misir, Suriya və Hicaz şafei məzhəbinə bağlı qaldılar. Bu gün şafei məzhəbi bütün Cənubi Ərəbistanda, Bəhreyndə, Malayya adalarında, Tanzaniyada, Dağıstanda və bəzi Orta Asiya bölgələrində hakim durumdadır.

Məşhur şafeilər bunlardır: Mühəddis ən-Nəsai (915-ci ildə vəfat etmişdir), əl-Əşəri (?-955), əl-Məvardi (?-1058), əş-Şirazi (?-1083), İmam əl-Hərəmeyn (?-1085), əl-Ğəzzali (?-1111), Ər-Rəfii (?-1226), ən-Nəvavi (?-1277).

**ŞAKTİ** (sanskritcə – qüvvə, əzəmət) – induizmdə qadın surətində verilən ilahilərin yaradıcı qüvvələri. İlahə Sarasvati – Brahmanın, ilahə Lakşmi Vişnunun şaktiləridir. Başqa ilahilərə də xüsusi şaktilər aid edilir. Şiva döllədirən ilahi kimi təqdim olunur, onun Parvati, Durqa, Kali, Uma və b. adları daşıyan arvadı qadınlığı təcəssüm edirdi. Adları çəkilənlərin hamısı ana-ilahə Mahaşakti və ya Devi ilə bağlıdır. Mahaşakti ayini Hindistanda ən qədim ayinlərdəndir. Şakti ayininin ən etiqadlı ardıcılları şantilər təriqətini təşkil edirlər, bu da öz növbəsində bir neçə məzhəbə ayrılır. Bunların arasında olan dakşinaçarlar və ya "sağ yolla gedənlər" ("sağ əlin ayini") həm Durqaya, həm də Şivaya sitayiş edirlər, vamaçaralar ("sol əlin ayini") isə yalnız qadınlığa və analığa sitayiş edirlər.

**ŞAMANİZM**, şamanlıq (evenk dilində – şaman, saman) – ibtidai dini etiqadlar və ayinlər forması. Din kimi şamanizm aşağıdakı əlamətləri ilə – əsasən, şər ruhlara geniş animistik etiqadlar dairəsi (bu, şamanizmin məzhəb əsasını təşkil edir) və özlərini camaat qarşısında vəcdə gətirə bilən ayin xadimləri şamanlarla səciyyələnir. Bunlar ətrafdakılara mistik görüşləri təlqin etməyi bacaranlardır (kamlanlığın – şamanlığın xüsusi mərasimi vasitəsi ilə). Bu vaxt vəcdə gələn şaman mənasız çığır-bağır edir, guya ruhlar dünyasına təsir göstərən müxtəlif bədən və əl-qol hərəkətləri edir. Şamanların işlətdiyi xüsusi mərasim avadanlığı (dəf, çax-çax, xüsusi baş örtüyü, əba, kəmər və s.) vardır. Sözün dar mənasında şamanlıq – əsasən Sibirin aborigen xalqlarının dinidir. Şamanlıq tuvalılar, buryatlar, yakutlar, mansilər, xakaslar, tofalarlar, xantılar, şorlar, nenlər və başqa xalqlar arasında yayılıb.

**ŞAMAŞ** – babil-assur etiqadlarında – Günəş ilahəsi ilə (şumer ilahisi Babbaru ilə) eynidir, Ay ilahisi Sinin oğlu. Şamaş sitayişinin mərkəzləri Larsa və Sippar şəhərləri idi. Şamaş həqiqətin və ədalətin ilahisi sayılırdı.

**ŞAN-Dİ** (*çincə* ali hökmdar) – Qədim Çin dinində göyü təcəssüm edən ruh. Şan-di bütün ölkənin, dövlətin və hər bir insanın taleyinin sərəncamçısı kimi təsvir olunur. İmperator "Göy oğlu"

adlanırdı və ölkənin idarəetmə hüququnu o, Şan-didən almışdı.

**ŞEYX** – bu söz 50 yaşını keçmiş adamlara və yaşlı atalara şamilən işlənir, şeyx, həmçinin, qəbilə və ailə rəisidir (başçısıdır).

İslamdan qabaqkı dövrdə çox hallarda qəbilə rəisi ünvanı olan seyyid ilə, yaş və dolayısı ilə aqil olduğunu göstərən şeyx sifəti bir arada işlənirdi. Şeyxlərin bədəvilər üzərindəki əxlaqi təsiri mühüm idi. Nəhayət, bu təbir əsilnəcabətli rəislərə, şan və şöhrət sahibi olan və uzun illər xidmət etmiş əsgərlərə də şamil edilirdi.

İslam tarixində şeyx təbiri, xüsusən ərəb ənənələrini yenidən yaşatmağa çalışan və hakimiyyət iddiasında olan hökmdarlar yanında ən yüksək rəis mənasına uyğun gəlir. Məs., X əsrdə islahatçı Əbu Yəzid şeyx əl-möminin (möminlər şeyxi) ləqəbi daşıyırdı. Mədinə valisinin ünvanı şeyx əl-haramdır.

Bu gün nəzakət təbiri olub, eyni zamanda, möhtəşəm, hörmətli sifətlərini də ifadə edən bu ünvan böyük qürurla danışır. Eyni zamanda hər hansı iqtidara sahib olan hər kəs dünyəvi həyatda olduğu kimi ruhani həyatda da, ictimai həyatda olduğu kimi sufilik həyatında da bu ünvanı daşımaqdan xoşlanır. Bu ünvan yüksək mövqeyi olan din xadimlərinə, müdərrislərə, alimlərə, yaş fərqinə baxmadan təriqət mənsublarına və əxlaqi məziyyətlərinə görə hörmət edilən bütün şəxslərə verilir. Bu mənada islamiyyətin dini rəisi olan müftiyə şeyx əl-islam, polis komissarına şeyx əl-Mədinə, şəhərin bələdiyyə rəisinə şeyx əl-bələd təbirləri ünvanlanır. Əl-Buxari və Müslim başlıca iki şeyxdir.

Bir təriqətin qurucusuna verilmiş olan **şeyx** ünvanı eyni zamanda təriqət rütbələri silsiləsinin zirvəsindəki və hətta eyni beyətlə bu təriqətdən meydana gəlmiş olan başqa qolların başında duranlar tərəfindən daşınır. Ətrafındakıların ruhani və dünyəvi rəhbəri olan şeyx ət-təriqənin bütün əxlaqi məziyyətlərə sahib olması vacibdir; onun himməti uca, qənaətkar, bütün fəzilətlərə malik olması və bütün elmləri bilməsi lazımdır. Özünə bərəkət (uğur) ehsan edən Allahın lütfünə məzhər olmuş şeyx, Allah ilə bəndələr arasında vasitəçidir. Şeyxin şəriətə tam birlik və bağlılığı vardır, ruhların dərdini və dərmanını bilir. Qurucu və ya təriqəyə məxsus məlumatın varisi olaraq şeyx sirrə (öz idarəsinin – Qadirimütləqin iradəsi ilə dərketmə halına gəlməsi) sahibdir; sufilərin ənənələrini o davam etdirir. Şeyx, ancaq Allahın və ya axirətdə ilahi Ərşin yanında oturmuş və Cənabi-Haqqın hissləriylə dolmuş olan çox qüdrətli rəhbər – şeyxin təlqin etdiyi digər fikirlərdən ruhlanır. Nəzəri olaraq hər şeyi etməyə və bilməyə qadir olan şeyx, kəramət göstərmək mərhəmətinə malikdir. İbtidai sufilik tərbiyəsi alan tələbələrin (müridlərin) təlimatlarına cavabdeh olan şeyxlərin xüsusi ünvanları vardır. Birincisi şeyx əl-iradədir: bu, təriqətdə ən yüksək olan, iradəsi ilahi iradə içində ərimiş kimsədir. Şeyx əl-iqtida söz və əməllərinin təqlid edilməsi lazım gələn kimsədir. Şeyx əl-intisab müridin sayəsində təriqətə qəbul olunmuş dini xadimdir. Şeyx ət-təlqin müridlərə oxuyacağı kitabları

məsləhət görən mənəvi müəllimdir. Şeyx ət-tərbiyə müridlərin tərbiyəsi ilə məşğul olan şeyxdir.

Təriqət şeyxinin iqamət etdiyi binaya zaviyə deyilir. Şeyxlik vəzifəsinin ifası üçün bu şəxsin müəyyən qədər köməkçi və ya xidmətçisi – xəlifə və naib də olur.

**ŞEYXİLƏR,** Şeyxi – İranda Əhməd Əxsaninin müridləri olan müxalif şiə kəlamçıları. Kermanlı Hacı Məhəmməd Kərim xanın müəllimi olan rəştli Hacı Seyyid Kazım və 1827-ci ilin sonunda Təbrizdə Babı mühakimə və məhkum edən heyətə daxil olan Molla Məhəmməd Mamaqani ən məşhur kəlamçılar sayılır. Bunların əqidələri Babilərə yol açmışdır.

Onlar hədislərin həddən ziyadə olmasına və bunların tənqidsiz qəbuluna qarşı çıxırlar. Bu düşüncələrinə görə, onlar sünnülərə yaxındırlar.

Şeyxilər dinin və hədislərin əsaslarının yeni izahlarını verirlər: On iki imam, ilahi iradənin zühur etdiyi Yer və Allahın arzusunun şərhçiləri olub, xilqətin vacib səbəbidirlər. Əgər bunlar olmasaydı, Allah heç bir şeyi yaratmayacaqdı və bu halda onlar xilqətin nəhai qayəsidir. Uluhiyyətin təzahürləri onların vasitəsilə hasil olur, lakin onlar özlüklərində heç bir qüdrətə sahib deyil və sadəcə vasitədirlər. Şiə kəlamçıları tərəfindən haqsız olaraq şeyxilərə qarşı yönəldilmiş olan təvfiz ("Allahın qüdrətlərinin həvaləsi") ittihamı buradan irəli gəlir. Allah, yaradılmış heç bir varlığın düşüncəsinə sığmadığı üçün ancaq həqiqətdə, ən yüksək varlığın cövhəri olan imamlar vasitəsi ilə anlaşıla bilər. Onlara qarşı günah işlətmək, Allaha qarşı günah işlətməkdir. Lövhi-məxfuz bütün yer və göyləri əhatə edən imamın qəlbidir. İmamlar bütün məxluqatın başında olub, hamısından qabaqdadırlar.

Qiyamət təsəvvüründə şeyxilər cismani bəsi inkar etməkdə ittiham edilirlər. Onların fikrincə, insanın iki cismi vardır: biri, "insanın bəzən geyib, bəzən də çıxardığı paltar kimi" fani ünsürlərdən təşəkkül etmişdir ki, məzarda çürüyən budur. Bu torpaq halına gəldiyi vaxt varlığını mühafizə edən digəri qeyb aləmindən zühur edən narın bir cisimdir (cisim hüvarriliyan). Yer üzündə dirilən və sonra cənnət və ya cəhənnəmə gedən bu ikincisidir.

Bu düşüncə sonra şərh edilmişdir, zira onlar iki cəsəd və iki cisim (bu iki ərəbcə kəlmə də "bədən, vücud" mənasını verir) qəbul edirlər. İlk cəsəd görünən dörd ünsürdən təşəkkül edib; bu dünyada görülə bilən budur və bunun axirətdəki həyatla ilgisi yoxdur. İkinci cəsəd varlığını davam etdirir və axirətdə təkrar zühur edir. İlk cisim ruhun ölüm anından, surun ilk çalınışına qədər bərzaxda (cənnətlə cəhənnəm arasında olan bir yer) geyindiyi qəlibdir; ikinci cisim baqi qalır. İkinci cəsədə qayıdan ruh buna daxil olur (təcəssüd edir). Məzardan tamamilə təmizlənmiş çıxan bu ruh əbədidir.

Allahı bilmə (mərifətullah), Allah haqqında iki cür bilgi vardır: bizzat ən yüksək varlıq olub, ehtimallardan tamamilə azaddır; digəri sonradan yaradılmış (mühdas) yeni bir bilgidir. Bu bilgi məlum olan şeylərin varlığıdır və imamlar bu bilgiyə açılan qapılardır (bab).

Dünya zaman baxımından əbədi və mahiyyət baxımından yenidir, zira cöv-

hərlər olmasa, təsadüflər, istinad nöqtələri və ya əsasları olmadan şəkillər varlığa çatmazlar. Təsadüf fani bir yenilikdir, bəzən vardır, bəzən də qeyb olur. Onlar yoxluqdur və yoxluğa qayıdırlar. Bunun əksinə cövhər fani bir yenilik deyildir. Buna görə maddə, mahiyyəti etibarilə bir yenilikdir; o, əbədi olsa da, mazidə deyildir, əks təqdirdə gələcəkdə həyatın bir sonu olacaq cənnət və cəhənnəm qeyb olacaqlar. Cənnət, Peyğəmbər Əhli Beytinin mənsublarının, imamların sevgisidir. Cənnət və cəhənnəm insanların işləri vasitəsilə yaranmışlar.

İmamların maddi cisimləri ölümlərindən sonra məzarda çürüyür. Bu cəsədlərin narın olduqları doğrudursa, onlar dörd ünsürdən yaradılmış bəşər şəklində zühur edirlər; bəşəri cisimləri insanlara faydalı olmadığı anda onu aldıqları yerə atırlar və onların hər zərrəsi əslinə dönür. Halbuki şiələr, imamların cisimlərinin zamanın korlanmasına məruz qalmadığına inanırlar.

Məlum şeylərin əbədi olması mümkün deyildir. Onlar Tanrının mahiyyətindən başqadırlar, lakin bilik, biliyin mövzusundan qabaq mövcuddur. İlk bilik vardır: əsil bilik və yenidən yaradılmış bilik. Bu, sonuncusu, iki cürdür: imkani elm (ilm imkani) və əşya elmi (ilm akvani). Birincisi mövcudiyyətlərindən qabaq, ikincisi isə olduqları əşyaya aiddir.

Şeyxilər Allah tərəfindən xəlq edilmiş məxluqatın ilk sinfi olan və əsil yaradılışı (xəlq) qabaqlayan əmrə böyük əhəmiyyət verirlər. Birinci əmr dəyişməz sabit bir dünya inşa edir və zaman bu əmrlə mövcuddur. Buna görə də zaman əmrə təsir edə bilməz. Biliksiz məxluq biliyindən qabaqdır, halbuki bu, Allaha məxsus bir hal deyildir. Bu bilik məxluqda yenidir. O, Allah üçün yeni ola bilməz.

İnsanın özünüdərki hadisələrin bu inikası sayəsindədir. Bu inikas Allah üçün bəhs mövzusu deyildir. Əşya varlıqları baxımından mütəəddil və müxtəlif olduğuna görə Allahın əşya haqqındakı biliyində də çoxluq və mütəəddidlik vardır.

Nəsirəddin şahın səltənətinin əvvəlində müctəhidlərin bir qərarına görə, hər şeyxiyə ümumi hamama girmək qadağan edildikdə, Təbrizdə (1850-ci ildə) qarışıqlıq baş verdi. Vali iki firqə arasında sülhə nail ola bildi. Sonralar da şeyxilər firqəsi tərəfdarları təqiblərə uğrayırdılar.

**ŞEYXÜLİSLAM,** Şeyx əl-islam – X əsrin ikinci yarısında ortaya çıxan şərəf ünvanlarından biridir. İslam sözü ilə təşkil olunan digər şərəf ünvanlarının (calalülislam, izzülislam, seyfülislam kimi) dünyəvi iqtidar sahibləri (məs., Fatimi vəzirləri) tərəfindən işlənməsinə, müqabil şeyxülislam ünvanı, birinci hissəsi şeyx (məs., şeyxuddin) sözü olan başqa şərəf ünvanları kimi daim üləmalara və sufilərə xas olub qalmışdır: fiqh alimi Əsəd ibn əl-Furat, İbn Xaldun tərəfindən şeyxülfətya adlandırılmışdır. Bütün bu ünvanlardan yalnız şeyxülislam böyük ərazidə yayıla bilmişdir. XI əsrdə Xorasandakı şafeilərin rəisi olan İsmail ibn Əbdürrəhman şafeilər tərəfindən şeyxülislam adlandırılıb (Cüveynidə o, şeyxülislami-Xorasan adlanır), eyni dövrdə sufi Abdullah əl-Ənsarinin (1006-1088) müridləri

olan hənbəlilər də bu ünvanın öz şeyxilərinə aid olduğunu iddia edirdilər. XII əsrdə Fəxrəddin Razi də şeyxülislam adlanırdı. Sonrakı vaxtlarda bu ünvanı sufi şeyx Səfiuddin Ərdəbili və kəlamçı ət-Təftəzani də daşıyırdılar. Bu arada şeyxülislam, sadəcə fəqihlərə və xüsusən, Məmlüklər dövrünün başlanğıcında, fitvaları ilə şöhrət qazanmış fiqh alimlərinə verilən (qeyri-rəsmi) bir şərəf ünvanına çevrilmişdi. Beləliklə, h. 700-cü (1300) ilə qədər şeyxülislam təbiri şöhrət qazanmış hər müftinin özünə götürə biləcəyi ünvan olmuşdu. Mahmud ibn Süleyman əl-Kavafifi (1582-ci ildə ölüb) "əl-Əlam əl-əhyar min füqəha məzhəb ən-Numan əl-Muxtar" adlı hənəfilərə aid əsərində müftilər arasında ümumi mənada mübahisələr və müxtəlif məsələləri həll edənlərin şeyxülislam adlandırılmasını qeyd edir. Misirdə və Rusiyada son zamanlarda, Türkiyədə isə XVIII əsrə qədər şiə və sünni müftilər bu ünvanla adlanırdılar. İranda və Azərbaycanda ünvanın inkişafı başqa istiqamətdə olmuşdur. Burada şeyxülislam, hər mühüm şəhərdə molla və müctəhidlərin dini məhkəmə heyətinə rəyasət edən yüksək məhkəmə məmurudur.

**ŞEYTAN** – gizli, xəbis bir qüvvəni və ruhu ifadə edən bu söz lüğətlərdə "təkəbbürlü və asi olan cin və insan" mənasına uyğun gəlir. Sözün mənşəyi və düzəlməsi üzərində indiyə qədər çox dayanıblar. "Xəbis" mənasıyla (iblis) və yəhudilərdə "insan üstü varlıq" mənasında işlənmişdir. İslamdan qabaqkı ərəb mənşəli olduğu və bu iki mənanın qarşılıqlı surətdə bir-birlərinə təsir etdikləri qeyd olunur. Bəzi alimlərə görə, şeytan kəlməsi Peyğəmbərdən çox qabaq ərəbcədə var idi.

Şeytanın adlarından birisi də İblisdir. Quranda (əl-Bəqərə, 34; əl-Əraf, 11; əl-Hicr, 31; əl-İsra, 61; əl-Kəhf, 50; Taha, 116; Sad, 74, 75) Adəmin yaradılışı hadisəsində ilk insana səcdədən imtina edənin İblis olduğu zikr edilirsə də, cənnətdən qovulma hadisəsinin səbəbkarı Şeytan sayılır (b a x: **Quran,** əl-Əraf, 26; Taha, 120). Ancaq bu iki adın mənaları arasında fərq olduğu qəbul edilmir. Quranda cənnətdən qovulma hadisəsinin olduqca təfərrüatlı hekayəsini əl-Əraf surəsində tapırıq: İblisin Adəmə səcdə etməməsi dolayısı ilə (11-ci ayə) məzəmmətlənmiş, həqarətə məruz qalmış və Allahın rəhmətindən qovulmuş halda cənnətdən çıxarılmasına müqabil Adəm ilə Həvva cənnətdə qalmışlar (19-cu ayə). Bunlara bir ağac müstəsna olmaqla cənnətin hər cür nemətindən istifadə etmək izni verilmişkən, Şeytanın onları aldatması nəticəsində onlar yer üzünə qovuldular.

Dini ənənəyə görə, Şeytan bununla insana ilk pisliyini etmiş və Allahdan onları Qiyamət gününə qədər doğru yoldan çıxartma möhlətini almışdır (Quran, əl-Əraf, 14-16). Şeytanın insanları aldatmaqdan dolayı görəcəyi cəza Qiyamət gününə saxlanmışdır. O bu cəzasını cəhənnəm atəşində yanaraq çəkəcəkdir. Şeytan Quranda insanı aldadan (ən-Nisa, 120 əl-İsra, 64; Məhəmməd, 25), doğru yoldan uzaqlaşdıran (ən-Nisa, 60; ən-Nəml, 24; əl-Ənkəbut, 38), ara vuran (əl-Maidə, 91; Yusif, 100; əl-İsra, 53), ona Allahı belə unutduran

(əl-Mücadilə, 19), pis əməlləri süsləyib yaxşı göstərən (əl-Ənam, 43; əl-Ənfal, 48; ən-Nəhl, 63; ən-Nəml, 24; əl-Ənkəbut, 38) bir varlıq kimi təqdim olunur. Ondan Allaha sığınmaq lazım gəldiyi (əl-Əraf, 200; ən-Nəhl, 98) əmr edilir. Quran, ayrıca Şeytana uyanların Allaha şərik qoşmuş sayılacaqlarını (əl-Ənam, 121), Şeytanın Allaha qarşı nankor olduğunu (əl-İsra, 27) və peyğəmbərlərin də şeytanın hökmranlığından xilas ola bilmədiklərini (əl-Həcc, 52) bildirir.

**ŞƏHADƏT**, Şahada (*ər.*) – şahidin ifadəsi, gözüylə görən (şahidə – görmək), bir kimsənin gördüklərini bildirməsi, həm də dini və hüquqi mənada şahidlik deməkdir.

Dində şəhadət, islami iman iqrarıdır: "Allahdan başqa ilahi olmadığına və Məhəmmədin Allahın elçisi olduğuna şəhadət edirəm". Başqa mənada şəhadət islam uğrunda əldə silah döyüşmək və xüsusən islam yolunda cəhadda ölmək deməkdir. Döyüşdə ölən müsəlmana şəhid deyilir. Məşhəd – bir şəhidin məzarı deməkdir.

**ŞƏRH**, şarh (*ər.* – açma, izahetmə). Şərəhə – genişləndirmək, açmaq, sonra da izah etmək, şərh etmək, təşrih – anatomiyada cəsədləri açmaq mənasına uyğun gəlir.

1) Şərh, ilk ayəsi "köksünü sənin üçün açıb genişlətmədikmi?" olan Quranın 94-cü (əl-İnşirah) surəsinin adıdır. Bu ayə ilə bağlı bir əfsanə mövcuddur: Peyğəmbər hələ süd anasının yanında olarkən, köksü iki mələk tərəfindən yarılmış və bunlar onun qəlbini çıxarıb yuyaraq təkrar yerinə qoymuşlar. "Köksün açılması" dedikləri budur.

2) Şərh, müxtəlif elm sahələrində, incələnən bir əsərə yazılan izahdır. Bundan başqa ayrıca bir də haşiyə deyilən izahlar vardır. Ərəb və İran ədəbiyyatının həddindən artıq məşhur risalə və şeirləri şərh edilmişdir: "Müəlləqat adıyla bilinən ərəb şeirləri, farsca Məsnəvilər, fiqhlə bağlı Müvattaa, qrammatikaya aid Əlfiyyə. Quran üçün yazılan izahlara təfsir deyilir.

**ŞƏRİƏT** (ərəbcə – təlimat, qanun) – Quran və sünnə əsasında işlənmiş qanun külliyyatı. XI-XII əsrlərdə mükəmməl işlənmiş, Yaxın və Orta Şərqdə, inkişaf etmiş feodalizm dövründə tamamlanmışdır. Dövlət hüquq normalarını, iltizam, irsi, cinayət və ailə-nikah məsələlərini, mühakimə üsulunu və qəyyumluq haqqında təlimatları ehtiva edir. Şəxsi mülk və daşınan əmlak şəriətdə toxunulmazdır. Şəriətdə namaz, qüsl, oruc, zəkat və başqa dini vergilər, həcc və cəhad haqqında təfsilatlı təlimatlar var.

**ŞƏTTARİYYƏ**, Şattariyya – təriqət adı. Nə vaxt meydana gəldiyi kimi, adın mənşəyi də mübahisəlidir. Təriqətin banisi sayılan Abdullah əş-Şəttarinin hansı illərdə yaşadığına dair heç bir qeyd yoxdur. Nisbəsinin Şattari və ya Şuttari olduğu dəqiq müəyyən edilməyib. Şuttar şatirin cəmidir. Şatir, "çapar kimi uzaq məsafələri qısa bir vaxtda qət edən adam" mənasına uyğun gəlir. Bundan əlavə "pis xasiyyəti ilə öz ailə üzvlərini müşkül vəziyyətə salan və bundan dolayı ondan uzaqda yaşayıb, sonra tövbə edərək təkrar ailəsinə qayıdan adam", çevik, igid, bacarıqlı, hiyləgər, şahmat

oyunçusu, hökmdarın süvariləri önündə gedən əsgər mənasında da işlənmişdir. Türkcədə isə şən, nəşəli, xidmətə hazır şəxs, vaxtilə padşahın və böyük əyanların atı yanında gedən adamlar, xidmətkar mənalarına uyğun gəlir. Bu təriqətin mənsubları sözün "uzaq məsafələri qısa bir vaxtda qət edən adam" mənasını üstün tutublar. Buna görə təriqətin banisinə verilmiş adı şuttar yox, şəttar şəklində tələffüz etmək lazımdır.

Şəttariyyə imam Əbu Yəzid əl-İşqiyə izafə olunan İşqiyyə və ya onunla bağlı Bistamiyyə, yaxud da Təyfuriyyə təriqətinin qoludur. Allah yolunda qət olunması vacib olan mərhələləri ən qısa zamanda adətən uçub aşdıqları üçün bu təriqətə şəttariyyə adı verilmişdi. Banisi Abdullah əş-Şəttari, rəvayətə görə, Şihabəddin əs-Sührəvərdi soyundandır, XIV əsrin sonu ilə XV əsrin birinci yarısı arasında yaşamışdır. Abdullah Təyfuriyyə təriqəti şeyxlərindən Məhəmməd Arifin mürididir. Şeyxi ona Şəttar ləqəbi verir, xəlifəlik xirqəsi geydirib, təriqəti yaymaq üçün Hindistana göndərir. Əvvəlcə o, Bankipura, sonra da Cavnpura gedir və orada şöhrət tapır. Bir müddətdən sonra Caluh vilayətinə köçür və buranın hökmdarı Şəttara paytaxtda yer ayırır. O burada fəaliyyətinə davam edir. Şeyx Abdullah əş-Şəttarinin ölüm tarixi məlum deyil. Təriqət silsiləsi Təyfuriyyədən Şeyx Məhəmməd Arif – Şeyx Məhəmməd Aşiq – Şeyx Hudaquli Mavərvünnəhri – Əbülhəsən əl-Hərəqani... Əbu Yəzid əl-Bistami vasitəsilə İmam Cəfər əs-Sadiqə çatır. Yaratdığı təriqətin əsaslarından həbs edən Əşğali-Şəttariyyə adlı əsəri var.

Özünü bu təriqətə bağlayan şəxs ancaq əbrar və əhyar üçün lazımlı işi bitirib sirləri öyrənmək üçün dəvət edildikdən sonra Şəttar maşrabına girə bilər, zira Allahın yanında ən yüksək maşrab budur. Bu maşrabı keçən Allaha ən yaxınlaşan kimsədir. Allaha doğru yola çıxanların yolu ancaq Şəttar yoludur. Təriqət mənsublarına görə, şəhvətlərdən və nəfsin ləzzətlərindən çox uzaqlaşmış olan insan şeytanla vidalaşıb, bunları tamamilə unutmuşdur. Müfrit vəhdəti-vücudu olduqları üçün onları daim təklikdə görürlər. Öz zat, sifət və əməllərinə, Allahın zat, sifət və əməli nəzəri ilə baxırlar. Hallarından qətiyyən şikayət etməzlər, Allahın onlara verəcəyi ilə kifayətlənirlər.

**ŞİƏLİK** (şiə ərəbcə – dəstə, tərəfdarlar mənasındadır) – sünnilikdən sonra islamın ikinci (əhəmiyyətinə və sayına görə) istiqaməti. Şiəlik siyasi cərəyan kimi VII əsrin ikinci yarısında İraqda xəlifə Əlinin tərəfdarları arasında meydana gəlib. VII əsrin axırında və VIII əsrdə şiəlik siyasi hərəkat kimi İranda yayılıb. Şiələr Quranı ilahi vəhy kimi qəbul edirlər, lakin hesab edirlər ki, Əlinin haqqını sübut edən surənin biri və bir neçə ayat qəsdən Quranın Osman nüsxəsinə daxil edilməyibdir. İslam rəvayətlərində şiələr yalnız Əliyə və onun tərəfdarlarına aid olan hədisləri tanıyırlar. Bununla əlavə olaraq, şiələrin öz xüsusi müqəddəs rəvayətləri – xəbərləri və ya əxbarları var. Əlidən başqa bütün sünni xəlifələri şiələr qəsbkar hesab edir və on iki imamı onlara qarşı qoyurlar. Buna görə şiələrin ardıcıllarının çoxunu imamilər və ya əsnə əşə-

riyyələr adlandırırlar. Bu imamların sonuncusu Məhəmməd (873-cü ildə doğulub) qaib imam hesab olunur və naməlum, əlçatmaz yerdə qalır. Şiələrin inamlarına görə o yenidən qayıdıb yer üzündə ədalət dünyasını bərqərar edəcək. On ikinci imam bütün şiə dövlətlərinin hakimi hesab olunur və hökmranları onun canişinləridir. Şiələr üçün şəhidlər ayini səciyyəvidir, bütün imamlar şəhiddir, Hüseyn isə şəhidlər şəhididir. Şiələr Həzrət Əlinin məqbərəsi olan Nəcəfə, imam Hüseynin məqbərəsi olan Kərbəlaya, imam Rizanın məqbərəsi olan Məşhədə ziyarətə gedirlər. Şiələrin şəhid imamlarının adı ilə bağlı olan "qara" bayramları var. Onlardan ən əsaslısı Məhərrəm ayının 10-da keçirilən aşura günüdür. Yazda şiələr yeni il, Novruz bayramını keçirirlər. Ən tanınmış müctəhidlərin iqamətgahları İraqda Samirədə və İranda Qumda yerləşir.

Şiəlik ən çox İraqda və İranda (imamilik), Yəməndə (zeydilər) yayılıb, Əfqanıstanın, Pakistanın, Hindistanın şiələri ismaili məzhəbindəndir. Azərbaycanın və Tacikistanın əhalisinin müəyyən qismi şiələrdir.

**ŞİRK,** işrak (*ər.*) – ortaq etmək, Allaha şərik bağlamaq, yəni Allah yanında başqa bir tanrıya tapınmaq, ibadət etmək, çoxallahlıq. Quranın ən qədim surələrində, ilk Məkkə dövründə şirk və müşrikun məfhumlarına rast gəlinir. Peyğəmbər də əvvəlcə çox yaxında olacaq qiyamətin təsiri altında qalaraq, sadəcə camaatının aqibəti ilə məşğul olmuş və ancaq mömin olmayanların getdikcə artan düşmən davranışlarına görə onlarla maraqlanmağa başlamışdır. Quranın sonrakı hissələrində tez-tez bu kimsələrdən bəhs olunur və hətta bəzən müşriklərlə olan həqiqi münaqişələr burada yer tutur. Bu ayələrdə qiyamət haqqında xəbərdarlıqlar daim təkrar olunur: qiyamət qopan kimi müşriklər cəzalarını görəcəklər (Sad, 62 və s.). Nə qədər müşriklər bütlərini Allah yanında müdafiə etsələr də, bunların özlərinə heç bir faydası yoxdur (əl-Ənam, 94; Yunus, 18; ər-Rum, 13; əz-Zumər, 3, 38), hətta əksinə bütlər onlara inananlardan qiyamət günündə şikayət edəcəklər (Məryam, 82; Yunus, 28; və s.) və müşriklər ilə birlikdə cəhənnəm atəşində yanacaqlar (əl-Ənbiya, 98 və s.). Müşriklər dənizdə boğulmaqdan Allaha sığınıb xilas olmalarına rəğmən, Ona yenə də nankorluq edərək şərik bağlayırlar (əl-Əngəbut, 65). Möminlər onlardan uzaqda durmalı və müşrik qadınlarla evlənməməlidir (əl-Bəqərə, 221).

Hicri 9-cu ildə isə artıq müşriklərdən qəti surətdə üz döndərilmişdir (ət-Tövbə, 3; ayrıca bax daha qabaq nazil olan əl-Hicr, 94): müşriklər murdar kimsələrdir (ət-Tövbə, 28), əgər möminlər onların ən yaxın qohumları belə olsalar, onlar üçün dua etməməlidirlər (ət-Tövbə, 113 və s.).

**ŞİS** (*ibranicə* Şes) – Adəm və Həvvanın üçüncü oğlu (Tövrat, Kövn, IV, 25, 26 və V, 3-8), atası 130 yaşında olduğu vaxt və Habilin qətlindən beş il sonra doğulub. Adəm öldüyü vaxt onu özünə varis etmiş və vəsiyyətinin icrasına məmur etdirmiş; ona gündüz və gecənin saatlarını bildirmiş, gələcəkdə olacaq Tufandan xəbər vermiş, günün hər saatında təklikdə ibadət etməyi

öyrətmişdir. Habilin uşaqları olmadığı və Qabilin övladı Tufanda qeyb olduğu üçün, bütün insanların şəcərəsi Şisdən başlanır. Öldükdə ona oğlu Enos xələf oldu. Şis, Əbu Qubaya dağında mağarada ata-anasının yanında dəfn olundu. Öldüyü vaxt onun 912 yaşı var idi.

Sonrakı rəvayətlərə görə, Adəm xəstələnəndə, cənnətin yağ və zeytununa sahib olmağı arzuladı və bunları Allahdan istəmək üçün oğlu Şisi Sina dağına göndərdi. Allah Şisə kəşkülünü uzatmasını əmr etdi, kəşkül bir göz qırpımında Adəmin istədiyi şeylərlə doldu. Adəm vücudunu yağla ovdu, bir neçə zeytun yedi və sağaldı. Adəm saqqalsız, Şis saqqallı idi. Ona, suryanı dilində "müəllim" mənasında olan uriya (ibranicə or – işıq, nəzəriyyə) da deyilir. O, vücudunun quruluş və əxlaq baxımından tamamilə atasına oxşayırdı. Şis atasının sevimlisi idi. Həyatının çox hissəsini, doğum yeri olan Suriyada keçirmişdi. Dövrünün insanları iki yerə bölünmüşdülər: bir hissəsi ona itaət edirdi, bir hissəsi də Qabilin uşaqlarının tərəfdarları idilər. Nəsihətləri nəticəsində bu ikincilərin bir qismi hidayətə çatdılarsa da, başqaları üsyan etdilər.

**ŞİVA** – hind dinlərində ən qədim ilahilərdən biri və induist panteonunun əsas ilahisi (b a x: **induizm**). Şivaizm İnd çayı hövzəsinin arilərdən qabaqkı əhalisinin ən qədim ayinlərindəndir. Şivanın prototipi maldarların və ovçuların ilahisi, ilahi hamisi idi. Vedi dinində Şivanı ilahi Rudra ilə eyniləşdirirdilər. Sonralar Rudra Şiva adı ilə əvvəlcə brahmanizmdə, sonra induizmdə əsas yeri tutmuşdur. Şiva həyatın rəhmli xaliqi hesab olunurdu. O, eyni zamanda meyitlər yandırılan yer, həmçinin vəhşi heyvanlarla kabuslar arasında gəzən dəhşətli viran ilahisi idi. Adətən Şiva dördəlli, odlu dairədə rəqs edən ilanlardan boyunbağı gəzdirən görkəmdə təsvir edilir. Şivanın dünyanı rəqs vaxtı xəlq etdiyi iddia olunur.

**ŞU** (*Qədim Misir dilində* hərfən – boşluq) – Qədim Misir dinində yer ilahəsi Gebaya söykənib səmalar ilahəsi Nutu dəstəkləyən və onları bir-birindən ayıran hava fəzasının ilahisi. Onun arvadı rütubət ilahəsi Tefnut hesab edilirdi. Şu başı lələkli insan kimi təsvir olunurdu.

**ŞURAT** (ərəbcə tək halda Şari) – qatı xaricilərin özlərinə verdikləri ad. İlk Şurat, Əli ibn Əbu Talib tərəfindən Nihayla döyüşündə məğlub edildi. Bunların ən məşhur öldürülənləri Rəbiə qəbiləsinə mənsub olan Əbu Bilal Mirdas ibn Cavdar idi. Onlar tamamən ümidsiz də olsa, ədalət üçün "aralarında üç kişi sağ qalıncaya qədər" döyüşməyə and içmişdilər.

Belə fövqəladə siyasi gərginlik halı və ya şira xarici istilahı olaraq "zəfər" (zuhur), "müdafiə" (dəf) və sirr (kitman) hallarının əksi olaraq işlənir.

Geniş mənada Şurat adı bir para osmanlı, sicistanlı, azərbaycanlı, şəhrizorlu və ukbaralı (məsələn, Cübeyr ibn Qalib və Qərtəlusi kimi) şiralığa bağlı olduqlarını isbat etmiş bəzi xarici fəqihlərə verilmişdi.

**ŞÜEYB** – Quranda adı çəkilən bir peyğəmbərdir. Hud surəsinin 89-cu ayəsinə görə, Hud, Saleh və Lutdan sonra adı çəkilir. Məkkə dövrünün

ortalarına aid olan əş-Şüəra surəsinin 177-190-cı ayələrinə görə Şüeyb, əl-Hicr surəsinin 79; Sad surəsinin 13 və Qaf surəsinin 145-ci ayələrində adı çəkilən əshab əl-Əykənin yanına göndərilmişdi. Məkkədə nazil olan son əl-Əraf, 83-91, Hud, 84-95 və əl-Ənkəbut, 36 və s. surələrdə isə Mədyən əhalisinin "qardaşı" kimi görünür. Lakin daha sonrakı müfəssirlər onu, Musanın Mədyəndə yaşayan və əl-Qəsəs surəsinin 21-ci və sonrakı ayələrində (b a x: **əl-Maidə**, 45) adı çəkilən məchul qayınatası (Əhdi-Ətiqdə Yitro) ilə eyni qəbul etmişlər, ancaq bunun məhz Quranda heç bir isnad nöqtəsi yoxdur. Adı çəkilən parçalarda Şüeybdən aydın danışılmır. Başqa yerdə rastlanmayan bu adın mənşəyinin nə olduğunu müəyyən etməyə ehtiyac yoxdur.

Sonrakı rəvayətlərdən biri Şüeybin qəbrinin Qərn Xəttində olmasını göstərir.

**ŞÜUBİYYƏ** – Quranın 49-cu, əl-Huçurat surəsi. Bütün müsəlmanların bir-biri ilə qardaş və bir-birinə bərabər olduqlarını bildirir. Bu surənin 13-cü ayəsində belə deyilir: "Bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə (şüub və qabail) ayırdıq". Beyzavi (II, 276) ayənin bu hissəsini belə təfsir edir: "Hər kəs başqasını tanımalı, qarşılıqlı olaraq ataları və qəbilələri ilə öyünmək və bir-birinin rütbəsini əlindən almaq üçün deyil". Şüub sözü ərəbcədə, ərəb qəbilələrini (qabail), ərəb olmayan (əl-əcəm) qəbilələrdən ayırmaq məqsədi ilə ərəb olmayan (əl-əcəm) qəbilələr mənasında işlənmişdir. Bu baxımdan Şüubiyyə, ərəb qüruruna rəqib olan və ya ərəb olmayanları ərəblərdən üstün tutan, ərəblərə nifrət edən firqə idi. Bu firqəyə tərəfdar olana şüabi deyilirdi. Şərqdə iranlılara və xaricilərə görə şüubilik müəyyən bir xanədan və siyasət firqəsi idi. İranlılar şüabiləri zındıqlığı da ehtiva edən dini firqə sayırdılar. Şüubiyyə şiələr və başqa islam camaatından ayrılanlarla əlaqəli idi. Nəbatilərə görə şüubiyyə kəndlinin çölə qarşı duyduğu qədim ziddiyyət mənasını daşıyırdı. İranda şüubiyyə, ədəbi dil kimi farscanın canlandırılmasına çalışırdı. Əndəlusda şüubiyyə bütün ərəb mədəniyyətini qəbul etmiş, ərəbcə (əl-ərəbiyyə) bağlılıq və sünni müsəlmançılıqla öyünmüş, lakin ərəb irqinin üstünlüyünü iddiasını rədd etmişdir. Bu səbəbdən də şüubiyyə hərəkatının islam ölkələrində yeni dövr milliyyətçiliyi ilə bir növ yaxınlığı vardır.

T

**TABU** (Polineziya dilində – qadağan) – dini-ovsunlu tədbirin tətbiq olunma şərtinə qəti qadağan. Pozulması "fövqəltəbii" cəza, xəstəlik və ya ölümlə hədələnir. Tabu sistemi Polineziya adalarında həddindən artıq inkişaf etmişdir. Burada o, hətta dövlət qanunlarını əvəz edir.

**TA-HA** – Quranın 20-ci surəsidir, Məkkədə nazil olmuşdur. Ümumiyyətlə, qəbul edildiyinə görə 135 (və ya 132, 134, 140) ayədir. Surə Ta-ha deyə başlandığı üçün bu adı almışdır; başqa bir adı Surət əl-Kəlimdir. Ta-hanın mənasının izahı üçün müxtəlif təkliflər irəli sürülmüşdür. Sözün, Peyğəmbərin adlarından biri olduğu, əsmai-hüsnədən olduğu, çox ibadət edən Peyğəmbərə xitabən deyildiyi, vətaa ("basdı") felindən ta əmri ilə "ərz" və ya "ayaq" sözlərinin yerini tutan zamirdən təşəkkül edərək "ona (ərzə, yerə) bas" və ya "onu (ayağını) bas" mənasına uyğun gəldiyi ehtimal edilir. Müqattaat haqqında ümumi izahlara görə Peyğəmbərə edilmiş bir xitab olub, "ey kişi!", "ey insan!" mənasındadır. "Tahir, ya Hadi!"dən qısaltma kimi də təxmin edilir.

Peyğəmbərə xitab ilə başlanan surədə, yaradıcı Allahın birliyinə, əzəmət və qüdrətinə bir daha işarə edilir. Peyğəmbərə, qarşılaşdığı müxalifət və zorakılıqdan dolayı ümidsizliyə düşməsi, mütləq müvəffəq olacağı müjdələnərək özündən qabaq gəlmiş peyğəmbərlərin həyatları, onların mücadilə etdikləri şəxslər və toplular, bunların aqibətləri xatırladılır. Bu surədə Musanın qissəsi müfəssəl yada salınır (9-98). Qiyamət gününə və peyğəmbərlərə inanmayanların qiyamət günündəki hallarına təmas edilir. Adəm və Həvva, onları Şeytanın yoldan etməsi və cənnətdən ayrılmaları zikr edilir. Nəhayət, bütün bunlardan ibrət alınması tövsiyəsilə insanlar intibah və imana dəvət olunurlar.

**TALMUD** (*qədim yəhudicə* lameyddən – öyrənmə) – e.ə. IV əsrdən b.e. V əsrinə qədər meydana gəlmiş irihəcmli yəhudi dini ədəbiyyat məcmusu. Talmudun ən qədim hissəsi Mişna "Musanın qanunu"nu təkrar edib yeniləşdirir (Tövrat, Beş Kitab). Tövrat e.ə. V əsrdə yəhudilərin Babil əsarətindən qayıtmasından sonra hamıya bildirilib. Lakin bu vaxtdan fasiləsiz xarici işğalların təsiri altında qalıb, 73 il ərzində isə müstəqilliyini itirib. Bunun nəticəsində yəhudilər intensiv şəkildə Fələstindən kənarlara səpələniblər. Beləliklə də yəhudi diasporası əmələ gətiriblər. Artıq Tora əvvəlki halında yeni şəraitə uyğun gəlmirdi və e.ə. IV əsrdə meydana çıxan kitabçılar (soferim) "Musa qanunu"na yeni şərhlər verib, ondan yeni şəraitə uyğun qanun düzəltdilər. Sonrakı əsərlərdə kitabçıların işini fariseylər davam etdirdilər. Bunlardan biri – İohan ben Zaqqay, Yerusəlim ibadətgahının süqutundan sonra, Aralıq dənizi sahilində yerləşən Yabne şəhərciyində (müasir Təl-Əvivin yanında) Toranın

şifahi şərhlərini öyrədən tannaylar ("qanunöyrədənlər") məktəbini təsis edir. Yığılmış şərhlər birinci dəfə 210-cu ildə İyequda Ha-Nasi tərəfindən redaktə olunmuşdu. Bunlara Mişna adı verildi. Mişna altı bölməli 65 traktata (əsərə) bölündü. Birinci bölmə – Zeraim ("Əkinlər") 11 traktatdan ibarətdir. Burada əsasən əkinçiliyə aid qayda və dualardan söhbət gedir. İkinci bölmənin – Moed ("Bayramlar") 12 traktatı var və bunlarda dindarların dini bayramlarda davranışlarından bəhs olunur. Üçüncü bölmə – Naşim ("Arvadlar") 7 traktatdan ibarətdir, ailə hüququ və boşanma məsələləri izah olunur. Dördüncü bölmənin – Nezikin ("Xəsarət") 10 traktatı var, mülki və cinayət hüquqlarını əhatə edir. Beşinci bölmənin – Kolaşim (Dini-ayini qaydalar) qurbanvermə mərasiminə aid 11 traktatı var. Altıncı bölmə – Taxarot ("Təmizlənmə" ibadət təmizliyinə (paklığına) aid 12 traktatdan ibarətdir. Mişna Fələstin və Babilistanda şərhçilər (amorayların) tərəfindən hərtərəfli tədqiq olunmuşdur. Mişna şərhlərinin məcmusu Gemara adlanır və şərhlərin eyni zamanda həm Fələstində, həm də Babilistanda meydana gəlmələrinə görə Talmudun da iki növü var – Fələstin, Talmudu (Talmud Yeruşalmi) və Babil Talmudu (Talmud Bavli). Birincisi III, ikincisi V əsrdə redaktə olunub.

**TALMUD-TORA** – kasıb ailələrdən yeşibota daxil olmaq üçün oğlanların təhsil aldığı məktəb.

**TALUT** – Kitabi-Müqəddəsdə adı çəkilən məlik Saulun adıdır, Quranda (əl-Bəqərə, 247, 249) adı çəkilir. Talut sözü Caluta oxşar ahəng daşımış və bu iki sözdə Harut-Marut, Habil-Qabil, Yəcuc-Məcucda olduğu kimi bərabər zikr edilən cüt adlardakı səs oxşarlığı var.

Quranda (əl-Bəqərə, 274, 252) Talut belə təqdim olunur: Musa dövründən sonra İsrail oğulları məlik (hökmran) istədilər. Allah onlara hökmdar kimi Talutu göndərir. Xalq onu hökmdarlığa layiq görmədi. Buna görə peyğəmbərləri belə deyir: "Allah sizdən ötrü onu [bəyənib] seçmiş, elm və bədəncə (qüvvəcə) ona üstünlük vermişdir... Talutun padşahlıq əlaməti Musaya verilən sandığın sizə gəlməsidir. Onun içində [sizin üçün] bir rahatlıq (mənəvi bir qüvvə), həmçinin Musa və Harun nəslindən qalan şeylər vardır..." Talut xalqını bir çayın sahilində imtahana çəkir: bu çayın suyundan içən ondan deyil. Suyu içənlər, yəni sözünə qulaq asmayanlar ondan ayrılır, Talut və tərəfdarları isə çayı keçib Caluta qarşı döyüşə girirlər. Talut Calutu öldürür və hökmdar olur.

Kitabi-Müqəddəsdə Uşmuilin (Samuil) birinci kitabında da rəvayət edildiyinə görə İsrail oğulları özlərinə hökmdar istədilər (Birinci çarlıq, VIII), lakin bu yeni hökmdar hörmət qazanmadı (X, 27; XI, 12). Talut özü üçün yalnız bir kəfarət şəklinin mümkün olduğunu öyrənir: bu, ailəsinin üzvləri ilə birlikdə Allah yolunda döyüşmək və ölməkdir. Hökmdarlıqdan vaz keçir və Allah yolunda ölümə qovuşur.

**TAMMUZ**, duuzu, dumuzu – Şumer, Babil və Assurun dini inamlarında hər il ölən və yenidən dirilən suyun və münbitliyin gənc ilahisi. Ən qədim şumer əfsanələrində ilahi-çoban kimi təsvir

olunan Tammuz, axirət dünyasından çıxan və onu öz yerinə oraya göndərən ilahə İştarın qurbanı olmuşdur. Sonrakı babil-assur əsatirlərində, əksinə, İştar axirət dünyasına enib öz sevgilisi Tammuzu xilas etmək istəyirdi və buna yalnız dəhşətli əzablardan sonra nail ola bilir. Tammuz ayini Fələstində də yayılmışdı və burada Yaxve ayininə rəqib idi.

**TAMPLİYERLƏR** (*frans.* tamp – ibadətgah) – fransız feodalları tərəfindən Yerusəlimdə 118-ci ildə təşkil edilmiş və Fələstinlə Suriyada olan səlibçilər dövlətlərinin möhkəmlənməsi və genişlənməsi üçün təşkil edilmiş orta əsr hərbçi-rahiblər ordeni. Ordenin üzvləri üzərində qırmızı xaç olan ağ bürüncək geyirdilər. Səlib yürüşlərinin ilhamçılarından olan Bernar Klervorun təşəbbüsü ilə tampliyerlərin nizamnaməsi işləndi və ordenin üzvləri çoxlu imtiyazlar əldə etdilər. XII əsrin sonunda Qospitalyerlər ordeni ilə birlikdə Tampliyerlər Latın Yerusəlim krallığının ən nizamlı hərbi-siyasi qüvvəsinə çevrildilər. Üzvlərinin sayı 15 minə qalxdı. Ordenin bölmələri İngiltərə, Fransa, İtaliya, İspaniya, Portuqaliya, Çexiya, Macarıstan və başqa ölkələrdə də var idi. Tampliyerlər döyüş meydanlarında yox, daha çox tamahkarlıqda şöhrət qazanmışdılar; ordenin üzvləri ticarət və sələmçiliklə məşğul idilər. Səlib yürüşləri iflasa uğradıqdan sonra tampliyerlər 1291-ci ildə Fələstindən qovuldular. Bundan sonra onların mərkəzləri Kipr adasına, sonra isə Fransaya köçürüldü. Fransa kralı IV Gözəl Filipp dövlət daxilində dövlətlərini təşkil etmək arzusunda olan tampliyerlərə qarşı kəskin mübarizə aparırdı. İnkvizisiya məhkəməsi onların başçılarını küfrdə ittiham edib bir çoxunu yandırdı, ordenin əmlakı isə müsadirə olundu. Başqa ölkələrdə də tampliyerlərin aqibəti belə oldu. 1312-ci ildə Avinyon papası V Kliment ordeni ləğv etdi.

**TANİT** – karfagenlilərin dini etiqadlarında Ay ilahəsi. Yunanlarda Tanit Artemida adı ilə tanınırdı. Sonralar Tanit analıq ilahəsi hesab edilərək "ulu ana" və "Səma Yunonası" adlandırıldı. Tanit əlində aypara və göyərçin tutmuş qanadlı qadın şəklində təsvir olunurdu.

**TANNAYLAR** (*arameycə* tena – öyrətmək) – b.e. 10-220-ci illərində yəhudi "qanunöyrədənlər"i.

**TANRI**, Göy Tanrı – Şərq şivələrində bu söz ümumiyyətlə, incə sayılır; cağatayca Tenqri olub, başqa şivələrdə də buna yaxın şəkillərdədir. Teleutca (tenere – sağır nun) və Altay şivəsindəki (teneri) üçhecalı şəkilləri göstərmək olar. Qazan tatarları şivəsində Tenqri (tanrı) ilə yanaşı Təri əziz təsviri və bir də ismi-xass olaraq Teri-Birdi ki, burada Teri ("Tanrı" deməkdir) sözü vardır. Türkiyə türkcəsində qalın şəkildədir. Yakutcada da ayrıca üçhecalı olmaqla, yenə qalın (Tanara – sağır nunla) şəklindədir.

Qaşqarlı Mahmud ("Divan lüğət ət-türk", III, 376 və s.) belə deyir: "Tenqri, uca Tanrı mənasına uyğun gəlir. Kafirlər göyə tenqri deyirlər, böyük bir dağ, ulu bir ağac kimi gözlərinə ulu görünən hər şeyə tenqri deyirlər. Buna görə bunlara bənzər əşyalara səcdə edirlər; onlar hakim kişiyə də tenqriken deyirlər". Bu tenqriken qədim türkcə

bir ünvan kimi qəbul edilib: tenqriken hökmdar deməkdir.

Mani din sistemində "Tanrı" mənasında tenqriken işlədilir. Tenqrim sözü Turfan mətnlərində hökmdarın qızları və arvadları üçün işlənilmiş bir ünvan kimidir (bu şəkil burada xanım və begümün (begim) bugünkü forması ilə müqayisə edilir). Burada tenqri sözündən başqa şəkillər də zikr oluna bilər: tenqriçi – rahib (əslində Tenqri adamı); kuman dilində tenqrilik – ilahi, uyğurca tenqrilik – "dindar". Monqolca teqi (tanrı), türkcədən alınma sözdür.

Bugünkü Orta Asiya türk şivələrinin əksəriyyətində tenqri "Tanrı" və "göy" mənalarındadır. Türkiyə türkcəsində isə, bu söz (olduqca qədimləşmiş) yalnız "Allah" mənasında işlənmişdir.

Orxon-Yenisey kitabələrində Tenqri daim ilahi bir qüdrət kimi göstərilir: onun iradəsi ilə kaan (xaqan, hökmdar) iqtidara gəlir və şəxsən bu hökmdar Tenqri kimi və Tenqri doğumludur (tenqriteq tenqride bolmış) və Tenqri tərəfindən yaradılmışdır (tenqri yaratmış). Tenqri türk xalqını qoruyur, onun milli varlığını, daimiliyini təmin edir və türk bəylərinin düşmən üzərində qələbə çalmalarını dəstəkləyir. Bu sifətlə, xüsusən türklərin yamisi olaraq türk Tenqrisi deyə adlanır.

Buddizmin təsiri altında qalan manixeist türkcə istilahları arasında tanrı sözü bu şəkildə işlənmişdir: burada Tenqri, irani Yəzdə (və ya Bağ) müqabildir. Əvvəla bununla manixeist sisteminin ən yüksək varlığı, sonra da çirkin ruhlara (yeklər) qarşı olaraq təmiz ruhlar və ya təbii tanrılar, Yaruq, Tenqriler qəsd edilir. "İlk insan"ın adı Biş (baş) Tenqridir. Bu beş ünsürə də təkrar Tenqri adı əlavə edilir. Məsələn, Ot Tenqri, Atəş Tanrı, Su Tanrı, İşıq Tanrı və s. Tenqri "Göy" mənasında da işlənir, cənnətə Tenqri Yir deyilir.

Tenqri oğlı – Tanrı oğlu, Msixa Tenqri – Məsih Tanrı təbirləri də var.

Ərəbcə və farsca təbirlər (Xuda, Allah), türkcə Tenqri ilə müqabildir. Kutadqu Biliqdə ərəbcə Allah adına nadir hallarda rast gəlmək olar. Lakin bu əsərdə Tanrı adı olaraq sadəcə Tenqri keçmir, başqa türkcə sözlər də işlənir. Məsələn, Bayat kimi. Tenqri sözü bu mətndə bəzən Təala ilə birlikdə işlənir.

Tenqribirdi, Tanrıverdi (Tarverdi), Tenqriquli kimi ismi-xaslar, farsca Xudadad, Xudabəndə kimi adlara uyğun gəlir.

**TARTAR** – yunan əsatirində cəhənnəmin bir hissəsinin allahı və hökmdarı. Olimp ilahiləri məğlub etdikləri nəhəngləri (titanları) buraya salırdılar.

**TATHAQATA** (*sanskritcə* – qabaqda gedən buddaların ardınca həmin yolla gedənlər) – buddistlərin Tautamaya və həmçinin arxatlara verdiyi ləqəb.

**TAUSİ**, Tausi – rafizi şiə təriqəti. Nemətullahilərdən ayrılan isfahanlı Taus əl-Urafa adlanan Ağa Məhəmməd Kazim Tonbaki-Furuşdan başlanır. Nemətullahiyyə təriqətinin İsfahandakı nümayəndəsi Rəhmət Əli Şahi-Şirazinin "Bustan əs-siyahat" adlı kitabın müəllifi Mustəli Şahın xələfi) ölümündən sonra Taus onun yerinə keçən Hacı Ağa Şahı tanımağı rədd etdi. 1864-cü ildə axundlar tərəfindən İsfahandan çıxarılanda o, müridi Riza Qulu xan Siracəlmülkün yardımı ilə Tehranda yerləşdi.

Məkkə ziyarətindən sonra Tehranda vəfat etdi və Şah Əbdüləzim qəbiristanında dəfn olundu.

Dərviş Səadət Əli ləqəbi ilə tanınan Taus savadsız idi. Öləndən sonra ona oğulları deyil, Günabadlı Hacı Molla Sultan adında birisi xələf oldu. Bu şəxs Tausi əqidəsinin gerçək müəllifi və təriqətin tərəfdarlarının təşkilatçısı kimi qəbul edilməlidir. Əmisi tərəfindən böyüdülən yetim Hacı Molla Sultan əvvəllər çox çətinliklərlə qarşılaşmış və ancaq 17 yaşında təhsilə başlamışdır. Əvvəl Məşhəddə, sonra da Kərbəlada və Nəcəfdə oxumuşdur. Təhsilini bitirib, bir müddət Tehranda Mədrəsəyi-Sədrdə dərs demiş, lakin babilikdə ittiham olunaraq şəhərdən qaçmış və Xorasana gəlmişdir. Səbzəvara çatıb, dövrün məşhur ustalarından Hacı Molla Hadinin məktəbində çalışmışdır. Burada başqa müridlər arasında (Seyyid Əhməd Ədibi-Pişəvari də daxil olmaqla) Tausa rast gəldi. Daha sonra hikmət və irfan elmlərində kamilliyə çatanda Hacı Molla Sultan Tausun yaxınlarından biri, sonra da xələfi oldu. Yavaş-yavaş adı çəkilən Siracəlmülkün yaxını olan Mirzə Hümeyninin köməyi ilə Hacı Molla Sultanın şöhrəti artdı və bir qədər sonra o, yeni təriqətin mərkəzinə çevrilən Günabadda tərəfdarlarını çoxaltdı. Bu adam 1293 (1876)-cü ildə Ta usilərin qütbü oldu və uzun fəal həyatdan sonra 1327 (1909)-ci ildə öldü. Oğulları Nur Əli Şah və Safi Əli Şah xələf oldular.

Uzun illər Hacı Molla Sultanın müridlərindən olan və bu xüsusda bizə yeganə bilgi verən Hacı Şeyx Abbas Əli Keyvani Qəzviniyə görə onun əqidəsi üç mərhələdən ibarətdir (sufilərdə olduğu kimi, yolu davam etmək və dərəcədərəcə kamala çatmaq). Birincisində (təriqai-müridləri) Molla, özünün, örnək alınacaq və təqlid ediləcək (mərceitəqlid) bir alim olduğunu iddia edirdi: "Başqa üləma şəxsən vəz etdiklərini yerinə yetirmir, halbuki mən təşkil etdiyim misalın qüvvətiylə sizdən eyni şeyi etmənizi istəyirəm". İkinci mərhələdə, Molla imamlıq iddiasında oldu. İmam, əsla cəsədində gizli deyil, yəni o, məchuldur (qomnam). İmamdan istədiyiniz bəndədir və imamın özünə, sadiqlərdən istədiyi şey mənim müridlərimdə olmalıdır. Bunlar, itaət, mal və mülkü tərk etmək, verilən şərəflər, birlik və sairədir. Nəhayət, üçüncü mərhələdə ona sanki ilahi bir qüvvət verilir: "Bütün 124 peyğəmbər və 12 imam bəndədir, mən onların hamısının xələfi və nümayəndəsiyəm. Əgər hər hansı biri və ya hamısı təkrar qayıdarsa, mənə itaət edəcək və heç bir müstəqillik etməyəcəklər. Təbii dünyanın bütün fövqəladə və xariqüladə hadisələri mənim əmrim və müsaidəmlə, hətta vasitəsiz əməlimlə ola bilər. Quranın, namazın, həccin və sairənin batini mənası mənəm. Gizli və aşkar nə varsa, mənə məchul və ya iqtidarımın xaricində deyil. Mənim etdiyim hər şey Allahın xüsusi əmri ilədir. Mənə hər vaxt ilahi gizli vəhylər nazil olunur. Ölülərin və ya canlıların, mələklərin hər işi mənim əmrimlə yerinə yetirilir. 12 il iradəsini tərk edib sadəcə mənə itaət edəcək kimsə, nəticədə yeni bir ruhla kamil insan (insanikamil) halına gələcək. Bütün bəşəriyyət üçün mən bu ikinci ruhun mənbəyiyəm.

Bütün dünyanın ruhu mənim ruhumdadır və hər fərdə bir ruh versəm də, mənim ruhum tam olaraq yerində qalır. Hər dövrdə mənim kimi bir şəxsin mövcudiyyəti lazımdır. Bu şəxs olmasa, dünyanın əsas hissələri dağılar və təbiətin bütün tərkibedici ünsürləri qeyb olar".

Hacı Molla Sultanın bu yarı ilahilik iddiaları açıq deyil, işarələr, təlqinlərlə, daha saf qəlbli müridləri qarşısında bu tərzdə ifadə olunurdu: "O halda hər dövrdə yer üzündə hakimiyyət bütün sahələr (təmədduni, siyasi, tədəyyüni, ruhi, axirəti) üzərinə şamil edilən mütləq qüdrətli (muxtari-mütləq) Allahın bir təmsilçisi olmuşdur. O, keçmiş qanunları ləğv və ya mühafizə edir. Buna Peyğəmbər, imam, qütb, gövs, xuda və məbudiəsli adı verilir və o, müxtəlif şəkillər altında bəzən tamamilə bəşəriyyət, bəzən də tək bir insan şəklində zühur edir. Beləliklə, o, Musa, sonra Əli və nəsli, Cüneyd və xələfləri, arxalarınca Taus əl-Urafa və mən oluram. Bütün dinlərdə, bütün şəkillərdə olan hər şey, bu şəxsiyyət tərəfindən olmuşdur. Hər zaman qeyb və zühur var olmuşdur. Sələfləri üçün xatim olan kimsə, sırasında özünü hökmsüz qoyduğu xələfləri üçün fatihdir. Belə ki, bəhs mövzusu olan şəxsiyyət, eyni zamanda xatim, fatih, nasih və mənsuh, ayrıca nəbi, vali, rasi, Musa və qütb əl-əqtabdır. O, Allahın xəlifəlik dairəsinin mərkəzi (mərkəzi-daireyi Xilafat Allah), eyni zamanda dairənin mühiti (mühiti-dairə) və sabit qütb (qütbi-sabit) və ya fərq edilməyən sürətli hərəkətlərin böyük məntəqəsi (məntəqəyi-əzimeyi hərəkəti şəriəi qeyri-məriə): müxtəlif genişlikdəki dairəvi hərəkətlərin döndərəni (müdiri-müdarati mütavaziya müxtəlifətil-hərəkə), öz mələk təbiəti labüdlüyü ilə kamala çatmamış müridlərə gizli və hökmdarlıq iqtidarı vasitəsiylə, mələki varlıq görünüşü (çeşmi-məlkut bini) əldə edən kamil müridlərə görünən bir və bütün günəşlərdir. Bu şəxslərdən bu vəsflərə çatan tam zühuru gerçəkləşdirəcək.

H. 1350 (1931-32)-ci ildə Tehranda nəşr edilən "Kitabe raz qoşa ke nasuhi pənzah porsiş əst" adlı əsər Tausilərə həsr olunmuşdur.

**TAVAF** (*ər.*) – bir şeyin ətrafında dolanma, ibadət zamanı mübarək bir şeyin, daşın, mehrabın və s. ətrafında dolanmaq. Bu adət israillilərdə də var idi (b a x: **Zəbur**) və ikinci məbəd dövründə israillilərin qamış bayramları mərasimi keçirilirdi. Mərasimdə birinci altı gün bir dəfə, yeddinci gündə yeddi dəfə mehrabın ətrafına dolanırdılar. Bu ibadət tərzi iranlılar, hindular, buddistlər, romalılar və başqalarında da vardır və çox qədim bir dövrə gedib çıxır.

Tavaf qədim ərəblərin ibadət həyatında çox əhəmiyyətli bir yer tuturdu. Tavaf ilə eyni mənada onlar davar sözünün bəzən onun yerini tutduğunu görürük. İmrülqeys (əl-Müəlləqə, s. 63), vəhşi öküzləri büt ətrafında dolanan uzun ətəkli gənc qızlara bənzədir. Məkkədə, divarına qara daş (əl-Həcar əl-Əsvəd) yerləşdirilmiş Kəbənin ətrafında dolanırdılar (tavaf əl-beyt). İslam dininin qaydalarında İbrahimin dininə qədər gedib çıxan bu ibadət də yer aldı və Kəbə bu ibadətlərin mərkəzi oldu. Peyğəmbər, hicrətin 8-ci ilində, doğulduğu

şəhərə zəfərlə daxil olanda, dəvəsinin üstündə əyri əsası ilə rükn əl-əsvədə (Kəbənin əl-Həcər əl-Əsvədin olduğu guşəsi) toxunaraq tavafı əda etdi. Lakin tavafın əsasları qəti hökmlərə Peyğəmbərin vəfatından bir az qabaq, "vida həcci" vaxtında bağlandı. Bununla bərabər qədim ənənəvi şəkillərin (bunlar İbrahimdən gəlirdi) saxlanıldığı qətiyyətlə qəbul olunur. Kəbə ətrafında dolanış fasiləsiz yeddi dəfə icra olunur. Bunlardan ilk üç dolanış olduqca sürətli yeriməklə əl-Həcər əl-Əsvəddən başlamaq və yenə eyni guşədə tamamlamaq və bu əsnada Kəbəni daim sağda qoymaqla yerinə yetirilirdi. Əvvəllər, mümkünsə daşı öpmək, əks təqdirdə mütləq ona əl sürtmək lazım idi (tavafda hər dolanışa bir savt deyilir. Buna görə bir tavaf yeddi savtdan ibarətdir. Tavaf edənə taif deyilir).

Bu adətə gətirilən islami yenilikləri də nəzərə almaq vacibdir: Məkkəyə gedilən zaman edilən tavaf ət-təhiyə, tavaf əlqa və ya tavaf əl-qudum (salam və ya gəliş tavafı) ilə Nəhr günü Minadan Məkkəyə enilən vaxt yerinə yetirilən və adətin son mərhələsini təşkil edən tavaf əs-sədər və ya tavaf əl-vida (qayıtma və ya ayrılıq tavafı). Peyğəmbər tərəfindən, qədim bütpərəstlik adətlərindən olan bu tavaf qətiyyətlə qadağan edilmişdi: bu adət fürsət olanda tətbiq edilirdi və tamam çılpaq halda ibadət etməkdən ibarət idi.

**TEVTONLAR ORDENİ** (*köhnə alman.* teutones – alman təbiləsinin adı; buradan teuç, doyçe – alman), Yerusəlimdəki Müqəddəs Məryam evinin qardaşları" – 1190-cı ildə Yerusəlimdə olan qospitalın ("Müqəddəs Məryamın evi") əsasında alman feodal səlibçiləri üçün təşkil edilmiş katolik hərbçi-rahiblər ordenlərindən biri. 1191 və 1199-cu illərdə orden papalar III Klement və III İnnokenti tərəfindən təsdiq edilmişdir. Başqa ordenlərlə (b a x: **Qospitalyerlər, Tampliyerlər**) kəskin mübarizədən sonra Tevtonlar ordeni Fələstindən xaric edilib 1226-cı ildə Şimali-Şərqi Avropada yerləşdi. Polşa knyazı Konrad Mazovetski ordenə Xalmno vilayətini verib, ona prusların torpaqlarını işğal etməyi təklif etdi. 1230-cu ildən başlayaraq tevtonlar 50 ildən artıq pruslarla müharibə edib torpaqlarını zəbt etdilər. Estlərin torpaqlarını işğal edəndə rusların müqaviməti ilə rastlaşdılar. 1242-ci ildə Çud gölü üzərindəki döyüşdə Tevtonlar Aleksandr Nevskinin qoşunları tərəfindən məğlub edildi. XV əsrin əvvəlində Tevtonlar Polşa və Litvaya basqınlar etdilər, lakin 1410-cu ildə Qrünvald döyüşündə darmadağın edildilər.

**TƏFSİR** (*ər.*) – "örtülü və ya qapalı bir şeyi meydana, açıqlığa çıxarmaq, şərh, izah etmək" mənasına uyğun gəlir. Söz ərəbcə elmi və fəlsəfi əsərləri izah etmək mənasında işlədildiyi üçün, şərh sözü ilə də sinonimdir. Ərəbcəyə tərcümə edilmiş, həmçinin ərəb dilində yazılmış bir çox elmi və fəlsəfi əsərlərə şərh mənasında təfsirlər yazılmışdır.

Təfsir insan idrakının və dil bilgisinin verdiyi imkan daxilində Quranın mətninin mənasından bəhs edən adıdır. Elm əl-Quran vət-təfsir kimi adlanan bu elm bölməsi, hədisin xüsusi və mühüm bir qismini təşkil edir. Təfsirdə, Qurana

dair sərbəst şəkildə yazılmış bir neçə ümumi əsər mövcud olmaqla bərabər bu qəbil əsərlərin əksəriyyəti, onun mətnini müntəzəm sıra ilə təqib edərək, cümlə-cümlə və bəzən hətta söz-söz izah edən təfsirlərdir. Bu cür təfsirlər çoxdur və bunların ən məşhurları Təbəri, Zəməxşəri və Beyzavinin təfsirləridir.

Böyük tarixçi olmuş Təbərinin (923-cü ildə vəfat etmişdir) çox qiymətli əsər olan Təfsiri, ravilər zəncirinə (isnad) əsaslanan çoxlu hədisləri ehtiva edir. Zəməxşəri (1144-cü ildə vəfat etmişdir), iti zəkaya sahib olduğu qədər, incə ruhlu əxlaqiyyətçi və çox geniş bilgiyə malik olan dilşünas idi. Təfsiri (əl-Kəşşaf) sanballı əsər sayılır. Təftəzani (?-1390) və Seyyid Şərif Curcani (?-1413) kimi məşhur ilahiyyatçıların haqqında haşiyələrdə yazmışdır. Əl-Bəyzavinin (?-1286) təfsiri isə çox rəvacda olub mədrəsələrdə tədris edilirdi. Bu əsər müsəlmanların Quranın təfsiri xüsusundakı etiqadını təsbit etmiş və dəfələrlə şərh edilmişdir. Digər təfsirlər arasında "ət-Təfsir əl-Kəbir" ("Məfatix əl-qeyb") kimi adlandırılan Fəxrəddin ər-Razi (?-1209) və Bursalı İsmayıl Haqqının (?-1715) təfsirlərinin adı çəkilməlidir.

Farsca bu sahədə ən böyük təfsir Abdullah Ənsari tərəfindən yazılmışsa da, günümüzə qədər gəlib çatmayıb. Əbu Fəzl Rəşidəddin əl-Məybudi bundan faydalanaraq, hicri 520 (1126)-ci ildə "Kəşf əl-əsrar və üddət əl-əbrar" (Tehran, 1331-1339 h. ş. 10 cild) adlı böyük əsərini yazmışdır.

**TƏKKƏ** (*türkcə*) – dərvişlərin zaviyəsi.

**TƏNASUH**, Tanasuh, ruhun köçməsi – Hindistanda və islam aləmindəki bir çox firqələrdə yayılmış inam. Tənasuha dair məlumat verən müsəlman müəllifləri, bunu daha çox hindlilərlə bağlayırlar.

Biruni Hindistan haqqında yazdığı kitabında, ruhun dolaşmasına dair bir fəsil ayırıb. Onun fikrincə, bu, islamiyyətdə Allahın birliyinə olan etiqad kimi, hindu dininin Sehibbolatıdır. O, Vasudeva və Patancalinin adlarını çəkir, bunların fikirlərini Əflatun, Proklus və sufilərin nöqteyi-nəzərləri ilə müqayisə edərək hindu filosoflarının bu düşüncəsini zikr edir: onlara görə, ruhun kainatını əhatə edən şeylərin müxtəlifliyini qavraya bilməsi üçün tək bir həyat çox qısadır.

Şəhrəstani "tənasuh əhli"nə dair bəhsində bu sözü geniş mənada müzakirə edir. Ona görə tənasuh, dünyadakı həyatlar və bir-birini təqib edən yenidən doğuşlar əqidəsidir. Onun iddiasına görə bütün millətlər arasında tənasuha ən çox inanan hindlilərdir. Onlar Zümrüdü-Anka hekayəsini anladıb, kainatda da eyni şeyin əmələ gəldiyini söyləyirlər. Müəyyən saydakı dövrlərdən sonra səma kürələri, ulduzlar, hamısı təkrar eyni nöqtəyə gəlir və kainatın həyatı yenidən başlanır. Bu dövrün müddəti bəzilərinə görə 30 min, bəzilərinə görə isə 360 min ildir. Məsudi (Muruc, 1, 163) də bu böyük dövrdən bəhs edir və dövrlərə 70 min illik bir zaman ayırır. Bu düşüncə qədim yunan astronomlarına da məlum olub, buna "böyük il" deyirdilər.

Başqa bir mənada tənasuh, ilahi ruhun dünyamızda yaşayan varlıqlar arasında yayılıb bölünməsidir. Şəhrəstaninin bildirdiyinə görə, qatı şiələr tənasuha və ilahi ilk cövhərin bütün və ya bir qism insanlara enəcəyinə və onlarda qərar tutacağına (hülul) inanırdılar. Bu növ tənasuha etiqad onu Məzdəki sehrbazlar, hindli brahmanlar, filosoflar və sabilərdən almış olan bir çox xalqlarda da var. Əli ibn Osman ibn Əli əl-Hücviri (1072-ci ildə ölüb) hüluli adını verdiyi bir sufi təriqətindən danışır; bunlar müxtəlif vücudlara dağılıb onlara hülul edən sonsuz bir ilahi ruhun varlığına inanırlar. Hücvirinin iddia etdiyinə görə xristianların bir qismi, bütün hindlilər, tibetlilər və çinlilər, eləcə də qərmətilər və ismaililər bu ruha inanırlar. Tənasuhun dörd dərəcəsi vardır: nəsh, məsh, fəsh və rəsh.

Tənasuh etiqadı ruhun bir vücuddan digərinə keçməsi anlamında bir çox şiə firqələrində də vardır. Şəhrəstaniyə görə mötəzililərdə Əhməd ibn Haitin şagirdləri Allahın canlı məxluqatı, hansısa itaətsizlikdə cinayət edənləri günahlarının ağırlığına görə insan və ya heyvan kimi bu dünyaya göndərdiyini və bunların günahlarından təmizlənənə qədər bir şəkildən başqa şəklə düşmələrini təlim edirdilər.

İsmaililər ruhun heyvan vücuduna keçməsinə inanmazdılar, lakin bir-birini təqib edən, ruhların imamı tanıyana qədər doğulma və ölüm aləmləri arasında gedib-gəldikləri həyat dövrlərinə inanırdılar. Bu ruhlar sonra nur aləminə yüksəlirdi.

Nüseyrilər öz dinlərindəki günahkarların yəhudi, sünni müsəlman və ya xristian kimi dünyaya qayıtmalarına inanırlar. Onların əqidəsincə Əlini heç tanımayan imansızlar dəvə, qatır, eşşək, it və ya bunlara oxşar heyvanlar olacaq. Nüseyrilərdə tənasuhun yeddi qədəməsi var; bu yeddi qədəmədən keçən mömin ruh yenidən ulduzlara yüksəlir. Kürdlər və yezidilərin etiqadlarına görə, ruhlar insan və ya heyvanların vücudunda, ya da bir-birini 72 illik fasilə ilə təqib edən varlıqlarda dolaşırlar.

**TƏRAVİH**, Taravih – Ramazan ayına məxsus olmaqla, gün batandan iki saat sonra və vitrdən qabaq qılınan iyirmi rükətlik gecə namazı. Təravih sözü tərvihanın cəmi olsa da, müfrəddə rastlanmır. Tərviha sözü əslində dəfə, kərə, ismi (ism əl-marra) olub "bir dəfə istirahətə çatdırma" mənasındadır. Ramazanda qılınan gecə namazlarında dörd rükətdən sonra, istirahət üçün edilən bir oturma da, sözün bu mənası ilə bağlıdır. Sonradan iyirmi rükətlik hissəsinə tərviha adı verilib. Təravih namazı Peyğəmbərin rəğbət bəslədiyi namazlardan biri olub, Maliki məzhəbi müstəsna olmaqla, digər üz məzhəbə görə, hər müsəlman kişi və qadın üçün təkid olunmuş bir sünnədir.

Təravih namazının məscidlərdə imamla qılınması sünnəyi kifayə qəbul edildiyi üçün evlərdə qılınması da caiz görülmüşdür.

**TƏRİQƏT**, Təriqa (*ər.* cəmi turuq) – ərəbcə müxtəlif mənalarda olan bu söz sufilər arasında sufini Allaha qovuşduran yol mənasında işlənirdi. Təriqətin islam sufiliyində istilah kimi bir-birini təqib edən iki mənası var:

Təriqa, IX-X əsrlərdə axirət dünyasını qazanmaq üçün bu dünyadan üz döndərərək ruhi qüvvələr tərbiyə etmək, nəfsi və təbii istəklərə üstün gəlmək, daxili (batin) təmizlənmə və zahidanə bir həyat tərzi idi. XI əsrdən sonra bu söz müxtəlif müsəlman təriqətlərində ruhi asketizmlə nizamlanan ayinlərin hamısını ifadə edir.

Təriqa sözü hələ də aydın deyil və müxtəlif ruhi mərhələlərdə (məqamat, əhval) şəriətin tam mənası ilə tətbiqindən ilahi həqiqətə (həqiqə) çatdıran vasitədir. Sünni mühitində təriqət Allahı zikr etməyə davam edərək, ona çatmaq yoludur.

Təriqə, adi islami ehkamlardan əlavə bir sıra xüsusi qaydalar üzərində qurulmuş müştərək yaşayışa (muaşara) dəlalət etməklə axıra çatmışdır. Yolunu seçmiş (salik, fəqir, farsca – dərviş), mürid (kənduz) olmaq üçün bir şeyxin (şeyx əs-səccada – farsca pir, türkcə baba; mürşid, müqəddəm, naqib, xəlifə, tərcüman, farsca – rind, rəhbər və s.) qabağında beyət edir. Gəzginliyi (siyaha) qəbul edən təriqət olsa belə, təriqətin kəfarət olaraq verilən sədəqə (hədyə) ilə varlığını mühafizə edən, ümumiyyətlə, ölüm ildönümünü keçirən (mövlud, urs) tərəfdarların bir vəlinin türbəsi yanında tikilmiş zaviyədə (ribat, zaviyə – farsca xanəgah, türkcə təkkə) müəyyən zaman üzlətə (üzlə, xəlvə – farsca çihil) çəkilməsi məcburi idi.

Təkkə içində qardaşların (ixvan – türkcə axilər. Yalnız Suriyada və Misirdə XIII və XIV əsrlərdə qadınlara məxsus təkkələr var idi) müştərək həyatı əlavə namazlarla, oruc tutmaqla (siyam), virdlərlə (vird, məsələn, ya lətifi yüz və ya min dəfə təkrarlamaq), yığıncaqlarla (həzrə, vəzifə, zərdə) keçir.

Təriqətə qəbul mərasiminə gəldikdə bu, qərməti mənşəli əsnaf təşkilatında daha təntənəli keçirilirdi.

Məqalədə islam təriqətlərinin hamısına ayrı-ayrı maddələr verilmədiyi üçün, aşağıdakı siyahıda təriqətlərin əlifba sırası ilə adları, əsilləri, qolları, imkan çərçivəsində coğrafi yayılmaları və qurucusunun ölüm tarixi qısaca zikr edilir.

## TƏRİQƏTLƏRİN SİYAHISI

**Abbasiyyə** – banisi Əbülabbas Əhməd ibn Məhəmməd əl-Ənsari əl-Bələnsi əl-Əndəlusidir (1236-cı ildə ölüb).

**Adiliyyə** – banisi Bədrəddin Məhəmməd ibn Ömər ibn Əhməd əl-Adili əl-Abbasi (1562-ci ildə ölüb).

**Aşiqiyyə** – Rafizi təriqəti.

**Aşuriyyə** – Burhaniyyənin qolu, banisi Səyyid Aşur əl-Məğribidir.

**Aydarusiyyə** – Kubraviyyənin Yəmən qolu (XV əsr), banisi Əbu Bəkr əl-Aydarusdur (1503-cü ildə ölüb).

**Babaiyyə** – türk təriqətidir. Banisi Əbdülğəni Pir Babaidir (1465-ci ildə Ədirnədə ölüb).

**Bahərziyyə** – təriqət şəcərəsi Nəcməddin əl-Kubraya yüksələn Seyfəddin Səid ibn əl-Mütahhar ibn Səid əl-Bahərzinin (XIV əsrin ilk yarısında ölüb) adı ilə bağlıdır.

**Bavəysiyyə** – Zərruqiyyənin qolu, banisi Əbu Yaqub əl-Bavəysidir.

**Bayramiyyə** – Səfəviyyənin qolu, Ankarada Hacı Bayram Vəli tərəfindən qurulub (1429-cu ildə ölüb), qolları Şəmsiyyə, Cəlvətiyyə.

**Bektaşiyyə** – Yəsəviyyənin (Səfəviyyə) bir qolu, banisi Hacı Bektaş Vəli (1338-ci ildə ölüb). Bu təriqət daha çox Anadolu və Balkanda (Albaniya) yayılmışdı.

**Beyzaviyyə** – Xızıriyyənin qoludur. Xızırın adı ilə bağlı olan təriqət.

**Bəcəliyyə** – Qadiriyyənin bir bölməsi, banisi Məhəmməd ibn Hüseyn əl-Bəcəlidir.

**Bədəviyyə** – b a x: **Əhmədiyyə.**

**Bədriyyə** – Simava qazısı oğlu şeyx Bədrəddinin adı ilə bağlıdır (1420-ci ildə ölüb).

**Bədriyyə** – Sührəvərdiyyənin bir qoludur.

**Bəhaiyyə** – b a x: **Nəqşbəndiyyə.**

**Bəhaiyyə** – Şihabiyyənin bir qolu, Əbu Yəhya Bəhvəddin Zəkəriyya əl-Multaninin adı ilə bağlıdır (1267-ci ildə ölüb).

**Bəhdadiyyə** – Abdullah ibn Bəh-Bəhdadın adı ilə bağlı Yəmən təriqətidir.

**Bəxşiyyə** – Xəlvətiyyədə Camaliyyənin bir qolu, banisi Məhəmməd ibn Məhəmməd ibn Əhməd əl-Bəxşi əl-Hələbidir (1687-ci ildə ölüb).

**Bəkkaiyyə** – Qadiriyyənin Sudandakı qolu, banisi Şeyx Əli əl-Bəkkadır (1272-ci ildə ölüb).

**Bəkkiyyə** – Şaziliyyənin Tunisdə olan bir qolu, banisi əl-Bəkki əl-Tunisidir.

**Bəkriyyə** – b a x: **Siddiqiyyə.**

**Bəkriyyə** – Beyt əl-Bəkriyə (XVI əsrdən etibarən Qahirədəki Şuyux əs-Sufiyyə) verilən ad.

**Bəkriyyə** – Xəlvətiyyədə Qarabaşiyyənin bir qolu, banisi Şəmsəddin Mustafa əl-Bəkridir (1749-cu ildə ölüb).

**Bəkriyyə** – Şaziliyyədə Vəfaiyyənin bir qoludur, banisi Əbülməkarim Məhəmməd əl-Bəkridir (1586-cı ildə ölüb).

**Bənava** – Qadiriyyənin Dekandakı qolu (XIX əsr).

**Bəyaniyyə** – şeyx Əbülbəyan Məhəmməd ibn Məhfuz əl-Quraşi əl-Diməşqinin adı ilə bağlı təriqət (1156-cı ildə ölüb).

**Bəyyumiyyə** – Əhmədiyyənin Hələb qolu, banisi şeyx Əli Nurəddin ibn Şeyx əl-Hicaz əl-Bəyyumdur (1769-cu ildə ölüb).

**Bibəriyyə** – Xəlil Dəvəli oğlu (1933-cü ildə ölüb) tərəfindən Tarsusda əsası qoyulmuş təriqət. Nəqşbəndiyyənin Xalidiyyə qolunun təsiri altında idi.

**Bistamiyyə** – XV əsrdə yaranmış və Bayəzid əl-Bistaminin (874-cü ildə ölüb) adı ilə bağlı olan təriqət (b a x: **Teyfuriyyə**).

**Buəliyyə** – Qadiriyyənin Əlcəzair – Tunis qolu (XIX əsr).

**Buxariyyə** – banisi Cəlaləddin əl-Əhmar əl-Hüseyn ibn Əhməd əl-Buxari əl-Hüseynidir (1308-ci ildə ölüb).

**Buxuriyyə** – Xəlvətiyyədə Ramazaniyyənin bir qolu, banisi Şeyx Məhəmməd əl-Buxuri ər-Rumi əl-Ədirnəvidir (1630-cu ildə ölüb).

**Burhaniyyə** – Şaziliyyənin böyük bir qolu, Burhanəddin İbrahim ibn Əbdülməcid əd-Dəsuqi tərəfindən Misirdə yaradılmış təriqət. Əsas qolları; Şarnubiyyə, Aşuriyyə və Taziyyə.

**Buzquşiyyə** – təriqət silsiləsi Sührəvərdiyə çatan Nacibəddin Əli ibn Buzquş əş-Şirazinin adı ilə bağlıdır (1279-cu ildə ölüb).

**Buzurqan** – b a x: **Nəqşbəndiyyə.**

**Cahidiyyə** – Xəlvətiyyədə Camaliyyənin bir qolu. Ədirnəli Cahidi Əhməd Əfəndi (1660-cı ildə ölüb) tərəfindən yaradılmışdır.

**Camaliyyə** – Xəlvətiyyədə Uşşaqiyyənin bir qolu, əsası ədirnəli Şeyx Camaləddin Əfəndi (1751-ci ildə ölüb) tərəfindən qoyulub.

**Camaliyyə** – Xəlvətiyyənin qolu, Çələbi Xəlifə kimi tanınan Camaləddin Aksaran (1494-cü ildə ölüb) tərəfindən yaradılıb. Qolları: Sünbüliyyə, Şabaniyyə, Qarabaşiyyə, Nasuhiyyə, Çərkeşiyyə, Xəliliyyə, İbrahimiyyə, Bəkriyyə, Kamaliyyə, Həfnəviyyə, Ticaniyyə, Summaniyyə, Feyziyyə, Dərdiriyyə, Saviyyə, Əssaliyyə, Bəxşiyyə.

**Camaliyyə** – Sührəvərdiyyənin İran qolu, Pir Camaləddini-Ərdistaniyə (1475-ci ildə ölüb) mənsub edilir.

**Camiyyə** – Şeyxülislam Qutbəddin Əhməd ən-Namiqiyə (1142-ci ildə ölüb) mənsub edilən təriqət.

**Cəbəriyyə** – Əbu Cəla Yəlayə (1108-ci ildə ölüb) mənsub edilir.

**Cəbərtiyyə** – Əkbəriyyənin bir qolu, müəssisi Şərəfəddin Əbülməruf İsmail ibn İbrahim Əbdüssəməd əl-Cəbərti əl-Quraşi əl-Haşimi əl-Yəməni əz-Zahididir.

**Cəhriyyə** – Çin və Türküstan (Yəsəviyyə) təriqəti. B a x: **Xafiyyə.**

**Cəhriyyə** – Yəmən təriqəti (XV əsr).

**Cəlaliyyə,** Buxariyyə – Sührəvərdiyyənin hind qolu, müəssisi Məhduma-Cahaniyandır (1383-cü ildə ölüb).

**Çəlvətiyyə** – Səfəviyyənin türk qolu, əsası üsküdarlı Şeyx Əziz Mahmud Hidai (1628-ci ildə ölüb) tərəfindən qoyulmuşdur. Başlıca qolu Haşimiyyədir.

**Cəmriyyə** – Xızıriyyənin bir qolu, Əhməd Yəsəviyə (1166-cı ildə ölüb) mənsub edilir.

**Cərrahiyyə** – Xəlvətiyyədə Ramazaniyyənin bir qolu, müəssisi Nurəddin Məhəmməd Cərrahidir (1672-ci ildə ölüb).

**Cibaviyyə** – b a x: **Sədiyyə.**

**Cihangiriyyə** – Xəlvətiyyədə Ramazaniyyənin bir qolu, müəssisi Şeyx Həsən Burhanəddin Əfəndidir (1664-cü ildə ölüb).

**Cilalə** – Qadiriyyənin Fəsdəki qolu.

**Cüneydiyyə** – Cüneyd əl-Bağdadinin (909-cu ildə ölüb) fikirləri əsasında təşəkkül edən Bağdad sufi məktəbi XI əsrdən etibarən Cüneydiyyə təriqəti kimi qəbul edilmişdir. Xacəqan, Kubraviyyə və Qadiriyyə təriqətlərinin meydana gəlməsinə müəyyən təkan vermişdir.

**Cüzuliyyə** – Şaziliyyədə Bədəviyyənin qolu, Əbu Abdullah Məhəmməd ibn Süleyman əl-Cüzuli (1465-ci ildə ölüb) tərəfindən yaradılmışdır. Əsas qolları: Dərqavə, Həmadişə, İsaviyyə, Şərqavə, Təybiyyə.

**Çərkeşiyyə** – Xəlvətiyyədə Nasuhiyyənin bir qolu, Hacı Mustafa Əfəndi (1814-cü ildə ölüb) tərəfindən əsası qoyulub.

**Çistiyyə** – Hindistanda Şeyx Muinəddin Məhəmməd əl-Əcmiri (1236-cı ildə ölüb) tərəfindən yaradılmış təriqət. Mərkəzi Əcmirdə idi. Qolları: Nizamiyyə və Sabiriyyə.

**Dəqqaqiyyə** – Əbu Əli əl-Həsən ibn Əli əl-Dəqqatın adı ilə bağlıdır (1021-ci ildə ölüb).

**Dəmirdaşiyyə** – Xəlvətiyyədə Rüşəniyyənin bir qolu, Misirdə Məhəmməd

Dəmirdaş tərəfindən əsası qoyulub (1529-cu ildə ölüb).

**Dərdaiyyə** – Peyğəmbərin yaxınlarından olan Əbüldərda Üveymir ibn Malik əl-Həzracinin adı ilə bağlıdır (653-cü ildə ölüb).

**Dərdiriyyə** – Xəlvətiyyədə Həfnəviyyənin bir qoludur, banisi Əbülbərəkət Şihabəddin Əhməd ibn Əhməd əd-Dərdiri əl-Ədavidir (1786-cı ildə ölüb).

**Dərqavə** – Cüzuliyyənin Əlcəzair-Mərakeş qoludur, banisi Əbülhəsən Əli Şazilidir (1823-cü ildə ölüb). Qolları: Buzidiyyə, Kittaniyyə, Hərraqiyyə, Əllaviyyə.

**Dəsuqiyyə** – b a x: **Burhaniyyə.**

**Dibiyyə** – banisi Əbülhəsən Əli ibn Xızr əd-Dibi əl-Həzrəcidir (1319-cu ildə ölüb).

**Dücaniyyə** – Mədyəniyyənin Meymuniyyə qoludur. Səyyid Əhməd əd-Dücaninin adı ilə bağlıdır. (XVI əsrin ikinci yarısında ölüb).

**Əbdüssəlamiyyə** – Rifaiyyədə Sədiyyənin bir qolu.

**Əbhəriyyə** – Şeyx Əbu Rəşid Qutbəddin əl-Əbhəriyyə (1177-ci ildə ölüb) isnad olunan təriqət.

**Əbu Hərraziyyə** – məğribli Əbu Hərrazın adı ilə bağlıdır.

**Əbu Talibiyyə** – məşhur "Qütb və Qulub" əsərinin müəllifi Məhəmməd ibn Əli ibn Ətiyyət ər-Məkkinin adı ilə bağlıdır (996-cı ildə ölüb).

**Əbu Yaqubiyyə** – təriqət silsiləsi Cazuliyyəyə çatan Əbu Yaqub əl-Bəvaysiyə tərəfindən əsası qoyulub.

**Əbülvəfaiyyə** – Rifaiyyədə Sədiyyənin bir qolu.

**Ədhəmiyyə** – sonradan Əbu İshaq İbrahim ibn Ədhəmin adı ilə bağlanan təriqət (783-cü ildə ölüb).

**Əfifiyyə** – Şaziliyyədə Nasiriyyənin bir qolu, banisi Əbdülvahhab ibn Əbdüssalam əl-Əfifi əl-Məzruqidir (1767-ci ildə ölüb).

**Əhdəliyyə** – banisi Əbülhəsən Əli əl-Əhdəlidir.

**Əhmədiyyə** – Çistiyyənin bir qolu, Əbülabbas Əhməd ibn Əbdülhaqq ər-Rudavli əl-Çistiyə (XVI əsrin sonunda ölüb) isnad edilən təriqət.

**Əhmədiyyə** – Əhrariyyənin bir bölməsi. Məcdəddin Əli Sani və ya İmami-Rəbbani kimi tanınan Bədrəddin Əbülabbas Əhməd ibn Əbdüləhəd əl-Fəruqi Qəbuli-Sirrhindi (1634-cü ildə ölüb) tərəfindən əsası qoyulub. B a x: **Mücəddidiyyə.**

**Əhmədiyyə** – Xəlvətiyyənin bir qolu, banisi Manisa şəhərinin Göl Marmarası nahiyəsindən olan Əhməd Şəmsəddin Əfəndidir (1505-ci ildə ölüb).

**Əhmədiyyə** – Misir təriqəti (banisi Tanta-Bədəvidir, 1202-1275). Şaziliyyənin bir istiqaməti. Qolları: Şinnaviyyə, Mərazitə, Kənnasiyyə, Ənbabiyyə, Həmmudiyyə, Mənaifiyyə, Səllamiyyə, Hələbiyyə, Zahidiyyə, Şueybiyyə, Təskiyaniyyə, Ərabiyyə, Sutuhiyyə, Bundariyyə, Müslimiyyə (Şurunbulaliyyə), Bəyyumiyyə.

**Əhmədiyyə** – Rifaiyyənin başqa adı.

**Əhrariyyə** – Nəqşbəndiyyənin bir bölməsi, Əhrar ləqəbi ilə tanınmış Şeyx Übeydullah ibn Mahmud ibn Şihabəddin əl-Hüseyni əl-Taşkəndiyə (1490-cı ildə ölüb) mənsub olan təriqətdir. Əsas qolları: Əhmədiyyə, Taciyyə və Kəsaniyyə.

**Əkbəriyyə** – sonradan həmfikirləri tərəfindən İbn əl-Ərəbiyyəyə bağlanan təriqət (1240-cı ildə ölüb).

**Ələviyyə** – Süni isnadla Əli ibn Əbu Talibə bağlanan təriqət.

**Əmirqaniyyə** – İdrisiyyənin Nubiyyə qolu (müəssisi 1853-cü ildə ölüb).

**Əmmariyyə** – Qadiriyyənin Əlcəzair – Tunis qolu (XIX əsr).

**Əmudiyyə** – Mədyəniyyənin bir qolu. Əbu İsa Səid ibn İsa əl-Əmmali əs-Siddiqinin adı ilə bağlıdır.

**Ənəsiyyə** – Sonradan Peyğəmbərin səhabələrindən Ənəs ibn Malikə (709-cu ildə ölüb) bağlanan təriqət.

**Ənsariyyə** – Abdullah əl-Ənsariyyə (1088-ci ildə ölüb) isnad edilən təriqət. B a x: **Hərəviyyə.**

**Ərabiyyə** – Ömər ibn Məhəmməd əl-Ərabinin adı ilə bağlanan təriqət.

**Ərdəbiliyyə** – Əbhəriyyənin bir qolu. Əsası Şeyx Səfiəddin əl-Ərdəbili (1334-cü ildə ölüb) tərəfindən qoyulub.

**Ərusiyyə** – Qadiriyyənin Libiya (Torablus) qolu (Zliten, XIX əsr).

**Əsədiyyə** – Qadiriyyənin bir qolu, banisi Seyyid Abdullah əl-Əsədidir (VII əsrdə ölüb).

**Əssaliyyə** – Xəlvətiyyədə Camaliyyənin bir qolu. Şamlı Əhməd ibn Əli əl-Həriri əl-Əssadi əş-Şəfiinin adı ilə bağlıdır (1639-cu il aprelin 22-də ölüb).

**Əşrəfiyyə** – Çistiyyənin bir qoludur, əs-Seyyid Əşrəfəddin Cahangir əs-Simnani əl-Hüseyninin adı ilə bağlıdır.

**Əşrəfiyyə** – Qadiriyyənin bir qolu, banisi Qadiriyyənin ikinci piri sayılan Əşrəfoğlu və Əşrəfi-Rumi kimi tanınan Şeyx Abdullahi-Rumidir (1469-cu ildə ölüb).

**Əvamiriyyə** – İsaviyyənin Tunis qolu (XIX əsr).

**Əzəmiyyə** – sonradan İmam əl-Əzəm Əbu Hənifənin (699-767) adı ilə bağlı təriqət.

**Əzhəriyyə** – Xəlvətiyyənin bir qolu, banisi Şeyx Əbu Abdullah Məhəmməd ibn Əbdürrəhman əz-Zəvvavi əl-Əzhəridir.

**Əzizan** – Əzizan ləqəbini daşıyan Xacə Əli ər-Rəmaytaninin adıyla bağlı təriqət, Xacəqan təriqəti ilə eynidir.

**Əziziyyə** – Rifaiyyənin bir qolu, İzzəddin Əbdüləziz ibn Əhməd Rifaiyyəyə (1295-ci ildə ölüb) bağlanan təriqət.

**Əzzuziyyə** – Tunisdə kiçik bir təriqət (XIX əsr).

**Faruqiyyə** – İkinci xəlifə Ömər əl-Faruqa mənsub edilən təriqət.

**Feyziyyə** – b a x: **Xəlvətiyyə.**

**Fəthullahiyyə** – Çistiyyənin bir qolu, yaradıcısı əl-Əcəmi əl-Əddadır.

**Fəzliyyə** – Rifaiyyənin qolu, banisi Seyyid Camaləddin Məhəmməd ibn Fəzlallah əl-Hindi əl-Bəhramburidir (1620-ci ildə ölüb).

**Firdovsiyyə** – Hindistanda Bahərziyyənin qolu, Nəcibəddin əl-Firdovsiyə mənsubdur.

**Firdovsiyyə** – Kubraviyyənin Hindistanda bir qolu, Rüknəddin əl-Firdovsiyə (1620-ci ildə ölüb) mənsub edilir.

**Hakimiyyə** – daha çox Hakim ət-Tirmizi kimi tanınan Əbu Abdullah Məhəmməd ibn Əlinin (898-ci ildə ölüb) fikirlərini mənimsəyənlər tərəfindən sonradan ona isnad edilmiş bir təriqət.

**Hammuyya** – Cüneydiyyənin bir qolu, Şeyxülislam Məhəmməd ibn

Hammuyya ibn Məhəmməd əl-Həməvi əl-Cüneydiyə (1547-ci ildə ölüb) mənsub edilir.

**Havatiriyyə** – Mədyəniyyənin bir qolu, Nurəddin Əli ibn Meymun əl-İdrisiyə (1511-ci ildə ölüb) mənsub edilir.

**Hazırіyyə** – Buzquşiyyənin qolu, Şeyx Süleyman əl-Hazırı əz-Zubeyriyyə (1558-ci ildə ölüb) mənsub edilir.

**Heydəriyyə** – Qələndəriyyənin İran qolu (XIII əsr).

**Heydəriyyə** – Şeyx Qütbəddin Heydər əz-Zəvaciyə mənsub edilib.

**Heydəriyyə,** Həksar – İranda əsnaf təriqəti (XIX əsr).

**Həbibiyyə** – Rifaiyyənin Suriyada qolu (XIX əsr).

**Həbibiyyə** – Şaziliyyənin bir qolu, müəssisi 1752-ci ildə vəfat edib.

**Həccaciyyə** – Əbülhəccac Yusuf ibn Əbdürrəhim əl-Quraşi əl-Məhdavi əl-Əqsaya (1245-ci ildə ölüb) mənsub edilir.

**Həciyyə** – Əbu Abdullah Məhəmməd ibn Məhəmməd əl-Həccə (1337-ci ildə ölüb) mənsub edilir.

**Həddadiyyə** – Ələviyyənin bir qolu, əsası Şeyx Abdullah ibn Ələvi əl-Həddad tərəfindən qoyulub.

**Həddavə** – Fəsdə (Mərakeş) köçəri təriqət (XIX əsr).

**Həfnəviyyə** – Xəlvətiyyədə Camaliyyənin Misir qolu, banisi "Həfni" nisbətiylə tanınan Şeyx Şəmsəddin Məhəmməd ibn Səlim ibn Əhməd əş-Şafei əl-Misridir (1768-ci ildə ölüb).

**Hələbiyyə** – Əhmədiyyənin bir qolu, əsası əş-Şeyx Əhməd əl-Əhmədi əl-Hələbi (X əsrdə ölüb) tərəfindən qoyulmuşdur.

**Hələviyyə** – Kubraviyyənin qolu, banisi Məhəmməd əl-Hələvidir.

**Həmadişə** – Cüzuliyyənin XVIII əsrdə Fəsdə, Zərxundakı qolu. Əsas qolları: Daquqiyyə, Səddakiyyə, Riyahiyyə, Qasimiyyə.

**Həmədaniyyə** – Kubrəviyyənin qolu, müəssisi Əli əl-Həmədanidir (1385-ci ildə ölüb).

**Həmzəviyyə** – Bayramiyyə və Məlamiyyədən meydana gəlmiş təriqət.

**Həmzəviyyə** – Şaziliyyənin bir qolu, banisi Şəmsəddin Məhəmməd əl-Hənəfidir (1443-cü ildə ölüb).

**Hənsaliyyə** – Əbülhəsən Əli ibn Əhməd ibn İbrahim əl-Həralli ət-Tacibiyə (1240-cı ildə ölüb) mənsub edilir.

**Hənsaliyyə** – Oranda (Əlcəzair) və Fəsdə (Mərakeş) kiçik təriqət (banisi 1702-ci ildə ölüb).

**Hərəviyyə** – Abdullah əl-Ənsari əl-Hərəviyə (1088-ci ildə ölüb) mənsub edilir.

**Həririyyə** – Rifaiyyənin bir qolu, müəssisi Əli ibn Əbülhəsən ibn Mansur əl-Bəsri əl-Həriridir (1248-ci ildə ölüb).

**Hərisiyyə** – Cüneydiyyənin bir qolu, Əbülabbas Əhməd ibn Yusuf əl-Hərisiyə (1538-ci ildə ölüb) mənsub edilir.

**Həvvariyyə** – Əbu Bəkr ibn Həvvar əl-Həvvari əl-Bataixiyə (XIV əsrdə ölüb) mənsub edilir.

**Həyatiyyə** – Xəlvətiyyədə Ramazaniyyənin bir qolu, banisi Şeyx Məhəmməd Həyati Əfəndidir.

**Həzmiriyyə** – Xızıriyyənin qolu, Əbu Abdullah əl-Həzmiriyə (XIV əsrdə ölüb) mənsub edilir.

**Hikamiyyə** – Qadiriyyənin bir qolu, müəssisi Şeyx Məhəmməd ibn Əbu Bəkr

əl-Hikamidir. Qolları: Gilaniyyə və Üceyliyyə.

**Hilaliyyə** – Qadiriyyənin bir qolu, müəssisi Məhəmməd Hilal ər-Ramm əl-Həmdanidir.

**Hizmiyyə** – b a x: **Həzmiriyyə.**

**Xacəqan** – Xacə Əbdül Xaliq əl-Gücduvaninin (1180-ci ildə ölüb) fikirlərinə isnad edən Nəqşbəndiyyənin digər adı.

**Xafiyyə** – Nəqşbəndiyyənin Çin və Türküstandakı ünvanı. B a x: **Cəhriyyə.**

**Xalidiyyə** – Qadiriyyənin bir qolu, Ziyaəddin Əbdürrəhman Xalid ət-Təbibani əl-Kərkukiyə (1859-cu ildə ölüb) mənsubdur.

**Xalidiyyə** – Nəqşbəndiyyənin bir bölməsi. Əsası Əbülbəha Ziyaəddin Xalid ibn Əhməd ibn Hüseyn əl-Osmani əş-Şəhrizuri (1242-ci ildə ölüb) tərəfindən qoyulmuşdur.

**Xallaciyyə** – Hüseyn ibn Mansur əl-Xallacın (922-ci ildə ölüb) fikirlərini mənimsəyənlərin süni bir isnadla XII əsrdə vücuda gətirdikləri təriqət.

**Xatimiyyə** – İbn əl-Ərəbiyə (1240-cı ildə ölüb) isnad edilən təriqət.

**Xəfifiyyə** – Abdullah Məhəmməd ibn Xəfif əz-Zabbi əş-Şirazinin (982-ci ildə ölüb) sufi fikirlərindən ilhamlanaraq XIV əsrdə ona isnad olunan bir təriqət.

**Xəlvətiyyə** – Əbhəriyyənin (və ya Sührəvərdiyyənin) bir qolu. Şeyx Əbu Abdullah Siracəddin və ya Zahidəddin Ömər ibn Əkmələddin Gilani əl-Xəlvəti (XIV əsr) tərəfindən Xorasanda əsası qoyulmuşdur. Daha çox Azərbaycanda və Türkiyədə intişar etmişdir. Əvvəlcə Rüşəniyyə, Camaliyyə, Əhmədiyyə və Şəmsiyyə adlanan dörd əsas qola ayrılan bu təriqətin 30-dan çox qolları bunlardır: 1) Rüşəniyyədən: Dəmirdaşiyyə, Gülşəniyyə, Sezaiyyə, Halətiyyə; 2) Cəmaliyyədən: Sünbüliyyə, Şabaniyyə, Qarabaşiyyə, Nasuhiyyə, Çərkeşiyyə, Xəliliyyə, İbrahimiyyə, Bəkriyyə, Kamaliyyə, Həfnəviyyə, Ticaniyyə, Sümmaniyyə, Feyziyyə, (Xəlvətiyyə), Dərdiriyyə, Sahiyyən saniyə, Əsrabiyyə, Salaehiyyə, Cahidiyyə, Bəxşiyyə; 3) Əhmədiyyədən: Ramazaniyyə, Cihangiriyyə, Buxuriyyə, Raifiyyə, Cərrahiyyəi-saniyə, Salehiyyə, Cahidiyyə, Misriyyə; 4) Şəmsiyyədən: Sivasiyyə.

**Xızıriyyə** – Fəs (Mərakeş) təriqəti, banisi İbn əd-Dəbbaq (1717-ci ildə ölüb). Qolları: Əmirqaniyyə, İdrisiyyə və Sənusiyyə.

**Xızıriyyə** – Xızır peyğəmbərə isnad edilən təriqət.

**Xudaiyyə** – b a x: **Cəlvətiyyə.**

**Xülvətiyyə** – Xəlvətiyyənin bir qolu, yaradıcısı Feyzəddin Hüseyn əs-Sümmanidir (1892-ci ildə ölüb).

**İbadiyyə** – Ələviyyənin bir bölməsi, Seyyid Abdullah ibn Məhəmməd əl-Yəməninin adı ilə bağlıdır.

**İbahiyyə** – Rafizilərdən üstün bir təriqətdir.

**İbn Abbadiyyə** – Zərruqiyyənin bir qolu, İbn Abbadın (1390-cı ildə ölüb) adı ilə bağlıdır.

**İbn Barracaniyyə** – Əbdüssalam ibn Əbdürrəhman əl-İfriqinin (1141-ci ildə, Mərakeşdə ölüb) adı ilə bağlıdır.

**İbn əl-Arifiyyə** – Cüneydiyyənin bir qolu, Əbülabbas ibn Məhəmməd ibn Musa ibn əl-Arif ət-Tanciyə (1190-cı ildə, Mərakeşdə ölüb) mənsubdur.

**İbn əl-Arifiyyə** – Cüneydiyyənin bir qolu, İbn əl-Arif əş-Şanhaci ət-Tancinin (1142-ci ildə ölüb) adı ilə bağlıdır.

**İbn əz-Zəyyatiyyə** – Əbu Yaqub Yusuf ibn Yəhya ibn İsa Əbdürrəhman əl-Mərrakuşinin adı ilə bağlıdır.

**İbn Hərzəmiyyə,** İbn Hərazim – Sührəvərdiyyənin bir qolu, Əbülhəsən Əli ibn İsmail ibn Məhəmməd ibn Abdullah ibn Hərzəhim əl-Osmaninin (XIX əsrdə ölüb) adı ilə bağlıdır.

**İbrahimiyyə** – Xəlvətiyyədə Çərkeşiyyənin bir qoludur. Quşadalı İbrahim Əfəndi (1849-cu ildə ölüb) tərəfindən təsis olunub.

**İdrisiyyə** – Xızıriyyənin bir qolu, Əhməd ibn İdris əl-Fasi (1837-ci ildə ölüb) tərəfindən əsası qoyulub.

**İğtişaşiyyə** – Kübrəviyyənin Xorasan qolu, banisi İraq əl-Xuttalanidir (XV əsrdə ölüb).

**İqaniyyə** – Yəsəviyyənin bir qolu, təsisçisi əş-Şeyx Kamal əl-İqanidir.

**İlmiyyə** – Şaziliyyədə Cüzuliyyənin bir qolu, Əbu Məhəmməd Mövlay Abdullah əş-Şərif ibn İbrahim əl-İlminin adı ilə bağlıdır.

**İraqiyyə** – Məhəmməd ibn İraq əs-Musavinin adı ilə bağlıdır.

**İsaviyyə** – Qadiriyyənin bir qolu. Müəssisi Şeyx İsa olub (VII əsrdə ölüb).

**İshaqiyyə** – Xəlifiyyənin bir qolu, banisi Şeyx Əbu İshaq İbrahim ibn Şəhriyar əl-Kazirunidir (1035-ci ildə ölüb).

**İsmailiyyə** – Rumiyyə (Qadiriyyə).

**İsmailiyyə** – Sudanın Kordofan vilayətində bir Nubiya təriqəti (XIX əsr).

**İşqiyyə** – Üveysiyyənin bir qolu, Xacə Əbu Yəzid əl-İşqinin adı ilə bağlıdır.

**İşraqiyyə** – Sührəvərdi əl-Məqtulun (1191-ci ildə ölüb) fikirləri ilə bağlı təriqət.

**İttixadiyyə** – Rafizi təriqəti.

**Kamaliyyə** – Xəlvətiyyədə Bəkriyyənin qolu. Məhəmməd Kamaləddin ibn Şəmsəddin əl-Bəkri (1785-ci ildə ölüb) tərəfindən əsası qoyulub.

**Kasaniyyə** – Nəqşbəndiyyədə Əhrariyyənin bir qolu, Məhdumi-Əzəm kimi tanınan Xacəi Şəmsəddin Əhməd əl-Kasaninin (1543-cü ildə ölüb) adı ilə bağlıdır.

**Kazeruniyyə** – Şirazda Xəfifiyyədən ayrılmış bir İran təriqəti, Əbu İshaq İbrahim ibn Şəhriyar əl-Kazeruninin (1034-cü ildə ölüb) adı ilə bağlıdır.

**Kəbiriyyə** – Cüneydiyyənin bir qolu, əş-Şeyx əl-Kəbir ünvanı ilə tanınan Əbu Abdullah Məhəmməd ibn Xəfif əş-Şirazinin (982-ci ildə ölüb) adı ilə bağlıdır.

**Kərduniyyə** – Xızıriyyənin bir qolu, Kərduyə kimi tanınan Əbülhəsən Əli ibn Abdullaha mənsubdur.

**Kərraiyyə** – Kiçik Tunis təriqəti (XIX əsr).

**Kərzaziyyə** – Şaziliyyənin qolu.

**Kəyyaliyyə** – Rifaiyyənin bir qolu, 1204-cü ildə anadan olmuş və 1258-ci ildə Bəsrədən Hələbə getmiş və əl-Kəyyal ləqəbi ilə tanınmış, Şeyx İsmail ər-Rifai tərəfindən təsis edilib.

**Kirmaniyyə** – Xızıriyyənin qoludur, Seyyid Cəlaləddin əl-Buxarinin Əbu Səid Zufar ibn Mahmud ibn Məhəmməd əl-Kirmaninin adına təsis olunan təriqət.

**Konyaviyyə** – Sədrəddini-Konavinin (Rumi) (1273-cü ildə ölüb) Xatimiyyədən ilhamlanıb təşkil etdiyi təriqət.

**Kubraviyyə** – Cüneydiyyədən əmələ gəlmiş təriqət, təsisçisi Nəcməddin Kubradır (1221-ci ildə ölüb). Qolları:

TƏRİQƏTLƏRİN SİYAHISI

Aydarusiyyə, İğtişaşiyyə, Nurbəxşiyyə, Nuriyyə, Rükniyyə, Həmədaniyyə.

**Kuşeyriyyə** – süni isnadla Kuşeyrinin (1072-ci ildə ölüb) adı ilə bağlıdır.

**Kümeyliyyə** – səhabələrdən Kümeyl ibn Ziyada (701-ci ildə ölüb) mənsub edilən təriqət.

**Qadiriyyə** – Cüneydiyyədən meydana gəlmiş Bağdad təriqəti, banisi Əbdülqədir əl-Gilanidir (1166-cı ildə ölüb). Aşağıdakı qolları var: Yəmən və Somalidə Əsədiyyə, Yafiiyyə (XIV əsr), Müşariyyə, Ürabiyyə; İraqda – İsaviyyə, Hilaliyyə, Əkbəriyyə, Xalidiyyə (Xülusiyyə); Hindistanda Bənava və Qurzmar, Qəribiyyə; Anadoluda – Əşrəfiyyə, Hindiyyə, Nabulisiyyə, Rumiyyə (İsmailiyyə) və Vəslətiyyə; Misirdə – Fəridiyyə və Qasimiyyə (XIX əsr); Məğribdə – Əmmariyyə, Ərusiyyə, Buəliyyə və Cilalə; Qərbi Sudanda – Bəkkaiyyə.

**Qarabaşiyyə** – Xəlvətiyyədə Şabaniyyənin bir qolu, banisi Şeyx Əli Əlvəddin Qarabaş Vəlidir (1688-ci ildə ölüb). Qolları: Nəsuhiyyə, Bəkriyyə.

**Qasimiyyə** – Əbülqasim ibn Ramazanın adı ilə bağlı olan təriqət.

**Qaziyyə** – Şaziliyyənin Cənubi Mərakeş qolu, banisi Əbülqasim Əhməd əl-Qilalidir (1526-cı ildə ölüb).

**Qeysiyyə** – Qadiriyyənin bir qolu, banisi Yəmən şeyxlərindən Əbülqeys Səid ibn Süleyman ibn Cəmildir.

**Qələndəriyyə** – Suriyada gəzərgi təriqət. Varlığı daha qədimdən məlum olan qələndərlik təriqət halında ancaq Camaləddin Savinin (1232-ci ildə ölüb) vaxtında formalaşmışdır. Şərqdə, Orta Asiyada Almalıqdan və Hindistandan başlayaraq, Qərbdə Məğribə qədər uzanan sahə daxilində tərəfdarları olan bu təriqət XIII əsrdən sonra qismən Anadoluda da yayılmışdı.

**Qəmmasiyyə** – Həzmiriyyənin bir qolu, banisi Əbu Zəkəriyyə Yəhya əl-Qəmmasidir (IX əsrdə ölüb).

**Qənaiyyə** – Əbdürrəhim əl-Qənainin adı ilə bağlıdır.

**Qəribiyyə** – Qadiriyyənin bir qolu, banisi Məhəmməd Qəribullah əl-Hindidir.

**Qəsriyyə** – Əbülhəsən İsmail ibn əl-Həsən ibn Abdullah əl-Qəsrinin adı ilə bağlıdır.

**Qəsriyyə** – əl-Qəsri nisbəti ilə tanınan Əbu Məhəmməd Abdullah əl-Cəlil ibn Musa ibn Əbdülcəlil əl-Ənsari əl-Üveysinin adı ilə bağlıdır.

**Qəssəriyyə** – IX əsrdə Əbu Saleh Həmdun ibn Əhməd ibn Əmmarat əl-Qəssərin tərəfdarlarına verilən addır. Birinci Məlamiyyədən sayılırlar.

**Qətnaniyyə** – Rifaiyyənin bir qolu, Həsən (Əli) əl-Qənaninin adı ilə bağlıdır (1346-cı ildə ölüb).

**Qəzzaliyyə** – Cüneydiyyənin bir qolu. Qəzzalinin (111-ci ildə ölüb) düşüncələrini mənimsəyənlər tərəfindən sonradan onun şərəfinə adlandırılan təriqət.

**Qövsiyyə** – Şəttariyyənin hind qolu, banisi Qövs ləqəbi almış Həmidəddin Məhəmməd ibn Xatirəddin əl-Hüseynidir (1526-cı ildə ölüb).

**Mansuriyyə** – b a x: **Xallaciyyə.**

**Meymuniyyə** – Mədyəniyyənin bir qolu, Əbülhəsən Əli ibn Meymun əl-Məğribi əl-Fasi əl-İdrisinin (1512-ci ildə ölüb) adı ilə bağlıdır.

**Məcduliyyə** – Əbu İqal Ğəlbun ibn əl-Həsən ibn Ğəlbun əl-Qayravaniyə (904-cü ildə ölüb) mənsub edilir.

TƏRİQƏTLƏRİN SİYAHISI

**Mədariyyə** – zəngin bir hind təriqəti. Müəssisi Şah Mədardır (1438-ci ildə) Makanpurda vəfat etmişdir.

**Mədəniyyə** – Dərqavənin Misuratadakı Tərəblüs əl-Qərb qolu.

**Mədyəniyyə** – Əbu Mədyən Şüeyb ibn Hüseyn əl-Məğribi əl-Ənsari əl-Əndəlusi ət-Tilimsani (1469-cu ildə vəfat etmişdir) tərəfindən yaradılmışdır.

**Məğribiyyə** – ehtimala görə İran şairi Məğribinin (1406-cı ildə ölüb) müridlərinə isnad olunan təriqətdir.

**Məhdəviyyə** – Əbu Məhəmməd Əbdüləziz ibn Əbu Bəkr əl-Quraşi əl-Məhdəvinin (1224-cü ildə ölüb) adı ilə bağlıdır.

**Məhəmmədiyyə** – Əli Həvvaş və Əbdülvahhab əş-Şərani tərəfindən XVI əsrdə Peyğəmbərə isnad olunmuşdur.

**Məkkiyyə** – b a x: **Əbu Talibiyyə.**

**Məlamətiyyə** – İraq sufiliyinə müxalif Xorasan təriqəti (IX-XI əsrlər). Bu ad təriqətə XVI əsrdə süni bir isnadla verilmişdir. Birinci şeyxi kimi Nişapurda 885-ci ildə vəfat etmiş Həmdun əl-Qəşşər qəbul edilmişdir.

**Məlamiyyə,** Həmzəviyyə – vaxtilə Türkiyədəki Bayramiyyənin qolu olmuşdur. Təsisçisi Şeyx Həmzə Balidir (1562-ci ildə ölüb).

**Məraziqə** – Əhmədiyyənin bir qolu (təsisçisi XIV əsrdə ölüb).

**Mərufiyyə** – sonradan Məruf əl-Kərhiyə (816-cı ildə ölüb) mənsub edilib.

**Məşişiyyə** – Mədyəniyyənin bir qolu. Fəs (Mərakeş) valisi Məşiş əl-Həsəni əl-İdrisinin (1226-cı ildə ölüb) adı ilə bağlıdır. Şaziliyyədən ayrılan müridlərin XVI əsrdə qurmuş olduqları bir təriqət.

**Mətbuliyyə** – Kiçik Misir təriqəti.

**Məzhəriyyə** – Nəqşbəndiyyənin bir qolu. Şah Şəmsəddin Həbib Allah Cani-Canani Məzhəri Dehlavi ilə bağlıdır.

**Misriyyə** – b a x: **Niyaziyyə.**

**Mövləviyyə** – Mövlana Calaləddin Ruminin adı ilə bağlı Anadolu təriqəti. Sonradan oğlu Sultan Vələd (1313-cü ildə ölüb) tərəfindən təşkil edilmişdir. Əvvəlcə (XVI əsrdə) Şəmsiyyə və Vələdiyyə, sonralar Postnişiniyyə və İrşadiyyə qolları meydana gəlmişdir.

**Muradiyyə** – İstanbulda türk təriqəti.

**Murşidiyyə** – b a x: **Kazeruniyyə.**

**Müəmmariyyə** – Mavərannəhr şeyxlərindən Müəmmar əl-Ciliyə mənsub edilir.

**Müəmməliyyə** – Cüneydiyyənin bir qolu. Müəmməl ibn Abdullah əl-Bənəvalhaya mənsub olub.

**Mühasibiyyə** – sonradan Həris əl-Mühasibiyə isnad olunan təriqət.

**Mühyəviyyə** – b a x: **Əkbəriyyə.**

**Müslixiyyə** – Xəlvətiyyədə Sinaniyyənin bir qolu. Müslim Əfəndi kimi tanınan təkirdağlı Müslixəddin Mustafanın (1688-ci ildə ölüb) adı ilə bağlıdır.

**Müstariyyə** – Şaziliyyədə Cüzuliyyənin bir qolu. Məhəmməd ibn Əhməd əl-Məknasi əl-Məğribiyə (XII əsrdə ölüb) isnad edilir.

**Müşariyyə** – Müşaviyyə adı altında Qadiriyyənin Yəmən qolu (XV əsr). Əl-Müşari ləqəbini daşıyan Məhəmməd ibn Musa ibn Əli ibn Üceyl əz-Zavali əl-Yəməninin adı ilə bağlıdır.

**Müşaviyyə** – b a x: **Əsədiyyə.**

**Mütaviyyə** – b a x: **Əhmədiyyə.**

**Nasiriyyə** – Şaziliyyənin Təmqrutdakı Fəs qolu (XVIII əsr) və Tunisdəki sonralar yaranmış başqa bir qolu (Şəbbiyyə).

**Nasuhiyyə** – Xəlvətiyyədə Qarabaşiyyənin qolu, Əbüləla əş-Şeyx Nasuhi Məhəmməd əl-Xəlvətiyyəyə (1718-ci ildə ölüb) mənsub olub.

**Nəhariyyə** – Yəməndə Qadiriyyənin bir qolu, Ömər ibn Musa ən-Nəhari əl-Hüseyninin adı ilə bağlıdır.

**Nəqşbəndiyyə** – Təyfuriyyədən nəşət edilən bir Türküstan təriqəti hesab olunur. Bəhvəddin Nəqşbəndin (1389-cu ildə ölüb) adı ilə bağlıdır. Qolları: Əsədiyyə, Əhrariyyə, Kasaniyyə, Mücəddidiyyə, Məzhəriyyə, Mücəddidiyyəi-Dehləviyyə, Xalidiyyə, Rəşidiyyə, Taciyyə, Camiyyə.

**Nəsimiyyə** – Qadiriyyənin qolu, Əbu Abdullah Məhəmməd Nəsiməddin ən-Nəsimi əl-Xəlvəti əl-Qadirinin adı ilə bağlıdır.

**Nəvaviyyə** – Şaziliyyənin bir qolu. Mühyiəddin Əbu Zəkəriyyə Yəhya ibn Şərəfəddin ən-Nəvaviyə (1271-ci ildə ölüb) mənsub olub.

**Nimətullahiyyə** – Şah ləqəbini daşıyan Səyyid Nurəddin Nimət Allah Valinin (1331-1421) adı ilə bağlıdır. İranda Kirmanda Qadiriyyə-Hafiiyyədən nəşət etmiş yeganə İran şiə təriqəti.

**Niyaziyyə** – Xəlvətiyyədə Əhmədiyyənin qolu. Niyazii-Misriyə (1694-cü ildə ölüb) mənsub edilir.

**Nizamiyyə** – Çistiyyənin bir qolu, Nizaməddin Övliya kimi tanınan Məhəmməd ibn Əhməd əl-Xəlvətiyə (1325) mənsub edilir.

**Nuhiyyə** – Əhmədiyyənin bir qolu. Əmr ibn Nuh əl-Əhmədiyyə mənsub edilir.

**Numaniyyə** – Cüneydiyyənin bir qolu, Nəcməddin Əbu Numan ibn Bişr ibn Əbu Bəkr ibn Süleyman əl-Cəfəri ət-Təbriziyə mənsub edilir.

**Nurbəxşiyyə** – Kubrəviyyənin Məhəmməd Nurbəxşə (1465-ci ildə ölüb) mənsub edilən Xorasan qolu.

**Nurəddiniyyə** – b a x: **Cərrahiyyə.**

**Nuriyyə** – b a x: **Cərrahiyyə.**

**Nuriyyə** – Əbülhəsən Əhməd ibn Məhəmməd ən-Nuriyə (908-ci ildə ölüb) mənsub edilir.

**Nuriyyə** – Kubraviyyənin bir qolu, Nurəddin Həbib Allah əl-Hədisiyə mənsub edilir.

**Nuriyyə** – Rafizilərin bir təriqəti.

**Nuriyyə** – Rükniyyənin bir qolu (XIV əsr).

**Nübuviyyə** – Suriyada sənətkarların əsnaf təriqəti (XII əsr).

**Pir-hacat,** Piri-Hacat – Abdullahi-Ənsarinin (1089-cu ildə ölüb) adı ilə bağlı əfqan təriqəti.

**Rahmaniyyə** – Xəlvətiyyənin Kabiliyyədəki qolu (müəssisi 1793-cü ildə ölüb).

**Ramazaniyyə** – Xəlvətiyyədə Əhmədiyyənin bir qolu, Qarahisarlı Şeyx Ramazanın (1616-cı ildə ölüb) adı ilə bağlıdır.

**Raşidiyyə** – Zərruqiyyənin qolu, Əhməd ibn Yusif ər-Raşidiyə (1521-ci ildə ölüb) mənsub edilir.

**Raufiyyə** – Xəlvətiyyədə Ramazaniyyənin bir qolu, banisi Seyyid Əhməd Raufi Əfəndidir (1757-ci ildə ölüb).

**Razaviyyə** – Əbülhəsən Əli ibn Musa ər-Rizaya mənsub edilir.

**Rəhhaliyyə** – Fəs (Mərakeş) sehrbaz təriqəti (XVI əsr).

**Rəslaniyyə** – Uqeyliyyənin bir qolu, Şeyx Rəslan ibn Yaqub ibn Əbdürrəhman

ibn Abdullah əl-Cəbəriyə (1296-cı ildə ölüb) mənsub edilir.

**Rəsulşahiyyə** – Qücaratda hind təriqəti (XIX əsr).

**Rəşidiyyə** – Yusufiyyəyə müxalif Əlcəzair təriqəti (XIX əsr).

**Rifaiyyə** – Cənubi İraq təriqəti. Seyyid Əhməd ər-Rifaiyə (1183-cü ildə ölüb) mənsub edilir. Təriqətin mərkəzi olan Bəsrədən Suriya və İstanbula qədər yayılmışdır. Qolları: Suriyada – Həririyyə, Sədiyyə, Səyyadiyyə; Misirdə – Baziyyə, Malikiyyə və Xüluliyyə.

**Rövşəniyyə** – b a x: **Rüşəniyyə.**

**Rövşəniyyə** – Sührəvərdiyyənin əfqan qolu. Bayəzid Ənsariyə (1585-ci ildə ölüb) mənsub edilir.

**Rumiyyə** – b a x: **Əşrəfiyyə.**

**Ruzbihaniyyə** – Müşridiyyənin bir qolu, Ruzbihan əl-Bakliyə (1209-cu ildə ölüb) mənsub edilir.

**Rükniyyə** – Kubraviyyənin (Nuriyyənin) Bağdad qolu, Əlaəddövlə əs-Simnaniyə (1336-cı ildə ölüb) mənsub edilir.

**Rüşəniyyə,** Rövşəniyyə – Xəlvətiyyənin bir qolu. Dədə Ömər Rüşəniyə (1487-ci ildə ölüb) mənsub edilir. Qolları: Dəmirdaşiyyə, Sezaiyyə, Halətiyyə.

**Sabiriyyə** – Çistiyyənin bir qolu, Xacə Əlaəddin Əli Əhməd Sabir əl-Kumeyrinin (1291-ci ilin martında ölüb) adı ilə bağlıdır.

**Sadiqiyyə** – Rüknəddin Məhəmməd əl-Mansur əs-Sadiqə mənsub olan təriqət.

**Sahiliyyə** – əs-Sahili əl-Mələki nisbəsi ilə tanınan Əbu Abdullah Məhəmməd ibn Əhməd ibn Əbdürrəhman əl-Ənsariyə (1536-cı ildə ölüb) mənsubdur.

**Sanhacıyyə** – Məhəmməd Amğar ibn Cəfərin adı ilə bağlı təriqət.

**Salehiyyə** – ibn Məhəmməd əs-Salehə mənsub təriqət.

**Sasaniyyə** – Suriya və Anadoluda bir əsnaf təriqəti (XII-XVI əsrlər).

**Saudiyyə** – Rifaiyyənin qolu, Əbu Saud ibn Əbiləşair əl-Vasiti əl-Badiriniyə (1246-cı ildə ölüb) mənsubdur.

**Saudiyyə** – Sührəvərdiyyənin qolu, Əbussaud əl-Carihiyə (1527-ci ildə ölüb) mənsubdur.

**Saviyyə** – Xəlvətiyyədə Dərdiriyyənin bir qolu, Seyyid Əhməd ibn Məhəmməd əl-Maliki əs-Saviyə (1826-cı ildə ölüb) mənsubdur.

**Sehrminiyyə** – Əbu Abdullah Məhəmməd ibn Məhəmməd ibn Osman əs-Sehrminiyə mənsub edilən təriqət.

**Sezaiyyə** – Xəlvətiyyədə Gülşəniyyənin bir qolu, banisi Həsən Sezai Əfəndidir (1738-ci ildə ölüb).

**Səbiniyyə** – Cüneydiyyənin bir qolu, məşhur filosof İbn Səbinə (1120-1170) mənsub edilən təriqət.

**Səbtiyyə** – Mədyəniyyənin bir şöbəsi, Əbülabbas Əhməd ibn Cəfər əs-Səbtiyə (1130-1205) mənsubdur.

**Sədiyyə** – Rifaiyyənin Suriyadakı qolu. Sədəddin əl-Cibavinin (1335-ci ildə ölüb) adı ilə bağlıdır. Qolları: Əbdüssəlamiyyə, Əbülvəfaiyyə.

**Sədriyyə** – Xatimiyyənin qoludur. Sədrəddin əl-Konaviyə (1263-cü ildə ölüb) mənsubdur.

**Səfəviyyə** – Sührəvərdiyyənin Ərdəbildəki qolu. Səfəvi xanədanının qurucusu Şeyx Səfiəddin əl-Ərdəbiyə (1334-cü ildə ölüb) aid edilən təriqət-

 TƏRİQƏTLƏRİN SİYAHISI

dən qızılbaşlığın və türk təriqətinin əmələ gəlməsini təmin etmişdir.

**Səhliyyə** – XVI əsrdə süni bir isnadla Səhl ibn Abdullah ət-Tüstəriyə (896-cı ildə ölüb) mənsub edilən təriqət.

**Səidiyyə** – Əbu Səid ibn Əbülxeyr ibn Fəzl Allah əl-Meyhaniyə (1049-cu ildə ölüb) mənsub təriqət.

**Səkatiyyə** – XVI əsrdə süni bir isnadla Sari əs-Səkatinin (865-ci ildə ölüb) adı ilə bağlanıb.

**Səlahiyyə** – Xəlvətiyyədə Əhmədiyyənin bir qolu, banisi balıkesirli Şeyx Abdullah Əfəndidir.

**Səlimiyyə** – b a x: **Səhliyyə.**

**Səlimiyyə,** Salimiyyə – Çistiyyənin bir qolu, Səlim əl-Öməriyə mənsubdur.

**Səllamiyyə** – Əhmədiyyənin qolu. Səllam əl-Əhmədinin adı ilə bağlıdır.

**Səmmaniyyə** – Şaziliyyənin Misir qolu (XIX əsr).

**Sənaniyyə** – kiçik Tunis təriqəti (XIX əsr).

**Sənusiyyə** – Böyük Səhranın şərqində Cağbub vahəsində, sonra Kufrada Xadiriyyədən nəşət tapmış əsgəri təriqəti (banisi 1859-cu ildə ölüb).

**Sənusiyyə** – Mədyəniyyənin bir qolu. Əbu Abdullah Məhəmməd ibn Yusuf ibn Ömər ibn Şüeyb əs-Sənusiyə (1490-cı ildə ölüb) mənsubdur.

**Səyyadiyyə** – Rifaiyyənin bir qolu, İzəddin əs-Səyyada (1272-ci ildə ölüb) mənsub edilir.

**Səyyariyyə** – sonradan Əbülabbas Qasim ibn əl-Qasim ibn əl-Mehdi əs-Səyyarinin (856-cı ildə ölüb) adı ilə bağlanıb.

**Sicilmasiyyə** – Məhəmməd ibn əl-Həsən əs-Sicilmasiyə (1180-ci ildə ölüb) mənsubdur.

**Siddiqiyyə** – Süni isnadla birinci xəlifə Əbu Bəkrə mənsub olunan təriqət.

**Silafiyyə** – Əbu Tahir Əhməd ibn Məhəmməd ibn Əhməd əs-Silafi əl-İsfahaniyə (1180-ci ildə ölüb) mənsubdur.

**Sinani-ümmiyyə** – b a x: **Sinaniyyə.**

**Sinaniyyə** – Xəlvətiyyədə Əhmədiyyənin bir qolu, Şeyx İbrahim Ümmi Sinana (1569-cu ildə ölüb) mənsubdur.

**Sultaniyyə** – Türkistan təriqəti (XIX əsr).

**Sutuhiyyə** – b a x: **Əhmədiyyə.**

**Süheyliyyə** – Şaziliyyənin Əlcəzair qolu (XIX əsr).

**Sührəvərdiyyə** – Qadiriyyənin bir qolu, Siddiqiyyə (birinci xəlifənin soyundan olanlar) deyilən Əbdülqahir əs-Sührəvərdi (1168-ci ildə ölüb) və Ömər əs-Sührəvərdi (1234-cü ildə ölüb) tərəfindən əsası qoyulmuş Bağdad təriqəti. Əfqanıstanda və Hindistanda yayılmışdır. Qolları: Zeyniyyə, Rüşəniyyə, Səfəviyyə, Xəlvətiyyə, Cəlaliyyə və Camaliyyə.

**Sünbüliyyə** – Xəlvətiyyədə Camaliyyənin bir qolu, banisi Şeyx Zeynəddin Yusuf Sünbul Sinan Əfəndidir (1630-cu ildə ölüb).

**Şabaniyyə** – Xəlvətiyyədə Camaliyyənin bir qolu, kastamonlu Şeyx Şaban Vəliyə (1568-ci ildə ölüb) mənsub edilir.

**Şahbaziyyə** – Burhaniyyənin qolu, Sinddə məşhur əs-Seyyid Lal Şahbaz Qəribə mənsub edilir.

**Şahmərdaniyyə** – b a x: **Mədariyyə.**

**Şaraniyyə** – Əbdülvahhab əş-Şaraniyə (1491-1565) mənsub edilən təriqət.

**Şattariyyə** – İşqiyyə təriqətinin bir qoludur. Hindistanda, Sumatra və Cava adalarında yayılmışdır. Abdullah Şattara (1415 və ya 1428-ci ildə ölüb) mənsub edilir.

**Şaziliyyə** – Tlemsenli Əbu Mədyan (1197-ci ildə ölüb) və tunisli Əli Şazili (1194-1258) tərəfindən yaradılmışdır. Məğrib qolları: Qaziyyə, Zərruqiyyə, Ziyaniyyə, Yusufiyyə, Nasiriyyə, Kərzaziyyə, Süheyliyyə, Həbibiyyə, Şeyxiyyə; Misir qolları: Bəkriyyə, Ərusiyyə, Kavukçiyyə, Məkkiyyə, Əfifiyyə, Havatiriyyə, Cövrəriyyə, Qasimiyyə, Henduşiyyə; Türkiyə, Rumıniya, Nubiyada və Komor adalarında da qolları var.

**Şeybaniyyə** – Əbu Məhəmməd Yunus ibn Yusuf əş-Şeybaniyə (1222-ci ildə ölüb) mənsub edilir.

**Şeyxiyyə** – Azərbaycanda Hacı Mirzə Musa ibn Məhəmməd Xorasani Təbrizi tərəfindən yaradılmışdır. Oğlu Hacı Mirzə Əli Siqatulislam (1861-1912) təriqətin fəaliyyətini davam etdirmişdir.

**Şeyxiyyə** – Oranlı (Əlcəzair) Ulad Sidi Şeyx Şaziliyyəsinə verilmiş ad (XIX əsr).

**Şəhaviyyə** – Burhaniyyənin qolu, Məhəmməd əş-Şəhavi əl-Burhaniyə mənsub edilir.

**Şəmsiyyə** – Xəlvətiyyənin qolu, Şeyx Şəmsəddin Sivasiyə (1598-ci ildə ölüb) mənsub edilir. Sivasiyyə adlı bir qolu var.

**Şənbəkiyyə** – Cəbəriyyənin əqidəsindədir, Əbu Məhəmməd əş-Şənbəki əl-Hüseyninin adı ilə bağlıdır.

TƏRİQƏTLƏRİN SİYAHISI

**Şərqavə** – Fəsdə Cüzuliyyənin bir qolu.

**Şərqaviyyə** – Xəlvətiyyənin Misir qolu (XVIII əsr).

**Şərnubiyyə** – Burhaniyyənin qolu, Seyyid Şihabəddin Əbülabbas Əhməd ibn Osman əl-Şərnubi əl-Maliki əl-Burhaniyə (1586-cı ildə ölüb) mənsub edilir.

**Şihabiyyə** – Sührəvərdiyyənin qolu, Şihabəddin Əbu Həfs Ömər ibn Məhəmməd əs-Sührəvərdi əl-Bəkriyə (1234-cü ildə ölüb) mənsub edilir.

**Şinnaviyyə** – Əhmədiyyənin qolu, Əbu Abdullah Məhəmməd əş-Şinnaviyəyə (1619-cu ildə ölüb) mənsub edilir.

**Şueybiyyə** – Əbu Şueyb Əyyub əş-Şariyət ibn Səid Azommura (1166-cı ildə ölüb) mənsub edilir.

**Şueybiyyə** – Əhmədiyyənin bir qolu, Şəmsəddin Məhəmməd ibn Məhəmməd ibn Şüeyb ibn Əhməd ibn Əli əl-Hicazi əş-Şubeybiyə (1630-cu ildə ölüb) mənsub edilir.

**Şuziyyə** – XII əsrdə Səbiniyyədən ayrılan köçəri təriqət.

**Şüreyhiyyə** – Əbülmüqəddəm Şüreyh ibn Hani ibn Məzyəd əl-Hərisiyə (1269-cu ildə ölüb) mənsub edilir.

**Şüstəriyyə** – Əbülhəsən Əli ibn Abdullah əş-Şüstəri ən-Nümeyriyə (1269-cu ildə ölüb) mənsub edilir.

**Tabbaniyyə** – Tunis təriqəti (XIX əsr).

**Takiniyyə** – Rafizi təriqətidir.

**Taqlibiyyə** – Sədiyyənin bir qolu, banisi Şeyx Mahmud ibn Salim əs-Sədi əş-Şeybanidir.

**Talibiyyə** – kiçik Fəs (Mərakeş) təriqəti (XIX əsr).

TƏRİQƏTLƏRİN SİYAHISI

**Tausiyyə** – Cüneydiyyənin bir qolu, Taus əl-Hərəmeyn ləqəbini almış və Əbərguhda vəfat etmiş Əbülxeyr İqbala mənsub edilir.

**Tavaşiyyə** – Qadiriyyənin bir qolu, Nurəddin Əli ibn Abdullah ət-Tavaşiyə mənsubdur.

**Taziyyə** – Mədyəniyyənin bir qolu, Şeyx Əbu Salim İbrahim ət-Taziyə mənsubdur.

**Təriqəti İbnülhacc** – b a x: **Həciyyə.**

**Təybiyyə** – Cüzuliyyənin Fəsdə yaranmış qolu (1727).

**Təyfuriyyə** – Əbu Yəzid Təyfur Bistamiyə (874-cü ildə ölüb) Dasitani və Həraqani tərəfindən mənsub edilən təriqət.

**Ticaniyyə** – Xəlvətiyyədə Həfnəviyyənin Əlcəzair – Fəs qolu. Əsası Şeyx Şihabəddin Əhməd ət-Ticani (1812-ci ildə ölüb) tərəfindən qoyulub. Sudanda da yayılmışdır.

**Tuhamiyyə** – b a x: **Təybiyyə.**

**Uceyliyyə** – Qadiriyyənin bir qolu, Əbülabbas Əhməd ibn Musa ibn Uceyl əz-Suvali əl-Yəməniyə (1291-ci ildə ölüb) mənsubdur.

**Uqeyliyyə** – Hərraziyyənin bir qolu, Uqeyl əl-Manici ibn Şihabəddin Əhməd əl-Bataixiyə (V əsrin sonunda ölüb) mənsub edilir.

**Uşşaqiyyə** – Xəlvətiyyədə Əhmədiyyənin qolu. Banisi, Şeyx Həsən Xusaməddin əl-Uşşaqidir (1593-cü ildə ölüb).

**Ülvaniyyə** – XVI əsrdə türklər tərəfindən VIII əsrdə yaşamış Ciddəli bir vəliyə mənsub edilən təriqət.

**Ülvaniyyə** – Səfiəddin Əhməd ibn Ülvan əl-Yəməniyə mənsub edilən təriqət.

**Ümmi sinaniyyə** – b a x: **Sinaniyyə.**

**Ürabiyyə** – Qadiriyyənin bir qolu (XVI əsr).

**Üreyfiyyə** – İbn əl-Üreyfə əs-Sənhaci əl-Əndəlusi kimi tanınan Əbülabbas Əhməd ibn Məhəmməd ibn Əta Allaha mənsub edilir.

**Üşeyqiyyə** – Şattariyyənin hind qolu, Əbu Yəzid İşqiyə (XV əsrdə ölüb) mənsub edilir.

**Üveysiyyə** – süni isnadla Üveysi-Karaniyə mənsub edilmiş təriqət.

**Vəfaiyyə** – Şaziliyyənin qolu, banisi Əbülhəsən Əli ibn Məhəmməd Vəfa əl-Ənsari əl-Həsəni əl-Quraşidir (1404-cü ildə ölüb).

**Vəfaiyyə** – Şaziliyyənin Suriya – Misir qolu (müəssisi 1358-ci ildə ölüb).

**Vəhdətiyyə** – Hindistanda XIX əsrin sonunda yaranmış müsəlman hindu təriqəti.

**Vüsuliyyə** – Rafizilər təriqətidir.

**Yafiiyyə** – Qadiriyyənin bir qoludur, Afifəddin Yafiinin adı ilə bağlıdır (1367-ci ildə ölüb).

**Yaiziyyə** – Məğribli Əbu Yaizz Cavad ibn Maymun əl-Hazmiri əl-Hankurinin adı ilə bağlıdır.

**Yaqubiyyə** – Xızıriyyənin bir qoludur. Xərraziyyə də adlanır.

**Yəməniyyə** – b a x: **Əsədiyyə.**

**Yəsəviyyə** – Türkistanda Hacəqanın bir qolu olub, Əhməd Yəsəvinin (1166-cı ildə ölüb) adı ilə bağlıdır.

**Yigitbaşiyyə** – b a x: **Əhmədiyyə.**

**Yunusiyyə** – Suriyada köçəri təriqət, Şeybani tərəfindən təsis edilib (1222-ci ildə ölüb).

**Yusufiyyə** – Şaziliyyənin Məqrib qolu (XVI əsr).

**Zahidiyyə** – Əbhəriyyənin bir qolu, Tacəddin İbrahim əz-Zahid əl-Gilaninin (1291-ci ildə ölüb) adı ilə bağlıdır.

**Zeylaiyyə** – Qadiriyyənin bir qolu, Səfiəddin Əhməd ibn Ömər əz-Zeylainin adı ilə bağlıdır.

**Zeyniyyə** – Sührəvərdiyyənin Bursadakı türk qolu, Zeynəddin Xuvafinin adı ilə bağlıdır (1435-ci ildə ölüb).

**Zəhəbiyyə** – Xacə İshaq əl-Xətlaninin adı ilə bağlıdır (IX əsrin sonunda ölüb).

**Zənfəliyyə** – Əhmədiyyənin bir qolu, Əli Zənfəl əl-Labidi əl-Əhmədinin adı ilə bağlıdır.

**Zərqubiyyə** – Şihabiyyənin bir qolu, İzzəddin Əbu Məhəmməd Mövlud ibn Məhəmməd əl-Muin əz-Zərqubun adı ilə bağlıdır.

**Zərruqiyyə** – Şaziliyyənin Mərakeş qolu, Əbülabbas Əhməd Zərruqun adı ilə bağlıdır (1493-cü ildə ölüb).

**Ziyaniyyə** – Şaziliyyənin Məğrib qolu (XIX əsr).

**Zühriyyə** – Xəlvətiyyənin Sinaniyyə qolundan Müslihiyyənin bir qolu. Kayserili Əhməd Zührinin adı ilə bağlıdır (1744-cü ildə ölüb).

**Züreyqiyy,** Zəraqiyyə – Rafizilər təriqəti.

**TƏSƏVVÜF**, Tasavvuf (*ər.*) – 1. "yun" mənasında olan **suf** kökünün V vəznindən (təfaul) məsdəridir, "yun libas geymək" (məbs əs-suf) adətini izah etmək üçün işlənir. Özünü sufiyana həyata həsr etmə və islamiyyətdə sufi olma mənasındadır.

Sufi adı haqqında köhnə və ya yeni müəlliflərin irəli sürdükləri başqa söz düzəltmələri də var: əhl əs-suffa (Peyğəmbər vaxtında Mədinədə məclisin başında oturan zahidlər), saff əvvəl (namaz vaxtında təşkil olunan cərgələrin ilki), bənu Sufa (bədəvi qəbiləsi), savfana (bir növ səbzə), savfat əl-qifa (ənsədəki bükülü saç), sufiya (safa) – "təmiz oldu" kökünün III vəznindən (mufaala) məchul. Bu məchul şəkil çox erkəndən, miladi VIII əsrdən etibarən işlənmişdir.

Şəxs nisbəsi olan "əs-Sufi" tarixdə ilk dəfə miladi VIII əsrin ikinci yarısında, özünə xas asketik əqidəsi olan küfəli kimyagər Cabir ibn Həyyan və tanınmış mütəsəvvif, kufəli Əbu Haşimlə bağlı işlənmişdir. Sufi sözünün cəmi olub, ilk dəfə hicri 199 (814)-cu ildə İsgəndəriyyədə kiçik bir üsyan ilə bağlı olan sufiyaya gəldikdə, bu söz ərəb müəlliflərinə görə (Mühasibi və Cahiz), Kufədə yaranmış yarı şin islam təsəvvüf məktəbinə dəlalət edir. Məktəbin son nümayəndəsi Bağdadda h. 210 (825)-cu ildə vəfat edən və ömrü boyu yalnız bitki qidası ilə yaşamış Abdak əs-Sufidir. Sufi adının ilk vaxtlar işləndiyi yer Kufədir.

2. **Mənşələri.** Bütün ölkələrdə və irqlərdə görünən təsəvvüfi həyata meyillər, ilk iki əsrin müsəlman ərəblərində də özünü göstərir. Sonrakı əfsanələr bir tərəfə, Cahiz və İbn əl-Covzidən bu dövrdə yaşamış 40-dan çox asketin

(zahidin) adlarını qeyd etmişlər. Bu, ibadət tərzinin "dəruniləşdirilməsi", təsəvvüfi həyatın açıq xətlərini göstərməkdədir.

İslam təsəvvüfü, əshabələr arasında iki gerçək müjdəçi – Əbu Zərr və Hüzeyfə ilə öyünə bilər. Bunlardan sonra asketlər (Nussak, zühhad), tövbəkarlar və ya ağlayanlar (bəkkaun) və xalq vaizləri (qussas) gəlir. Birincilər mərkəzləri Ərəbistan çölünün Əlcəzirə hüdudlarında olan Bəsrə və Kufədə iki məktəbdə cəmləşmişdilər.

Bəsrədəki, Təmim boyundan gələn və sünniliyə məftun ərəb mühacir zümrəsi, təsəvvüfdə bu şəxsləri pir saymışdır: Həsən əl-Bəsri (728-ci ildə ölüb), Malik ibn Dinar, Fəzl ər-Rəqqaşi, Rabah ibn Əmr əl-Qeysi, Salih əl-Murri və Abadanda məşhur zahidlər zümrəsinin qurucusu Əbdülvahid ibn Zeyd (793-cü ildə ölüb).

Kufədəki, Yəmən boyundan gəlib, məfkurəçi və ənənəvi bir xasiyyətə sahib, şiəliyə məftun ərəb mühacir zümrəsi isə təsəvvüfdə bu şəxsləri ustad saymışlar: Rəbi ibn Heysəm (686-cı ildə ölüb), Əbu İsrail əl-Mulai (757-ci ildə ölüb), Cabir ibn Həyyan, Küləyb əs-Səydavi, Mansur ibn Ammar, Əbül-Ətahiyə və Abdak. Sonuncu üç nəfər həyatlarının axır dövrlərini – h. 250 (864)-ci ildən sonra islam təsəvvüf hərəkətinin mərkəzi olan xilafət paytaxtı Bağdadda keçirmişlər. H. 250-ci il tarixli camelərdə təsəvvüfə dair ilk ümumi dərslərlə birlikdə dini məsələlər haqqında mübahisələrin aparıldığı toplantılar və yadasalma dərnəklərinin (xalqa) yarandığı tarixdir.

Fakihlər ilə sufilərin ilk ümumi ixtilafları yenə bu dövrdə başlanmışdır: Zun-Nun əl-Misri (854-cü ildə ölüb), Nuri, Əbu Həmzə və Həllac Bağdad qaziləri qabağında mühakimə edilmişlər.

3. **İslam cəmiyyətində təsəvvüfün rolu.** İlk islam sufiləri müsəlman camaatının idari səlahiyyət sahibləri ilə ixtilafa düşəcəklərini qabaqcadan düşünməmişlər. Onlar öz istəkləri ilə fağırlıq (faqr) içində yaşayırdılarsa da, bu, duada Allaha yaxınlaşmağa çalışmaqla Quranı daha yaxşı düşünmək (təqərraa, təsəvvüfün əski sinonimidir) üçün idi. Təsəvvüfi dəvət, əksərən haqsızlıqlara və insanın özünə aid xətalara qarşı üsyandan doğur.

Təsəvvüf üstündə müsəlman üləması arasında düşmənçilikləri ilk dəfə göstərənlər xaricilər oldu. Bunlardan sonra imamilər (Zeydilər, İsnə əşəriyyə və aşırılar) də sufilərin dəvətçiliyini rədd etdilər.

Sünnilər, öz vəziyyət və hərəkətlərini açmaqda daha yavaş davranırdılar və təsəvvüfü rədd etmək üçün aralarında əsla birlik qura bilmədilər. Onlarda təsəvvüfə qarşı hücumlar iki tərəfdən baş verdi: bir tərəfdən mühafizəkarlar (həsviyə) – İbn Hənbəl təsəvvüfü, zahiri ibadətin zərərinə təfəkkürü inkişaf etdirmək və beləliklə, dini əmrlərdən azad olub (ibaha) ruhun Allah ilə daimi dostluğunu (hüllə) arzu etməklə mülahizə etdi. Onun şagirdlərindən olan Xəsis və Əbu Zürə, təsəvvüfü, zənadiqə rafiziliyini xüsusi bir tale qolu (Ruhaniyyə) altında göstərdilər.

Digər tərəfdən mötəzililər ( və Zahirilər), yaradanı, yaradılana bağlayan

müştərək eşq (işq) fikrinin mənasız olduğunu bəyan etdilər.

4. **Təsəvvüfi ittifaqın tərifi və tarixi inkişafı.** Başlanğıcında təsəvvüf iki məsələ üzərində qurulur: a) Daxildən gələn qeyrətlə ibadət etmə; ruhlarda və ağılda idrak edə bilən həqiqətlərdən ibarət olan lütflər (fəvail) doğur; b) Qəlblər elmi (ilm əl-qulub); təcrübi bir hikməti və bəsirəti (mərifə) təmin edir. Sufilər, "qəlblər elmi"ndə mütəhərrik bir xassənin olduğunu qəbul edirlər və bu elmin, Allaha doğru səyahətlərindəki (səfər) yolunu cızdığını və bu yolu sanki "müqəddəs nərdivan"dakı kimi bir qismi qazanılmış fəzilətlər, digər qismi özlüyündən gəlmiş lütflərdən ibarət olan on iki dayanacaq (məqamat) və hal (əhval) ilə işarələyirlər. Onların məqamlar və hallara dair cüt siyahıları, müxtəlif müəlliflərdə dəyişirsə də, demək olar ki, daim tövbə, səbir, təvəkkül, riza kimi məruf təbirləri ehtiva edir. Sufilər, təsəvvüfü yol rəhbərinin fərdi fərqlərini bir tərəfə qoyur və ruh, cismani bağlardan xilas olaraq, arzu etdiyi haqqı (əl-haqq) tapdığı vaxt, nəhai qayənin tərifi ilə məşğul olurlar.

Bu dövrdən etibarən, sufilər, zamanlarının sözlük (səlami) lüğətlərinə müraciət etmək məcburiyyətində qaldılar: elmi təbirlərə sistemli qiymət verməklə onların mənalarını bir az pozaraq ordan-burdan iqtibas etdilər. Beləliklə, Şəqiq təsəvvüfü, təvəkkülü, Misri və İbn Kərram mərifəni, Misri və Bistami fənanı (bəqanın ziddi; b a x: **Quran,** 55, 26 və s.), Hərraz eyn əl-cam, Tirmizi vilayəni və s. gətirdilər. İlk islam təsəvvüfü, bunu edərkən ruhun mənəviliyini (və hətta ölümsüzlüyünü) inkar edir və ontoloji birliyi riyazi birlik ilə qarışdırırdılar.

Sufiliyin ümdələrinin təşəkkül etdiyi son dövr h. VII (XIII) əsrdə başlanır. Onun başlıca məktəbi, vəhdəti-vücud əqidəsini iqrar etdiyi üçün müxaliflər tərəfindən vəhdətiyyə (və ya vücudiyyə) adlandırılmışdır.

5. **Təsəvvüfün başqa xüsusiyyətləri.** Həmin xüsusiyyətlər bunlardır:

a) İsnad, yəni hədislərdəki kimi, təsəvvüfdə, şeyxlərin silsiləsini, həqiqətən Peyğəmbərin təliminə bağlamaq üçün düşünülmüş mənəvi şəcərə. Bizə məlum olan ən qədim isnad Xuldiyə (969-cu ildə ölüb) mənsubdur. Onun Peyğəmbərə çatan şəcərəsi belədir: əl-Cüneyd (7), əs-Səqati (6), Məruf əl-Kərxi (5), Fərqad (4), Həsən əl-Bəsri (3) və Anas ibn Malik (2). Qısa bir müddətdən sonra əl-Dəqqaq (1014-cü ildə ölüb) təriqət şəcərəsinə əl-Kərxidən qabaq Davud ət-Taini (4) adını əlavə edir. Nəhayət, klassik isnad (miladi XIII əsrdən etibarən təsbit edilmiş və o tarixdən bəri böyük təriqətlər tərəfindən qəbul edilmiş olan **isnad**) əl-Cüneyddən (7) sonra, Rudbari (8), Əbu Əli əl-Katib və ya əz-Zəccani (9) əl-Məqribi (10) və əl-Qurqaninin (11), həmçinin Davud ət-Taidən (4) əvvəl Həbib əl-Əcəmi (3), Həsən əl-Bəsri (2) və Əlinin (1) adlarını verir.

b) Möminlərin, bu dünyada görünməyən təbəqəsinə (rical əl-qeyb) gəldikdə isə, dünyanın sabit sayda, gizli bir vəlilər silsileyi-məratibinin şəfaətləri sayəsində fəaliyyətinə inanılır: bura 300 nuqaba, 40 abdal, 7 ümənə, 4 əmud və bunların qütbü (qütb və ya dünyanın təsəvvüfi mehvəri-qövs) daxildir.

c) Sufilərin müştərək həyatlarının əsasında duran imtiyaz və ruxsatlar (ruxaz) daha qədim zamanlardan mövcuddur. Sufilər öz yığıncaqlarında xüsusi mənzumələr oxuyurlar. İslamiyyətə xas olan bu ədəbiyyat hər yerdə yüksək inkişaf etmiş və yeknəsəqlikdən çəkinməmişdir. Dinləyicilərdə, bir növ süni vəcdi hərəkətə gətirəcək şəkildə, bədii vasitələrlə ruhi bir intibah hasil etməyə təxsis edilmiş ədəbiyyatdır. Bu mənzumələr arasında xüsusən aşağıdakılar məşhurdur: ərəb ədəbiyyatında İbn əl-Fariz və əş-Şüştərinin, İran ədəbiyyatında Əbu Səidin rübailəri, Əttar və Ruminin uzun məsnəviləri, Hafizin qəzəlləri, Caminin digər mənzumələri; türk ədəbiyyatında Nəsimi və Nizaminin əsərləri.

**TƏŞƏHHÜD** (*ər.*) – hazır, mövcud olmaq, "Allah hüzurunda olmaq" mənasını verir. İstilah kimi "namazda qədə (oturma) vaxtında kəlmeyi-şəhadəti deməkdir". Beləliklə, təşəhhüd, qəti qərar ilə Allahın gerçəkliyinə şəhadət etməyi ehtiva edir.

Təşəhhüdün ibarə şəkli Peyğəmbər tərəfindən öyrədilmişdir. Hətta rəvayətə görə, Peyğəmbər, bunu Quran surəsini öyrətdiyi kimi öyrədirdi. Peyğəmbərin son oxuduğu təşəhhüdün tam mətni belədir: "ət-Təhiyyətul-ilahi vəs-Sələvatu vət-təniyyətü əs-salamu əleykə əyyuhən-nəbiyyu və rəhmətullahi və bərəkətuhu əs-salamu əleyna və ələ ibadi illahis-salihin... Əşhədu ən ləilaha illallah və əşhədu ənnə Muhəmmədən əbdühü və rəsuluhu".

**TƏŞRİQ** (ərəbcə) – Həccin Qurban bayramının (10 Zülhiccə: yavm ən-nəhr) arxasınca gələn üçgünlük (11-13 Zülhiccə: əyyam ət-təşriq) dövrünə verilən addır. Bu üç günün ilkinə yavm əl-qarr, ikincisinə – yavm ən-nəfr əl-əvvəl, üçüncüsünə isə – yavm ən-nəfr əs-sani adları verilir.

Hacıların yuxarıda qeyd edilən üç gündə, Minada qalıb kəsdikləri qurbanların ətlərini günəşə sərərək parça-parça qurutmaları da təşriq mənası ilə bağlıdır.

Quranda təşriq sözü yoxsa da, bu üç günə işarə edən ayələr (əl-Bəqərə, 203; əyyamin mədudatin "sayı bəlli olan günlər"; əl-Həcc, 28; əyyamın məlumatin "məlum günlər") vardır. Ərəfə gününün sabah namazından, bayramın dördüncü gününün günorta ilə günəş batan vaxtı arasındakı namazına qədər, 23 fərz vaxtı namazından sonra oxunan təkbirlərə də təkbirat ət-təşriq adı verilir.

Təşriq günlərinə, eyni günlərdə kiçik daşların (cəmrə) Minada atılması səbəbiylə əyyam əl-mühsayat da deyilir. Təşriq günləri, müstəsna hallardan başqa, ümumiyyətlə Minada keçirilir.

**TƏYƏMMÜM** (*ər.* mənası "qüsl etmək"dir). Dini istilah kimi, su olmadığı və ya sudan istifadə mümkün olmadığı təqdirdə, torpaqdan, qumdan istifadə edərək təmizlənmə mənasındadır. Sözün bu axırıncı mənasına Quranın IV (ən-Nisa) surəsinin 43-cü ayəsində isnad edilir. Həqiqətən, bu ayədə: "Ey iman gətirənlər! Sərxoş ikən nə dediyinizi anlamayana qədər və murdar (cünub) olduğunuz zaman qüsl edənədək namaza (namaz qılan yerə) yaxınlaşmayın. Yol ötən müsafirlər isə müstəsnadır. Xəstələndikdə və ya səfərdə olduqda, sizlərdən biriniz ayaq yolundan gəldikdə, yaxud qadınlara toxunmuş (yaxınlıq etmiş) olduqda, [qüsl və dəstəmaz üçün]

su tapmadığınız zaman pak bir torpaqda təyəmmüm edin, [ovuclarınızı] üzünüzə və əllərinizə sürtün!" deyilir (b a x: **VI, əl-Maidə** surəsinin 6-cı ayəsinə). Təyəmmüm fiqh kitablarında da ayrı bir mövzu kimi incələnib.

Yuxarıdakı hallarda abdəst və qüsl yerini tutan təyəmmüm, təharətə niyyət etməklə, barmaqlar açıq vəziyyətdə iki əli torpağa vurub irəli-geri çəkməklə qaldırıb bir-birinə sürtərək tozları yox etdikdən sonra, əvvəlcə üzü məsh, ardınca da qolları məsh etmək şəklində yerinə yetirilir. Şafeilərə görə, "bununla" əllərdə bir az qum tutmanın lazım olduğuna işarə edilir. Əksinə, hənəfilər isə, hətta əlin, sadəcə olaraq, pardaxlanmış bir daşa toxunmasını mötəbər hesab edirlər.

Talmudda, su olmadığı hallarda, qum işlənməsinə dair Qurandakına bənzər bir icazə vardır.

**TİAMAT** – qədim babillilərin təsəvvürlərinə görə – əzəli sular xaosu ilahəsi. İti dimdikli və dırnaqlı dəhşətli quş şəklində təsvir olunurdu.

Kainatın yaranmasına aid olan Babil əsatirində deyilir ki, Tiamat ilahiləri məhv etməklə kainatdakı qaydaları nizama salmağa mane olmaq istədi, lakin Babilin ulu ilahisi Marduk onun cəhənginə səkkiz külək salıb, bədənini iki hissəyə parçaladı, birindən göyü, ikincisindən də yeri yaratdı.

**TİR** (*köhnə skandinavca* Tür, Tivaz) – skandinav əfsanələrində Odinin və pəhləvan qadının birqollu oğlu (onun qolunu ilahilər nəhəng canavar Fenrisin ayaqlarına bağlayaraq qırmışdılar) ilahilərin ən cəsuru idi. Əvvəllər səmanın və havanın, sonralar məclislərin, məhkəmənin və müharibənin ilahisi idi.

**TİŞUP,** Teşub – hurrenlərin (Şimali Mesopotamiya), xettlərin (Kiçik Asiya) və Urartunun (burada Teyşeba adlanırdı) dini inamlarında göy gurultusunun, ildırımın və tufanın ilahisi. Tişup bir əlində balta, digərində isə bir dəstə ildırım saxladığı halda təsvir olunurdu.

**TİTANLAR** (nəhənglər, azmanlar) – yunan əfsanələrində, səma ilahəsi Uranın və yer ilahisi Geyanın uşaqları (6 qardaş və 6 bacı) və nəvələri: Okean, Kronos və b. Əfsanəyə görə Kronosu devirən Zevsin taxta oturması Olimp ilahilərinin (Zevsin və qardaşlarının) Titanlarla müharibəsi ilə müşayiət olunurdu. Titanlar məğlub olub Tartara atılmışlar.

**TOR** (Thor, Thorr) – skandinav əfsanələrində – göy gurultusu və ildırım ilahisi, biçinin və məhsulun hamisi. Odinin və Yordun (Yer ilahəsi) oğlu. Tor yetkin, qəddi-qamətli və yenilməz qüvvəli adam kimi təsəvvür edilirdi. Onun atributları – myolnir adlı daşdan düzəldilmiş gürz, qüvvət, qayış və dəmir əlcək idi. Tor keçilərə qoşulmuş arabada gəzib, yorulmadan Zülmət ölkəsinin nəhəngləri ilə döyüşürdü.

**TOT** – Qədim Misir dinində əvvəllər Germopol şəhərində Ayın ilahisi idi, sonralar müdrikliyin, yazının və hesabın ilahisi oldu və həmçinin katiblərin, müqəddəs kitabların və sehrin hamisi idi. Belə hesab olunurdu ki, o, Osirisin axirət dünyasındakı məhkəməsində, ölənin əməlini qeydə alırdı. Totun arvadı salnamələr ilahəsi Seşat idi. Yunanlılar Totu Germeslə eyniləşdirirdilər.

**TRİMURTİ** (*sanskritcə* üçlük) – braxmanizmdə və induizmdə ilahilər

üçlüyü: Brahma, Şiva və Şişnu. Brahma ən yüksək yaradıcı başlanğıc, Şiva dağıdan və yaradan, Vişnu isə mühafizə edəndir.

**TRİPİTAKA**, Tipitaka (*sanskritcə* üçqat səbət) – qanunlaşmış buddist dini ədəbiyyatının təsdiq edilmiş adı. Dindarlar Tripitakanı Buddanın şagirdləri tərəfindən yazılmış onun özünün nəzəriyyəsi kimi qəbul edirlər. Tripitakanın ən tam mətni pali dilində yazılıb (pali kanonu). Tripitakanın şimal-hind (sanskrit) variantları yalnız qismən bilinir, bunlar əsasən çin və tibet dillərinə tərcümələrdir. Pali kanonu üç məcmuədən (pitakalar, səbətlər) ibarətdir. Vinaya-pitaka ("əxlaq qaydalarının pitakası") Buddaya isnad olunan nəsihətlərdən və bunların meydana gəlmələrinin hekayətlərindən ibarətdir. Ola bilsin ki, Vinaya-pitaka Tripitakanın ən qədim hissəsidir. Sutta-pitaka (sutraların pitakası) əsasən buddist dininə aiddir. Həcmcə böyük olan bu hissədə Buddaya və onun şagirdlərinə isnad olunan ibrətli hekayələr və nəsihətlər daxildir. Tripitaka erkən buddizm haqqında olan əsas məlumatlar mənbəyidir.

**TRİTON** – qədim yunan əfsanələrində – Poseydonun oğlu, dəniz ilahisi. Poseydonun əmri ilə o, ilbiz qabığına üfürərək dənizdə qasırğa yaradır və yatırırdı.

**TSERERA,** Tseres – Qədim Roma dinində əkinçilik ilahəsi. Əsas bayramı (tserealiyalar) aprelin 12-dən 19-dək keçirilirdi. Biçin qabağı (avqust ayında) da onun şərəfinə şənliklər olurdu. Yığılan birinci meyvələr, sünbüllər və doğulan ilk donuzlar ona qurban verilirdi.

**TUFAN** – Yer kürəsinin əfsanəvi suya qərq olması və yer üzündə xüsusi xilas olanlardan başqa bütün yaşayanların məhv edilməsi. Bibliyada tufanın və onun vaxtında gəmidə Nuhun, onun ailəsinin və "bütün heyvanlar"dan bir cütün (Kövn, 6-9) xilas olunmalarının təsviri təzadlı və Yer kürəsinin, heyvanlar aləmi haqqında olan məlumat çox sadəlövhdür. Tufan haqqında müxtəlif xalqların arasında çoxlu hekayətlər var. Əfsanəvi Bibliya mətninə ən yaxın və e.ə. X-XIX əsrlərə aid olan assuri mətni 1872-ci ildə D.Smit tərəfindən aşkar edilmişdir. Bu rəvayətə görə, Ea ilahisi Utnaniştimin yuxusuna girib ona xəbər verdi ki, ilahilər insanların məhv edilməsi qərarına gəliblər. Eanın məsləhəti ilə Utnapiştim gəmi düzəldir, Tufan vaxtında bütün dirilər məhv olduqda, özü və çoxlu heyvanlar xilas olundular. Gəmi Nisir dağının ətəyində dayandı. Yeddinci gündə Utnapiştim göyərçin, sonra da qaranquşu uçurtdu, lakin hər ikisi sığınacaq tapmayıb qayıtdı. Göndərilən qarğa qayıtmadıqda Utnapiştim gəmidən enib ilahilərə qurban verdi. Yəqin ki, məhz bu əfsanə Bibliyanın tufan haqqındakı hekayətinin əsasını təşkil edib. L.Vullinin Mesopotamiyadakı qazıntıları qədim Ur, Kiş, Şurupaka və b. şəhərlərin ətrafında nəhəng selin qalıqlarını aşkar etdilər. Bu sel tufan kimi qəbul edilə bilərdi. Sel, əlbəttə, bütün dünyanı deyil, 600 km uzunluğu və 150 km enliyində ərazini əhatə etmişdi. Ümumdünya tufanı haqqında əfsanə təkcə assurbabillilərin arasında deyil, Nil, Qanq, İnd və Xuanxe çaylarının sahillərində yaşayan qədim xalqlar arasında da yayılmışdı.

# U

**UHUD** – Mədinədən 4 km şimalda olan dağın adıdır. Hicrətin 3-cü ilində Peyğəmbər üçün əlverişli keçməyən döyüşün yeri kimi məşhurdur. Bədr döyüşünün intiqamını almaq üçün hərəkətə gələn məkkəlilər dağın yanında olan tarlaların ətrafında yerləşdilər. Öz arzusuna zidd və yaşlı kişilərin tövsiyəsinə rəğmən şəhəri tərk etməyə və açıq yerdə düşmənə qarşı çıxmağa məcbur olan Peyğəmbər, düşmənlərin yanından maneəsiz keçib, arxasını dağa verərək, qüvvələrini dağın ətəyində yerləşdirdi. Bu düşmənlər üçün qəribə bir strateji yerləşmə idi. Döyüş başlananda Peyğəmbərin səhabələrinin həyəcan və coşqunluğu Bədr döyüşünə bənzəyən bir qələbənin əldə ediləcəyi ümidini yaratdı. Lakin Peyğəmbərin dağın başına yerləşdirdiyi və düşmənin yandan hücumunu qabaqlamaq və durduqları yeri tərk etməmək haqqında Peyğəmbərin qəti əmrini almış ox atanların hamısı məkkəlilərin qərargahını qarət etməyə cumdular. Elə bu vaxt məkkəli Xalid ibn əl-Valid qarşı tərəfin açıq olmasını müəyyən etdi və bu zəif nöqtəyə hücum etməklə vəziyyəti dəyişdirdi. Peyğəmbərin şəhid edildiyi şayiəsinin yayılmasına görə müsəlmanlar geri çəkilməyə başladılar və axırda bu ümumi bir qaçış şəklini aldı. Əslində Peyğəmbər yüngülcə yaralanmışdı və yanındakılar onu götürüb qaya yarığında yerləşdirmişdilər. Döyüşə çox alışmayan məkkəlilər isə zəfərdən axıra qədər istifadə etməyib evlərinə qayıtdılar üçün böyük matəmə büründü. Peyğəmbər ağır bir aqibətdən xilas oldu. Lakin səhabələrin bir çoxunu və xüsusən əmisi Həmzəni itirdiyi üçün böyük matəmə büründü. Peyğəmbər ilk təkbiri Həmzənin üzərinə gətirdi, başqa şəhid cəsədlərini bir-birinin ardınca onun yanına düzdülər. Peyğəmbərin hər cənazə üçün ayrı-ayrı namaz qılması və yetmiş dəfə Həmzənin üstündə namaz qıldığı rəvayət edilir. Peyğəmbər, hər il Uhuda gəlib, öz yaxınlarına və başqalarına aid olan məzarları ziyarət edərdi. Bu, sonradan ilk dörd xəlifə tərəfindən də təkrar olunurdu. Odur ki, Uhud, müsəlmanların ziyarət etdikləri mühüm yerlərdən biri olmuşdur.

**UŞMUİL,** Samuil – İsrail oğullarının peyğəmbəri. O, Fələstində yerləşdikdən sonra, tez-tez düşmənlərinin basqınlarına uğrayan İsrail oğullarını bir yerə toplayaraq, onların pərən-pərən olmalarının qarşısını aldı. Tövrata görə, Amalika (Əhdi-Ətiq, filistimlilər, 1, 19-20) qövmi israilliləri cizyə vergisini ödəməyə məcbur etmiş, Tövratı və Əhd Sandığını (tabut) da götürüb aparmışdılar.

Tövratın əllərindən alınması və tabutun düşmən əlinə keçməsiylə başları bəlaya düşən İsrail oğulları, Allahdan özlərinə yeni bir peyğəmbər göndərilməsini istədilər. Rəvayətə görə, peyğəmbər soyundan Alkananın arvadı, Hanna adında bir qadın, Allahdan bir oğlan uşağı istəyir. Allah onun bu istəyini duyub, qəbul etdiyi üçün uşağa "Allahdan istənilən" mənasında Uşmuil (Şəmun) adı verilir.

Uşmuil, kahin İliyanın hakimliyinin 18-ci ilində anadan oldu və iki il sonra Tövratı oxumaq üçün Beyt əl-Müqəddəsə, bu kahinin hüzuruna gətirildi. Həddi-büluğa çatanda, Cəbrail tərəfindən İsrail oğullarına peyğəmbər kimi göndərildiyi müjdələndi. Lakin qövmi onun peyğəmbərliyini qəbul etmədi və Allahdan özlərinə, düşmənləri ilə döyüşmək üçün bir hökmdar göndərməsi xüsusunda bir möcüzə göstərməsini istədi və e.ə. 1044-cü ildə Talut İsrail oğullarına hökmdar seçildi. Bəziləri buna razı olmayıb Uşmuildən yenə möcüzə istədilər.

Uşmuil tabutun düşmən əlinə keçməsindən 20 il sonra İsrail oğullarını bir yerə toplayıb filistimliləri məğlub etdi və bu qələbə İsrail oğullarını birləşdirdi. Talut hökmdar olduqdan sonra Uşmuilin tövsiyəsinə görə bir ordu hazırladı. Fələstinə doğru irəliləyən Amalika ordusu filistimlilərlə üz-üzə gəldi. Uzunboylu, cəsur cəngavər olan Amalika sərkərdəsi Calut (ibrani dilində Qoliaf) meydan çıxıb, israillilərdən döyüş üçün bir qəhrəman tələb etdi. Qarşısına Yəhuda soyundan olan Talut çıxdı və sapandı ilə onu öldürdü. Bundan sonra Amalika ordusu pərişan oldu. İsrail oğulları qaçan düşməni qovaraq köhnə torpaqlarının hamısını geriyə aldılar.

Uşmuil İliyadan sonra 30 il kahinlik etdi. Talutun hökmdarlığının 35-ci ilində (e.ə. 1009) öldü və öz evində dəfn edildi (Əhdi-Ətiq, XXV, I).

**UZZA**, əl-Uzza – qədim ərəb ilahəsi, "qüvvətli, qüdrətli" mənasındadır. Bu ilahənin Qatafan qəbiləsi ilə xüsusi əlaqəsi var idi. Lakin əsas məbədi Taifdən Məkkəyə gedən yol üstündə, Nəhlə vadisində idi. Bu məbəd qadın ilahəsini təmsil edir və üç akasiya ağacından birinin içində idi. Ayrıca müqəddəs daş ilə qurban qanlarının saxlandığı Ğabğab deyilən mağara da buradadır. Bəzən Uzza məbədi ilə qarışdırılan bir "evdən" də söhbət gedir. Məbədi qoruyan Bənu Şeyba qəbiləsi idi. Bu ilahə qureyşilərdə əl-Lat və Manat ilə birlikdə üçlük təşkil edib, bunların arasında ən gənc məbud ikən sonradan hamısının başında durmuşdur. Məkkəlilərin bu üç ilahənin adını "Allahın qızları" kimi çəkməsi, Məhəmmədi onlarla bağladığı müqaviləni pozaraq şiddətli münaqişəyə çəkmişdi. Əbu Sufyan, hicrətin üçüncü ilində Məhəmmədə hücum etmək üçün səfərə çıxdığı zaman Uzza ilə əl-Latın timsallarını özü ilə aparmışdı. Uzzanın Məkkənin ilahəsi kimi əsas rol oynadığı Əbu Sufyanın bu sözlərindən aydın olur: "Uzza sizinlə deyil, bizimlədir".

Məkkənin alınmasından sonra Peyğəmbər Uzza məbədini dağıtmaq üçün Xalid ibn əl-Validi göndərdi. Bundan sonra bu ilahəyə ibadət etmək ortadan götürüldüyü kimi, Uzza ilə bağlı şəxsi adlar da işlənmədi. Lakin Əziz, Allahın adlarından biri olduğu üçün buna müqabil olan Əbdüləziz kişi adı kimi qalmaqda davam etdi.

# Ü

**ÜQAYSİR,** Əl-Üqaysir – islamdan əvvəlki Ərəbistanda bir ilahi adı, daha doğrusu, "qısa boyunlu" mənasına uyğun gələn, insan şəklində olan bütlərin ləqəbi. Üqaysirə Suriyada yaşayan bir neçə ərəb qəbiləsi ibadət edirdi.

**ÜMMƏT,** Umma (*ər.* cəmi umam) – toplu, xalq, camaat, tayfa, bir dinin mənsubları, bir peyğəmbərə inanıb onun ətrafına toplananlar deməkdir. Bu sözə Quranda 64 dəfə rast gəlinir. Təfsirlərdə, Qurana, dinə dair əsərlərdə və lüğətlərdə ümmanın Quranda bu mənaya uyğun gəldiyi qəbul edilmişdir: daşıdığı müştərək vəsf və ya vəsflərə müvafiq bir qrup təşkil edən insanlar və ya başqa canlılar, heyvan cinsləri (Quran, əl-Ənam, 38); dilləri, adət və ənənələri, yaşayış tərzləri və s. əlamətlərə görə ayrıca qruplar təşkil edərək bir arada yaşayan kiçik və ya böyük toplular, xalq, qövm (ən-Nəhl, 92; Yusif, 34); toplu içərisində xüsusi bağlarla (məsələn, əqrəbalıqla) birləşmiş daha kiçik camaatlar (əsabə, b a x: **əl-Bəqərə,** 122, 128). Söz göstərilən mənalarında başqa dini istilah kimi də işlənir. Bu mənada möminlərə, peyğəmbər göndərilmiş icmalara, (Yunus, 47; Yusuf, 45), hətta toplu daxilində imanda və əməldə ayrı qrup təşkil edən kiçik camaatlara da umma deyilmişdir (Ali-İmran, 120; əl-Əraf, 164). Umma, zaman, məkan, din və s. kimi hər hansı xüsusla bir araya gələn topludur. Bir araya gəlmə ya ixtiyaridir, ya da başqa canlılarda (məs., quşlarda, həşəratlarda və s.) olduğu kimi yaradılışdan gələn, cins və sinirləri ayıran, iradə və ixtiyardan xaric bir amildir.

Ümmət kimi anılan camaatı təşkil edən fərdlərin çoxluğu və ya azlığı mühüm deyil. Hətta İbrahim peyğəmbər Quranda (ən-Nəhl, 120) tək başına "umma" olaraq anılır. Dilçi və təfsirçilər bunu qövmi içərisində onun təkbaşına camaatı təmsil etməsi ilə əlaqələndirirlər.

Başlanğıcda bütün insanlar bir ümmət halında idi, sonra bölündülər. Hər ümmətə onları haqq dinə, doğru yola dəvət edən, bir peyğəmbər göndərildi (əl-Ənam, 42; Yunus, 47; ər-Rəd, 30; ən-Nəhl, 43, 63; Fatir, 24). Peyğəmbərlərə və gətirdikləri kitablara inanıb hidayətə çatanlar bunun mükafatını görəcəklər (əl-Bəqərə, 136-137; Ali-İmran, 113-115; əl-Maidə, 56; əl-Əraf, 158-159). Onların içərisində imana gələnlər (ummat əl-icaba) olduğu kimi, gəlməyənləri (ummat əl-dava) də olmuşdur. Birincilər üçün mükafat, ikincilər üçünsə cəza və əzab vardır (əl-Maidə, 70; əl-Əraf, 181-182; ər-Rəd, 36; əl-Müminun, 46; əl-Ənkabut, 18; Fatir, 42: əl-Muminun, 5). Hətta peyğəmbərləri yalançılıqda ittiham edən, tutduqları yanlış yolda israr göstərən ümmətlərdən bəziləri artıq dünyada cəzalarını görmüş, həlak olmuşlar (əl-Muminun, 46). Doğru yoldan çıxdıqları halda, dünyada haqqın rəhmət

və nemətlərindən faydalananlar da axirətdə əzab görəcəklər (Hud, 48). Çünki axirətdə hər ümmət, mütləq sorğuya çəkiləcək (əl-Əraf, 38; Yunus, 45). Batilə qərq olunanlar qiyamət günü əzablara uğrayacaq, "kitabının başına çağrılacaq" hər ümmətə "etdiklərinin qarşılığı" olan mükafat və ya cəza veriləcək (əl-Casiyə, 27-28). Bu arada peyğəmbərlər ümmətləri üçün şəhadət edəcəklər (ən-Nəhl, 84; əl-Qəsəs, 75).

Yalnız öz qövmini deyil, bütün insanları islama dəvət üçün göndərilmiş olan Peyğəmbərə inanan və tabe olanlar da bir ümmət təşkil edirlər (ər-Rəd, 30; Ali-İmran, 110).

Bu sonuncular Peyğəmbərin ümməti, umma Muhammad (ümməti-Məhəmməd), umma Muhammadiyyə (ümməti-Məhəmmədiyyə), yaxud "İslam ümməti" deyə anılır. Peyğəmbər də, qabaqkı rəsullar kimi, ümmətinə müjdələyici və xəbərdaredici kimi göndərilmişdir (Fatir, 23-24). Dəvəti, göndərildiyi topluluqdan başlayaraq bütün aləmə yayılmış olan Məhəmməd, peyğəmbərlərin, ümməti də ümmətlərin axırıncısıdır. Bununla bərabər, qiyamət günündə ümmətiylə bərabər cənnətə ilk daxil olan o olacaq, çünki hər nəbinin özünə xas müstəcəb (qəbul olunan) bir duası vardır. Peyğəmbər bunu qiyamət günü ümmətinə şəfaət üçün saxlamışdır.

**ÜMMULKİTAB**, Umm əl-Kitab (*ər.*) – dini təbirdir, əql, dirək, mənbə, ana və b. mənalara uyğun gələn umm ilə kitab sözlərindən təşəkkül etmiş tərkibdir. Quranın müxtəlif üç yerində zikr edilən bu təbir Məkkədə nazil olan 13-cü (ər-Rəd) surəsinin, 19-cu və 43-cü (əz-Zuxruf) surələrinin 4-cü ayələrində səmavi kitabların, xüsusən Quranın əsli, tamamı və bütünü mənasındadır.

İslam alimlərinin əksəriyyətinə (cümhuri-üləmayə) görə bu, əsil Quranın vəhy mənbəyi olduğu qəbul edilən "Lövhi-məhfuz"dan ibarətdir (göstərilən yerlər, həmçinin, b a x: **Quran,** əl-Buruc, 21-22).

Mədinə dövründə bu təbir başqa bir məna qazandı. Ali-İmran surəsinin yeddinci ayəsində ayələrdən bəziləri açıq və aydın (ayat muhkamat), digərləri birdən çox mənaya uyğun gəlib məqsədinin nə olduğu naməlum olanlara (mutəş-əbihat) ayrılır. Bunlardan birinci qrup, Quranın böyük bir hissəsini meydana gətirdiyi və dinin dirəyini, fərzləri, hədləri və məxluqatın din, dünya və axirətə aid ehtiyaclarını ehtiva etdiyi üçün Allah tərəfindən umm əl-kitab adlandırılmışdır. Quranın özü sayılması, ayələrin başında yer alması, namazın hər rükətinə mütləq onunla başlanması nəzərindən şəxsən Peyğəmbər tərəfindən Fatihə surəsinə də umm əl-kitab deyilmişdir. Ən azı 14 hədisdə yer alan umm əl-kitab təbiriylə, sadəcə dördündə, səmavi kitabların və hər şeyin əsli olan Allahın nəzdindəki kitab və ya Lövhi-məhfuz qəsd edilməkdə, digərlərində isə Fatihə surəsinə işarə edilməkdədir.

Əslində göründüyü kimi, islam ədəbiyyatında bu təbirin mühtəvasında və ondan nə qəsd edildiyi haqqında tam bir bağlama gözə çarpmır. Quranın başdan axıra qədər bütövlüyünü, kitabın elmini,

halal və haramın, zikri və sairəni umm əl-kitab deyə təqdim edən rəvayət və anlayışlar yanında, zamanla ortaya çıxan aşağıdakı görüşlər də yer alıb:

1) Allahın nəzdindəki kitab bir deyil, ikidir. Bunların biri qoruyucu (Həfəzə) mələklər tərəfindən məxluqatın etdikləri haqqında yazılan kitabdır. Allahın istədiyinə vücud verib, ibka etməsi (saxlaması), istədiyini silib məhv etməsi (Quran, ər-Rəd, 39) ancaq bu kitabda yer almışdır. Dəyişikliklər sadəcə bununla ola bilər. Digəri isə, Allahın elminə müqabil olan ülvi və aşağı aləmlərə aid hər şeyin ayrı-ayrı təyin və təsbitini möhtəvi edən lövhi-məhfuzdur. Bu kitab dəyişiklikdən və dəyişikliyə uğramaqdan hifz və məhfuzdur; umm əl-kitab da budur.

2) Umm əl-kitabdan məqsəd Allahın elmidir. Bu elm, Allahın "ol!" əmriylə bir kitab halına gəlmişdir. Olmuş və olacaq hər şeyin yazıldığı bu qəza-qədər lövhəsində dəyişiklik əsla mümkün deyil. O, Quranın əslinin yazılı olduğu "Lövhi-məhfuzun"da əslidir. Burada diqqət edilməsi lazım olan xüsus, islamdan qabaqkı dövrə aid, dürüst olmayan dini mətnlərdəki göydə və ya Allahın nəzdində olduğu fərz edilən birdən çox kitab (lövhə) anlamasının islam ədəbiyyatında da (mahiyyətcə dəyişik olsa belə) yer almış olmasıdır.

3) Şiə alimi Əbdüləziz ən-Nəsəfinin izahına görə, cisimlər aləminin başlanğıcı olması və vəhdət əhli nəzdində ilk cövhər sayılması etibarı ilə dörd ünsürdən biri olan torpaq umm əl-kitabdır.

**ÜMMÜ GÜLSÜM**, Umm Gülsum – Peyğəmbərin ortancıl qızlarından biri, Zeynəb və Ruqayyadan sonra doğulmuşdur. Fatimə ilə Umm Gülsümün hansının daha əvvəl doğulduğu xüsusda ixtilaf varsa da, Fatimənin Peyğəmbər 41 yaşında ikən doğulduğu bilindiyinə görə və Umm Gülsümün də Məhəmmədin (ə) peyğəmbərliyə məmur edilməsindən qabaq Əbu Ləhəbin oğullarından Uteybə ilə nikahlı olduğu nəzərə alınarsa, Fatimə yaşca kiçik olmalıdır.

Umm Gülsümün anası Xədicə bint Hüveyliddir. Müxtəlif mənbələrin nəql etdiyi rəvayətlərdə Umm Gülsüm haqqında açıq və ətraflı məlumat yoxdur, ancaq aşağıdakı xüsuslara görə, hamısında təmas var: Peyğəmbər, peyğəmbərliyə çağırılmadan qabaq Ruqayya ilə Umm Gülsümü əmisi Əbdüləzzanın (Əbu Ləhəb) oğulları Utba və Üteybəyə nikahlamışdı. İslamiyyət və dolayısı ilə peyğəmbərin əleyhinə davranışlarına görə Əbu Ləhəblə arvadı Umm Cəmil, qureyşi müşriklərin də təzyiqləriylə oğullarına yəmin verdirərək, Ruqayya və Umm Gülsümü boşamağa məcbur etdilər. Axırda, qardaşı Utbanın müsəlmanlığı qəbul etməsinə rəğmən, Uteybə Umm Gülsümü boşadı. Bu vaxt Ümm Gülsümün 6-7 yaşı var idi. Osman ibn Əffan ilə evli olan bacısı Ruqayyənin Bədr döyüşü vaxtında vəfat etdiyinə görə, Peyğəmbərin vəhyi ilə Umm Gülsümü Osmanla nikahlandırdılar və ona "iki nur sahibi" (zunnureyn) ləqəbini verdilər. Hətta Ümm Gülsümün Osman ilə nikahlı ikən vəfatından sonra Peyğəmbərin "üçüncü (başqa rəvayətə

görə on) qızım olsa idi, yenə də Osmana nikahlardım" dediyi qeyd edilir.

Ümm Gülsüm uşaq doğmadan hicrətin 9-cu ilinin şaban ayında vəfat etdi.

**ÜMUMDÜNYA KİLSƏ MƏCLİSLƏRİ (ÜKM)** – bütün (və ya əsas) yerli kilsələri təmsil edən ali xristian din xadimlərinin qurultayları. ÜKM-də həlledici səsə yepiskoplar (onlar olmayanda isə onların nümayəndələri leqatlar) malikdirlər. Məşvərətçi səslə məclislərə keşişlər və kiçik kilsə xadimləri də dəvət edilir. Birinci ÜKM-də böyük rolu Roma (daha sonra Bizans) imperatorları oynayırdı. Bunlar məclisləri çağırır və iclasların bir hissəsi onların rəhbərliyi ilə keçirilirdi. ÜKM-də dini-doqmatik, kilsə-siyasi və intizam məsələləri müzakirə edilirdi. Məclislərin fəaliyyətində küfrlərə qarşı mübarizə böyük yer tuturdu. ÜKM-in qərarları (qanunlar, qaydalar) imperatorun xüsusi qərarı ilə qanun qüvvəsinə minirdi. Kilsələr ayrılanadək yeddi ÜKM keçirilmişdi:

I ÜKM – 325-ci ildə Kiçik Asiyada Nikeya şəhərində keçirilib. Məclisə "bütpərəst" imperator I Konstantin başçılıq edirdi. Bu məclisdə arianlıq məhkum edildi.

II ÜKM – I Konstantinopol (381) – arianlıqla (Makedoninin küfrü) mübarizəni davam edib, Üç Üğnum haqqında nəzəriyyəni qanunlaşdırdı.

III ÜKM – Efes (431) – nestorianlığı məhkum edib, Allah (İsa) anası haqqında nəzəriyyəni təsis etdi.

IV ÜKM – 449-cu ildə yenə Efesdə çağırılmışdır. Burada kilsə monofizitliyi tanıyır. Bizans imperatoru II Feodosi bu məclisin qərarlarını təsdiq edir. Lakin 451-ci ildə, növbəti (Xalkidon) ÜKM-də Efes məclisinin qərarları məhkum edilir və məclisin özü quldur məclisi adlandırılır. Beləliklə, IV ÜKM Efesdə keçirilmiş məclis yox, Xalkidon məclisi hesab olunur. 451-ci il məclisindən sonra xristianlar xalkidonistlərə və monofizitlərə bölündülər.

V ÜKM – II Konstantinopol (533) – imperator I Yustinian tərəfindən "üç başçı haqqında" əmələ gələn mübahisənin həlli üçün çağırılmışdı. Kilsə birliyini yaratmaq istəyən I Yustinian, Roma kilsəsinin təkidinə baxmayaraq monofizitlərə güzəşt etdi. Öz fərmanı əsasında o, "üç başçı"nı – monofizitlər tərəfindən nestorianlıqda günahlandırılan üç kilsə yazıçısını – Mopsuetli, Feodor, Kirrli Feodorit və Edesli İvi pislədi. Roma papası Virgilinin müqavimətinə baxmayaraq, I Yustinian 553-cü ilin məclisində onların töhmətlənməsinə nail oldu. VI əsrin sonunadək Qərb kilsəsi həmin məclisin qərarını qəbul etmək istəmirdi.

VI ÜKM – III Konstantinopol (680-681) – monofizitliyi pisləyib, VII əsrdə Bizans imperatoru Martinin əmri ilə həbs və sürgün edilmə ilə əlaqədar papalıqda pozulan sülhü bərpa etdi.

692-ci ildə Konstantinopolda beş-altıncı adlanan məclis çağrıldı. Yığıncaqda V və VI məclisin qərarları, VI məclisin qanunları təkmilləşdirildi. Məclis imperatorun Trullo sarayında keçirildiyi üçün, ona həm də Trullo məclisi deyilir.

VII ÜKM – ikonoborçuluğu pisləmək üçün çağırılmışdı. Onun birinci iclasları 786-cı ildə Konstantinopolda keçirilirdi, lakin paytaxt ordusundan ikonoborçuluq əhvali-ruhiyyəsində olduğundan, ləğv olunmuş ikonalara sitayişin bərpası haqqında qərar qəbul edilmişdi. Buna görə 787-ci ildə məclis Nigeyada davam etdirildi və burada ikonalara hörmət etmək məsələsi həll olundu. Həmin məclis II Nikeya məclisi adını aldı.

869-870-ci illərdə keçirilən IV Konstantinopol məclisində qərbi-xristian (Rama) və şərqi-xristian (Bizans) kilsələri arasındakı kəskin ziddiyyətlər üzə çıxdı. Bu məclisin qərarları əsasən Konstantinopol patriarxı Fotinin kilsə siyasətinin əleyhinə yönəlmişdi. Bu qərarlar növbəti V Konstantinopol (879-880-ci illər) məclisində ləğv edildi. Sonradan formalaşan katoliklik bu səbəbdən IV Konstantinopol məclisini VIII ÜKM kimi qəbul edir, pravoslavlar isə bunu qəbul etmir.

Kilsələr ayrılandan sonra onun məclisləri yalnız Roma papaları tərəfindən çağırılırdı. XII əsrdə üç məclis çağırılıb (I, II, III Lateren məclisi – 1123, 1139, 1179) və bunlarda katolik kilsəsinin təşkili, kilsənin dövlətlə münasibətləri və küfrlərlə mübarizə məsələləri müzakirə edilirdi. XIII əsrdə də üç məclis çağırılıb: IV Lateran – 1215-ci, I Lion – 1245-ci və II Lion – 1274-cü illərdə. Bu ildən kilsə məclislərində kilsə əyanlarından başqa hökmdarlar və onların səfirləri də iştirak edirdilər. Məclislərin qərarları isə "məclis iştirakçıları tərəfindən bəyənilmiş" kimi papanın qərarları şəklində qəbul edilirdi. Qərbi Avropa feodal sisteminin beynəlmiləl mərkəzinə çevrilən katolik kilsə XII-XIV əsrlərdə beynəlmiləl dövlətlərarası məsələləri də həll edirdi. XII-XIII əsr məclislərinin "İlahi sülhü", "İlahi dünyası", "səlibçilərə imtiyazlar" və s. haqqında qərarları bu qəbildəndir. Orta əsrlərin ən böyük kilsə məclisi, IV Lateran məclisi, papanın təqdim etdiyi 70-ə qədər qərarı, o cümlədən kafirlərin amansız təqibinə dair qərarını təsdiq etdi. Birinci Avinyon papası V Kliment tərəfindən Fransanın Vyenn şəhərində 1311-1312-ci illərdə keçirilmiş XV ÜKM milli dövlətlərin təşəkkülü və inkişafı ilə əlaqədar papalar hakimiyyətinin hörmətinin düşməsinə və kral nüfuzunun qalxmasına şəhadət edirdi. Vyenn məclisi müxtəlif küfrlərin təqib olunmasını daha da sərtləşdirdi.

Katolik kilsəsində əmələ gələn "böyük parçalanma" papalığın əhəmiyyətini və nüfuzunu aşağı saldı və buna görə də yüz il ərzində ÜKM çağırılmırdı.

1414-cü ildə çağırılmış Konstansa məclisi (1415) o vaxt mövcud olan üç papanın ikisini devirdi, bir qədər sonra isə (1417) üçüncü papanı devirib yeni papanı – V Martini seçdi. Məclisin kilsə islahatı üzrə qəbul etdiyi beş dekret əsasında ÜKM daimi fəaliyyət göstərən papa hakimiyyətinə nəzarət edən və onun üstündə duran instituta çevrildi. ÜKM çağırılmasının möhkəm qaydaları və müddətləri müəyyən edildi. XVII ÜKM təyin olunmuş vaxt çağı-

rıldı və iclasların yeri dəyişərək 18 il (1432-1449) davam etdi: 1437-ci ilədək Bazeldə, 1439-cu ilədək Ferrarada, 1442-ci ilədək Florensiyada, 1443-cü ilədək Romada və 1449-cu ilədək Lozannada keçdi. Şərti olaraq bu ÜKM Bazel və ya Bazel-Florensiya məclisi adlanır. Məclis Çexiyada qusçular hərəkatının darmadağın edilməsinə yardımçı oldu. 1511-ci ildə papa ilə mübarizə aparan Fransa kralı XII Lüdovik əvvəlcə Pizada, sonra isə Milanda ÜKM çağırılmasına cəhd göstərsə də, buna nail olmadı. Bunun ziddinə olaraq papa II Yuli Romada V Lateran məclisini (XVIII ÜKM, 1512-1517) çağırdı, lakin bu məclis şöhrət qazanmadı. Növbəti, XIX ÜKM – Trident məclisi (1545-1563) katolik kilsəsinin mövqeyini möhkəmləndirmək niyyəti ilə çağırılmışdı.

Yenidən katolik kilsəsi ÜKM-ə yalnız üç yüz ildən sonra müraciət etdi. 1869-1870-ci illərdə Romada papa IX Piy tərəfindən I Vatikan ÜKM çağırıldı. Bundan əvvəl papa 1864-cü ildə "Sillabus" adlı sənəd dərc etmişdi. ÜKM-də yeni dövrün bütün ideya-siyasi, mədəni, fəlsəfi və elmi yenilikləri rədd edilib, papanın qüsursuzluğu haqqında ehkam bəyan olundu. Lakin iki aydan sonra İtaliyanın birləşməsi uğrunda mübarizədə papanın Papa vilayətində mülki hakimiyyəti ləğv edildi və bir ay sonra papa ÜKM-in fəaliyyətinin dayandırılması haqqında bəyanat verdi.

90 ildən sonra papa XXIII İoann XXI ÜKM (II Vatikan məclisi – 1962-1965) çağırdı və dörd iclasdan sonra, papa VI Pavelin vaxtında həmin ÜKM iclasları dayandırıldı.

**ÜZEYR**, Uzayr – İsrail oğullarına göndərilmiş bir peyğəmbər. Dilçilərin çoxunun qəbul etdiklərinə görə Üzeyr ibrani adıdır. Əhdi-Ətiqdə bu ad Ezdras (Ezra) şəklindədir. Üzeyrin, Tövratdakı yerinə rəğmən peyğəmbərliyi haqqında məlumat çox azdır. Onun çar II Artakserksin (e.ə. 404-359) izni ilə Babildən Qüdsə getməsi məlumdur. İranlılar Babildəki yəhudiləri əsarətdən qurtardıqdan sonra onlar dəstə-dəstə Qüdsə qayıtmağa başladılar. Üzeyr (təxminən e.ə. 370-360-cı illərdən ölümünə qədər) yəhudilərin yenidən Tövratın əmrləri ilə bağlı xalq halını almaları üçün çalışmış və buna müvəffəq olmuşdur.

Üzeyrin bir dəfə Quranda, ət-Tövbə surəsində (30-cu ayə) adı çəkilir: "Yəhudilər: "Üzeyr Allahın oğludur", – dedilər. Onların ağzında gəzən bu boş sözlər daha öncə küfr ["Mələklər Allahın qızlarıdır" deyənlərin] edənlərin sözlərinə bənzər, Allah onları öldürsün!"

Üzeyrin "Allahın oğlu" olduğuna dair yəhudi görüşü ilə bağlı iki rəvayət var: birincisinə görə, Üzeyr savadlı bir adam idi. Mənsub olduğu İsrail oğulları qabaqlar Tövrata bağlı qalmışdılar, lakin nədənsə sonralar öz istəklərinə görə yaşamağa başlamış və buna görə ilahi bir cəzaya düçar olunmuşdular: Tövrat hafizələrindən silinmiş və Tövrat saydıqları Tabut da əllərindən alınmışdı. Üzeyr son dərəcə mütəəssir idi. Özünə Tövratı yenidən öyrətməyi Allahdan diləmişdi. Belə bir dua vaxtında Allah onun hafizəsinə Tövratı yenidən yerləş-

dirdi və dalınca Tabut da endi. Sonra qövminə də Tövratı öyrədən Üzeyr, onların Tövrat ilə Tabut arasında hər hansı bir fərq olmadığını öyrəndiklərinə görə nüfuz qazandı və nəticədə də "Bu Üzeyr Allahın oğludur" söylədilər.

İkinci rəvayətə görə Amalika qövmi yəhudilərə hücum edərək bir hissəsini öldürmüş, Tövratı əllərindən almışdı. Geridə qalan alimlər Tövratın kitablarını dağlarda yerə basdıraraq, özləri başqa ölkələrə getmişdilər. Üzeyr bu vaxt hələ gənc idi, dağlarda ibadət edib, yalnız bayramlarda şəhərə gələrdi. Qövminin başına gələn bu hal, onu həddindən artıq üzmüşdü. Bayrama görə gəldiyi şəhərdən qayıdarkən dağda məzar üstündə ağlayan bir qadınla qarşılaşdı. Aralarında olan danışıq zamanı Üzeyrin Tövratı ən yaxşı bilən adam olduğu bilindi. Üzeyr hər barmağına bir qələm bağlayaraq Tövratı yazdı. Başqa yerlərə gedib qayıtmış alimlər basdırdıqları Tövrat kitablarını çıxarıb, Üzeyrinki ilə tutuşdurdular və aralarında heç bir fərq tapmayaraq "Allah bunu sənə ancaq Onun oğlu olduğun üçün verdi" – dedilər.

Mənbələrdə Üzeyr ilə bağlı bu sözün bütün yəhudilər tərəfindən qəbul edilmədiyi, ancaq bir qism tərəfindən ifadə edildiyi, hətta bir kişi tərəfindən söylənildiyi barədə rəvayətlər də var.

Təfsirçilər, əl-Bəqərə surəsinin 259-cu ayəsində haqqında bəhs olunan kişinin Üzeyr ola biləcəyini də qeyd etmişlər.

# V

**VAAL, BAAL** (*finikiya dilində* "hökmdar") – finikiya dinində baş ilahi, fırtına, göy gurultusu, ildırım və yağışın hökmranı, həyat nemətlərini verən, Finikiyanın hər şəhərində öz Vaalına ehtiram edilirdi. Vaalın sitayişində insan qurbanı tətbiq olunurdu.

**VAKX**, Baxus – Qədim Roma əfsanələrində şərabın, şərabçılığın və kefin ilahisi. Adı Dionisin adlarından biri olan Bakxusdan (*yun.* Bakxos, hərfi mənası – "səs-küylü"; *lat.* Bakxus) götürülüb. Romalılar yunan Dionisin və əsil İtaliya münbitlik ilahisi Liber haqqında təsəvvürləri birləşdirirdilər. Liber özünün qadın qarşılığı Libera və bitkilər ilahəsi Serera ilə birlikdə əkinçilik ayini ilə bağlı olan və xüsusən plebeylər tərəfindən hörmət edilən ilahilər üçlüyünə (triadaya) daxil idilər. Bu üçlüyə Romada bir ibadətgah və liberali adlı bayram (17 martda) həsr olunmuşdu. Vakxın şərəfinə **vakxanaliyalar** keçirilirdi.

**VAKXANALİYA** (*lat.* bakxanalia) – e.ə. II əsrin əvvəlindən İtaliyada xüsusi şöhrət qazanmış Vakxın (Dionisin) eşqinə düzəldilmiş və eyş-işrət xüsusiyyəti daşıyan gecə şənlikləri. Bu şənliklərdə azadlar və qullar iştirak edir və kahin vəzifəsini əsasən qadınlar ifa edirdilər. Qeyzə gələn müqəddəs vakxankalar öküzü diri-diri parçalayıb, "ilahi mənbə"yə qoşulmaq üçün çiy ət yeyirdilər.

**VAQİƏ**, əl-Vaqiə – Quranın 56-cı surəsinin adıdır.

**VALDENSLƏR**, Lion yoxsulları – XII əsrdə Cənubi Fransa şəhərlərində meydana gəlmiş və sonralar Cənubi Fransa, Şimali İtaliya, İspaniya, İsveçrə, Almaniya və Çexiyanın kəndliləri arasında yayılmış dini küfrün tərəfdarları. Deyilənə görə, bu da Lion taciri Pyer Valdla bağlıdır. O, 1176-cı ildə xüsusi mülkə sahib olmamaq, ailə qurmamaq və sabahkı gün haqqında fikirləşməmək andını içmiş "kamillər icması"nı yaratmışdı. Sonralar "kamillər"lə yanaşı ailə və mülklərini saxlayan "inananlar" dəstələri yarandı. İsveçrənin cənub-qərb rayonlarında və Savoyyada Valdenslər küfrü oradakı ibtidai patriarxal münasibətlərinin saxlanması üçün və feodallaşmaya qarşı etirazlara ideoloji əsaslara qulluq edirdilər. Valdenslər İsa haqqındakı ehkamları rədd edir, katolik kilsəsini kəskin tənqid edib, ondan xüsusi mülkiyyət və gəlirlərdən vaz keçmək və s. tələblərlə çıxış edir, keşişlər təbəqəsinin ləğvini tələb edirdilər. Papanı Allahın yox, şeytanın canişini adlandırır, səlib yürüşlərini pisləyirdilər. Kilsə hakimiyyətinə tabe olmaqdan imtina etmələri Valdensləri, ləğv olunmasını tələb etdikləri dövlət hakimiyyətinə tabe olmaqdan da imtinaya gətirdi. Onların öz seçkili ruhani başçıları (mayoralis) və məclisləri var idi. XIV əsrdə kəndlilərin feodallara qarşı mübarizəsinin yüksəlməsi ilə əlaqədar Valdenslərin nüfuzu aşağı düşdü. İnkvizisiyanın terroru və dominikan ordeninin fəaliyyəti Valdenslər küfrünün

yayılma ərazilərini azaltdı. Onların nəzəriyyəsi 1215-ci ildə IV Lateran Ümumdünya məclisində pislənmişdi. XV əsrdə papa IV Sikst onların əleyhinə səlib yürüşü təşkil etdi. 1545-ci ildə fransız ordusu Dofinedə onlara divan tutdu. 1655-ci ildə və 1685-ci ildə də kütləvi qırğınlar oldu. İndiki dövrdə Valdenslərin azsaylı icmaları İsveçrədə, Savoyyada və Pyemontda fəaliyyət göstərirlər.

**VANİNİ CULİO ÇEZARE** (Luçilionun təxəllüslərindən biridir; 1585-1619) – italyan ateisti, dinin, xüsusən katolikliyin əleyhinə mübariz. "Ateizmdə, kilsəyə qarşı hökumətsizlikdə, küfrdə və b. cinayətlərdə" müqəssir bilinən Vanini Tuluza şəhərində diri-diri yandırılmışdı. O, latın dilində yazılmış "Əbədi bəsirətin amfiteatrı" (1615), "Fanilərin mələykəsi və ilahisi olan təbiətin möcüzəli sirləri haqqında" (1616) adlı kitabların və günümüzə çatmayan daha 12 əsərin müəllifidir. Vanininin nəzəriyyəsinə görə Allah təbiətlə qovuşan nəhayətsiz varlıqdır, kainat əbədi və nəhayətsizdir, lakin onda hər şey fanidir. Vanini ruhun ölməzliyini rədd edir, dini möcüzələrə şüura əsaslanan izahlar verir və insanın heyvandan əmələ gəlməsi haqqında fərziyə irəli sürürdü. Vanini təkid edirdi ki, dinlərin əvvəli və axırı var və dinlər "avam camaatı quldarlıqda saxlayır".

**VANLAR** (*islandca* Vanir) – skandinavların əfsanələrində münbitliyi, rütubəti və dənizçiliyi himayə edən ilahilər ailəsidir: Nyordr (dəniz ilahisi), onun uşaqları Freir, Freyya və b. Bu ayin, ola bilsin, Skandinaviyaya Almaniyadan gəlib və əvvəllər as ayinlərinin müqaviməti ilə rastlaşmışdı. Vanların aslarla müharibəsi haqqında və sonradan sülh bağlayıb aslar tərəfindən vanları öz ailələrinə qəbul etmələri haqqında təsəvvürlər buradan doğur.

**VARFOLOMEY GECƏSİ**, "Qanlı düyün" – 1572-ci ildə, Parisdə müqəddəs Varfolomey günü ərəfəsindəki gecədə (24 avqust) katoliklər tərəfindən quqenotların kütləvi qırğını. Qırğın həmçinin Orleanda, Truada, Ruanda və b. yerlərdə baş vermişdi. Üç gün ərzində 30 minə yaxın quqenot, o cümlədən, onların rəhbərlərindən biri admiral Kolinyi də öldürüldü. Varfolomey gecəsi ana kraliçə Yekaterina Mediçi və katolik partiyasının rəhbərləri – Gizlər tərəfindən təşkil edilmişdir. Onlar quqenotların rəhbəri Navarralı Henrixin və kralın bacısı Marqarita Valuanın toyuna gələn quqenot zadəganlarının Parisdə toplanmalarından istifadə edib qırğına başladılar. Varfolomey gecəsinin təşkilatçılarının məqsədi quqenot hərəkatının zəifllədilməsi idi. Lakin onların qəsdi baş tutmadı. Ölkənin cənub və cənubqərb bölgələri və şəhərləri quqenot partiyasının əsas dayaqları idi və bu gecədən sonra onlar krallıqdan ayrılıb öz respublikalarını – Quqenot konfederasiyasını təşkil etdilər (1576). Papa XIII Qriqori Varfolomey gecəsini təriflәyib, bu hadisə ilə bağlı xüsusi medalın zərb edilməsini əmr etmişdi.

**VARNA** (*sanskritcə* "keyfiyyət, rəng") – qədim quldar Hindistanında silki-sinfi təbəqə. İbtidai-icma quruluşun dağılma, sinfi münasibətlərin qurulma və Hindistanda birinci dövlətlərin yaranma dövründə cəmiyyətdə dörd

**varna** əmələ gəldi və bunlar dörd əsas sinfə – silkə müvafiq gəlirdi. Varnalar arasında olan fərqlər və vəzifələr brahmanizmin dharma haqqında nəzəriyyəsində və e.ə. VI-V əsr brahman qanunlarında müəyyən edilib müqəddəsləşdirilmişdir. Kahin brahmanların əsas vəzifələri Vedaların öyrənilməsi idi. Hərbçilər və rəhbərlər silki kşatrilər Varnasını təşkil edirdilər. Kənd təsərrüfatı, sənətkarlıq və ticarətlə məşğul olmaq vayşyalara aid olunurdu. Ən aşağı Varnanın – şüdrlarin vəzifəsi yüksək varnalara xidmət edib, adi işlərlə məşğul olmaq idi. Birinci üç varna iki dəfə dünyaya gələnlər hesab olunurdu.

**VARUNA** – vedi dinində göy qübbəsinin ilahisi, dünya nizamının və insanların əxlaqının qoruyucusu; onların əməllərinin hakimi. Erkən vedilik dövründə Varunanı çox hallarda kainatın hər yerdə mövcud olan baş ilahisi hesab edirdilər. Brahmanizmin yayılmasından sonra Varuna ilahilər panteonunda sular hamisi kimi ikinci dərəcəli yer tutdu.

**VASİL**, Vasil ibn Əta Əbu Hüzeyfə əl-Qazzal Əbülcədə (699-749). İslamda nəzəri kəlam elminin əsasını qoyan və ortaya çıxan dini məsələlərin izahında əqlə geniş yer verən böyük teologiya məktəbi Mötəzilənin qurucusudur.

Mənbələrin yetərsizliyi üzündən həyatı haqqında çox az məlumat var. 699-cu ildə Məkkədə doğulan Vasil Bəni Zabba (və ya Bəni Məhzum) soyunun azad olunmuş quludur. İlk mötəzili bilikləri, sıx münasibətdə olduğu Əli ibn Əbu Talibin nəvəsi Əbu Haşim Abdullah ibn Məhəmməd ibn əl-Hənəfiyyədən öyrəndi. Bəzi əsərlər onun h. 181-ci ildə (797) öldüyünü yazırlarsa da, 750-ci ildən sonra onun həyatda olduğuna heç bir qeyd rastlaşmır. Vasil bir müddətdən sonra Mədinədən Bəsrəyə gedərək, Əbu Səid Həsən ibn Əbilhəsən Yasar əl-Bəsridən dərs aldı. O burada Cəhm ibn Səfvan (746-cı ildə ölüb), şair Bəşşar ibn Burd əl-Aqili (783-cü ildə ölüb) və Əmr ibn Übeyd Əbu Osman (762-ci ildə ölüb) kimi mühüm şəxslərlə tanış oldu və hətta Əmr ibn Übeydin bacısı ilə evləndi. Çox qüvvətli hafizəsi olduğundan, danışıqlarında Quranın ayələrindən və ərəb şerindən yerində və itiliklə misallar və izahlar gətirərək, irəli sürdüyü fikirləri dəstəkləyirdi. Dövründəki fəlsəfi cərəyanlar və məzhəb məsələlərini yaxşı bilən və eyni zamanda şair olan Vasilin açıq və axıcı bir danışma qabiliyyəti var idi.

Mötəzilə də şiə və xaricilər kimi başlanğıcda siyasi təşəkkül alaraq ortaya çıxmış, 723-749-cu illər arasında Vasil və onun qayını Əmr ibn Übeyd tərəfindən inkişaf etdirilmişdir.

Əlinin xəlifəliyi vaxtında cərəyan edən mücadilələrə (Cəməl və Siffin) qatılanlar haqqında, hələ o zamandan başlayaraq açıq bir sıra qənaətlər əmələ gəldi. Şiələr Müaviyə tərəfdarlarının kafir olduqlarını, xaricilər, həm Əli tərəfdarlarının, həm də Müaviyə tərəfdarlarının kafir olduqlarını, mürciələr isə, iki tərəfin də mömin olduğunu deməkdə idilər. Xaricilər, Əlinin hakimlərə müraciət etməsini qəbul etməsindən sonra kafir olduğunu iddia edirdilər. Əslində, qədəriyyəçi olan, yəni insanın, etdiklərində tamamilə məsul

olduğunu söyləyən və bundan dolayı Mötəzilənin bir ölçüdə özlərindən saydıqları Həsən Bəsri isə iki tərəfə də haqq qazandırırdı.

Vasil və qayını Əmr ibn Übeydə görə, Cəməl və Siffin döyüşlərinə qatılanlar müsəlmandırlar, ancaq öz aralarında olan anlaşılmazlıqlar üzündən iki firqəyə ayrıldılar. Bu firqələrdən hansının günahkar olduğu bilinməz və bu səbəbə görə, hökmü hər şeyi bilən Allaha həvalə etmək lazım gəlir, ancaq qarşılıqlı münasibətlərində onlara sözün dar mənasında mömin gözü ilə baxılmaz, bir-birlərinin əleyhinə şəhadətləri qəbul edilməz.

Beləliklə, küfr ilə imanın sərhədinin təyini məsələsində Vasilin Mötəziləlikdə açdığı cığır, hərəkət nöqtəsi olmuşdu.

Əməvilərin amansız düşməni olan bütün mötəzilələr kimi Vasil də, Əli ibn Əbu Talib soyu ilə həyatı boyunca davam edən münasibətlər qurmuşdu. Əli soyundan olan Zeyn əl-Abidin ibn Hüseyn ibn Əli ibn Əbi Talibin ilk oğlu – şiələrin birinci imamı olan Məhəmməd əl-Baqir (731-ci ildə ölüb) və Zeydiyyə məzhəbinin qurucusu Zeyd (740-cı ildə ölüb) onun tələbəsi olublar.

Mötəzilələr özlərini "əhl əl-Ədl vət-Tovhid" deyə adlandırırdılar. Vasil tərəfindən Mötəzilədə açılan cığırın üçü ana prinsip olan beş təməli (əsl) vardır. Prinsiplər: 1) Tovhid. 2) İradə. 3) əl-Mənzilə beynəlmənzilətəyndir.

Beş əslə gəldikdə, bunlar:

1) **ət-Tovhid:** bu əsl, Allahla məxluqat arasındakı hər cür oxşarlığın inkarıdır. Allahın sifətləri qəbul edilir, amma bu sifətlər onun cövhərindən ayrı deyil, Zatının eynidir. Allah görünməzdir. Vəhy qüvvətlə təsdiq edilir, Allahın varlığı, hissiyyatlarımızla yox, qəlbimizlə idrak edilir, Allahın bizdə yaradacağı altıncı duyğu ilə o biri dünyada idrak ediləbiləcək bir mahiyyəti vardır. İnsan həyat, elm və qüdrətin birləşməsindən meydana gələn bir cövhərdir. Bədən bu cövhərin, yəni nəfsin alətidir.

2) **əl-Ədl:** Allah adidir. Gördüyü hər şeydə, yaratdıqlarının yaxşılığını istəyir. Bütün bəşəri əməllər insanın sərbəst iradəsinin məhsuludur. Yaxşı işlər görərsə mükafat, pis işlər görərsə, mücazat görəcək, bu əsldə, Allahın fənalıq və haqsızlıq etməyəcəyi, xəstəlik, ağrı və s. kimi şeylərin insan iradəsi xaricində olduğu məsələləri münaqişə edilir. Mötəzilələr iradə hürriyyətini qəbul etməklə pislik edən siyasət adamlarının da Allahın ədalətinin vacibliyinin axirətdə görəcəklərini demək istəyir, onları vicdan haqq-hesabına dəvət etmiş olurdular.

Mötəzilələrin, Allahın ədalətli təməlindən hərəkət edərək qəbul etdikləri hürriyyət fikri, sərbəst düşüncələrinin inkişafı islam aləmində tənbəlliyin və miskinliyin qabaqlanmasının saxlanılması yolunda atılmış ən böyük addımdır. Mötəzilələr insana hürriyyəti tanımaqla islam dininin ictimai yaşayışa verdiyi əhəmiyyəti də mənimsəmiş olurdular.

3) **əl-Vəd vəl-Vaid (əl-əsma vəl-əhkam):** bu əsl, ədalət prinsipinin bir nəticəsidir və dünyada yaxşılıq edənin də, pislik edənin də axirətdə qarşılığını görməsidir. Mötəzilələrin bu prinsipi cəmiyyət daxilindəki qaydanın əmniyyat içində hərəkətini saxlamağa çalışmaqdır.

Mötəzilələr imanı, iqrar, bilgi və əməlin bütövü olaraq qəbul edirlər. Onlar, beləcə əqlə verilən əhəmiyyətə dolayısı ilə bilgi də qatmışlar. Buna görə insan, dil ilə iqrar etmək, yaxşı əməllərdə olmaq və bilgisi yanında əql ilə Allah və Peyğəmbər fikrinə çatmaq surətiylə gerçək imanı tapmış olur.

4) **əl-Mənzilə beynəl-mənzilətey̆n:** Mötəzilələrin bu ana prinsipi kəlam tarixində yalnız mötəzilələrə məxsus bir görüşdür. Buna görə, tövbə etmədən ölən günahkar bir müsəlman, mömin ilə kafir arasında mənəvi bir dərəcədə yer alır.

Xaricilər (xüsusən Əzraqilər) böyük günah işləyəni kafir sayırlar. Mürcilələr, böyük və ya kiçik günahların iman sahibinə zərər verməyəcəyini deyirlər. Sünnilər isə, böyük günahı işləyəni müsəlman, lakin fasik kimi qəbul edirlər və bunların axirətdə cəzalarını çəkdikdən sonra cənnətə keçəcəklərinə inanırlar. Göründüyü kimi, mötəzilələr nə xaricilər kimi qəti bir görüşə sahib olmuş, nə də mürciə kimi işi yüngülləşdirmişlər. Onlar orta bir yol tutmuşlar.

5) **əl-Əmr bil-məruf vən-nəhy ənil-münkar:** Quran hökmlərinə uyaraq hər müsəlmanın yaxşılığı əmr etməsi və pisliyi qadağan etməsi vacibdir. Mötəzilələr bu əsl ilə cəmiyyət içində sıx bir yoxlama tərəfdarları olmuşlar, öz prinsiplərinə qarşı gələnlərə ağır hücumlar etmişlər. Yaxşılığı əmr edirik, deyə öz fikirləri və görüşlərini başqalarına zorla qəbul etdirmə yolunu tutmuşlar. Məsələn, xəlifə Məmunun (813-833) vaxtında Quranın məxluq (yaradılmış) olduğunu qəbul etməyən hənbəli məzhəbinin qurucusu Əhməd ibn Hənbəl (780-855) buna görə təqiblərə məruz qalmışdır.

Bunlar xaricində Mötəzilələrin, Allahın görünüb-görünməməsi, Quranın məxluq olub-olmadığı, hüsn və kubh, aqil və naqil məsələlərində də özlərinə xas olan görüşləri var.

Vasil Bəsrədə özünə bağlı bir çox tərəfdar əldə etdi və bunların bir qismini islam ölkələrinə yolladı, Abdullah ibn Xarisi Məğribə göndərdi və onun buradakı fəaliyyəti nəticəsində təkcə Tlemsen bölgəsindəki yerli və köçəri xalqlar arasında otuz min tərəfdar qazandı. Xorasana Həfs ibn Səlimi yolladı. Həfs, Tirmiz şəhərində Cəbəriyyə təriqətinin qurucusu sayılan Cəhm ibn Safvan (745-ci ildə ölüb) ilə şiddətli münaqişəyə girişdi. Qasim ibn əs-Sədi adlı bir tələbəsini Yəmənə, Əyyub ibn Cəfəri Əlcəzirəyə, Həsən ibn Zəkvanı Kufəyə, Osman ibn Xalid ət-Təvil Əbu Amiri Azərbaycana göndərdi.

Vasilin Bəsrədə bunlardan başqa Bişr ibn Səid və Əbu Osınan əz-Zəfərani adlarında məşhur tələbələri də var idi ki, bunlar Bağdaddan yanlarına gələn kufəli Bişr ibn Mütəmirə (825-ci ildə ölüb) mötəzilələrin prinsiplərini mənimsətdilər. Bişr ibn Mütəmir sonradan mötəzilələrin Bağdad qolunu yaratdı.

Vasildən sonra onun təsbit etdiyi əsasları müdafiə və onun metodu ilə mücadiləyə davam edən başqa mötəzilələrin böyüklərinin nailiyyətləri də çox olub. Bunlar, məzhəblərinin qurucusu Vasil kimi müxalifləri ilə apardığı məşhur mübahisələr və əldə etdikləri

böyük müvəffəqiyyətlərlə birlikdə, mötəzilələr məsələləri ilə əlaqəli bir xeyli əsər də yazmışlar. Bunlardan Əbül-hüzeyl əl-Əllaf (752-849) altmışdan çox, əl-Cahiz (869-cu ildə ölüb) müxaliflərinin əleyhinə səkkiz, mötəzilələrin prinsiplərini müdafiə edən altı əsər yazmışdır. Vasil ibn Ətanın on bir əsəri var.

**VATİKAN** – Roma şəhərinin ərazisində yerləşən dövlət-şəhər, Roma katolik kilsəsinin başçısı – papanın iqamətgahı, bu kilsənin mərkəzi idarəsinin – kuriyanın yerləşdiyi sahə. Vatikan dövləti 1929-cu ildə papa XI Piy və italyan hökumətinin arasında bağlanan Lateran sazişinə əsasən təşkil olunub. Bu sazişə əsasən İtaliya papanı Vatikanın mütləq sahibi kimi tanıyır və onun yerləşdiyi ərazini (44 hek) əbədi olaraq katolik kilsəsinin mülkü hesab edirdi. Papanın təbəəsində min nəfər vatikanlı var. Papa Vatikanın mütləq hökmdarıdır. Vatikan dövlətinin ikinci şəxsi – baş nazir və xarici işlər naziri vəzifələrini ifa edən kardinal dövlət katibidir. Dövlətin daxili işlərinə papa tərəfindən təyin olunan kardinallar komissiyası və vali nəzarət edib, məşğul olurlar. Vatikanın özünün pulu və markaları, radiosu, ibtidai məktəbi, həbsxanası və "Osservatore romana" adlı qəzeti var. Keşişləri hazırlayan və elmlə məşğul olan Vatikanın Papa Elmlər Akademiyası var. Vatikanın başqa ölkələrlə diplomatik əlaqələri vardır.

**VATİKAN MƏCLİSLƏRİ** – b a x: **Ümumdünya kilsə məclisləri.**

**VEDA DİNİ**, vedizm – Şimali Hindistanda ibtidai icma quruluşu dağıldıqda və birinci dövlətlərin yaranması zamanında (e.ə. II-I minilliyin ortaları) əmələ gələn dini etiqadlar və ayinlər. Bu dinin öyrənilməsi üçün əsas mənbə Vedalardır. Onun yayılmasını arilərin maldar qəbilələrinin Şimali Hindistana soxulmaqları ilə bağlayırlar. Həmin din gəlmələrin və yerli əhalinin dini etiqadlarının mürəkkəb sintezidir. Vedalarda qeyd edilən üç mindən çox olan ilahilərin arasında ari və qeyri-ari qəbilələrin şər və xeyir ilahiləri və ruhları, o cümlədən təqdis edilmiş heyvanlar və bitkilər daxil olub.

Erkən vedi dövründə əsasən təbiətin qüvvə və hadisələrinə ilahilər kimi təcəssüm edilərək pərəstiş olunurdu. Bu, hələ ulu Allah haqqında təsəvvürləri olmayan politeist dini idi. Burada ən böyük əhəmiyyətə səma ilahisi Dyanus (sonralar onun yerini Varuna tutmuşdur), atəş ilahisi Aqni, yağış və göy gurultusu ilahisi İndra, günəş ilahisi Surya və b. malik idilər. İndra ilə yanaşı qədim hindlilər tufan, gurultu və ildırım ilahisi kimi Rudranı, yağış ilahisi kimi Parçanyunu tanıyırdılar. Hindlilər həmçinin şər cinlərinə inanırdılar. Məs., suyu oğurlayan (quraqlığı təmsil edən) Vritra cini haqqında əfsanə də var idi. İlahilərə konkret insan xüsusiyyətlərini isnad edirdilər (daha sonrakı dövrdə Vedi dinində abstrakt ilahilər də əmələ gəldi: Şraddhamnam Manyu – qəzəb və b.). Bu dində üstünlük kişi ilahilərinə verilirdi, bu da o dövrki Şimali Hindistanda patriarxatın qələbəsinə şahidlikdir. Prithivi (torpaq), Uşas (şəfəq), Sarasvati (müdriklik) ilahiləri ikinci dərəcəli rol oynayırdılar.

Cəmiyyətdə ictimai qeyri-bərabərliyin inkişafı prosesində ilahilərə isnad edilən funksiyalar dəyişirdi. Məs., İndra müharibə ilahisi, Varuna – ali hakim və ədalətin qorucusu oldular, Rudra isə ovçuların hamisindən maldarlar hamisinə çevrildi.

Veda dininin ayini əsasən ilahilərə qurbankəsmədən ibarət idi (onların rəğbətini qazanmaq üçün). İlahilərə yemək, mal-qaranı və **soma** adlı xüsusi içkini qurban edirdilər.

**VEDALAR** (*sanskritcə* bilik) – Şimali Hindistanın ən qədim ədəbi-dini abidələri. Onların meydana gəlməsi arilərin maldar qəbilələrinin ölkəyə soxulmasından sonrakı dövrə aid olaraq (e.ə. II əsrin ortası – I əsrin ortası), vedi dininin yaradılmasına dəlalət edirdi. Lakin Vedaların yazılması yalnız eramızın I əsrinin birinci yarısında həyata keçirilib. Vedalar 4 məcmuədən (samhit) ibarətdir: Riqveda, Yacurveda, Samaveda və Atharveda. Onların hamısına brahmanlar (kahinlər) ilahi əmələgəlməni, xaliq olmalarını və əbədiliyi bağlayaraq, onlara şruti, yəni ilahi vəhy deyirlər. Samhitin ən qədimi mindən artıq ehtiva edən Riqveda himnlər məcmuəsidir. O, on kitaba bölünür. Himnlər çoxsaylı ilahilərin tərənnümünə həsr olunub və həmçinin onlara müxtəlif müraciətlərdən ibarətdir (məs., düşmənlər üzərində qələbə arzusu, maddi nemətlərin bəxş edilməsi). Samaveda – Riqvedanın himnlərinin çoxunu əhatə edən təntənəli nəğmələrdən ibarət olan məcmuədir. Laçurveda – qurbanlara aid ovsunlama dualarından və qurban mərasimlərindən ibarət olan məcmuədir. Atharveda isə kahinlər ovsunlarının və şər ruhların əleyhinə yönəldilən ecazkar düsturlar məcmuəsidir.

**VEDANTA** (*sanskritcə* son, Vedaların tamamlanması) – eramızın əvvəlində çarvakların materialist nəzəriyyəsinə qarşı Hindistanda əmələ gələn dini-fəlsəfi sistem. Vedanta, brahmanizmdə, daha sonra induizmdə Allahı yeganə gerçəklik və görünən dünyanın xaliqi kimi qəbul etmiş təsəvvürə fəlsəfi-dini əsaslar gətirirdi. Bu sistemin əsas fikirləri daha dolğun Şankaranın (e.ə. təxm. 800 il) əsərlərində verilmişdir. Onun nəzəriyyəsinə görə Allah, bütün varlığı birləşdirir: hər şey Allahdır. Şankara təkid edir ki, yeganə Allahın dərk etmə vasitəsilə hər şey dərk olunur və bizim dərk etdiyimiz dünya yalnız dərkedilməz qüvvə (mayya) vasitəsilə Allahın bizim təsəvvürümüzə gətirdiyi görünmədir. İnsanın ən yüksək məqsədini Vedanta, "Mən – Brahmanam" fikrinin aydınlaşdırılmasında və maddi dünyanın rədd edilməsində görürdü.

**VELES, VOLOS** – qədim slavyan inamlarına görə ev heyvanlarının qəyyum ilahisi.

**VELLHAUZEN YULİUS** (1844-1913) – alman şərqşünası və bibliyaçısı. Hreyfsvald universitetinin professoru olduğu vaxt, 1878-ci ildə öz klassik "İsrailin tarixi" adlı əsərini nəşr etdirib. Əsərdə Altı Kitabın (b a x: **Əhdi-Ətiq**) tarixi-xronoloji sxeminin mənşəyinin əsas elementləri haqqında yekun vurub.

**VENERA** (*ər.* Zöhrə) – qədim latın xalqlarının təsəvvürlərində bahar, gül-çiçək və üzüm ilahəsi. Sonralar yunan məhəbbət ilahəsi Afrodita ilə eyniləşdirilirdi. Venera əsasən ər-arvad məhəbbətinin ilahəsi kimi tərənnüm edilirdi. Aprel ayında qadınlar onun eşqinə xüsusi bayram təşkil edirdilər.

**VESTA** – evdə olan ocağın ilahəsi. Onun adına məbəd Romanın mərkəzində idi. Kahinlər (vestalkalar) orada sönməyən ocağa diqqət edirdilər. Romada, hər il iyulun 9-da vestaliyalar bayramı keçirilirdi.

**VEZALİ ANDREAS** (1514-1564) – hollandiyalı, Padua universitetinin professoru, elmi anatomiyanın banisi. Anatomiyanın öyrənilməsi və tədrisində meyitlərin yarılmasından geniş istifadə edirdi. Bu da XVI əsrdə küfr hesab olunurdu. "İnsan bədəninin quruluşu" əsərində (I-II cild, 1543, 1950-54) Vezali onun vaxtına qədər hakim olan insan bədəninin quruluşu haqqındakı qeyri-elmi ehkamları əsaslı təftiş edib onun dürüst təsvirini vermişdir. Katolik kilsə Vezalini daim təqib edirdi və onu Fələstinə ziyarətə getməyə məhkum etmiş və ziyarət vaxtı o həlak olmuşdu.

**VƏHHABİLİK**, Vahhabiyyə – islam dilini yeni anlayışla qəti qaydalara bağlayan hərəkat kimi ortaya çıxdıqdan bir müddət sonra siyasi mahiyyətə bürünərək davam etmiş bir məzhəbdir.

Bu vəziyyət və anlayış, özlərinin də dedikləri kimi, bəlkə də ərəb çöllərində şəxsləri qüdsi və mübarək saymaq və onların qəbirlərini bu duyğular içində ziyarət etməklə Allaha yaxınlaşacağını sanmaq kimi uydurmaların və dində olmayan bidətlərin çoxalması üzündən ortaya çıxmışdır.

XVIII əsrdə Vəhhabiliyin zühur etdiyi Nəcd adını daşıyan və Mədinənin şimal-qərbindən Bəhreynə qədər uzanan bu geniş bölgə, çox qədimdən bəri hind, Yəmən, İraq, İran və Suriyadan gələn dəyişik inanclara sahə olmuş və Peyğəmbər dövründə müsəlmanlığı qəbul etmişsə də, çox keçmədən, Müseylimə, Səcah, Tüleyxa və b. saxta peyğəmbərlərə uyduğu kimi, Əbu Bəkrin xəlifəliyi vaxtında da Mədinə idarəsi ilə uzun müddət mücadiləyə girişmiş və şiə-xaricilər hərəkatının davam etdiyi sahə halına gəlmişdi. IX-XII əsrlərdə islam aləmini sarsıdan qərmətilik də bu yerlərdən çıxmışdır.

1) **Vəhhabiliyin qurucusu:** Teym qəbiləsindən Məhəmməd ibn Əbdülvəhhab ibn Süleymandır. Qurduğu məzhəbə də atasının adına nisbətlə Vəhhabilik (Vəhhabiyyə) deyildi. Bu adam Nəcd bölgəsinin Riyad şəhərindən 70 km uzaqda olan Üyayna qəsəbəsində 1703-cü ildə anadan olub.

Hələ səkkiz yaşında Quranı əzbərləyən Məhəmməd ibn Əbdülvəhhab təfsir, hədis, fiqh və ədəbiyyat kimi fənləri, hənbəli məzhəbində alim olan atasından öyrəndi. Gənclik çağında həcc üçün Məkkəyə, oradan da bilgisini artırmaq üçün Mədinəyə getdi və burda dörd il qaldı. Burada Xarranlı Teymiyyənin (1263-1328) dini görüşləri haqqında bilgi topladı. Mədinədən Bəsrəyə getdi. Dörd il qaldığı bu şəhərdə tovhid mövzusundakı görüşlərini artırdı və oradakı alimlərlə mübahisələrə girişdi. Ona

görə müsəlmanlar dini bilgilərini məhz Qurandan və hədislərdən öyrənməli idilər. Peyğəmbərin ölümündən sonra mənimsənilən islami adət və ənənələri bütövlüklə rədd etdiyinə görə Məhəmməd ibn Əbdülvəhhab ciddi müqavimətlə rastlaşdı. Buna görə o, Bəsrədən çıxıb Bağdada, Quma, Həmədana və İsfahana gedir və buralarda görüşlərini yaymağa çalışırdı. Sonra isə Şama və Qahirəyə getdi. Daha sonra atasının olduğu Hüreymiləyə (Riyaddan şimalda) gedir və burada ən məşhur əsəri olan Kitab ət-Tovhidi yazır. Əhalinin narazılığı ilə üzləşən Məhəmməd Hüreymiləni tərk edir və vətəni Üyaynaya gedir. Bu bölgənin əmiri Osman ibn Həmd ibn Müammarın himayəsi ilə burada öz məzhəbinə dəvət işini davam edir.

Üyaynada qazilik edib, fitvalar verməyə başlayan Məhəmməd ibn Əbdülvəhhabın sərt və qəti davranışı, ətrafda qorxu yaratdı. Buna görə Nəcdin güclü qəbilələrindən olan Bəni Xalid qəbiləsinin əmiri, Məhəmmədə pul yardımı göstərən Əmir Osmanı onu himayə etməkdən vaz keçməsi üçün hədələdi. Əmir Osman da Məhəmməddən onun bölgəsindən getməyi tələb etdi. Üyaynadan çıxıb Dəriyəyə gələn Məhəmməd ibn Əbdülvəhhab əmir Məhəmməd ibn Səud ilə anlaşıb onun himayəsinə girdi.

1744-cü ildə Məhəmməd ibn Səuda qızını verib onu kürəkən edərək və ya bir rəvayətə görə də Məhəmməd ibn Səudun bacısı ilə evlənərək qohumluq bağını da qurdu. Bu sazişin bağlandığı il Vəhhabi dövlətinin (Səudi əmirliyinin) quruluşu, yəni başlanğıcı sayılır.

Məhəmməd ibn Əbdülvəhhab Dəriyədə yalnız vəz və dərslər verməklə kifayətlənməyib, məzhəbini müdafiə edən risalələr də yazdı. Nəcd vilayətindəki əmirlərə, din alimlərinə, Mədinənin əyanlarına hətta osmanlı sultanı III Səlimə yazılı dəvətlər göndərdi. Məhəmməd ibn Səudla birlikdə cihadlara girişdi. 15 il ərzində Nəcd, Əsir və Yəmənin daxili bölgələri Vəhhabi oldu.

1766-cı ildə Məhəmməd ibn Səud öləndə yerinə keçən oğlu Əbdüləziz daha sərt vəhhabi oldu və yeni məzhəbi qılıncla yaymağa çalışdı. Döyüşlərdə ələ keçirilən qənimətlərin beşdə birini özünə götürüb, qalanını döyüşçülər arasında bölüşdürürdü, bu da döyüşlərin davam etdirilməsinə imkan yaradıb tərəfdarlarını da çoxaldırdı.

Səudi əmirliyinin dini başçısı olaraq əmirliyə tabe olan yerlərdə qazilər təyin edən Məhəmməd ibn Əbdülvəhhab 1787-ci ildə (və ya 1792-ci ildə) öldü. Vəhhabilər nüfuz bölgələrini genişləndirmək üçün girişdikləri fəaliyyətlərini 1790-1813-cü illər arasında daha da sərtləşdirdilər. Hökumət mərkəzi olan İstanbuldan uzaqda olmaları, müvəffəqiyyətlərini yüngülləşdirirdi. İkinci tərəfdən, bu zaman Osmanlı dövlətinin başı da dərddə idi. Sultan III Səlim yeniçərilərə yeni bir qayda vermək istədikdə, fransızlar da Misirə və Fələstinə hücuma keçdilər. Napoleon hətta vəhhabilərlə iş birliyinə girişmişdi.

2) **Vəhhabiliyin prinsipləri:** bunlar özlərinin inancda sələfiyyəçi, əməldə hənbəli və müvəhhidi (vahid Allah tərəfdarları) olduqlarını deyirlər. Zama-

nımızın tədqiqatçıları isə onları islamda islahatçılar, modernistlər və ya yenilikçilər deyə vəsfləndirirlər. Vəhhabilərə görə inancda bir məzhəbə bağlılıq qadağandır. Vəhhabilər dini məsələlərin həllində əqlə yer verməmək, islamın mənbələrini sadəcə Quranın və sünnənin zahirlərində görmək, öz inanclarında olmayan müsəlmanları kafir saymaq kimi anlayışları ilə islam dininə xüsusi məna və mahiyyət veriblər.

Vəhhabiliyin özünü, tovhid, yəni Allahın zat, sifət və əməlləri baxımından birləşməsi təşkil edir. Məhəmməd ibn Əbdülvəhhab "Kəşf əş-şubahat" adlı əsərində Möminun surəsinin 84-89-cu, Nisa surəsinin 116-cı, Yunus surəsinin 105, 108-ci ayələrini dəlil gətirərək tovhid haqqında belə deyir: "Tovhid, namazdan, orucdan və zəkatdan daha üstün olan fərzdir. Başqa fərzləri inkar edən necə kafir olursa, tovhidi inkar edən də kafir olur. Allahın birliyinə inanma ürəklə, dillə və əməllə olmalıdır. Bunlardan biri əskik olarsa, insan müsəlman sayılmaz. İman söz və əməldir, artar və ya əskilər. Dil ilə deyib qəlblə təsdiq kifayət deyil. O, dil ilə demək, qəlb ilə təsdiq və rüknləri ilə əməl edərək tamamlanır". İbn Əbdülvəhhaba görə Allahın əmrləri və Peyğəmbərin sünnəsi xaricindəki hər şey bidətdir. İmanla küfrü ayırd etmək istəməyən, tovhidi yerinə yetirməyən kafirdir. Bu kimilərin malları və canları vəhhabilərə halaldır. Hicri 500 (1107)-cü ilindən sonra ölənlər o biri dünyaya kafir olaraq getmişlər. Vəhhabiliyə inancların ölülərini bunların yanında dəfn edilməsinə icazə yoxdur.

3) **Vəhhabilərin bidət anlayışları:** Məhəmməd ibn Əbdülvəhhab süslənmiş məzarlar və türbələr tikilməsinin, bunların qübbələrlə örtülməsinin qəti surətdə əleyhinə idi. Bu cür yerləri, hətta yanında türbə olan məscidləri belə sökdüklərinə görə vəhhabilərə "məscid sökənlər" adı da verilmişdi. Məkkəni əllərinə keçirəndə, Peyğəmbərin qəbri üzərindəki süslü bəzəkləri, maddi və tarixi qiyməti olan şeyləri götürdülər. Peyğəmbərin arvadı Xədicənin türbəsini, Peyğəmbər və Əbu Bəkrin doğulduğu evlərin qübbələrini, Mədinənin məşhur Baqi qəbiristanındakı səhabələrin, Peyğəmbərin yaxınlarının məzar qübbələrini söküb bunların daşları ilə qala tikdilər. Məkkədə Kəbədən və Məqami-İbrahimdən başqa nə qədər qübbə və ziyarət yeri var idisə, hamısını sökdülər. Onlara görə məscid işlərini imamlar görür. Üzürsüz olaraq məscidə gəlməyən, birinci dəfə imam tərəfindən nəsihət, ikinci dəfə şəriət hakimi tərəfindən xəbərdarlıq, üçüncü dəfə şahidlərin hüzurunda tənbeh edilir. Tütün, qəlyan, qəhvə kimi bədənə zərəri olan və haram sayılan şeyləri işlədənlərə və içki içənlərə qırx dəyənək vurulur. Lakin sonralar, hacıların Baqi qəbiristanını ziyarətlərində və Cəfəri məzhəbində olanların həccə gəlmələrinə izin verildi.

Ağac və daş kimi şeyləri müqəddəs saymaq, Allahdan başqası üçün qurban kəsmək, vəd vermək, həmail taxmaq, təsbeh çevirmək, təsbeh duası oxumaq bidətdir. Zikr, sünnə və nafilə namazları qadağandır. Yenə onlara görə əl öpmək,

boyun vurmaq bidətdir. Övliya qəbrinin ziyarəti, falçıya inanmaq, nəzər muncuğunu taxmaq, Allahdan başqasının insan üzərində təsirini qəbul etmək küfrdür. Yağış duasına çıxıb suya daş atmaq günahdır. Peyğəmbərin xatirələrini əzizləmək, xirqəsini və saqqalını ziyarət etmək şirkdir. **Dəlail əl-Xeyrat** adlı kitabı oxumaq qadağandır. Peyğəmbərə salavat gətirilir, amma bunu ibadət halına salmaq "seyyidana", "mövlana" deməmək gərəkdir. Şiələrin Kərbəla torpağından düzələn "möhür" üstündə səcdə etmək, Kəbə yerinə Məşhədi və Nəcəfi ziyarət etmələri şirkdir. Mehdi gələcək, Xızır sağdır, İlyas sağdır deyilməsi, bir təriqətə girmək, təriqətlərin şeyxə bağlanması şirkdir. Üçlərə, yeddilərə, qırxlara inanmaq, ölülərin dirilərə təsir etməyinin qəbulu, havaya, küləyə söymək küfrdür.

Vəhhabilərə görə, sufilik, islamı olmayan bidətdir. Təriqət, xalqı istismar etmək yoludur. Quranın batini mənası olduğunu söyləmək onu inkar etmək və dinlə oynamaqdır. Bu mənada islam dininə qədim dinlərin adət və ayinlərini daxil edən təriqətlərə batinilərə, sufiliyə kəskin hücum edirlər. Buna görə, bütün təriqət şeyxlərini və sufi ərbablarını ölkələrindən qovdular. Ticani firqəsinin mənsubları, hər axşam Peyğəmbərlə olmaqlarını və Peyğəmbərdən əmr aldıqlarını iddia etdikləri üçün küfrə dalmışlar. Qadirilər, Nəqşbəndilər də şirkin içindədirlər. Əhli-beytə və Əliyə fövqəladə vurulmaq, onları həddən artıq sevmək, Əli övladını məsum saymaq şirkdir. Məhəmməd ibn Əbdülvəhhab hətta öz şəhəri xalqına ənsar, başqa yerlərdən gələnlərə mühacirun deyirdi.

Məhəmməd ibn Əbdülvəhhabın ona uymayanlarla etdiyi mücadilənin səbəblərindən biri, yaxşılığı əmr saymaq, pislikdən çəkinməkdir (əmr bil-məruf nəhy ənil-münkar). Bunu yerinə yetirmək vəhhabilərə görə vəzifə olub, icrası üçün imam və ya əmir məmurlar təyin edir. Bunlar, xalqı camaatla namaz qılmağa məcbur edir, xüsusən sabah namazlarından sonra, namaz qılmaları fərz olanların siyahılardakı adları oxunub yoxlanılırdı. Dövlətdən maaş alan bu məmurlar, içki içilməməsini, ipək paltar geyilməməsini, çalğı çalınıb dinlənilməməsini, tütün çəkilməməsini təmin etməyə çalışırdılar. Bu vəzifələr sonra hökumətə həvalə edilmişdir. İndiki dövrdə də Səudilər hökuməti qəhvə içilməməsinə, qəlyan, siqaret çəkilməməsinə və alkoqolsuz pivənin içilməməsinə müsaidə edir.

4) **Vəhhabilərin ilk müvəffəqiyyətləri.** Məhəmməd ibn Əbdülvəhhabın Bəsrə, Bağdad, Qum, İsfahan, Həmədan, Şam və Qahirə səyahətlərindən Hüreymilədə, atasının yanına qayıtmasından bir az sonra çoxlu tərəfdar qazandı. O, hələ 1733-cü ildə, Məkkə əmiri Məsud ibn Səiddən (1752-ci ildə ölüb) vəhhabilərin Məkkəyə həccə gələ bilmələri üçün izn aldığı üçün, otuz nəfərlik heyət göndərmişdi. Bundan məqsədi, hicaz xalqını öz məzhəbinə dəvət etmək idi. Məkkə əmiri bunları Harameyn alimləri ilə dini mübahisəyə dəvət etdi. Vəhhabilər müdafiələrində aciz qaldılar. Məkkə qazısı bunların küf-

VƏHHABİLİK

rünə hökm verdi, bəzisi həbs olundu, bəziləri qaçdı. Hicazda vəhhabilərə qarşı dərin nifrət yaranması ilə əlaqədar, bunların pul ilə belə həcc ziyarətləri rədd edildi.

1790-cı ildə Məkkə şərifi Qalib (şərifliyi 1788-1813-cü illər arası) ilə vəhhabilər arasında silahlı toqquşmalar başlandı. Məkkə şərifi, Taif qalasını təmir etdirib, Məkkə dağlarında bürclər tikdirdi. 1744-cü ildən bəri vəhhabilərlə iş birliyi əldə edən Məhəmməd ibn Səudun (1766-cı ildə ölüb) oğlu Əbdüləziz ibn Məhəmməd, oğlu Səudu böyük qüvvəylə İraqa göndərdi. Bu hərbi dəstə h. 1217-ci il Məhərrəmin 10-da (13.V-1802) Kərbəlada matəmdə olan şiələrə hücum edib iki mindən çox adam qırdılar. İmam Hüseynin türbəsində olan qızıl və gümüş şeyləri iki yüz dəvəyə yükləyib özləriylə apardılar. Digər tərəfdən Əbdüləziz ibn Səud özü uzun mühasirədən, ağır döyüşlərdən və intriqalardan sonra 1803-cü il fevralın 18-də Taif şəhərini də zəbt edib xalqını qırdıraraq mallarını qarət etdi. Bir çox dini kitabları yandırıb, şəhər və ətrafındakı məzarları və türbələri dağıtdırdı. Peyğəmbərin əmisi oğlu Abdullah ibn Abbasın möhtəşəm türbəsi də yerlə yeksan edildi.

1803-cü il aprelin 30-da vəhhabilər Məkkəni aldılar. Əbdüləziz ibn Səud ihram geyərək şəhərə girdi. Ertəsi gün xalqa bu sözləri dedi: "Sizi islamın doğru yoluna gətirib şirkdən qurtardığı üçün Allaha şükr edirəm. Sizi içində olduğunuz şirk və satqınlıq yolundan çıxıb yalnız Allaha qulluq etməyə dəvət edirəm. Sizdən Allahı sevənlərə dost və Allah düşmənlərinə düşmən olmaqla mənə beyət etməyinizi istəyirəm". Ona əvvəlcə Məkkənin əyanları, sonra da bütün xalq beyət etdilər. O, Peyğəmbər, Əbu Bəkr, Ömər, Əli və Fatimənin doğulduqları evləri sökdürüb, dörd gün qaldıqdan sonra burada adamlarından 200 nəfəri saxlayıb Ciddəyə getdi. Bundan sonra Məkkə şərifi Qalib, vəhhabi ordusu darmadağın edildikdə və Əbdüləziz Nəcdə qaçdıqda, yenə Məkkəni geri aldı.

Vəhhabilərdən Kərbəlada iki min ilə beş min arasındakı şiə camaatını qılıncdan keçirdiklərinə görə, intiqam almaq istəyən Osman adında bir şiə, Əbdüləzizin etimadını qazanıb, onun xidmətinə girdi və namaz vaxtı onu bıçaqlayıb öldürdü (4.XI-1803). Sonra onun özünü də öldürdülər.

Əbdüləzizdən sonra yerinə oğlu Səud keçdi. Atasının məziyyətlərinə sahib olmayan və qaldığı Dəriyənin əldən getməsindən qorxan Səud Mədinəni mühasirəyə alıb zəbt etdi (iyun, 1805). Şəhər əhlini bu xüsuslara uymağa dəvət etdi: 1) Allaha, vəhhabilərin inancları və qaydalarına görə itaət və ibadət etmək; 2) Məhəmmədə, vəhhabi imamının təyin və tövsiyə etdiyi şəkildə riayət etmək; 3) Mədinə daxilində və ətrafında mövcud olan türbə və tikilən məzarları sökmək; 4) Məhəmməd ibn Əbdülvəhhabı, Allahdan ilham alıb məzhəb quran din müciddidi kimi tanımaq; 5) Vəhhabi məzhəbini qəbul etmək istəməyənləri öldürməklə bərabər, şiddətli təqibata uğratmaq; 6) vəhhabilərə qala mühafiz-

liyinin verilməsini qəbul etmək; 7) dini və siyasi hər cür əmr və qadağanlara uymaq.

1811-ci ildə Vəhhabi əmirliyi Hələbdən Hind okeanına, Bəsrə körfəzindən Qırmızı dənizə qədər genişləndi.

1927-ci il mayın 20-də Əbdüləziz ibn Əbdürrəhman ibn Səud Vəhhabi əmirliyinin müstəqilliyini elan edir. Özünü islam xəlifəsi elan etmək istəyərək Məkkə şərifi Hüseyni 1930-cu ildə ölkədən uzaqlaşdırdı və 1932-ci il oktyabrın 18-də Hicaz və Nəcd məliki ünvanını alıb bugünkü Səudiyyə Ərəbistanı dövlətinin başçısı oldu.

**VƏHY** – bir fikrin və ya əmrin Allah tərəfindən bir peyğəmbərə ilham olunması. Dini istilah olaraq peyğəmbərlərə göndərilən ilahi kəlam və xəbər mənasındakı vəhy, vəlilər, sənətkarlar və başqalarının ilhamları ilə eyni şəkildə, xüsusən vəhy edilən şey demək olan tənzildən və onun göydəki səmavi əslindən vəhy endirmək mənasına gələn inzaldan ayrılır.

**Qurandakı işlənmələri:** 1) Quranda ilk nazil olan surələrindən Zəlzələ (99) surəsinin 4-5-ci ayələrində, Yer, vəhyin müsahibidir: "Məhz o gün Yer öz hekayətini söyləyəcəkdir – Allahın ona etdiyi vəhy ilə!" Əl-Qəsəs (28) surənin 7-ci ayəsində vəhydə olan Musanın anasıdır.

**VƏKİL** – Allahın adlarından biri.

**VƏQF** (ərəbcə) – islam ölkələrində dini və xeyriyyə məqsədi ilə dövlətin, yaxud ayrı-ayrı şəxslərin könüllü bağışladığı əmlak. Vəqf VII-VIII əsrlərdə yaranan və geniş yayılan, din xadimlərinin təsirinin qüvvətlənməsində əsas iqtisadi dayaq olub. Vəqf yerlərindən alınan gəlir vəqf qoyan şəxsin arzusuna uyğun olaraq məscid, mədrəsə, hamam, karvansara, xəstəxana ehtiyaclarına və s. xərclənməli idi. Əmlakın vəqf edilməsi xüsusi fərmanda (vəqfnamə) rəsmiləşdirilirdi. Vəqf edilmiş əmlak nə satıla, nə də bağışlana bilərdi. Vəqfə kəndlər, tikililər, su quyuları, dəyirmanlar, bağlar və s. verilə bilərdi. Vəqfi idarə edən şəxs mütəvəlli və ya nazir adlanırdı.

Vəqf Azərbaycanda da geniş yayılmışdı. XII-XIII əsrlərdə Şirvanda Pirsaat çayı sahilində yerləşən Pir Hüseyn xanəgahının çoxlu vəqfi var idi. Bibiheybət məzarına bağışlanmış vəqflərin də sayı çox idi.

**VƏLİ** (*ər.* yaxın) – müsəlmanlarda Allaha yaxın olan adam, müqəddəs. Dindarların təsəvvürlərinə görə, Vəli möcüzələr yarada bilir, gələcəkdən xəbər verir, fövqəladə hadisələrə bais olub qabağını alır, xəstələri sağaldır və hətta ölüləri də diriltdir. Sufilikdə Allahın ilki, himayə, yardım və sevgisinə layiq olmuş, çatmış kimsəyə verilən addır. Bu sözdən əmələ gələn Vali, Allahın gözəl adlarından (əl-əsma əl-hüsnə) biridir.

**VİXARA** (*sanskritcə* hərfi – "istirahət yeri") – buddist monastırı. Erkən buddizm dövründə yağışlar mövsümündə yolçuluq edən buddist rahiblərin toplaşdığı yer – meşə, mağara və s. Sonralar varlanan rahiblər icmaları vixaraları monastırlara çevirib burada minə qədər rahibi təmin edən yaşayış binaları, iri otaqlar və anbarlar tikdirdilər.

**VİKTORİYA** (*lat.* qələbə, qalibə) – Qədim Roma əfsanələrində – ilahə, Yupiterin qızı, qələbənin təcəssümü. Əklilli uçan qız kimi təsvir olunurdu. Romada Palatində ona ibadətgah həsr olunub, hər il aprelin 12-də onun eşqinə bayram keçirilirdi.

**VİPPER, ROBERT YURYEVİÇ** (1859-1954) – akademik, xristianlıq və kilsə tarixinə aid "Xristianlığın meydana gəlməsi" (1918), "Xristian ədəbiyyatının meydana gəlməsi" (1946), "Roma və erkən xristianlıq" (1954) və b. əsərlərin müəllifi.

**VİRD** (ərəbcə cəmi-əvrad) – sufi istilahı, isim və sifət kimi işlənib başda gəlmək, hər zaman gedilən su və ya yer, gətirilən su, su payı, susamışların suya getmək vaxtı, suya gedən dəstə və dəvələr, quş sürüsü, ordu birliyi, parça və s. mənalar verən bu söz, axırda və xüsusən islamiyyətdən sonra Qurandan bir cüz, gecənin ibadət üçün ayrılan hissəsi və hər gün müəyyən vaxtlarda oxunan Quran və zikrlərin sayı mənalarını almışdır.

Vird ən bəsit mənasında Quranın yeddidə birini və ya daha az miqdarın oxunması ilə qılınan dörd rükətli namazdır.

**VİŞNU** – hind ilahilər panteonunda əsas ilahilərin biri. Müasir dövrdə Hindistanda Vişnuya və onun avataralarına (mücəssəmələrinə) ibadət etmə ən yayılmış dini ayinin formasıdır. Baş ilahi kimi Vişnuya geniş miqyaslı ibadət IV-VI əsrlərdə başlanıb. Lakin Vişnu haqqında təsəvvür erkən vedilik dövrünə aiddir: Riqvedada (b a x: Vedalar) Vişnu – gecələr iblisləri pərən-pərən salan günəşli ilahidir. İctimai münasibətlərin dəyişməsi ilə əlaqədar öz dinini islah edən kahin-brahmanlar Vişnunun avataraları haqqında olan əfsanələr əsasında onu nizamı saxlayan və dərdlə şərin əleyhinə mübarizə edən xilaskara çevirdilər. Vişnunun avataralarından ən məşhur olanları Krişna və Ramadır. İnduizmdə bunların sırasında Budda da daxildir.

**VİTR** (və ya vətr, cəmi əvtar) – tək, cüt olmayan say, ərəfə günü, kin və zülm kimi mənalardadır və eyni zamanda Allahın adlarından biri olan bu söz, islam aləmində gecəynən qılınan üç rükətli xüsusi bir namazı ifadə edir. Vitr sözü Quranda rastlanmır, lakin çoxlu hədislərdə, xüsusən hər gün qılınması lazımi beş vaxt namaz ilə bunun tarixinin təsbitinə kömək edən hədislərdə tez-tez təkrar edilir.

a) Vitrə aid hədislərin çoxu, sadəcə gündə beş vaxt namazının fərz olunduğu qəbul edildiyi halda, bir qismi də, vitri beş vaxt namaza əlavə və qılınması məcburi (vacib) bir namaz olaraq göstərir. Bu hədislərin anlaşıldığına və səhabədən bəzilərinin ifadəsinə görə, bu namaz, Peyğəmbər tərəfindən vacib edilmişdir. Müaz ibn Cəbəl, Suriyaya gəldiyi vaxt, bu ölkə xalqının çoxunun vitri qılmadığını görür və bu xüsusda buranın valisi olan Müaviyəyə xalqın nə üçün vitr namazını qılmadığını soruşur. Müaviyənin: "Bu namazı qılmaq müsəlmanlara lazımdırmı?" sualına görə, Müaz: "Əlbəttə!" cavabını verir

və davam edərək Peyğəmbərdən: "Rəbbim mənə fərz qıldığı namazlara bir namaz da əlavə etdi, o vitrdir. Onun qılınma vaxtı, günbatandan sonrakı namaz ilə sabah namazı arasındadır" – buna aid olan hədisi oxuyur.

b) Əbu Hənifədən başqa digər məzhəb qurucularının bu xüsusdakı görüşlərini bildirən hədisin üçüncü mərhələsi və hökmü, vitrin, sünnə namazı olduğuna dair rəvayətlərdə ortaya gəlmişdir. Bu cür hədislərin çoxu açıq şəkildə vitrin məcburi olduğunu qəbul etməyib sünnə olduğu üzərində durur. Bunlarda diqqəti çəkən tərəf isə, bu rəvayətlərin çoxunun Əliylə bağlı olmasıdır.

c) Vitr namazının vaxtı, hədisdə gecənin müxtəlif vaxtları olaraq göstərilmişdir. Rükət sayı da hər vaxt tək olmaqla, bir ilə on üç rəqəmi arasında dəyişir. Bir sıra rəvayətlərdə vitrin ən azı üç rükət qılınması lazım gəlməsinə işarə edilir və bu bütün məzhəblərdə qəbul olunub. Bir gecədə yalnız bir vitr qılına bilir, artığı qadağandır.

ç) Əgər mükəlləf olan yolçudursa, o, vitr namazını mindiyi heyvan üstündə belə qıla bilər. Şafei məzhəbinin təsbit etdiyi qaydaların xülasəsi belədir: Rükət sayı bir ilə on bir arasında dəyişə bilərsə də, vaxt azalmadıqca, ən azı üç rükət qılmaq lazımdır. Niyyət vitr namazında da şərtdir.

**VOLTER** (təxəllüsüdür, əsil adı Arue Fransua Mari; 1757-1820) – Fransa tarixçisi, maarifçisi və şairi, kilsə əleyhinə coşqun mübariz, deizmin tərəfdarı. Paris notariusunun ailəsində doğulub, iyezuitlər kollegiyasında tərbiyə alıb. Hökumətin və kilsənin əleyhinə yazdığı əsərlərinə görə iki dəfə Bastiliyaya həbsə salınıb və Fransadan sürgün edilib. 1726-1729-cu illərdə Londonda yaşadığı zaman Volter ingilis materialist fəlsəfəsi və İ.Nyutonun nəzəriyyəsi ilə tanış olub və bunlar da onun dünyagörüşünün formalaşmasına təsir göstərib. Volter D.Didronun nəşr etdiyi "Ensiklopediya"da fəal əməkdaşlıq edir və Fransanın materialist-maarifçilərin gənc nəsliylə sıx əlaqələr saxlayırdı. Deist kimi, Volter Allahın "təbiətin qanunqoyanı", "kainatın birinci təkanvericisi", dünya vəhdətinin və onun məqsədəuyğunluğunun əsası kimi qəbul edilməsini mümkün hesab edirdi. O, Allahın varlığını sübut oluna bilməzliyini anlayırdı. Lakin bu varlığın qəbul edilməsini o, "Allaha inam xalq kütlələrinin itaətdə saxlanılmasına kömək edir" düşüncəsi ilə bağlayırdı. Məşhur "əgər Allah olmasaydı, onu icad etmək lazım gələrdi" ibarəsi Voltere məxsusdur ("Üç yalançılar haqqında kitabın müəllifinə" şeri, 1769). Bununla yanaşı, Volter feodalizmin və onu müqəddəsləşdirən rəsmi kilsənin coşqun ifşaçısı və tənqidçisi idi. Katolik kilsəsinin əleyhinə olan "Murdarı əzin!" şüarı Voltere məxsusdur. "Ümumi sülh haqqında" o yazırdı: "Tamamilə aydındır ki, xristian dini – fırıldaqçıların 18 əsr ərzində axmaqları doladıqları tor və fanatiklərin 14 əsrdən artıq öz qardaşlarını öldürtdüyü xəncərdir". Volter Fransada dini fanatizm qurbanlarının fəal müdafiəçisi idi. O, 1762-ci ildə oğlunun katolik

olmağına maneçilik törətmək kimi yalançı ittihama görə qətl edilən Kalas adlı protestant kəndliyə ölümündən sonra bəraət qazandırdı, dini bəhanələrə görə təqib edilən De La Barranın, Sirvenin və başqalarının müdafiəsi üçün çıxış etdi. Beləliklə, Volterin dünyagörüşündə və fəaliyyətində ikitərəflik görünürdü: o, feodal, o cümlədən feodal-kilsə ideologiyasını dağıdırdı və bu sahədə böyük səy göstərirdi, lakin o, D.Didronun, P.Holbaxın və b. radikalizminə biganə idi. Volterin əsas fəlsəfi və antiklerikal əsərləri: "Fəlsəfi məktublar" (1733), "Metafizika haqqında traktat" (1734), "Nyuton fəlsəfəsinin əsasları" (1738), "Din azadlığı haqqında traktat" (1763), "Fəlsəfə lüğəti" (1769), "Orlean bakirəsi" poeması (1735), "Zaira" faciəsi (1732), "Məhəmməd" (1741), fəlsəfi romanlar, povestlər, novellalar, nağıllar: "Zadiq və ya Tale" (1748), "Kandid və ya Optimizm" (1759) və b.

**VULKAN** – əvvəlcə italyan od ünsürünün ilahisi, sonra Qədim Romada od, yanğınlar, ocaq, dəmirçilik ilahisi, Veneranın əri, yunan Qefesti ilə eyniləşdirilən ilahi. Romalılar ona Forumun üzərində yüksələn Vulkanal adlı təpədə sitayiş edirdilər. Avqustun 23-də Vulkanın şərəfinə vulkanaliya şənlikləri keçirilirdi. Vulkan axsaq, əlində çəkic və kəlbətin olan sənətkar kimi təsvir edilirdi.

**VULQATA** – b a x: **Əhdi-Ətiq.**

**VÜQUF**, vaqifə – həccdə olanların 9 Zülhiccə, ərəfə günü, günortadan sonra başlayaraq, 10 Zülhiccə bayram günü dan yeri ağardığı ana qədər, bu məqsədlə bir yerdə bir qədər vaxt durub dua etmələrini ifadə edir.

# Y

**YAFƏS** – Nuh peyğəmbərin, Tövratda müxtəlif yerlərdə adı çəkilən üçüncü oğludur.

**YAXVE**, Yaqve – iudaizmdə vahid Allah. Onun adını demək qadağan idi. Qədim yəhudi dilində olan Bibliyanın əlyazmalarının mətni samit hərflər ilə yazılıb və Yaxve adında olan samit hərflərin altında Yaxve adının əvəzinə sait sözlər – Adonay ("Allahım mənim") yazılırdı. Bunu bilməyən xristian dindarları orta əsrlərdə Bibliyanın yəhudi mətninə müraciət edərək, samitlərin arasına saitləri daxil edib Yaxve sözünü İyeqova kimi oxumuşlar. Beləliklə, anlaşılmazlıq nəticəsində İyeqova sözü əmələ gəldi. Bibliyada geniş istifadə edilən söz Elohimdir ("Eloha" sözünün cəmi). Bu söz fövqəltəbii qüvvə, "ruh", "Allah" sözlərini izah edən ümumsami "El" kökündən əmələ gəlib (b a x: məs., "El"; elə buradan da "Allah"). Bibliyanın qədim yəhudi dilindən tərcümələrində "Elohim" "Allah" kimi tərcümə edilib (daha düz tərcümə "allahlar" olmalıdır), "Yaxve" adı isə "İlahi" sözü ilə əvəz olunub. Əvvəllər Yaxve yalnız qədim yəhudi Leviya və İuda qəbilələrinin (nəsillərinin) Allahı kimi sayılırdı və levitlər tərəfindən ilan şəklində, "İudanın oğulları" tərəfindən isə şir şəklində təmsil edilirdi. Qədim yəhudilərin maldarlıqdan əkinçiliyə keçdiyi mərhələdə Yaxve haqqında olan təsəvvürlər də dəyişdi: ruh totemistik əlamətli ulu babadan, tufanı, odu və suyu təcəssüm edən ildırımsaçan ilahiyə çevrildi. İnanırdılar ki, Yaxve Şimali Ərəbistanda Sina dağında yaşayır, buludlar üstündə uçuşur, odlu sütun və "udan alov" şəklində zühur edir. Bu köçərilərin qəbilə ilahisi, sonralar ayini bütün Aralıq dənizi hövzəsində yayılmış öküzəbənzər münbitlik ilahisi əlamətlərini alırdı. O dövrdə qədim yəhudilər Yaxveni hələ vahid Allah saymır və çoxlu başqa ilahilərə də inanırdılar. Bu da öz əksini Bibliya mətnlərində tapmışdır. Mətnlər isə, məs., deyirlər: "Bütün ilahilər üzərində olan ulu hökmdar" (Zəbur, 94, 3), "Bütün ilahilər? Ona səcdə edin!" (Zəbur, 96, 7).

E.ə. təxminən XI-X əsrlərdən başlayaraq Fələstində quldar İudeya dövlətinin və çar hakimiyyətinin əmələ gəlməsi və başqa yəhudi qəbilələrin arasında İuda nəslinin qüvvətlənməsi, Yaxvenin mülkü çarların hökmranlığını müqəddəsləşdirən və monoteizmi inkişaf etdirən "səmavi Allaha" çevrilməsinə səbəb oldu. Yerusəlimdə çarların iqamətgahına çevrilən Sion dağında Yaxvenin ibadətgahı tikildi. E.ə. 621-ci ildə çar İoşiya əmr etdi ki, qurbanlar yalnız Yerusəlim ibadətgahında verilsin və Yaxvedən başqa heç bir ilahinin ayinləri saxlanmasın. Bundan əvvəl sitayiş olunan çoxlu ilahilərin təbii və ictimai əlamətlərinin hamısı təkcə Yaxveyə aid oldu. Beləliklə, Fələstində çar hakimiyyətinin

və vahid Şərq müstəbidi hökmranlığının formalaşması öz əksini və müqəddəsləşməsini yəhudi monoteizmində – Bibliya Yaxvesinin ayinində tapdı.

**YAQUB** – İsrail oğullarına göndərilən peyğəmbərlərdən biri. Adı Quranda tez-tez çəkilir.

**YAQVE** – b a x: **Yaxve.**

**YANUS** – Qədim Roma dinində – qapıların, giriş və çıxışların, hər bir başlanğıcın və vaxtın ilahisi. İlin əvvəli – birinci gün və birinci ay – yanvar ona ithaf edilmişdi. Yanvarın birində Yanusa ballı piroqlar bağışlanırdı ki, il rifahlı olsun. Müharibə başlananda Yanusun eşqinə ibadətgahın qapıları ikiqat açılırdı ki, sülh bağlanandan sonra örtülsün. Yanus ikiüzlü, əli əsalı və açarlı təsvir edilirdi (gənc və qoca), üzlər ayrı-ayrı tərəflərə (gələcəyə və keçmişə) baxırdı.

**YEPARXİYA** (*yun.* hərfi – rəislik etmə, hakimlik etmə) – başda arxierey (yepiskop) olmaqla kilsə-inzibati dairə. Yeparxiya keşiş dairələrinə bölünüb bir neçə kilsəni birləşdirir.

**YEPİSKOP** (*yun.* episkopos, hərfi – nəzarətçi) – ən yüksək dini rütbə, xristian kilsələrinin çoxunda kilsə iyerarxiyasının ən yüksək mərhələsi. Erkən xristian icmalarında yepiskoplar icmanın mülkünə nəzarət edənlər kimi II əsrdən qeydə alınırdılar. II əsrin ortasından onlar formalaşmış kilsə aparatına başçılıq edirlər. Yepiskoplar arasında olan ən böyükləri və xüsusən hörmətliləri kilsə tərəfindən arxiyepiskop təyin olunurlar (bəzi kilsələrdə bunlardan başqa patriarxlar və mitropolitlər də var). Adətən yepiskoplar evlənməyib rahiblik edirlər (protestant kilsəsindən başqa).

**YESEVİ PAMFİL** (Yeusebius, təxm. 260-təxm. 340) – kilsə yazıçısı, Kesariya (Fələstin) yepiskopu. Yesevinin təxminən 325-ci ildə yazılmış 10 cildlik "Kilsə rəvayətləri" adlı əsas əsərində IV əsrə qədərki erkən xristianlığın tarixi haqqında qiymətli faktiki material verilir. O, əsərində erkən xristian müəlliflərindən çoxlu iqtibaslar verdiyi üçün bu əsərlər haqqında olan məlumatları qeyri-ixtiyari olaraq indiki oxucular üçün saxlamışdır.

**YEŞİBOT,** İyeşiva – yəhudi ruhanilərini (ravvinləri) hazırlayan məktəb. Öyrənilən əsas fənlər – Bibliya və Talmuddur.

**YƏCUC VƏ MƏCUC,** Tövratda Qoq və Maqoq – Kitabi Müqəddəsdə və İslami qiyamət mənasında əhəmiyyətli iki xalq.

**YƏHYA** – İsrail oğullarına göndərilən peyğəmbərlərdən biri. Atası Zəkəriyyə peyğəmbər, anası isə, Quranda adı çəkilən İmranın arvadının bacısı idi.

**YƏZİDLƏR** – iudaizmdən, xristianlıqdan və islamdan alınmalarla mürəkkəbləşmiş və məzhəbi zərdüştliyə gedib çıxan qapalı və kifayət qədər tədqiq olunmamış dini təriqət. Yəzd və Yəzdan adlı ilahilərlə bərabər yəzidlər şeytana ehtiram göstərərək onun tovuz quşu şəklində timsalına sitayiş edirlər. Bundan başqa yəzidlər günəşə, xüsusən onun doğan vaxtında sitayiş edirlər. Bəzi hallarda yəzidləri "şeytan pərəstişkarları" adlandırırlar, lakin özləri bu ada qətiyyən etiraz edirlər.

Yəzidlərin ərəb dilində yazılmış əfsanələri məzmunlu iki cildli "Müqəddəs kitabları" var. Başqa din tərəfdarları ilə

qonşu olmaları və təqib edilmələri Bibliyanı və Quranı da "Müqəddəs kitablar" kimi, İsa peyğəmbəri isə Allah kimi tanımağa məcbur etdi. Türkiyədə, İranda və İraqda yaşayan kürdlərin bir hissəsi yəziddir. Onların kiçik miqdarı Gürcüstanda, Ermənistanda və onunla həmsərhəd olan Azərbaycanın bəzi rayonlarında yaşayır. Yəzidlərin əsas ibadətgahı və ziyarət etdikləri yer İraqda, Mosuldan şimali-qərbdə olan Şeyx Adidə yerləşən sitayişxanələri və onun yanındakı müqəddəs quyudur (Yəzidləri iyəzidlərlə qarışdırmamalı).

**YOQA** (*sanskritcə* hərfən – birləşmə, yəni ruhun Allahla birləşməsi) – hind dini idealist nəzəriyyəsi (məktəbi). Yoqa fəlsəfəsinə görə, praktiki (maddi substansiya) və puruşa (mənəvi substansiya, şüur) haçansa müstəqil, bir-birindən asılı olmayaraq yaşayırdılar, lakin hələ çox qədimdə puruşa avidyuya (bilməməzlik, cəhalət) yol verdi və nəticədə maddənin buxovuna (qoşğusuna, boyunduruğuna) düşdü və elə o vaxtdan öz əvvəlki müstəqil vəziyyətinə qayıda bilmir. Yoqanın nəzəriyyəsinə görə insan şüurun və maddənin "qarışmasının" təsadüfi halıdır. İnsanın həyati məqsədini Yoqa ruhun maddə və bədənin boyunduruğundan xilas olmasında görür. Ruhun "azadolma" metodlarını təklif edən Yoqanın müxtəlif cərəyan və istiqamətlərindən ən çox şöhrət qazananları dördüdür, bunlar da bir-birini istisna yox, tamamlayırlar. Cnana-yoqa (dərketmənin metodu) təkid edir ki, bilməməzlik dağıldıqda bilik (yəni dini-fəlsəfə nəzəriyyəsi) mənimsənilən kimi ruh da azad olur. Karma-yoq (fəaliyyət yolu) "xilasolma" naminə insanın "fani" maraqlara bütünlüklə üstün gəlməsini tələb edir. Bhakti-yoqa "xilasolma"nı ilahiyə, ilahi absolyuta məhəbbətlə və sədaqətlə bağlayır. Raca-yoqa ruhun "xilasolma"sına yönələn etik, fiziki və psixik məşğələlərin metodlarının cəmini təmsil edir. Raca-yoqanın banisi hesab edilən Patancali (təxm. e.ə. I əsr) ruhun "xilasolma"sının mürəkkəb səkkiz pilləli yolunu işləyib. Yoqa nəzəriyyəsi tələb edir ki, insan sağlam, təmiz və təlim görmüş bədənə malik olmalıdır, bu da xatxa-yoqa sistemi ilə keçirilən məşqlərlə əldə edilir.

**YOM-KİPUR** (*qədim yəhudicə* pakolma günü, qiyamət günü, tövbə günü) – qədimdə yəhudilərin ovsunlu "günahların, azad buraxılan keçinin üzərinə" yüklənməsi mərasim bayramı (b a x: **Azael**). Sonralar mərasim dəyişdirilmişdi: kişi xoruz, qadın isə toyuq götürərək başları üstündə fırladır, dua oxuyur, sonra isə xoruzu da, toyuğu da öldürürdülər. Mərasimdə xoruzla toyuq insanı əvəz edərək, günahdan "təmizlənməyə" işarə verirdi. Guya bununla insana günahlardan təmizlənmiş uzun ömür və sakitlik təmin edilirdi. İudaizm öyrədirdi ki, Allah göylərdə yaşayanların hamısına bir az əvvəl, ilin birinci roş-qaşana günündə çıxarılmış hökmü ilə bir dəfə bu "pakolma günü"ndə təsdiq edir. Yom – kipur dualar və orucluqla müşayiət edilir.

**YUM DEVİD** (1711-1776) – İngilis filosofu, iqtisadçısı və tarixçisi, idealist. 1763-1766-cı illərdə Fransada qalarkən o, Fransa ateistləri D.Didro və K.Helvesi ilə dostluq edirdi. Dünyanın həqiqi

dərk olunmasına şübhə edərək, Yum öz şübhəsini Allaha da şamil edirdi. Kilsə ehkamlarını rədd edərək, o, dində qorxu və əsassız ümidlərlə bağlı olan xəyali məhsul görürdü. Dini əxlaqi pisləyərək o, etikanın utilitarist (tətbiqi) əsas görüşlərini belə əsaslandırırdı: əxlaqi yalnız insana faydalı olandır. Lakin Yum ateist deyildi, dinin xalq kütlələri arasında mühafizə olunub yayılmasının tərəfdarı idi və saflanmış təbii dinin yaranması, deizmin müdafiəsi uğrunda çıxış edirdi.

Yumun əsərlərindən "Təbii din haqqında dialoqlar"ı (1799), "Dinin təbii tarixi"ni (1755-1757) göstərmək olar.

**YUNONA** (İuno) – Qədim Roma dinində Yupiterin bacısı və arvadı, ilahilər arasında hökmran, səmalar ilahəsi. Yupiter və Minerva ilə birlikdə Yunona Roma dövlətini himayə edən ilahilər üçlüyünə daxil idi. Əvvəllər Yunona Ayın ilahəsi və qadınların hamisi sayılırdı. Nikahlanmalar və doğumlar onun himayəsi altında idi. Mart ayının birində Yunonanın şərəfinə qadınlar bayramı (matronaliya) təşkil edilirdi. Ərlər bu gündə arvadlarına hədiyyələr, qadınlar isə qullarına qonaqlıqlar verirdilər. Tədricən Yunona yunan ilahəsi Hera ilə eyniləşdirildi.

**YUNUS** – Peyğəmbərlərdən biri.

**YUPİTER**, İupiter – Qədim Roma dinində – səmavi işığın, yağışın və göy gurultusunun (ildırımsaçan) baş ilahisi, Roma dövlətinin mərkəzləşmiş panteonunun rəhbəri. Yupiter bütün dünyanın hakim və hökmdarı kimi təsvir edilirdi. E.ə. VI əsrdə Romada Kapitoli təpəsində Yupiter ibadətgahı tikilmişdi. Onun şərəfinə dövlət bayramları: sentyabrda Roma oyunları, noyabrda plebey və Kapitoli oyunları keçirilirdi. Yupiter yunan ilahisi Zevslə eyniləşdirilirdi.

**YUSUF,** Yusif – İsrail oğullarına göndərilmiş bir peyğəmbər. Yaqub peyğəmbərin Rahildən olan oğlu.

**YUŞA,** Yuşa ibn Nun – İsrail oğullarına göndərilmiş bir peyğəmbər. Yusif peyğəmbərin nəvələrindəndir.

# Z

**ZEND-AVESTA** – b a x: **Zərdüştilik.**

**ZEVS**, Zeves, Zaus (Roma Yupiteri ilə eyniləşdirilir) – Qədim Yunanıstanda ali ilahi, göyün, işığın, göy gurultusunun və ildırımın ilahisi. Olimp ilahilər panteonunun başçısı, bir sıra ilahilərin və qəhrəmanların atası. Zevs surətində yunan qəbilələrinin və xalqlarının ali ilahilər haqqında təsəvvürləri birləşdirilib. Zevs Kronosun və Reyanın (və ya Geyanın) oğlu hesab olunurdu və onu, anası öz uşaqlarını yeyən qarınqulu atasından xilas etmişdi. Yaşa dolmuş Zevs Kronosun və nəhənglərin hökmranlığını devirib, ilahilər və insanlar üzərində öz hakimiyyətini bərqərar etdi. Klassik dövrdə Zevs şəhərlərin və dövlət quruculuğunun hamisi sayılırdı. Onun əsas ibadətgahları Olimpiyada və Dodonada idi.

**ZEYDİLƏR** – VIII əsrin ortalarında feodal münaqişələri zəminində meydana gələn müsəlman şiə təriqəti. Onun banisi və birinci imamı Əlinin nəticəsi və Hüseynin nəvəsi Zeyd 740-cı ildə Əməvi xəlifəsinin əleyhinə üsyan qaldırıb və döyüşdə öldürülüb. Zeydilər dəfələrlə üsyanlar qaldırıb hakimiyyəti Əlinin nəslinə verməyi tələb edirdilər. 864-cü ildə Zeydilər İranın şimal-qərbində teokratik dövlət yaratdılar və bu dövlət XII əsrin ortalarına qədər həyat sürdü. X əsrin əvvəlində Zeydilər Yəmənin dağlıq hissəsində hakimiyyəti əllərinə aldılar və imamların sülaləsi 1962-ci ilə qədər davam etdi. Yəmənin əhalisinin yarıdan çoxu zeydilərdir. Zeydilərin nəzəriyyəsinə əvvəllər mötəzililər təsir göstərdi: onlar təqdiri qəbul etmir, Quranı isə əzəli hesab etməyərək Allah tərəfindən xəlq edilmiş kimi qəbul edirdilər. Öz ehkamlarına və mərasimlərinə görə zeydilər sünnülər və şiələr arasında orta mövqe tuturdular, şiələrin imami-qayıbına inanmır və müstəqil teokratik dövlətlərə başçılıq edən bir neçə eynivaxtlı imamların olmasını mümkün hesab edirdilər. Zeydilər müqəddəslər (b a x: **Vəli**) ayininin və sufiliyin əleyhinədirlər, aralarında dərvişlər də yoxdur. Bütün şiə təriqətlərindən sünnülərə ən yaxın olanlar zeydilərdir.

**ZEYNƏB** bint Cəhş, Riab əl-Əsədiyyə (592?-643?) – Peyğəmbərin yeddinci arvadı. Əsil adı Barra idi. Peyğəmbər evlənəndən sonra ona Zeynəb adı vermişdi.

**ZEYNƏB** bint Hüzeymə ibn əl-Haris əl-Hilaliyyə – Peyğəmbərin arvadlarından biri.

**ZEYNƏB** bint Məhəmməd – Peyğəmbərin ikinci uşağı və qızlarının ən böyüyü, anası Xədicə bint Xüveyliddir.

**ZƏBANİ** – cəhənnəmdə vəzifəli bir mələk.

**ZƏBUR** – Davud peyğəmbərə nazil olan kitab.

**ZƏKAT** (*ər.* – "təmizlik") – müsəlmanlardan alınan, Quranla rəsmiləşdirilmiş, toplanılma qaydası və həcmi

şəriətlə müəyyən edilmiş vergi. Zəkat islamın beş rüknlərindən biri hesab olunur. Xristianlıqda onun qarşılığı desyatindir. Müsəlman Şərqinin dövlətlərində zəkatın ödənilməsi hər bir mülkü olan müsəlman tərəfindən mütləq idi, lakin əkinçilər üçün zəkat daha ağır vergiyə – üşrə çevrilirdi. Müasir dövrdə zəkat müsəlman dini xadimlərinin xeyrinə alınan "könüllü vergiyə" çevrilmişdir.

**ZƏKƏRİYYƏ** – İsrail oğullarına göndərilmiş son peyğəmbərlərdən biri. Yəhya peyğəmbərin atası.

**ZƏQQUM** – cəhənnəmdə bir ağacın adıdır. Quranın 17, 37, 44 və 56-cı surələrində adı çəkilir.

**ZƏLZƏLƏ** – Quran surəsinin adıdır.

**ZƏMZƏM** – Məkkədə müqəddəs quyunun adı. Buna İsmayıl quyusu da deyirlər.

**ZƏRDÜŞT,** yunanca Zoroastr – zərdüştliyin yarıməfsanəvi banisi. Onun həyatı haqqında müəyyən xəbərlərə malik deyilik. Bir ehtimala görə e.ə. 6-7 minilliklərdə, başqalarına görə e.ə. VI əsrdə yaşayıb və Qədim İran şahı I Daranın müasiri idi. Əfsanələrə görə Zərdüşt, ildırımdan ölən və I Daranın atası ilə eyniləşdirilən Baktriya çarı Viştaspunu yeni dinə döndərib. Zərdüştün real şəxs olmasına heç bir sübut yoxdur.

**ZƏRDÜŞTİLİK, PARSİZM** ("pars" – fars etnik terminindən) – ola bilsin Orta Asiyada əmələ gəlmiş və e.ə. I minillikdə İranda yayılmış din. Zərdüştilik öz adını bu dinin banisi hesab edilən yarıməfsanəvi Zərdüşt adlı peyğəmbərdən götürüb. Dinin nəzəriyyəsi Zend-Avestada (hərfi – "şərhli mətn" izah olunur. Həmin kitabın ən qədim hissələrində – "Qata"larda – ibtidaiicma quruluşu ənənələrinin təsiri hiss olunur, bu da özünü xüsusilə əməyin tərənnümündə göstərir. Zərdüştiliyin əsas əlaməti dualizmdir – iki ilahi başlanğıcı qəbul edilir: bir-biriylə mübarizə aparan xeyirli ilahi Axuramazda (Mazda, yunanca Ormuzd, Oromaz) və şərli ilahi Anhra-Maynyu (Ariman). Axuramazda əkinçiliyin, oturaq həyatın, ev heyvanlarının, xüsusən inəklərin və itlərin hamisidir, Anhra-Maynyu isə əkinçilərə basqınlar edən davakar köçərilərin köməkçisi və vəhşi heyvanların hamisidir. Zərdüştiliyin nəzəriyyəsinə görə gələcəkdə Axuramazda Anhra-Maynyu üzərində qələbə çalıb bütün bəşəriyyəti birləşdirəcək, vahid dil və vahid dövlət idarəçiliyi yaradacaq. Zərdüştilik ayinində oda xüsusi əhəmiyyət verilir. "Saflaşdıran qüvvə" kimi onun adına səcdəgahlar, sonralar isə atəşgahlar quruldu. Zərdüştilik ölülərin dəfn edilməsini və yandırılmasını qadağan edir (çünki bunlar torpağın və odun murdar edilməsi deməkdir), ölülər yüksək dağlara aparılmalı və orada onları quşlar və heyvanlar yeməlidirlər. Zərdüştilik ruhun və axirətin varlığını qəbul edir. Dinin təliminə görə axirət dünyasının keşikçisi Sraoşa möminləri günahlılardan ayırıb, birinciləri dar körpü ilə xoşbəxtlər səltənətinə göndərir, ikinciləri isə odla "təmizlənmək" üçün cəhənnəmə vasil edir. Zərdüştilikdə dini ayinləri çoxmiqdarlı kahinlər idarə edirdilər. Əsrlər boyu dəyişməyən ictimai şəraitlərdən asılı olaraq Zərdüştilik öz mahiyyətini dəyişdirdi. Parfiya Arşakilərinin

və Sasanilərin vaxtında Zərdüştilik dövlət dini idi. Burada mühüm dərəcədə zərdüştiliklə mazdeizmin arasındakı fərq yox olurdu. Zərdüştilik quldarlıq quruluşunun və müstəbid şah hakimiyyətinin dayağı idi. VII əsrin ortalarından, ərəb fütuhatından sonra islam hakim dinə çevriləndən sonra zərdüştilər təqib olunub məhv edilirdilər. Uzun təqiblərdən sonra onlar özlərinə əsasən Hindistanda sığınacaq tapdılar. Müasir dövrdə Bombeydə və onun ətraflarında Zərdüştilik ayinlərinin qaydalarını saxlayan və Zend-Avestaya ehtiram edən parslar icması var. Onlar ölülərini dəfn etməyib, "sükut bürclərinin" damlarına çıxarır, burada da meyitləri quşlar didib dağıdır, yeyirdilər. Hindistanda yaşayan parslar əsasən ticarətlə məşğuldurlar. İranda bunların qalıqları kəbr adlanır.

**ZINDIQ** – islam cəza hüququnda istilah olub. Küfrü bildirən inanclara malik olduğu halda müsəlman görünən kimsə.

**ZİYANİYYƏ** – Şəzliyyə təriqətinin bir qolu.

**ZOOLATRİYA,** animalizm (*yun.* zoon – "heyvan", latrena – "xidmət etmə" və *lat.* animal – "heyvan") – heyvanlara pərəstiş ilə bağlı olan ayin və inamlar. Zoolatriyanın kökləri, ən qədim dövrün ibtidai ovçularının onun müvəffəqiyyətli nəticələnməsini istəməsi və öz həyatlarının yırtıcı heyvanlardan qorunması üçün sehrli vasitələrə əl atmaları ilə bağlıdır. (Palertik mağaralarda olan rəsmlər buna sübutdur). Zoolatriyanın mənbələri çox halda totemizmlə bağlıdır. Onun ən çox tarixi və etnoqrafik nümunələri Şimali Asiyada və Şimali Amerikada (ayıya pərəstiş), Cənubi və Cənub-Şərqi Asiyada (pələngə pərəstiş), Afrikada (bəbirə pərəstiş), orta əsr Avropasında (canavara pərəstiş) vardır. Zoolatriya ən çox Qədim Misirdə inkişaf etmişdir və burada o, totemik mənşəli idi: hər bir qəbilə (sonralar vilayət – nom) öz hamisi olan heyvana pərəstiş edirdi. Bəzi ölkələrdə zoolatriya bu günə qədər özünü göstərir (məs., Hindistanda inəyə, ilana və meymuna pərəstiş).

# KİTABIN SÖZLÜYÜ


A

Abbas
Abbat
Abbatlıq
Abdəst
Abdo Məhəmməd
Abdullah ibn Abd əl-Müttəlib
Abdullah ibn Cəhş
Abdullah ibn əl-Abbas
Abhidamma-Pitaka
Adəm (*islamda*)
Adəm (*qədim yəhudicə*)
Adəmilər
Adiqrantx
Adonay
Adonis
Adventistlər
Afina
Afrodita
Ağaxan
Aximsa
Axır
Axund
Axund ağa Əlizadə
Axundzadə Mirzə Fətəli
Axuramazda
Aid
Aişə
Akafist
Aqil ibn Əbu Talib
Aqioqrafiya
Aqni
Alban (Qafqaz) kilsəsi
Albiqoylar
Aleksandriya (İskəndəriyyə) kilsəsi
Allah
Allen İten
Amaterasu
Ambroziya
Amenxotep IV
Amidaizm
Amin
Amitaba
Amon
Amulet
Amur
Anabaptistlər
Anaksaqor
Anaksimandr
Anat
Anhra-Maynyu
Animalizm
Animizm
Anqlikan kilsəsi
Antioxiya kilsəsi
Antipapa
Anu
Anubis
Apis
Apollon
Apologetlər
Apostol qardaşlığı
Apostollar
Ares, Arey
Arxat
Arximandrit
Arxiyerey
Arianlıq
Ariman
Aristotel

Artemida
Arya Samac
Asiyə
Asklepi
Aslar
Astarta
Astral ayinlər
Aşoka
Aşşur
Aşura
Ateizm
Atomistika
Aton
Attis
Auspisiya
Autodafe
Avatara
Avesta
Avinyon əsarəti
Avqurlar
Avqustin Avreli
Avrora
Avtokefallıq
Avtonomiya
Ayə
Ayətullah
Azael, Azazel
Azan
Azlar

B

Ba
Babizm
Badi
Baptistlər
Bartold V.V.
Basit
Bauer Bruno
Bayramiyyə
Bektaşilər
Beqqardlar
Bellona
Benediktçilər
Beş kitab
Bədr
Bəhailik
Bələd
Bəlkis
Bəyyinə
Bəyyumiyə
Bhakti
"Bhaqavadgita"
Bibiheybət şeyxləri
Bibliya
Bidət
Bilal ibn Rabah
Biruni
Bişr ibn əl-Bari
Bodisatva
Bohemiya qardaşları
Bokkaçço C.
Boqdo Qogen
Boqoraz V.G.
Bolqar pravoslav kilsəsi
Bolonya konkordatı
Bonza
Brahma
Brahman
Brahmanizm
Bramin
Breşialı Arnold
Bruno Cordano
Buber Martin
Budda
Buddizm
Buxari
Bulla
Burak
Büt

C

Cabbarilər
Caqqernaut
Can
Catakalar
Caynizm
Cədidizm
Cəfər ibn Əbu Talib
Cəfər ibn Məhəmməd
Cəhad
Cəhənnəm və cənnət
Cin

Ç

Çurinqa

D

Dai
Daqoba
Dalay-lama
Daniyal
Darakutni
Darimi
Darussalam
Daud
David
Deizm
Dekretaliyalar
Demetra
Dev
Devadatta
Dəccəl
Dəhriyə
Dərviş
Diana
Diaspora
"Didaxe"
Dionis
Dirilmə
Dissidentlər
Diyət
Druzlar
Düldül
Dzen
Dzimmu-tenno
Dzindzya

E

Ea
Edem
Ekzarx
Elflər
Elizium
Elohim
Enlil
Epikür
Erinilər
Erlik-xan
Erot
Eskulap
Essenlər
Eşmun

Ə

Əbdülmüttalib
Əblülkisa
Əbu Ləhəb
Əbu Talib
Əbu Turab
Əbu Übeydə
Əbu-Həfs

Əbülxəttab
Əbülməali
Əhdi-Cədid
Əhdi-Ətiq
Əhlülbeyt
Əhməd
Əhmədiyyə
Əxsai Əhməd
Əl-Əzhər
Əli ibn Əbu Talib
Əli ibn əl-Hüseyn
Əli övladı
Əli Riza
Əminə
Əminə, Aminə
Əmirəlmöminin
Əmirəlmüslimin
Ənam
Ənbiya
Ənfal
Ənsar
Əsas
Əshab
Əsma
Əşrəfiyyə
Əvvəl
Əyyub

F

Fakih
Fariseylər
Fatihə
Fatimə
Favn
Feb
Femida
Finikiya dini
Flora
Fortuna
Freyya
Friqq
Furiyalar

G

Geya
Gəbr
Gigiyena
Gülşəni

H

Habil və Qabil
Hacı
Haqada
Haram
Harraz
Harun
Harut və Marut
Havariyun
Heba
Helios
Hera
Herma
Hermes
Heydər
Heyz
Həbib ən-Nəccar
Həcc
Hədəs
Hədis
Həfsə
Həlimə
Həllac

Həmzə
Hənəfilər
Hənif
Hənifilik
Həririyyə
Həsən ibn Əli
Həsən ibn Zeyd ibn Həsən
Həsən ibn Zeyd ibn Məhəmməd
Həsəni
Həssən
Həşşaşinlər
"Həvarilərin işləri"
Həvva
Hicrət
Himeney
Hirə
Hospitalyerlər
Hurilər
Hus Yan
Hülmaniyyə
Hürufilik
Hüseyn
Hüseyni

X

Xaricilər
Xədicə
Xəlifə
Xəttabiyə
Xinayana
Xnum
Xomeyni
Xristianlıq
Xubilqan
Xurde
Xutba
Xürrəmilik

İ

İbadət
İbadiyyə
İblis
İbn Ezra
İbn Rüşd
İbrahim
İbrahim ibn Abdullah
İd əl-Ədha
İd əl-Fitr
İddət
İdris
İhram
İxvan əs-səfa
İisus Navin
İkona
İqbal Məhəmməd
İlyas
İmam
İmamət
İmamilər
İmamzadə
İman
İmran
İncillər
İndra
İnduizm
İnkvizisiya
İntiçiuma
İnvestitura
İosif Flavi
İsayya
İshaq
İsida
İsidorun yalançı dekretaliyaları
İslam
İsmail
İsmaililər
İsnə Əşəriyyə

İsrafil
İsrail
İstixarə
İşan
İşrakiyyun
İştar
İuda İskariot
İudaizm
İyeqova
İyezidlər
İyezuitlər
İzida

## K

Ka
Kabbala
Kafir
Kahinlik
Kaqal
Kalvin Jan
Kalvinizm
Kant İ.
Karaimlər
Kardinal
Kardinallar kollegiyası
Karmelitlər
Kartezian
Kasta
Kazeruni
Kazimeyn
Kəb ibn əl-Əşrəf
Kəbə
Kəbir
Kəbirlər
Kəfarət
Kəhf
Kəlam
Kərbəla
Kərim
Kərramiyyə
Kisvə
Kliment
Koqen
Konklav
Konkordat
Konstantin hədiyyəsi
Kovsər
Krişna
Kronos
Ksenofan
Kupidon
Küfr
Küre

## Q

Qabiz
Qadir
Qadiriyyə
Qaffar
Qafur
Qalaxa
Qara müsəlmanlar
Qarun
Qautama
Qazali
Qazi
Qeb
Qemara
Qeyb
Qədəmi-şərif
Qədərilər
Qələm
Qələndəriyyə
Qənimət
Qərmətilər
Qəyyum

Qismət
Qiyamət
Qnomlar
Qolqofa
Qor
Qrossmeyster
Quqenotlar
Qum
Quran
Qurban bayramı
Quru

L

Lama
Lamaizm
Larlar
Lat
Latona
Leqat
Leto
Levit
Lilit
Loğman
Loqos
Lövh
Lut
Lüter Martin
Lüteranlıq

M

Ma
Mahabharata
Maidə
Maqlar
Malik
Mana
Mandeilər
Mani
Manilik
Mara
Marabutlar
Marduk
Mariyə
Maronitlər
Mars
Masonluq
Masoretlər
Mayya
Mazdeizm
Mehdi
Mehrab
Merac
Merkuri
Meymunə
Meytə
Mədinə
Mədrəsə
Məhəmməd Əhməd
Məhəmməd ibn Abdullah
Məhəmməd ibn əl-Hənəfiyyə
Məhəmməd ibn Əli
Məhəmməd ibn Əli ər-Riza
Məhəmməd peyğəmbər
Məhəmmədiyyə
Məhərrəm
Məlakələr
Mənat
Məryəm
Məscid
Məscidi-Əqsa
Məscidi-Haram
Məşhəd
Məzdək
Məzhəb
Midraş
Mikail
Millət

Min
Minarə
Minbər
Minerva
Mir Məhəmməd Kərim
Mişna
Mitra
Mormonlar
Moyralar
Mötəzilə
Musa
Musa əl-Kazim
Muza
Mücadilə
Müdəssir
Müəzzin
Mühacirlər
Mühəssin
Müqəddəslər
Mülk
Müminun
Mümtəhinə
Münciyyə
Münkar və Nəkir
Mürid
Mürsəlat
Mürtəd
Müseylimə
Müslim
Müslim ibn Aqil
Müzdəlifə
Müzəmmil

N

Nabu
Nafi
Nafilə
Namaz
Nanak
Neftida
Nemezida
Nereidalar
Nəbi
Nəbilər
Nəcəf
NəcməddiniKübra
Nəfisə
"Nəğmələr nəğməsi"
Nəhl
Nəml
Nəmrud
Nəsr
Nəsturilər
Nəziət
Nike
Nimfalar
Nirvana
Nisa
Niyyət
Nuh
Nurbəxşiyyə
Nuri-Məhəmmədi
Nüseyrilər

O

Odin
Olimp
"Opus dei"
Orakul
Origen
Oruc
Osiris

Ö

Ölülər kitabı

## P


"Paks Romana"
Pali qanunu
Pan
Pançen-Ertni
Panteizm
Papa
Papa Elmlər Akademiyası
Papa vilayəti
Papalıq
Parkalar
Parsizm
Pasxa
Pastor
Pater
Patriarx
Patristika
Patrologiya
Pavel
Penatlar
Persefona
Perun
Petrarka F.
Pifiya
Pir
Pişnamazzadə H.A.
Pluton
Pontifikat
Poseydon
Pravoslavlıq
Prelat
Presviter
Prıqunlar
Primas
Prometey
Protestantlıq
Prozerpina
Psalom
Pta, Ptax
Puritanlar
Pyotr


## R


Ra
Rafizilər
Rahil
Rama
"Ramayana"
Ramazan
Rammohan R.
Ravvin
Reformasiya
Reformatlar
Rəcəb
Rəhmaniyyə
Rəsul
Roma
Roş-Haşana
Rudra
Ruh
Ruqayyə


## S


Saadiya Qaon
Sabinlər
Sad
Sadukeylər
Sakya-Muni
Salat
Saleh
Sancaği-Şərif
Saturn
Saturnaliyalar
Savaof

Sebek
Selena
Septuaqinta
Set
Sevda
Seyyid
Seyyid Yəhya
Səbbih
Səbil
Səbiyyə
Sədəqə
Səfiyə
Səlib yürüşləri
Səlman Pak
Səlsəbil
Sənəm
Sidhartha Qautama
Sillon
Silvan
Sin
Sinaqoqa
Sinedrion
Sinod
Sintoizm
Sion
Sionizm
Sirenalar
Sirə
Sivillalar
Soxmet
Stiks
Stupa
Sufilik
Sukkot
Surə
Sutra
Sutta-Nipata
Sutta-Pitaka
Sübhanallah
Sührəvərdi Əbdülqadir
Sührəvərdi Şihabəddin
Sührəvərdi Şihabəddin Əbdülfütuh
Sükeynə
Süleyman
Sünnə
Sünnilik

## Ş

Şabuot
Şafei
Şakti
Şamanizm
Şamaş
Şan-di
Şeyx
Şeyxilər
Şeyxülislam
Şeytan
Şəhadət
Şərh
Şəriət
Şəttariyyə
Şiəlik
Şirk
Şis
Şiva
Şu
Şurat
Şüeyb
Şüubiyyə

## T

Tabu
Ta-ha
Talmud

Talmud-Tora
Talut
Tammuz
Tampliyerlər
Tanit
Tannaylar
Tanrı
Tartar
Tathaqata
Tausi
Tavaf
Tevtonlar ordeni
Təfsir
Təkkə
Tənasuh
Təravih
Təriqət
Təsəvvüf
Təşəhhüd
Təşriq
Təyəmmüm
Tiamat
Tir
Tişup
Titanlar
Tor
Tot
Trimurta
Tripitaki
Triton
Tserera
Tufan

U

Uhud
Uşmuil
Uzza

Ü

Üqaysir
Ümmət
Ümmulkitab
Ümmü Gülsüm
Ümumdünya kilsə məclisləri
Üzeyr

V

Vaal
Vakx
Vakxanaliya
Vaqiə
Valdenslər
Vanini C.Ç.
Vanlar
Varfolomey gecəsi
Varna
Varuna
Vasil
Vatikan
Vatikan məclisləri
Vedalar
Vedanta
Vedi dini
Veles
Vellhauzen Y.
Venera
Vesta
Vezali Andreas
Vəhhabilik
Vəhy
Vəkil
Vəqf
Vəli
Vixara
Viktoriya

Vipper R.Y.
Vird
Vişnu
Vitr
Volter
Vulkan
Vulqata
Vüquf

Y

Yafəs
Yaxve
Yaqub
Yaqve
Yanus
Yeparxiya
Yepiskop
Yesevi Pamfil
Yeşibot
Yəcuc və Məcuc
Yəhya
Yəzidlər
Yoqa
Yom-Kipur
Yum Devid
Yunona
Yunus
Yupiter
Yusuf
Yuşa

Z

Zend-Avesta
Zevs
Zeydilər
Zeynəb bint Cəhş
Zeynəb bint Hüzeymə
Zeynəb bint Məhəmməd
Zəbani
Zəbur
Zəkat
Zəkəriyyə
Zəqqum
Zəlzələ
Zəmzəm
Zərdüşt
Zərdüştilik
Zındıq
Ziyaniyyə
Zoolatriya

## MÜNDƏRİCAT

*Ön söz* ........ 5

A ........ 7
B ........ 45
C ........ 61
Ç ........ 63
D ........ 64
E ........ 72
Ə ........ 74
F ........ 88
G ........ 90
H ........ 92
X ........ 115
İ ........ 120
K ........ 140
Q ........ 148
L ........ 160
M ........ 165
N ........ 210
O ........ 219
Ö ........ 222
P ........ 223
R ........ 232
S ........ 236
Ş ........ 249
T ........ 260
U ........ 290
Ü ........ 292
V ........ 299
Y ........ 315
Z ........ 319

*Kitabın sözlüyü* ........ 322

| | |
|---|---|
| Buraxılışa məsul: | *Əziz Güləliyev* |
| Texniki redaktor: | *Rövşən Ağayev* |
| Kompyuter səhifələyicisi: | *Aslan Almasov* |
| Korrektorlar: | *Fərida Səmədova*<br>*Elnaz Xəlilqızı* |

Yığılmağa verilmişdir 14.11.2006. Çapa imzalanmışdır 02.02.2007.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 21. Ofset çap üsulu.
Tirajı 25000. Sifariş 19.

DÜST 5773-90, DÜST 4.482-87

CBS POLYGRAPHIC PRODUCTION
Tel/Fax: 447 75 04, Tel.: 447 75 05

Kitab "CBS-PP" MMC mətbəəsində çap olunmuşdur.
Bakı, Şərifzadə küçəsi, 3.

Azərbaycan Respublikasının Prezidenti
**İlham Əliyevin**
"Azərbaycan dilində latın qrafikası ilə
kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"
12 yanvar 2004-cü il
tarixli sərəncamı ilə nəşr olunur.